# AZƏRBAYCAN DRAMATURGİYASI ANTOLOGİYASI

DÖRD CİLDDƏ

II CİLD

“ŞƏRQ-QƏRB”
BAKI
2007

Tərtib edəni və
bioqrafiyaların müəllifi: **Dilarə Məmmədova**

**ISBN 978-9952-34-132-4**

**894.361'2'008-dc22**
Azərbaycan dramaturgiyası

**Azərbaycan dramaturgiyası antologiyası.** Dörd clldə. II cild.
Bakı, "Şərq-Qərb", 2007, 512 səh.

Bu cildə Azərbaycan dramaturgiyasının nümayəndələrindən Səməd Vurğun, Məcid Şamxalov, Mehdi Hüseyn, Sabit Rəhman, İlyas Əfəndiyev, Seyfəddin Dağlı, Şıxəli Qurbanov və Nəbi Xəzrinin əsərləri daxil edilmişdir.

© "Şərq-Qərb", 2007

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
“**Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında**”
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# AZƏRBAYCAN DRAMATURGİYASI

Səməd Vurğun

Məcid Şamxalov

Mehdi Hüseyn

Sabit Rəhman

İlyas Əfəndiyev

Seyfəddin Dağlı

Şıxəli Qurbanov

Nəbi Xəzri

# SƏMƏD VURĞUN

(1906-1956)

*Vəkilov Səməd Yusif oğlu – şair, dramaturq, tərcüməçi, tənqidçi, ədəbiyyatşünas, publisist, ictimai xadim. Azərbaycanın Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olmuşdur. Qazaxda ibtidai məktəbi bitirib, orada seminariyaya daxil olmuş, təhsilini başa vurandan sonra komsomol işlərində işləmişdir. Quba və Gəncə məktəblərində müəllimlik etmişdir* (*1924-1929*).

"*Qızıl qələm*" *ədəbiyyat cəmiyyətinin Gəncə bölməsində fəal çalışmış, şeirləri mətbuatda dərc olunmuşdur. Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsində* (*1929-1931*) *təhsil almış, lakin təhsilini axıradək davam etdirə bilməmiş, Bakıya qayıtmışdır. Azərbaycan Pedaqoji İnstitutunda ali təhsilini davam etdirmiş, sonra isə institutun aspiranturasında oxumuşdur.*

"*Vaqif*" (*1937*), "*Xanlar*" (*1939*), "*Fərhad və Şirin*" (*1942*), "*İnsan*" (*1945*) *mənzum pyeslərini yazmışdır. Müharibə illərində* (*1941-1945*) *tez-tez ön cəbhədə döyüşçülər arasında olub, onlarla görüşürdü. 45-dən çox bədii kitabın müəllifidir.*

*Rus və fars dillərindən Azərbaycan dilinə tərcümələr* (*N.Gəncəvi, A.Puşkin, Ş.Rustaveli, A.Çirbaş*) *etmişdir.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvü* (*1934*), *SSRİ Dövlət Mükafatı laureatı* (*iki dəfə, 1941, 1942*), *Azərbaycan EA-nın həqiqi üzvü* (*1945*), *Əməkdar İncəsənət xadimi* (*1943*), *filologiya elmləri fəxri doktoru* (*1956*), *Azərbaycanın xalq şairi* (*1956*), "*Lenin*" *ordeni* (*iki dəfə*) *və* "*Qırmızı Əmək bayrağı*", "*Şərəf nişanı*" *ordenləri və bir çox medallarla təltif olunmuşdur.*

*Azərbaycan EA-nın prezidentinin müavini, Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri seçilmişdir. SSRİ nümayəndə heyəti tərkibində bir çox Avropa ölkələrində olmuşdur.*

# VAQİF

*5 pərdəli, 11 şəkilli mənzum dram*

İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| Vaqif | – XVIII əsrin məşhur Azərbaycan şairi |
| Ağa Məhəmməd şah Qacar | – İran hökmdarı |
| Vidadi | – Vaqifin həməsri və yaxın şair dostu |
| İbrahim xan | – Qarabağ xanı |
| Eldar | – xanlıq zülmü və Qacar basqını əleyhinə üsyan qaldırmış kəndlilərin başçısı |
| Kürd Musa<br>Arşak | – Eldarın dəstəsindən |
| Xuraman | – Vaqifin arvadı |
| Əli bəy | – Vaqifin oğlu |
| Gülnar | – Əli bəyin sevgilisi |
| Əminə | – Gülnarın anası |
| Tükəzban | – Vidadinin arvadı |
| Vəzir | – Qacarın vəziri |
| Təlxək | – İbrahim xanın təlxəyi |
| Şaliko<br>Tamara<br>Kiçik gürcü | – Qacar tərəfindən əsir alınmış gürcülər |
| Şeyx Alı | – Qarabağ şeyxi |
| İlyas | – Eldarın dəstəsinə soxulmuş casus |
| Sərkərdə | – Qacar qoşunlarının sərkərdəsi |
| Zülfüqar<br>Teymur | – Qacarın əleyhdarlarından |
| Əhməd kişi<br>Qurban kişi | – kəndlilər |
| Qasım<br>Murad | – çobanlar |

Kəndlilər, qaçaqlar, əsgərlər, elçilər və b.

# BİRİNCİ PƏRDƏ

## BİRİNCİ ŞƏKİL

XVIII əsr. Azərbaycan, Qazax mahalı. Vidadinin evi. Arxa tərəfdə Kür çayı şırıl-şırıl axır. Qürub zamanıdır. Vidadi tək ağac altında namaz qılır. Namazın arasında əllərini göyə qaldırıb, titrək və təsirli bir səslə.

V i d a d i

Xudaya! İnsanın halı yamandır,
Nələr çəkdiyimiz sənə əyandır,
Mənası varmıdır min təriqətin?
Aç... aç qapısını sən həqiqətin.
Nə olur, bir yeni işıq ver bizə,
Bizim kor yaranmış gözlərimizə –
Bəlkə də yaxşını seçək yamandan,
Ta ki, qansız keçən bir güzərandan
Biz də ilham alaq, sevinək barı!
İşıqlat bu dibsiz qaranlıqları...
Yazıqdır dünyanın əşrəfi insan,
Böyüksən, adilsən, keç günahından!
Qoyma ki, yerlərdə sürünsün bəşər,
Dünyada qalmasın nə pislik, nə şər.
Yaxşılıq insana bir sənət olsun,
Dünya başdan-başa bir cənnət olsun...

T ü k ə z b a n

Yenə namaz üstə şeir deyirsən!

V i d a d i

Sən də təzə-təzə qəlbə dəyirsən...

T ü k ə z b a n

Yox, yox... Vidadican, bağışla məni,
Könüldən sevirəm hər bir kəlməni.
Otuz il gördüyüm bu yoxsul ocaq,

Bir qonaq görməmiş bu səssiz bucaq,
Sənin ayaqların dəydiyi zaman,
Mənə cənnət kimi görünür, inan!

V i d a d i

Gəl, gəl, yaxın otur, vəfalı qarım,
Səndə yuva salmış ilk arzularım;
Dünyanın dərdini, qəmini hər an
Mənə bir baxışla unutdurursan.

T ü k ə z b a n

Bizə çox görməsin Yaradan bunu,
Mən sənə borcluyam ömrüm uzunu.

V i d a d i

Tükəzban! Azaldı gəlib-gedənlər,
Vaqifdən gəlməyir təzə bir xəbər.
Of... O, Qarabağa köçəndən bəri
Gödəlir ömrümün bu son günləri...
Onsuz günü-gündən çoxalır qəmim,
Oydu bu yerlərdə könül həmdəmim.

T ü k ə z b a n

Vidadi! Darıxma, bizdə məsəl var:
Bir yandan bağlayan, bir yandan açar.

Qapı döyülür.

V i d a d i

Buyurun!

İki nəfər elçi gəlir.

B i r i n c i  e l ç i

Sizsiniz Vidadi şair?

V i d a d i

Bəli, qulluğunuz bəndəyə dair?

B i r i n c i  e l ç i

Gəncədən gəlmişik, qonağıq sizə...

T ü k ə z b a n

Bizim yoxsul olan bu evimizə
Siz xoş gəlmişsiniz!

V i d a d i

Gəlin, qardaşlar!
Allah qonağının öz qisməti var.

Elçilər əyləşirlər. Tükəzban qarı aftafanı sacayağının üstünə qoyub çay hazırlayır.

V i d a d i

Yaxşı, hardansınız, kimlərdənsiniz?

B i r i n c i  e l ç i

Şair, Cavad xanın adamıyıq biz,
Xoş xəbər gətirib gəlmişik sizə.

V i d a d i

Vaqifdən?

B i r i n c i  e l ç i

Yox, Vaqif Qarabağdadır,
Siz ki bilirsiniz, o uzaqdadır.

V i d a d i

Bəli, uzaqdadır, həsrəti çoxdur...
Ancaq sədaqətin mənzili yoxdur.
Yaxşı, bir danışın, buyurun, görək!

B i r i n c i  e l ç i

Yoxdur bu torpaqda şair sizin tək,
Gözəl sözləriniz düşüb dillərə,
Sizi çox görməsin Tanrı ellərə.

V i d a d i

Yox... yox... Hüsni-kəlam Vaqifdə vardır,
Hər sözü ölməyən bir yadigardır.
Belimi sındırıb onun həsrəti.

B i r i n c i  e l ç i

Bizim xan çox sevir şeri, sənəti,
Sizin yanınıza göndərdi bizi,
İstəyir saraya gəlməyinizi.

V i d a d i

Necə?

B i r i n c i  e l ç i

Xan deyir ki, Vidadi gəlsin,
Sarayda yaşasın, burda yüksəlsin.
Eviniz hazırdır bir bağ içində,
Eyvanı yamyaşıl yarpaq içində;
Bilməyəcəksiniz nə dərd, nə zillət,
Aşıb-daşacaqdır sizinçün dövlət.
Sizi vəzirliyə dəvət edir xan.

V i d a d i

Oğul, mən azadam başdan, binadan.
Bir də, alışmışam bizim çöllərə,
Könlümdən ayrılmaz bu dağ, bu dərə.
Məndən nə şah olar, nə də xan olar,
Gəlsəm də, xan özü peşiman olar.

İ k i n c i e l ç i

Canım, bir düşünün, bu səadətdir...
Bu tərki-dünyalıq yaman adətdir.
Qanadlı bir quşdur fürsət əzəldən,
Qaçar, buraxmayın siz onu əldən!

V i d a d i
(*bir növ başdan eləmək məqsədi ilə*)

Deyin ki, xəstəyəm, yoxdur qüvvətim,
Yoxdur o əvvəlki sözüm, söhbətim.
Bu gün-sabahlığam, günlər tez keçir,
Mənim də karvanım yığışıb köçür.

İ k i n c i e l ç i

Demək... baş tutmadı xanın arzusu?
Sizdən gözlənilməz bir cavabdır bu.
Canım, bu ac evdən nə tapmısan sən,
Niyə buraxırsan kefi əlindən?

V i d a d i

Burda olmasa da saray havası,
İstidir hər quşun doğma yuvası.
Kasıb komacığım özümə yetər,
Burda yazılmışdır yüzlərlə əsər.

B i r i n c i  e l ç i

Bəxtinizdən küsün...

V i d a d i

Yox, yox... mən şadam,
Burda hər qayğıdan, dərddən azadam.

İ k i n c i  e l ç i

Gəl gedək, gəl gedək, bu ki dəlidir.

B i r i n c i  e l ç i

Gəl gedək, doğrudan, bu gülməlidir.

V i d a d i

Qalın, gecələyin, evimiz vardır!

B i r i n c i  e l ç i
(*rişxəndlə*)

Sizə darlıq olar, daxmanız dardır...

V i d a d i

Ürək geniş olsun!

B i r i n c i  e l ç i

Gözünüz görsə də odlar, alovlar,
Sizə şirin gəlir xəyalplovlar.

İ k i n c i  e l ç i

Di salamat qalın!

Elçilər gedirlər.

V i d a d i

Gedin! Yanılmışdır sizi göndərən,
Başqa bir aləmin qonağıyam mən!
Bu fani dünyanın kefi, ləzzəti
Axırda yaradır könül möhnəti.
Gedin, aldadammaz məni saraylar!
Burda həmdəmimdir ulduzlar, aylar,
Burda gecələrin qərib səsi var.
Könlümün incə bir kəmənçəsi var...
Ona toxunmasın o soyuq əllər,
Mənim sarayımdır yüksək əməllər!..

T ü k ə z b a n

Vidadi, nə dedin! Lap ürəyimdən!
Ömür sürməmisən qoltuqlarda sən.
Belə cavab verən dilin var olsun!
Yurdunu atana dünya dar olsun!

V i d a d i

Tükəzban! O saray qan ocağıdır,
Onun hər vüsalı hicran dağıdır.
Bir düşün Vaqifi, daima gülən,
Daima şadlanan o böyük hünər
Bəzən taleyindən şikayət yazır;
Səbəb? – Saraylardır...

Arxadan səs gəlir.

V a q i f

Ay ev yiyəsi!

T ü k ə z b a n

Aman! Bu olmasın Vaqifin səsi?

Vidadi

Deyəsən özüdür.

Bir nəfər kəndli tələsik içəri girir.

Kəndli

Vidadi! Vidadi! Gözlərin aydın!
Vaqif qonaq gəlir...

Vaqif bir bölük kəndli ilə daxil olur. Vidadi Vaqifi görən kimi özünü onun üstünə salır, qucaqlaşıb öpüşürlər.

Vidadi

Canım! Ciyərim!
Yolunu gözləyən zəif gözlərim
Artıq işıqlandı, nə yaxşı, of, sən...
Vəfasız deyildin sən ki əzəldən.

Əyləşirlər.

Vaqif

Günah mənimkidir, əfv elə, ustad!
Sənsiz olmamışdır bir gün könül şad.
Yuxumda görmüşəm səni gecələr,
Sənsiz gülməmişdir ruhuma səhər.

Tükəzban

Yaxşı, ay utanmaz, bir de yadından
Çıxdı birdəfəlik Tükəzban xalan?

Vaqif
(*Tükəzbanın boynundan qucaqlayaraq*)

Yox... yox, sən anadan artıqsan mana,
Həyatım olduqca borcluyam sana!

V i d a d i

Yaxşı, nə var, nə yox? Kefin necədir?

V a q i f

Bu dünya doğrudan bir bilməcədir.
Qapıya qoymuram can möhnətini,
İçirəm dünyanın hər şərbətini.
Gündüzlər oxşayır məni saraylar,
Gecələr sirdaşım ulduzlar, aylar...
Hər gülün rəngində bir canlı sənət,
Nə qədər təmizdir, safdır təbiət.
Mənim də oylağım dağdır, dərədir,
Könlüm gözəlliyə bir pəncərədir,
Dünyanın sirrini görürəm ordan...
Bir parça sümükdür sevdasız insan.

V i d a d i
(*ərk ilə*)

Sevda bir dənizdir – göylərdən dərin,
Asta bax, qaralar birdən gözlərin,
Burnun uşaq kimi dəyər daşlara.

V a q i f

Xeyr! Mən yoldaşam uçan quşlara,
Dünya çox böyükdür, min bir yuvam var,
Hələ bu dünyayla mənim davam var.
Hər təzə gülüşdən zövq almalıyam,
Ovçu gözlərimdə qalmasın bir kam.
Ömür vəfasızdır, bizi tərk edir,
Hər ağ gün, qara gün ömürdən gedir...

V i d a d i

Şair! Heç aldanma dünya varına,
İnanma dünyanın etibarına.

Savab gör, hər zaman yaxşılıq eylə,
Dar gündə Allaha "kərimdir" söylə.
Səni bu dünyada boğsa da möhnət,
Axırda qismətin olacaq cənnət;
Axirət dünyası qalacaq bizə.

V a q i f

O da bir pərdədir gözlərimizə.
Canım, nə cəhənnəm, nə cənnət vardır,
Bunlar da bir cürə uydurmalardır.

V i d a d i

Yenə şairliyin baş aparır ha!..
Yoxsa ağ olursan böyük Allaha?..

V a q i f

Bilirsən, Vidadi, sözün doğrusu,
Olmaq istəmirəm vicdan oğrusu.
Çoxdu bu dünyanın gözəllikləri,
Bəzən cilvələnən nazlı bir pəri
Şəhla gözlərini süzdüyü zaman
Cənnəti alıram mən bu dünyadan.
Qoy nisyə dalınca şeyxlər yüyürsün,
O nisyə cənnəti qoy onlar görsün.
Boş sözdür, "dünyanı heçdən yaradan" –
Bütün cənnətləri quracaq insan.

T ü k ə z b a n
(*gülür*)

Ha... ha... Vaqif, elə uşaqlıqdan da
Səndə görünürdü bu söz, bu əda.

V i d a d i

Yaxşı, nə tapmısan o saraylardan?
Sən ki zövq alırsan gözəldən, yardan?

V a q i f

Çoxdur Qarabağda gözəl sənəmlər,
Baxdıqca kül olur dərdlər, ələmlər.
Məndən çox uzaqdır hər bəla, hər qəm,
Yalnız gözəllərdir Məkkəm, Mədinəm.

V i d a d i

Demək, gözəllərçün unutdun bizi?
Unutdun öz ana beşiyimizi?

V a q i f

Mən orda olmasam, qan çıxar dizə,
Quşlar da ağlayar ellərimizə.
Xan məndən utanır, çəkinir bir az,
Mən getsəm, qırğının hesabı olmaz.
O bəzən hirslənib quduran zaman,
Mənəm zəncirini dartıb saxlayan.

Bir neçə kəndli gəlir.

Ə h m ə d  k i ş i

Vaqif, xoş gəlmisən, üzünü görək!

V a q i f

Sağ ol, Əhməd dayı, kefin necədir?

Ə h m ə d  k i ş i
(*köksünü ötürür*)

Nə var ki, ömrümüz zülmət gecədir;
Yenə əllərimiz qabar-qabardır,
Nə çuval dibində bir arpa vardır,
Nə də təknəmizdə quru bir çörək.

Vaqif

Bilirəm, bilirəm, o dərdləri mən...

Əhməd kişi

Gərək yadındadır rəhmətlik dədən –
Bükülmüşdü beli keçə atmaqdan.

Vaqif

Darıxma, darıxma, keçər bu dövran
Ağ günün işığı görünər sizə,
Hələlik güvənin zəhmətinizə.

Qurban kişi

Yaxşı, gözümüzün sən işığıydın,
Bütün məclislərin yaraşığıydın,
Şeirlər deyərdin gəlinə, qıza –
Onu da çox gördün axırda bizə?

Vaqif

Yox, yox, Qurban əmi, mənə dünyada
Bu ellər, obalar gülzar görünür.
Gözüm gözünüzdən uzaq olsa da,
Könüldən-könülə yollar görünür.

Qurban kişi

Sağ ol, əskik olma, sən yaşa barı!

Bu arada qatar-qatar durnalar keçir, onların qığıltısı hər iki şairin diqqətini cəlb edir.

Vidadi

Tükəzban, bir tez ol, gətir sazları.

Tükəzban iki dənə saz gətirir. Vidadi sazın birini Vaqifə verir.

V i d a d i

Bunu tanıyırsan?

V a q i f

Mənimdir bu saz!

V i d a d i
(*ərk ilə*)

Hələ saxlamışam onu, utanmaz!
Ondan ayrılmasın sənin hisslərin,
Onun tellərində göylərdən dərin
Bir məna vardır ki, yaşadır bizi,
Şair eləmişdir hər ikimizi.

V a q i f

Doğrudur, qardaşım, inan ki, bir an
Könlüm ayrılmamış telli sazlardan.

V i d a d i

Di gəl, durnalara bir şeir deyək.

Sazları çalırlar. Vidadi və Vaqif deyişirlər.

V i d a d i

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimanə, durnalar?
Qərib-qərib, qəmgin-qəmgin ötürsüz,
Üz tutubsuz nə məkanə, durnalar?

V a q i f

Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz?
Bir xəbər versəniz bizə, durnalar!

V i d a d i

Bir baş çəkin dərdi-məndin halına,
Ərzə yazsın, qələm alsın əlinə,
Vidadi xəstədən Bağdad elinə
Siz yetirin bir nişanə, durnalar!

V a q i f

Nazənin-nazənin edərsiz avaz,
Ürək tazələnər, edər sərəfraz,
Vaqifin də könlü çox edər pərvaz,
Hərdəm sizin ilə gəzə, durnalar!

Ə h m ə d  k i ş i

Sağ olun, gecəniz xeyrə qalsın!

V a q i f

Xeyrə qənşər gedin, çox şad oldum mən.

Kəndlilər Vaqiflə görüşərək gedirlər. Vaqif axşam qəribliyinə şairanə bir nəzərlə baxaraq.

V a q i f

Ah, bu axşam nə gözəldir, ondakı mənaya bax,
Parçalanmış ağ buludlar, göydə bardaş quraraq,
Təbiətin saflığına qulaq asır uzaqdan,
Gəlin kimi bəzək vurub ay da çıxmış otaqdan.
Nə təmizdir, nə parlaqdır Mahtabın süd bənizi,
Ən müqəddəs xəyallara dəvət edir o bizi.

V i d a d i

Xəyal şirin nemətidir bu acı kainatın.

V a q i f

Xəyal doğma balasıdır bizim ana həyatın,
Onun gözü kor olsa da, sevəcəkdir bu ana,
Yazıq, bədbəxt balasını basacaqdır bağrına.

T ü k ə z b a n

Vaqif! Danışmadın heç Əli bəydən,
Necədir, görmürəm xeyli zamandır?

V a q i f

Paho... lap böyüyüb, yaxşı cavandır;
Toyudur... Gəldim ki, aparım sizi,
Özü tapşırıbdır gəlməyinizi.

V i d a d i

Yaxşı, Əli bəyin toyudur, demək?

V a q i f

Bəs necə, toyudur!

V i d a d i

Tükəzban, gedək!
Oğul bizimkidir, gedək, Tükəzban!

T ü k ə z b a n

Sənə zəhmət olar...

V i d a d i

Nə?

(*Vaqifə işarə ilə.*)

Budur cavan?
“Nə qədər olsa qoca, gərçi Vidadi xəstə,
Yenə Vaqif kimi, əlbəttə, yüz oğlana dəyər”,
Sən ki ləleşini yaxşı bilirsən!

T ü k ə z b a n

Yaxşı, qoca vaxtı qürrələnmə sən.

V a q i f

Yox, xala! Heç qorxma, indi bahardır,
Qarabağ doğrudan bir laləzardır:
Yenə yanaqlara sığal vurulur,
Hər daşın dibində bir toy qurulur,
Bir yanda tar səsi, bir yanda qaval...
Bükür dağ döşündə boynunu maral,
Axır şırıltıyla köpüklü çaylar,
Gəlir səcdəsinə ulduzlar, aylar.
Gedək! Bizim yerlər xoş keçər sizə.

V i d a d i

Gedək, xına qoyaq əllərimizə,
Uşaq bizimkidir, mübarək olsun!
Gəlinin yolları gül-çiçək olsun!

Sevinclər içində Vaqiflə qucaqlaşırlar.

PƏRDƏ

## İKİNCİ ŞƏKİL

Şuşa qalası. Xan sarayı. Vaqifin evi. Toy məclisi, oyun, İbrahim xan, yanında da adamları gəlir. Hamı qalxıb, xana baş əyir.

İ b r a h i m  x a n
(*xanəndələrə*)

Başqa bir zövqü var bugünkü toyun,
Tez olun, yaxşı bir segah oxuyun!

Musiqi çalınır.

X a n ə n d ə
(*oxuyur*)

Hər bağın, hər bağçanın bir bülbüli-şeydası var.
Hər duyan qəlbin, əzizim, gizli bir sevdası var.
Ruhu oxşar, qəlbi oxşar incə bir canan səsi,
Gah gülər, gah ağlayar – hər dəmdə bir mənası var.
Can alan hər nəğmənin mənası yalnız eşqdir,
Göz görüb, əl çatmayan ulduzlu bir dünyası var.
Böylə bir söz var ki, Vaqif indi bir Məcnun olub,
Şerü sənət adlanan nazəndə bir Leylası var.

İ b r a h i m  x a n

Çox gözəl, Vaqifi çağırın görək...
Bəy də öz toyunda oynasın gərək!

Əli bəy oynayır, Vaqif gəlir.

İ b r a h i m  x a n

Vəzir, xeyir işiniz xeyli mübarək!
Ağ günlərə çıxsın sizin Əli bəy!
Ancaq çıxarmasın bizi yadından...

V a q i f

Görək, bu növrağı pozmasa zaman...

İ b r a h i m   x a n

Yenə də şikayət? Gəl inan ki, sən
Nə qədər mən sağam, kef görəcəksən!

Təlxək gəlir.

T ə l x ə k

Gəlininiz bir mələk,
Hamı deyir "mübarək!"
Ancaq mənim boş başım
Sizə deyir – Qardaşım,
Bir qumardan, bir atdan,
Bir də gözəl arvaddan
Ehtiyatlı dolanmaq,
Ehtiyatlı dolanmaq!..

Gülüş.

Eşikdə tüfəng atılır və "ura!" səsləri ucalır, gəlini gətirirlər.

Y e n g ə

Anam, bacım, qız gəlin,
Əl-ayağı düz gəlin,
Yeddi oğul istərəm,
Bircə dənə qız, gəlin!..

V a q i f

A qızım, üzündən götür duvağı,
Qoy açıq görünsün ayın qabağı.
Açıq yaşamışdır bizim nənələr,
Kəfəndir, a balam, sərapərdələr.

Nədir gözəllərdə bu pərdə, bu rəng,
Can dustaq olanda gülərmi ürək?
Yazın laləsidir al yanaqların,
Yaqut kənarıdır gül dodaqların,
Camalın dünyadır, qucağın cənnət,
Utansın hüsnündən o kor şəriət!..

Hamıda heyrət, həyəcan görünür; gəlini o biri otağa aparırlar.
Bu arada Eldar çiynində bir quzu içəri daxil olur.

V a q i f

Of... dostum, qardaşım, xoş buyurmusan,
Səndə dağ havası duyuram, inan!
Sizdən ayrılmayır könlümün quşu,
Ellərdə görürəm hər qurtuluşu.

E l d a r

Möhtərəm şairə salamlar olsun!
Bu dünya durduqca, o da var olsun!

İ b r a h i m x a n
(*ətrafa*)

Aha... heç saymayır bu hərif bizi,
Görünür dadmamış qüvvətimizi.

Ş e y x
(*İbrahim xanın qulağına*)

Bir bax gözlərinə... Baxışı qandır,
Kəndə qarışıqlıq salanlardandır.

İ b r a h i m x a n

Vəzir, çoban-çoluq məclisidir bu?

V a q i f

Düzü, gözləməzdim heç sizdən bunu.

İ b r a h i m  x a n

Necə gözləməzdin, lap yersiz, nahaq,
Yox, bir başa keçsin çiynində çomaq.

V a q i f

Əziz qonağımdır, dostumdur Eldar.

İ b r a h i m  x a n

Xanın hüzurunda nə ölümü var?

V a q i f

Bu mənim evimdir, siz qonaqsınız,
Qonağı sevərlər, lap nahaqsınız.

İ b r a h i m  x a n

Qonağı, qonağı... qonağa bir bax!
Hər yoldan ötəni başa çıxardaq!

V a q i f

Onun görkəmindən iyrənməyin siz,
Bir kəndli babadır, vicdanı təmiz,
Dilindən düşməyir gözəl nağıllar;
Ən böyük ürəklər, yetkin ağıllar
Ellər dünyasında yetişir, bilin!
Namusu, vicdanı təmizdir elin!

İ b r a h i m  x a n

Doğrusu, yorulub bezikmədin sən,
Elə durub-durub ellər deməkdən?

E l d a r

(*Vaqifə*)

Canım, dalaşmayın, mən gedim.

V a q i f

Dayan,
Başqadır könlümdə gülən xaniman...

İ b r a h i m  x a n

Getsin gərməsini ayaqlamağa!

E l d a r

Buyruq sizinkidir, möhtərəm ağa,
Ancaq olmasaydı kasıb kəndlilər,
Bunca qudurtmazdı sizi simü zər...

Eldar məclisi tərk edir. Onu tutmaq istəyirlər, adamlar arasına iğtişaş düşür.

İ b r a h i m  x a n

Qoymayın, tez olun, tutun Eldarı!
Ona da göstərin daş zindanları!

(*Vaqifə tərəf.*)

Qudurtdun bunları, doğrudan da sən,
Bəlkə də özünsən ona dil verən?

V a q i f

Xeyr, yanıldınız, ona dil verən
Gözilə dünyada alovlar görən
Kəndistan yeridir, bəli, kəndistan!
Bəzən tanrıya da ağ olur insan...

İ b r a h i m   x a n
(*qəzəblə çıxaraq*)

Yaxşı danışarıq...

Toy adamları dağılır. Vaqif gəzinir, Vidadi heyrətdədir.

V a q i f

Bu da haqqı-salam, bu da duz-çörək...
Dünyada dərd varmı mənim dərdim tək?
Bu xan bir ilanmış, saray yuvası,
Zəhrimar qoxuyur onun havası.

V i d a d i

Vaqif, sabah məni yola sal gedim,
Torpaq evciyimi ziyarət edim.
Ordadır dünyanın zövqü, ləzzəti.
Sən də öz boynundan at bu minnəti,
Kəndimizə qayıt!

V a q i f

Yox, qayıtmaram.
İş ki belə düşdü, meydanda varam!

V i d a d i

Əl çək bu tərslikdən, qulaq as mana!

V a q i f

Ölsəm də, ölməyim xoşdur mərdana!

V i d a d i

Sən öz dediyindən dönməyəcəksən,
Səni yalnız qoyub gedəmmərəm mən.

Əli bəy
(*gəlir*)

Ata, həbs etdilər yazıq Eldarı!

Vaqif
(*mənalı*)

İnsan uçuracaq daş zindanları,
Zəncirsiz, zindansız günlər gələcək,
Bizə təsəllidir böyük gələcək.

Əli bəy

Bəs Eldar nə olsun?

Vaqif

Heç, nə dərdi var,
Vaqif ölməmişdir, onu qurtarar.

(*Vaqif qolunu oğlunun boynuna dolayaraq.*)

Oğlum! Xeyir işin olsun mübarək,
Dünyanın kefini, ləzzətini çək!
Mənim də ürəyim hələ cavandır,
Yaşayaq birtəhər, bu da zamandır...

Vaqif Əli bəyin alnından, Əli bəy də Vaqifin əlindən öpür,
o eləcə də Vidadi ilə öpüşüb gedir.

Vidadi

Ağıllı baladır, Allah saxlasın!

Vaqif

Könlümdə dünyanın min sirri vardır,
Ah, duyan, düşünən nə bəxtiyardır!

Dəryalar üstündə süzən sonalar,
Siz, ey göy üzündə uçan durnalar
Deyin, xoşbəxtəmmi?..

Təlxək qapıdan burnunu göstərərək.

T ə l x ə k

Çox alışıb, çox yanmayın,
Uşaq kimi inanmayın,
Bu dünyanın səfasına,
Sarayların vəfasına.

(*Gedir.*)

V a q i f

Gör nələr danışır ağıllı təlxək,
Nəsə, dincəlməyir sinəmdə ürək...

Xuraman gəlir.

X u r a m a n

Kişi, bu nə işdir? Küsüb getdi xan!

V a q i f

Qoy küssün özünün qanacağından!

(*Gedir.*)

X u r a m a n

Bir el ağasıydı əvvəlki ərim,
Öz qapım, öz evim, öz nökərlərim
Hamsı qulluğumda hazır durardı.
Rəhmətlik gündə bir məclis qurardı...
Buna da bir "böyük vəzir" dedilər,
Başımı, beynimi ovub yedilər.

İnandım, dedim ki, nə xəyalı var.
Yəqin ki, bunun da öz cəlalı var.
Bu ki qoltuqlarda gəzib-dolanır,
Çox vaxt da su kimi rəngi bulanır,
Elə dərd tökülür qaş-qabağından,
Amma çox razıyam qanacağından.
Şairdir, görünür, düz ilqarı var,
Nə gözəl, nə şirin kəlamları var...
Eh... bir də, bunlardan mənə kar aşmaz...

Vaqif gəlir.

V a q i f

Nə var, fikirdəsən sən, ey sərvinaz,
Amandır, örtməsin, ey nazlı nigar,
O ay camalını qara buludlar!

X u r a m a n

Niyə, nə dərdim var, Allaha şükür!
Hara baxıramsa, xeyir görünür...

V a q i f

Yox... Sənin səsində bir titrəyiş var,
Gəl məndən gizləmə, aç söylə aşkar!

X u r a m a n

Heç... bir az incidir məni bu qürbət.

V a q i f

Yox, bu da olmadı, düz danış, afət!
Yalan yaraşmayır gül dodaqlara...

X u r a m a n

Bıy... Yaxşı, nə deyim mən bəxtiqara?

V a q i f

Aha... bundan danış... danış görüm, sən
Niyə öz bəxtinə qara deyirsən?

X u r a m a n

Deyirlər ki, sən...

V a q i f

Nə? Təzə xəbər?

X u r a m a n

Nə bilim, doğrusu...

V a q i f

Danış!

X u r a m a n

Deyirlər,
Səni vəzirlikdən qovlayacaq xan!

V a q i f

Ha... ha... Bəs elə bu?

X u r a m a n

Bəli.

V a q i f

Xuraman!
Xuraman, gör nəyin xəyalındasan!
Qəfəsdə quş kimi yaşayıram mən.

Nə sənin gördüyün bu saray, bu yurd,
Nə də dişlərində qan donan o qurd
Bu tərlan könlümü ovlaya bilməz!
Dərdin elə busa, lap arxayın gəz!

X u r a m a n

Bəs səni... bəs səni...

V a q i f

Nə?.. Çıxarsalar?

X u r a m a n

Necə dolanarıq, dilənçilər tək?

V a q i f

Bizə qəhət olmaz bir parça çörək,
Qorxma, bəxtinə də söyləmə qara...
Kaş ki, düşməyəydim bu saraylara!
Yanıldım, doğrusu, uyub aldandım,
Başqadır könlümdə mənim ilk andım...

X u r a m a n

Elə şirin-şirin danışmağın var.

Başqa otağa keçir.

V a q i f

Yox... sərraf gözüdür mənim bu gözüm,
Özüm tutduğuma heyranam özüm.
Gözüm su içməyir heç Xuramandan,
Onu başqa ruhda böyüdüb zaman.
Deyəsən şöhrəti çox sevir qadın,
Ah, mənsəb!.. Ah şöhrət!.. Yaranmasaydın!..

PƏRDƏ

## İKİNCİ PƏRDƏ

### ÜÇÜNCÜ ŞƏKİL

Xan sarayı. İbrahim xan içəri otaqda yatır.

T ə l x ə k

Əzizim, İbrahim xan,
Bit yerisin yaxandan.
Ayağını bərk uzat,
Xorul-xorul yaxşı yat!
Ordu çəkibdir Qacar,
Şeypur çalır qoşunlar,
Sən yuxuna şəkər qat,
Yaxşı uzan, yaxşı yat!..
Qoy axsın millət qanı,
Çək başına yorğanı.
Şahlar bizi boğsa da,
İnək kimi sağsa da,
Sən yuxuna şəkər qat,
Yaxşı uzan, yaxşı yat!..

İ b r a h i m  x a n
(*yuxudan təlaşla ayılaraq*)

O yandan Türkiyə, bu yandan İran,
Burdan da Rusiya, göndərir fərman...
Pozmaq istəyirlər cah-cəlalımı,
Qalmamış düşünən mənim halımı.
Könlüm ayrılmayır tacü təxtimdən,
Kəndlər də çaxnaşır mənim bəxtimdən...
Həddindən aşmışdır yenə qaçaqlar,
Dağlarda yurd salır bütün qoçaqlar,
Neyləyim?..

Əyanlar, ağalar, şeyxlər daxil olurlar.

Ş e y x

Ey böyük hökmdar, əhvali-şüma?..

İ b r a h i m  x a n

Ya şeyx, bir tədbir tök mənim yuxuma!
Bu gecə qorxunc bir vaqeə gördüm.

Ş e y x

Lütf edib, danışın gördüyünüzü.

İ b r a h i m  x a n

Gördüm dəniz olub bu Cıdır düzü,
Elə bir dəniz ki, büsbütün qandır,
Onun dörd tərəfi qara dumandır.

Ş e y x

Sonra?..

İ b r a h i m  x a n

Bu dənizdə üzür qayıqlar,
Get-gedə sıxlaşır bu qayalıqlar;
Elə bil, sıxırlar məni dörd yerdən.

Ş e y x

Hə... Sonra?

İ b r a h i m  x a n

Bir qayıq yaxlaşdı birdən,
Zəncirli bir kəmənd atdılar mana.

Həmin kəmənd keçdi düz boğazıma,
Məni çəkə-çəkə hey apardılar.
Gördüm qayıqdadır o qaçaq Eldar...

Şeyx

Bəli, o dələduz?

İbrahim xan

Bəli, lap özü,
Hirsindən alışıb yanırdı gözü.
O məni dənizə basıb dedi: – Xan,
Buyur, doyunca iç tökdüyün qandan!

Şeyx
(*yaltaqlanaraq*)

Ha... ha... qəm yeməyin, adil hökmdar!
Sizə neyləyəcək bir qaçaq Eldar?
Yuxu dəhşətlidir – qorxusu yoxdur,
Dəniz aydınlıqdır, qan qovuşuqdur.

Təlxək
(*özünü ortaya salaraq*)

Şeyxin kəlamı xoşdur,
Mənim kəlləmsə boşdur...

Qaçır.

Vaqif
(*daxil olur və xana məktubu uzadaraq*)

Qacara yazdığım cavabdır, alın!
Elçilər gözləyir, tez yola salın!

İbrahim xan

Vəzir!

V a q i f

Dinləyirəm!

İ b r a h i m   x a n

Qarışır zaman,
Ruhuma dar gəlir bütün xaniman.

V a q i f

Çox dedim, sözümə baxmadınız siz,
Dedim ki, zülmlər qalmaz əvəzsiz.
Bu dünya boş deyil, öz qanunu var,
Elin qüdrətinə lovğa baxanlar,
Əlbəttə, basılar...

İ b r a h i m   x a n
(*hiddətlə*)

Basılar!.. Sən, sən...
Xeyir söz çıxmayır yenə dilindən.

V a q i f
(*şeyxə işarəylə*)

Çünki sözlərimdə doğruluq vardır,
Yalançı, yaltaqlar və oğrulardır.
Sizi yatırmasın ağır yuxular,
Hücuma hazırdır Məhəmməd Qacar.

İ b r a h i m   x a n
(*Vaqifin yazdığı cavabı oxuyaraq*)

Çox gözəl, hər sözün iti bir bıçaq,
Qacarın bağrını parçalayacaq!
Mənim qeyrətimi çəkirsən, demək?

V a q i f

Elimiz qoçaqdır, zülmdən əl çək.
Hələ yaranmamış həyata əvəz,
Həyatın qədrini düşünün, barı!
Dünya naz götürüb yaşada bilməz
Onunla gizlənpaç oynayanları.

Ş e y x
(*kinayə ilə*)

Bəli, dərs alacaq bizim böyük xan
Bunun həkimanə kəlamlarından...

V a q i f

Yaxşısı budur ki, yaltaqlanma sən,
Ağıl ummayıram boş kötüklərdən...

İ b r a h i m x a n

Vəzir! Bu sözləri qoyun bir yana,
Vəziyyət xarabdır, yol göstər mana!

V a q i f

Eldə can qoymadı ağır vergilər;
Siz bu qanunlarla qalsanız əgər,
Doğma balanız da yad olacaqdır,
Külünüz göylərə sovrulacaqdır.

Ş e y x
(*xana yaltaqlanaraq*)

Bəli də, bəli də, çox sevir sizi,
Dağıdın, paylayın xəzinənizi,
Bəlkə, doyacaqdır acların gözü...

Vaqif

Daxili vəziyyət belədir, düzü,
Xalq razı qalmasa bir hökmdardan,
Hakimi qurd kimi didəcək zaman.

İbrahim xan

Yaxşı, vergiləri azaltsaq bir az,
İşlər düzələrmi?

Vaqif

Bundan kar aşmaz!
Məncə, nə olsa da bu gündən belə,
Vicdan azadlığı lazımdır elə...

İbrahim xan

O nədir?

Vaqif

Kor kimi qalmasın insan,
Qalxsın cəhalətin qaranlığından!
Açılsın hər yerdə məktəb, mədrəsə!
Balalar quş kimi versin səs-səsə,
Dağların döşündən yollar çəkilsin,
Yollar kənarında güllər əkilsin,
Nəğmələr bəzəsin vətən mülkünü;
Mən də qoca vaxtı görüm o günü.

Şeyx

Bundan sənə nə var?

Vaqif

Onu duymazsan...
Çıxar əmmaməni, sən keçəl qazsan...

Ş e y x

Elm günah işdir, təmizdir islam –
Buyurmuş peyğəmbər əleyhüssəlam!

V a q i f

Lal ol! Ləkəlidir qəlbin, niyyətin,
Tiryəksatanısan bəşəriyyətin!

Ş e y x

Sən xalqın gözünü açırsan bizə –
O da baş əyməyir bir əmrimizə.

İ b r a h i m  x a n

Şeyx doğru deyir! Kor qalsın onlar,
Xalq ayılan zaman haqqını anlar...

V a q i f

O kor dediyiniz hirslənən zaman
Çox bərk yapışacaq boğazınızdan...

İ b r a h i m  x a n
(*birdən Vaqifin əlindəki əsaya baxaraq*)

Vəzir, əlindəki o əsa nədir?

V a q i f

Rusiya padşahı o zülmkardan –
Yekaterinadan bir hədiyyədir.

İ b r a h i m  x a n

Aha...
De, sən hara, Rusiya hara?
Yoxsa satılmısan o kafırlara?

V a q i f
(*əsanı göstərərək*)

Buna şəkil verən bir sənətkardır,
Mənim sənətkara hörmətim vardır.

İ b r a h i m   x a n

Bəs onu göndərən Yekaterina?

V a q i f

Yalnız nifrətim var, inanın, ona!
Onu da boğacaq gedən üsyanlar,
Azadlıq uğrunda tökülən qanlar.

Ş e y x

Bəs ruslar? Bəs ruslar? Bəs o məlunlar?

V a q i f

Din ayrı, dil ayrı olsa da onlar,
Yenə beşiyidir mədəniyyətin,
Qədrini çox bilir şerin, sənətin.

Ş e y x
(*xanı qızışdıraraq*)

Aman! Ayaqladı müqəddəs dini,
Bu tanrı düşməni, vətən xaini!

S ə s l ə r

Bir buna bax! Məlun!
Aldanmış qansız!

Ş e y x

Satılmış...

S ə s

Bimürvət...

Ş e y x

Yezid, imansız!

V a q i f
(*hiddətlə*)

Durun! Mən deyiləm vətən xaini,
Saydım nəbilərin sonsuz sayını.
Min ildir baş əydik yalnız Qurana.
Baxdı gözlərimiz kor kimi ona,
Bizə yasaq oldu başqa kitablar,
Kitabsız bir ömrün nə mənası var?
Didildi daima ixtiyarımız,
Barı, bir gün görsün övladlarımız.

İ b r a h i m  x a n

Bəs mənim şöhrətim? Bəs tanrı? Bəs din?

V a q i f

Mən bir aşiqiyəm saf ürəklərin...

İ b r a h i m  x a n

Demək, satılırsan sən şeytanlara!

V a q i f

Tarix cavab verər bu böhtanlara...

İ b r a h i m  x a n

Bir vaxt təriflədin mənə Eldarı –
Dağ-dərə tutmayır o qaçaqları.
İndi də rusların tərəfdarısan.
Sən elin dostusan, elin yarısan...

V a q i f

Dünya yaranmamış ötərgi bir səs,
Günəş qaranlıqla yaşaya bilməz...

Çıxır.

Ş e y x
(*xana*)

Başqa bir qisas da siz alın ondan!

İ b r a h i m   x a n

Buyurun, o nədir?

Ş e y x

O da Xuraman!..
Çəkin bağrınıza o sərvinazı,
Qırılsın Vaqifin qoy ilham sazı!

İlyas daxil olur.

İ b r a h i m   x a n

İlyas! Gəlib çıxdın? De, nə var, nə yox?

İ l y a s

Eldarın halına bələdəm az-çox
Tez-tez dəyişdirir o öz yerini,
Tovlayıb azdırır gündə birini.
O qədər artıb ki, yenə qaçaqlar,
Tutmayır meşələr, dərələr, dağlar...

İ b r a h i m   x a n

Yaxşı, öldürməyə fürsət olmadı?

İ l y a s

Düzü, qorxuludur Eldarın adı.
Kəndistan yerində çox hörməti var.
Məsəldir: “Qaçağı el özü saxlar”.
Belədir babalar dövründən bəri.

İ b r a h i m  x a n

Onun oylağına yaxın kəndləri
Yandırsaq necədir?

İ l y a s

Yox, yox, bu olmaz!

(*Döşünə döyərək.*)

Gələr öhdəsindən lələşin İlyas.

İ b r a h i m  x a n

Yaxşı, fikrin nədir, bir danış görək?!

İ l y a s

Bu gündən onlara qoşulam gərək.

İ b r a h i m  x a n

Necə? Nə deyirsən?

İ l y a s

Belədir, bəli...
Qaçağı öldürər xəyanət əli.
Deyərəm: “Məni də asdırırdı xan,
Qaçıb qurtarmışam dar ağacından”.
İnanar... Onlara yoldaş olaram.
Bildiyim qisası sonra alaram.

İ b r a h i m   x a n

Necə? Nə minvalla?

İ l y a s

Nə varmış buna?
Əvvəl girəcəyəm onun qılığna,
Yanından getməyib günlü, gecəli,
Qəsdən olacağam onun sol əli.
Bir gün yenə də qılığna girib,
Hərifi birtəhər yuxuya verib,
Bir güllə vuraram lap təpəsinə,
Başımı götürüb qaçaram yenə...

İ b r a h i m   x a n
(*gülə-gülə*)

Mərhəba, mərhəba, İlyas pəhləvan!
Sonra da on para kəndin var, inan!
Olarsan onlara sən də bir ağa,
Çaparsan atını hey sola-sağa.
Tökülər qapına müftə bəhrələr,
Bir də kasıblıqdan görməzsən əsər.

İ l y a s

Heç əskik olmayın!

İ b r a h i m   x a n

Eləsə, di get,
Verdiyin vədəyə tamam əməl et!

İ l y a s

Baş üstə, baş üstə, arxayın ol, xan!
Eldar qurtulammaz qurduğum tordan...

Gedir.

İ b r a h i m  x a n
(*şeyxə tərəf*)

Sən də Xuramana yaxşı tədbir çək,
Vaqifə göz dağı bu olsun gərək!..

Gedir.

Ş e y x
(*sevinclə*)

İndi sevin, Şeyx Alı!
Bəxtinə gün doğalı...
Vaqifi saldın tora,
Qoymadın dinc otura.
İndi xanı dolaram,
Özüm vəzir olaram,
Nə dərdim var, qəmim var!
Sarayda qız balalar
Mənə baxıb göz eylər.
Hər məsələ düzələr...
İndi sevin, Şeyx Alı!
Bəxtinə gün doğalı...

Oynaya-oynaya çıxmaq istəyir.

T ə l x ə k
(*şeyxin arxasınca*)

İndi sevin, Şeyx Alı!
Bəxtinə gün doğalı...

Ş e y x

Tfu!

Gedir.

Təlxək
(*şeyxin arxasınca*)

Yekəqarın, yekəbaş,
Ara düzəldən oğraş!

(*Təlxək mütəəssir halda Vaqifin arxasınca.*)

Nələr gördün, aman, Vaqif!
Nə qansızmış zaman, Vaqif!
Mən demədimmi çox yanma,
Uşaq kimi çox inanma
Bu dünyanın səfasına,
Sarayların vəfasına...

PƏRDƏ

## DÖRDÜNCÜ ŞƏKİL

Saray. Vaqifin evi. Gülnar əlində bir neçə dəstə bənövşə, qızlar ilə gəlir.

Gülnar

Bizim sərin meşələr,
Bu körpə bənövşələr!
Gəlin, öpüm sizi mən;
Getsəniz gözlərimdən,
Mənə böyük dərd olar.
Ah... bizim dik qayalar...
Havaları sərindir,
Dərələri dərindir.
Yaşamağın dadı var:
Gözəl-gözəl adı var.
Hər enişin, yoxuşun,
Bir rəngi var hər quşun.
Əsmə, dayan, ey külək,
Ova çıxmış Əli bəy.

O mənim sevgilimdir,
O, ağzımda dilimdir.
Tüfəngini yel əysə,
Ayağına daş dəysə,
Ürəyimə ox batar.
Nə gözəl də boyu var!
O baftalı çuxası,
O düyməli yaxası,
At belinə qalxmağı,
Tərlan kimi baxmağı,
Göz görməyən uzağı
Onun nişan almağı
Söylənilir ellərdə,
Dastan olub dillərdə.

Gülnarın anası Əminə gəlir.

G ü l n a r

Of, anacan, ana!

Qucaqlaşıb öpüşürlər.

Ə m i n ə

Qurbanam sana!
Mənim şirin balam, ağıllı qızım.
Sürüdən ayrılan körpəcə quzum.
Yoluna baxmaqdan gözüm saraldı,
Həsrətin səbrimi əlimdən aldı.
Adam anasını heç unudarmı?

G ü l n a r

Ana! Əli bəyin heç vaxtı varmı?
Vallah, gələsiydik bu həftə sizə,
Sənin ayrılığın dərd olub bizə.

Ə m i n ə

Əli bəy necədir? Damağı çağdır?

G ü l n a r

Nə var, lap yaxşıdır, şir kimi sağdır.
İndi ova gedib, bu saat gələr.

Ə m i n ə

Allaha çox şükür, xoş olsun xəbər.
Burdan kəsilməsin xeyrin ayağı.
Allah göstərməsin sizə gözdağı.
Yaxşı, bir de görüm, özün necəsən?

G ü l n a r

Özüm? Nə olacaq? Lap yaxşıyam mən.
Əli bəy quş kimi yemləyir məni,
Deyir, kənd yerindən seçmişəm səni.
Gözündə parlayır qaynar bulaqlar,
Ürək duyduğunu xatirə saxlar.

Ə m i n ə

Zarafat deyil ki, şair oğludur,
Görünür sinəsi sözlə doludur.

G ü l n a r

Elədir, anacan... dedin ürəkdən
Ana! Şair olmaq istəyirəm mən.
Bilirsən nə qədər sinəmdə söz var?

Ə m i n ə

Yox... yox... qadan alım, min əyri göz var,
Bircə farağat dur... göz dəyər sana!

Vaqif və Vidadi daxil olurlar.

V a q i f

Xoş gördük! Xoş gördük, Əminə bacı!

Ə m i n ə

Tanrı göstərməsin sizə bir acı!

V a q i f
(*Gülnarın başını qucaqlayaraq*)

Bilirsən nə şeytan baladır Gülnar?
Mənim çox ağıllı bir gəlinim var.

V i d a d i

Düzdür, ağıllıdır qızımız Gülnar,
Südü təmiz olur bizim analar...

V a q i f

Əyləşin, Əli bəy gələr indicə.

Vaqif və Vidadi sol otağa keçirlər.

G ü l n a r

Görürsən, ana?
Necə mehribandır qaynatam mana.
Elə bil atadır...

Ə m i n ə

Olsun, ay bala!

Əli bəy əlində tüfəng və bir neçə qırqovul oxuya-oxuya daxil olur.

Əli bəy

Əminə xala!

Əminə onun alnından, o da Əminənin əlindən öpür.

Yaxşı, xala, bir de görək,
Bir de görək, nə vaxtadək,
Bizdən ayrı dolanıb sən
Yalqız ömür sürəcəksən!

Əminə

Necə, sizdən ayrı niyə?

Əli bəy

Bir qulaq as mən deyənə:
Doğrudan da kənddə təksən,
Çox əziyyət çəkəcəksən,
Daha bəsdir, qarış bizə!
Köçünü çək evimizə!

Gülnar

Ana! Qurban olum sana,
Gəl bizimlə yaşa, ana!

Əminə

Belə, ağ gün görəsiniz,
Xoş dövranlar sürəsiniz,
Başınızdan bir tük belə
Pay olmasın qara yelə.

Gülnar

De, köçürsən?

Əminə

Yox, ay bala!
Dövranımı çox sürmüşəm,
Qızımı da köçürmüşəm,
İndi dünyam quru səsdir,
Komacığım mənə bəsdir.
Bir də sizə budur sözüm,
Alışmışdır könlüm, gözüm
Ata-baba yerimizə,
Kənd yaxşıdır yenə bizə.

Əli bəy

Gülnar! Bir suya sal qırqovulları,
Xalama bir plov hazırla, barı!

Əminə
(*xurcundan bir cüt corab çıxararaq*)

Oğul! Deyirlər ki, qış bərk gələcək;
Sənə toxumuşam bu corabları;
Bilirsən, bunlardır kəndlinin varı.

Əli bəy

Çox sağ ol, çox sağ ol, Əminə xala!

Əminə

Sağlıqla geyəsən, mehriban bala!

Əli bəy

Gəl, ana! O evdə rahatlan bir az.

Hər üçü sağ tərəfdəki otağa keçir. Vaqif gəlir.

V a q i f

Əli bəy, Əli bəy!

Əli bəy çıxır.

Ə l i  b ə y

Nə buyurursan?

V a q i f

Çöldə nə var, nə yox?

Ə l i  b ə y

Gördüm Eldarı!
Toplayıb başına qəhrəmanları,
Dağlarda yurd salıb Koroğlu kimi.
Məni görər-görməz sevindi qəlbi,
Dedi ki: – Atana məndən salam de,
Onun köməyindən çox xoşhalam, – de.
Yaxşılıq boynumda qalmayacaqdır.

V a q i f
(*pərişan bir vəziyyət alır*)

Yazığı saldılar çölün düzünə,
Dünya gözlərimdə qarışır yenə...

(*Oğluna.*)

Sən insan oğlunun taleyinə bax!
Ona göz dağıdır yerdə yaşamaq,
Lakin ayrılmayır dünyadan ürək,
Ətirlər qoxuyan hər gül, hər çiçək,
Göylərə baş vuran bu qəlbi dağlar,
Dağlar döşündəki şır-şır bulaqlar,

Hər yaşıl mənzərə, hər sarı sünbül,
Güllərin başına dolanan bülbül,
Bizim bu yerlərin gözəl elatı,
Çoban tütəyindən axan bayatı
Həyata çağırır hər zaman bizi,
Yaradır, yaşadır hər nəğməmizi...
Oğlum, düşündükcə, duyduqca dərin –
Qollarda səslənən bu zəncirlərin
Günəşli, gündüzlü bir sabahı var,
Ölsün gələcəyə inanmayanlar!

V i d a d i

Yenə inildədi qəlbindəki saz...
Gəlin, seyrə çıxaq dağları bir az.

Vidadi, Vaqif və Əli bəy çıxırlar. Xuraman gəlir.

X u r a m a n

Gecə fikir, gündüz fikir...
Nə yurd salır, nə ev tikir.
Elə yazır, yazır yenə...
Bir baxmayır mən deyənə.
Eh... baisin evi yansın,
Gözlərində od qalansın.
Əvvəl şirin dili vardı,
Məni öpər, oxşayardı.
Qurtarıbdır indi o da,
Dirigözlü düşdüm oda...
Nə bir durur, nə dincəlir,
Nə gözünə yuxu gəlir,
Hey düşünür ağır-ağır,
Üz-gözündən bulud yağır.
Birdən rəngi dönür qana,
Kişi olub lap divana...
Bilməyirəm nə dərdi var,
Günüm, gecəm keçir ağlar.

Qarı daxil olur.

Q a r ı

Nə şirinsən, nə göyçəksən,
Dərilməmiş bir çiçəksən.
Gözlər qalıb yanağında,
Sənin bu gül dodağında...
Nə şirindir suyun sənin,
Lap sərvdir boyun sənin.
Nə xanlar xörəyisən...

X u r a m a n

Qarı nənə, nə var ki, sən
Belə, bir cür dil tökürsən?..

Q a r ı

Qələm kimi qaşların var,
Qulac-qulac saçların var.
Ağzın kiçik bir püstədir,
Nə buyursan göz üstədir...

X u r a m a n

Bıy... dəlidir, nədir qarı...

Q a r ı

Kimin vardır belə yarı?
Çənəndəcə xalın da var,
Xoş yaradıb pərvərdigar,
Od kimidir yanaqların,
Bal kimidir dodaqların,
Nə xanların xörəyisən...

X u r a m a n

Qarı, bir de, nə var görək?
Mətləbini danış gödək.

Q a r ı

Heç tələsmə, körpə quzum,
Gözəl balam, gözəl qızım,
Qurban sana qarı nənən,
Xeyir xəbər gətirdim mən.
Gözü düşüb xanın sana...
Mənə bir xələt alsana!

X u r a m a n

Nədir, nədir, xanın sözü?

Q a r ı

Bəli, budur sözün düzü:
Bir gəlinsən gözəl-göyçək,
Geyin xara, geyin ipək,
Boynuna tax daş-qaşları,
Gəl ol xanın gözəl yarı!..
Qabağında qulluqçular,
Asta yeri, xumar-xumar.
Gecə xanın gir qoynuna,
Qollarını sal boynuna.
Ürəyin şad, könlün açıq,
Körpə quzum, ağ günə çıx!

X u r a m a n
(*xoşlanaraq*)

Aman... Nələr deyir qarı!
Doğrudurmu bunlar barı?..

Q a r ı

Xan deyəndə gör nə xandır!
Bığıburma bir cavandır.
Rüstəmi-Zal bir sərçədir.
Bu, xan deyil, pəhləvandır.

X u r a m a n

Yox... yox, bəsdir, qarı nənə,
Bu sözləri demə mənə,
Of, darıxır lap ürəyim...

Q a r ı

Heç darıxma, gül-çiçəyim,
Bir az tərpən zirək kimi,
Xan da səni bəsləyəcək
Yağ içində böyrək kimi.

X u r a m a n

Yox... xoş getməz bu Allaha;
Vaqif məndən...

Şeyx girir.

Ş e y x

Aha... aha!..
Yox... qorxub eləmə, qızım, Xuraman!
Səndən razı qalar xaliqi-sübhan...
Doğrudur, cavansan... Düşünsən bir az,
Xanın təklifinə zidd getmək olmaz.
Onun yaşatdığı Allah yoludur.
Bütün bu bəndələr xanın quludur.

Gülnar gəlib qapının ağzından qulaq asır.

Bir də yadına sal gözəl cənnəti,
Bil ki, cəhənnəmin hər əziyyəti
Səndən uzaq olar... Göyərçin balam!
Mələklər, hurilər, pərilər səni
Alıb qanadına, gəzdirər səni.
Yoxsa əzrayıllar durar gözünə,
Zidd çıxmaq olarmı xanın sözünə?
Razısan?

Q a r ı

Razısan?

Ş e y x

Razısan?

Q a r ı

Di din!
Ötsün şirin-şirin tuti dillərin.

Ş e y x

Tez ol, bir cavab ver!

X u r a m a n
(*çətinliklə, əzabla*)

Razıyam... ancaq...

Ş e y x

Bilirəm... Hə, Vaqif? Yaşamayacaq!
Xətər gəlməyəcək sənin halına,
Onu heç gətirmə sən xəyalına,
Di salamat qalın!

Qarı və Şeyx çıxırlar.

X u r a m a n

Of, nə iş tuturam?.. Yatmışammı mən!
Gör bir nələr çıxdı mənim dilimdən!..
İndi nə deyəcək qonum-qonşular,
Of, yazıq Vaqifin nə günahı var?

Gülnar daxil olur. Xuramana baxır, özünü saxlaya bilməyərək.

G ü l n a r

Xanım, mübarək!

X u r a m a n

Nə var?

G ü l n a r

Ay ləçər,
Bu iş yaraşarmı heç nəslimizə,
İndi nə deyəcək el-oba bizə?

Vaqif, Əli bəy və Vidadi daxil olurlar. Gülnara və Xuramana heyrətlə baxırlar.

V a q i f

Bu nədir? Bunlara nə olmuş görən?

Ə l i b ə y

Hələ ki, anlaya bilməyirəm mən.

G ü l n a r

Ata!

V a q i f

Nə var, qızım, nə oldu sana?
Utanma, dərdini aç söylə mana.

Gülnar ağlayır. Xuraman o biri evə qaçır.

Ə l i b ə y

Ay qız, de, bir danış!

G ü l n a r

(*ağlayır*)

Nə deyim?

V a q i f

Gülnar!
De, qızım, de, görək qəlbində nə var?

G ü l n a r

(*utana-utana*)

İndicə bizdəydi şeyx ilə qarı,
Mən də qapımızda pusdum onları.

Vidadi o biri evə keçir.

V a q i f

(*oğluna*)

Hə... deyəsən iş var...

Ə l i  b ə y

De, danış, Gülnar!

G ü l n a r

Gördüm Xuramanla danışır onlar,
Dedilər ki, “Səni çox istəyir xan,
Çıx, ona arvad ol!”

V a q i f

Yaxşı, Xuraman?

G ü l n a r

Xuraman dedi ki...

Ə l i   b ə y

Nə dedi?.. Bir din!

V a q i f

Gizləmə... gizləmə, ağıllı gəlin!

G ü l n a r

Dedi ki, razıyam, gedərəm xana.

Əli bəy Gülnarı o biri otağa aparır.

V a q i f
(*düşüncələr içində*)

Aha, halal olsun bu Xuramana!
Yenə gözlərimdə hava qaralır,
Yenə dağ başını duman, qar alır...
Elə bil mənliyim çəkilir dara,
Qəlbim sığışmayır dar saraylara.
Burda gözlərimə min qan görünür,
Mənə bu divarlar zindan görünür.
Könül viran qalan bir xanimandır...
Deyib-danışmayır xeyli zamandır...
Mənə nə göylərdən bir təsəlli var,
Nə yerlər ruhumu zövq ilə oxşar...

X u r a m a n
(*pərişan daxil olur*)

Vaqif! Ey sərvərim, ey tacidarım!

V a q i f

İtil gözlərimdən, bivəfa yarım!
Get, atıl murdarın qan qucağına,
Zülm yuvasına – od qucağına.

Xuraman başını aşağı salıb çıxır. Bir az sükut.

V a q i f

Canan üz döndərdi... Dövran bivəfa,
Pozuldu gördüyüm hər zövqü səfa.
Saraldı ömrümün çiçəkli yazı,
Qırıldı qəlbimin sədəfli sazı.

Əli bəy acıqlı halda gəlir.

Ə l i  b ə y

Ata, qoy öldürüm o mürvətsizi!

V a q i f

Əli bəy, alçaldar cinayət bizi;
Bir bax, əllərinə yaraşarmı qan?
Oğlum, yaşatmağa yaranmış insan.

Ə l i  b ə y

Bunda qalmamışdır nə namus, nə ar,
Vəfasız olurmuş ögey analar.

Gedir.

V a q i f
(*yalqız və pərişan*)

Düşüb-düşməyəli bu saraylara,
Hələ rast gəlmədim vəfalı yara!
Çəkin boğazımdan məni min dara,

Çobanlar yaylağı yadıma düşdü.
O təmiz duyğular, o saf ürəklər,
Bənövşə qoxulu sərin küləklər,
Başına döndüyüm güllər, çiçəklər –
Tərlanlar oylağı yadıma düşdü...
Mən ki çox keçmişəm sonalı göldən,
Bir ətir çəkmişəm hər təzə güldən,
Vaqif! Ayrı düşdün obadan, eldən,
Ömrümün növrağı yadıma düşdü...

Əyləşir, qələm-kağız götürür, şeir yazmağa başlayır.

PƏRDƏ

## ÜÇÜNCÜ PƏRDƏ

### BEŞİNCİ ŞƏKİL

Səhər yenicə açılır. Ordugah. Uca bir təpə. Təpənin başında şah Qacarın çadırı. Onun ətrafında başqa çadırlar görünür. At kişnəmələri, insan səsləri eşidilir. Qacar yuxudadır. Sağ tərəfdəki çadırdan Tamaranın kədərli şərqisi eşidilir.

Tamara

Ayrı düşdü tərlan könlüm
Öz mehriban yuvasından,
Göy üzünün durnaları,
Deyin vətən havasından.
Bir dustağam qolum bağlı,
Bir qəribəm sinəm dağlı,
Bir xəstəyəm qəm otaqlı
Ürəyimin yarasından...

Qapıçı

Cana yanğın salır əsirin səsi,
Bu ana fəryadı, qadın naləsi.
Anasız ağlaşır körpə balalar,
Bir ad alacaqmış Məhəmməd Qacar...

Yoxmuş bu zalımda vicdandan əsər,
İranda qalmadı sağlam nəsillər,
Dondu cəbhələrdə laxta-laxta qan,
Bu yenə doymadı içdiyi qandan.

T a m a r a

Külək əsər, gül bükülər,
Könül yanar, can sökülər,
Gecə-gündüz yaş tökülər
Gözlərimin qarasından...

Qacar yuxudan oyanaraq, çadırın önünə gəlir.

Q a c a r
(*məğrur bir tövr ilə* )

Yenə gürcü qızı dərdə qərq olmuş.

Q a p ı ç ı

Şahim! Sevinməz ki, qəfəsdəki quş...
Görünür yazığın qəlbi qırıqdır,
Hər sözü bir nalə, bir hıçqırıqdır...

Q a c a r
(*kinayəli*)

Sənin də çox yanır ona ürəyin?

Q a p ı ç ı

Yox, şahim! Hökmüdür bu da fələyin...

Q a c a r
(*Tamaranı qucaqlayır və sonra hiddətlə itələyərək*)

Deyirlər şirindir busənin dadı,
O da kor bəxtimə qismət olmadı.

(*Qapıçıya.*)

Haydı, get, vəziri yanıma çağır!

(*Qapıçı gedir. Qacar qızaran üfüqlərə göz gəzdirir.*)

Yenə də göylərdən od, alov yağır.
Bizə həyat verən günəş də qandır.
Dünya qan üstündə bir xanimandır...
Başıma ildırım töksə də fələk,
Qanlı qılıncımla hökm edəm gərək
Sonsuz dənizlərə, sonsuz çöllərə!..
Qoy qanla sulansın hər susuz dərə!
Qoy qana boyansın güllər, çiçəklər,
Yalnız qan qoxusun əsən küləklər!
Mənim vicdanım da, qəlbim də qandır,
Dünya qan üstündə bir xanimandır.

Vəzir gəlir. Ehtiramla baş əyir, əli ilə düzləri göstərir, yaltaqlanaraq.

V ə z i r

Şahim, nə gözəldir bu çiçəkli yaz!!

Q a c a r

Vəzir! Sözlərimə yaxşı qulaq as!
Yenə od içində yanır bədənim,
Dağlar ağırlıqda dərdim var mənim...

V ə z i r

Şahim! Yaraşmayır bədbinlik sizə,
Şeytanmı görünür gözlərinizə?

Q a c a r

Tutaq ki, məşriqdən məğribə qədər
Mənə xərac verdi bütün ölkələr.

Nə olsun? Bədbəxtəm, bədbəxtəm, inan!
Tutaq ki, İldırım, Teymur, Çingiz xan
Hamısı mənəmmiş, nə olsun sonu?
Duyuram dünyanın boş olduğunu...
Yoxdur vəliəhdim... Bir sonsuzam mən,
Nə qədər küskünəm kor taleyimdən!

V ə z i r

Şahim, bu düzlərə, çöllərə bir bax!
Komadan-komaya qanad çalaraq
Şərqilər oxuyan xınalı kəklik,
Sizi qarşılayan güllük, çiçəklik
Deyir xoş buyurmuş böyük hökmdar...

Q a c a r

Vəzir, bu sözlərin nə mənası var?

V ə z i r

Dedim ki, qəlbiniz yumşalsın bir az.

Q a c a r

Hım... Hım...

V ə z i r

Gülürsünüz!

Q a c a r

Bizə yaraşmaz
Qılınc meydanında kəklik ovlamaq!
Bir bax! Qılıncımda qanlara bir bax!
Min mələk uçsa da gülümsəyərək,
Gərək yumşalmasın cəbhədə ürək!

V ə z i r

Buyruq sizinkidir, adil hökmdar!
Sizdə fəzilət də, ədalət də var.

Q a c a r

Xeyr, fəzilətdən dəm vurma, vəzir,
Dayan bir qul kimi əmrə müntəzir!
Bil ki, balıq qədər qanım soyuqdur,
Min vəz eləsən də mənası yoxdur!..
Bir boynu olsaydı bəşəriyyətin,
Onu bir qılıncla vurardım yəqin!..

V ə z i r

Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var...

Q a c a r

Məni uşaq vaxtı axtaladılar,
Üzüldüm dünyanın hər nemətindən,
Qisas almalıyam bu dünyadan mən!

V ə z i r

Şahim, olmasa da vəliəhdiniz,
İran torpağına hakimsiniz siz.
Şikayət etməyin taleyinizdən,
Oğlunuz, qızınız deyilmi vətən?

Q a c a r
(*kinayəli*)

Vətən! Çoxmu sevir məni o vətən?
Mənə həcv yazır hər yoldan ötən...
Çox da tərifləmə mənə vətəni,
Bu qılınc olmasa, yeyərlər məni!

V ə z i r

İndi nələr keçir ürəyinizdən?
Tiflisi yandırdıq, oda qaladıq,
Bütün ellərini soyub taladıq,
Yenə də hirsiniz soyumadımı?

Q a c a r

Dünya tanımamış hələ adımı...
Gərək qan altında qalsın bu dağlar,
Bağlansın qapılar, sönsün ocaqlar.
Könüllər ayrılsın sirdaşlarından,
Çaylar yaradılsın göz yaşlarından!

V ə z i r

Şahim! Vicdanınız sonra ağrıyar...

Q a c a r
(*kinayəli*)

Vicdan!
O nə məndə, nə də səndə var!..
Gəlib çıxmadımı bizim elçilər?

V ə z i r

Xeyr, Qarabağdan yoxdur bir xəbər,
Deyirlər arifdir o İbrahim xan;
Deyirlər dərs alır Molla Pənahdan.

Q a c a r

O kimdir?

V ə z i r

Şairdir, ləqəbi "Vaqif".
Yaranmış, deyirlər, hər elmə vaqif.

Q a c a r

Yox bir, patavalı, çoban bir ölkə
Böyük Firdovsilər yaratdı bəlkə...

V ə z i r
(*qorxa-qorxa*)

Şahim, siz özünüz... azərbaycanlı...

Q a c a r

Nə?.. Mən?.. Mən?..
Çoxdandır atmışam onu üstümdən.

V ə z i r

Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var.

Q a c a r
(*qapıçıya*)

Yoxlayın, hardasa əsir gürcülər –
Gəlsin vuruşmağa o iki nəfər!

S ə r k ə r d ə
(*daxil olaraq*)

Şahim, qayıtmışdır bizim elçilər.

Elçilər gəlir. Şahın hüzurunda baş əydikdən sonra cavab məktubunu şaha verirlər.

Q a c a r
(*məktubu vəzirə verərək*)

Oxu, gör nə yazır Qarabağ xanı!

V ə z i r

(*məktubu açaraq heyrətlə*)

Şahim! Bu şeirdir, bəs cavab hanı?

Q a c a r

Oxu, deyirdin ki, şairləri var,
Yəqin ki, cavabı mənzum yazmışlar.

V ə z i r

(*həyəcanla oxuyur*)

"Aldıq məktubunu, Məhəmməd Qacar,
Tərlan oylağında sar ola bilməz!"

Q a c a r

(*hiddətlə*)

Sar ola bilməz!..

V ə z i r

"Bu dünya qalmamış ulu şahlara,
Zülm də, zalım da var ola bilməz!"

Q a c a r

Var ola bilməz!..

V ə z i r

"Göydən başımıza odlar da yağsa,
Bu ellər baş əyib xar ola bilməz.
Mayan turş ayrandır, zatın qırıqdır,
Söyüd ağacında bar ola bilməz.
Basma ayağını bizim torpağa,
İlandan, əqrəbdən yar ola bilməz!"

Q a c a r

(*son dərəcə hiddətlə*)

Aha! Cürətə bax, cəsarətə bax!
Vəzir! De, necədir kəklik ovlamaq?
Xəbərdar eləyin sərkərdələri,
Hücuma toplasın bütün əsgəri!
Gurlasın dağlarda şeypurun səsi,
Sabah alınmalı Şuşa qələsı!

İki nəfər gürcünü gətirirlər.

V ə z i r

Şahim! Gürcülərdir...

Q a c a r

Əsir gürcülər!
Sabah bu dağlara gün doğan zaman
Asılacaqsınız dar ağacından.
Soyunun, vuruşun, şərtim var yalnız:
Soysun dərinizi dırnaqlarınız,
Görünsün gözümə qıpqırmızı ət...
Qoy alsın ürəyim bir yeni qüvvət!
Sabah hücum vardır...
Tez olun, döyüşdə sağ qalan nəfər
Azad olacaqdır!..

Ş a l i k o

Şahim!

Q a c a r

Müxtəsər!

Ş a l i k o

Şahim, biz qardaşıq... birdir qanımız,
Birdir vicdanımız, birdir canımız...

Q a c a r

Necə? Qardaşsınız?

G ü r c ü l ə r

Bəli!

Q a c a r

Vəzir, bax!
Bu oyun doğrudan ləzzət olacaq!

V ə z i r

Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var...

Q a c a r

Tez olun, vuruşun!

Ş a l i k o

Gəl, qardaşım, gəl!
Onsuz da qapını açmışdır əcəl!
Gəl məni parçala öz əllərinlə,
Sonra baş götürüb dön bir ağ yelə,
Qayıt evimizə, gözləyir anan;
Barı, kor olmasın o ağlamaqdan,
Sən qayıt, qardaşım, barı yaşa sən,
Mən ölsəm də ölüm, sən sonbeşiksən.

(*Gürcülər soyunub vuruşmaq istərkən.*)

K i ç i k  g ü r c ü

Ah! Qolum qalxmayır!

Tamara çadırdan çıxaraq, gürcülərin arasına atılır, qollarını açaraq, şaha tərəf baxır. Sükut. Qacarın vəhşi qəhqəhələri. Bu an arxada – orduda üsyan qalxır. Bir nəfər əsgər yüyürərək Qacarın qarşısında durur.

Ə s g ə r

Bəsdir! Vuruşmaqdan yorulduq daha,
Barı, kor vicdanın baxsın Allaha!
Arvad-uşağımız İranda acdır,
Bir parça çörəyə, suya möhtacdır.
Bəsdir, bir doymadın içdiyin qandan...

Q a c a r
(*qılıncını çıxarır*)

Xain! Sən orduya fitnə salırsan?

Qılınc davası qopur, vuruşa-vuruşa arxaya çəkilirlər.
Səhnədə yalnız qapıçı və gürcülər qalırlar.

Q a p ı ç ı

Di qaçın! Tez qaçın, indi fürsət var,
Odur bax, hazırdır yəhərli atlar!
Sabah olarsınız doğma vətəndə.

T a m a r a

Çox sağ ol, qardaşım, sonra qaç sən də.

Gürcülər qaçırlar.

Q a p ı ç ı
(*Qacarın arxasınca kinlə baxaraq*)

Elə zənn etmə ki, qapıçınam mən,
Bir az seçilirəm nökərlərindən...
Fürsət axtarıram, gələr bir zaman,
Doyunca içərəm sənin qanından!

PƏRDƏ

## ALTINCI ŞƏKİL

Qarabağ. Qalın meşəli bir dağ. Dağ başında qala görünür. Meşənin ətəyində Eldarın dəstəsi. Bəziləri ayaq üstə, bəziləri də oturub söhbət edirlər. Ocaq tüstülənir. Bir ağacdan soyulmuş toğlu asılmışdır.

Kürd Musa
(*bayatı oxuyur*)

Qərənfiləm qələmsiz,
Qərarım yoxdur sənsiz,
Yorğanına od düşsün –
Necə yatırsan mənsiz?

Ceyranam, düzə gələm,
Otlaram düzə gələm,
Yüz il qəzəmət çəksəm,
Qurtarsam, sizə gələm.

İkinci qaçaq

Can, can, qurban olum o nəfəsinə!

Birinci qaçaq

Ay Musa, bir güldür məclisi yenə!
Danış, qurban olum, bildiklərindən!

Kürd Musa

Yox, Molla Nəsrəddin deyiləm ki mən.
Yaz ola, dovğa ola yarpızla,
Yay ola, sərin sular sal buzla,
Payız ola, pendir-çörək qarpızla,
Qış ola, isti otaq, bir qızla...

Gülüşürlər.

İkinci qaçaq

Ay can, ay can!

Birinci qaçaq

Yuxuna girsin!

İlyas

Eh, nə deyim Eldara,
Bizi saldı avara...
Yatağımız daş, qaya,
Ömrümüz getdi zaya.

Kürd Musa

Aşna! Deyən yenə sən
Yumurtası tərs gələn
Toyuq kimi ötürsən?..

İlyas

Eh... Ay Musa, düzü, mən
Soyumuşam bu işdən...

Kürd Musa

Bəs sən ağa, mən ağa,
İnəymizi kim sağa?

İlyas

Batmaq olarmı xana?
O top, tüfəng, topxana
Zarafatdır, ya nədir?

Kürd Musa

Gədə lap divanədir,
Bir gözümə doğru bax!

Bilirsənmi, ay axmaq,
Könlü balıq istəyən
Gərək girsin dənizə.

İlyas

Mat qalmışam lap sizə.

Kürd Musa

Qorxutmasın səni xan,
Yapışıb boğazından
Boğarıq sərçə kimi.
Bir də, İlyas, məsəl var:
El yığılsa bir yerə,
Vallah, kərən sındırar...

Eldar gəlir.

Eldar

Can, ay Musa, gözüm Musa!
Sənə yoxdur sözüm, Musa!
Kürd qızından belə oğul?

(*Qolunu Musanın boynuna dolayır.*)

Ad mənimdir, hünər sənin...

Kürd Musa

Yox bir...
Yox bir... sən dolama görək.

Eldar

Vallah, düz deyirəm, pələngsən, pələng!
Nə qədər qurtardın sən məni dardan,
Qanı dizə çıxan vuruşmalardan.

Qaçaqlar çoxlaşır, Eldar onlara baxıb sevinərək.

Gözəl gələcəyi görürəm sizdə,
Dünyanın gücü var əllərinizdə.
Biz ayrı düşsək də aşnadan, yardan,
Gərək çəkinməyək borandan, qardan!
Bir də ataların bir məsəli var:
Şanada bal tutan barmağın yalar.
Belədir, ay Musa?

Kürd Musa

Elədir, elə,
Hər damcı qüvvədir bir daşqın selə...

Eldar

Bir ağ gün görmədi bizim sonalar,
Öldü dirigözlü yazıq analar.
Yeri şumlayan biz, onu əkən biz,
Böyük sarayları qurub tikən biz.
Qışın şaxtasında taxıl becərən,
Nə rahatlıq görən, nə yuxu görən
Bizik, biz! Yenə də öldük acından,
Asıldıq hər zaman dar ağacından.
Taladı qurd kimi eli darğalar,
Nə bəydə insaf var, nə xanda qan var.
Nə vaxt qurtaracaq pis gündən insan?!

Kürd Musa

Ay Eldar! Doğrudan bu bəylər ki var,
Bir azca arpası çox düşən zaman
Yabı cinsi kimi şıllaq atırlar...

Gülüş.

Eldar

İndi də dişini qıcamış Qacar...
İranı talayan o qart canavar

Gəlir sürüsilə bizi soymağa,
Tökdüyü qanlardan içib doymağa ...

Şaliko, kiçik gürcü və Tamara həyəcanla gəlirlər.

Eldar

Kimsiniz, qardaşlar? Danışın, görək!

Şaliko

Zalım Məhəmməd Qacar,
Bizi soyub taladı,
Of... o qanlı hökmdar
Bizi oda qaladı.
Çox vuruşdu gürcülər,
Bəzən basılır hünər.
Bu dəfə basdı Qacar,
Bizi əsir aldılar.
Qana döndü dağ, dərə...

Eldar

Yaraşmayır basılmaq
Qəhrəman gürcülərə!

Şaliko

Oldu, bir işdir bu da.

Eldar

Sonra?

Şaliko

Bizi əsir aldılar,
Ayrıldıq obamızdan,
Öz isti yuvamızdan,
Bu həsrətlə saraldıq,
Ancaq qaçıb qurtardıq
Zalımın əllərindən.

E l d a r

Aha... Bildim...

Ş a l i k o

İndi sən
Qərib görsən də bizi,
Gərək hər üçümüzü
Salamat buraxasan!

E l d a r
(*gülür*)

Göz üstə yeriniz var,
Bizim əziz qardaşlar!
Tanıyıram o dağları,
Durna gözlü bulaqları.
Çox keçmişəm hər gölündən,
Gürcüstanın dost elindən
Var onlarda namus, hünər,
O yediyim duz-çörəklər
Unudulmaz bu dünyada,
Bir yaxşılıq getməz bada...
Ayə, ay uşaqlar!

(*Ağacdan asılmış toğlu cəmdəyinə işarə edərək.*)

Onu düşürün,
Tez olun, yaxşı bir kabab bişirin!

T a m a r a

Sağ olun, çən gəlir, hava qaralır;
Sonra gecikərik, gün də daralır...

E l d a r

İxtiyar sizindir, bizim bu dağlar
Sizin evinizdir, indi uşaqlar
Aparıb ötürsün sizi Tiflisə!

Ş a l i k o

Böyük bir yaxşılıq olar bu bizə.

E l d a r

Yox, yox! Bu borcumdur, borcumdur mənim!

(*Şalikoya.*)

Bura bax, qardaşım, indi şah Qacar –
O sizi talayan dişi canavar
İndi də göz dikib Azərbaycana.

Ş a l i k o

Şahlar hökm verir gündə min qana.

E l d a r

Bəs biz? Biz neyləyək? – Yığışın, gəlin,
Qüvvəti çox olar birləşən elin.
Gəlin qardaş olsun tüfənglərimiz;
İlanın başını ayaqlayaq biz!..

Ş a l i k o

Doğrudur, qardaşım, üç günə qədər
Çatar köməyinə bizim dəstələr.

E l d a r

Sizə inanıram, var olun, gəlin,
Tozu da qalmasın qanlı heykəlin!

Ş a l i k o

Biz gedək, vaxt gecdir.

E l d a r

Dayanın bir az!
Musa!

K ü r d   M u s a

Bəli.

E l d a r

Bəri qulaq as!
Götür beş-altı atlı,
Atları quş qanadlı,
Qonaqları özün apar.
Bir də, Musa! Mən ölüm,
Gözlə, başına dönüm
Yolda-izdə bir xata
Toxunmasın bunlara.

K ü r d   M u s a

Uşaqsan?! Uşaqsan?!

Ş a l i k o

Sağ olun, qardaşlar!

E l d a r

Göz üstə, göz üstə!

Gürcüləri böyük hörmət və şadlıqla yola salırlar.
Qoca bir qarı Eldarın yanına gəlir.

E l d a r

Qarı, hardan belə?

Q a r ı

Heç, oğlum, Eldar!
Bilirsən,köməksiz olur qarılar...
Var-yoxdan qalmışdı bircə inəyim,
Oydu göz dikdiyim, oydu köməyim.
Onu da bu gecə zorla aldılar,
Məni dirigözlü oda saldılar...

E l d a r
(*acıqlı*)

Kim aldı, ay nənə?

Q a r ı

Kim aldı? İlyas!

E l d a r
(*İlyasa qəzəblə baxaraq*)

Alçaq, utanmaz.

A r ş a k
(*Eldara*)

Gözüm su içməyir İlyasdan, düzü,
Beləsi güdaza tez verər bizi!..

E l d a r

Bu saat sal görüm tüfəngi yerə!

İlyas tüfəngi atır, başını yerə dikir.

E l d a r

Di get, yerin olsun o boş mağara,
Tüfəng yaraşmayır namussuzlara!..

(*Eldar cibindən pul çıxararaq qarıya verir.*)

Al, nənə! Özünə get bir inək al,
İndidən adını qoyuram "Maral".

Q a r ı

Sənə qurban olsun bu qoca nənən,
Dünyada kasadlıq görməyəsən sən!

Gedir.

E l d a r
(*acıqlı, İlyasa*)

Tfu... sənin üzünə! Buna bax, buna;
Mən də inanmışam namərd oğluna...

İ l y a s

Qələt eləmişəm, bir xatadır bu,
Bir də eləmərəm ömrüm uzunu.

E l d a r
(*tüfəngi İlyasa qaytararaq, azca mülayim*)

Axmaq! Koroğlunun bir təmiz adı
Xanlarda, bəylərdə tutar qoymadı.
Bir də bu qələti...

Əli bəy tez oraya gəlir, Eldarla görüşür. Hamı yığışıb ona qulaq asır.

Ə l i  b ə y

Eldar! Bir qulaq as, qulaq as, Eldar!
Basqına keçmişdir Məhəmməd Qacar.
Atam çıxmışsa da vəzirliyindən,
Deyir, yad əllərə keçməsin Vətən.

Bilirsən, o yanır pərvanələr tək,
İndi nəyin varsa Əsgəranə çək.
Qacarla vuruşun arxa tərəfdən, –
Atamın fikrini söyləyirəm mən.
Qaldı xan... – həmişə əlimizdədir,
Vətənin gözləri indi bizdədir.
Bu yurda qoymayaq zalım Qacarı,
Talana getməsin ellərin varı!

E l d a r

Çox gözəl, Vaqifə ərz elə ki, sən
Kənara çıxmaram onun sözündən.

(*Öz dəstəsinə dönür.*)

Vətən torpağının böyük bir oğlu,
Vicdanı bir böyük eşq ilə dolu,
Bizi dəvət edir qışdan bahara –
Azadlıq uğrunda vuruşmalara!..

Ura çəkib hücuma keçirlər.

PƏRDƏ

YEDDİNCİ ŞƏKİL

Dağlıqdır, arxada şiddətli top səsləri, tüfəng səsləri eşidilir. Dağ arxasından, Qacarın ordusu tərəfindən yandırılmış kəndin alovları göyə qalxır. Uzaqdan arvad-uşaq fəryadları eşidilir.

Q a c a r
(*dağ başından yanan kəndin alovlarını seyr edərək*)

Yan, yan, tərlanların yaşıl yuvası!
Ruhuma can verir ölüm havası...
Çıxsın asimana odlar, alovlar,
Göylərdən od töksün yerə ruzigar!

Yan, yan! Kömür olsun hər qaya, hər dağ,
Baş əysin hökmümə bütün Qarabağ!
Üzsün qan içində gəlinlər, qızlar,
Yerdə göyərçinlər, göydə ulduzlar.
Ana qarnındakı o qandanam mən...
Bütün kainata qan olsun kəfən!
Mənim vicdanım da, qəlbim də qandır,
Dünya qan üstündə bir xanimandır...

V ə z i r

Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var.

Q a p ı ç ı
(*Qacara yaxınlaşaraq*)

Şahim! Bağışlayın, hüzurinizə
Bir kəndli gəlmişdir, sözü var sizə.

Q a c a r

De, gəlsin!

Q a p ı ç ı

Gəl, ata, gəl, budur Qacar!

Qoca kəndli yaxınlaşır.

Q o c a

Sizə bir sözüm var, böyük hökmdar!
Mən bu yanan kəndin ağsaqqalıyam,
Ellərin dərdindən bir az halıyam.
Yanır od içində körpə uşaqlar,
Bizim kəndlilərin nə təqsiri var?

Əmr edin, dayansın yanğınlar, barı,
Xaraba qoymayın bu obaları!
Bu dağlar qoynunda aslan yatmışdır,
Burda koroğlular at oynatmışdır...

Q a c a r
(*hiddətlənərək qocanın səsini kəsir*)

Yaxşı! Sus, qoca köpək!

(*Kinayə ilə.*)

Burda koroğlular at oynatmışdır...

Qacar gedir.

Q o c a
(*Qacarın arxasınca*)

Ah, cəllad, bimürvət! İndi qulaq as,
Süleyman dünyası sənə də qalmaz.

(*Qalxıb gedir.*)

Qacar yenə qayıdır. Qaya başında dayanır. Bu arada Qacarın sərkərdəsi tələsik gəlir.

S ə r k ə r d ə

Şahim! Arxa cəbhə çox qorxuludur,
Elə bil doğrudan cahan yoludur...
Eldarın dəstəsi gəlir irəli,
Qırır sərçə kimi bizimkiləri.
Odur yaxınlaşır! Gizlənin, barı...
Tutaq qabaqdakı qayalıqları,
Oralar çox bərkdir...

Q a c a r

Çəkin atları!
Bir bölük göndərin arxaya sarı,
Qabağı saxlasın gizlənincə biz.

S ə r k ə r d ə

Budur, burdadır ki, əsgərlərimiz.

Qapıçı gəlir.

Q a p ı ç ı

Şahim! Qarabağın şeyxidir gələn.

Q a c a r

De, gəlsin!

Şeyx bir dəstə əyan ilə gəlir.

Ş e y x

Ey şahim! Ey fəxri-vətən!
Sizin yolunuzu gözləyirdik biz,
Sizə duaçıdır nəsillərimiz...
Buyurun, qapımız açıqdır sizə;
Yurdu tapşırırıq əllərinizə.

Q a c a r

(*kinayə ilə*)

Yaxşı, bəs nə oldu o İbrahim xan?

Ş e y x

Siz arxayın olun İbrahim xandan!
Bu gecə qaçmışdır o, Dağıstana!

Q a c a r

Ha... ha... ha... Qaçmışdır kələbaş dana!
Yaxşı, qoşul bizə, bizimlə də get,
Bu vəhşi dağlarda bələdçilik et!

Ş e y x

Buyurun, buyurun!

Gedirlər. Bir bölük əsgər danışa-danışa qabağa gəlir.

T e y m u r

Əlimiz, dişimiz, tüfəngimiz qan,
Yorulub bezmədik vuruşmalardan...
Dünyadan doymadı şahların gözü,
Lap cana doymuşam bunlardan, düzü.

Ə s g ə r

Dava meydanında bir əsgərik biz,
Nə desə hazırıq, öz sərkərdəmiz,
Sən nə danışırsan?..

T e y m u r
(*kinayəli*)

Bir əsgərik biz!..
Yıxır evimizi öz əllərimiz...
Axmaq! Bu dediyin davalarda sən
Gülləyə rast gəlib it kimi ölsən,
Şahların keyfindən nə azalacaq?

Ə s g ə r

Orduya pozğunluq gətirmə, sarsaq!
Bizi qırıb tökür bir qaçaq Eldar.

T e y m u r

Nə qədər qırsa da, onun haqqı var;
Bu torpaq onundur!

Ə s g ə r

Aha!.. Satqınsan!

Qılınc vuruşuna keçirlər. Əsgərlər toplaşıb, iki tərəf olub vuruşurlar. Bu halda Eldarın dəstəsi görünür. Vuruşma gedir. Teymur və bir neçə əsgər Eldar tərəfə keçirlər.

T e y m u r

Biz də sizinləyik, gəlin, qardaşlar!

E l d a r

And için qılınca!

Əsgərlər qılınca ad içirlər. Vuruşma davam edir. Qacarın əsgərləri qaçmağa məcbur olurlar. İlyas arxadan Eldarı vurmaq istəyir, tüfəng açılmır, ikinci dəfə atana qədər Kürd Musanın gülləsi onu yıxır.

E l d a r

Bu nədir, ay Musa?!

K ü r d   M u s a

Nolacaq?! Heyvan
Vurmaq istəyirdi səni arxadan.

E l d a r

Yaxşı, di durmayın, dayanmaq olmaz!

K ü r d   M u s a

Tələsmə, gözləyək burdaca bir az,
Arxada qalanlar gəlib çatsınlar.

Bu arada Əli bəy bir neçə adamla tələsik gəlir.

Əli bəy

Ayə, hardasınız?.. Eldar, ay Eldar!

Eldar

Əli bəy, sən hardan? Tez ol, bir danış!

Əli bəy

Eldar! Daha bizə ümid qalmamış,
Çəkilin meşəyə, çəkilin, Eldar!
Nahaq qırılmasın bizim adamlar.

Eldar
(*hirsli*)

Əli bəy! Nə olub? Bir danış, niyə,
Sən nə danışırsan? Necə, geriyə?

Əli bəy

Qaçdı tülkü kimi, qaçdı qabaqdan...
Qaçdı İbrahim xan, açıldı yollar,
Bizə qəh-qəh çəkib güləcək Qacar.

Arşak
(*son dərəcə hiddətli*)

Ax! Namərd... Deməli, boş qaldı qabaq!

Eldar

Vətən torpağında xəyanətə bax!

Kürd Musa

Güllə qabağında canından qorxan,
Qurumsaq!

Eldar

Yox... yox... basılmaz Vətən!
Hələ bu dağlarda ölməmişəm mən.
Durmayın, çəkilin tez meşələrə!
Bizim yuvamızdır bu dağ, bu dərə.
Böyük bir qüvvətlə yenə gələrik,
Qacarın üstünə biz də gülərik.

Eldar gedir, adamları da onun arxasınca geri çəkilirlər.

PƏRDƏ

## DÖRDÜNCÜ PƏRDƏ

### SƏKKİZİNCİ ŞƏKİL

Qarabağ. Şuşa qalası. Xan sarayı. Qacarın kef məclisi.
Məclisdə əyanlar, bəylər iştirak edirlər.

Qacar
(*böyük bir qürurla*)

Keçdi pəncəmizə gözəl Qarabağ,
Öpsün qılıncımı hər qaya, hər dağ,
Mən Qacar nəsliyəm, şahlar şahıyam,
Mən də yer üzünün bir allahıyam.
Gərək biz qoymayaq daşı daş üstə,
Atın yığın-yığın leşi baş üstə!
Mənim vicdanım da, qəlbim də qandır,
Dünya qan üstündə bir xanimandır!..

V ə z i r

Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var.

Ş e y x

Ey böyük hökmdar! Ey ulu Qacar!
Sizdəki qüvvətə baş əyir dağlar.
Biz də sayənizdə ömür sürürük,
Bu fani aləmdə ağ gün görürük.
Sizə kömək olsun böyük Yaradan,
Bu müqəddəs kitab, müqəddəs Quran.

Q a c a r

Rəqqasələr gəlsin!

Rəqqasələr oynayır. Qacar onların birini öpür. Birdən qızın döşündən itələyərək.

Deyirlər şirindir busənin dadı,
O da kor bəxtimə qismət olmadı...

(*Xanəndələrə kinayə ilə.*)

Belə deyirlər ki, ağladır yeri
Sizin Qarabağın xanəndələri.
Hünəriniz varsa, bir "Rast" oxuyun!

X a n ə n d ə
(*oxuyur*)

Gözüm yollarda qalmışdır, xəbər yox Kür qırağından,
Usanmaq bilməyir könlüm yaşılbaşlar sorağından.
O yerlər min xəyal eylər, təbiət şerə layiqdir,
Öpər bülbül səhər tezdən gülün yaqut dodağından.
Çəmənlər, yasəmənlər göz vurub, bir cilvə göstərsə,
Durar könlüm, çıxar seyrə həyatın qəm otağından...
Keçər aylar, keçər illər, yaz, ey Vaqif, ömür azdır,
Düşər bir gün laçın könlün şeir-sənət marağından.

Q a c a r

Qəzəl Vaqifindir?

Ş e y x

Bəli, Vaqifin!

Q a c a r

Nə oldu? Onu tez tapıb gətirin!

Sərkərdə baş əyib çıxır.

Vəzir! Bu doğrudan böyük qüdrətdir,
Hər sözü, söhbəti canlı sənətdir.
Böyük təhlükədir bu şair bizə,
Sən nə fikirdəsən?

V ə z i r

Nə deyim sizə,
Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də var, ədalət də var.

Ş e y x

Şahim! Təhlükədir Vaqif, doğrudan,
Onu gözünüzdən qoymayın bir an...
Deyir, qanunlarda yoxdur həqiqət,
Deyir ki, pərdədir bütün şəriət,
Nədənsə el-oba çox sevir onu,
Bilməyir bu qədər tərs olduğunu.
Bir də bərk dostudur o qaçaq Eldar –
Sizin düşməniniz, bəli, o murdar!
Vaqif yaşadıqca – qorxudur bizə,
Şair görünməsin gözlərinizə!..

Q a c a r

Yazdığı cavabdan bilmişəm onu,
Dayan, sovuraram göyə tozunu!
Qoy gəlsin, əylənib gülüşək bir az,
Bizim dilimizi o bağlayammaz.

Təlxək hürə-hürə gəlir.

Q a c a r

Təlxək, yenə hürürsən?

T ə l x ə k
(*əyanları göstərərək*)

Şah sağ olsun, bu sürüyə
Bəs bir köpək deyil gərək?

Hamı gülür.

Q a c a r

Təlxək, söylə, məni çoxmu sevirsən?

T ə l x ə k

Şahim, yaranmadan qulunuzam mən...

Q a c a r

Bir de görüm, məni əsir alsalar,
Qaranlıq zindana tutub salsalar,
Neylərsən?

T ə l x ə k

Neylərəm? Neylərəm? Aman!..
Keçərəm yolunda baş ilə candan...
Sizi zindanlara salsalar əgər,
İnsan boğazlaram düz otuz nəfər...

Q a c a r
(*ayağa qalxıb qızıl kəmərini göstərərək*)

Təlxək, kəmərimin qiymətidir bu.

T ə l x ə k

Şahim! Elə mən də bilirəm bunu.
Kəmərdən qiymətli sizdə nə var ki?

Gülüş. Vaqifi gətirirlər.

Q a c a r
(*heyrətlə*)

Aha... baş əyməyir hüzurumda bu!

Ş e y x

Yoxdur vicdanında qanun qorxusu.

Q a c a r
(*Vaqifə*)

Şair, hökmdarın hüzurundasan!

V a q i f

Bunu sizsiz belə düşünürəm mən.

Q a c a r

Bəs baş əymədiniz?

V a q i f

Əymədim, bəli!
Əyilməz vicdanın böyük heykəli...

Q a c a r

Qılınclar toqquşub iş görən zaman,
Neylər dediyiniz quru bir vicdan?

V a q i f

Vicdan dedikləri bir həqiqətdir –
Beşiyi, məzarı əbədiyyətdir...

Q a c a r

Bəs zindan necədir, qaranlıq zindan?!

V a q i f

Soyuq məzara da zinətdir insan.

Q a c a r

Yenə göylərdədir şair xəyalın?

V a q i f

Əzəldən hüdudu yoxdur kamalın...

Q a c a r

Aha... sınayırdım idrakinizi,
Doğrudan bir şair görürəm sizi,
Xoşbəxt xəlq eləmiş sizi Yaradan!

V a q i f

Dünyada qalacaq yalnız Yaradan!..

Q a c a r

Çox gözəl, çox gözəl, inanın ki, mən
Sizin ruhunuzu sevdim ürəkdən.
Bu dövlət, bu cəlal, bu şanlı saray,

Göylərin büsatı o ulduz, o Ay
Sizə tapşırılsın bu gündən gərək.
Ancaq bir şərtim var.

V a q i f

Buyurun görək!

Q a c a r

Gərək fars dilində yazsın sənətkar.

V a q i f

Farsın öz qüdrətli şairləri var,
Nə çoxdur onlarda böyük sənətkar.
Azəri yurdunun oğluyam mən də,
Az-az uydururam yeri gələndə.

Q a c a r

Yaxşı, gəl əl götür bu inadından,
Bu qədər naşükür olmasın insan!

V a q i f

Aldada bilməmiş dünyanın varı
Bir məslək eşqilə yaşayanları!
Mən ellər bağında azad bir quşam,
Mənsəbə, şöhrətə satılmamışam!..

V ə z i r

Yaxşı da... Çarıqlı kiçik bir ölkə
Böyük Firdovsilər yaratdı bəlkə?..

V a q i f

Dayan! Bu bağçanın hər bir budağı
Üstündə min çiçək, min dil bitirmiş,
Sizin güldüyünüz çoban torpağı
Nizamilər, Füzulilər yetirmiş!

Q a c a r
(*kinayə ilə*)

Nizamiyə bax... Füzuliyə bax...

V a q i f

Günəşi örtsə də qara buludlar,
Yenə Günəş adlı bir qüdrəti var.

Q a c a r

Görünür, Günəşə iştahan vardır.

V a q i f

Günəşdən gizlənən yarasalardır...

Ş e y x

Buna qulaq asmaq çətin peşədir.

V a q i f

Niyə, qulağınız çoxdan şeşədir –
Böhtan eşidəndə qızarıb yanar,
Doğru söz gələndə pambıq tıxanar.

V ə z i r

Sizin sözünüzün kəsəri azdır.

V a q i f

Oxuyan bülbüldür, dinləyən qazdır!

V ə z i r

Of... Məndə olsaydı bundakı hünər!..

V a q i f

Ağılsız köpəklər ulduza hürər.

Q a c a r
(*vəzirə*)

Di ver cavabını, nə durmusan? Din!
Hə... yenə döyükür sarsaq gözlərin!..

V a q i f

Neyləsin, yazığın nə təqsiri var?
İşıq güclənəndə çaşar qarovlar...

Ş e y x
(*kinayə ilə*)

Şairə sənətdir tikanlı sözlər.

V a q i f

Sözdən qızarmaz ki, bozarmış üzlər...

Qapıçı daxil olur.

Q a p ı ç ı

Şahim, bir qoca var, gəlsin içəri?

Q a c a r

De, gəlsin.

Vidadi daxil olub təzim edir.

V i d a d i

Hakimin hökmü, hünəri
Onun vicdanilə qardaş olmalı!
Bizə qalmayacaq dünyanın malı...

(*Vaqifi göstərərək.*)

Şairdir... qəlbi var, şirin sözü var,
Böyük bir ölkənin onda gözü var,
O ölsə... dağlar da dil deyib ağlar,
Əfv edin... yaxşılıq qalır yadigar.

Qacar

Dinin düşmənidir, o, ölsün gərək!

Vidadi

Xeyr! O Vaqifdir, eşqə gələrək
Bəzən qamçılayır zəmanəsini,
Allah da çox sevir şerin səsini.

Qacar
(*acıqlı*)

Allah da çox sevir? Allaha yalvar,
Onun məndən də çox ədaləti var,
Əgər bacarırsa, qoy sağ saxlasın...

Vidadi

Siz hökmdarsınız...

Qacar

Yaxşı, qoca, mən,
Artıq əl çəkirəm ölüm fikrindən.
Ancaq kəsəcəyəm yazan əlini,
Bir də həcv deyən acı dilini.
Razısan?

Vaqif

Razıyam, böyük hökmdar!..
Mərhəmət sahibi olur ağalar.
Eyb etməz, sizə də çatar bir əvəz,
Qatır cinsisiniz, doğub törəməz.

Q a c a r

Vaqif, indi get,
Saray həyatını büsbütün tərk et,
Gərək yaşamasın qədrnaşünas!

V a q i f

Sənsə həqiqətin ağzına daş bas!
Mən az görməmişəm bu sarayları,
Burda göyə çıxan ahü vayları...
Görmüşəm şahların vəfasını mən,
Xanların zülmünü, cəfasını mən.
Görmüşəm zamanın min ruzgarını,
Dustaq anaların göz yaşlarını.
Nifrət! Qan çanağı taclara nifrət!
Var olsun azadlıq, bir də məhəbbət...

Çıxır.

Q a c a r
(*hiddətlənərək, Vaqifin arxasınca*)

Aparın, aparın onu zindana,
Göz dağı çəkdirin Azərbaycana!

V i d a d i

Qızılı udsa da qara torpaqlar,
Yenə qiymətini özündə saxlar...

Çıxır.

Q a c a r

Bəri bax, dayanma, burda Zülfüqar!
Vaqifi zindana sən özün apar,
Bir quş da səkməsin onun yanından!

Q a p ı ç ı
(*ikimənalı*)

Baş üstə, yatmaram gecəni bir an,
Əsən küləkdən də gözlərəm onu...

Q a c a r

Mənim vicdanım da, qəlbim də qandır,
Dünya qan üstündə bir xanimandır!..

V ə z i r

Buyruq sizinkidir, adil hökmdar
Sizdə fəzilət də, ədalət də var...

Q a c a r
(*dəlicəsinə*)

Dağılın, dağılın, boğuldum yenə...

Hamı çıxır.

Q a c a r
(*öz-özünə*)

Nə deyim, nə deyim tale deyənə?
Könlüm ayrılmayır xanimanından,
Gözlərim doymayır insan qanından.

(*Xəstə kimi özündən şübhələnərək.*)

Bu nədir, canımda üşütmələr var?
Aha... nə dərindir bu uçurumlar?..
Gözlərim qaralır... aman... ölürəm!..
Ha... ha... ha... Bu nədir? Yoxsa gülürəm?
Günahsız qanlarmı gözümə durur?

(*Özünün nəbzini tutaraq.*)

Yox, yox! Hələ qəlbim qaydayla vurur,
Xeyr, ölməmişəm hələlik sağam,
İndi mən ölümlə çarpışacağam!

Qılıncı çıxarır, qolları boşalır, qılınca dirsəklənərək
taqətsiz bir vəziyyət alır.

PƏRDƏ

## DOQQUZUNCU ŞƏKİL

Şuşa qalası. Qayalıqda zindan. Səhərdir, günəş yenicə qalxır.
Vaqif divara şeir yazır, sonra da yazdığı şeri oxuyur.
Əli bəy qulaq asır.

Vaqif

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm əyri gördüm, özgə babət görmədim.
Aşinalar ixtilatında sədaqət görmədim,
Beyəti-iqrari-imani-dəyanət görmədim.

Müxtəsər kim, böylə dünyadan gərək etmək həzər,
Ondan ötrü kim, deyildir öz yerində xeyrü şər. –
Alilər xaki-məzəllətdə, dənilər mötəbər,
Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər,
İşlənən işlərdə əhkami-ləyaqət görmədim...

(*Oğluna baxaraq.*)

Ah, oğlum, of, mənim qəhrəman oğlum!
Bu qədər qəm yemə, qurbanın olum!

Əli bəy

Eh... ata, nə qoyub, nə axtarırsan,
Zülmün qabağında ağlarmı insan?

V a q i f

Mərhəba, mərhəba, qəhrəman oğlum!
Bir gəl öpüm səni, pəhləvan oğlum!

(*Oğlunu qucaqlayıb bərk-bərk öpür.*)

Gözümün işığı, canım, ciyərim,
Bu nəmli torpaqlar olsa da yerim,
Mənim nə dərdim var, təki sən yaşa!
Of, Qacar... vicdanın döndümü daşa?

Ə l i  b ə y

Ata, bilirsənmi?

V a q i f

Nəyi? De, nə var?

Ə l i  b ə y

Hələ də çöllərdə qaçaqdır Eldar –
Sənin köhnə dostun vardı bir zaman;
Sən özün qurtardın onu zindandan.

V a q i f

Bilirəm, bilirəm.

Ə l i  b ə y

Yaz ki, Eldara,
Yaman bir gündəyəm, düşmüşəm dara,
Bir kömək əli ver!

V a q i f

Yazım, qoy yazım...

(*Cibindən dəftərçə çıxarıb yazır.*)

G ü l n a r
(*tələsik gəlib qapıçının ovcuna pul basaraq, pəncərədən.*)

Əli bəy, Əli bəy!

Ə l i  b ə y

Ata, Gülnardır!

V a q i f

Sənin sevgilinin vəfası vardır!

G ü l n a r
(*əlindəki kiçik bağlamanı pəncərədən uzadaraq*)

Alın, ac qalmayın...

(*Ağlayır.*)

Ə l i  b ə y

Ağlama, Gülnar!

V a q i f

Qızım, hər gecənin bir gündüzü var.
Sənə halal olsun hər əməyimiz,
Yoxdur səndən özgə bir köməyimiz.
Ala bu məktubu, qoynunda gizlə,
Onu gözün kimi qoruyub gözlə,
Çatdır hardadırsa, qaçaq Eldara!

G ü l n a r

Siz arxayın olun.

(*Çaparaq gedir.*)

V a q i f

(*oğluna*)

Bir bax Gülnara,
Atalar sözüdür, yaxşı qulaq as:
Aslanın erkəyi, dişisi olmaz!
Ellər qurtaracaq bizi bu dardan,
Dünya ayırmasın səni Gülnardan!

(*Doğmuş günəşə şairanə bir göz gəzdirərək.*)

Odur, bax, günəşin rənginə bir bax!
Yanır kainata işıq saçaraq.
O günəş gəncliyin timsalıdır, bil,
Gəncliyin günəşi saralan deyil.
Can balam, parlasın ömrün günəş tək,
Nə can yanğısı gör, nə iztirab çək!

Əli bəyin başını sinəsinə doğru çəkərək onu oxşayır.
Vidadi gəlir, qapıçı buraxmaq istəmir.

Z ü l f ü q a r

Olmaz, kişi, bir dayan,
Bizi işə salarsan.

V i d a d i

Yox, mən onu görəm gərək,
Kor eləsin səni fələk
Məni geri qaytarsan!

Qapıçı qapını açaraq.

Z ü l f ü q a r

Di gəl, tez ol, tez qayıt ha!
Xəbər çatar birdən şaha.
Onsuz da çox qudurğandır,
Çörəyi qan, suyu qandır...

Vidadi daxil olur. Vaqifi qucaqlayır.

V i d a d i

Nə qədər yalvardım yenə Qacara,
Dedi, get, səni də çəkdirrəm dara...
Sonra bütün gecə xəyala vardım,
Allaha üz tutub yenə yalvardım.
Onda da görmədim vicdandan əsər,
Doğru deyirsənmiş, aldanmış bəşər!
Bir kömək gəlməyir sizə əlimdən,
Sözüm yerə düşdü... niyə sağam mən?!

V a q i f

Qardaşım! Sən nahaq yalvardın ona,
Söz əsər eləməz qəlbi pozğuna...
Bir də, qorxmayıram mən heç ölümdən,
Dünyanın qəlbində qalacağam mən!

V i d a d i

Yox, yox, ölüm sənə yaraşmayır heç!

V a q i f

Vidadi! Gəl məndən birdəfəlik keç,
Qayıt kəndimizə, qorxuram səndən;
Barı, Vidadisiz qalmasın Vətən...

V i d a d i

Necə? Mən qayıdım? Bunu görməzsən,
Sən ölən torpaqda öləcəyəm mən!..

Qapıçı Vidadini çəkə-çəkə aparır. Vaqif fikrə gedir.

Əli bəy

Ata, lap heyranam Vidadiyə mən,
Doğrudan o sənə yanır ürəkdən.
Nə təmiz, nə böyük təbiəti var,
Ona bənzəsəydi bütün insanlar!..

Vaqif

Böyük təbiətlər yaranır az-az
Hər yerdə, hər zaman inci tapılmaz...

Pauza. Həzin musiqi səsi. Xuraman pəjmürdə və son dərəcə dalğın gəlir.

Xuraman
(*zəif bir səslə*)

Vaqif! Ey sərvərim, ey tacidarım!

Vaqif
(*acı bir fəryadla*)

Nə var, nə deyirsən, vəfalı yarım?

Xuraman

Uydum bu dünyada nazü nemətə,
Özüm də bilmədən uydum şöhrətə.
Bilmədim axırı zəhrimarımış...
Hər qızıl xəzinə bir şahmarımış...
İndi öz əlinlə gəl öldür məni,
Nə qədər alçaldım, alçaltdım səni...

Vaqif
(*daha şiddətli*)

Get, get, vəfasızsan bu dünya kimi!
Görünmə gözümə bir röya kimi...

Xuraman məyus və peşman qayıdır, uzaqdan onun qəmgin səsi eşidilir.

X u r a m a n

Bir ceyrandım, ürkütdülər yatağımdan,
Bir quş idim, ayrı düşdüm budağımdan,
Külək əsər, yarpaq düşər, çiçək solar...
Viran qalmış mənim bu can otağımdan.

V a q i f
(*bu nəğmədən mütəəssir olaraq*)

Budur, yer üzünün əşrəfi insan
Yaradır gündə bir hicranlı dastan.
Nəydi o yazığın, nəydi günahı?
İndi çöllərmidir onun pənahı?
İnsan! O müqəddəs bir kainatdır,
O saf qəlbi pozan yalnız həyatdır...

(*Tez pəncərədən.*)

Qapıçı, qapıçı, çağır gedəni!
Oğul! Lap oyatdı o mahnı məni.
Bəzən yanılsa da gözəl bir mələk,
Ondan iyrənsə də hər duyan ürək,
Buna müqəssirdir, şübhəsiz, zaman...

Q a p ı ç ı
(*qayıdaraq*)

Özünü qayadan atdı Xuraman!

V a q i f
(*başını əlləri arasına alaraq fəryadla*)

Of... partla, ürəyim! Yazıq Xuraman!
Bizim eşqimizi məhv etdi zaman...

PƏRDƏ

## BEŞİNCİ PƏRDƏ

### ONUNCU ŞƏKİL

Meşə. Eldarın dəstəsi bu dəfə əvvəlkindən çox görünür. Eldar qaya başından dərəyə baxır, sonra ayağının altındakı qayaya baxaraq.

E l d a r

Budur Qız qayası – hicran yuvası!
Başından çox əsmiş ölüm havası.
Bağrını deşdikcə hər soyuq külək,
Ah çəkib, of demiş, köks ötürərək...
O hələ almamış bu dünyadan pay,
Dərdini duymamış nə ulduz, nə Ay.
Ona həmdəm olmuş saralan şamlar,
Qəlbi hicran çəkmiş qərib axşamlar...
Of, yazıq analar, of, igid Vətən!
Nələr çəkməmişsən bu dünyada sən...
Qılınclar, nizələr, dəmir qalxanlar,
Sinəndə at çapan şahlar, xaqanlar
Səni parçaladı, diddi ətini,
Qəlbini, hissini, məhəbbətini...

A r ş a k

Eldar! Yenə fikrə cumubsan!

E l d a r

Arşak!
Bir gəl, bu qaralan dərələrə bax!

A r ş a k

Baxıram, nə var ki, susuzdur dərə.

E l d a r

Yaxşı bax, yaxşı bax o sümüklərə!
Görürsən? – Kəllələr, əllər, ayaqlar...

A r ş a k

Onları görməsə gözüm, ay Eldar,
Mənim bu çöllərdə nə azarım var?
Elə bil, od yağır yenə havadan...

E l d a r

Dərdini bilirəm, Sayat-Novadan
Bir ağız deməsən, dincələnməzsən.
De, başına dönüm, de gəlsin!

A r ş a k

Otur!

(*Sayat-Novadan oxuyur.*)

E l d a r

Nə gözəl sözlərdir – duzlu, məzəli...
Aşığı yaradır ellər gözəli.

A r ş a k

Eldar, bəs nə oldu Məhəmməd Qacar?
De görək neyləyək, nə tədbirin var?..

E l d a r

Arada ellərin çox axdı qanı,
Kürd Musa axtarır İbrahim xanı;
Hardasa gizlənib, tapacaq onu.
Qacarla bitəcək davanın sonu.

A r ş a k

Ah! O zəhərlədi bütün havanı,
Saz tutub söz deyən Sayat-Novanı
O qurd parçaladı, Tiflisdə, o qurd!
İlana bənzəyən o qara bulud!..

E l d a r

Didib dağıtsaydım zalım Qacarı...

A r ş a k

Gürcülər köməyə çatsaydı, barı!

E l d a r

Çatarlar, çatarlar!

T e y m u r

Gələn var, ehey!..

A r ş a k

Böyük bir dəstədir o gələn, Eldar!

E l d a r

Musa, bir yoxla tez!

A r ş a k

Olmasın Qacar!

T e y m u r

Aha, üstümüzü yaman aldılar...

E l d a r

Arşak, sən dərənin boğazında dur,
Teymur, Haça dağa...

T e y m u r

Gəlirlər, odur!

E l d a r

Keçinin əcəli yetişən zaman
Çoban çomağına sürtünər heyvan.

K ü r d  M u s a
(*qışqıra-qışqıra gəlir*)

Ay Eldar! Gürcülər gəldi, ay Eldar!

E l d a r

Necə, gürcülərdir?

K ü r d  M u s a

Onlardır, onlar!

E l d a r
(*gürcüləri qarşılayaraq*)

Bu dağlar sizindir, əziz qardaşlar!
Ellərin ağzilə öpürəm sizi,
O azadlıq sevən qəlblərinizi.

(*Görüşüb öpüşürlər.*)

Əyləşin, əyləşin, dincəlin bir az!

Hamı əyləşir.

Of... ötür qəlbimdə min sədəfli saz,
Çoxdan istədiyim bu qardaşlığın
Bu dağlardan böyük qüvvəti var.
Qoy indi tablasın Məhəmməd Qacar!..

Kabab-çörək gətirirlər, yemək başlanır.

Eldar
(*Tamaraya*)

Bacım! Siz nə üçün gəldiniz yenə?

Tamara

Yaxın gəl, qulaq as qəlbim deyənə.
Bu ana qəlbidir, gəl onu sən yar,
Gör nə döyüntülər, nə ağrılar var!

Eldar

Aha... dərdlisiniz, danışın, barı!

Tamara

Soldu gəncliyimin ilk yarpaqları.
Gözümün işığı bir balam vardı,
Yenicə-yenicə top oynadardı,
Onu parçaladı düşmən gülləsi;
Susdu bülbül kimi balamın səsi.
Sinəmə dağ çəkdi Məhəmməd Qacar,
Amandı, onu tap, mənə ver, Eldar!
Qoy boğsun o əli qanlı murdarı
Bir ana qəlbinin hıçqırıqları!..

Şaliko

Eldar! Doğrudan da Məhəmməd Qacar
Tiflisi odlara qaladı keçdi;
Of! O sürək görmüş dişi canavar
Bizi quduz kimi daladı keçdi;

Yandı şəhərdəki böyük binalar,
Qucaqda körpəsi yandı analar.
Bax, bu gözlərimlə onları saydım,
Of... bircə Qacarı parçalasaydım!..

E l d a r

Kefini heç pozma, vətən qardaşı,
Əzilər dediyin ilanın başı.

A r ş a k

Şaliko, Şaliko! Qüvvət bizdədir,
Dünyanın cilovu əlimizdədir.

K ü r d  M u s a

Canım, qaraltmayın bir qanınızı,
Düşmən almayıb ki, dörd yanınızı,
Nə çox "Qacar" deyib söylənirsiniz?
Elin basılmayan qalasıyıq biz.

E l d a r

Eləsə məşq ilə necədir aran?

K ü r d  M u s a

Varam, bərk dayan ha!..
Sağalmaz yaran...

E l d a r

Ha... ha... ha... buna bax,
Buna bax, Arşak!
Çıxar qılıncını, südəmər uşaq!

A r ş a k

Çalın, cəngi çalın!

Musiqi. Eldar və Kürd Musa qılınc döyüşdürürlər.

K ü r d   M u s a

Dayan, kəklik əti yeməmisən sən!

E l d a r

Sənə yedirtmişəm, gəlsin gözündən!

Musiqi. Qılınc döyüşü davam edir, iki tərəf olurlar.
Şaliko qılıncını onların arasına tutur.

Ş a l i k o

Canım! Zarafat bu boyda!..

Gülüş.

T a m a r a

Doğrudan, Eldar!
Qılınc döyüşündə məharətin var!

K i ç i k   g ü r c ü

Bu dağlar mülkünün pələngi sənsən!

E l d a r
(*gürcülərin birinin əlindəki çonquriyə baxaraq*)

Bu nədir?

G ü r c ü

Çonquri deyirik buna,
Sizin saz kimidir.

E l d a r

Yaxşı, çalsana!..
Xoşdur bu dağların sərin havası,
Çal, qarışsın onu gürcü havası!..

Gürcü çalır.

T a m a r a
(*Rustavelidən oxuyur*)

Tərif edək Tamaranı, axıdaraq göz yaşları,
Əzəl başdan qəzəl deyib mədh etməmiş o dildarı,
Mürəkkəbim şəvə göllər, qələmim göl qamışları,
Bunlar duyan ürəkləri deşəcəkdir nizəvari.
Mən Rustaveli, bir eşq üçün can qoymuşam bu əsərə.
Mən məcnunam orduların sərkərdəsi bir dilbərə,
Məhəbbətin dərmanı yox, üz tutsam da təbiblərə.
Ya can versin canan mənə, ya tapşırsın quru yerə.

E l d a r

Deyin, Rustaveli kimin adıdır?

T a m a r a

O, gürcü şerinin ilk ustadıdır.

E l d a r

Bəh-bəh, onu doğan nə bəxtiyardır,
Bizim Nizami tək kəlamı vardır.

Oyun... Uzaqdan tüfəng səsi eşidilir. Gülnar gəlir, hamı ayağa qalxır. Eldar özünü qabağa verir. Gülnar kəlağayını açaraq, Eldarın qarşısına atır və ona məktub uzadır, hamı heyrətə düşür.

G ü l n a r

Al, qardaşım, al, Eldar!
Vaqifin məktubu var!

Eldar məktubu alır və ucadan oxuyur, hamı diqqətlə dinləyir.

E l d a r

“Oxu, bu naməni, əzizim Eldar!
Qoy mənim dərdimi dinləsin dağlar.
Bir tərlan xəyallı qəlbi xəstəyəm,
Bir şeyda bülbüləm, daş qəfəsdəyəm...
Əzizim! Saldılar məni zindana,
Şəriət dillərdə oldu bəhana,
Gəl dağıt, parçala bu daş qəfəsi,
Ölməsin şairin həqiqət səsi!
Sən də qurtarmasan Vaqifi dardan,
Yoxdur umacağım pərvərdigardan!”

Hər tərəfdən Qacarın ünvanına nifrət və söyüş səsləri eşidilir.
Böyük bir həyəcan qopur.

E l d a r

Of... Yenə beynimə sıçradı al qan!
Baxın, layiqmidir Vaqifə zindan!

Bu arada bir qoca kəndli bir dəstə kəndli ilə gəlir.

Q o c a

Eldar hansınızdır?

E l d a r

Mənəm, ay əmi!

Q o c a

Oğlum, adın düşüb bütün dillərə,
Bəlkə, gün ağladın bizim ellərə.
Sənə qiymətli bir baxşayışım var,
Mənə də atamdan qalıb yadigar...

E l d a r

O nədir, ay əmi?

Q o c a

(*yapıncının altından bir qılınc çıxararaq*)

Buyur! Misri qılınc deyərlər buna,
Sadiq yaşamışdır ana yurduna.
Böyük Koroğludan qalmış yadigar,
Budur, dəstəsində barmaq yeri var.
Al, oğlum! Göz üstə saxla sən bunu,
Yaşat ürəyində qoç Koroğlunu!
Sənə bata bilməz nə xan, nə paşa,
Yalnız yoxsulların eşqilə yaşa!
Vur! Vuran əllərin görüm var olsun,
Qacarın başına dünya dar olsun!

Eldar qılıncı alır, hörmət və məhəbbətlə ona xeyli baxır
və diz çökərək qılıncı öpür.

E l d a r

Qıratın yalında qıvrılıb yatan,
Xanların, bəylərin gözünə batan,
Zalıma gözdağı, bizə şan qılınc,
Azadlıq uğrunda vuruşan qılınc!
İndi dayansın Qacar!
Cəngi çalın hücum var!

Silahlar göyə qalxır, ura səsləri ucalır. Eldarın dəstəsi hücuma keçir.

PƏRDƏ

## ON BİRİNCİ ŞƏKİL

Şuşa qalası. Cıdır düzü. Günəş batmaq üzrədir. İki nəfər çoban
qayaya arxalanaraq oturmuşlar, onların biri ney çalır.

M u r a d

Qasım!

Qasım

Nə var?

Murad

Canına azar!
Elə, belə gəlib, belə də getdik.
Nə bir günə çatdıq, nə kama yetdik...

Qasım

Nə var? Bir de də...

Murad

Çor nə var, nə var!..
Bilirsən neyləyir Məhəmməd Qacar?!

Qasım

Neyləyir?

Murad

Vaqifi öldürür Qacar...

Qasım

Yox, əyə, bu boyda qansızlıq olar?

Murad

Sən öl, düz deyirəm!

Qasım

Vay sənin... can... can...
Əyə, lap üşütmə qopdu canımdan.

M u r a d

Bəli, öldürürlər Molla Pənahı...

Q a s ı m

Görəsən yazığın nəymiş günahı?

M u r a d

Deyirlər, Vaqifə demiş ki, Qacar,
Çarıqlı tayfadan nə şair olar?
O da həcv eləmiş o zülmkarı,
Buna acıqlanıb zalım hökmdar.

Q a s ı m

Murad!.. Əyə... sənin yaxşı səsin var,
Onun sözlərindən bir oxu, barı!

M u r a d
(*oxuyur*)

Xumar-xumar baxmaq göz qaydasıdır,
Lalə tək qızarmaq üz qaydasıdır.
Pərişanlıq zülfün öz qaydasıdır,
Nə badi-səbadən, nə şanədəndir.

Q a s ı m
(*dizinə vuraraq*)

Vay, sənin gözlərin kor olsun, Qacar!
Bir gör, Vaqifə də heç adam qıyar!

(*Heyrətlə ətrafa baxaraq.*)

Murad, Murad, əyə, gətirirlər, bax!

Murad

(*heyrətlə baxır və göylərə üsyan edir kimi*)

Ey fələk! Ey dünya! Ey qanlı çanaq!

Şeyx bir dəstə adamla Vaqifi və oğlu Əli bəyi gətirir.

Şeyx

Dayanın!

Vaqif

(*tənəli*)

Mümkünmü durub dayanmaq...

Şeyx

Oğlum, sən Allahın qüdrətinə bax!

Əli bəy

Nə oldu, tez deyin, gəlsin cəlladlar!
Uzun mırıldama, satılmış alçaq!
Səni də udacaq bu qara torpaq!..

Şeyx

(*ətrafa*)

Əstəğfürullah...
Kafirə bir bax!

Vaqif

(*qürub etməkdə olan günəşi həsrətli gözləri ilə seyr edərək, oğluna*)

Günəş qürub edir... sönür kainat.
Əzəldən belədir vəfasız həyat...

(*Günəşi göstərərək.*)

O mənim ömrümün timsalıdır, bax!
Sönən bir varlığın xəyalıdır, bax!
Mən də yaradıldım, mən də parladım,
Gözəllər ağzından düşmədi adım...
İndisə yelkənim toxundu daşa,
Bir insan ömrünü vurmadım başa.
Oğul! Alışıram, yanıram, aman,
Səni öldürürlər mənim ucumdan!
Qoy uçsun başıma qayalı dağlar!..

Əli bəy

Ata!
Sənin günəş boyda bir vicdanın var –
Çiynində el dərdi daşıyacaqdır,
Bu dünya durduqca yaşayacaqdır!..

Vidadi
(*arxadan*)

Vaqif!

Vaqif

Vidadi, qardaşım, sənmisən, gəl, gəl,
Bizi ayrı saldı bimürvət əcəl!..

Vidadi

Kor olsun gözlərim, nələr görürəm!
Günəşi tutulmuş səhər görürəm...

Vaqifi və Əli bəyi çəkə-çəkə aparırlar.

V a q i f

Ağlama, qardaşım, sən yaşa, yarat!
Yaxındır gözlənən azad bir həyat.

V i d a d i
(*göylərin dərinliyinə əl qaldıraraq*)

Tfu, sənin taxtına, ey çərxi-fələk!
Daşdan yaranmamış, ətdəndir ürək!..

Cəlladlar gəlirlər.

Ş e y x

Kəlmeyi-şəhadət alın dilinizə!

V a q i f
(*oğlunu bağrına basaraq cəllada tərəf*)

Nə qədər olsa da, qanın var, cəllad!
İnsanın canından şirindir övlad,
Məni qorxutmayır bu vaxtsız əcəl.
İnsaf et, qabaqca məni öldür, gəl –
Gözlərim görməsin övlad qanını!
Uçurma könlümün xanimanını...

Ş e y x
(*kinayəli*)

Şair, rənginizdə bir sarılıq var?

V a q i f

Qafil gün batanda rəngi saralar!

Ş e y x

Bu fani aləmi artıq unudun,
İndi üzünüzü qibləyə tutun!

Cəllad Əli bəyi çəkir, Vaqif onu buraxmır.

V a q i f

Of... Sənin gözlərin kor olsun, cəllad!
Sənə demədimmi şirindir övlad!

Şeypur çalınır, Qacar gəlir, yüksək bir yerdə dayanaraq.

Q a c a r

Ha... ha... ha... böyük şair!

(*Öz adamlarına.*)

İndi bərk durun!
Burda kəllələrdən bir qala qurun!
Göylərə dayansın qoy onun başı!
Dibindən çay kimi axsın göz yaşı.
Onun zirvəsinə yalnız və yalnız
Vaqifin başını qoymalısınız!

V i d a d i

Hökmdar! Yerlərə, göylərə bir bax,
Buludlar qaralır matəm tutaraq,
Vaqif bir oğludur əbədiyyətin,
Ölməz böyük dili şerin, sənətin...
Yalvarıram sənə, onu ver mana,
Əllərin batmasın günahsız qana!

V a q i f
(*Vidadiyə tərəf*)

Yalvarma, yalvarma, o cəllada sən!
Hələ baş əyməmiş bu böyük Vətən...

Q a c a r

(*Vidadiyə*)

Görürsən? O imiş qatı düşmənim,
Onu yandırsam da, haqqım var mənim,
Tez olun, cəlladlar!

V i d a d i

Yox, yox, qanın varsa, əmr et zülmkar,
Qoy mənim boynumu vursun cəlladlar!

(*Özünü cəlladlarla Vaqifin arasına salır.*)

Bu arada səs-küy qopur. Eldarın dəstəsi hücuma keçmişdir. Vuruşma yaxınlaşır.

V ə z i r

Şahim! Vuruşmağa gəlir ki, Eldar,
Gəl qaçaq, gəl qaçaq, xata toxunar!

Q a c a r

Yox bir, basacaqdır gədənin biri
Göylərə hökm edən bir cahangiri!

(*Cəllad Əli bəyi vurmaq istərkən.*)

M u r a d

(*öz yoldaşına*)

Əyə, gəldilər!

Cəlladın başından çomaqla vurur, cəllad yıxılır. Eldar, Kürd Musa, Gülnar və Şaliko qabaqda olmaqla, Eldarın dəstəsi görünür.

Q a c a r

(*öz adamlarına*)

Tutun, diri tutun bu saat onu!

Vidadi Vaqifi qucaqlayıb bir tərəfə çəkir. Əli bəy Gülnarla görüşür, onun tüfəngini alıb, davaya qarışır. Şiddətli vuruşma gedir. Eldar qılınc davasında saray adamlarını yara-yara gedir.

Q a c a r

Özüm vuruşmağa qarışam gərək!

Eldar irəli gəlir. Şeyx və vəzir qaçırlar. Əli bəy şeyxi vurub qayadan salır.

E l d a r

(*Qacara müraciət edərək*)

Ehey, bəri bax!..
Arxadan vurmaq
İgidə yaramaz!

Q a c a r

Dayan, yaramaz!
Mən Qacar nəsliyəm, şahlar şahıyam,
Mən də yer üzünün bir allahıyam!..

E l d a r

Gəl, gəl, çulu cırıq kəndliyəm mən də.
Şahla vuruşuram yeri gələndə...

Şiddətli qılınc vuruşması gedir.

Q a c a r

Mənlə vuruşmağa Koroğlu gərək!

E l d a r

(*kinayə ilə*)

Bəh... bəh... nə söz var ki, pələngsən, pələng!

Eldar Qacarı yaralayır, ancaq vuruşma yenə davam edir. Birdən Eldarın qılıncı əlindən düşür.

Q a c a r

(*dayanaraq gülür*)

Bəh... bəh...
Anan gəlsin indi tüstünə!

E l d a r

(*yapıncının altından misri qılıncı çıxararaq*)

Dayan! Misri qılınc gəlir üstünə...

Q a c a r

(*çaşaraq*)

Nə?.. Nə?.. Misri qılınc? Nə? Nə? Koroğlu?

Eldar Qacarı yenə qılıncla vurur. Qacarın qılıncı düşür. Qapıçı əlində sıyırma xəncər gələrək, onu arxadan vurur.

Q o c a k ə n d l i

(*Qacarın meyitinə rişxəndlə baxaraq*)

Bu dağlar qoynunda aslan yatmışdır,
Burda Koroğlular at oynatmışdır.

E l d a r

Əzildi, şahmarın zəhərli başı,
Dağıdın sarayı, bütün daş-qaşı
Paylayın aclara və yoxsullara,
Bu gün bayram olsun bütün qullara!

Ş a l i k o

Qardaşlar, bu ölən yalnız Qacardır,
Qacarlar dünyada hələ də vardır.
Onların kökünü kəsəcək yalnız
Bizim bu basılmaz qardaşlığımız!

Təlxək gəlir. Qacarın meyitinin ətrafında at kimi hərlənir, ona rişxəndlə baxaraq.

T ə l x ə k

Sizi, doğrudan da, əsir alsalar,
Qaranlıq zindana tutub salsalar,
İnsan boğazlaram düz otuz nəfər.

(*Bərk-bərk gülür.*)

Vidadi və Vaqif daxil olurlar. Hamı hörmətlə onlara baş əyir.

E l d a r
(*Vaqifə müraciət edərək*)

Möhtərəm şairə salamlar olsun!
Bu dünya durduqca o da var olsun!

V i d a d i

Aha, uzanmışdır bizim şiri-nər,
İran torpağını ləkələyənlər.

V a q i f
(*Vidadiyə*)

Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax,
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!
Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,
Sən bizim dağlar pələngi qəhrəman Eldara bax!

Eldar hörmətlə Vaqifin əlindən öpür. Xalq onu böyük sevinc və təntənə ilə ölüm meydanından çıxarır.

PƏRDƏ

# M Ə C İ D  Ş A M X A L O V

(1907-1984)

*Şamxalov Məcid Baba oğlu, aktyor, dramaturq, Ağdam rayonunun Gülaplı kəndində anadan olmuşdur.*

*M.Şamxalov 1918-ci ildə Bakıya köçmüş, S.S.Axundovun rus-tatar məktəbində, M.F.Axundov adına Dövlət Teatr Texnikumunda* (*1924-1929*) *təhsilini davam etdirmişdir. Azərbaycan Dövlət Dram Teatrında aktyor,* "*Damğa*" *Tənqid-Təbliğ Teatrında rejissor işləmişdir.*

*M.Şamxalov* "*Mənzər*" (*1957*), "*Qayınana*" (*1964*) *pyeslərinin müəllifidir.*

*Gənc məzhəkəçilərin Respublika müsabiqəsində birinci yeri tutduğuna görə* "*Qızıl medal*" *almış, xidmətlərinə görə Azərbaycan SSR Əməkdar artisti* (*1949*) *adına və bir çox medallara layiq görülmüşdür.*

## QAYINANA

İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| Ayaz | – bəstəkar, 35 yaşında |
| Cənnət | – Ayazın anası, 55 yaşında |
| Sevda | – Ayazın arvadı, 27 yaşında |
| İlqar | – Ayazın dostu, rejissor, 35 yaşında |
| Afət | – aktrisa, 22 yaşında |
| Mülayim | – İlqarın anası, 60 yaşında |
| Sədaqət | – qonşu, 30 yaşında |
| Əli | – Cənnətin qardaşı oğlu, 40 yaşında |

## BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Ayazın səliqə ilə bəzənmiş evi. Sağ tərəfdə Cənnətin oturacaq yeri. Divarda Ayazın atasının şəkli. Qabaq otaqda Sevdanın bormaşını və diş-texniki alətləri görünür. Cənnət oturub stəkanda qoqlu-moqlu çalır. Bir azdan qapının zəngi eşidilir.

Cənnət (*Ayaza*). Dur qapını aç... Şahzadə xanımın gəldi. (*Kənara.*) Səni görüm xanımsız qalasan!

Ayaz qapını açır. Sevda gəlir.

S e v d a. Salam!.. (*Yan otağa keçir; Cənnət kinli-kinli onun ardınca baxır.*)

C ə n n ə t. Xalqın gəlinləri səhərdən axşamacan ev-eşik hayındadır. Mənimkisə nə yırtığa yamaqdır, nə də coraba yumaq... (*Ayaz bu gileydən darıxıb evdən çıxır.*) Yeri, yeri sənə sərf eləmir axı... Hamı gedib quş gətirir, Şahqulu bayquş gətirir. Mənim də oğlum arvad alıb. Hm... Bəxtəvər başıma!..

Sevda gəlir. O diş-texniki alətlərlə məşğuldur.

C ə n n ə t. O sümükləri qurdalamaqdansa, get suda qalan paltarlarını sər...

S e v d a. Paltarları Sədaqət səribdir.

C ə n n ə t. Nə vaxtacan Sədaqət sənə paltar yuyub sərəcək? Sənin atanın qulluqçusudur? Xalqın gəlinləri yamaq yamayır, ev qurur, qayınanasının da qabağında qul kimi dayanır.

S e v d a. Axı görürsən ki, mənim işim başdan aşır, çatdıra bilmirəm.

C ə n n ə t. Sən yaxşı gəlinsənsə, qaxıl otur xarabanda, adam öz evinin qulluqçusu da olar, xanımı da.

S e v d a. Mən illərlə zəhmət çəkib həkim olmuşam ki, xalqa xidmət edim. Əgər mən gündə on-on beş xəstəni müalicə edirəmsə, bu mənim üçün böyük səadətdir.

C ə n n ə t. Hə?.. Elə o Səadət itin qızı sənin evini yıxıb da... Fit-fit eliyə-eliyə səni yoldan çıxartdı.

S e v d a. Ana, onu bil ki, məni heç kəs yoldan çıxara bilməz.

C ə n n ə t. Bax, anam-bacım, qələt elədim, səninlə fələk də bacarmaz! Get, o balniskə, o da sən.

S e v d a. Ana, bir başa düş ki, mən işləməsəm...

C ə n n ə t (*onun sözünü kəsir*). Bu təqsirlərin hamısı o biqeyrətdədir ki, səni qudurdub çıxarıb mənim başıma. Onda qeyrət olsaydı, sənin cilovunu vaxtında yığardı.

S e v d a. Ana, sən bircə de görüm, mən sənə nə hörmətsizlik etmişəm? Axı, bir insafın olsun!..

C ə n n ə t. Bundan da artıq hörmətsizlik olar? Ağzımı açmağa qoymursan. Bir deyirəm, beş deyirsən... Üzümə çəmkirirsən.

S e v d a. Mən sənin üzünə çəmkirmişəm?

C ə n n ə t. Hə! Sən! Sən!

S e v d a. Daha sənə sözüm yoxdur!

C ə n n ə t. Yenə də sözün olacaq? Bütün qohum-əqrəba içində rüsvay olmuşam. Nə ölü yerinə gedə bilirəm, nə də diri. Hamı gəlininin qayınanasına qulluq eləməsindən dəm vurur. Mən kimdən əskiyəm?

S e v d a. Mən o gəlinlərlə bəhs etmək istəmirəm.

C ə n n ə t. İstəməzsən də... Çox böyük nəsildənsən axı. Niyə gərək sən qayınanaya qulluq edəsən, şəninə kəsirdir? Nə var, qayınanadır da, qoy sınıq boşqab kimi atılıb qalsın bir küncdə... Xeyr, mən hələ o günə qalmamışam! Gəlin mənim süpürgəmdir, harda qoydum, orda durmalıdır!

S e v d a. Sən dava-dava deyirsən, mənimsə söz güləşdirməyə vaxtım yoxdur.

C ə n n ə t. Yox, niyə durmusan? Qolunu çırma, gəl bir məni də döy... Səndən nə desən çıxar.

S e v d a. Məgər mən birdən-ikiyə adam döymüşəm?.. Axı sən niyə mənimlə belə?..

C ə n n ə t. Bu evin yiyəsi mənəm, söz də mən deyən olmalıdır!

S e v d a. Mən sənin evini əlindən almıram. Elə günü bu gün buradan gedərəm.

C ə n n ə t. Mən sənə qənd başı göndərməmişəm, yol açıqdır! Talış qızı! (*Cənnət əsəbi halda papiros çəkir. Sevda doluxsunmuş vəziyyətdə Ayaza zəng edir.*)

S e v d a. Ayaz, tez evə gəl. Nə olacaq, məgər bilmirsən? Mən daha dözə bilmirəm...

Sevda darıxıb balkona çıxır.

C ə n n ə t. Çağır, çağır gülməşəkərini. Yerə soxum mənim oğlumu, gör gedib kimə evlənib. Mənə də Cənnət deyərlər! Əgər səni bu evdə qoysam, heç atamın qızı deyiləm!

Qapının zəngi çalınır. Sevda gəlib açır. Mülayim gəlir.

M ü l a y i m. Xoş gördük, qızım, yaxşısanmı?

S e v d a. Sağ olun, Mülayim xala, siz necəsiniz?

M ü l a y i m. Yaxşıyam, ağrın alım. Bəs Valeh hanı?

S e v d a. Uşaqlarla oynayır.

M ü l a y i m (*bir qutu konfet verir*). Bunu verərsən ona.

S e v d a. Sağ olun, Mülayim xala, niyə zəhmət çəkirsiniz.

Sevda çay hazırlamağa gedir. Mülayim diqqətlə Cənnətə baxır.

Mülayim. Nə var, ay arvad?! Yenə niyə mısmırığını sallamısan?

Cənnət. Eh!.. Allah kəssin belə günü, belə güzəranı.

Mülayim. Elə danışma, ay arvad. Namxuda-maşallah adlı-sanlı oğlun, gül kimi gəlinin, cahi-cəlalın... Göz dəyməsin, bir əlin yağdadır, bir əlin balda, ay bəxtəvər...

Cənnət. Deyirəm axı, çox bəxtəvərəm... İçim özümü yandırır, çölüm özgəni. Ax, ax...

Mülayim. Hə, bildim oxu hara atırsan. Bax, Cənnət, bilirsən ki, mən sözü şax deyənəm. Elə ona görə sənin məndən xoşun gəlmir. Cəhənnəmə gəlməsin. Mən sənə çox demişəm, yenə də deyirəm; gəl sən bu sözü-hərəkəti burax. Oğul ilə gəlin arasına girmə. Sevda ləyaqətli gəlindir, onu incitmə.

Cənnət. Mülayim, bir oda düşmüşəm, daha nə deyim. Ax, ax...

Mülayim. Ay yazıq, sən şiş ucunda qayınanaya çörək verən gəlinə rast gəlməmisən.

Cənnət. Yox, yox... bunun kimisi olmaz! Səhər evdən çıxandır. Bir az səndən qabaq gəlib. Biz görmüşük gəlin təndir qalar, çörək yapar, yamaq yamayar, ev ağardar, odun yarar. Qayınanasının qabağında qul olar. Amma bunun işi-peşəsi nədir? Bir diş qurdalamaq, bir də o şeytan cəhrəsini fırlatmaq.

Mülayim. Onun işi elədir də, həkimdir axı. Sən istəyirsən ki, o sənə odun yarıb, təndir qalasın?! Ay arvad, sən hansı aləmdəsən? Cənnət, Allah kəssin sənin bu xasiyyətini, yaman çürükçüsən.

Cənnət. Sən elə hey məni danlayırsan. Kotan nə bilir qayış nə çəkir.

Mülayim. Ay rəhmətliyin qızı, beş gün ömrümüz var, qoy öləndən sonra bizi hörmətlə yad eləsinlər.

Cənnət. Öləcəyəm deyə, diri-diri cəhənnəm oduna yanım? Məni yandıran budur ki, xalqın oğlanları gedib əsil-nəcabətli yerdən evlənib, mənimki gör gedib kimi alıb, az? Atası qalayçı, anası da talış qızı. Bəh, bəh!..

Mülayim. Vallah, mən Sevdanı heç bir əsilzadəyə, nəcabətliyə dəyişmərəm.

Cənnət. Mülayim, iti görüm, qurdu görüm, təki bunun murdar üzünü görmüyüm. Bircə bunu rədd eləyim, şam yandıracağam.

Mülayim. Görürəm bir az da danışsam, o səfərki kimi məni bihörmət edəcəksən. Yaxşısı budur qoy şirin gəlib, şirin gedim.

Mülayim getmək istəyir. Sevda çay gətirir.

Sevda. Mülayim xala, hara belə? Oturun, çay için.

Sevda əvvəlcə Cənnətin qabağına çay qoyur.
Cənnət çayı hirslə itələyib, mətbəxə gedir.

Mülayim. Sağ ol, ağrın alım. Bıy... Deyirəm axı fikrimdə nə var, qızım, dünən gecə bu üstdəki dişim zoq-zoq zoqquldayıb. Azca qalmışdı gecəyarısı yanına gəlim.

Sevda onu kresloda oturdur.

Sevda. Ağzınızı açın. Budurmu?

Mülayim. Hə, özüdür, başına dönüm. Andıra qalmış məni zurnasız oynadıb.

Sevda. Mülayim xala, bu dişin əzabdan başqa bir faydası yoxdur. Mən məsləhət görürəm ki, bunu çəkdirin. Hələlik dərman qoyuram ağrısını kəssin. Sabah gələrsiniz çəkərəm.

Cənnət özü üçün çay gətirir.

Mülayim. Gələrəm, qızım. Deyir, dişin ağrıyır, çək qurtar, qonşun pisdir, köç qurtar, dilin acıdır, öl qurtar. (*O, bu sözləri Cənnətə atır.*) Di sağ ol.

Getmək istəyirkən Ayaz gəlir.

Ayaz. Baho... Xoş gördük, Mülayim xala, kefin-əhvalın necədir? (*Mülayim Ayazın alnından öpür.*)

Mülayim. Sağ ol, ağrın alım. Sən necəsən?

Ayaz. Yaxşıyam. Bəs hara belə? Elə məni gözləyirdin?

Mülayim. Ayaz, ağrın alım, xeyli vaxtdır gəlmişəm. Deyirəm gedim, gəlinin işdən gələn vaxtıdır, onun xörəyini hazırlayım. Yazıq yorulur.

Ayaz. Otur, sonra gedərsən. Nə vaxtdır səni görmürəm. Etibar necədir?

Mülayim. Onun da işi ağırdır, neyləyək, ay oğul. İş bədənin cövhəridir. İşləməyən dişləməz.

Ayaz. Ay Mülayim xala, sən savadsız arvad bu sözləri haradan bilirsən?

M ü l a y i m. Bıy, qadan alım, bəs müəllimə havayı yerə pul verirəm.

A y a z. O hansı müəllimdir?

M ü l a y i m (*radionu göstərir*). Odur ey... Bax ona, o qadasın aldığım ki var, dünyanın o başından ta bu başına kimi hər şeyi mənə xəbər verir.

A y a z (*gülür*). Bax, bunu eşitməmişdim. Radio müəllim.

Mülayim getmək istəyir.

A y a z. Mülayim xala, oturub nahar edəydin.

M ü l a y i m. Yox, oğlum, nə vaxtdır evdən çıxmışam, nigaranam. Deyirəm, gedim uşağı bağçadan gətirim, həm də gəlinin işdən gələn vaxtıdır.

Ayazla Sevda Mülayimi ötürüb qayıdırlar. Cənnət qaşqabağını sallayıb oturmuşdur.

A y a z. Ana, yenə nə olub? (*Cənnət cavab vermir.*) Sevda sən de, nə olmuşdur?

S e v d a. Mən daha bu əzaba, bu təhqirə dözə bilmirəm. (*Sevda doluxsunur. Ayaz əsəbi halda gəzişir.*)

A y a z. Ax, bu dedi-qodudan, bu dığdığadan lap cana gəlmişəm, cana. Ana, biz başımızı götürüb bu evdən getsək, dincələrsən?

C ə n n ə t. Sən də haqlısan, gülməşəkərin də. Dığdığaçı, dedi-qoduçu mənəm.

A y a z. Bircə de görüm, sənin istədiyin nədir, nə? Bax, bu ev, bu eşik. Əgər bir şeydən korluq çəkirsənsə, de.

C ə n n ə t. Mən nə bu ev-eşiyi istəyirəm, nə də bu güzəranı. Razıyam qapı-qapı dilənim, təki bu zülmü görməyim.

A y a z. Axı de görüm nə zülmdü o?.. Bir insafın, mürvətin olsun. Biz də yazığıq.

C ə n n ə t (*hirsli*). Belə cəhənnəmə yazıqsınız, gora yazıqsınız! Bəs mən yazıq deyiləm ki, gətirib bir qalayçının qızını mindiribsən boynuma?! Səhər gedir, axşam gəlir. İşi-peşəsi diş qurdalamaqdır, bir də cəhrə fırlatmaq...

A y a z. Onun ki, sənə bir zərəri yoxdur.

C ə n n ə t. Necə yəni zərəri yoxdur, o andır cəhrənin qırqırından elə bil başımda dəyirman işləyir.

A y a z. Sevda, o bormaşını göndər anangilə. Daha sözün nədir?

Cənnət. Nə olacaq?! Nə yediyimi bilirəm, nə içdiyimi. Hara baxıram – sür-sümükdür. Evi döndərib qəbiristanlığa, yatanda da yuxuma kəllə girir.

Ayaz. Onları da göndər getsin. Sonra nə sözün var?

Cənnət. Ax-ax... (*o, Sevdanı kinli-kinli süzüb gedir.*)

Sevda. Ayaz, mən ananın bəhanəsini kəsmək üçün bunların hamısını yığışdıraram. Amma məsələ bunda deyil. Onun məqsədi tamam başqadır. O mənimlə elə rəftar edir ki, guya mən taunluyam. Nə etmək, o sənin anandır, mənsə yad qızı, özüm də nəcabətsiz. Mənim başıma qaxınc olan da budur. Mən onun dincliyini pozmamaq üçün elə bu şeylərimlə birgə özüm də getsəm yaxşıdır. (*Sevda doluxsunur.*)

Ayaz. Sən sayıqlayırsan-nədir?!

Sevda. Yox, Ayaz, mən sayıqlamıram. Biz ilk dəfə görüşəndə ananın barəsində mənə çox demişdilər. Mən səni sevdiyim üçün əhəmiyyət vermədim. Sonra bu neçə ildə sənin xatirinə mən onun hər zülmünə, hər təhqirinə dözdüm. Artıq bəsdir (*ağlayır*). Görünür, mənim taleyim belə imiş. Mən səni sevərək bu evə gəlmişəm, o məhəbbəti də qəlbimdə aparıram. Lakin mənim ürəyimi parçalayan Valehdir... (*Sevda göz yaşları içərisində boğularaq gedir.*)

Ayaz (*həyəcanla*). Sevda! Sevda!..

Ayaz ixtiyarsız oturur, başını iki əlinin arasına alır.
Cənnət gəlib kinayə ilə Ayaza baxır.

Cənnət. Hı... Buna bax, mən də oğul böyütmüşəm. Bəxtəvər mənim başıma. Cənnətin oğlu bir qalayçı qızından ötrü göz yaşı tökür. A məndən olub, mənə oxşamayan, zarıma! O gedər, ondan qat-qat artığı gələr. Nə çoxdur nəcabətli qızlar.

Ayaz. Ana, ana...

İşıq sönür.

## İKİNCİ ŞƏKİL

Ayaz pianoda qəmli hava çalır, sonra oğlunun şəklini götürüb baxır.
Bufetdən konyak çıxarıb içir. Başını əlləri arasına alıb xəyala dalır.
Bu zaman İlqar gəlir.

İlqar (*zarafatla*). Nədir sənin dərdin, bu nə ahı-zardır? Nədir sənin fikrin belə tarı-mardır? Ha-ha-ha... Bilirsən dostum, nə sən tacir Əsgərsən, nə də mən Süleymanam. Mən bütün yolu sənin

radioda verilən musiqinin xoş təsiri altında buraya gəlmişəm, özüm də böyük həvəslə sənin yeni operanı gözləyirəm. Amma sən qəm dəryasına batmısan.

A y a z. Eh, İlqar.

İ l q a r. Bəli, mən otuz beş ildir ki, İlqaram, amma sən əvvəlki Ayaz deyilsən.

A y a z. Elədir, İlqar.

İ l q a r. Biz ta uşaqlıqdan canbir qəlbdə olmuşuq, indi sən canı qəlbdən ayırmaq istəyirsən?

A y a z. İlqar, heç can da cəsəddən ayrılarmı?

İ l q a r. Onda de görüm, bu son zamanlar sənə nə olmuşdur ki, belə bədbinləşmisən?

A y a z. İlqar, bəzən adamın elə ağır dəqiqələri olur ki, hər şeyi unudur.

İ l q a r. Elə adam həyatda aciz və iradəsizdir. Sən o köhnə romanların təsiri altına düşmüsən. Səni bədbinləşdirən də odur.

A y a z. Yox, İlqar, məni bədbinləşdirən anamdır, anam!

İ l q a r. Doğrudur, Cənnət xalanın xasiyyəti yetmiş illik sirkədən tünddür. Ona ağır gəlir ki, nə üçün sən ondan xəbərsiz Sevdaya evlənmisən. O özü səni əsil-nəcabətli, varlı-dövlətli yerdən evləndirmək istəyirmiş. Bunların hamısı o köhnəliyin qalığıdır ki, Cənnət xalanın beynini zəhərləmişdir.

A y a z. Elədir, İlqar. Anamın xasiyyəti dözülməzdir. Bəla orasıdır ki, əgər ondan ayrılsam, məni biabır edib deyəcək ki, arvadına görə məni atdı. Bu da ki, mənə ölümdür.

İ l q a r. Yox, ananı atmaq olmaz. Sən bir oğul kimi ona hörmət elə. Özün də soyuqqanlı ol. Başını sal aşağı operanın üstündə işlə.

A y a z. İşləyə bilirəm ki... Mən piano çalmamış, o öz mahnısına başlayır.

İ l q a r. Onda sən də tonu qaldır yuxarı, çək Cənnət xalanı zilə. Hər halda bizim borcumuz Cənnət xalanın şüurundan o köhnə qalığı çıxartmaq, onu bugünkü həyata uyğunlaşdırmaqdır.

A y a z. Eh, avazın yaxşı gəlir, oxuduğun Quran ola. O köhnə qalığı onun şüurundan çıxartmaq olar?

İ l q a r. Olar, dostum, dünyada mümkün olmayan şey yoxdur.

A y a z. İlqar, mən bilirəm ki, sən heç bir çətinlik qarşısında aciz qalmamısan. De, mən də edim?

İ l q a r. Qulaq as, dostum. Hər şeydən əvvəl möhkəm iradəli ol. Həyat mübarizədir, ailə həyatı isə çox mürəkkəbdir.

A y a z. Sevda dözə bilməyib atasıgilə getdi.

İ l q a r. Necə? Sevda atasıgilə getdi? Bu yaxşı olmadı.

A y a z. İlqar, razıyam ki, ac-susuz qalım, təki anam məni dinc qoysun, operanı qurtarım.

İ l q a r. Ayaz, mən Cənnət xalanı belə görəndə, az qalıram anamı duz kimi yalayım.

A y a z. Sən Mülayim xalanı anama tay edirsən?

İ l q a r. Qoy görək ə, birdən anamı gözə gətirərsən. Dost, sən mənə bir qədər möhlət ver, mən Cənnət xalanı pambıqdan da yumşaq edim.

A y a z. Eh, deyirsən də... Ağlım kəsmir ki, o yumşala.

İ l q a r. Yumşalar, dostum, deyir adın nədir Daşdəmir, yumşalısan yumşalı. Mən o köhnəliyin qalığını onun şüurundan çıxaracaq, onu bu yeni həyata uyğunlaşdıracağam.

A y a z. O bugünkü həyata uyğunlaşmaz.

İ l q a r. Uyğunlaşar, dostum. Bunun üçün məzəli və maraqlı bir kələk qurmaq lazımdır.

A y a z. Kələk?.. Nə cür kələk?..

İ l q a r. Guya sən Sevdadan ayrılıb əsil-nəcabətli, varlı-dövlətli bir qıza evlənirsən. Özün də Moskvaya yola düşürsən. Cənnət xala belə bilməlidir. Həqiqətdə isə Sevda ilə birlikdə Mərdəkana gedirsiniz, orada Sevda elmi işini tamamlayır, sən də operanı yazıb qurtarırsan.

A y a z. Sonra?

İ l q a r. Sonra mən sənin bu ailə faciəndən elə bir komediya yaradacağam ki, bütün dillərdə söylənsin.

Əziz dostum, dinlə məni,
Unut bu dərdi-qüssəni.
Ölməmişdir bu qardaşın
Darda qoyarmı heç səni?
Unutma ki, mən İlqaram,
Dost yolunda vəfadaram!

İşıq sönür, yenə də yanır. Cənnət ilə İlqar çay içib şirin-şirin söhbət edirlər.

C ə n n ə t. İlqar, sən allah, doğru deyirsən?

İ l q a r. Lap doğru deyirəm, Cənnət xala. Atası Şəkixanovlardandır, anası Seyidbəylidir.

C ə n n ə t. Bəh, bəh, doğrudan lap ürəyimdəndir. Bir tərəfi seyid, bir tərəfi bəy, bir tərəfi də xan, belə gəlinə can qurban.

Ayaz yan otaqdan əlində çamadan gəlir.

A y a z. Hə, İlqar, mən hazıram. Anacan, sağlıqla qal.

C ə n n ə t. Bıy, başıma xeyir, hara gedirsən, ay oğul?

A y a z. Moskvaya, anacan.

C ə n n ə t. Bu xeyir işimizi qoyub, Moskvaya gedirsən?

A y a z. Neyləyim, hökumət göndərir.

C ə n n ə t. Eh, hökumət də vaxt tapdı. Hə, oğlum, hələ de görüm, İlqar deyən doğrudur?

A y a z. Doğrudur, anacan. Bu barədə sonra danışarıq...

C ə n n ə t. Sonraya qalsa soyuyar, fürsəti əldən vermək olmaz. De görüm indi o qız hardadır?

A y a z. O, xalasının yanında olur.

C ə n n ə t. Xalasının bundan xəbəri var?

İ l q a r. Hə, var, var. Ancaq deyir ki, Ayaz Sevdadan ayrılsın, sonra razılıq verim.

C ə n n ə t. Ayrılsın deyir, ayrılsın də, nə olar, bir tək sənin başın görməyib ki? Odur ey, Əlhüseyn müəllim, 50 yaşı var, arvadından ayrılıb, iki uşağını atıb, 20 yaşında bir qıza evlənib. Bundan da bir oğlu var.

A y a z. Axı uşaqlı ailəni sudda ayırmırlar?

C ə n n ə t. Niyə ayırmırlar, ayırarlar. Evlənəndə sudnan evlənmişdin?

İ l q a r. Cənnət xala doğru deyir, ayırarlar.

A y a z. Yaxşı gecdir, vaqon gedər, gecikərəm.

C ə n n ə t. Vaqon hara gedir, ay oğul, məgər bilet səndə deyil? İlqar, sən özgəsi deyilsən. Deyir, ağıl ağıldan üstün olar. Sən necə məsləhət görürsən? Deyirəm Ayaz getsin Məskova. O qayıdana kimi, sən qızı götür gəl evimizə. Qoy mənə həyan olsun. O cavandır, mən ona evdarlığı öyrədərəm. Gəlin gərək qəpiyi qəpik üstünə qoya. Yumurtadan yun qırxa. Odur ey, qonşumuz pişik Məhərrəmin gəlini. O gün gedib görürəm ki, ət maşınını pıqqırhapıqqır qaynadıb, suyuna da sulu xəngəl bişirib uşaqlara yedirdib. İndi get evinə bax, top dəysə dağılmaz.

İlqar. Cənnət xala, bu qız da ondan geri qalmaz. Yaman qənaətcildir. O, yumurtanın ağını bu gün yeyir, sarısını sabah.

Cənnət. Ay bərəkallah, varam ona! Nə mənim malımdır!.. Elə gəlin evin dirəyidir. Amandır, İlqar, tez onu mənə yetir, yoxsa əldən çıxar.

İlqar. Düz deyirsən, Cənnət xala. Hə, Ayaz, sən nə deyirsən?

Ayaz. Mən razıyam. Amma qorxuram anam onu da yola verməyə.

Cənnət. Bax, sən belə deyəndə mən lap yanıb tökülürəm. Oğul, mən istəyirəm ki, sənin arvadın adlı-sanlı, əsli-nəcabətli, varlı-dövlətli ailədən olsun, ailəmizə, adımıza layiq olsun. Yoxsa Sevda kimi, atası qalayçı, anası talış qızı... bəh, bəh! Vallah, mən xəcalətimdən adam arasına çıxa bilmirəm.

İlqar. Amma bu qızın əsli-nəcabətinə söz ola bilməz. Özün görəcəksən.

Cənnət. İnşallah görərəm. Qoy bircə o mənim qapımdan içəri girsin, onu mən bir gəlin eləyim ki, baxan həsəd aparsın. Oğlum, ancaq elə elə ki, onun xalası bizə gəlməsin. Çünki qohumdan uzaq olmaq, xata-baladan uzaq olmaqdır.

Ayaz. Tutaq ki, onun xalası bura gəldi. Ona necə deyim ki, bizə gəlmə.

Cənnət. Ay pir olmuş, mən ölmüşəm məgər? Anan ona elə bir sir-sifət göstərər ki, heç qapımızdan keçməz.

Ayaz. Di yaxşı, salamat qal, ana.

Ayaz ilə Cənnət öpüşüb ayrılırlar. İlqarla Ayaz gedirlər.
Cənnət Ayazın dalınca su atır. Bu zaman Əli
islanmış halda içəri girir.

Əli. Sən neylədin, ay bibi, məni islatdın ki.

Cənnət. Eybi yoxdur, su aydınlıqdır.

Əli. Bibi, gözümə birtəhər görünürsən. Xeyir ola?

Cənnət. Bundan sonra hər şey xeyrə doğrudur, inşallah!

Əli (*kağız torbadan ədvələri bir-bir çıxardır*).

Cənnət bibi, can bibi,
Can sənə qurban bibi.
Ədvələrə baxsana,
Gətirmişəm pay sana.

Budur, zəfərandı bu,
Dərdlərə dərmandı bu.
Bu darçındı, bu hildi,
Bax, bu da zəncəfildi.
Quluncuna baxsana,
Həyat verir insana!..

Bibican, bunları sənin üçün gətirmişəm. İşlət, halal xoşun olsun. Hələ sənə kisə xınası da gətirəcəyəm, yax başına, cavanlaş.

Cənnət. Bu ədvələr lap yerinə düşdü.

Əli. Bibican, deyəsən xeyir işin var? Bilmək olar?

Cənnət. Yox, sənin ağzın yırtıqdır, söz saxlayan deyilsən.

Əli. Demirsən demə. (*Cənnətə yaltaqlanır.*)

Qurban olum bibimə,
Yüzlük qoysun cibimə.
Bir həftəyə gətirrəm,
Sələmiylə yetirrəm.

Cənnət. Hə, deginən dərdim var də. Bildim ki, bu ədvələr mənə baha oturacaq. Əlimə göydən düşmüsən, tez borcumu qaytar, mənə lazımdır.

Əli. Bibican, əlli manat nə olan şeydir ki, ondan ötrü məni tələsdirirsən.

Cənnət. Necə yəni 50 manat nədir? Beş dənə palazqulaq yüzlük vermişəm, 25 manat da sələmi.

Əli. Ağ eləmə, bibi, sənin 500 manatın təzə pulla 50 manat eləyir də.

Cənnət. Təzə-köhnə bilmirəm, pulumu sələmi ilə sayarsan ovcuma.

Əli. Ay bibi, adam da qardaşı oğluna sələmlə pul verər?

Cənnət. Heç kəs havayı yerə dədəsinə ehsan verməyir.

Əli. Axı indi əlim aşağıdır.

Cənnət. Cəhənnəmə ki, aşağıdır! Sənin əlin heç yuxarı olub ki?! Borcunu qaytarmasan, Allaha and olsun, səni rüsvay elərəm!

Əli. Allahüm-məsəlli əla Məhəmmədən və ali Məhəmməd. Bibican, Allah dedin yadıma düşdü, and olsun Məşədi Kazım dadaşın ruhuna ki, dünən gecə aləmi-röyada o canına fəda olduğumu görmüşəm.

C ə n n ə t. Allahüm-məsəlli əla Məhəmmədən və ali Məhəmməd. Necə gördün?

Ə l i (*avazla*). Bismillahir-rəhmanir-rəhim. Əlhəmdülillah rəbbül aləmin.

C ə n n ə t. Rövzəxanlıq eləmə, yuxunu de görüm.

Ə l i. Bibican, danışmağa dilim gəlməyir. Gərək sən yuxumda olaydın, onda görərdin, nə möcüzə idi! Bibi, aləmi-röyada gördüm ki, göyün yeddinci qatındayam, doqquzuncu qatında isə nurani bir şəxs, əynində ağ əba, başında ağ əmmamə, əlində kəhrəba təsbeh, gəzişir. Onu görcək tez diz çöküb yalvarmağa başladım.

C ə n n ə t. Bilirəm, yalvarmaq sənin köhnə peşəndir.

Ə l i. Qulaq as, bibi. Dedim ey pərvərdigar-aləm, mənə bir qədər pul yetir, bibimin borcunu verim.

C ə n n ə t. Ay başı batmış, Allahın yanında məni biabır eləmisən ki...

Ə l i. Qulaq as, bibi. Bir də gördüm o canına fəda olduğum bir anda qeyb oldu.

C ə n n ə t. Ay onun gözünə dönüm, gör necə sırtıq bəndəsən ki, Allah da səndən üz döndərir.

Ə l i. Bibican, bir də eşitdim ki, qulağıma, sədayi-qayıbanə bir səs gəlir. "Ey mənim fağır, yoxsul bəndəm, məgər Cənnət kimi varlı-dövlətli, səxavətli bibisi olan da Allaha ağız açar? Get mənim adımdan bibin Cənnətə de ki, cənnətlik olmaq istəyirsə, qoy sənə əl tutsun, əvəzini mən ona sələmi ilə yetirərəm. Allah haqqı, belə dedi.

C ə n n ə t. Ona dedin ki, bibimdən sələmlə borc almışam?

Ə l i. Yox, mən heç səni sataram?!

C ə n n ə t. Bəs o canına fəda olduğum ovcunu iyləmişdi? Hardan bildi ki, sənə sələmlə borc vermişəm?

Ə l i. Ay-hay, ağzında Allah deyirsən, o külli mövcudatı yoxdan yaradan öz bəndələrinin cikini də bilir, bikini də. Hə bibi, nə deyirsən?

C ə n n ə t. O canına qurban olduğumuzun yolunda canımdan keçərəm. Sənin kimi bəndəsinə bir çöp də vermərəm.

Ə l i. Bibi, Allahın sözündən çıxırsan?

C ə n n ə t. Yeri, Allah versin.

Ə l i. Allah versəydi daha sənin yanına niyə gəlirdim. Ay bibi, qurban olum sənə. Bibican...

C ə n n ə t. İşin düşəndə "bibican" deyib yaltaqlanırsan. Özgə vaxt ölsəm, ağzıma bir gilə su tökməzsən.

Ə l i. Allah eləməsin, ay bibi, əgər sən ölsən, onda görəcəksən ki, bu qardaşın oğlu Əli nə qiyamət qoparır. Bibican, səni and verirəm Ayazın əziz canına, məni naümid qaytarma.

C ə n n ə t. Hə, baxtın onda işləyib ki, Ayaz səfərdədi, onun canına and verdin.

Ə l i. Bibi, Qurani-şərifdə deyirlər ki, hər kəs xeyirxahlıq edib qohuma, yada əl tutsa, o dünyada onun yeri cənnətdir. Cənnətin cənnətdə olması gör nə qiyamətdir!

C ə n n ə t. Yaxşı, gözlə gəlirəm.

Ə l i. Bibi, qoy mən də gəlim.

C ə n n ə t. Qaxıl otur burda.

Cənnət pul gətirməyə gedir. Sədaqət zümzümə ilə oxuya-oxuya içəri girir. Əli tez stolun altında gizlənir.

S ə d a q ə t.

Ay oğlan, can oğlan
Əziz mehriban oğlan.

Ə l i (*başını stolun altından çıxardır*).

Mən oğlan, nər oğlan
Özü də hünərvər oğlan.

S ə d a q ə t. Əli, sənsən?

Ə l i.

Mənəm, ey nazlı nigarım, Əliyəm,
Dərdi-eşqindən inan ki, dəliyəm.

S ə d a q ə t. Bilmirəm şairsən, yoxsa aşpaz?

Ə l i.

Ustayam hər şeyə, ey nazlı nigar,
Mən kimi mahir adam az tapılar!

S ə d a q ə t. Di bəsdi, özünü öydün.

Ə l i.

Ey mələk çöhrəli, ay üzlü pəri,
Ey gözəllik bağının xoş bəhəri...

Sədaqət. Əli, Cənnət xala mənə iş tapşırıb, keç görüm.

Əli.

İşin iş yeri var şerin şeir,
Qulaq as, gör Əli sənə nə deyir.
Razıyam ver mənə fərman, ya əmir,
Deyiləm sən kimi mən qəlbi dəmir,
Mən nəyəm bir könülün yarəsiyəm
O qara gözlərin avarəsiyəm.

Cənnət əlində pul sayaraq gəlir. Sədaqət aradan çıxır.

Cənnət. Al, düz yüz manatdır, 15 günə kimi qaytararsan.
Əli. Xatircəm ol, bibi. İndi bir arzum da var, əgər ona da əməl etsən, ömrüm boyu sənə duaçıyam.
Cənnət. Sənə üz verəndə astar da istəyirsən. Nə deyirsən?
Əli. Bibi, mən bilirəm ki, Sədaqət sənin sözündən çıxmaz. Nə olar, onu mənə al, ölürəm ondan ötrü.
Cənnət. Sən kimdən ötrü ölməmisən? Çiçək kimi Şərafəti niyə boşadın?
Əli. Eh, o da arvad idi, qılçaları oxlov, özü də bir dəri, bir sümük idi.
Cənnət. Bəs gül kimi Güləndama nə deyirsən?
Əli. Onun harası güləndam idi? Pinti qızı aylarla hamama getmirdi. Paltarları mən yuyurdum.
Cənnət. Nə oldu, onların hamısı pis oldu, bircə sən yaxşı oldun? Sən arvad saxlayan yetim deyilsən.
Əli. Bibi, nə olar, mən pisəm, qoy arvadlar məni saxlasınlar. İncimə, bibi, igid oğul dayısına oxşayar, amma mən bibimə oxşamışam, nə sən gəlin saxlayansan, nə də mən arvad.
Cənnət. Yava-yava danışma, avara!

Əli.

Avarayam, avara,
Vurulmuşam o yara.

Oynaya-oynaya gedir.

Cənnət. Ay-hay... trillili, gorun çatlasın, ay qardaş, oğul əkdiyin yerdə!

İşıq sönür.

## ÜÇÜNCÜ ŞƏKİL

Cənnət evi səliqəyə salır. Sədaqət gəlir.

Sədaqət. Cənnət xala, bazara gedirəm, nə lazımdır, de alım.

Cənnət. Heç bir şey lazım deyil. Lap vaxtında gəlmisən. Tez ol qolunu çırmala, mənə kömək elə.

Sədaqət (*təəccüblə*). Cənnət xala, xeyir ola?

Cənnət. Bundan sonra hər şey xeyirə doğrudur, inşallah! Sədaqət sənə bir söz deyəcəyəm, bax, nə dil bilsin, nə dodaq!

Sədaqət. Cənnət xala, bilirsən ki, mənim ağzım bütövdür.

Cənnət. Elə yaxşıdır. Qurani-şərifdə deyilir ki, sirr saxlayan Allahın dostudur. (*Yavaşdan.*) Ayaz evlənir.

Sədaqət. Necə, Ayaz evlənir? Kimi alır?

Cənnət. Əsli-nəcabətli bir qızı. Qız, nə qız! Cerli-cehizli, abırlı-həyalı, lap mənim çoxdan arzu elədiyim, özü də övladı-peyğəmbər! Allahüməsəlli əla Məhəmmədən və ali Məhəmməd!

Sədaqət. Cənnət xala, Ayaz Sevdadan ayrılıb?

Cənnət. Ey Sevda, Sevda! Onu ayırmağa nə var ki?

Sədaqət. Bəs Valeh, Ayazsız darıxmayacaq?

Cənnət. Darıxmaz. Gözdən uzaq, könüldən iraq. Valehə görə mən evimi dağıtmayacağam ki.

Qapının zəngi çalınır. Sədaqət qapını açır. İlqar əlində iki yekə çamadan tövşüyə-tövşüyə gəlir.

İlqar. Cənnət xala, bunları hara qoyum? Gəlinin xırda şeyləridir.

Cənnət (*sevincək o biri otağı göstərir*). Qoy ora, qadan alım. Ay qız, Sədaqət, kömək elə.

İlqar. Vay itin qızı, bilmirəm bunlara nə doldurub. Lap qollarım qırıldı.

Cənnət. Bıy, əstəğfürullah de, İlqar, atası seyiddir. Yaxşı şeyləri budur, yoxsa yenə var?

İlqar. Yox, canım, hələ bu harasıdır. Bu onun xırda-mırda şeyləridir. Onun cehizini on qurzovoy on beş günə daşıya, yenə də qurtarmaz.

Cənnət. Sən allah, doğru deyirsən?

İlqar. Zalım qızının əl işləri var ki, bəh, bəh... daha nə deyim! İki göz lazımdır ki, tamaşa eləsin. Bir nemətdir, düşüb əlinə.

Cənnət. Elə neməti gözüm üstə saxlaram.
İlqar (*oxuyur*).

Cənnət xala, sevin sən,
Süd gölünə düşmüsən.
Gəlinin var dövləti,
Bol cehizi, sərvəti,
Nəcabəti, həm adı,
Özü imam övladı.
Çırtma vurub çal-çağır,
Bacandan quyruq yağır,
Daram-daram, dam-daram
Daş-düş, daş-düş, ey...

İlqar Cənnətin əlindən tutub oynayır.

Cənnət. Vay, vay, Allah səni sevindirsin, İlqar. Bax, mən deyəndə ki, adama var-dövlət lazımdır, sənin anan Mülayim məni danlayır. Bala, pulluya "bəli" deyirlər, pulsuza "dəli". (*Oxuyur.*)

Əziziyəm gül ələr,
Gül barmaqlar, gül əllər.
Dəryaca ağlın olsa,
Pulsuz olsan, gülərlər.

İlqar. Cənnət xala, belə də deyirlər:

"Əbləh odur bu dünyada qəm yeyə,
Tanrı bilir, kim qazana, kim yeyə".

Əgər pulda vəfa olsaydı, əldən-ələ düşməzdi. Nə isə, səni ürəkdən təbrik edirəm. Oğullu-uşaqlı olsunlar. Arzum budur ki, can deyib, can eşidəsiniz. Cənnət xala, bunu yola ver ha!.. Bunu da qaçırsan, onda lap biabırçılıq olar.

Cənnət. İlqar, məgər mən oğluma düşmənəm? Sevda mənim başıma gətirəni bilsən, bunu deməzsən. Yaxşı, bəs gəlin nə vaxt gələcək?

İlqar. Tələsmə, tələsən təndirə düşər.

Cənnət. Bıy... Allah eləməsin. Təndirdən yenicə çıxmışam ki...

İlqar. Sən arxayın ol. Mən tezliklə qızı özüm sənə təhvil verəcəyəm.

C ə n n ə t. İlqar, sən ağıllı oğlansan, necə məsləhət bilirsən, istəyirəm istixarə elətdirəm. Elə bu cümə axşamı Məhəmməd ağanı çağırtdırım, xəlvəti qızın kəbinini kəsdirim, hə?

İ l q a r. Cənnət xala, fikrin yaxşıdır. Burası var ki, Ayaz hələ Sevdadan ayrılmayıb. Əgər xəlvəti kəbin kəsdirsən, sonra duyuq düşüb Ayazı "Kirpi"yə də vurarlar.

C ə n n ə t. Bıy, başıma xeyir. Yəni o, "Kirpi" kəbin işinə də qarışır?

İ l q a r. Bəs necə? O elə belə şeylərin qənimidir də.

C ə n n ə t. Pərvərdigara, şükür cəlalına, nə yaxşı keçmişdə kirpi-mirpi yox idi. Onda dördarvadlılar neyləyərdilər?

İ l q a r. Ay Cənnət xala, məgər dördarvadlılıq yaxşı şeydir?

C ə n n ə t. Həlbət canına fəda olduğum bir şey bilirmiş ki, halal buyurub də...

İ l q a r. İndi ki, o canına fəda olduğun dördarvadlılığı halal buyurub, bəs özü niyə subaydır?

C ə n n ə t. Əstəğfürullah, əstəğfürullah. Bax, küfr danışma. Yoxsa səndən inciyərəm, ha!..

İ l q a r. Tövbə, tövbə, Cənnət xala. Yaxşı, sən əldə-ayaqda ol, mən də gedim qızı gətirim.

C ə n n ə t. Hə, deyirəm yadımda nə var axı... Elə qız-qız deyirsən. Nə Ayaz, nə də sən onun adını mənə demədiniz axı.

İ l q a r. Adı Afətdir, Afət! Qız deyil, qiyamətdir, qiyamət.

C ə n n ə t. Bu onun əsil adıdır, yoxsa qondarma?

İ l q a r. Lap əsil adıdır. Qondarma ad olar?

C ə n n ə t. Niyə olmur. Odur ey, qonşumuz Sərdarın oğlunun adı Firidundur, Fedya deyirlər, qızının adı Firəngizdir, Fira çağırırlar. Vallah, bunları eşidəndə lap adamın əti tökülür. Demək, qızın adı nə oldu?

İ l q a r. Ay Cənnət xala, yüz iyirmi dörd min peyğəmbərin adını süd əzbər bilirsən, amma bir nəfər peyğəmbər balasının adını yadında saxlaya bilmirsən? Adı Afətdir, Afət.

C ə n n ə t. Neyləyim, Sevda məndə huş-baş qoyub ki...

İ l q a r. Onu da deyim ki, Cənnət xala, onların daçaları var. Yayda səni ora aparacaqlar.

C ə n n ə t. O nədir, İlqar?

İ l q a r. Ora yaylaqdır, gözəl yerdir.

C ə n n ə t. Ax, nə olaydı! Sevdanın əlindən ürəyim lap üzülüb. Mağıl o dayçada dincələrdim.

İ l q a r. Eybi yoxdur. Sevda səni xəstələndirdi, Afət sağaldar. Hə?!

C ə n n ə t. İlqar, dayan, qadan alım! And olsun Məşədi Kazımın ruhuna mən səni Ayazdan ayırmayıram. Odur ki, sənə vəsiyyət edirəm, Allah eləməmiş (*o, barmaqlarını qulağına aparıb*) kiş-kişlər olsun, əgər mən ölsəm, məni qəbiristanda basdırmayın.

İ l q a r. Allah eləməsin, ay Cənnət xala, sən öləsən!

C ə n n ə t. Ölüm haqdır, bu gün burdayıq, sabah orda, sən mənim vəsiyyətimə əməl elə, amandı, məbada məni qəbiristanda basdırarsan.

İ l q a r. Cənnət xala! Bəs adam öləndə onu harda basdırırlar?

C ə n n ə t. Qəbiristanda, amma məni öz darvazamın ağzında basdırın.

İ l q a r. Darvazanın ağzında? Elə niyə Cənnət xala?

C ə n n ə t. Bu təzə gəlini güdmək istəyirəm, birdən evin şeylərini atası evinə daşıyar.

İ l q a r. Ay Cənnət xala, bu gəlin elə şey eləməz. Bu övladı-peyğəmbərdi.

C ə n n ə t. Ay pir olmuş, sən nə danışırsan? Bu dünya malı elə şeydir ki, peyğəmbər nədi, imamı da yoldan çıxardar.

İ l q a r. Cənnət xala! Mən istəmirəm ki, sən öləsən. Sağ-salamat ol, gözlərin də ev-eşiyinin üstündə olsun. Cənnət xala, sən onu tez ev dəftərinə yazdır ki, gəlib cərimə eləməsinlər.

C ə n n ə t. Lap doğru deyirsən. Onu sən yazdırarsan. Onsuz da mənimki cərimədən gəlib.

İ l q a r.

Darayıblar telini,
Bağlayıblar belini.
Cənnət xala, hazırlaş
Gətirirəm gəlini.

Sağ ol mən getdim.

İlqar gedir. Cənnət çamadanlara tamahkarcasına baxır. Qaldırmaq istəyir, gücü çatmır. Sədaqət gəlir.

C ə n n ə t. İlqar demişkən, çamadanlar nə yaman ağırdır. Yəqin ki, bunların içindəkilər qiymətli şeylərdir.

S ə d a q ə t. Allah eləsin, özü də çamadanları kimi ağır, içindəki şeylər kimi qiymətli olsun.

C ə n n ə t. Olar-olar, amma nə arzuma yetişdim! Bax, belə gəlinin əslinə də qurban, nəslinə də. (*Cənnət şadlığından zümzümə ilə oxuyur, ərinin şəklinə baxıb deyir.*) Niyə ölmüsən, ay rəhmətlik, ay Məşədi Kazım, vay Məşədi Kazım, dursana.

Bağçamızda bar olsun,
Heyva olsun, nar olsun,
Bu cehizli gəlinim,
Qoy həmişə var olsun.

Cənnət taqətdən düşüb hər iki çamadanı qucaqlayır.

## İKİNCİ PƏRDƏ

### DÖRDÜNCÜ ŞƏKİL

Cənnət sübh namazını qılır, radioda idman musiqisi verilir. Afət əynində pijama, gözündə eynək, stilyaqa görkəmində səhər idmanı ilə məşğuldur.

A f ə t. Bir! İki! Üç! Dörd!

C ə n n ə t (*namaz üstə*). Allahu əkbər...

A f ə t. Bir! İki! Üç! Dörd! (*Əyilib qalxır.*)

C ə n n ə t (*ucadan*). Lailahə illəllah.

A f ə t. Bir! İki! Sol! Sol!

C ə n n ə t. ...Əntəmtə əlehküm qeyril məğzubi, əleyhum vələzzalin. (*Cəld namazın üstündən qalxır.*) Səni görüm, səni görüm, elə əyiləsən, heç qalxa bilməyəsən. Ay kafir, bu Allah hüzurunda da mənə rahatlıq vermirsən.

A f ə t. Ay arvad ey, mənim sənə nə meşatım var?

C ə n n ə t. Bəs bu maşad deyil ki, səhər-səhər evdə cıdıra çıxmısan?

A f ə t. Bədən tərbiyəsi, cansağlığının birinci şərtlərindəndir. Sən əyilib qalxanda yaxşıdır, mən əyilib qalxanda pis? Vot tebe raz!

C ə n n ə t. Vırtıbıraz atandır! Sən qabaqca özünü tərbiyələndir, sonra bədənini.

A f ə t. Ey, ey, həddini aşma ha! Mən sənə Sevda deyiləm.

C ə n n ə t (*əllərini göyə qaldırır*). Ey pərvərdigara, görürsən də... (*Afət güzgü qabağında özünə bəzək verir. Cənnət nəyi isə axtarır.*)

Yedin noğul qayınana,
Doğdun oğul qayınana.
Oğlunu əlindən aldım,
Çatda, boğul qayınana.

C ə n n ə t. Ay səni partlamaya düşəsən.
A f ə t (*"Sevil"dən Edilyanın rolunu məşq edir*).

"Mən elə bir dilbərəm
Aşiqim dəstə-dəstə,
İstəsəm əmr eylərəm,
Hamı deyər göz üstə".

Balaş, qol çək. Qol çək, vəssalam!

C ə n n ə t. Budur ey... Yenə başladı ulamağa. Ay Balaşı da əkən tünbətün olsun, səni də.

A f ə t (*oxumağına davam edir*). Balaş, əzizim, qol çək... Balaş, qol çək, vəssalam...

C ə n n ə t. Balam, bu Balaş nə qədər qol çəkir, bəyəm? Baş-beynim getdi... Yaxşı, indi ki, belə oldu, al gəldi, nacins!

Cənnət gedib həvəngdəstəni gətirir. İstiot döyür və asqırır.

A f ə t. Ay arvad, bu qədər asqırmaq olar? Bu nə taq-tuxdur? Görmürsən məşq eləyirəm?

C ə n n ə t. Cəhənnəmə, gora məşq eləyirsən. Mən evimdə istiot döyməyəcəyəm ki, nə var, nə var sən Balaşa qol çəkdirəcəksən. Bura dəftərxanadır?

A f ə t. Yaxşı, uzunçuluq eləmə. Mən gedirəm univermağa, oradan partnixaya, sonra da manikürə. Oradan da futbola gedəcəyəm. İndi bu ev, bu da sən. Öz-özünə nə qədər istəyirsən, deyin.

C ə n n ə t. Ay sənin görüm axır gedişin olsun!

A f ə t (*geri qayıdır*). Nə dedin, ay arvad?! Bir yandan əllərini göyə qaldırıb Allahı çağırırsan, bir yandan da yeri axtarırsan.

C ə n n ə t. Ev-eşik ələk-vələk olub. Əlimlə qoyduğum şeyi yerində tapa bilirəm ki... Hanı mənim təsbehim?

A f ə t. Tısbax hə... O qara busiləri deyirsən? Onu mən götürmüşdüm, məstanla oynayırdım.

C ə n n ə t. Qələt eləmisən, başını daşdan-daşa döymüsən! Allahın türbətini siçan tutan murdar pişiyə oyuncaq eləmisən?

A f ə t. Di bəsdir, çürükçülük elədin. Tısbağanı yemədilər, içmədilər. Ala... (*Təsbehi ona verir, sonra dönüb təqvimə baxır.*) Vay, vay, arvad o qədər deyindin ki, az qalıb mamamın mamasından olan günü də yadımdan çıxsın.

C ə n n ə t (*astadan*). Ay onu mamasından sağ olmayaydı!

A f ə t (*İlqara zəng edir*). İlqar, mənəm. Bu gün mamamın mamasından olan günüdür. Tez ol, iki dənə yekə yeşik al gətir. Mamama pasılka göndərmək lazımdır. Yoxsa biabır ollam.

C ə n n ə t. Yenə də pasılka!.. Bəs o gün göndərmədin?

A f ə t. Göndərmişəm. Əlimin içindən gəlib, içinin içindən gəlib, içində bir noxud var, noxudun içindən gəlib. O gün papamın adqoydusu idi, indi isə mamamın mamasından olan günüdür. Bir də sənə nə var ey?!

C ə n n ə t. Necə yəni sənə nə var, bəs o pasılkalara verilən pullar kimindir?

A f ə t. Belə qadasın aldığım Ayazuşkamın...

C ə n n ə t. Ayazuşka? Cənnət ölmüşdü, Ayaz sənin hardan oldu? Dədən əkib, nənən doğub? O mənim oğlumdur, mənim!

A f ə t. Xeyr, daha ondan əlini çək, o mənimdir, mənim.

C ə n n ə t. Ay Allah, mənim nə görəcəkli günüm varmış...

A f ə t. Bax, daha sənə heç sözüm yoxdur. Bir yandan namaz qılıb, oruc tutursan, bir yandan da gözümün içinə yalan danışırsan. Yaxşı, nə deyəcəkdim. Lap başımı itirmişəm. Hə, mənə bax, şeydi, zaddı...

C ə n n ə t (*hirsli*). Ay qız ey, mən sənə nə şeyəm, nə də zadam. Mərifətin dədən evində qalsın.

A f ə t. Yaxşı, bəsdir uzunçuluq elədin! Üzüyünün qaşı düşmədi ki... Cənnətsən, cəhənnəmsən, nəsən...

C ə n n ə t. Tfu sənə, nacins!

A f ə t. Çox sağ ol, ürəyin soyudu? İndi mənə qulaq as. Mən gələnə kimi buraları yığışdırarsan. Bu cındır-mındırlarını da götür buradan rədd elə! Bu nədir, bu nədir? Fu... Özü də mənim yanımda adam olanda buralarda görünmə. Papirosunu da get kuxnuda fısqırt. Eşitdin?

C ə n n ə t (*kinayə ilə*). Eşitdim, xanım, eşitdim. Daha nə buyurursan?

A f ə t. Ay arvad ey, məni dolama ha! Yoxsa səni elə dolaram ki, yumağını fələk də aça bilməz. Ağlın Sevdaya getməsin. Bildin?

C ə n n ə t. Bildim. Səndən nə desən çıxar (*əlini dizinə vurur*). Ey gözə görünməyən, görürsən də!..

A f ə t. Bu ah-ufunu da saxla, dar gündə sənə lazım olar.

C ə n n ə t. Bundan da dar gün olacaq?

A f ə t. Hələ bu harasıdır. (*Afət fışqırıq çala-çala gedir.*)

C ə n n ə t (*Afətin dalınca*). Ay səni əkib-doğan tünbətün olsun. Ay Allah, bu nə işdi düşdüm. İndi mən dərdimi kimə deyim? Başıma haranın daşını salım? Ax, ax...

Sədaqət gəlir.

S ə d a q ə t. Salam, Cənnət xala. Xeyir ola?

C ə n n ə t. Daha bunun harası xeyirdir? Sədaqət, bir oda düşmüşəm, soruşma. (*Dizinə vurur.*)

S ə d a q ə t. Cənnət xala, nə olub, axı?

C ə n n ə t. Nə olacaq, ölmüşəm, ağlayanım yoxdur. O it küçüyü bir əfi ilanı gətirib salıb mənim canıma, özü də bilmirəm hansı cəhənnəmə itilib. Nə günüm var, nə güzəranım. Ax, ax...

S ə d a q ə t. Cənnət xala, nə tez belə oldu? Sən ki onu tərifləyirdin. Əsli-nəcabətlidir, deyirdin?

C ə n n ə t. Ay bunun əslinə də lənət, nəslinə də! Mən nə bilim axı... Ayaz, İlqar bunu o qədər təriflədilər ki, saqqızımı oğurladılar. Sədaqət, yaman yerdə axşamlamışam.

S ə d a q ə t. Bəs özü hara gedib?

C ə n n ə t. Onbarmağa, anasına kəfən almağa. Həftə səkkiz, mən doqquz hey pasılka dalınca gedir. Gah deyir atamın adqoydusudur, gah da deyir anamın anadan olan günüdür. Ay bunun anasının adı qalsın elə. Sədaqət, ev-eşiyim dağıldı. Mən bu dərdi qəbrə apara bilmərəm...

S ə d a q ə t. Bəs indi fikrin nədir?

C ə n n ə t. Nə olacaq, qalmışam əl-amanda, heç bilmirəm nə eləyim. Bircə bunun əlindən yaxamı qurtarım. Bir yeyib, min Allah yoluna verərəm.

S ə d a q ə t. Cənnət xala, bir yandan Sevdanın məsələsi, bir yandan bu, yenə biabırçılıq olacaq də...

C ə n n ə t. Daha keçib. Sən yubanma, nə qədər gec deyil, tez onun andırını götür, at mətbəxə, mən qapını bağlayıb onu evə buraxmayacağam.

S ə d a q ə t. Cənnət xala, doğrusu, mənciyəz ondan qorxuram. Bilsə, mənim dərimə saman təpər.

C ə n n ə t. Qələt eləyər, nəkaradır. Onun dədəsindən ev qalıb? Tez ol...

S ə d a q ə t. Cənnət xala, hərçəndi deyirsən, axı...

C ə n n ə t. Axısı-maxısı yoxdur. Sənə nə deyirəm, ona qulaq as!

S ə d a q ə t (*qorxa-qorxa çamadanları mətbəxə aparır*). Bax, Cənnət xala, mənim bundan xəbərim yoxdur ha!

C ə n n ə t. Xəbərin olanda nə olacaq. Gəmidə oturub gəmiçi ilə dava edəcək? Allah vurmuşdu onu!

Qapını bağlayır.

S ə d a q ə t. Cənnət xala, Ayaz onunla ZAQS-a gedib?

C ə n n ə t. Allah eləməsin, elə bircə onda baxtım işləyib. Xəlvəti kəbin kəsdirmişəm. Bunu özü də bilmir. Bax, sən də ağzından qaçırma ha!

S ə d a q ə t. Yox, yox, Cənnət xala, mən onu ilk dəfə görəndə gözündən bildim ki, nə yuvanın quşudur.

C ə n n ə t. Bircə bu bəladan qurtarım, nəzir eləmişəm.

Afət əlində böyük sumka və bir neçə bağlama ilə gəlir.
O, qapını bağlı görüb təəccüblənir.

A f ə t. Bıy, bu qapı niyə bağlıdır? Ay arvad, daha başqa hoqqan yox idi?

C ə n n ə t. Öz qapımdır, bağlamışam.

A f ə t. Ay arvad, ey. İlanın başı ağrıyanda özünü yolun ortasına verər. Nə qədər başın əzilməyib, dur qapını aç. (*Cənnət etinasız papiros çəkir.*) Lənət sənə, kor şeytan. Ay arvad, səninlə deyiləm? Aç qapını deyirəm. (*Afət qapını hirslə itələyir.*) Yaxşı, sən açmırsan, mən açaram. (*O, mətbəxdən çapacağı gətirib qapını sındırmaq istəyir.*)

S ə d a q ə t. Afət bacı, dayanın, qapını sındırmayın. Cənnət xala, qapı hayıfdır, sındıracaq.

A f ə t (*davam edir*). Bax, belə, belə...

C ə n n ə t (*açarı Sədaqətə verir*). Al, Sədaqət, al. Heç eybi yoxdur. Ey mənim Allahım, görürsən də!..

A f ə t (*içəri girəndə çamadanları görmür*). Bıy, bəs mənim çamadanlarım hanı? (*Cənnət cavab vermir. Afət ucadan.*) Ay arvad, karsan, eşitmirsən? De görüm, çamadanları neyləmisən? Sədaqət, bilmirsən çamadanları bu hara qoyub?

S ə d a q ə t. Vallah, nə deyim, Afət bacı. Çamadanlarınız harda olsa, buralarda olar...

A f ə t. Bax, axırıncı dəfə xoşaxoşluqla deyirəm: əl-ayağım dəyməmiş çamadanları gətir qoy yerinə. Tez ol, yoxsa... (*Pauza.*) Ay arvad, səninlə deyiləm? Bu saat de görüm çamadanlarımı neyləmisən? Demirsən ki? İndi ki, belədir al gəldi. Bax, belə, belə...

Afət evin əşyalarını dağıdır, qaraqışqırıq salıb özünü dəliliyə
qoyur və özündən gedir. Sədaqət onu divana uzadır.

S ə d a q ə t. Afət, Afət, bıy, Cənnət xala, bu ölür ki...

C ə n n ə t. Hanı məndə o bəxt?! Dünən ölsəydi, sabah üçün verərdim.

A f ə t (*su içir*). Ox, ox, ox, aman, aman ürəyim! (*Taqətsiz halda durur, milis şöbəsinə zəng edir.*) Milis naçalnikini olarmı? Yoldaş Alxazov, sizi narahat edən Böyük Bulvar küçəsi, 75 nömrəli binada yaşayan Afət Seyidbəylidir. Bilirsinizmi, mənim evimi aparmışlar... Nə vaxt? Təxminən gündüz saat ikidə, bəli... Evdə kim vardı? Qayınanamdan başqa heç kəs yox idi... Necə, it göndərirsiniz? Göndərin, gözləyirəm. (*Dəstəyi asır.*)

C ə n n ə t. Mənim evimə it gətirib bu əziz gündə məni iylətdirmək istəyirsən, nacins?!

A f ə t. İt də gətirərəm, pişik də. Sənə kim ixtiyar verib mənim çamadanlarımı götürüb gizlədəsən?

S ə d a q ə t (*astadan*). Cənnət xala, çamadanları mən götürmüşəm, it gələn kimi məni iyləyəcəkdir. Bu nə iş idi ki, mən düşdüm. Vay, vay... (*Ağlayır.*)

C ə n n ə t. Yaxşı, vayıldama, get onun andırlarını gətir, dürtsün gözünə. Qurban olsun o itə.

Sədaqət gedib çamadanları gətirir.

S ə d a q ə t. Afət bacı, budur çamadanlarınız, siz allah zəng edin, it gətirməsinlər. Yoxsa qonşuların içində biabır olarıq.

Afət dəstəyi götürüb milis şöbəsinə zəng edir.

A f ə t. Yoldaş Alxazov, sizi narahat edən Seyidbəylidir. Bəli, o evi oğurlanan. Xahiş edirəm daha iti narahat eləməyin, şeylərim tapıldı. Bəli. Oğru kim idi? Ev oğrusudur, öz qayınanamdır, əli yamanca əyridir. (*Dəstəyi asır.*)

C ə n n ə t (*hirsli*). Mənim əlim əyridir? Yaxşı, həyasız!

A f ə t. Hə, sən çamadanlarımı gizlətməklə məni də Sevda kimi qaçırmaq istəyirsən? Ay-hay, Afət deyil, kölgəsidir. Mən sənin özünü bu evdən qaçırdacağam. Qoy bir Ayaz gəlsin.

C ə n n ə t (*dirsəyini göstərir*). Budur ey, ala bax. Ev mənimdir, Ayaz haranın tulasıdır?

A f ə t. Ev hökumətindir. Gedərik suda. Üç otaqdır, ikisi Sevdanındır, biri də Ayazla mənim. Sənin də yerin odur ey, kuxna, oturarsan orada, tarakanlarla qeybət edərsən.

C ə n n ə t. O sənin xam xəyalındır. Mənə Cənnət deyərlər! Bu evi binasından dağıdaram!..

A f ə t. Yox a, Cənnət bu imiş! Əgər o dünyadakı cənnət də belə isə, vay ora düşənlərin halına. Mənciyəz diri-diri cəhənnəmə düşərəm, bu cənnətin qapısına ayaq basmaram.

C ə n n ə t. Ay dördgöz ləçər!..

S ə d a q ə t. Afət bacı, bir az yavaş, qonşuların qulağı burdadır.

A f ə t. İstər lap burunları burda olsun. Onsuz da qonşular bunun əlindən təngə-zara gəliblər.

C ə n n ə t. Dənəm – suyam, nəyəm – buyam. Mən pisəm, niyə pis adamla üz-üzə durmusan? İtil hardan gəlmisən ora.

A f ə t. Hə... Qaraca qızın dərdi varmış, sən məni də Sevda kimi qaçırtmaq istəyirsən?! O sənin xam xəyalındır. Mən qaçan yox, qaçırdanam. Mənə anam deyib, qayınanana zalım ol, mənim gözümcanım ol.

C ə n n ə t. Elə ananın belə nacins qızı olar da.

A f ə t. Daha neyləyim, gəlin ocağa çəkər. Sənə oxşamışam da. (*Telefon zəng edir. Afət dəstəyi götürür.*) Allo, ax, Meriçka, sənsən? Necə, elə bildin qayınanamdır? Allah eləməsin, ay qız, mənim səsim ona oxşasın! Yaman da sözdür! Ələ alırsan əli yandırır, yerə qoyursan yeri.

C ə n n ə t (*Sədaqətə*). Eşidirsən? Telefonla da mənim qeybətimi eləyir.

S ə d a q ə t. Cənnət xala, sən ona fikir vermə, o bu saat qan-qan deyir.

C ə n n ə t (*hirsli*). Ay bunu doğanın ciyəri yansın!

A f ə t (*Cənnətə*). Sənin ciyərin yansın! Yox, Meriçka səninlə deyiləm, qayınanamlayam. Necə? Ondan qorxan kimdir? Çox eləyər, onu da salaram Tofiq müəllimin gününə. Yadındadır, onu necə boğazladım? Bir həftə udquna bilmədi.

S ə d a q ə t (*xəlvətcə*). Eşitdin, Cənnət xala? Bir qız ki, öz müəllimini boğazlaya, gör indi o nə yuvanın quşudur!

C ə n n ə t. Ay onu bura azdıranın canı yansın!

A f ə t. Ay arvad, bəsdir də, dilotu yemisən? (*Afət yenidən zəng edir.*) Kima, sənsən? Mənəm, Afətdir, bu vıxodnoy Maya, Taya, Emma, Elza, Fira, Fedya, Zahid, Vahid, Tofiq, Edik – hamısı bizə yığışacaqlar, sən də Fuvka ilə gələrsən, mənim anadan olan günümdür.

C ə n n ə t. Odur ey, qoyma, yenə anadan oldu. Sədaqət, adam ayda neçə dəfə doğular? Ay bunun anasının qarnına şiş batsın.

S ə d a q ə t. Cənnət xala, ana onun, o da ananın, qoy nə qədər olur olsun, səndən nə gedir.

C ə n n ə t. Necə yəni nə gedir? Yenə də at ilxısı, köpək sürüsü – aləmi tökəcək buraya, ev-eşik alt-üst olacaq.

Afət güzgüyə baxıb, özünə sığal verə-verə oxuyur.

S ə d a q ə t. Afət bacı, mən gedirəm. Ancaq, siz allah, dalaşmayın.

A f ə t. Mənə yox, buna de, buna. Bu, Sevda kimi xanım-xatın bir gəlinlə yola getməyib, səkkiz qulluqçu bunun əlindən Mərəzəyəcən pay-piyada qaçıb. Bir adam ki, evin azuqəsini sandığa qoyub qıfıllaya, daha bundan nə gözləyəsən?! Ya gərək bu pis xasiyyətlərini buna tərgidəm, ya da buradan mənim meyidim çıxacaqdır.

C ə n n ə t (*burunaltı*). İnşallah, bircə o günü görəydim!

A f ə t. Bax, eşidirsən, Sədaqət?

S ə d a q ə t. Nə deyim, Afət bacı, özünüz bilərsiniz.

Sədaqət gedir. Afət piano çalıb oxuyur.

A f ə t

Aman-aman əlindən,
Fitnəsindən, felindən,
Görüm, ay pis qayınana,
İlan vursun dilindən.

C ə n n ə t. Belə əzizlərinin dilindən ilan vursun! Mənə bayatı qoşubsan? Yaxşı, nacins!

A f ə t. Ay arvad, soğan yeməmisən için niyə göynüyür. Məgər sən pis qayınanasan?

C ə n n ə t. Ay dördgöz ləçər! Mən öz fitimi bilirəm. Mən yaxşı bilirəm ki, sən kimin bostanına daş atırsan!..

A f ə t. Ay arvad, ölməyəcəksən? Dilini bir az şirin eləsənə.

C ə n n ə t. Xeyr, hələ küp üstündə çox küpçələr sınacaq.

A f ə t. Sən çox harınlıq eləmisən. Sənə yerini göstərən olmayıb. Sən istəyirsən ki, gəlin sənin süpürgən olsun, harda qoydun orda dursun. Məni süpürgə eləyən qayınananı mən xəkəndaz eləyərəm!

C ə n n ə t. Ay Məşədi Kazım, vay Məşədi Kazım, oğul əkən yerdə tünbətün olaydın...

A f ə t. Elə o yazıq Məşədi Kazımı da sən çərlədib öldürmüsən. Ay yazıq kişi, mən bilirəm sən bunun əlindən nələr çəkmisən.

C ə n n ə t. Ay qız ey, özünü yığışdır ha! Dirilər əlindən çıxıb, indi də ölüyə əl atırsan? Məşədi Kazım sənə Yaşa-Maşa deyil ha!..

A f ə t. Di yaxşı, Məşədi Kazımını yemədilər ki...

C ə n n ə t. Ey gözə görünməyən Allah, görürsən də...

A f ə t. Di yaxşı, ətimizi tökmə. Allah gəlinlə qayınananın işinə baxmır. Sən Allahı dəng eləməkdənsə, suda ərizə versən yaxşıdır.

C ə n n ə t. Allahın adını çəkmə, kafir, o sənə oyuncaq deyil. (*Cənnət hirslə həvəngdəstəni qaldırıb Afətə hücum edir. Afət idman qılıncını götürüb Cənnətin üstünə cumur.*)

C ə n n ə t. Ay aman, ay aman, kömək edin. Qoymayın.

Qaçır. Afət onun dalınca gülür.

A f ə t. Bax, qəddar, zalım qayınananın cəzası budur. Hələ mən sənə əlləzinəni əzbərdən oxudacağam.

PƏRDƏ

İşıq sönür.

BEŞİNCİ ŞƏKİL

Afət güzgü qabağında saçları dağınıq, başında güldən çələng,
Ofeliyanın dəli olduğu səhnəni məşq edir.

A f ə t.

“Sizə bəlli, mənim dostum,
Şanlı, igid bir ər idi.
Ölkəmizdə qorxu bilməz,
Mübariz bir əsgər idi...”

Cənnət əlində qazan gəlir. O, Afəti görən kimi qorxudan
qazan əlindən düşür.

C ə n n ə t. Sədaqət, ay qız, Sədaqət, tez ol, buraya gəl, gör bu nə pəstəha çıxardır!

Sədaqət gəlib təəccüblə Afətə baxır.

A f ə t.

> “Uzaq, uzaq, bizdən uzaq
> Bir adada o ölmüşdür.
> Üzərində məzar daşı,
> Torpaqlara gömülmüşdür”.

S ə d a q ə t. Afət, nə oxuyursan?

A f ə t. Nə oxuyuram, dinləyin. Görün nə gözəl mahnıdır.

> “Sarıdılar ağ kəfənə,
> Qazıdılar bir qara yer,
> Tabutunu göz yaşı ilə
> Bu məzara endirdilər”.

C ə n n ə t. Sədaqət, bu nə sarsaqlayır? Kəfənə kimi bürüyüblər?

S ə d a q ə t. Afət bacı, sənə nə olub?

A f ə t. Heç bir şey. Bilirsinizmi, bayquş əvvəllər bir qız idi. Sonralar dönüb bayquş olub.

Afət Cənnətə doğru gedir. Cənnət qaçır.

S ə d a q ə t. Bunu doğru deyir.

C ə n n ə t. Nəyi doğru deyir, ay qız? Görmürsən o sarsaqlayıb, altı-beş vurur.

S ə d a q ə t. Cənnət xala, bircə qulaq as...

A f ə t. “Bunların hamısı keçib, yalnız səbir elə. Ancaq onun soyuq torpağa qoyulduğunu düşündükcə, mənim ağlamağım gəlir...”

C ə n n ə t (*kənara*). Ay səni ağlar qalasan!

S ə d a q ə t. Cənnət xala, bircə ora bax.

C ə n n ə t. Nəyə baxım, ay qız, görmürsən, o ağlını itirib, hətərən-pətərən danışır?!

A f ə t. “Bunların hamısını qardaşım biləcək”.

C ə n n ə t. Bax, bax, məni qardaşı ilə hədələyir. Dəli ikən də məndən əl çəkmir.

S ə d a q ə t. Cənnət xala, vallah o, dəli deyil.

C ə n n ə t. Görmürsən, ağıllı-başlı dəlidir. Onu mənim ahım tutubdur.

A f ə t. “Tez mənim karetamı verin, gecəniz xeyrə qalsın. Ha-ha-ha...”

Afət gülə-gülə öz otağına keçir.

C ə n n ə t. Bəh, bəh, bəh... Əzəldən var idi hüsn-camalı, indi olub dəli Bayramalı. Sədaqət, tez ol, dəlixanaya zəng elə, gəlib bunu aparsınlar, yoxsa xata çıxardar.

S ə d a q ə t. Cənnət xala, vallah o, dəli deyil.

C ə n n ə t. Allaha and içmə, dəlinin buynuzu olmaz ki... Dəlidir, özü də zırramasından.

S ə d a q ə t. Cənnət xala, indi bildim ki, mən bu sözləri haradan eşitmişəm. "Hamlet" adlı bir teatr var, orada bir qız dəli olur. Bu onun oyununu çıxardır?

C ə n n ə t. Qələt eləyir! Bura dəlixanadır?

S ə d a q ə t. Cənnət xala, onun ki sənə zərəri yoxdur.

C ə n n ə t. Necə yəni zərəri yoxdur. O buraya gələndən qülhüvallahım, bismillahım da yadımdan çıxıb. Min cür hoqqabazlıq elədiyi bəs deyil, indi də özünü vurub dəliliyə.

S ə d a q ə t. Amma zalım qızı, qiyamət artiska olacaq.

C ə n n ə t. Gözüm aydın olsun...

Afət otaqdan çıxır.

A f ə t. Ay arvad, nə üçün mane olursan? Niyə qoymursan məşqimi eləyim? Özün namaz üstündə olanda bir hənirti gələn kimi "Allahu-əkbər" deyib özündən çıxırsan.

C ə n n ə t. Sən Allahın namazını hoqqabazlığa tay edirsən? Kafir!

A f ə t. Ax, varçuşka.

C ə n n ə t. Çoşqa sənsən, ağzını dağıtma ha!..

A f ə t. Ay arvad, çoşqa nədir? Varçuşka deyirəm, yəni çox danışan, zəvzək, deyingən...

C ə n n ə t. Ya Əli, səni çağırıram...

A f ə t. Bura bax ey, çox da o Əliyə güvənmə ha! Allahdan istəyirəm o mənə əl qaldırsın, gör Alxazova zəng edib onu dama basdırıram, ya yox.

C ə n n ə t. Necə? Həzrət Əlini dama basdırarsan, şümür qızı, şümür!..

A f ə t. Ay arvad, Həzrət Əli nədir?! Mən o qardaşın oğlu Əlini deyirəm. Sənsən dəqiqəbaşı Allahı, imamı dəng eləyən. Yazıq kişi səni yaratdığına peşman olub.

Cənnət. Ay mürtəd qızı, məgər Allah kişidir. Heç nə danışdığını qanırsan?

Afət. Bıy, kişi deyil, bəs nədir. Bilmirəm, bəlkə sən yeni Allah icad eləmisən. Bu lap möcüzədir ki... (*Piano çalıb oxuyur.*)

Gəlin, gəlin tez bizə,
Bircə baxın möcüzə.
Cənnətin alqışları,
Duası, qarğışları.
İnsanlara can verir,
Həyat verir, qan verir.

Cənnət (*oğlunun dalınca gileylənir*). Ay it küçüyü, əlbət, gəlib bura çıxarsan!

Afət. O yazıq sənin əlindən güclə qurtarıb, hara gəlir?!

Cənnət (*Ayazın dilindən*). Ana, bu qız abırlı, həyalı, əsli-nəcabətlidir. Ay bunun əslinə də lənət, nəslinə də!

Afət. Sən bu pis xasiyyətlərinlə hamının gözündən düşmüsən, nə qədər gec deyil, bu xasiyyətlərini tərgit.

Afət gedir. Telefon zəng edir. Cənnət dəstəyi götürür.

Cənnət. Kimi istəyirsən? Ay Afəti əkən gorbagor olsun! Burada Afət-mafət yoxdur. Bir də bura zəng eləmə.

Hirslə dəstəyi asır. İlqar gəlir.

İlqar. Cənnət xala, nə olub belə, qanın qaradır?

Cənnət. Daha nə olacaq, qaradan artıq rəng olar?

İlqar. Nə qara, nə rəng?

Cənnət. Bir əfi ilanı gətirib salmısan mənim canıma, hələ bir soruşursan da?!

İlqar. Sən Afəti deyirsən?

Cənnət. Bəs kimi deyirəm... Təriflədiyin matah bu isə, çəkəydin Cəfərabad bazarına.

İlqar. Yəni o səni incidir?

Cənnət. İncidir də sözdür, o mənim başıma od ələyir.

İlqar. A Cənnət xala, təqsir özündədir də. O qədər məni tələsdirdin ki, tez ol, qız əldən çıxar, onu mənə yetir, seyiddir, imam övladıdır...

C ə n n ə t. Ay onu görüm imam belindən vursun! Mən dedim gəlin görüm, demədim dilin görüm. Hələ gör mənə nə deyir?!

İ l q a r. Nə deyir?

C ə n n ə t. Deyir otağın biri Ayaz ilə mənimdir, ikisi də Sevdanın, sənin də yerin odur ey, kuxnu...

İ l q a r. Cənnət xala, sən ona fikir vermə.

C ə n n ə t. Necə fikir verməyim, dözə bilmirəm axı.

İ l q a r. Onda bir az səbir elə, qoy Ayaz gəlsin.

C ə n n ə t. İş ki düşdü səbirə, üzünü çöndər qəbirə. Daha səbir kasam daşır, mənə bir əlac, İlqar.

İ l q a r. Bilirsən, Cənnət xala, bunun bircə çarəsi var.

C ə n n ə t. De görüm, nədir?

A f ə t (*gəlir*). İlqar, gəlmisən, hazırlaş, gedək futbola.

İ l q a r. Xəbərin var ki, bu həftə dövlət imtahanıdır, hazırsanmı?

A f ə t. Dığ-dığdan, dedi-qodudan başım ayılır ki... Deyir piano çalma – səsi başıma düşür. Oxuma – matəmdir. İdmanla məşğul olma – namaz qıla bilmirəm. Belə vəziyyətdə rol hazırlamaq olar?

İ l q a r. Afət, birtəhər yola vermək lazımdır.

A f ə t. Nə vaxta kimi bunu yola verim. Bu, qapını mənim üzümə bağlayır, şeylərimi kuxnaya atır, atamı-anamı bir-birinə qatır, göz verib, işıq vermir. Ay yazıq Sevda, indi bildim ki, o nə çəkirmiş... (*Ağlayır.*)

İ l q a r. Ağlama, Afət.

C ə n n ə t. Ay səni görüm ağlar qalasan.

A f ə t. İlqar, eşitdin?

İ l q a r. Cənnət xala, bəsdir də...

C ə n n ə t. Bəsti-məstidən keçib. Tez o küçüyə teleqram vur, gəlsin.

İ l q a r. Cənnət xala, Allah bilir, o haradadır.

A f ə t. Məni Ayazla qorxudur. İlqar, mən o “Tufan”dakı Kabanixanı görəndə inanmırdım ki, elə qayınana olar. Bu lap Kabanixadan betərdir ki...

C ə n n ə t (*hirsli*). Qabandan betər sənin əcdadındır. Axırda işi bu pilləyə mindirdin, nacins! (*İlqara.*) Hələ sən də durub baxırsan? Niyə bunun ağzını yummursan?! Allah qalmadı, imam qalmadı, peyğəmbər qalmadı, axırda məni də qaban elədi. Mənəm qaban? Mən? Mən?..

Cənnət Afətin üstünə atılıb onu saçlayır.

A f ə t. Burax, burax saçımı. Burax deyirəm, vay, vay, mama, mama! Burax saçımı, burax.

İlqar onları aralayır.

İ l q a r. Ay Cənnət xala, sən nə edirsən? Burax qızın saçını. Ay arvad, ayıbdır...

A f ə t (*Cənnətin barmağını dişləyir*). Al, yaxşıdır?

C ə n n ə t. Aman, aman, vay barmağım, vay.

İlqar onları ayırır. Cənnət taqətdən düşüb divana uzanır.
Afət saçları dağılmış halda o biri otağa keçir. İlqar Cənnətin
alnına kompres qoyur.

C ə n n ə t. Vay, vay, barmağım vay...

İ l q a r. Cənnət xala, sən yekə arvadsan, heç bu biabırçılığa dəyərmi?

C ə n n ə t. Yaxşı, hey eybi yoxdur. Gör sənin başına nə oyun gətirəcəyəm.

A f ə t. Əgər məni döydüyünə görə səni suda verib on beş sutka yatırtmasam, atamın qızı deyiləm. Mənə atam, anam əl qaldırmayıb, sən məni, məni?.. (*Ağlayır.*)

C ə n n ə t. Yaxşı eləyirəm. Mənə qaban deyirsən?

İ l q a r. Cənnət xala, vallah o sənə qaban demir, o teatrdakı arvadın adını deyirdi.

Bu zaman Mülayim gəlir. O, Cənnəti görüb təəccüblənir.

M ü l a y i m. Bu nə görkəmdir, ay arvad, sünni mollası kimi başını niyə sarıqlamısan?

C ə n n ə t. Uf, uf, ay barmağım, ay barmağım...

M ü l a y i m. İlqar, buna nə olub belə?

İ l q a r. Heç, ana, boş şeydir.

M ü l a y i m (*Afətə*). Qızım, bu niyə belə pörtüb?

A f ə t (*o biri otaqdan*). Mülayim xala, onun ürəyi zəifdir. Onu hamam tutubdur.

C ə n n ə t. Yalansa, səni görüm meyidin hamamdan çıxsın.

M ü l a y i m. Heç nə başa düşə bilmirəm. Ay arvad, bir de görüm, yenə nə olub axı?

Cənnət. Nə olacaq... Bircə gün otur burda, gör mən nə çəkirəm! Ay bunu mənə calayanın canı yansın!

Mülayim. Əstəğfürullah de, ay arvad. Adam da öz oğluna qarğıyar?

Afət. Arvadın kündəsi əvvəldən qarğışla yoğrulub.

Mülayim. Qızım, nə təhər olsa, bu sənin nənən yerindədir. Bu hörmətsizlik nəyə gərəkdir?

Afət. Mülayim xala, bəs o nənəm yerində arvada layiqdir ki, mənim anamı, atamı bir-birinə qatsın, axırda da məni döysün? (*Ağlayır.*)

Cənnət. Yaxşı eləyirəm, səni dağlasam, ürəyim soyumaz.

Afət. Mülayim xala, məni bağışla, mən daha dözə bilmirəm.

Afətlə İlqar gedir.

Mülayim. Ay Cənnət, iman əzizdir, doğru deyir də... Niyə işi o yerə çatdırırsan ki, o da səni bihörmət eləsin?

Cənnət. Mülayim, abrım-həyam getdi, evim-eşiyim talan oldu. Ay tövbə, əgər Sevdada bu sifəti görmüşəmsə.

Mülayim. Hə. Yaxşı ki, başa düşmüsən. Mən sənə vaxtında nə qədər yalvardım, nə qədər dil tökdüm ki, Sevdanı incitmə, evini dağıtma. Özü yıxılan ağlamaz.

Cənnət. Axı mən haradan biləydim ki, bu belə od-alov imiş!..

İlqar (*gəlir*). Cənnət xala, deyir utan utanmazdan, qorx həyasızdan. Mən görürəm ki, bu işin axırı pis olacaq.

Cənnət. Elədir, İlqar. Bu vaxtda mən çəkəni kafir də çəkməsin. Bir gör nə hala düşmüşəm, Mülayim!

Mülayim. Görürəm, xortdanağın çıxıb. Axı sənə kim deyirdi ki, gül kimi gəlini evindən didərgin salasan, özün özünü oda atasan?

Cənnət. Mülayim, mən lap başımı itirmişəm. Amandır, mənə bir çarə.

Mülayim. Vallah, nə deyim, ay Cənnət. Necə deyərlər gəlinin dini yox, qayınananın imanı.

Cənnət. Onda bircə çarəm var ki, başımı götürüb bu evdən qaçım.

İlqar. Cənnət xala, fərz edək ki, sən başını götürüb bu evdən qaçdın. O bundan istifadə edib evinin şeylərini pasılka elədi atası evinə, bəs onda?..

C ə n n ə t. O da doğrudur, İlqar. Onsuz da o mənim ev-eşiyimi talan edibdir. Bəs mən nə edim? İlqar, amanın günüdür, mənə bir çarə...

İ l q a r. Bax, Cənnət xala, ev bizim, sirr bizim. Əgər sən istəyirsən ki, ev-eşiyin dağılmasın, özün də evindən qaçaq düşməyəsən, tez bunu buradan rədd elə.

C ə n n ə t. Nə təhər eləyim axı, qalmışam əlamanda.

İ l q a r. Mən onu abırlı-həyalı bir qız bilirdim. Bu qız deyil, qızdırmadır.

C ə n n ə t. Hə, özü də qara qızdırmadır. Eşitdin ki, Mülayim?

İ l q a r. Cənnət xala, onu buradan rədd eləmək mənim boynuma.

C ə n n ə t. Ax, nə olaydı bircə o günü görəydim.

İ l q a r. Görərsən. Ancaq bunun şərtləri var.

C ə n n ə t. Nə şərti?

İ l q a r. Lap asandır.

M ü l a y i m. Ancaq, siz allah, elə eləyin ki, biabırçılıq olmasın.

İ l q a r. De görüm, şərtlərimə əməl edərsənmi?

C ə n n ə t. Nə desən elərəm, təki bunu buradan rədd elə!

İ l q a r. Bax, mənim birinci şərtim budur: sən gəl Sevda ilə barış, onu qaytar evinə.

C ə n n ə t. Bıy, məgər mən Sevda ilə dalaşmışam? Özü acıq eləyib gedib, vallah.

İ l q a r. İndi, hər nə. De görüm, buna razısanmı?

C ə n n ə t. Razıyam, niyə razı deyiləm...

M ü l a y i m. Bax, atan oldu rəhmətlik.

İ l q a r. İkinci şərtim budur: söz ver ki, bir də bu evdə dığ-dığ, qeybət olmayacaqdır.

C ə n n ə t. Mülayim, bu nə deyir? Mən heç birdən-ikiyə qeybət eləmişəm, əstəğfürullah, əttövbə.

İ l q a r. Axırıncı şərtim budur: bir də sən Sevda ilə Ayazın işinə qarışmayacaqsan.

C ə n n ə t. Mən ki xeyirxahlığa danışmışam... neyləyək, daha danışmaram.

İ l q a r. Onda gəl səni maç eləyim. (*Cənnəti öpür.*)

C ə n n ə t. İlqar, bilirəm ki, Sevda sənin sözündən çıxmaz. Get ona de, qoy gəlib ev-eşiyinə sahib olsun.

İ l q a r. Belə mənim bu gözüm üstə, təki sən məndən Sevdanı istə, bu saat uça-uça gedərəm. Cənnət xala, minnət olmasın, əgər o qaraqızdırma bir az da burada qalsa, onu bil ki, sənin başında odun yaracaq.

C ə n n ə t. Elədir, İlqar, elədir.

İ l q a r. Cənnət xala, qəm eləmə, mən bu saat Sevdanın yanına gedib onun nisgilli qəlbini sevindirəcəyəm.

M ü l a y i m (*sevincək*). Sevda, Ayaz, Valeh yenə də bir yerdə olacaqlar. Ax, nə arzuma yetişdim!

C ə n n ə t. İlqar, Allah sənə kömək olsun. Ölüm ayağının altında.

İ l q a r. Ölmək nə üçün, ay arvad, yaşamaq lazımdır, yaşamaq. Gedək, ana.

Mülayimlə İlqar gedir. Cənnət namaza hazırlaşır.

C ə n n ə t. İlqar ağıllı oğlandır. O bu işə bir əncam çəkəcək... (*Pauza.*) Xudaya, özün məni o kafərin əlindən qurtar, bir də o murdarın üzünü görməyim.

Bayırdan səs eşidilir. Cənnət cəld namaz üstündən durub otaqda gizlənir. Sədaqət gəlir.

S ə d a q ə t. Cənnət xala, ay Cənnət xala!

Cənnət o biri otaqdan qorxmuş halda çıxır.

C ə n n ə t. Ay sənin canın yansın, qız...

S ə d a q ə t. Niyə, ay Cənnət xala, mən sənə nə eləmişəm?

C ə n n ə t. Səni demirəm, ay qız, o başıbatmış Afəti deyirəm. Kafir qızı məni Allahın hüzurundan da qaçaq salıb.

S ə d a q ə t. Cənnət xala, sənə şad xəbər gətirmişəm. (*Qəzeti Cənnətə göstərir.*) Bax, bu kimdir?

Cənnət qəzetə diqqətlə baxır.

C ə n n ə t. Sifətindən mənə tanış gəlir. Bu kim ola?

S ə d a q ə t. Kim olacaq, qadasın aldığım Sevda bacıdır. O, tibb elmləri namizədi adı alıbdır.

C ə n n ə t. O nə olan şeydir, Sədaqət?

S ə d a q ə t. O, həkimbaşı olubdur, böyüyübdür.

C ə n n ə t. Ay ona canım qurban, qoy böyüsün. (*Afət fit verə-verə gəlir.*) Sədaqət, amandır, uzağa getmə.

S ə d a q ə t. Qorxma, ay arvad, o, adamyeyən deyil ki...

C ə n n ə t. Ondan da betərdir. Bircə əlini ürəyimin üstünə qoy...

A f ə t (*hirsli halda içəri girir*). Sədaqət, İlqar bura gəlsə, ona deyərsən ki, necə mənim şeylərimi bu xarabaya gətirib, eləcə də aparsın xalamgilə.

S ə d a q ə t. Yaxşı, deyərəm.

A f ə t. O ki qaldı sən Cənnətə, qaragünlüyünü qablaşdır, hazırlaş cəhənnəmə. Əgər mən sənin cadu-piti eləməyini, fal-tas qurmağını, məndən gizli mənə kəbin kəsdirməyini, bütün pis əməllərini lazımı yerə bildirib səni dolaşdırmasam, onda mən heç atamın qızı deyiləm. Görərsən!

Afət qapını çırpıb gedir. Cənnət ilə Sədaqət yerlərində donmuş vəziyyətə qalırlar.

C ə n n ə t. Sədaqət, birdən o nacins məni doğrudan da dolaşdırar, hə?

S ə d a q ə t. Belələrindən nə desən çıxar. (*Gedir.*)

C ə n n ə t. Bari-pərvərdigara, sən özün məni bu şər-şeytandan xilas eylə.

İ l q a r (*gəlir*). Cənnət xala, ay Cənnət xala.

C ə n n ə t (*diksinir*). Bismillah, qorxdum, ədə. İlqar, o zalım qızının əlindən lap çıldaqlıq olmuşam.

İ l q a r. Ay arvad, çıldaq nədir, onun fikrini başından çıxart, vəssalam. Sənə şad xəbər gətirmişəm, ay Cənnət xala.

C ə n n ə t. Nə xəbər?

İ l q a r. Ayazdan teleqram var. Bu günlərdə gəlir.

C ə n n ə t. Ay səni şadxəbər olasan, lap vaxtında gəlir. Bəs Sevdanı necə, görə bildin?

İ l q a r. Yox, sən arxayın ol. Bu saat gedib onu görəcəyəm.

C ə n n ə t. Gör, başına dönüm. Mənimki daha mənə bəsdir. Hə, deyirəm axı, nə deyəcəm. Məndə də şad xəbər var.

İ l q a r. Nə şad xəbərdir?

C ə n n ə t. O canı yanmış, Sədaqətə tapşırdı ki, İlqara deyərsən mənim şeylərimi götürüb gəlsin xalamgilə. Amma nə ürəyimdən oldu. Axır ki, arzuma yetişdim.

İ l q a r. Yəni lap elə dedi?

C ə n n ə t. Həzrət Abbas haqqı, elə dedi.

İ l q a r. Bu doğrudan da şad xəbərdir. Daha niyə durmusan? Tez ol, onun şeylərini hazırla.

C ə n n ə t (*onun şeylərini yığışdırır*). Bax, bu ənlik-kirşanı, bu onun andırları. Elə bu saat apar, təki buradan rədd olsun. Bura bax, bura, ay səni cuvənəzən öləsən, hara baxırsan dodaq cövhəridir, baş tüküdür... İt qızı, elə üz-gözünü bəzəməyi bilir. Tfu, murdar qızı, murdar!

İ l q a r. Tüpürmə, seyid nəvəsidir axı.

C ə n n ə t. Yalansa belə seyidin cəddi özünə qənim olsun!

Telefon zəng edir. Cənnət dəstəyi götürür.

Kimi istəyirsən? Xeyr, burada Afət-mafət yoxdur. Bir də bura zəng eləmə. Hara zəng edəsən? (*Dəstəyi asır.*) Cəhənnəmə! Nacinsin əlindən telefon da təngə gəlib.

İ l q a r (*balaca xalçanı götürür*). Cənnət xala, bu da onundur?

C ə n n ə t. Yox, yox, adə, o mənim cehizimdir. (*Cənnət Afətin idman rapirasını görür.*) Bıy, bu yaddan çıxıb ki. O gün az qalmışdı ki, bunnan məni şaqqalasın, imam haqqı, hə.

İ l q a r. Şaqqalar da. Öz müəllimini boğazlayan, qayınanasını göydə şaqqalar.

C ə n n ə t. Apar qadan alım. Bu onun çamadanları, bunlar da ölüsünün andırları.

İ l q a r. Cənnət xala, gəlsənə çamadanları mən aparım, ölüsünün andırlarını gəlib özü aparar.

C ə n n ə t. Yox, yox, başına dönüm, o bura qayıtsa, mən hövl elərəm.

İ l q a r (*gülür*). Ay arvad, mən səni sınayıram, o soxanı da ver bəri. Bax, Cənnət xala, mən bunları sənin xatirinə edirəm. Sən də gərək şərtimə əməl edəsən. Yoxsa bu şeylər geri qayıdar ha!

C ə n n ə t. Bax, and olsun əziz canına ki, dediklərinin hamısına əməl edəcəyəm. Hə, İlqar, bəs o başı batmışın adı necə olacaq? Axı o ev dəftərinə yazılıbdır.

İ l q a r. Ay Cənnət xala, onu dəftərə yazdıran kimdir.

C ə n n ə t. Bəs onu dəftərə yazdırmamısan?

İ l q a r. Onu dəftərə yazdırsaydım, o səni dəftərdən pozdurardı.

C ə n n ə t. Ay sənə qurban olum, sən nə çoxbilmişsən, ədə. Hi... hi...

İ l q a r. Cənnət xala, gülürsən, yaxşı, mən getdim.

C ə n n ə t. Yeri, yeri, qurbanın olum.

İ l q a r (*oxuya-oxuya*).

Yeri, yeri, qurbanın olum,
Ay yeri, qurbanın olum.
Can yeri, qurbanın olum.

Sağ ol, Cənnət xala. (*Gedir.*)

İşıq sönür.

PƏRDƏ

ALTINCI ŞƏKİL

Pərdə açıldıqda Sevda evi səliqəyə salır. Bu zaman İlqar, Zərifə, Ayaz əllərində azuqə, şərab şüşələri gəlirlər. Zərifə Sevdanı qucaqlayır.

Z ə r i f ə. Çox sağ ol, üzün ağ olsun. Axırda məni özünə günü də elədin.

S e v d a. Kaş bütün günülər sənin kimi olaydılar, Zərifə.

Z ə r i f ə. Amma mənim günü olmağım, Sevdacan, mənə çox baha oturdu. Vay, vay, aman, aman o Cənnət xaladan. İndi bildim ki, sən nələr çəkmisən.

İ l q a r. Canınız üçün, əgər mən olmasaydım, Cənnət xala Zərifəni qızılquş göyərçini parçalayan kimi, parçalayacaqdı. Zərifə gözünə döndüyüm yalançı gəlin rolunu elə məharətlə oynayırdı ki, daha nə deyim, öz-özümə dedim, birdən qız işi doğrulayar, ilişib qalar burda, nişanlım əlimdən çıxar.

Hamı gülür.

Z ə r i f ə. Sevdacan, lovğalıq olmasın, gərək görəydiniz ki, mən bu evdə nə kimi rollar oynamışam. Daha nə deyim, rejissor desin də.

İ l q a r. Elədir, Ofeliya, Ediliya, Afət – bütün rolların hamısı bir-birinə qarışmışdı. Mən də ki, evdə oturub telefonla buna rejissorluq eləyirdim. Gah Maya, Taya, Zoya, Vahid, Zahid, gah da ki, naçalnik Alxazov olurdum. Hələ az qalmışdı ki, evinizə ovçarka da gətirdim. Qərəz, uzun həngamə idi...

A y a z. Hayıf ki, biz o həngaməni görmədik.

İ l q a r. Bu saat o komediyanın kiçik bir səhnəciyini eşidəcəksiniz.

İlqar maqnitofonu qurur. Maqnitofonda Afət ilə Cənnətin şiddətli vuruşması eşidilir. Hamı gülür.

A y a z. Bu doğrudan da böyük həngamə imiş ki...
Z ə r i f ə. İlqar, sən bunu nə vaxt yazdın ki, mən bilmədim.
İ l q a r. Sən onda Cənnət xala ilə əlbəyaxa idin. Əgər görsəydin, onda obrazdan çıxardın.

Hamı gülür.

Z ə r i f ə. Gülərsiniz də. Sizə nə var, amma mən yazıq hələ də özümə gələ bilməmişəm.
A y a z. Eybi yoxdur, Zərifə, dost yolunda boran olar, qar olar. Bu yayı Şuşada dincələrsən, hamısı yaddan çıxar.
Z ə r i f ə. Cənnət xala da bizimlə gedəcək?
S e v d a. Bəli, hələ Mülayim xalanı da aparacağıq.
Z ə r i f ə. Onda məni o siyahıdan pozun. Siz yenə də məni Cənnət xalanın pəncəsinə vermək istəyirsiniz. Sevda bacı, qadan alım, özünə başqa bir günü tap. Mən daha əldən düşmüşəm.
İ l q a r. Zərifə, bizim düzəltdiyimiz komediya çox gözəl sona yetdi. Sən öz rolunu məharətlə ifa etdin. Artıq rolunu tamamlayırsan.
Z ə r i f ə. Mən sevimli bacımın səadəti üçün hər şeyə hazıram. (*Sevdanı öpür.*)
S e v d a. Mənim əziz bacım, sən nə qədər mehribansan!
S ə d a q ə t (*gəlir*). Sevda bacı, Cənnət xala ilə Mülayim xala gəlirlər.
Z ə r i f ə (*təlaşla*). Ay aman, qoymayın gəldi. Mən qaçdım.
S e v d a. Hara qaçırsan, ay qız!

İlqar Zərifəni getməyə qoymur.

İ l q a r. Zərifə, indi sən Afət yox, Sevdanın assistentisən.
Z ə r i f ə. Bəli də, bir rol da bu yandan çıxdı.
İ l q a r. Sən indi doktor Zərifəsən.
Z ə r i f ə. Ay balam, Zərifənin nəyi Zərifə olacaq.
İ l q a r (*Zərifəni divanın üstündə oturdur*). Bax, bu jurnalı al, belə tut, guya oxuyursan. Bu eynəyi də tax.
A y a z. İlqar, bəs mən necə, Moskvadan gəlmişəm, yoxsa yox?
İ l q a r. Yox, sən hələ Biləcəridəsən, sonra gələcəksən.

İlqar çamadanı Ayaza verir. Ayaz paltosunu və
şlyapasını götürüb tez gedir.

Tez ol, tez ol, sən küçədə mənim işarəmi gözlə. Elə ki işarə verdim, onda gələrsən. Sevda, mən səni Cənnət xala ilə barışdıranda bir qədər naz elə.

Z ə r i f ə. Ay İlqar, mənim gözümə qaranlıq çökdü ki.

İ l q a r. Darıxma, darıxma.

Cənnət və Mülayim əllərində gül dəstəsi gəlirlər.

C ə n n ə t. İlqar, bəs bu Ayaz harda qaldı, gəlib çıxmadı. Vağzalda onun yolunu gözləməkdən gözümüzün kökü saraldı.

İ l q a r. Cənnət xala, yəqin qatar gecikib. Darıxma, hər halda gəlib çıxar. Bu saat səni elə sevindirəcəyəm ki, bütün yorğunluğun çıxacaq. (*İlqar yan otaqdan Sevdanı gətirir.*) Gəl, Sevda, gəl! Cənnət xala, bu da sənin çoxdan həsrətini çəkdiyin gəlinin Sevda! Mən öz borcumu yerinə yetirdim.

Cənnət Sevdanı qucaqlayıb öpür.

M ü l a y i m. Sevda, qızım, səni təbrik edirəm. Həmişə evində, eşiyində olsan.

S e v d a. Sağ olun, Mülayim xala.

Cənnət gözaltı Sevdaya baxıb kövrəlir.

İ l q a r. Bıy, Cənnət xala, sən neyləyirsən? Belə şad gündə ağlayırsan?

Z ə r i f ə. O şadlığından ağlayır.

Cənnət Zərifənin səsini eşidəndə diksinib qaçır. İlqar onu tutur.

C ə n n ə t. Bismillah, bismillah!

İ l q a r. Sənə nə oldu, Cənnət xala?

C ə n n ə t. Vay, bu səs hardan gəldi? Bu onun, o Əzrayilin səsinə oxşadı.

İ l q a r. Nə Əzrayil, hanı Əzrayil, Cənnət xala?

C ə n n ə t. Eh, indi məni də tanıma, ha. Onun da, Afətin.

İ l q a r (*Cənnəti kənara çəkir*). Ay Cənnət xala, belə gözəl-göyçək bir qızı Əzrayilə oxşadırsan? Bu, Sevdanın bacılığı Zərifədir, özü də həkimdir.

C ə n n ə t. Nə bilim. Bəlkə məni qara basıb. Sus, yavaş danış. Amandır, Sevda eşidər, biabır olarıq.

İ l q a r. Zərifə, yaxın gəl, tanış ol. Bu Sevdanın qayınanası Cənnət xaladır. Adına layiq, xoşniyyət, xanım-xatın, canlara dəyən bir arvaddır.

Zərifə olduqca nəzakətlə Cənnətə əl verir.

C ə n n ə t. İlqar, iman əzizdir, bu qız abırlı-həyalı qıza oxşayır. Görünür halal süd əmib. Amma, hayıf ki, bir suyu ona oxşayır.

M ü l a y i m. Qızım, Sevda, lənət şeytana de. Olan olub, keçən keçib, bu şad gündə öpüşün, barışın.

İ l q a r. Sevda, Cənnət xala, bu saat isti-isti öpüşün, barışın. (*İlqar Cənnət ilə Sevdanı barışdırır.*)

Bu dedi-qodu nəyə gərəkdir?
Sevib-sevilməyə yaranmış insan!
Ürəyin dağ olsa, əriyəcəkdir,
Hər günün dərdini ürəyə yığsan.

İlqar pəncərədən Ayaza işarə edir.

C ə n n ə t. Sədaqət sənin şəklini qəzetdə mənə göstərdi. Dedi ki, həkimlərin başı olmusan. Lap sevindim. Bəs mənim balam Valeh hanı? Ondan ötrü burnumun ucu göynəyir.

S e v d a. Valeh anamgildədir. Sədaqət gətirəcək.

M ü l a y i m. Sevda, qızım, Cənnət bu evin işığı, sən isə yaraşığısan. Arzu edirəm ki, sizin bu ev həmişə işıqlı və yaraşıqlı olsun.

S e v d a. Sağ ol, Mülayim xala.

A y a z (*gəlir*). Salam, xoş gördük, dostlar.

C ə n n ə t (*Ayazı qucaqlayır*). Bıy, ay oğul, harda qalmısan? Xoş gəlmisən!

A y a z. Sağ ol, anacan. Necəsən, yaxşısanmı?

C ə n n ə t. İndi yaxşıyam. Amma bir az gec gəlsəydin, anasız qalacaqdın. Mənim canıma saldığın o əfi ilan barəsində sonra danışaram. Aman, aman, o, qız deyil, qara qızdırma imiş. Ancaq amandır, Sevda bilməsin.

İ l q a r. Cənnət xala, bax bu olmadı. Şərtimizin ikinci bəndini pozdun.

C ə n n ə t. Nə şərt, İlqar?

İ l q a r. Necə yəni nə şərt, yadından çıxdı? Bəs sən söz vermədin ki, bir də bu evdə pıç-pıç olmayacaq.

C ə n n ə t. Bıy, qadan alım, bu pıç-pıç deyil ki. Elə-belə, ana-oğul arasında xırda-mırda söhbətdir. Daha bunsuz olmaz ki...

İ l q a r. Bax, elə xırda-mırda söhbətdən böyük dedi-qodu törəyir. Nə isə, hələ bir de görüm, bu şad gündə süfrəyə nə hazırlamısan.

C ə n n ə t. Arxayın ol, Cənnət xala tədarükünü çoxdan görüb. Bu saat Sədaqət elə xörəklər hazırlayıb ki, dadı damağınızdan getməyəcək.

İ l q a r. Bu gün şadlıq, şadlıq üstündəndir. Sevda tibb elmləri namizədi adını alıb, yenidən evinə qayıdıb. Ayaz yeni operasını qurtarıb. Mərdəkan... fu, Moskvadan qayıdıb. Bu münasibətlə doyunca kef etməliyik, kef...

A y a z. Mənim də bu şadlıqlara bir əlavəm var. O da elə bu gündən Zərifə ilə İlqarın toylarının başlanmasıdır.

İ l q a r. Anacan, Zərifə mənim nişanlımdır, tanış ol!

M ü l a y i m (*Zərifəni qucaqlayıb öpür*). Sənin nişanlına canım qurban, oğlum.

C ə n n ə t. Az, az bir bəri dur. (*Zərifəni qucaqlayıb öpür.*) Ay səni görüm xoşbəxt olasan, ağ günə çıxasan. İlqar, namxuda sənin bu nişanlın lap maraldır, maral! Oğullu-qızlı olasınız. Mülayim, bu qızdan muğayat ol, bunu incitsən, səndən inciyərəm.

Şampan şərabı ilə piyalələri doldururlar. Cənnətlə Mülayimdən başqa hamı içir.

İ l q a r.

Budur bizim arzumuz,
Günlərimiz şən olsun.
Deyək, gülək daima,
Ömrümüz gülşən olsun.

Z ə r i f ə.

Xoş keçsin aylar, illər,
Qoy açılsın könüllər.
Can deyib, can eşitsin,
Qayınanalar, gəlinlər.

PƏRDƏ

# M E H D İ  H Ü S E Y N

(1909-1965)

*Hüseynov Mehdi Əli oğlu – nasir, dramaturq, tənqidçi – Qazax bölgəsinin İkinci Şıxlı kəndində ziyalı ailəsində anadan olmuş, ilk təhsilini orada almış, Bakıda Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini* (*1926-1932*), *Moskvada Dövlət Kinematoqrafiya İnstitutunu* (*1938*) *bitirmişdir.*

*XX əsrin 20-30-cu illərində dövrün ən aktual problemlərini əks etdirən hekayə, povest, roman və dramların müəllifidir.* "*Şöhrət*" (*1939*), "*Şamil*", (*1940-1941*), "*Nizami*" (*1942*), "*Cavanşir*" (*1957*) *tarixi dramlarının,* "*Alov*" (*1961*), "*İntizar*" (*1944*), "*Qardaşlar*" (*1948*) *pyeslərinin,* "*Şair*" (*1939*), "*Fətəli xan*" (*1947*), "*Səhər*" (*1960*), "*Qara daşlar*" (*1956*) *bədii filmlərinin ssenari müəllifidir.*

*M.Hüseyn Azərbaycan Yazıçılar İttifaqının məsul katibi* (*1930-1934*), *İdarə heyətinin katibi* (*1954-1958*), *birinci katibi* (*1958-1965*), *Bakı kinostudiyasının direktoru* (*1944*) *olmuşdur.*

*O, SSRİ Ali Sovetinin IV-VI çağırışına deputat seçilmiş, Xalq yazıçısı, SSRİ dövlət mükafatı laureatı, orden və medallara layiq görülmüşdür.*

## CAVANŞİR

### İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| Cavanşir | – Ağvan hökmdarı |
| Zibeydə | – onun arvadı |
| Elçin | – onların oğlu |
| Söhrab | – Cavanşirin vəziri |
| Saran | – Cavanşirin xəzinədarı |
| Qartal | – Cavanşirin cəngavəri |
| Qılınc | – şair, cəngavər |
| Şahin | – Qartalın atası |
| Aybəniz | – Söhrabın bacısı |
| Qənimət | – Girdman taciri |
| Fərid | – cəngavər |
| Bəhram | – Sasani sərkərdəsi |
| Polad | – onun cəngavəri |
| Reyhan | – Bəhramın qızı, Elçinin sevgilisi |

| | |
|---|---|
| Q a r a t e l | – onun rəfiqəsi |
| K a b u s | – Bəhramın cəngavəri |
| A l o v | – tacir, Fəridin atası |
| Q ı z ı l t a c, D ə m i r d a ş | – tacir |
| K a r x a n a s a h i b i | |
| G ü n ə ş a n a | – mərhum Altuntacın zövcəsi |
| Q ı v r ı m t e l | – onun qızı |
| K ə y a n e l ç i s i | |
| B i z a n s e l ç i s i | |
| C a v a n ş i r i n x i d m ə t ç i s i | |
| B ə h r a m ı n x i d m ə t ç i s i | |
| X a n ə n d ə | |

## BİRİNCİ ŞƏKİL

Muğan qalası.

B ə h r a m. Heç bir zaman ehtiyatı əldən verməyin, unutmayın ki, biz zəbt olunmuş bir şəhərdəyik. Cavanşir Muğan qalasını geri almamış bir an belə rahat ola bilməyəcək. Əsirləri gətirin. Qala qapılarını yoxlayın. Keşikçiləri gözdən keçirin. Aydındırmı?

P o l a d. Aydındır...

B ə h r a m. Hanı Qartal? Mənə qarşı qiyam etmiş o sərsəmi nə üçün gətirmədiniz?

K a b u s. Qartal dünəndən bəri şüurunu itirmişdir. Yalnız indi özünə gəlmiş.

B ə h r a m. Yoxsa ona işgəncə vermişsiniz?

K a b u s. Xeyr, xeyr. O, vuruşmada yaralanmış, çoxlu qan itirmişdir. İndi isə artıq ayağa qalxmış. Baxın, onu gətirirlər...

Gözətçilər Qartalı halqa içərisində gətirirlər. Qolları və qıçları qandallı, üst-başı qan ləkələri ilə örtülmüşdür, saçları dağınıq. Lakin o, qürurla dayanmışdır.

B ə h r a m (*Qartala*). Siz məğlub oldunuz... Mənə qarşı qiyam yatırıldı.

Q a r t a l. Yox... Yatırıldı deməyin, qan dənizində boğuldu deyin...

B ə h r a m. Hökmdarınız Cavanşir isə köməyinizə gəlmədi.

Q a r t a l. Doğrudur, gəlmədi. Çünki Ağvanın şimalında vəhşi xəzərlərlə vuruşur. Mən inanıram ki, böyük sərkərdəmiz Cavanşir

düşmənləri əzib vətənimizin müqəddəs torpağından kənara atacaq. Sonra da buraya, Muğan şəhərinə hücum edib sənin qanlı hökmranlığını yıxacaqdır. O zaman namərdliklə qəsb etdiyiniz bu Ağvan torpağı azad nəfəs alacaqdır.

Bəhram (*Polada*). Eşitdinmi o nə dedi?

Polad. Bəli, möhtərəm sərkərdə, eşitdim...

Bəhram. Səncə, bu körpə uşağın ağlı başındadırmı? (*Qartala.*) Sönüb külə dönmüş bir od, heç nəyi yandıra bilməz. Cavanşir artıq sönmüş bir oddur. Cavanşir... Hücumu... ha, ha, ha...

Qartal. Bu gün gülürsünüz, lakin sabah ağlaya bilərsiniz...

Bəhram. Sasani dövlətinin önündə dayana biləcək bir qüvvə yoxdur.

Qartal. Lovğalıq gücsüzlərin silahıdır.

Bəhram. Burax bu inadı, Qartal... İndi ki mən səni öldürmək fikrində deyiləm. Mən səni əfv etmək istəyirəm. Yalnız bir şərtim var... Sən həmvətənlərinə üz tutub deməlisən ki, daha bəsdir bu üsyanlar. Artıq inadınızdan əl çəkin. Qiyamlara son qoyun. Doğrusu, bu qanlı dar ağacları məni artıq təngə gətirmişdir.

Qartal. Mən də dar ağacını gözləyirəm.

Bəhram. Demək, sən öz igidliyin müqabilində yalnız bu mükafatı istəyirsən? Təəssüf, çox təəssüf...

Qartal. Görürəm ki, sənin həris gözlərin hələ də qandan doymamışdır.

Bəhram (*qəzəblə*). Aparın, bu inadkar sabah dar ağacından asılacaqdır.

Gözətçilər Qartalı aparırlar.

Polad. Möhtərəm vali, vuruşma meydanında basılmış igid bir əsgəri dar ağacına göndərmək bizim şənimizə yalnız ləkə gətirə bilər.

Bəhram. Nə etməli, Polad? Zəmanəmiz qanla yoğrulmuşdur. Bu mənim günahım deyildir. Mən Muğanı da öz xoşumla zəbt etmədim. Bu, ulu hökmdarın əmri idi. Cənubda qəsbkarlar hücuma başlayıb ölkəmizi taladılar, bu ziyanı yalnız Ağvanın tükənməz sərvətləri ödəyə bilərdi.

Polad (*öz-özünə*). Yox, yox, mən Qartalı ölümdən qurtarmalıyam... (*Getməyə hazırlaşır.*)

İşıq sönür, pərdə salınır.

## İKİNCİ ŞƏKİL

Bəhramın saray otaqlarından biri

Bəhram. Razı oldularmı?

Kabus. Bəli, igid sərkərdə, hər ikisi razı oldu.

Bəhram. Aha, çox gözəl. Demək biri...

Kabus. Bəli, biri Cavanşirin vəziri Söhrab, o biri isə məşhur Girdman taciri Qənimət. Hər ikisi Cavanşirin qanını içməyə belə hazırdır.

Bəhram. Sən onların hiylə işlətmədiklərinə əminsənmi?

Kabus. Özümə əmin olduğum qədər...

Bəhram. Çağır gəlsinlər...

Kabus. Baş üstə... Buyurun...

Söhrab və Qənimət daxil olurlar.

Bəhram. Cavanşirin vəziri Söhrab hansınızsınız?

Söhrab. Mənəm, igid sərkərdə...

Bəhram. Çox şadam. Muğan şəhərinə gələrkən qorxmadığınıza təəccüb edirəm.

Söhrab. Sizi özümüzə dost bilib gəldik. Əmin olun ki, Cavanşirin məhəbbəti dilimizdə, sizin məhəbbətiniz ürəyimizdədir.

Qənimət. Gətirdiyimiz bu kiçik hədiyyələri qəbul etsəniz, özümüzü həddindən çox xoşbəxt sanarıq. Yüz min dinar qızıl, bir də dəstəyi mirvari ilə bəzənmiş bir qılınc. Buyurun...

Bəhram. Çox razıyam. Birdən Cavanşir bu gəlişinizdən xəbər tutarsa?

Söhrab. Sizinkilər xəyanət etməzsə, heç kimdən qorxumuz yoxdur. Biz buraya Cavanşirin oğlunu qarşılamaq bəhanəsilə gəldik. O bu gün Bizans elçiləri ilə bərabər gəlib buradan keçəcək.

Bəhram. Cavanşirin oğlu? Nə gözəl təsadüf. Mən onu tutub girov saxlarsam?

Söhrab. Xeyr, xeyr, bu mümkün deyil, böyük sərkərdə! Cavanşirin oğlu Bizans elçilərinin karvanı ilə gəlir. Onlara toxunmaq adətdən kənar işdir.

Polad. Bizans dövlətini də düşmənə çevirmək?

Bəhram. Elədir, Polad. Bu indiki halda bizim xeyrimizə deyil. Yaxşı, Söhrab, tələblərimiz sizə bəllidirmi?

Söhrab. Söylədilər... Yəqin ki, siz də bizim tələblərimizdən xəbərdarsınız.

Bəhram. Xəbərdaram... Lakin siz hiylə işlətmədiyinizi nə ilə sübut edə bilərsiniz?

Söhrab. Cavanşirin ölümündən sonra Ağvanda hökmdar olaramsa, qızınız Reyhanı Ağvan hökmdarının məlikəsi görmək istərdim.

Bəhram. Deməк, siz qızım Reyhanı sevirsiniz?

Söhrab. Bütün varlığımla. Mən Reyhanın yolunda hər bir fədakarlığa hazıram...

Bəhram. Bu çox möhkəm sübutdur... Bəs sən?

Qənimət. Cavanşirin əmri ilə iki aya kimi yüz kisə qızıl verməliyəm. O, Ağvan qoşunlarını mənim hesabıma dolandırmaq fikrindədir. Onun əmrini yerinə yetirməsəm, boynumu vurduracaq. Özüm ölməmək üçün onu öldürməyə məcburam...

Yavər daxil olur.

Yavər. Möhtərəm Söhrab, gözlədiyiniz Bizans elçiləri artıq şəhərə girdilər.

Söhrab. Elə isə bizi əfv edin... Cavanşirin oğlu Elçin bizim burada olduğumuzdan xəbər tutmamalıdır. Hələlik...

Bəhram. Xoş gəldiniz...

Söhrab və Qənimət gedirlər.

Polad. Belə xainlərin sədaqəti də özləri kimi rəzil olur... Onları qəzəbsiz dinləmək belə mümkün deyildir.

Bəhram. Demək, Cavanşirin əleyhinə iki qüvvə vuruşur. Məhəbbət, qızıl. Bu qüvvələrin birliyi dağları da yerindən tərpədə bilər... Cavanşir öldümü, bunların ikisi də o dünyaya göndəriləcək. Qoy bu sirri də özləri ilə bərabər aparsınlar. Gedək, Polad. Bu qələbədən sonra eyş-işrət məclislərinə bir gün də ara verməyəcəyəm.

İşıq sönür, musiqi başlayır, pərdə salınır.

## ÜÇÜNCÜ ŞƏKİL

Bəhramın sarayı, xanəndə oxuyur.

O gün mən əhdi-peyman eylədim bir nazlı yar ilə,
Fəzayi eşqi canım çürütdüm etibar ilə,
Ey saqi, nadandır gəl, halidir dünya,
Mey göndər, alışsın qoy başımda sevda.
Bahar ömrün xəzan oldu, gəl, ey gülüzlü yar,
Məqamdır gəl, çal, oynasın qara gözlü dildar.
Ah yandım, bu eşq odu yandırdı canımı,
Ah, ya rəbbi, fələk qoyma bu xoş dövranımı.
Ah, cahan sənindir, bu can sənindir,
Sən əmr etsən, bu cahan sənindir,
Bahar ömrüm xəzan oldu, gəl, ey gülüzlü yar,
Məqamdır gəl, çal, oynasın gülüzlü yar
Gəl, gülüzlü yar... Gəl, gülüzlü yar...

Kabus daxil olur.

K a b u s. Fəlakət... Fəlakət...

B ə h r a m. Nə olmuşdur?

K a b u s. Bu gecə kim isə Qartalı zindandan qaçırmışdır.

B ə h r a m. Qartalı? Sənin başını bədənindən ayırmaq belə azdır...

Yavər daxil olur.

Y a v ə r. Qasidlərdir...

B ə h r a m. Kayan tacdarının qasidlərini layiqli ehtiramla qarşılayın...

Qasid daxil olur.

Q a s i d. İgid sərkərdəmiz Bəhrama salam və ehtiram. Şahlar şahının fərmanı...

B ə h r a m. Xoş gəlmişsiniz, möhtərəm qasid. Bu nədir, mən gözlərimə inana bilmirəm...

Q a s i d. Çox təəssüf ki, orada yazılan hər bir söz eyni həqiqətdir. Düşmən qoşunları birdən hücuma keçib İran torpağına ayaq basdılar. Sərhəd boyunca ucsuz-bucaqsız bir insan dənizi üstümüzə yeridi. Şahlar şahının fərmanı ilə bir an belə yubanmadan Cavanşirə ittifaq təklifi aparmalısınız. Ayrı çarəmiz yoxdur, igid sərkərdə...

B ə h r a m. Bəs tökülən qanlar, ölən insanlar? Uçan saraylar, yanan xanimanlar? Demək, mən bu qılıncımı nahaq qana boyamışam.

Q a s i d. Ulu tacdarımız dedi ki, dəvə karvanı ilə yolladığımız cavahiratı, qızılları Cavanşirə hədiyyə aparın... Necə olursa olsun, düşmənlərə qarşı onunla hərbi ittifaq bağlayın. Məncə, bu gözəl tədbirdir. Xəzinədən yoxsul olan Cavanşir belə ittifaqdan boyun qaçırmaz. İnan ki, o yenə Fərat, Dəclə sularını düşmən qanına boyayıb İran torpağını xilas edəcəkdir.

B ə h r a m. Bəs Muğan? Bəs qılıncımla zəbt etdiyim bu qızıl torpaqlar?

Q a s i d. Hələlik burdan geri çəkilməyin... Cavanşir bizim ittifaq təklifimizdən boyun qaçırarsa, Muğan qalası yenə də bizə gərək ola bilər.

B ə h r a m. Möhtərəm qasid, siz nə qədər acı bir xəbər gətirdiniz. Gedək hazırlaşaq.

Q a s i d. Hər şey hazırdır... Karvan sizi gözləyir. Biz yubanmadan yola düşməliyik.

İşıq sönür, pərdə salınır.

## DÖRDÜNCÜ ŞƏKİL

Bəhramın saray həyətində bağ, qızlar mahnı oxuya-oxuya rəqs edirlər.

Q ı z l a r ı n m a h n ı s ı

Qarlı dağlar qızı Reyhan, Reyhan, Reyhan,
Parlaq dan ulduzu Reyhan, Reyhan, Reyhan,
Aləm sənə heyran, Reyhan, Reyhan, Reyhan,
Qarlı dağlar qızı Reyhan, Reyhan, Reyhan.
Nə gözəlsən, ay qız,
Gül-çiçəksən, ay qız,
Bir dənəsən, ay qız,
Dürdanəsən, ay qız.

Gözün aydın Reyhan, Reyhan, Reyhan,
Gəlir yarın Reyhan, Reyhan, Reyhan,
Aləm sənə heyran Reyhan, Reyhan, Reyhan,
Gözün aydın Reyhan, Reyhan, Reyhan.

Nə gözəlsən, ay qız,
Gül-çiçəksən, ay qız,
Bir dənəsən, ay qız,
Dürdanəsən, ay qız.

Q a r a t e l. Yaxşı bax, qabaqda gələn o gözəl oğlanı mən harada isə görmüşəm.

R e y h a n. Qaratel, əzizim, mən də görmüşəm. Bax, bu məktubu da o göndərmişdir. İndi mənim sevinməyə haqqım var, Qaratel...

Q a r a t e l. Axı, o kimdir?

R e y h a n. Mənə ürəyimdən də yaxın bir müsafir – Ağvan hökmdarı Cavanşirin oğlu Elçin. Sən özün düşün, mən heç onu unuda bilərəmmi? O, Suriyada təhsil alıb, sonra dünyanın uzaq ölkələrini – Hindistanı, Çini dolaşıb qayıdır, üç ildir, düz üç ildir ki, mən onun xəyalı ilə yaşayıram... Birdən o məni tanımazsa?

Q a r a t e l. Tanıyar, tanıyar. Sevən oğlanın yadından hər nə çıxsa da, istəklisinin sifəti çıxmaz. Reyhan, əzizim, sən nə qədər xoşbəxtsən... sənin taleyin müqəddəs günəşin şüaları kimi gülümsəyir. O yaxınlaşır, biz gizlənək...

R e y h a n. Məni təkmi buraxırsınız? Yox, dayanın, yaxşı gizlənin. Yox, dayanın... Siz gedin, qızlar.

Q a r a t e l. Düz deyirsən, uzaqdan tamaşa etmək daha yaxşıdır. Reyhan, əzizim, ehtiyatlı ol. Birdən sizi görüb atana xəbər verərlər. Gəlin, qızlar, gedək keşikdə dayanaq.

R e y h a n. Qayıdın, qızlar...

Q a r a t e l. Dayanın, qızlar, Reyhan hələ fikrini çox dəyişəcək. Yox, gizlənək... (*Qızlar gizlənir. Elçin daxil olur.*) Bax, Elçin Reyhanı gördü... Bax, bax, tanıdı... Bu saat Reyhan dünyada yalnız Elçini görür...

E l ç i n. Reyhan, ayrılıq uzun çəkdi. Lakin səni unutduğum bir an belə olmadı. Söylə, Reyhan, söylə, bizim əhdi-peymanımızı unutmamışsan ki?

R e y h a n. Öz adımı unutsam belə, əhdimi unutmaram, Elçin.

E l ç i n. Zaman dəyişdi, Reyhan, mən Suriyaya gedərkən İranla Ağvan dost idi, vətənimizi ayaqlamaq istəyən yağılara qarşı birgə vuruşurduq. O vaxt bizim atalarımız da qardaş kimi idilər. Bir-birinə can deyib, can eşidirdilər. Mən Suriyadan vətənə qayıdarkən nə böyük arzular bəsləyirdim. Lakin o arzularımın hamısı duman olub havaya uçdu. Zaman nə qədər tez dəyişdi. Nə üçün, Reyhan, nə üçün?

R e y h a n. Kayan hökmdarının əmri ilə atam qoşun çəkib Muğanı aldı. Əsir tutduğu Ağvan əsgərlərini qılıncdan keçirtdi... Bu qanlı divanı xatırladıqca qəzəbimdən az qala boğuluram. Atamın Cavanşirə qarşı vəfasızlığı mənim də qəlbimi yaraladı. İndi Muğanda ölüm qara bir kabus dəhşətilə ətrafı sarmış, insanların acı fəryadı göylərə ucalmış.

E l ç i n. Reyhan, əzizim, sən kədərlisən. Gözlərin də yaşarmışdı. Bilirəm ki, bu qəmli hadisə səni də sarsıtmışdır. Nə etməli, görünür taleyimiz belə idi. Mən artıq getməliyəm, Reyhan. Lakin yenə gələcəyəm, sən məni hər səhər, hər axşam gözlə.

R e y h a n. Ağvanın paytaxtı Girdman uzaqdadır. Sən buraya hər səhər, hər axşam necə gələ bilərsən?

E l ç i n. Sevən ürəklər üçün heç bir məsafə yoxdur, Reyhan. Mənim qəlbimin həmdəmi daim sən olacaqsan. Yalnız sən... Bəlkə səni aramızdakı düşmən sərhədi qorxudur, Reyhan, açıq söylə...

R e y h a n. Mən özüm üçün yox, sənin üçün qorxuram, Elçin... Atamın əlləri onsuz da günahsız qana boyanmışdır. O səni də...

E l ç i n. Öldürər... Elə bilirsən uf deyərəm... Yox, əzizim, dünyalar qədər sevdiyim Reyhan üçün ölmək belə mənim nəzərimdə ən böyük səadətdir.

Ayaq səsləri.

R e y h a n. Aman, gəldilər... Get, Elçin, get...

Qızların mahnısı.

Xoşbəxt olmaq, sevinmək mümkün ikən ölümü nə üçün arzulayırsan? Dayanma əzizim, get, səni and verirəm o müqəddəs Günəşə, bu gənc yaşımda mənim eşqimi nakam qoyma.

E l ç i n. Əlvida...

R e y h a n. Əlvida...

Elçin gedir, qızlar Reyhanın başına toplaşırlar.

Ən böyük arzuma çatdım, Qaratel. Elçin məhəbbətlə yanan ürəyini mənə bir də açdı. Mən onun odlu nəfəsini bir də duydum. Mən indi doğrudan da xoşbəxtəm. Ah, aramızdakı düşmən səddi uçub töküləydi. Qan, ölüm yerinə yalnız qardaşlıqla məhəbbət hakim olsaydı...

İşıqda pərdə salınır, antrakt.

## BEŞİNCİ ŞƏKİL

Cavanşirin sarayında bir otaq

Z i b e y d ə. Oğlum, Elçin, səni and verirəm o müqəddəs Günəşə, at yerə o qılıncı...

E l ç i n. Qılıncı yerə atmaq günahdır, ana... Bax, görürsənmi atam Cavanşir odlu qılınca nə qədər hörmət edir.

Z i b e y d ə. Mən onsuz da səni heç yana buraxmayacağam. Hələ doyunca üzünə də baxmamışam. Üçillik həsrətin ürəyimdə tabitəvan qoymayıb, oğlum, Elçin... Elçin...

E l ç i n. Anacan, mən bir an belə yubanmadan atamın yanına – vuruş meydanına getməliyəm. Mən də onunla qəsbkarlara qarşı qılınc oynadıb, ox süzdürməliyəm. Qoy qanlı vuruşmalar tezliklə qurtarsın. Ana torpağımızın hər tərəfindən həyat səsi, sevinc nəğməsi ucalsın...

Söhrab daxil olur.

S ö h r a b. Elçin... Elçin, hara? Ananın sözündən çıxma. Zibeydə xatun, Elçinlə gəlmiş qonaqlar səni gözləyir. Buyur... Mən ana ürəyinin müqəddəs arzusunu oğluna anladaram.

Z i b e y d ə. Çox sağ ol, Söhrab... Sən Elçindən təcrübəlisən, onu fikrindən daşındır. (*Gedir.*)

E l ç i n. Bilmirəm nə üçün heç kəs mənim vuruş meydanına getməyimə razı deyil..

S ö h r a b. Çünki sən həm anan üçün, həm də elimiz üçün əzizsən... Elçin, unutma ki, sən Cavanşirin yeganə oğlusan...

E l ç i n. Mən atamla vuruş meydanında görüşərsəm, bu daha gözəl olmazmı?

S ö h r a b. Əgər o sənin gəlişindən xəbər tutsaydı, inan ki, quş kimi qanad açıb ongünlük yolu bir nəfəsə gələrdi.

E l ç i n. Atam çox qocalmışdır, eləmi?

S ö h r a b. Əsla... Yox, Elçin, saysız vuruşmaların hamısından qalib çıxmış bir sərkərdə də qocalarmı? İnan ki, o səni görəndən sonra ürəyinə yeni sevinc, qollarına yeni bir qüvvə gələcəkdir.

E l ç i n. Bu daha gözəl... Mən gedirəm, dostum, artıq səbir edə bilmirəm...

S ö h r a b. Tələsmə, Elçin, tələsmə, aldığımız son xəbərlərə görə o, xəzərləri tar-mar etmişdir. Əgər bu xəbər doğrudursa, Cavanşir bu gün, sabah mütləq qayıdar...

E l ç i n. Bir yandan ata həsrəti, bir yandan da... Eh, əziz dostum. Bu ağır intizar qəlbimi didib parçalayır.

S ö h r a b. Aha, sən eşq odunda yanan aşiqlərə bənzəyirsən.

E l ç i n. Sən bunu nədən bildin, qardaşım?

S ö h r a b. Bax, bax, bax, sevgi bəlasına tutulmasaydın, səsin çalınmış bir sim kimi titrəməzdi...

E l ç i n. Sən haqlısan, qardaşım... İndi mənim qəlbimin hər bir teli, doğrudan da, çalınmış bir simə bənzəyir. O mənim bütün varlığıma hakimdir.

S ö h r a b. Kim, Elçin?

E l ç i n. Mən onu ilk dəfə gördüyüm andan bu günə kimi heç bir vaxt onun xəyalından ayrılmamışam. Kayan gözəlinin adını bax buraya, qəlbimə yazmışam... Reyhan... Reyhan, indi sən haralardasan?

S ö h r a b. Nə, Reyhan? Yox, yox, bu ola bilməz...

E l ç i n. Reyhan mavi göylərdən yerə enmiş bir ayparadır. Onun yolunda həyatımı yüz min kərə qurban vermək mümkün olsaydı, bir yol da uf deməzdim. Ey müqəddəs Günəş, səndən yalnız bir xahişim var, mənim ömrümdən kəsib Reyhanın ömrünə cala...

S ö h r a b. Elçin... Elçin, sus, eşidərlər... Bəs bu necə ola bilər ki, Cavanşirin oğlu onun düşməninin qızına vurulsun?..

E l ç i n. Ən böyük fəlakət də elə budur, dostum... Ancaq inanıram ki, mən gec-tez Reyhana qovuşacağam.

Zibeydə xatun daxil olur.

Z i b e y d ə. Elçin, qonaqlarımız səni gözləyir...

E l ç i n. Mənim qəlbimsə başqa bir arzu ilə çırpınır, anacan!..

Z i b e y d ə. Unutma ki, atan burada deyil, onu sən əvəz etməlisən...

E l ç i n. Gedək, ana, mən inanıram ki, taleyim günəştək gülümsəyəcək.

Z i b e y d ə. Elədir, oğlum, sənin taleyin günəşdən belə parlaq olacaq. (*Gedirlər.*)

S ö h r a b. Taleyim günəşdən belə parlaq olacaq. Yox, mən öz miskin taleyi ilə barışan acizlərdən olmaq istəmirəm. Cavanşirin adını göylərə ucaldan bu odlu qılınca mən də sarılacağam.

PƏRDƏ

## ALTINCI ŞƏKİL

Cavanşirin sarayı

E l ç i n. Ox, ata, ata... Sən nə qədər səbirlisən, sevgilim uzaqdadır. Gözlərini yola dikib hər səhər, hər axşam məni gözləyir. Mən də səni gözləyirəm, ata.

Söhrab daxil olur.

S ö h r a b. Şad xəbər var... Elçin, şad xəbər...

E l ç i n. Bu nədir? Şeypur səslərindən sevinc yağır? Bəlkə gələn atamdır?

S ö h r a b. Doğrudur, bu adət bizə babalardan yadigar qalmışdır. Atam vəzir olarkən də həmişə böyük sərkərdəmizi şeypur səsləri ilə qarşılardı. Eşidirsənmi, Elçin, şeypurun səsindəki o inilti nidaları böyük sərkərdəmiz Cavanşirin yaralandığına işarədir. (*Zibeydə xatun və saray xanımları gəlirlər.*) İndi yaralı cəngavərlərdən biri gəlib əvvəlcə anan Zibeydə xatuna xəbər verəcək. Aha, bu gələn qasid Ağvanın şairi Qılıncdır.

Qılınc daxil olur.

Ey cəngavər şair, gətirdiyin şad xəbərləri əvvəlcə sərkərdəmizin istəkli oğlu Elçinə söylə...

Q ı l ı n c. Xoş gördük, Elçin... Mənim sərkərdəm, sənin atan Cavanşir Xəzər xaqanı ilə özü qarşılaşdı. Qarı düşmən qara dırnaqlı atını böyük hökmdarımın üstünə səyirdərək əyri qılıncını onun başına endirdi.

Z i b e y d ə . Söylə, oğlum, söylə, Cavanşir hanı?

Q ı l ı n c. Xəzər xaqanı ilə o özü qarşılaşdı, Ağvan torpağının vuran əli, hünər, rəşadət timsalı Cavanşir birdən köhlən atını onun üzərinə şığıdaraq qara kəlləsini bədənindən ayırdı.

S ö h r a b. Afərin, afərin...

Z i b e y d ə. Mənim igid balalarım, siz necə mərdliklə vuruşmuşsunuz...

Q ı l ı n c. Qan məni aparır, dostlar, əgər mən ölsəm:

İstərəm hər tərəf ilk bahar olsun.
Hər kəs öz yarına düz ilqar olsun.
İnsan bu dünyaya gəldi-gedərdir
Təki sevdiyimiz vətən var olsun.

Z i b e y d ə. Cəngavər şairin yarasını bağlayın. Tez... (*Urra.*)

Qılıncı aparırlar, saray adamları Cavanşiri
qarşılamağa gedirlər.

A y d ə m i r. Hanı hökmdar, söylə, hanı, yoxsa...
X i d m ə t ç i. Gələn böyük sərkərdəmiz Cavanşir özüdür...
H a m ı. Eşq olsun, eşq olsun...

Cavanşir daxil olur.

C a v a n ş i r. Oğlum, Elçin... Həsrətindən anan göz yaşı axıdırdı. Mən isə qocalırdım, oğlum. İndi qollarımın qüvvəsi birə yüz oldu. Daha mənim yaram ağrımır. Xəzər qılıncı ilə sinəmə vurulan yaradan mənə ölüm yoxdur. Yox, mən Ağvan üçün yaşayacağam...

H a m ı. Eşq olsun... Eşq olsun...

C a v a n ş i r. Söylə, Elçin... Söylə, qollarıma qüvvə, gözlərimə işıq verən mehriban oğlum. Sən qərib ölkələrdən atana nə gətirdin?

E l ç i n. Elini, obasını sevən saf bir oğul ürəyi sənə bəs deyilmi, ata...

C a v a n ş i r. Afərin, mənim tərlan balam, urra! Siz də eşidin, mənim əziz övladlarım, Elçin Suriyadan qayıtdı. Qərib ölkənin iqlimi onun vəfalı ürəyinin hərarətini azaltmadı. Urra!.. Urra!.. Sizlərdən çoxunuzu da Suriyaya, Çinə, Bizansa göndərəcəyəm. Arzum budur, oxuyun, öyrənin, qoy dünyanın bütün elmləri Ağvan torpağını öz nuru ilə işıqlandırsın. Qoy Ağvan yolları dünyanın hər tərəfinə uzansın. Amma ürəklərimiz həmişə Ağvanın sönməz eşqi ilə döyünsün. Urra!.. Urra!.. Obalarınıza qayıtmadan əvvəl on gün mənə qonaqsınız. Urra!.. Urra!.. Sən də hazırlıq gör, Söhrab, xəzərlərlə vuruşmuş igidlərimin hamısına özüm mükafat verəcəyəm.

Z i b e y d ə. Gedək, Cavanşir, yaran səni incidir.

C a v a n ş i r. Gedin dincəlin, övladlarım... Yuxu – yorulmuş cəngavərin dostudur. Ağvan cəngavərlərinin qədrini bilin. Mən ona ürəyimi də versəm, yenə azdır. Urra!.. Urra!..

Cavanşir, Elçin, Zibeydə gedirlər. Söhrabla Aybəniz
irəli gəlir, onların dalınca baxırlar.

P Ə R D Ə

**YEDDİNCİ ŞƏKİL**

Cavanşirin sarayı.

S ö h r a b. Girdman tacirləri həmişə günortaüstü yola düşürlər, bu gün nədənsə zınqırov səsləri çox tez eşidildi. Görəsən bu karvanlar hara gedir?

S a r a n. Onlar getmir, gəlir... Yəqin böyük hökmdarımız Cavanşirə hədiyyə gətirirlər.

S ö h r a b. Cavanşir özgələrinin hədiyyəsinə möhtac deyil.

S a r a n. Boş xəzinəmiz belə hədiyyələrə möhtacdır, vəzir, aha, mən deyəndir... hədiyyə gətirirlər.

S ö h r a b. Sən bunu nədən bilirsən?

S a r a n. Karvanın önündə bir atlı da var...

S ö h r a b. Girdman taciri Qənimət də karvanın qabağında gedəndə həmişə atlanır...

S a r a n. Bu atlı tacirə bənzəmir. Bizim tacirlər uzun əba, dikburun çəkmə geyirlər. Amma bu gələn atlının əynində parıltısı göz qamaşdıran qısa cəng libası var. Çəkmələri isə mirvari ilə bəzənmişdir. Bax, qızıl bazubəndi buradan da görünür... Yəqin böyüklərdəndir. Kim bilir, bəlkə bir ölkənin hökmdarıdır.

S ö h r a b. Bu axmaq xəzinədar olsa da, düz deyirmiş...

S a r a n. Vəzifənin böyüklüyü ağlın dərəcəsini artırsaydı, sən yenə də həmişəki qədər mənasız danışmazdın.

S ö h r a b. Aha, karvan dayandı... Ey, açın sarayın darvazalarını, əziz qonaqları ehtiramla qarşılayın...

S a r a n. Xəzinə bomboşdur, gecələr gözümə yuxu getmir.

S ö h r a b. Suss...

S a r a n. Mən səni nəzərdə tuturam... Çoxdan bəri boş xəzinəyə vəzirlik edirsən...

S ö h r a b. Suss dedim...

S a r a n. Bu sirri hamıdan gizlətsəm də, Cavanşirdən gizlətməyəcəyəm. (*Gedir.*)

S ö h r a b. O mənim cinayətimi açıb söyləyənə kimi, mən onun qəbrini qazmalıyam.

Bəhram və qasid daxil olurlar.

Q a s i d. Ağvan hökmdarı Cavanşirin sarayı budurmu?

S ö h r a b. Siz kimsiniz?

B ə h r a m. Mən Sasani qoşunlarının sərkərdəsi Bəhramam.

S ö h r a b. Doğrudanmı? Cavanşirin sarayına gələrkən qorxmadığınıza təəccüb edirəm. Siz çox cəsur adamsınız...

B ə h r a m. Biz böyük hökmdarınız Cavanşirlə görüşməyə gəldik. Onun xəzərlər üzərindəki qələbəsi hamımızı sevindirmişdi. Təbrik üçün gələn elçiyə toxunmazlar...

S ö h r a b. Elçiyə toxunmasalar da, sizə toxunarlar. Unutmayın ki, Cavanşirin babalarından yadigar qalmış Muğan torpağını qəsb edən sizsiniz...

P o l a d. Görünür, biz bura nahaq gəlmişik...

B ə h r a m. Deməli, mən geri qayıtmalıyam...

S ö h r a b. Yox... yox, mən belə demədim... Hökmdarımızı gözləyin, sizdən başqa Bizansdan, Suriyadan, Gürcüstandan elçilər gəlmişdir.

S a r a n. Hədiyyələrə baxdım, qızıla vurulsa beş yüz min dinar qiyməti var...

B ə h r a m. Bu qoca kimdir?

S a r a n. Bu vaxtacan xəzinədardım, indi isə vəzirimizə təlxəklik edirəm...

B ə h r a m. Gülməli qocadır...

S a r a n. Cibi boşalmış xəzinədara qoca olmasa da gülərlər.

B ə h r a m. Təlxək hökmdarı əyləndirər, sən nə üçün vəziri əyləndirirsən?

S a r a n. Məsələ uzundur. Bir zamanlar vəzirimiz Söhrab pulları oynadırdı, son vaxtlar nədənsə məni oynadır...

S ö h r a b. Qoca, hər sözün yeri var, çəkil get...

S a r a n. Hara gedim? Dar ağacına, yoxsa qoyun otarmağa.

B ə h r a m. Bu sözünü də anlaya bilmədim...

S a r a n. Bütün sözlər anlaşılmaq üçün söylənilsə idi, vəzirimiz Söhrab ömründə bir kəlmə də olsun dinib-danışmazdı. Dar ağacı yaxşıdır... Qoyunların sayını artırsam, vəzirimiz onlara da sahib çıxacaq. (*Gedir.*)

S ö h r a b. Onu dəli zənn etməyin, Cavanşirin ən yaxın müşaviridir...

B ə h r a m. Onu tez susdur, eşidirsənmi?

S ö h r a b. Eşidirəm, əziz qonaqlara ehtiram göstərmək borcumuzdur, buyurun...

Gedirlər.

S a r a n. Mən Bəhramdan çox razıyam, onun hədiyyələri bizə bir il kifayətdir. Amma doğrusu, bir şeydən qorxuram...

S ö h r a b. Nədən, qoca?

S a r a n. Qızılların səsindən...

S ö h r a b. Sən yenə də sayıqlayırsan?

S a r a n. Göylərə and olsun ki, yox... Mən yalnız qulaqlarımla eşitdiklərimi, gözlərimlə gördüyümü danışıram. Qızılların səsi doğrudan da qorxuludur... Özü də bilirsən nə vaxt?

S ö h r a b. Nə vaxt?

S a r a n. Gethagedi başlayanda, sən ki bunu yaxşı bilirsən...

S ö h r a b. Qoca, sən bu boş danışıqlarından əl çək...

S a r a n. Xəzinəmiz dolsun, mən bir kəlmə danışmaram...

S ö h r a b. Xəzinəni boşaldan sənsən, alçaq... Mən səni bu gün zindana saldıraram, alçaq...

S a r a n. Məni öldürsən də, öz günahlarını azalda bilməzsən. Vicdan ləkəsini qanla da yumaq olmaz...

S ö h r a b. Get fərmanımı gözlə...

S a r a n. Gözlərəm, həm sənin fərmanını, həm də Cavanşirin.

S ö h r a b. Bu saat zindana...

PƏRDƏ

## SƏKKİZİNCİ ŞƏKİL

Cavanşirin sarayı. Cavanşir, Elçin, Zibeydə oturublar.
Kütlə də səhnədədir. Fərid daxil olur.

F ə r i d. Böyük hökmdar, Bizans hökmdarının elçisi hüzurunuza izn istəyir... Dostluq, ittifaq arzusundadır.

C a v a n ş i r. Ağvana dost kimi gələnlərə gözüm üstə yer var. Düşmən kimi gələnlər isə əzilmiş başdan savayı heç bir şey qazana bilməyəcəklər. Qoy bu xəbəri Sasani sərkərdəsi Bəhram da eşitsin.

Bizans elçisi daxil olur.

B i z a n s  e l ç i s i. Bizans hökmdarının hədiyyəsidir. Hökmdarımız dedi ki, babamın vəsiyyətinə əməl edib əsrimizin ən böyük sərkərdəsi Cavanşirə göndərirəm. (*Qılıncı Cavanşirə verir.*)

C a v a n ş i r. And içirəm, dostlar, gündoğan ölkələrdə asayiş yaratmaq üçün bu qılıncı sədaqətlə oynadacağam.

Q a r t a l. Böyük sərkərdə, Suriyadan, Misirdən, Gürcüstandan da elçilər gəlmişdir.

C a v a n ş i r. Ah, Qartal... Afərin, mənim aslan cəngavərim. Sasanilərə qarşı necə inadla vuruşduğunu mənə söylədilər. Onlara da bir vaxt növbə yetişər. İndi isə əziz qonaqlara sarayın ən gözəl otaqlarını ayırın. Yeni tikilmiş binaları, yeni salınmış meyvə bağlarını, Girdman çayının üzərindəki yeni körpüləri onlara göstərin.

Q a r t a l. Baş üstə... (*Gedir.*)

C a v a n ş i r. Elçin Suriyaya təhsil almağa gedəndə Ağvanın bədxahları bizə dodaq büzürdülər. Lakin yox, mən öz oğluma və bütün vətən övladlarına da Ərəstunu, Əflatunu, Homeri öz dilində oxudacağam. Dünyanın ən gözəl əsərləri Ağvan dilinə çevrilib tez bir zamanda kitab sarayını bəzəyəcəkdir.

S ö h r a b. Bundan da gözəl fikir ola bilərmi?

C a v a n ş i r. İndi isə yollarımız məni düşündürür.

S ö h r a b. Tacirlər üçün bu qədər əziyyət çəkməyin nə mənası var? Böyük hökmdar...

C a v a n ş i r. Yox, Söhrab, yox... Ticarət yolu ölkənin qan damarıdır. Mən istərdim ki, bu yollarla gedib-gələn ticarət karvanları indikindən yüz qat çox olsun. Unutma ki, Girdman ipəyini daşıyan hər bir karvan Misirdən, Bizansdan bizə daha qiymətli şeylər gətirir. Onlar uzaq ölkələrdən bura yeni fikir, yeni düşüncə, yeni elmlər gətirir.

S ö h r a b. Doğrudur, böyük hökmdar, çox çəkməz ki, sizin gözəl tədbirləriniz sayəsində Ağvan diyarı həqiqi bir cənnətə dönər... Lakin bütün bunlar bizdən min ətək qızıl tələb edir. Xəzinəmiz isə hələlik yoxsuldur.

C a v a n ş i r. Hanı mənim xəzinədarım? Mən qoca Saranı görmək istəyirəm...

S ö h r a b. O xain zindana salınmışdır...

C a v a n ş i r. Nə üçün? Onun günahı nədir?

S ö h r a b. Xəzinənin pullarını havaya sovurduğu üçün... Dövlətimizin gücünü azaltmaq istəyən hər bir xainlə belə rəftar edirəm.

C a v a n ş i r. Gedin onu mənim hüzuruma gətirin... Of, sinəmdən ağrı qopdu.

Z i b e y d ə. Gedək, Cavanşir, sən hələ yorğunsan... Gedək dincəl.

C a v a n ş i r. Hələ dayan, Zibeydə. Mən qocanın nə günah işlətdiyini öyrənməliyəm...

X i d m ə t ç i. Sasani sərkərdəsi Bəhram hüzurunuza gəlmək istəyir...

C a v a n ş i r. Kim, Bəhram? O vəfasız?

E l ç i n. O öz səhvini anlayıb peşman olmuşdur, ata...

C a v a n ş i r. Oğlum, Elçin, səhv başqa, xəyanət başqa... Yox, mən onunla üz-üzə gəlmək istəmirəm...

Z i b e y d ə. Cavanşir, əzizim, Bəhrama nifrət bəsləməyə doğrudan da haqqın var. Çünki o, Ağvanın düşmənidir. Lakin sən onunla danışmalısan, sən onu dinləməlisən. Unutma ki, Bəhram böyük bir ölkənin elçisidir.

C a v a n ş i r. Yaxşı, mən bu barədə düşünərəm... (*Saranı gətirirlər.*) Xoş gördük, Saran...

S a r a n. Cavanşir sərkərdəyə salam... Sevinc yaşları məni boğur, ömrümün son günlərində səni görməyə çox şadam... Boş xəzinədə oturmaqdansa, zindan küncündə çürümək yaxşıdır.

C a v a n ş i r. Mən nəyin yaman, yaxşı olduğunu soruşmuram. Günahın nədir?

S a r a n. Vəzirimiz Söhrab qala hasarları tikdirmək bəhanəsi ilə məndən qızıl istədi. Mən də verdim, indi isə xəzinəmiz boşdur.

S ö h r a b. Sən nə danışırsan, qoca? Qala nədir, hasar nədir?

S a r a n. Böyük hökmdar, göylərin müqəddəs günəşinə and içirəm ki, mənim dediklərimdə zərrə qədər yalan yoxdur.

S ö h r a b. Sərsəm qoca. Sən öz cinayətini hökmdarımızdan gizlədə bilməzsən... Yaxşısı budur ki, özün etiraf et.

S a r a n. Mənə indi üç addım qara torpaqdan başqa heç nə lazım deyil.

S ö h r a b. Sərsəm qoca...

C a v a n ş i r. Söhrab... Saran – xain? Əlli ilin sadiq dostu – cani? Gedək, Saran, gedək... Bu dolaşıq düyünü mən özüm açaram...

Cavanşir, Saran və bütün kütlə gedir. Söhrab tək qalır.

S ö h r a b. Mənəm günahkar, o qocanı tez susdursaydım, indi onun göz yaşları Cavanşirin qəlbini ipək kimi yumşaltmazdı. Mən Cavanşirin nəzərində yenə də özümü doğrulda bilərəm. Hələlik əlimdə fürsət vardır...

Qənimət gəlir.

Q ə n i m ə t. Cavanşir gəldimi?

S ö h r a b. Hər ikimiz məhv olduq... Artıq heç bir şey bizi ölümdən xilas edə bilməz...

Q ə n i m ə t. Yenə nə fəlakət üz verdi?

S ö h r a b. Hanı qızıllar?

Q ə n i m ə t. Gətirmişəm...

S ö h r a b. Suss, yavaş, neçə dinar?

Q ə n i m ə t. Hələlik yüz min dinar...

S ö h r a b. Hardadır, bəs qalanı?

Q ə n i m ə t. Sənin evində, qalanını da bir neçə gündən sonra...

S ö h r a b. Xəncərin itidirmi?

Q ə n i m ə t. Bu sual nə üçündür?

S ö h r a b. Cavanşir otaqda təkdir... O dedi ki, yuxu cəngavərin dostudur. Lakin məncə yuxu cəngavərin ən böyük düşmənidir...

Q ə n i m ə t. Heç bir şey anlamıram...

S ö h r a b. Bundan gözəl fürsət ələ düşməz...

Q ə n i m ə t. Mən ona əl qaldıra bilmərəm...

S ö h r a b. O ölməsə, sən öləcəksən... Əziz bir dostum olduğun üçün xəbərdarlıq edirəm...

Q ə n i m ə t. Mən onun nəinki dirisinə, heç ölüsünə də yaxın düşə bilmərəm...

S ö h r a b. Onda özün bil, o bir az əvvəl dedi ki, Qəniməti gətirin, edam edin...

Q ə n i m ə t. Doğrudanmı?

S ö h r a b. Bax, o, yatağında uzanmışdır. Arxadan möhkəm bir zərbə kifayətdir... Bu fürsəti əldən buraxma... Bu ölüm yeganə xilas yoludur. Qorxma... qorxma! Mənə inana bilərsən... (*Qənimət xəncərini çəkib içəri girir.*) Aha, indi mən xilas oldum. Cavanşirin nəzərində yalnız bu yolla yüksələcəyəm. Qənimət isə öz əli ilə özünə ölüm qərarı yazdı...

Xəncər əlində qışqıraraq Qənimət geri dönür.

Q ə n i m ə t. Aman, Cavanşir oyaqmış...

S ö h r a b. Dayan... Dayan, at yerə xəncəri... (*Söhrab qılıncla Qənimətin xəncərini vurub salır.*)

Cavanşir və saray adamları daxil olurlar.

C a v a n ş i r. Bu nə deməkdir, Söhrab?

S ö h r a b. Ehtiyatsız dolanırsınız, böyük hökmdar... Ehtiyatsız. Bir dəqiqə belə geciksəydim, bu namərd bizi həmişəlik gözü yaşlı qoyacaqdı. Mən indi anladım ki, Sasanilərə hədiyyə aparan bu alçaq imiş...

C a v a n ş i r. Nə alıb satırsan, ipək, yoxsa vicdan...

Q ə n i m ə t. Mən... mən... Məni aldatdılar... yüz min dinar qızılım özgələrə qismət oldu. Söhrab, bütün xəyanətlərə bais sənsən...

S ö h r a b. Bu xəncər kimindir? Sual verirəm, bu xəncər kimindir?

C a v a n ş i r. Aparın, bu satqının boynunu öz xəncərilə vurun...

Q ə n i m ə t. O xaindir, böyük hökmdar, onun vicdanı ilan zəhərindən də mənfurdur...

S ö h r a b. Sənin cinayətlərini ulu Tanrı özü də açsaydı, səndən yalnız bu sözləri eşidərdi.

C a v a n ş i r. Aparın...

Q ə n i m ə t. O xaindir, o xaindir... (*Qəniməti aparırlar.*)

C a v a n ş i r. Onu buraya kim buraxmışdır?

N ö v b ə t ç i. Hökmdarı istəyirəm dedi, mən də vəzirin yanına göndərdim...

C a v a n ş i r. Söhrab, indi sən cavab ver, nə üçün o səni xain adlandırırdı?

S ö h r a b. Siz buna nə üçün təəccüb edirsiniz, böyük hökmdar? Sizə bəslədiyim sonsuz məhəbbəti düşmənlər xəyanət adlandırırsa, bu məni yalnız sevindirə bilər...

C a v a n ş i r. Bu sui-qəsddə sənin də əlin vardır...

S ö h r a b. Siz nə danışırsınız, böyük hökmdar...

C a v a n ş i r. Mənim ürəyimi aldatmaq, sən düşünən qədər də asan deyildir.

S ö h r a b. Hökmdarın nifrəti mənim üçün ən böyük cəzadır. (*Xəncərlə özünü vurub yıxılır.*)

C a v a n ş i r. Ölməmişdir. Tez həkim çağırın... Mənim sarayımda əqrəb gizlənmişdir.

A y b ə n i z (*gəlir*). Ah, Söhrab, əziz qardaşım, səni kim bu hala saldı, kim?

S a r a n. Heç kimdə günah yoxdur, qızım... O özü özünü vurdu...

A y b ə n i z. Can qardaş, sən mənim üçün həm ata, həm anasan... Sənsiz mənim bir günüm olmasın...

C a v a n ş i r. Bəlkə mən yanılıram...

Həkimlər gəlirlər.

Z i b e y d ə. Mən əminəm ki, Söhrab sənə xain baxa bilməz. Onun atası Ağvan sarayına düz qırx il sədaqətlə vəzirlik etdi...

C a v a n ş i r. Xəzinəni dağıdan Söhrab deyildimi?

Z i b e y d ə. Xəzinənin qızıllarına xəyanət etsə də, sənə əl qaldırmağa cəsarət etməz...

C a v a n ş i r. Mənim fikrimi sapdırma, Zübeydə... Söhrab mənim gözlərimə düz baxa bilmirdi...

Z i b e y d ə. Ürəyini yoxla... İnsanın zahirinə baxıb aldananlar çox olur...

S ö h r a b. Mən ölürəm, hamınız bilin ki, mənim ürəyimdə böyük hökmdara qarşı məhəbbətdən başqa heç bir şey yoxdur. Böyük hökmdar, ölkəmizin çətin vəziyyətini nəzərə alaraq qızılları Sarandan alıb ehtiyatla saxladım. Qızıllar mənim evimdədir. Məni bağışla, böyük ata, bunların hamısı hökmdara qarşı bəslədiyim böyük məhəbbətdir...

C a v a n ş i r. O mütləq sağalacaqdır...

Hamı təlaş içində.

PƏRDƏ

## DOQQUZUNCU ŞƏKİL

Cavanşirin saray otaqlarından birinin həyəti. Elçin səhnəyə daxil olur və gedir. Zibeydə xatun və Aybəniz daxil olurlar.

Z i b e y d ə. Elçin burada yoxdur, qızım... Mən onu nahaq yerə gözdən qoyuram... Elçin yoxdur...

A y b ə n i z. O həmişə yalqız gəzir... At çapıb, qılınc oynatmaqdan zövq alır, Zübeydə xatun, elə bil başqa sənət tapmır...

Z i b e y d ə. Görəsən dünyada anadan çox əziyyət çəkən bir insan varmı? Elçin məni qocaltdı, qızım? Üç il yolunu gözlədim... İndi də ki, özün görürsən...

A y b ə n i z. Qardaşım Söhraba deyərəm, Elçinə öyüd verər... Elçin Söhrabın xətrini çox istəyir...

Z i b e y d ə. Mən də ona tapşıracağam... Qızım, Aybəniz, o səni gördümü? Aranızda söz-söhbət olmadı ki?

A y b ə n i z. O məndən həmişə uzaq gəzir. Söhrab deyir ki, yox, yox, bəlkə bu sirri açmaq olmaz...

Z i b e y d ə. Qorxma, qızım, söylə... Oğulun sirrini heç kim anasından möhkəm saxlaya bilməz...

A y b ə n i z. Söhrab deyir ki, Elçin Sasani sərkərdəsi Bəhramın qızını sevir...

Z i b e y d ə. Sevir?..

A y b ə n i z. Elçin Reyhanın vurğunudur... Mən onların məhəbbətinə mane olmaq istəmirəm... (*Aybəniz gedir.*)

E l ç i n (*gəlir*). Yox, anacan, mən Aybənizə könül vermərəm...

Z i b e y d ə. Bu nədir, Elçin? Sən gizli söhbətə qulaq asırsan?

C a v a n ş i r. Qulaq asmasam da, bilirəm. Ana, mən Aybənizi sevməmişəm, mən onun xəyalı ilə yaşamamışam...

Z i b e y d ə. Mən isə anayam... Əgər mən təkcə öz səadətimi düşünsəydim...

E l ç i n. Sözlərim qəlbinə toxundusa, üzr istəyirəm, ana. Lakin mənim də könlümü dinlə. Sən, mehriban ana, ürəyimin fəryadını eşitməsən öz əlinlə mənə ölüm qərarı yazacaqsan... Mən Kayan gözəlini sevirəm... İnan ki, sən onu görsəydin, qadın ola-ola özün ona vurulardın...

Z i b e y d ə. Doğrudanmı? Sən o nazənini bu qədər sevirsən?

E l ç i n. Anacan, Reyhanın ala gözləri, qumral saçları, şümşad kimi dümdüz qaməti, hələ nəğmə oxuyarkən titrəyən səsi... Of, görəsən dünyada məndən də xoşbəxt bir sevgili varmı?

Z i b e y d ə. Bilirəm... Dünən gecədən bəri səni evdən didərgin salan da odur. Reyhanın atası öz ayağı ilə bizə qonaq gəlmişdir. Bu bizim üçün ən böyük səadət deyilmi? Daha bəsdir, görünür sən indidən ananın hər sözünə yox deyəcəksən... Özün bil, amma yadında saxla. Bəzən göyçək qızların ürəyi külək kimi hər səmtə əsər.

E l ç i n. Of... Anacan, Reyhan göydən yerə enmiş məsum bir mələkdir. Ona belə sözləri necə qıyırsan?

Z i b e y d ə. Yaxşı, sən deyən olsun... Razıyam. Bilmirəm, Aybənizin göz yaşlarına dözməyə daş ürəyi mən haradan alım.

E l ç i n. Bəs mənim ürəyim? Bəs mənim eşqim, bəs mənim andım?

Z i b e y d ə. Sən atanın qəzəbindən qorxmursanmı? O buna razı olmazsa?

E l ç i n. Anacan, mənim bütün ümidlərim sənədir... Reyhan məni hər səhər, hər axşam gözləyəcək... Əgər Elçinin ölümünü istəmirsənsə...

Z i b e y d ə. Bəsdir, oğlum... Görürəm sən inadından dönməyəcəksən... Gedək Firuzəbada. Mən bir yol tapıb onu – Reyhanı yanıma çağırtdıraram... Özüm onunla danışaram...

Gedirlər.

S ö h r a b. Aha, ala gözlü sona yuvasından uçmamış xoşbəxt ovçunun oxuna hədəf oldu. Bəs mən kiməm, dünyanın ən bədbəxt bir ovçusuyam? Yox, mən ömrümü sarayların nökərçiliyində çürüdən bir qul deyiləm! Yox, Söhrab, tale sənə əmr edir... Fürsəti buraxma. Şöhrət Elçindədirsə, qüvvət səndədir. Reyhan sənin alnına yazılmışdır! Bacın Aybənizin ülvi məhəbbətini tapdalayan məğrur Elçindən intiqam almalısan...

PƏRDƏ

## ONUNCU ŞƏKİL

Cavanşirin sarayı.

S ö h r a b. Hökmdar...

C a v a n ş i r. Mən öz qərarımı bildirirəm. Sasani qoşunlarının sərkərdəsi Bəhrama rədd cavabı verilsin...

Q a r t a l. Namərdlərə bundan gözəl cavab ola bilməz.

C a v a n ş i r. Dost kimi gələn elçilərə isə yalnız bir cavabım var. Dostluq arzusunda olan hər kəs mənim sədaqətimə əmin ola bilər.

S a r a n. Böyük hökmdar, düşmən də olsa, siz öz nəzakətinizi Bəhramdan əsirgəməyin...

C a v a n ş i r. Fikrini açıq söylə, Saran...

S a r a n. Sənin qərarın mənə bəllidir, böyük hökmdar. Bu dünya görmüş qocanın məsləhətini dinləmək istəyirsənsə, Kayan elçisini hörmətlə yola sal...

C a v a n ş i r. Mənim iradəmlə oynayanlar məndən aman gözləməsinlər.

Zibeydə xatun gəlir.

Z i b e y d ə. Bəhram səninlə görüşməmiş qayıdır... Cavanşir, adına-sanına ləkə vurma... Qoy düşmən belə sənin alicənablığını görsün, öz qəbahətindən utanıb yerə girsin...

C a v a n ş i r. Bəhramdan heç bir alicənablıq gözləmirəm, lakin çağır onu...

F ə r i d. Bu saat... (*Gedir.*)

C a v a n ş i r. Hamınıza xəbərdarlıq edirəm. Sizin aranızda Kayan dövləti ilə ittifaq bağlamaq arzusunda olan varsa, qoy onlar özünü aldatsın, namərd körpüsündən keçən özü də namərddir...

Bəhram, Polad, Kabus və qasid daxil olurlar.

B ə h r a m. Mən bura – Girdmana dost kimi gəlmişdim. Lakin məni düşmən kimi yola salırlar. Belə rəftarın səbəbi mənə bəlli deyildir...

C a v a n ş i r. Möhtərəm elçi, Kayan tacdarına söyləyiniz ki, mənim qılınca, mərdliyə arxalanan bir ölkəm vardır. Onu yer üzündən silmək istəyənlərə də qılıncla cavab veriləcəkdir...

B ə h r a m. Mehriban bir dost kimi əl-ələ vermək mümkün ikən, qılıncla danışmağa ehtiyac yoxdur, Cavanşir...

C a v a n ş i r. Mən müqəddəs Ağvanın göylərə baş vuran uca dağlarını bu vaxtadək düşmənlərin quduz hücumundan qorumuşam. İndi isə namərd dostlardan qoruyacağam...

B ə h r a m. Ulu hökmdarımız ərəblərə qarşı səninlə ittifaq bağlamaq arzusundadır.

C a v a n ş i r. Bu ittifaqın məqsədini bilmək olmazmı?

B ə h r a m. Məqsəd düşmənə qarşı birgə müharibə...

C a v a n ş i r. Ərəb sərkərdəsinə sülh təklifi aparmışsınızmı?

B ə h r a m. Düşmənə sülh təklifi etmək qorxaqlıqdır.

C a v a n ş i r. Daim müharibə xəyalı ilə yaşamaq isə sərsəmlikdir.

B ə h r a m. Biz yenə dost ola bilərik, Cavanşir...

C a v a n ş i r. Xəyanətini unutdunmu, möhtərəm elçi?

B ə h r a m. İnsanın həyatında səhv ola bilər... İnan ki, Cavanşir, ürəyim həmişə səninlə olmuşdur. Muğan torpağını xarabaya döndərən qəsbkarlardan səni qorumaq üçün işlətdiyim bu müvəqqəti siyasət bizim qardaşlıq məhəbbətimizə mane ola bilməz...

C a v a n ş i r. Hanı Qartal?

Q a r t a l. Burdayam, ulu hökmdar...

C a v a n ş i r. Muğan şəhərində qurulmuş dar ağaclarından asılan kimlər idi?

Q a r t a l. Kayan qoşunlarının əsir tutduqları Ağvan cəngavərləri...

C a v a n ş i r. Eşidirsənmi, möhtərəm elçi? Sədaqətdən dəm vurarkən vicdan ağrısı duyursanmı?

B ə h r a m. Mən ömrüm boyu bu cinayətlərimi lənətlərlə yad edəcəyəm. Namusuma and içirəm ki, bu ləkəni öz qanımla yumağa hazıram...

E l ç i n. Atacan, əgər ürəkləriniz bir-birinə yaxınsa, Ağvan dağları heç bir vaxt bizim aramızda sədd ola bilməz. Barış, atacan... Qoy sizi ülvi bir məhəbbət birləşdirsin...

C a v a n ş i r. Elçin, əziz balam... Mən Sasanilərlə əbədi dost olmaq fikrində idim. Lakin namərdlər xalqımızın boğazına əsarət zənciri keçirdilər. Qəsbkarların bizdən məhəbbət ummağa heç bir haqqı yoxdur. Əgər biz Kür-Araz sahillərində əzəmətli dövlətimizi yenə bərpa etməsək, bütün el-oba bizə lənət oxumazmı? Sən isə, möhtərəm elçi, hökmdarına bildir ki, mənə göndərdiyin o hədiyyələr Ağvan igidlərinin qanına boyanmışdır. Mən o igidlərin qatillərindən amansız bir qisas almamış bir an belə rahat ola bilməyəcəyəm.

Cavanşir və saray adamları gedirlər. Səhnədə Bəhram, Polad, qasid, Kabus və Saran qalır. Saran gedərkən.

Q a s i d. Qoca, qızıllar da, cavahirat da əldən çıxır. Sən Cavanşiri yola gətir...

S a r a n. Möhtərəm elçi, get sən xaini başqa yerdə axtar. Mən xəzinədaram, amma qızılı da, cavahiratı da elimin namusundan üstün tutmaram... Get...

Saran gedir.

B ə h r a m. Artıq sülh danışıqlarının mənası qalmadı. Muğan torpağında qurduğum dar ağacları çox azdır. İndi də Girdman üzərinə qoşun çəkəcəyəm... Hanı Söhrab? Onun qəlbini gəmirən şöhrət qurdu indi mənə gərək oldu...

P o l a d. Böyük sərkərdə, məni əfv edin... Onun əsgəri azdırsa da, bizə qarşı kini çox böyükdür...

B ə h r a m. Lakin kin ordu deyildir...

P o l a d. Cavanşirin qəzəbi artdıqca hər bir cəngavəri bir orduya bərabər olur.

B ə h r a m. Demək, Cavanşir səni qorxudur...

P o l a d. Mən əsil həqiqəti söylərkən, özümün qorxduğuma işarə etmək fikrində deyiləm. Mən deyirəm ki, bu böyük kinə qarşı vuruşmaq mənasızdır...

B ə h r a m. Kindən də qüvvətli bir ordu vardır...

P o l a d. O nədir?

B ə h r a m. Hiylə... Qoy Cavanşir öz qılıncını itiləsin. Mənsə onu hiylə toruna salıb məhv edəcəyəm... Çağırın Söhrabı, o məndən köməyini əsirgəməz. Onun qəlbini gəmirən şöhrət qurdu indi mənə gərək oldu...

P o l a d. Söhrab ağılsız deyil... O indi Cavanşirdən qorxub bizə kömək verməz...

B ə h r a m. Sən insanları hələ tanımırsan... Ehtiras quduz bir canavardır, ehtiras ən ağıllı insanları belə, məhrum bir quzu kimi parçalaya bilər...

Söhrab gəlir.

S ö h r a b. Sözlərimə inanın, böyük sərkərdə, onu bilin ki, Cavanşirin məhəbbəti dilimdə, sənin məhəbbətin isə ürəyimdədir... Siz hər zaman mənim sədaqətimə əmin ola bilərsiniz...

B ə h r a m. Elə isə gedək... Qoy Kayan hökmdarı mənə daha qüvvətli bir ordu versin. Mən Cavanşirlə yalnız vuruş meydanında danışacağam...

S ö h r a b. Uğurlu yol... Əgər Cavanşirin qollarındakı gücü bir heç məqamına endirmək istəyirsənsə, sizə daha yeni bir xəbər verə bilərəm...

B ə h r a m. O nədir, Söhrab?

Aybəniz daxil olur, onların söhbətini eşidib
gizlənir və qulaq asır.

S ö h r a b. Bu gün Cavanşirin o gözəl qadını Zibeydə xatun oğlu Elçinlə Firuzəabada gedir. O sizin ciyərparənizlə çox gizli bir mətləb barəsində danışmaq fikrindədir...

B ə h r a m. Mənim ciyərparəmlə?.. Gizli bir mətləb barəsində?

S ö h r a b. Bəli... Bəli, onları yolda tutub əsir apara bilsəydiniz. Bu, gələcək qələbənin yarısı deməkdir. Uğurlu yol... Söhrabı unutmayın... Zaman gələr Kayan tacdarı özü də məndən təşəkkürünü əsirgəməz.

Bəhram, Polad, qasid və Kabus gedirlər.
Aybəniz daxil olur.

Aybəniz. Sən nə elədin, Söhrab... Nə üçün vicdanına silinməz bir ləkə vurdun...

Söhrab. Aybəniz... Ləkə nədir?

Aybəniz. Bütün elin, obanın nifrətindən qorxmursanmı? Qardaşım, Cavanşirə xəyanət nə böyük nankorluqdur.

Söhrab. Suss... Suss... Sən hansı xəyanətdən danışırsan? Burax sərsəmliyi...

Aybəniz. Mən Bəhramla sənin söhbətini başdan ayağa dinlədim... Bu fikirdən əl çək, qardaşım... Böyük hökmdarımız bu əhvalatdan xəbər tutsa... Səni bir an belə sağ qoymaz... Yalvarıram sənə, get özün ona xəbər ver ki, düşmənlər Zibeydə xatunu hiylə toruna salmaq istəyirlər. Qoy onu Firuzəabada göndərməsin...

Söhrab. Sənin ağlın başında deyil, nədir? Heç nələr sayıqladığını bilirsənmi?

Aybəniz. Sən deməsən də, mən deyəcəyəm...

Söhrab. Dilini dibindən kəsərəm...

Aybəniz. Kəs... Aman...

Söhrab. Cınqırını çəksən...

Aybəniz. Ən uzağı ölümdür... Ölümdən qorxan səndən də namərddir... Ah...

Söhrab Aybənizi xəncərlə vurub öldürür.

Söhrab. Ah... Mən nə etdim... Demək, Elçin onun məhəbbətini rədd etdiyi üçün öz-özünü vurdu... Ah, əziz bacım. Fəlakət... Fəlakət...

Cavanşir və bütün saray adamları daxil olurlar.

Cavanşir. Bu nədir?.. Bu nə dəhşətdir?

Söhrab. Böyük ata... Mənim bacım, ata-ananın yeganə yadigarı, Elçinin rədd cavabından sonra özünü həlak etdi.

Cavanşir. Mənim oğlum Elçin...

PƏRDƏ

## ON BİRİNCİ ŞƏKİL

Cavanşirin sarayı. Qılınc daxil olur.

Q ı l ı n c. Mənim əziz hökmdarım, biz sənin əmrinlə Kayan tacdarının hüzuruna getdik... Bütün tələblərini ona yetirdik. Dedi ki, əgər əsgərlərinizin nahaq qanına bais olmaq istəmirsinizsə, tezliklə Muğandan geri çəkilməlisiniz, Ağvana dəymiş bütün ziyanları ödəməlisiniz. Lakin Kayan tacdarı bizim təkliflərimizdən qəzəbləndi... Rədd cavabı verdi.

C a v a n ş i r. Rədd cavabı?

Q ı l ı n c. Bəli, hökmdar, rədd cavabı... Hətta məni də, dostlarımı da dar ağacı ilə hədələdi... Axır sözündə yalnız bunu söylədi ki, Cavanşir xam xəyala qapılmasın. Bundan sonra Ağvan diyarı Kayan hökmdarlığına xərac verən bir əyalət olaraq qalacaqdır. Doğrusu, bu sözləri eşidərkən qan beynimə vurdu. Ürəyim kin və qəzəb ilə alışıb yandı. Cavabında dedim ki, Ağvan cəngavərləri mərdliklə ölməyi ana torpağının əsarətindən min qat üstün tutur.

C a v a n ş i r. Afərin, mənim qəhrəman şairim, mən səndən həmişə belə mərd cavablar eşitməyə alışmışam. İnsanın səbri tükənməz deyil... İndi bizim ancaq bir yolumuz qaldı. Muğan diyarını yadların tapdağından bu odlu qılınclarımız xilas edəcəkdir.

F ə r i d (*gəlir*). Böyük hökmdar, sənin tapşırığınla Ağvan kübarlarını, tacirlərini, ipək karxanaçılarını çağırmışam... Hamısı əmrinizi gözləyir.

C a v a n ş i r. Çox gözəl, Fərid... Onlarla mən özüm danışacağam. Gəlsinlər... (*Kübarlar, tacirlər, ipək karxanaçıları daxil olurlar.*) Əyləşin... Əyləşin... Sizi nə məqsədlə çağırtdırdığımı, yəqin ki, bilirsiniz. Dövlətimiz elin gücünə arxalanır. Vətənin ağır günlərində siz Ağvan qoşunlarından köməyinizi əsirgəməməlisiniz. Mən sizdən cavab gözləyirəm... Sən söylə.

D ə m i r d a ş. Mən bütün var-yoxumdan keçməyə hazıram. Ancaq, çox təəssüf ki, Muğana getmiş dəvə karvanımızı Bəhram tutub saxlamışdır.

C a v a n ş i r. Muğan tezliklə Sasanilərin əsarətindən xilas ediləcəkdir. Ümidvaram ki, karvan tezliklə qayıdacaqdır.

D ə m i r d a ş. Əgər qayıtsa, dəvələri də, qazandığım pulları da sənə bağışlayıram.

S a r a n. Bu nisyə oldu. Nağd nə verə bilərsən?

D ə m i r d a ş. Evim bomboşdur. Özgə heç nəyə ümidim gəlmir.

S ö h r a b. Yalan demə, kişi, neyçün bizi aldadırsan... Sən sərvətini Cavanşirdən gizlədib, əl altından Sasanilərə kömək vermək istəyirsən...

C a v a n ş i r. Dayan Söhrab, qoy o fikirləşsin... Hamını xəyanətdə təqsirləndirmək lazım deyil... İndi sən cavab ver.

A l o v. Mən qızıl verə bilmərəm... Üç sürü qoyunumu cəngavərlərə bağışlayıram... Oğlum Fəridi də sənin yolunda ölümə yollayıram...

S a r a n. Qızıl lazımdır, qızıl. Qoyunu xəzinədə saxlamaq olmaz...

A l o v. Qoyunu qızıla dəyişmək asandır...

C a v a n ş i r. Oğlun Fərid bütün vuruşmalarda əsil igid olduğunu sübut etmişdir...

A l o v. Öz hesabıma beş yüz təzə qılınc, bir qədər də qalxan tədarük etmişəm. Oğlum Fəridin dəstəsinə beş yüz at vermişəm. Mümkün edə bilsəm, yenə qılınc hazırladaram...

C a v a n ş i r. Mənim adımdan qılınc ustalarına salam söylə.

A l o v. Çox sağ ol, böyük hökmdar... Onlar gecə-gündüz əlləşib cəngavərlərə kömək edəcəklər.

C a v a n ş i r. İndi sizdən cavab gözləyirəm...

K a r x a n a  s a h i b i. Doğrusu, mən özüm də kömək verərdim... Amma iş burasındadır ki... Əslinə baxsan...

C a v a n ş i r. Yaxşı... Yaxşı, əgər ürəyinizdə məhəbbət əvəzinə qara yellər əsirsə, mənim sizə deyiləcək heç bir sözüm yoxdur... Sən nə üçün danışmırsan, Qızıltac?

Q ı z ı l t a c. Mən hökmdarın xəzinəsinə həmişə qızıl vermişəm. İndi isə...

S ö h r a b. Məni əfv edin, hökmdar... Qızıltac belə ağır günlərdə həmişə yaxasını kənara çəkir. Heç utanırsanmı? Son dəfə xəzinəyə nə vaxt qızıl vermişsən?

S a r a n. Sənin rəhmətlik atan vəzir olanda...

S ö h r a b. Tamaşa edin, tamaşa edin... O vaxtdan ən azı yeddi il keçir... Bəs indi, bu xəyanət deyil də, nədir?

C a v a n ş i r. Cavab ver, Qızıltac...

Q ı z ı l t a c. Mən axı...

C a v a n ş i r. Aydındır... Bir az dərindən düşünün, ağalar... Unutmayın ki, sizin dəvə karvanlarınıza yol açan, dövlətinizin keşiyində duran Ağvan cəngavərləridir... Ona verdiyiniz bugünkü cavabdan bir

az sonra özünüz utanacaqsınız... Siz öz sərvətinizi düşünürsünüz. Lakin yadların zülmü altında inləyən qan qardaşlarınızın taleyini isə düşünmürsünüz. Gedin, mənim əmrimi gözləyin...

Xidmətçi. Bu xatunun sizə sözü var, böyük hökmdar...

Günəşana və iki qızı daxil olurlar.

Cavanşir. Buyursunlar.

Günəşana. Mən tacir Altuntacın zövcəsiyəm. Bunlar da mənim oğlanlarımdır... Hökmdarımıza iki hədiyyə gətirmişəm... Bu sandıqda yüz min dinar bahasında daş-qaş, cavahirat vardır.

Saran. Yüz min dinar!..

Söhrab. Afərin, Günəşana... Afərin...

Günəş ana. Ərimdən mənə miras qalmışdır... Dedilər ki, Cavanşir Muğanı yadlardan qurtarmağa gedir. Böyük sərkərdə, məndən bu hədiyyələri qəbul et. Müqəddəs günəş qollarına qüvvət versin. Vuran əllərin titrəməsin, oğlanlarımı da sənə cəngavər verirəm. Onlar vuruşmada aman bilməyəcəklər.

Cavanşir. Bahar günəşinə and içirəm ki, mən onları da öz balam kimi sevəcəyəm...

Günəşana. Ərimi Sasanilər tikə-tikə doğradılar. Sən indi mənim də intiqamımı almağa gedirsən... İzn ver o müqəddəs qılıncdan öpüm...

Cavanşir. Ağvan analarının xeyir-duası mənimlədir. Lakin siz... Siz bu qadına baxın və utanın... Siz hələ uşaqsınız, övladlarım...

Fərid. Mən bilən gərək Altuntacın oğlu yoxdur, xala. Böyük hökmdar, and içirəm ki, bu gənclər Altuntacın qızlarıdır.

Cavanşir. Doğrudanmı?

Günəşana. Qorxub qaçsalar, mən onlara aman vermərəm.

Cavanşir. İnanıram, Günəşana. Lakin mən bu körpələri müharibə meydanına apara bilmərəm...

Qıvrımtel. Nə üçün, böyük ata? Biz at çapmağı da, qılınc oynatmağı da bacarırıq. Bizim yalnız bircə diləyimiz var. Vətənimizin yaşıl zəmiləri düşmən atlarının ayaqları altında tapdalanmasın... Analarımız övlad dağı görməsin... Namusumuza ləkə toxunmasın... İntiqam... İntiqam...

Cavanşir. Bu cəsur aslanlardan utanırsınızmı?

PƏRDƏ

## ON İKİNCİ ŞƏKİL

Cavanşirin sarayı. Ordu başçıları və məsləhətçilər Cavanşirin başına toplaşmışlar. Cavanşir xəritədə nə isə göstərir, hamının diqqəti ondadır.

C a v a n ş i r. Deməkk, sabah gün doğmamış biz yolda olmalıyıq.

S ö h r a b. Məni əfv edin, böyük hökmdar... Biz bir qədər səbr edib daha yaxşı hazırlaşa bilmərikmi? Kayan sərkərdəsi Bəhramın qoşunu bizimkindən üç dəfə çoxdur.

Q ı l ı n c. Canavar sürüsünə bir aslan kifayətdir.

C a v a n ş i r. Cəngavər Ozan doğru deyir. Düşmənin sayı heç də qorxulu deyil. Ağvan cəngavərlərinin hər biri bir ordudur... Qartal, nə olmuşdur?.. Sən nə üçün kədərlisən?

Q a r t a l. Mən ən müdhiş müharibələrdən belə qorxmuram. Mən Ağvan üçün, əziz anamın namusunu qorumaq üçün doğulmuşam... Amma indi ürəyim yaralıdır.

C a v a n ş i r. Nə olmuşdur, söylə...

Q a r t a l. Bizansa gedən dəvə karvanları hələ qayıtmamışdır. Böyük sərkərdə, Bəhram onları tutub əsir aparmışdır. Kim bilir, bəlkə də biz şəhəri alana kimi onları edam edəcəkdir...

C a v a n ş i r. Qurbansız qələbə yoxdur, Qartal!

Q a r t a l. Lakin mən hər şeydən əvvəl namuslu bir atanın oğluyam... Mənim atam o karvanın sarvanıdır...

C a v a n ş i r. Aha... Bu heç yaxşı olmadı...

S ö h r a b. Məncə, gözləmək yaxşıdır... Biz onlar gəlib çıxandan sonra hücuma başlarıq...

C a v a n ş i r. Yox... yox... hücum sübh tezdən başlanacaqdır. Nə bir gün tez, nə bir gün gec...

Q ı l ı n c. Müharibədə hər bir dəqiqənin öz hökmü vardır. Hücumu vaxtında başlamaq, qələbənin yarısını əldə etmək deməkdir...

Q a r t a l. İzn versəniz, mən öz tədbirlərimi söylərəm.

C a v a n ş i r. Söylə, Qartal...

Q a r t a l. Mənim süvarilərimə özgə bir adam başçılıq etsin, mən gecə ikən Muğan şəhərinə basqın edib əsirləri Bəhramın pəncəsindən qurtarım...

F ə r i d. Bu, çox gözəl fikirdir...

S ö h r a b. Mən də Qartalın cəsarətinə inanıram...

F ə r i d. Lakin hücum gözlənilmədən, çevik və ildırım sürətilə edilməlidir.

S ö h r a b. Əvvəlcədən Bəhram xəbər tutmazsa, şəksiz, sən qələbə çalarsan...

S ə s l ə r. Doğrudur... Doğrudur...

Q a r t a l. Böyük sərkərdə, sizdən cavab gözləyirəm...

C a v a n ş i r. Yox, Qartal... Bu tədbir yaramaz. Hücum zamanı cəsarət azdır. Düşmənin gücünü nəzərdən qaçırmaq olmaz. Bir də Girdmanın özündə düşmən casusu olmadığını haradan bilirsən?

Q a r t a l. Elə isə, öz əmrinizi söyləyin, böyük sərkərdə...

C a v a n ş i r. Sənin atlıların Ceyran düzündən hücuma keçib bir neçə əsir tutsun. Bu şərtlə ki, ordu başçılarından birini də ələ keçirtsin. Bax burda hücum həm sürətli, həm də gözlənilmədən olsun. Aydındırmı? Yenə təkrar edirəm... Ceyran düzündən...

Q a r t a l. Çox gözəl... Sonra?

C a v a n ş i r. Sonra Bəhrama elçi göndər, qoy bu elçi sənin adından düşmənə bildirsin ki, əgər bizim karvanla getmiş adamlardan birinin başına bir iş gəlsə, tutulmuş əsirlərin hamısı qılıncdan keçiriləcəkdir. O, tacirlərin qızıllarını mənimsəsə də, özlərini sağ-salamat buraxmağa məcbur olacaqdır... Aydındırmı?..

Q a r t a l. Of... Elə bil üstümdən böyük bir dağ götürüldü...

S ö h r a b. Ancaq nədənsə mənim ürəyim yenə də rahat olmadı...

C a v a n ş i r. Fikrini açıq söylə, Söhrab...

S ö h r a b. Əgər düşmən bu tədbirlərimizdən xəbər tutarsa...

Q ı l ı n c. İnsanın dili yalnız fikir söyləmək üçün deyil... Həm də bu fikri gizlətmək üçündür...

S ö h r a b. Məncə sən yalnız şerini deyib müharibə məsələlərinə qarışmasan biz daha çox qazanarıq...

Q ı l ı n c. Unutma ki, mən şerimi öz qılıncımla yazıram...

C a v a n ş i r. Qılınc haqlıdır, Söhrab, qoy bütün sirlərimiz burada, bu dilsiz divarlar arasında qalsın...

S ö h r a b (*öz-özünə*). Yox, qalmayacaqdır... Bu xəbəri Bəhrama yetirmək mənim borcumdur... Ah... Böyük hökmdar... Böyük hökmdar...

Elçin yaralı halda çox ölgün daxil olur.

C a v a n ş i r. Nə olmuşdur?

E l ç i n. Ah, atacan, fəlakət, bu dərdə dözmək üçün insanın ürəyi gərək daşdan, dəmirdən olsun...

C a v a n ş i r. Söylə, oğlum, söylə...

E l ç i n. Biz hələ Firuzəabada çatmamış böyük xiyabandan keçərkən heç gözlənilmədən birbaş üstümüzə saysız-hesabsız Kayan əsgəri bulud kimi axdı. Düşmən anamı, karvanı, bütün keşikçilərimizi də üzük qaşı kimi ortaya aldı...

S ö h r a b. Ah... Hiyləgər xain...

E l ç i n. Bir də gördüm ki, anam qılınc çəkib qızmış aslan kimi vuruşa atıldı... Mən də qılınca sarıldım... İrəliyə doğru şığıdım... Bilmirəm, necə baş bədəndən ayrıldı. Lakin heyhat, çox çəkmədi ki, mən ağır bir zərbədən şüurumu itirib yıxıldım... Gözümü açanda hər tərəfdə zülmət kimi qaranlıq, qorxunc bir sükut gördüm... Anamı, dostlarımı harayladım. Ancaq mənim səsimi eşidən, mənə hay verən olmadı. Ölənlər arasında anamı axtardım. Tapa bilmədim... Ah, ata-can, mən gördüklərimə hələ də inana bilmirəm... Bəlkə də bunlar müdhiş bir röyadır...

F ə r i d. Aha... Vəfadan dəm vuran namərd Bəhram...

E l ç i n. Mənim əziz hökmdarım, düşmən bu hiyləyə yalnız bir məqsədlə əl ata bilər. O bizi sarsıtmaq, yanlış hərəkətə məcbur etmək istəyir... Lakin Bəhram öz canını belə qurtarmaq istəsə, qoy əmin olsun. Odlu qılıncımızın hər zərbəsindən qopan qəzəb alovları namus oğrusunu yandıracaqdır.

Q a r t a l. İzin ver, hökmdar, elə bu gecə mən öz dəstəmlə Muğana hücum çəkim... Anamız Zibeydə xatunu düşmənin pəncəsindən qurtarım. Mən and içirəm, dostlar, anamız Zibeydə xatun naminə, namus naminə, şərəf naminə son damla qanımı belə əsirgəsəm, mənə ar olsun.

F ə r i d. Böyük hökmdar, şərəfli ölüm səadət qapılarının açarıdır. Anamız Zibeydə xatun üçün mən də ölümə hazıram... İzin ver, mən də hücuma keçim...

H a m ı. İzin ver, böyük sərkərdə...

C a v a n ş i r. Yox, övladlarım. Qartal, sən dediyim kimi gecə ikən hücuma keçərsən... Ceyran düzündən. Aydındırmı? Yenə təkrar edirəm... Qoy sirlərimiz bu divarlar arasında qalsın. Hücuma dediyim kimi hamımız birdən, sabah alatorandan başlayarıq... Nə tez, nə də gec...

PƏRDƏ

## ON ÜÇÜNCÜ ŞƏKİL

Bəhramın sarayında Reyhanın otağı, Reyhan və Qaratel
çox qəmgindirlər. Qaratel udda çalır və oxuyur.

Q a r a t e l.

Ay bu dağların Reyhanı,
Bəs sənin yarın, de, hanı?
Gözləri yolda qalan yar,
Yar həsrətilə solan yar.

Mənim sevdiyim yar gələr,
Könlüm onunla dincələr.
Qonaq gələndə bizə yar.
Güllər, çiçəklər açılar.

Mahnı oxunanda mənim könlüm həmişə sınıq bir ney kimi inildəyir. Sən nə üçün belə kədərlisən?

R e y h a n. Bax, ay da doğur, amma o hələ də gəlib çıxmadı... Hər gün, hər gecə gözlə dedi... Məni intizar oduna yandırdı. Bax budur, gözləyirəm... O isə gəlmir...

Q a r a t e l. Hamı yatır, hər tərəf səssizlik içində boğulur.

R e y h a n. O nə üçün gəlməsin? O, əhdi-peymanını unuda bilərmi?

Q a r a t e l. Kim bilir, bəlkə də bir fəlakət üz vermişdir.

R e y h a n. Yox... Yox, Qaratel, Elçinə bir şey olsa, mən özümü Arazın dalğalarına ataram...

Q a r a t e l. Ah... Reyhan, əzizim, bu fikirləri başından çıxart. Oğlan üçün özünü öldürən qızlara mən heç ağıllı demərəm... O olmasın, bir başqası olsun... Nə çoxdur gözəl qamətli oğlanlar. Mən birini sevirdim, xasiyyətini bəyənmədim, dedim bir daha gözümə görünmə. İndi bir başqasını sevirəm... O da xoşuma gəlməsə, üçüncü bir namizədim var... Oğlan nədir ki, onun üçün özümü öldürüm...

R e y h a n. Sən nə danışırsan, əzizim. Mən ona vəfasızlıq edə bilərəmmi? Yox, Qaratel, yox... Vəfalı ürəklər yalnız bir dəfə, yalnız birini sevə bilər...

Q a r a t e l. Yalnız birini? Bu nə sözdür? Sevgi iştahadır. Gündə bir növ xörək istəyir. Mən öz iştahamı küsdürə bilmərəm...

R e y h a n. O gəlmədi...

Q a r a t e l. Axı onlar birdən gəlməsə...

R e y h a n. Sən nəyi isə məndən gizlədirsən... Söylə görüm, ürəyini belə rahatsız edən nədir?

Q a r a t e l. Heç... heç...

R e y h a n. Səni and verirəm ulu göylərə, əgər bir şey bilirsənsə, məndən gizlətmə... Onsuz da mənim taleyim küskündür...

Q a r a t e l. İnan ki, bu xəbəri eşidəndə elə bil ürəyim yerindən qopdu... Mən səhərdən bəri hər şeyi səndən gizlədirdim... Atanla anan mənə tapşırıblar ki, sənə bir kəlmə deməyim...

R e y h a n. Aman Allah, yoxsa Elçinin başında bir bəla var...

Q a r a t e l. Yox, mənim ondan xəbərim yoxdur... Sərkərdə Cavanşirin atlıları üstümüzə axışıb gəlir. Bu saat o yanlarda bərk vuruşmadır. Atan bütün əsgərlərini davaya göndərdi. Dedi, ölərəm, bir addım geri çəkilmərəm...

R e y h a n. Deməк hər şey... Hər şey alt-üst oldu... Nə üçün? Yer üzü insan qanı ilə ləkələnməsəydi, nə olardı? Elçin... Elçin, indi sən nə qədər uzaqdasan... Yox, o gələcək... mütləq gələcək. Bax elə bil bu anda mən onun xəfif təbəssümünü, məhəbbətlə titrəyən dodaqlarını görürəm. O gələcək. Qaratel, o mənim bu kimsəsiz könlümü sevindirəcək.

Q a r a t e l. İndi nizələr, qılınclar yer üzünü qara bir bulud kimi sarmışdır. Oralarda insan canavardan belə yırtıcıdır. Onları yarıb keçməyə Elçinin gücü çatarmı? Minlərcə insan üz-üzə gələn yerdən insan nədir, şir də, pələng də sağ-salamat keçə bilməz, Reyhan...

R e y h a n. Şir də keçə bilməz, pələng də, amma mənim Elçinim keçər...

Q a r a t e l. Eh... Mənim də ürəyim od tutub yanır... Səni istədiyimdən bu sözləri deyirəm...

R e y h a n. Yox... Yox... Gözəllik timsalı olan Ayın üzü ləkə götürsə də, Elçin öz qəlbini vəfasızlıq damğası ilə ləkələməz. Onun şirin sözləri, mehriban baxışları bir duman olub havaya uçmaz... O mənə yazmışdı ki, məni səndən yalnız ölüm ayıra bilər... Sən də məndən köməyini əsirgəmə, Qaratel...

Q a r a t e l. Mən nə edə bilərəm? Yollar tutulmuş, şəhərin qapıları hər tərəfdən bağlanmışdır. İndi onu sənin yanına kim buraxar. Hər tərəfə keşikçilər qoyulmuşdur...

R e y h a n. Nə üçün? Məgər Elçinin buraya gəlməsini bilirlər?

Q a r a t e l. Yox, bilmirlər... Bu gün axşam Zibeydə xatunu əsir tutub gətirdilər... Keşikçilər də görünür onu qoruyurlar. Deyirlər ki,

birdən Cavanşirin adamları basqın edər. Onu əsirlikdən qurtarıb geri aparar.

R e y h a n. Kimi dedin, kimi?

Q a r a t e l. Elçinin anası, sərkərdə Cavanşirin istəkli arvadı...

R e y h a n. Yox, bu ola bilməz. Atam bu rəzalətə heç vaxt razı ola bilməz... Yəqin bu işdən onun xəbəri yoxdur... Əzizim, sən nəyi isə dolaşıq salırsan.

Q a r a t e l. Atanı o qədər də rəhmdil bilmə... Zibeydə xatunu o özü oğurlatdırmışdır... Keçən gecə bizim adamlar Firuzəabada hücum edib Cavanşirin yay sarayını halqa içərisinə almış, keşikçiləri bir-bir qılıncdan keçirmişlər... Özünü diri tutub gətirmişlər.

R e y h a n. İndi o haradadır?

Q a r a t e l. Neçə adamdan xəbər aldımsa, yerini deyən olmadı...

R e y h a n. Elçinin anası, köməksiz bir qadın zindanlarda dustaq olsun...

Q a r a t e l. Onun yerini öyrən, Reyhan, sən Elçinin xatirinə ona kömək et...

R e y h a n. Ah, ata... Sən necə zalımsan...

Q a r a t e l. O, Cavanşirdən qisas alır. İstəyir ki, Cavanşir qorxub hücum fikrindən daşınsın. Amma o daha da qəzəblənib, qabağına keçən adamları ot kimi biçib tökür... Hələ qorxuram bu gecə Cavanşirin qoşunları şəhərə dolsun...

R e y h a n. Gedək, Qaratel, səbir edə bilmirəm...

Q a r a t e l. Hara gedirsən, ehtiyatlı ol. Qaş düzəltdiyin yerdə vurub göz çıxardarsan...

R e y h a n. Yox, atam məni tikə-tikə doğrasa da, onu tapıb dustaqdan buraxdıracağam...

Q a r a t e l. Onun yerini sənə deməzlər. Atan Bəhramın qorxusundan göydə quşlar belə qanad salar...

R e y h a n. Mən atama yalvaracağam, insafa gəlməsə, mən ondan üz döndərəcəyəm...

Q a r a t e l. O burada deyildir, əzizim. İndi onun nərəsindən yer-göy titrəyir. Get bir az dincəl, axşamın xeyrindən sabahın şəri yaxşıdır...

R e y h a n. Ulu Tanrım, nədir mənim günahım, sevən ürəklərin həmdəmi olmaqdan, nə üçün düşməni olursan?

Elçin daxil olur. Qaratel yan otağa keçir.

E l ç i n. Ah... Reyhan, mənim əzizim...
R e y h a n. Elçin, sən buraya necə gəldin?
E l ç i n. Qılıncların, nizələrin ucsuz-bucaqsız dənizlərindən keçərək gəldim...
R e y h a n. Səni tutsaydılar, öldürə bilərdilər, Elçin...
E l ç i n. Məni parça-parça doğrasalar da, son nəfəsimdə yenə Reyhan... Reyhan deyə inləməyə qüvvətim çatar...
R e y h a n. Of... Elçin, bu fəlakət səni də, məni də məhv edəcək...
E l ç i n. Ağlama, Reyhan... Ağlama... Məni də, atam Cavanşiri də bu qanlı müharibələrə sövq edən saf bir məhəbbətdir... Odlu qılınclar yer üzünü qan dəryasına qərq etsə də, bu məhəbbət heç bir zaman məhv olmayacaqdır... Odlar yurdunun səadəti sənin, mənim səadətimdir...
R e y h a n. Get... Səni and verirəm eşqimizin qüdsiyyətinə, get...
E l ç i n. Əgər sən bu eşqin ən ağır əzablarına belə qatlaşa bilərsənsə, söylə... Hardadır mənim anam?
R e y h a n. Mən özüm də onun yerini bilmirəm... Onu haradasa gizlədib yerini heç kəsə demirlər...

Bəhram gizlindən pərdənin dalında söhbətə qulaq asır.

E l ç i n. Reyhan, mən onu tapacağam... Anamın namusunu tapdalamaq istəyən o cəlladdan bir intiqam alacağam... Əgər onun üçün həyatımı qurban vermək lazım gəlsə də, bir an belə tərəddüd etmərəm... Söylə, haradadır mənim anam?
R e y h a n. Eşidirsənmi, sənin gəlişindən xəbər tutdular.
E l ç i n. Demək, bilmirsən? Sən ürəyini sıxma, əzizim... Bu qanlı vuruşmalar tezliklə qurtaracaq, insanların əbədi səadəti, bizim taleyimiz güləcək... İntiqam alovu ilə yanan ürəklərimizdə yalnız məhəbbət duyğuları çırpınacaq...
R e y h a n. İnan, Elçin, mən onu səbirsizliklə axtaracağam.
S ö h r a b. Elçin... Elçin, tez ol, gələn var...
E l ç i n. Gəlirəm, Söhrab, gəlirəm... Reyhan, Zibeydə xatunun oğurlanması bütün Ağvanı ayağa qaldırmışdır. Qoy bilsinlər ki, Zibeydə xatuna toxunan əlləri dibindən kəsib atmaq üçün Ceyran düzündən qartal kimi atlılarımız üstünə şığıyıb gəlir... Əlvida, əzizim... Gün doğanda məni də, atam Cavanşiri də burada gözlə. (*Elçin gedir.*)

R e y h a n. Ata... Ata... Sən onu – ipək ürəkli Elçini də qəzəbləndirdin... Nə üçün?

Bəhram daxil olur.

B ə h r a m. Sənə nə olmuşdur, qızım, niyə çığırdın?
R e y h a n. Nə üçün, ata, nə üçün?
B ə h r a m. Səndəki bu həyəcanın səbəbi nədir, qızım? Əgər düşmənin hücumundan qorxursansa, arxayın ol, mən vuruşma meydanından gəlirəm... Cavanşir məğlub olur, geri çəkilir. Kayan ordularının qələbə bayrağı Ağvan dağlarının zirvəsində dalğalanır...
R e y h a n. Onun anası, yox... yox... bu, rəzalətdir ata...
B ə h r a m. Rəzalət, bu nə sözdür? Söylə görüm, səni qəzəbləndirən nədir?
R e y h a n. Elçin... Elçin...
B ə h r a m. O kimdir, qızım?
R e y h a n. Atacan, yalvarıram sənə, onu məndən soruşma...
B ə h r a m. Bu sirmidir, Reyhan? Sən heç bir şeyi öz doğma atandan gizlətmə, qızım. Mən səni kiçik yaşlarından qollarımın üstündə böyütmüşəm. Sənə özüm layla demişəm. Mən sənin səadətin üçün hər bir fədakarlığa hazıram. De, qızım, nə olmuşdur?
R e y h a n. Əgər səndə zərrə qədər məhəbbət varsa, söylə, ata, Zibeydə xatun hanı?
B ə h r a m. Zibeydə xatun? Sən hara, Zibeydə xatun hara?..
R e y h a n. Mən Cavanşirin oğlunu...
B ə h r a m. Susma, qızım, söylə, nədən qorxursan? De, qızım, mən sənə – bir balamın qara gözlərinə and içirəm ki, sənin hər bir arzuna əməl edəcəyəm. De, qızım, dərdin, istəyin nədir?
R e y h a n. Mən onu... Elçini sevirəm...
B ə h r a m. Sevirsən?
R e y h a n. Dünyalar qədər...
B ə h r a m. Mənim qızım, mənim qan düşmənimin oğlunu sevir... Bəlkə mən yanlış eşitdim. Bəlkə qulaqlarım məni aldadır...
R e y h a n. Yox, atacan, Elçini sevirəm, ölüm belə onun məhəbbətini mənim qəlbimdən çıxara bilməz. Yalvarıram sənə, ata, Zibeydə xatunun yerini mənə de, Elçin kimi bir oğulun anası bu rəftara layiq deyil...
B ə h r a m. Yoxsa səni o quduz canavarların balası yoldan çıxarmışdır?

R e y h a n. Ona toxunma, ata! Onun qəlbi büllurdan belə safdır. Onun anası Zibeydə xatun...

B ə h r a m. Mən Zibeydə xatunun qanını içməyə belə hazıram... Mən...

R e y h a n. Qadından intiqam almaq? Yox, ata, bu sənin, bütün nəslimizin şəninə ləkə vurar. Yalnız düşmənlərimiz deyil, dostlarımız da, elimiz-obamız da sənə nifrət edər. Hamı sənə lənət oxuyar. Ulu Hürmüzə and olsun ki, Zibeydə xatunun başından bir tük belə əskik olsa, mən özümü həlak edərəm...

B ə h r a m. Bəlkə sən düşmənə satılmısan? Mən Zibeydə xatunu odlara atıb külə döndərəcəyəm...

R e y h a n. Yox, yox, heç vaxt. Sən yalnız mənim cənazəm üstündən keçib bu cinayətə əl ata bilərsən... Ah... ata...

B ə h r a m. Suss... Mən şüurumu itirirəm...

R e y h a n. Vur... öldür...

B ə h r a m. Rədd ol qəlbimdən, bala məhəbbəti...

R e y h a n. Vur...

B ə h r a m. Bəsdir, daha mənim səbrim tükəndi...

R e y h a n. Nə üçün dayandın, vur...

B ə h r a m. Rədd ol...

R e y h a n. Vur, cəllad ata...

B ə h r a m. Reyhan...

PƏRDƏ

## ON DÖRDÜNCÜ ŞƏKİL

Bəhramın sarayı.

B ə h r a m. Əsirlər haradadırlar?

Q a s i d. Sizin əmrinizi gözləyirlər, böyük sərkərdə... Məşhur Girdman sarbanı Şahin ölümünü çoxdan gözləyir...

B ə h r a m. Onun oğlu Qartal, Ceyran düzündən hücuma keçib cəbhəni yarmaq istəyirmiş. Lakin qorxmaz igidlərimiz onun dəstəsini tar-mar edib özünü də əsir almışlar...

K a b u s. Qartal dedikləri o əfsanəvi qəhrəman budur.

Qartalı qolları bağlı gətirirlər.

B ə h r a m. Qartal, bir zaman xəyanətlə qaçıb mənim əlimdən yaxa qurtarmışdın. İndi yenə mənim əlimdəsən... Bəhramın üstünə qılınc çəkən hər kəsin şərəfsiz sonu belədir.

Q a r t a l. Xəyanət ən böyük ordunu belə yıxa bilər...

B ə h r a m. Sənin bircə qurtuluş yolun vardır. Söylə, söylə görüm, o böyük sərkərdəniz Cavanşir özü hansı tərəfdən bizə hücum edir?

Q a r t a l. Onun sirrini yalnız özü bilər...

B ə h r a m. Bax qoca atan da mənim əlimdədir...

Şahini əsgərlər gətirirlər.

Q a r t a l. Atacan...

Ş a h i n. Oğlum...

B ə h r a m. Görürəm ki, bir-birinizi hədsiz sevirsiniz... Qartal, əgər özünü də, onu da ölümdən xilas etmək istəyirsənsə, Cavanşirin yerini söylə. Nə üçün susursan? Namusuma and içirəm ki, onun yerini söyləsən, sizin başınızdan bir tük əskik olmayacaqdır.

Q a r t a l. Axtardığınız xain mən deyiləm... Ey sərkərdə... Ağvan cəngavərini heç bir şeylə satın ala bilməzsiniz...

Ş a h i n. Afərin, mənim cəsur Qartalım... Ananın südü sənə halal olsun...

C ə n g a v ə r. Suss... Qoca, öz əlinlə özünə qəbir qazma...

Ş a h i n. Mərd ölənlər, dünyanın ən xoşbəxt adamlarıdır...

Q a r t a l. Ax, ata, sirlərimizi açıb düşmənə söyləyən o xaini öyrənə bilsəydim... Ölümümə zərrə qədər də təəssüf etməzdim...

B ə h r a m. Hamınız bilin... Bu sirri mənə söyləyən Cavanşirin doğma balası Elçindir...

Q a r t a l. Ox, cəllad ürəkli xain... Böyük sərkərdədən, Cavanşirdən belə xain övlad törəyə bilməz...

B ə h r a m. İnanmırsan?

Q a r t a l. Xeyr, əsla...

B ə h r a m. Atanla bərabər oda atılandan sonra inanarsan.

Q a r t a l. Mən öz odlu qılıncımla yüzə qədər süvari biçib tökmüşəm. Artıq mənim oddan da qorxum yoxdur...

B ə h r a m. Aha... Cəsarətə bax... O yenə də qürurundan əl çəkmək istəmir... Aparın, hər iki qollarını bağlayın, atasını isə yanan tonqallara atın...

Qartalı və atasını gözətçilər aparırlar.

P o l a d. Bu ölüm hamımıza baha otura bilər, igid sərkərdə...

B ə h r a m. Görürəm ki, sənin ürəyin mum kimi yumşaqdır. Boğ, öldür bu mərhəmət hissini, sən hələ bundan da müdhiş cəzalar görəcəksən... Cavanşirin yalnız Qartalı deyil, o gözəl qadını – Zibeydə xatunu da mənim əlimdədir.

Zibeydə xatun daxil olur.

Polad, mənim igid cəngavərim, Cavanşirin qollarına qüvvət verən bu dünya gözəlini sənə bağışlayıram... Qoy Zibeydə xatun sənin arvadın olsun...

P o l a d. Yox, yox, mən belə namussuzluğa razı olmaram...

B ə h r a m. O mənim köləmdir, istədiyim qiymətə, istədiyim müştəriyə sata bilərəm. Lakin sənə bağışlayıram.

P o l a d. Xeyr, igid sərkərdə, sən doğrudan da o böyük insan adını daşımaq istəyirsənsə, adi nəzakət qanunlarını ayaqlamağa haqlı deyilsən...

B ə h r a m. Sənə dediyim o müdhiş cəza budur...

P o l a d. Əfv edərsiniz, böyük sərkərdə. Mən qılınc, qalxan götürüb Cavanşirlə vuruşacağam, mən öz sədaqətimi qanlı vuruşma meydanında göstərəcəyəm, Zibeydə xatunu isə yox, yox... (*Polad gedir.*)

B ə h r a m. Ey Kabus, yaxın gəl... Onu sən alacaqsan...

K a b u s. Razıyam, böyük sərkərdə. Sənin iradən bunu tələb edirsə, mən bu təklifdən boyun qaçırmaqda bir məna görmürəm...

Q a s i d. Demək, Cavanşirin ölüm qərarı yazıldı...

Z i b e y d ə. Mən Cavanşirin taleyinə acıyıram... O nahaq yerə sənin üstünə qılınc qaldırmışdır...

B ə h r a m. Nə demək istəyirsən?

Z i b e y d ə. Mən qadın ola-ola sənə qılınc çəkməzdim...

B ə h r a m. Nə üçün?

Z i b e y d ə. Alçalmamaq üçün...

B ə h r a m. Aparın bu kənizi. Mən kənizlə danışmağa tənəzzül etmərəm...

Z i b e y d ə. Cavanşir qalib gələndə şeypurlar həmişə belə səslənir.

Polad təlaş içində daxil olur.

P o l a d. Böyük sərkərdə, Cavanşirin qoşunları cəbhəni yardı. Onlar bizim arxamıza keçib qara bir zülmət kimi üstümüzə yeridi. Bütün yollar tutuldu. Heç bir yana qaçmağa imkanımız qalmadı...

B ə h r a m. Sən nə üçün yalnız qaçmağa yol axtarırsan, qorxaq.

P o l a d. Əfv edərsiniz, böyük sərkərdə. Ağvan süvariləri üstümüzə müdhiş bir ildırım kimi şığıyırlar. Onların qarşısından sağ-salamat qaçmaq da böyük igidlikdir.

B ə h r a m. Get, ehtiyatda saxladığım qüvvələri apar. (*Polad gedir.*) Mən hələ ölməmişəm. Bir daha ağır xəbər gətirsən, ətini boz itlərə yem etdirəcəyəm... Gedin qəzəbinizə kin, iradənizə güc verin... İnsan öz kədərini yalnız qanla azalda bilər. Vurun, öldürün. Qoy Ağvan torpağı Cavanşirin qanına boyansın...

Kabus daxil olur.

K a b u s. Əsgərlərimiz qaçışır, böyük sərkərdə... Bütün ordumuz pərakəndə düşüb, düzlərə səpələndi... Hamısı qaçıb dağılır...

B ə h r a m. Mən onlara göstərəcəyəm ki, insanın ayaqları yalnız qaçıb qurtarmaq üçün deyil...

Z i b e y d ə. Odur, odur...

B ə h r a m. Ardımca gəlin...

Cavanşir qabaqda olmaqla ordu daxil olur.

C a v a n ş i r. At yerə qılıncı...

B ə h r a m. Mən hələ ölməmişəm...

C a v a n ş i r. Cavanşir aslanlarla vuruşur. (*Vuruşurlar. Bəhramın qılıncı düşür.*) Götür qılıncını get... (*Yenidən vuruşurlar, Cavanşir Bəhramı öldürür.*)

B ə h r a m. Ah...

C a v a n ş i r. Qartal hanı? Gedin onu axtarın... Hanı Söhrab, o nə üçün görünmür?

F ə r i d. Onun dəstəsi şəhərə çoxdan girmişdir...

C a v a n ş i r. Sizcə Bəhrama bizim sirlərimizi kim açmışdır?

F ə r i d. Hamımızdan ağır zərbə alan Qartaldır. Ondan soruşun, böyük sərkərdə...

Qartalı gətirirlər.

Q a r t a l. Mənim böyük sərkərdəm. Xəyanət, mənim süvarilərim hamısı sədaqətlə vuruşurdu. Lakin hamısı qara bir xəyanətin qurbanı oldu...

Ş a h i n. Mənim əziz balam... Səni belə məşəqqətlə yandıranlardan özüm hayıf alacağam...

F ə r i d. Bəhram artıq yoxdur, əmi... Sərkərdəmiz sənin intiqamını çoxdan almışdır...

Q a r t a l. Məni Bəhramın alovları qorxutmadı. Odlar yurdunun uca dağları, büllur çeşmələri, ucsuz-bucaqsız meşələri durduqca Girdman cəngavərinə ölüm yoxdur. Lakin ulu hökmdarımdan yalnız bir xahişim var... Xainin dili kəsilsin... Sirrimizi qarı düşmənə açıb söyləyən o dil Girdmanın ən böyük düşmənidir.

C a v a n ş i r. Bu xəyanətdən bütün Ağvana ziyan toxundu. Övladlarım, xain bizim sirrimizi düşmənə açdı. Yüzlərlə Girdman cəngavərlərinin qanına bais oldu.

Ş a h i n. Hökmdar, Qartalın qanadları Bəhramın acıqlı odlarında yanıb külə döndü... O səadət naminə əsil igid kimi ölümə sinə gərdi... Al onun intiqamını, hökmdar...

Q a r t a l. Əlvida, dostlar... Əlvida, mənim odlu qılıncım. Əlvida, böyük ata... (*Ölür.*)

C a v a n ş i r. Mən and içirəm ki, Qartal, sirrimizi açmış o xain doğma balam da olsa, mən ona aman verməyəcəyəm...

PƏRDƏ

## ON BEŞİNCİ ŞƏKİL

Bəhramın sarayı. Cavanşir çox məyus gəzişir.
Söhrab daxil olur.

S ö h r a b. Muğan torpağı böyük hökmdarımızı gül-çiçəklə qarşılayır. Hamının gözlərində sevinc yaşları parıldayır. Bəhramın ölümündən xəbər tutanlar üçün toy-bayramdır. Böyük hökmdarımız nə üçün belə kədərlidir? Məgər qələbəmiz onu sevindirmirmi?

C a v a n ş i r. Söhrab, Ağvan cəngavərlərini ölüm qucağına atan o xaini göstər... O satqın kim ola bilər?

S ö h r a b. Satqın?

C a v a n ş i r. Mən heç bir vuruşmada bu qədər cəngavər itirməmişdim...

S ö h r a b. Sasani ordusu qüvvətli idi. Biz qurbansız qalib gələ bilməzdik...

C a v a n ş i r. Xatirindədirmi? Mən dedim ki, sirlərimiz dilsiz divarlar arasında qalsın. Lakin divarlar dilə gəlib hər şeyi Bəhrama xəbər vermişdir...

S ö h r a b. Qartalın ölümü doğrudan da böyük zərbədir, ulu hökmdar...

C a v a n ş i r. Ağvanın namusunu tapdalayan o xain tapılmadıqca mənim qəlbim rahat olmayacaqdır... Söylə... Söylə görüm o kim ola bilər...

S ö h r a b. Ən böyük günah məhəbbətdədir, hökmdar... İnsanı ən alçaq xəyanətlərə sövq edən bir qüvvət varsa, o da yalnız məhəbbətdir.

C a v a n ş i r. Sən həmişə ikibaşlı sözlər deməkdən həzz alırsan... Fikrini açıq söylə...

S ö h r a b. Anamız Zibeydə xatunun Firuzəabada getdiyini, bizim haralardan hücuma keçdiyimizi, qoşunlarımızın yerini Bəhrama xəbər verən də məhəbbət olmuşdur... Böyük sərkərdə, mən bu sirri özümlə bərabər qəbrə aparmaq xəyalında idim. Lakin...

C a v a n ş i r. O xain kimdir?

S ö h r a b. O sizin dünyalar qədər istədiyiniz bir adamdır. Onun ölümü də xəyanəti qədər sizi yandıracaqdır. Ulu göylərə and içirəm ki, sözləri mənə dedirdən yalnız ürəyimdə Cavanşirə bəslədiyim sonsuz məhəbbətdir.

C a v a n ş i r. Mən də müqəddəs göylərə and içirəm ki, o ürəyimin bir parçası da olsa, kəsib atarkən uf deməyəcəyəm...

S ö h r a b. O xain... yox... yox... Bunu deməyə dilim gəlmir.

C a v a n ş i r. Sinirlərimlə oynama, Söhrab... Onsuz da mən iztirab içərisində boğuluram...

S ö h r a b. O xain sənin öz doğma balan Elçindir...

C a v a n ş i r. Necə? Sən onun ölümünümü istəyirsən, alçaq?..

S ö h r a b. Təəssüf ki, mənim ölümüm də onun vicdanındakı qara ləkəni yuyub təmizləyə bilməz...

C a v a n ş i r. Yalandır... Yalan...

S ö h r a b. İnanın ki, göydə Ayı, ulduzu danmaq mümkün olsa da, bu sözlərimi yalansıtmaq mümkün deyildir. Elçin bütün Ağvanı satdı... Anasının namusunu, atasının şərəfini, Odlar yurdunun igid cəngavərlərini bir qaşı kamana qurban verdi...

C a v a n ş i r. Əgər sən qəlbinin iniltilərini duymaq istedadından məhrum deyilsənsə, etiraf et ki, bu dediyin sözlərin hamısı yalandır...

Söhrab. Nə edim ki, mənim sözlərimdə zərrənin mində biri qədər yalan yoxdur...

Cavanşir. Söhrab, oğlum Elçinin xəyanətini sübut edə bilməsən sən yaşamayacaqsan...

Söhrab. Böyük hökmdarımız məni əfv etsin. Qadın tayfası nə qədər zərif məxluq olsa da, iradəsiz kişiləri özünə qul etməyə qadirdir. Yer üzündəki bütün xəyanətlərə bais onlardır. Oğlunuz Elçin dünən gecə Bəhramın sarayına gəlib bütün sirlərimizi öz sevgilisinə xəbər vermişdir. O şeytan mənim əziz qardaşım Elçinin könlünü ovlamış, atasına casusluq edib hər şeyi ona söyləmişdir.

Cavanşir. O ifritə indi haradadır?

Söhrab. Baxın, Bəhramın mənfur cənazəsi önündə diz çöküb qanlı göz yaşı axıdan o aybənizli Kayan gözəlini görürsünüzmü?

Cavanşir. Hanı Elçin? Bəlkə də o öz xəyanətinin böyüklüyünü hiss etdiyi üçün mənim gözümə görünməkdən çəkinir.

Söhrab. O uzaqda deyildir... Reyhan adlanan o dünya gözəlinin göz yaşları oğlunuz Elçini də ağladır. O kənarda durub həsrətlə baxa-baxa qayınatasının ölümünə yas saxlayır...

Cavanşir. Gedin o fitnəkar afəti mənim yanıma gətirin.

Fərid. Baş üstə...

Zibeydə. Bu böhtanlara uyma, Cavanşir...

Söhrab. Oğul məhəbbəti gözlərinizi pərdələməsin, böyük ana. Bu günə qədər mən Elçini səndən az sevmirdim. Hökmdarımız bilməsə də, sən ki Elçinin Reyhana vurulduğunu məndən yaxşı bilirsən... Reyhan bu dediklərimi təsdiq etməzsə, mən indidən öz əlimlə ölüm qərarını yazmağa hazıram...

Cavanşir. Aha... Oğlum gözəllik ilahəsinə vurulmuşdur... Sən Elçini tanıyırsanmı?

Reyhan. Bəli, tanıyıram...

Cavanşir. Sən hara, o hara? Cavab ver... Artıq hər bir şey bəllidir... Elçin dünən gecə sənin yanında olmuşdur? Oğlun sirrini atadan gizlətmək mənasızdır. Cavab ver... Elçin sənin yanına gəlmişdirmi?

Reyhan. Məni əfv edin, böyük atadan oğlun sirrini gizlətmərəm... Bəli, o dünən gecə burada idi.

Cavanşir. Aha, demək xain mənim öz ciyərparamdır... Gedin bu dəqiqə onu mənim hüzuruma gətirin...

Qılınc. Səbir edin, hökmdar... hələ kimin müqəssir olduğu aydın deyildir...

Ş a h i n. Böyük hökmdar, Bəhram da belə deyirdi, lakin heç birimiz buna inanmadıq...

C a v a n ş i r. Artıq hər şey mənə aydın oldu... Fərid, Elçini özün gətir...

F ə r i d. Baş üstə...

C a v a n ş i r. Sən öz füsunkar gözəlliyinlə neçə gənci yoldan çıxarmışsan?

R e y h a n. Vəfalı ürəklər yalnız bir dəfə... Yalnız birini sevərlər... Böyük hökmdar...

C a v a n ş i r. Mən Elçinin gözlərini ovub, dilini kəsəcəyəm...

Bu anda Elçin daxil olur.

E l ç i n. Atacan, Qartalın ölümü mənim ürəyimə od saldı.

C a v a n ş i r. Onun ölümünə bais sənsən...

E l ç i n. Bu nə sözdür, atacan... Mən Qartal kimi bir igidin ölümünü istərəmmi?

C a v a n ş i r. Ömrüm uzunu aldığım ölümcül yaraların hamısından bu yara daha müdhiş, daha sağalmazdır... Bu xaini nə üçün qolları bağlı gətirmədiniz?

E l ç i n. Nə üçün hamı mənə düşmən gözü ilə baxır... Bəlkə siz Qartalın ölümünü məndən görürsünüz? Yox... yox, mənim əllərim günahsız insan qanı ilə ləkələnməmişdir...

C a v a n ş i r. Bir qızın ala gözləri üçün sən bütün Ağvanı satdın...

E l ç i n. Mavi göylərə and içirəm ki, mənim məhəbbətim anamın südü qədər saf, atamın namusu qədər təmizdir...

C a v a n ş i r. Cavab ver, Söhrab... Mən onun ürəyindən qopub gələn bu sözlərə "yalandır" deyə bilərəmmi?..

S ö h r a b. Övlad məhəbbəti gözlərinə pərdə çəkmişdir, böyük hökmdar...

E l ç i n. Söhrab...

C a v a n ş i r. Tutaq ki, böhtan deyil... Sən həqiqəti söylə... Dünən gecə Bəhramın sarayında olmuşsanmı?

E l ç i n. O sənin düşmənin idi, ata... Əgər məni bunda təqsirləndirirsənsə, etiraf edirəm... Mən Reyhandan anamın yerini soruşmağa gəlmişdim...

C a v a n ş i r. Gəlmişdin...

E l ç i n. Əgər mənim günahım budursa, Söhrab haqlıdır.

S ö h r a b. Həqiqəti gizlətmə, Elçin... Sən Reyhana demədinmi ki, Ceyran düzündən qartal kimi atlılarımız üstünüzə şığıyıb gəlirlər?

E l ç i n. Doğrudur, demişəm...

C a v a n ş i r. Necə... demişsən?

E l ç i n. Bəli, atacan, məgər bizim cəngavərlərimizin hamısı qartal deyildirmi?

C a v a n ş i r. Amma mənim igid Qartalım da Ceyran düzündən hücuma keçdi. Onu Ceyran düzündə əsir aldılar. Atanın sirrini beləmi gizli saxladın...

E l ç i n. Aman dilim qurusun, atacan, mən öz əlimlə Qartala məzar qazmışam...

C a v a n ş i r. Aydındır... Anasının yerini bilməyə gedən oğul, atasının sirrini düşmənə açmışdır... Artıq buna mənim zərrə qədər şübhəm qalmadı... Aparın bunu: ciyərimin, ürəyimin bu xəstə parçasını kəsib qurdlara, quşlara atın... Mən Qartalın müqəddəs cənazəsi önündə and içdim ki, andına sadiq olmayan cəngavər dünyanın ən namussuz adamıdır.

Z i b e y d ə. Ah... Kor ol gözlərim, gör nələr görürsən. Yox... yox... sən mənim ömür çiçəyimi belə tez xəzana döndərmə, Cavanşir... Mən gecə-gündüz bilməyib oğul böyütmüşəm. Mənim göz yaşımdan qorx, ona toxunma. Onun gül kimi təmiz dodaqlarından yalan söz çıxmaz...

C a v a n ş i r. Yüzlərcə Ağvan igidlərinin qanına bais olan, atasını, anasını, doğma yurdunu bir qızın ala gözlərinə qurban edən oğuldan mən üz döndərirəm. Sən də öz südünü ona haram et, Zibeydə... O xain balanı lənətlə. Aparın hamıya bildirin ki, Cavanşir özü belə Ağvana xain çıxarsa, ölümdən yaxa qurtara bilməyəcəkdir.

R e y h a n. Onun heç bir günahı yoxdur. Əgər ölümdən həzz almaq istəyirsənsə, onun yerinə məni öldür. Qoy bütün el-oba şahid olsun ki, mən Elçinin məhəbbəti üçün ölümdən qorxmuram...

C a v a n ş i r. Aparın...

R e y h a n. Ana nəvazişi qədər təmiz məhəbbətimizə and içirəm ki, Elçin mənə heç bir sirri deməmişdir... Daşürəkli ata... O qana boyanmış əllərinlə günahsız oğlunun ölümünə fərman yazma.

Q ı l ı n c. Böyük sərkərdə, Girdman qılıncının günahsız qana boyanmasına razı olmayın... Elçin hələ gəncdir... Onun səhvini əfv edin...

C a v a n ş i r. Bu yalvarışlar mənim iradəmi sarsıda bilməz. Mənim ürəyim xəyanət üçün döyünməyəcəkdir... Aparın...

E l ç i n. Atacan, görünür mənim taleyim belə imiş. Əgər anamız Odlar Yurdu bu ölümdən xeyir görəcəksə, qoy o qılınclar mənim sövdalı başımı bədənimdən ayırsın... Lakin yadında saxla, ata... Mənim günahsız olduğum gec-tez aydınlaşacaq. O zaman anam Zibeydə xatuna, sevgilim Reyhanın qanlı göz yaşlarına polad ürəkli atam dözməyəcəkdir...

C a v a n ş i r. Mən onunla vidalaşdım...

Z i b e y d ə. Dayanın, onu yox, məni öldürün, mənəm günahkar. Əgər Elçin xaindirsə, günah mənim südümdədir.

C a v a n ş i r. Nə üçün dayandınız, aparın...

Z i b e y d ə. Cəllad ata, sən nə üçün ananı sağ saxlayırsan?

C a v a n ş i r. Niyə dayandınız?

Z i b e y d ə. Ah... Aman...

C a v a n ş i r. Aparın...

R e y h a n. Ah...

H a m ı. Hökmdar... hökmdar... hökmdar...

PƏRDƏ

## ON ALTINCI ŞƏKİL

Cavanşirin sarayı.

C a v a n ş i r. Ah, Elçin... Elçin... Bir günün bir il qədər ağır keçir. Oğlum, daha mən nə üçün yaşayıram, nə üçün?

Elçinin xəyalı görünür.

Bu sənsən, atandan intiqam almağa gəlmişsən, haqqın var. Gəl öldür məni, mən özüm də yaşamaqda bir məna görmürəm...

E l ç i n. Yadında saxla, atacan... Mənim günahsız olduğum gec-tez aydınlaşacaq...

C a v a n ş i r. Ey məşum xəyal, hanı sənin qılıncın? Gəl yar sinəmi, qəlbimi qopart, qurdlara, quşlara at. Nə üçün dayanmışsan?

E l ç i n. Ah, ata... Görünür mənim taleyim belə imiş...

C a v a n ş i r. Ah, oğlum... (*Üzü üstə yıxılır.*)

S a r a n (*gəlir*). Böyük iğtişaş qalxdı, hökmdar... Şəhər əhli cəngavərlərə qarışdı. Dost düşmənlə əlbir olub üstümüzə yeridi. Hamısının da narazılığı səndəndir.

C a v a n ş i r. Məndən? Bu nə sözdür, qoca? Dünən hamı bizi təntənə ilə qarşılamadımı?..

S a r a n. Dünən başqa, bu gün başqa... Böyük hökmdar... dünən onlar sənin ədalətini görürdülər, bu gün isə...

C a v a n ş i r. Bu gün nə?

S a r a n. Mən onların sözünü dilimə gətirməkdən belə qorxuram...

C a v a n ş i r. Söylə, qoca, neçə vaxtdır ki, mən acı xəbərlər eşitməyə adət etmişəm...

S a r a n. Deyirlər ki, ac qaldıq, susuz qaldıq, düşmənlə vuruşmada heç nəyimizi əsirgəmədik. Amma Cavanşir bizi nahaq qırğına verdi.

C a v a n ş i r. Nahaq qırğına?

S a r a n. Bir də deyirlər ki, o, əsil xaini gizlədib, günahsız oğlunu ölümə göndərdi...

C a v a n ş i r. Əsil xain kimdir?

S a r a n. Əsil xain?

Bu anda yenə də Elçinin xəyalı görünür.

C a v a n ş i r. Yenə odur...

S a r a n. Kim, hökmdar?

C a v a n ş i r. Elçin...

E l ç i n. Gördünmü, ata... Vəfalı ürəklər yalnız bir dəfə, yalnız birini sevə bilər...

C a v a n ş i r. Getmə, oğlum, getmə dayan...

S a r a n. Hökmdar, özünü ələ al... Qara xəyallardan əl çək...

R e y h a n. Elçini hara apardılar? Yox... yox, o qayıdacaq. O heç bir yana getmədi. Hər səhər, hər axşam mənimlə görüşməyə gələcək...

S a r a n. Qızım, Reyhan, artıq o yoxdur... Amansız ölüm onu bizdən ayırdı... Xainlər onu Ağvana çox gördülər...

R e y h a n. O yoxdur? Bax, o buradadır... Ölümə gedən yalnız onun xəyalı idi. Əsil Elçin mənim ürəyimdədir. Əlindəki bu qan nədir? Bilirəm Elçinin qanıdır... Bir-birinə qovuşmaq istəyən iki ürəkdən biri susdu. Mənim ürəyim isə hələ də döyünür... Nə üçün? Qoy o da sussun... (*Xəncərlə özünü vurur.*)

C a v a n ş i r. Qızım, sən nə etdin, nə? Yoxsa mənim iztirablarım azlıq edirdi...

R e y h a n. Sən mənə qızım dedin? Ata, Elçin günahkar deyildi. Elçinin məhəbbətinə, ulu göylərin qüdsiyyətinə and içirəm ki, əsil xain sənin vəzirin Söhrab idi.

C a v a n ş i r. Ah, qızım, artıq ölüm ruzigarı əsdi. Mənim ömür gülüstanımı xəzana döndərdi. Nə üçün sən bunu mənə vaxtında demədin...

R e y h a n. Bunu mənə atamın cəngavəri Polad yalnız indicə söylədi. Sənin sirlərini atama bildirən Söhrabdır. O xaindir...

Söhrab təngnəfəs halda özünü içəri salır.

S ö h r a b. Böyük hökmdar, ordu başçınız Qılınc sizə qarşı üsyan edərək buraya hücum çəkir. Gizlənin.

C a v a n ş i r. Reyhanın o məsum dodaqlarından çıxan sözləri eşitdinmi?

S ö h r a b (*qılınca sarılaraq*). Demək, belə...

C a v a n ş i r. At yerə qılıncı... Sənin dilini dibindən kəsdirəcəyəm...

S ö h r a b. Bilirəm... Qoca köpək, ayağımın altından sən quyu qazmışsan... Vaxtında səni öldürsəydim...

Cavanşir onu öldürür.

S a r a n. Hamıya quyu qazan sən oldun, xain... Qazdığın quyuya axırda özün düşdün... Günah məndədir... Günahkar mən qocayam, mən səni vaxtında inandıra bilmədim. Məni bağışla... (*Bayırda izdiham.*)

Q ı l ı n c. Biz ədalət istəyirik. Yüzlərcə igidin günahsız qanına bais olmuş xainə ölüm...

S ə s l ə r. Ölüm...

Q ı l ı n c. Kəndləri, obaları xarabaya çevirən, aclıq, fəlakət törədən satqına ölüm...

C a v a n ş i r (*qılıncını yerə ataraq*). Gəlin, nə üçün dayandınız? Gəlin öldürün. Mənəm günahkar...

F ə r i d. Böyük hökmdar, qılınca sarınan bu nankorların qiyamı odla, alovla söndürülməlidir.

C a v a n ş i r. Yox, Fərid, yox, mən bütün ömrüm boyu elin iradəsinə qarşı durmamışam. İndi də ona qılınc qaldırmaram. Daha mənim taleyimin gözləri qapandı... İndi ətrafımdakı bu böyük dağlarda, dərələrdə, göylərdə parıldayan o günəş – hər şey, hər şey gözlərimin önündə zülmət kimi qaraldı. (*Qılıncını yerdən götürür.*) Bax, bu da mənim odlu qılıncım. Bir zamanlar o şər qüvvələri biçib tökərdi. O vaxt mənim arxamda bütün Ağvan dayanmışdı, qollarımda bütün

ölkənin qüvvəti vardı. Lakin indi. Yox, indi mən gücsüzəm. Bir uşaqdan belə gücsüzəm. Babalardan bizə miras qalmış gözəl bir misal var. Ağac əyiləndə sınar, igid utananda ölər. Mən utanmamaq üçün ölümü intixab edirəm. (*Öz qılıncı ilə özünü vurur.*)

Q ı l ı n c. Ağvanın müqəddəs torpağına and içirəm ki, mən böyük sərkərdəyə əl qaldırmaq fikrində deyildim. Mən yalnız onun ədalətsiz hökmünə etiraz səsimi ucaltmaq, əsil xainin ölümünü tələb etmək istəyirdim. Qoy bütün el-oba bilsin ki, mən Cavanşirin önündə ehtiramla baş əyib, göz yaşlarımla yazdığım bu qəmli dastanımı ona ithaf edirəm...

Qorxmaz igid, cəsur aslan,
Qüvvət verdin bizə hər an.
Sənin bu mərd ölümünə
Ağlar könül, ağlar ürək –
Yanan günəş, əsən külək.
Ey insanlar, ey insanlar,
Unutmayın heç bir zaman
Eli üçün qəlbi yanan
Cavanşirin şöhrətini.
Siz də çəkin onun kimi
Yurdunuzun qeyrətini...

Cavanşirin meyitini aparırlar.

P Ə R D Ə

# SABİT RƏHMAN

(1910-1970)

*Mahmudov Sabit Rəhman Kərim oğlu – nasir, dramaturq – 1910-cu il martın 26-da Azərbaycanın Şəki şəhərində tacir ailəsində anadan olmuşdur.*

*S.Rəhman ibtidai təhsilini Şəkidə almış, Bakıda müəllimlər seminariyasını bitirmiş (1926), Şəkidə müəllimliyə başlamışdır. Bakıda Pedaqoji İnstitutda təhsil (1929-1932) almış, "Gənc işçi" qəzetində ədəbi işçi kimi fəaliyyətə başlamışdır (1932-1933). İlk hekayələr kitabı "Pozğun"u (1931) çap etdirmiş, Moskva Kino Akademiyasının ssenari fakültəsində təhsil almış (1936), Bakı kinostudiyasında ssenari şöbəsinin müdiri (1937-1938), Yazıçılar İttifaqının nəsr üzrə məsləhətçi (1938), C.Cabbarlı adına Teatr Muzeyində elmi işçi (1939-1940) işləmişdir.*

*1930-1940-cı illərdə "Arşın mal alan", "O olmasın, bu olsun", "Koroğlu", "Əhməd haradadır" filmlərinin ssenarilərini, "Ulduz" komediyasının, "Yeddi gözəl" baletinin librettosunu, "Toy", "Xoşbəxtlər", "Aşnalar", "Aydınlıq", "Əliqulu evlənir", "Yalan", "Hicran" pyeslərini yazmışdır.*

*Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyətinin, Akademik teatrın, Bakı kinostudiyasının və Azərnəşrin bədii şurasının üzvü, "Ədəbiyyat və incəsənət" qəzetinin, "Kirpi" jurnalının redaksiya heyətinin üzvü seçilmiş, ədəbiyyat və kino sahəsindəki xidmətlərinə görə Azərbaycan SSR Əməkdar incəsənət xadimi fəxri adına və bir çox medallara layiq görülmüşdür.*

## YALAN

*3 pərdəli, 14 şəkilli komediya*

İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| Şəlalə | – gözəl bir qadın |
| Tərlan xanım | – Şəlalənin xalası |
| Umud | – Şəlalənin əri, tikiş fabrikinin müdiri |
| Aslan | – Şəlalənin birinci əri |
| Fərman | – taksi sürücüsü |
| Saleh | – Şəlalənin ikinci əri, fabrikdə plan şöbəsinin müdiri |
| Rəfiqə | – Salehin arvadı, fabrikin işçisi |
| Bilal kişi | – Salehin atası |
| Güllü xala | – Salehin anası |
| Kəklik | – tikiş fabrikində müdirin katibəsi |
| Xumar, Zəki | – tikiş fabrikinin işçiləri |
| Şamil | – müdir müavini |

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Küçə. Aslan gəlib ətrafa diqqətlə baxır, heç kimsənin olmadığını görüb fit çalır, əlində portfel olan Fərman tələsik səhnəyə çıxır.

F ə r m a n. Buyur, şef!

A s l a n. Tez ol, danış.

F ə r m a n. İzinə düşmüşəm.

A s l a n. Ətraflı.

F ə r m a n. Tapmışam, qarabaqara izləyirəm. Bir-iki günə əli-qolu bağlı gətirəcəyəm qulluğuna.

A s l a n. Yenə yalan?

F ə r m a n. Yalan həyatımızın bəzəyidir.

A s l a n. Kəs səsini, nəyə lazımdır o həyat ki, bəzəyi yalan ola?

F ə r m a n. Nə danışırsan, şef, yalansız ayaq atmaq mümkün deyil. Yalan daş-qaş içində parıldayan gözəl qadın kimidir.

A s l a n. O cür qadına yaxınlaşıb görürsən ki, gözəlliyi də, əynində parıldayan daş-qaşı da saxtadır. Mənə bəzəkli söz lazım deyil. Düz danış, çılpaq.

F ə r m a n. Soyunub danışım?

A s l a n. Fərman, bu saat sənin ciyərini çıxardıb qoyaram cibimə, xəbərin olmaz. Ələ salırsan? Bilmirsən, mənimçün hər gün, hər saat qiymətlidir? Uzatma, de görüm, tapmısanmı, ünvanını öyrənmisənmi?

F ə r m a n. Öyrənmişəm deyəndə...

A s l a n. Yalansız.

F ə r m a n. Yalansız danışa bilmirəm, axı. (*Aslan əsəbi halda dönüb getmək istədikdə onu saxlayır.*) Yaxşı, indi ki düzünü istəyirsən, deyim, heç nə öyrənə bilməmişəm. Neyləyim? Yalnız adını mənə demisən, Saleh...

A s l a n. Bəli. Saleh... Bu ad neçə ildir məni yuxuya həsrət qoyub, bu ad...

F ə r m a n (*onun sözünü kəsir*). Bu adda o qədər adam var ki... Familiyasını bilsəydim...

A s l a n. Familiyasını bilsəydim, özüm məlumat bürosundan öyrənərdim. İtil gözümdən, yenə hirsim başladı tvist oynamağa. Gecə-gündüz işləyib, üç illik dustaqlıq vaxtımı iki ilə saldırmışam. Bilirsən nə üçün?

F ə r m a n. Niyə bilmirəm? İntiqam üçün.

A s l a n. Neçə yerə işə göndərdilər, getməyib bura, bu şəhərə gəlmişəm. Nə üçün?

F ə r m a n. İntiqam üçün.

A s l a n (*onu yamsılayır*). İntiqam üçün... Sənə ümid olsam, intiqam ürəyimdə bir yara kimi qalar. Hələ adını dost qoymusan, mənə şef deyirsən?

F ə r m a n. Dostluğuma şübhə eləyirsən? Bax, bu başımı kəs apar, bir kəlmə söz demərəm.

A s l a n. Nəyimə lazımdır? Öz başımı bədənimdə saxlaya bilmirəm.

F ə r m a n. Şef, and içirəm...

A s l a n. Kəs səsini! Bunun görkəminə bax! Portfel nədir gəzdirirsən?

F ə r m a n. Heç...

A s l a n. Necə heç? Cavab ver!

F ə r m a n. Evlənmək istəyirəm.

A s l a n. Evlənmək istəyənlər portfel ilə gəzirlər? Təzə çıxıb?

F ə r m a n. Bu portfeldə bir qızın şəkli var. Tez-tez çıxardıb baxmasam, pedalı basa bilmirəm.

A s l a n. Kimdir?

F ə r m a n. Ahudur, quzudur, oynaq keçi balasıdır.

A s l a n. Heyvanatı başımıza yığma. Yaxşı tanıyırsan, ya uzaqdan görmüsən?

F ə r m a n. Bizim qonşuluğumuzda yaşayırdı. Ordan tanıyıram. İşgüzardır, sədaqətlidir, möhkəm qızdır. Taksi şoferinin də arvadı gərək möhkəm olsun, yoxsa arxayın rulun dalında otura bilməz.

A s l a n. Adı nədir?

F ə r m a n. Xumar. Tikiş fabrikində işləyir.

A s l a n. Dərzidir?

F ə r m a n. Yox, katibədir. Boş vaxtım olan kimi avtomatdan ona zəng eləyib danışığına qulaq asıram, dinmirəm, çünki səsimi eşidən kimi dəstəyi asır.

A s l a n. Sevdiyini bilmir?

F ə r m a n. Niyə bilmir? Yüz dəfə demişəm. Amma şofer olduğumdan xəbəri yoxdur. Özümü vurmuşam elm cəbhəsinə. Çünki indiki qızların alimlərdən xoşları gəlir, maaşları çoxdur. Bir gün dedim ki, səni sevirəm, özüm də ali məktəbdə işləyirəm. Üzümə

baxmaq istəmədi. Sonra dedim ki, özümü müdafiə elədim, məni namizəd təyin elədilər, hirsləndi, qədeş canı, professorluğa qədər çıxacaqdım, heyif ki, daha ağzımı açmağa qoymur.

A s l a n. Ağıllı qız imiş. Yaxşı, de görüm, yağlamısan?

F ə r m a n. Özünün başı ətlidir.

A s l a n. Sığallamısan?

F ə r m a n. Yox, saçı əlimə keçir ki, sığallayım?

A s l a n. Bəlkə bıçaq göstərəsən?

F ə r m a n. Bıçaqlıq qız deyil. Şəklinə bax, gör bu cür gözəli qorxuzmaq rəvadır? Budur, portfeldədir. (*Portfeli açır, təəccüblə baxır, bir dəstə kağız çıxardıb vərəqləyir.*) Bu nədir?

A s l a n. Nədir ki?

F ə r m a n. Peysa.

A s l a n. Peysa nədir?

F ə r m a n. Teatrda oynayırlar, ey... ondan.

A s l a n. Səndə peysa nə gəzir?

F ə r m a n. Mən nə bilim? Portfelim yəqin bir dramaturqun portfelilə dolaşıq düşüb. Xumarın şəklinin əvəzinə peysa, adı da "Yalan".

A s l a n. Ver görüm. (*Pyesi alıb baxır.*) Eşq, məhəbbət – yalan. Dostluq, sədaqət – yalan. Pyesa yazırlar, o da yalan? Adam bilmir, hara qaçıb yalandan yaxasını qurtarsın. (*Cırmaq istəyir.*)

F ə r m a n. Cırma, ver mənə. Yalan həmişə lazım olan şeydir. (*Pyesi alır.*)

A s l a n. Əksinə, yalan pis yoldaş kimidir, adamı həmişə pis yola aparır. Əgər eşq axtarırsansa, heç vaxt yanında yalan gəzdirmə.

F ə r m a n. Elə demə. Mənim kimisi aldatmasa, evlənə bilməz.

A s l a n. Mənim təcrübəm var, başa düş, eşq ilə yalan bir-birini məhv eləyir. At onu!

F ə r m a n. At deyirsən, atım da... (*Təəssüflə kağızlara baxır, birdən çığırır.*) Şef!

A s l a n. Nə var, ədə, nə çığırırsan?

F ə r m a n. Burada həm eşqdən yazılıb, həm də yalandan.

A s l a n. Mənə intiqam lazımdır.

F ə r m a n. O da var.

A s l a n. Ver baxım.

F ə r m a n. Bura göz qabağıdır, gedək, oturaq bir tərəfdə, oxuyaq, maraqlıdır. (*Gedirlər.*)

## İKİNCİ ŞƏKİL

Tikiş fabrikinin qabağındakı bağça. Kəklik səhnəyə çıxıb çağırır.

K ə k l i k. Xumar! Xumar! Xumar!

Xumar küçə tərəfdən qaça-qaça gəlir.

X u m a r. Nə var, Kəklik?!

K ə k l i k. O tərəfdən niyə gəlirsən, hara getmişdin?

X u m a r. Sus, yavaş!..

K ə k l i k. Gizli görüşün vardı?

X u m a r. Yazıq canım, kiminlə görüşəcəyəm? Nişanlım yox, sevgilim yox... Şikayət bürosunu açmışdım.

K ə k l i k. Heç nə başa düşmürəm.

X u m a r. Az, mən bu fabrikdə dönüb olmuşam şikayət bürosu... Kimin dərdi var, gəlib mənə danışır.

K ə k l i k. Hə, onu deyirsən... İndi kimdən şikayət qəbul eləyirdin?

X u m a r. Müdirin arvadından.

K ə k l i k. Köhnəsindən, ya təzəsindən?

X u m a r. Təzə arvad xoşbəxtdir, mən hələ xoşbəxtlikdən şikayət eləyən görməmişəm. O biri, yazıq, ərini əlindən alıblar, ürəyini mənə açır, kədərini mənimlə bölüşdürür. Hamilədi, bu gün-sabah uşağı olacaq, öz dərdinə qalmaqdan, ərinin dərdinə qalır. Hər gün gəlib məndən soruşur: Umud necədir, yemək yeyirmi, istirahət eləyirmi, evdən gələndə kefsiz görünmür ki? Mən də deyirəm çox dərdlidir, qaşqabağından qar yağır. Peşmandır...

K ə k l i k. Doğrudan elədir?

X u m a r. Yox ey, tərsinə, təzə arvadını görəndə qanadsız uçmaq istəyir.

K ə k l i k. Bəs niyə yazıq arvada yalan danışırsan?

X u m a r. Təsəlli verən, yaralı ürəklərin sağalmasına kömək eləyən yalanı danışmaq olar. Məni niyə çağırırdın?

K ə k l i k. Məşq eləyəcəyik.

X u m a r. İkimiz?

K ə k l i k. Gələrlər... Bircə sən heç yerə getmə... Elə itirsən ki, tapmaq olmur.

X u m a r. Katibəyəm də. Ora qaç, bura qaç, o telefon, bu telefon...

K ə k l i k. Telefonla da şikayət qəbul eləyirsən?

X u m a r. Bəli, elə birinci Zəkinin şikayətini. Kəklik, Kəklik deməkdən məni boğaza yığıb.

K ə k l i k. Zəki elə məni də boğaza yığıb.

X u m a r. Boğaza yığıb, hə? Bura bax, sevirsən sev, sevmirsən, birdəfəlik sözünü de! Yazıq oğlanı qoymusan kosmik fəzada...

K ə k l i k. O barədə danışma, xahiş eləyirəm, qoy Zəki bir aşiq kimi fəzalarda uçsun, amma bir rejissor kimi mənə aktrisalıq öyrətsin. Mən dünyada yalnız səhnəni sevirəm.

X u m a r. Səni də anlamaq olmur. Gah rəssamlıq, gah teatr...

K ə k l i k. Teatr nədir? Canlı rənglərin palitrası. Aktyor rəssam olmalıdır ki, səhnədə cürbəcür lövhələr yaratsın. Mən bir rəssam kimi tamaşaya tərtibat verəcəyəm, bir aktrisa kimi elə oynayacağam, alqış səslərindən salon titrəyəcək.

X u m a r. Pəh, pəh... hələ aktrisa deyilsən, salonu titrədirsən, olandan sonra teatrı dağıdarsan ki...

K ə k l i k. Dağıtmaq lazımdır. Bizim yolumuz yeni teatr yoludur.

Saleh və Rəfiqə içəri girirlər. Saleh birdən belini tutub dayanır.

R ə f i q ə. Qızlar, xoş gördük.

S a l e h. Tez ol, Rəfiqə, o dərmanımı ver.

R ə f i q ə. Hansıdır?

S a l e h. Üstündə yazmışam. “B-A”, yəni böyrüm ağrıyanda. (*Rəfiqənin verdiyi həbi udur.*)

X u m a r. Nə olub, Saleh əmi?

S a l e h. Sol böyrümün sancısı tutub.

K ə k l i k. Bəlkə “Təcili yardım” çağıraq?

S a l e h. Lazım deyil, elə mən özüm yarım həkiməm. Bu dərman qiyamət dərmandır, keçdi. Hə, qızlar, indi salaməleyküm, bir deyin görək, Zəki bizi bura niyə çağırıb?

X u m a r. Rol oynamaqdan ötrü.

S a l e h. Onsuz da mən bir plan şöbəsi kimi fabrikin həyatında mühüm rol oynayıram.

K ə k l i k. Həyatda yox, səhnədə.

S a l e h. Deməli, Rəfiqə, axırımız gəlib artistlikdə dayandı?

K ə k l i k. Rəfiqə xala bizim xalq teatrının ən aktiv üzvüdür.

S a l e h. Oynayıb?

X u m a r. O qədər...

S a l e h. Məni aldadıblar, ay camaat, bu yaşımda gəlib artiska ilə evlənmişəm. Rəfiqə, bəs niyə mənə bu barədə bir söz deməmisən?

R ə f i q ə. Dərmanların əlindən macal tapmışam ki?

S a l e h. Hirs vurdu başıma, ürəyim sancdı. Rəfiqə, tez ol, oradan dərman ver. Üstündə "H-T" yazmışam.

R ə f i q ə. "H-T" nədir?

S a l e h. Yəni hirsim tutanda.

K ə k l i k (*Xumarın qulağına*). Bu cür xəstə adam bizim tamaşada oynaya bilər?

X u m a r. Xəstə-zad deyil, yalandan arvadına əzilir. Saleh əmi, heç səhnəyə çıxmısınız?

S a l e h. Mən həyatda elə səhnələr görmüşəm ki, teatr onun yanında muştuluqdur.

K ə k l i k. Görmüsünüz, ya iştirak eləmisiniz?

S a l e h. Baş rolu oynamışam.

Zəki içəri girir. O, çox gəncdir, ancaq özünü təcrübəli rejissor kimi göstərməyə çalışır.

K ə k l i k. Axır ki, gəldin.

Z ə k i. Hamı yığılmayıb?

X u m a r. İş indicə qurtaracaq.

Z ə k i. Hamı yığışsın, gedək zala.

S a l e h. Zəki müəllim, mən də gərək artistlik eləyim?

Z ə k i. Saleh əmi, siz bizim təzə işçimizsiniz, bilmirsiniz, Rəfiqə bacı danışar. Bu fabrikdə teatrı çox sevirlər, bizim teatrımız məşhurdur. Sizinçün bu əsərdə yaxşı rol var.

S a l e h. Bacararam?

R ə f i q ə. Bacarmasan, Zəki Səməndəroviç öyrədər, bilmirsən nə rejissordur. (*Qızlar gülüşürlər.*)

Z ə k i (*qızlara tərs-tərs baxdıqdan sonra*). Bu saat əsərdən bir parça oxuyum, nə rol oynayacağınızı görün... Konstantin Sergeyeviç deyib ki... (*Portfeli açır, bir neçə əzik kağız çıxarıb yerə atır, təəccüblə.*) Bu nədir, bəs, əsər hanı? Deyəsən heç bu portfel mənim deyil... Dəyişik düşüb... yəqin trolleybusda... yanımda biri oturmuşdu, əlində də bu cür portfel...

X u m a r. Üzü yoxdur?!

Z ə k i. Yox, cavan dramaturqdur, makinada yazdırmağa da macal tapmamış, əlyazmasını mənə vermişdi. Bəs necə olsun? Dayan, dayan, əlimə bir şey dəyir. (*Portfeli axtarır, bir böyük şəkil çıxardır.*) Şəkildir... Xumarın şəkli...

X u m a r. Mənim şəklim?

Z ə k i. Budur, bax!

X u m a r. Mənim şəklim xalxın portfelində nə gəzir?

K ə k l i k. Sirlərin üstü açılır. Bəs deyirdin, "nişanlım yox, sevgilim yox..."

X u m a r. Mənim heç nədən xəbərim yoxdur.

S a l e h. Bəlkə bu da bir növ teatr priyomudur, hə?

R ə f i q ə. Demək istəyirsən ki, "Yalan"ın itməyi yalandır?

Z ə k i. Təəssüflər ki, həqiqətdir.

S a l e h (*Xumarın şəklini alıb baxır*). Kim isə "Yalan"ı apardı, əvəzində bizə Xumarın şəklini göndərdi ki, yalanla yox, bu cür göyçək qızın sevgisilə məşğul olun.

X u m a r. Şəkli bura verin, Saleh əmi, hamının yanında biabır oldum.

Şəkli Salehin əlindən alır. Utanaraq səhnədən çıxır.

Z ə k i. Dramaturq xəbər tutunca bir çarə eləmək lazımdır.

K ə k l i k. Bütün trolleybusları axtar, milisə xəbər ver.

Z ə k i. Axtararıq, əgər tapmasaq, gərək şəkil-şəkil, pərdə-pərdə mətni yadımıza salıb yazaq.

R ə f i q ə. Bu da bizim məşqimiz.

S a l e h. Bəli, deməli, "Yalan" dönüb oldu yalan. Gedək, uşaqlar, yalandan tamaşa göstərməkdənsə, öz doğru işimizlə məşğul olaq. (*Çıxırlar.*)

## ÜÇÜNCÜ ŞƏKİL

Tikiş fabriki. Umudun kabineti və onun qarşısında katibənin otağı. Umud aramsız zəngi basır. Xumar qaça-qaça gəlir, öz otağından keçib kabinetə girir.

U m u d. Hardasan? Zəng çalmaqdan yoruldum, gəlib çıxmırsan?

X u m a r. Məşğul idim, buyurun.

U m u d. Təcili bir stəkan çay.

X u m a r. Bu saat. Siz o kağızlara qol çəkin, tələsdirirlər.

U m u d. Qol çəkim də... Tələsdirirlər... Hamı tələsir. Elə bil qaça-qaçdır. (*Kağızlarla məşğul olur.*)

Xumar öz otağına keçir, telefonların üçü də birdən zəng çalmağa başlayır.

X u m a r. Əvvəlcə hansına cavab verim? Bəxtəbəxt birini götürəcəyəm. (*Telefonlardan birinin dəstəyini götürür.*) Alo, bəli, burdadır... Bu saat! (*Çay töküb kabinetə aparır.*) Univermağın müdiri sizinlə danışmaq istəyir.

U m u d. Dedin, burdayam?

X u m a r. Əlbəttə, yalan danışmayacağam ki?

U m u d. Vay, vay, batdıq getdik ki. Az, yalansız katibə olar? (*Dəstəyi götürür, çay içə-içə danışır. Xumar qol çəkilmiş kağızları götürüb öz otağına keçir.*) Mənəm, Umud yoldaş... Nə? Geri qaytarırsınız? İxtiyarınız yoxdur. Artikul hansıdır? 95? Gül kimi maldır, satmağı bacarmırsınız, mən neyləyim? Hara istəyirsən de, mən ondan da yuxarıya deyərəm. Xoş gəldin. (*Dəstəyi qoyur.*) Xumar! (*Xumar bu tərəfə keçir.*) Şamili çağır yanıma. Dünyanı bir-birinə qarışdırıb. Aqronomdan da tikiş fabrikinə müdir müavini olar? Bakıda saxlamaq xatirinə nə işə olsun göndərirlər. Çağır, gəlib gözləsin, bu saat qayıdıram. (*Gedir.*)

X u m a r (*zəng eləyir*). Kommutator, Şamili müdir çağırır, tez onun yanına gəlsin. Məşq baş tutmadı. Pyesi oğurlayıblar. Hə, hə, onu de, kaş dramaturqu oğurlayaydılar, pyes qalaydı. (*O biri telefon zəng çalır.*) O biri telefon yazıq-yazıq mələməyə başladı. Qoy götürüm, sakit olsun. Sağ ol. (*Bu dəstəyi asır, o birini götürür.*) Alo, alo! Yenə susur. A yoldaş, işin-gücün qurtarıb? Nəfəsini eşidirəm, ey.

Zəki içəri girir.

Z ə k i. Kimin nəfəsini eşidirsən?

X u m a r. Bir avaranın. Bütün günü zəng eləyir, amma danışmır. (*Dəstəyi acıqla asır.*)

Z ə k i. Portfeldən çıxan şəkil... Sükut içərisində keçən telefon zəngləri... Mənim qulağıma qorxaq bir aşiqin titrək ayaq səsləri gəlir.

X u m a r. Zəki, iş vaxtı kənar söhbətlərlə məşğul olma...

Z ə k i (*yavaşdan*). İçəridədir?

Xumar. Yox, sexə gedib.

Zəki. Onda bəs niyə elə rəsmi danışırsan? Nə olub, yenə dağ başını bulud-qar alıb?

Xumar. Əlindən yığmışam. Bir pyesi də saxlaya bilmədin, hələ adını rejissor qoymusan.

Zəki. Cinayət işləri ilə məşğul olan idarəyə zəng eləmişdim. Cavab verdilər ki, pyes oğruları ilə biz məşğul olmuruq, yazıçılar ittifaqına müraciət eləyin. Oraya da heç kəsin işi düşməsin.

Xumar. Sənin ucbatından iynə ilə gor qazmağa başlamışıq.

Zəki. Neyləyim, qəzadır da... Səndən bir xahişim var, Xumar!

Xumar. Şikayət qutusunu açım?

Zəki. Aç, mənim də dərdimi qəbul elə. İşdən çıxanda bir bəhanə ilə Kəkliyi də özünlə götür, sizi yolun ayrıcında gözləyəcəyəm. Sənin yanında onunla qəti danışmaq istəyirəm.

Xumar. Yoldaş rejissor, mizanı düz qurmursan. Məhəbbət söhbətində şahid iştirak eləməməlidir.

Zəki. Kəkliklə şahidsiz danışmaq olmur.

Xumar. Yəqin ürəyinin tellərini dilləndirə bilmirsən.

Zəki. Bilmirəm. Acizəm. Sevgi dilimi bağlayıb.

Xumar. Yalvarırsan, zavallı?!

Zəki. Rəhm elə, ey mərhəmət göyərçini!

Şamil içəri girir.

Şamil. Yenə nə həngamədir?

Zəki. Məşq eləyirik.

Şamil. Bizim bu kolxozun işi başdan-ayağa teatrdır... (*Kabinetə keçir.*)

Xumar. Fabrikə həmişə kolxoz deyir.

Zəki. Kəkliklə gəlməyi unutma, sizi gözləyəcəyəm. (*Xumar ona dilini çıxardır.*) Sizinlə ciddi danışmaq olmur ki... (*Gedir, Umud kabinetinə qayıdır.*)

Şamil (*Umuda*). Məni nə üçün çağırmısan?

Umud. Univermaqdan xəbərin yoxdur?

Şamil. Yox, nə olub?

Umud. Qan su yerinə axır.

Şamil. Vuruşurlar? Nə üstə?

Umud. Bizim kostyumlarımızın üstündə baş yarılır.

Ş a m i l. Hə, gördün fəaliyyətimizi?

U m u d. Gördüm. (*Zəngi basır. Xumar gəlir.*) Get katibəyə de, mənim müavinim Şamilə şiddətli töhmət yazsın. (*Xumar gedir.*)

Ş a m i l. Mənə töhmət? Bilmək olarmı, nə üçün?

U m u d. Böyük fəaliyyət göstərdiyin üçün.

Ş a m i l. Sağ ol əvəzinə?

U m u d. Bilirsən univermaqda dava-dalaş nə üçündür? Sən tikdirdiyin kostyumları almaq üçün yox, geri qaytarmaq üçün, şikayət dəftərinə yazmaq üçün. Bütün şəhərdə biabır olmuşuq, onunçun sənə "sağ ol" deyək?

Ş a m i l. Bura bax, Umud yoldaş, mənim üstümə yıxma, özün qol çəkmisən, rəsmi olaraq məsulsan. Töhməti də özünə yaz.

U m u d. Boş qazanı dolu qazana vurma, sınar. (*Zəngi basır, içəri girən Xumara.*) Baş mühəndisi bura çağır.

X u m a r. Xəstədir.

U m u d. Müavinini çağır.

X u m a r. Futbola gedib.

U m u d. Sex müdirini çağır.

X u m a r. Raykoma iclasa gedib.

Ş a m i l. Əcəb kolxozumuz var.

U m u d. Plan şöbəsindəki Saleh hardadır? Bəlkə o da yoxdur, kosmosa uçub?

X u m a r. Xeyr, hələlik işdədir, çağırım?

U m u d. Denən, doxsan beşinci artikulun materiallarını gətirsin.

X u m a r. Baş üstə. (*Çıxır.*)

Ş a m i l. Qanını qaraltma, akt bağla, ver traktorun ağzına, təzədən şumlasınlar.

U m u d. Bura səninçün kolxoz deyil, qoyunçuluq ferması deyil. Siz orada kababı yeyib, canavarın ayağına yazmağa adət eləmisiniz. Amma burada hər balaca brak üçün bizim özümüzdən akt bağlayırlar.

Ş a m i l. Cavabdeh sənsən, mənə nə! (*Saleh içəri girir.*)

S a l e h. Mən hazır.

U m u d. Saleh yoldaş, bax o kağızlara, de görüm, axırıncı dəfə satışa göndərdiyimiz kostyumları mən nə vaxt istehsalata buraxmışam?

S a l e h (*kağızları diqqətlə yoxladıqdan sonra*). İstehsalata üç ay bundan qabaq buraxılıb. Amma o vaxt siz burada yox idiniz, müavininiz qol çəkib.

Ş a m i l. Yalan deyirsən.

S a l e h. Yalnız qorxaqlar yalan danışar. Mən qorxaq adam deyiləm. Bu naryad, bu da sizin qolunuz.

U m u d. Buna nə deyirsən?

Ş a m i l. Yadıma gəlmir. Lap tutaq ki, qol çəkmişəm, məhkəmə qurmusan, iş verəcəksən?

U m u d. Əvvəlcə şiddətli töhmət verəcəyəm, sonra da işdən çıxardacağam.

Ş a m i l. Ver görüm, necə verəcəksən. Sən hələ məni yaxşı tanımamısan. (*Qapını çırpıb gedir.*)

U m u d (*Xumarı çağırır*). Töhmət nə oldu?

X u m a r. Yazır.

U m u d. Bir saat qurdalanacaq. Yaxşısı budur, özüm məşğul olum.

Gedir. Xumarla Saleh danışa-danışa katibənin otağına keçirlər.

S a l e h. Xumar, ordan mənə bir dərman ver.

X u m a r. Nə dərman?

S a l e h. Nə olur olsun, dərman olsun. Qanıqaralıq ki oldu, ürəyim relsdən çıxır.

X u m a r. Dərman yoxdur, konfet var, eybi yoxdur?

S a l e h. Ver gəlsin. (*Xumar ona konfet verir.*) Eh, ay Xumar, mənim ürəyimə bir konfet nə təsir eləyəcək?

X u m a r (*ona yenə konfet verir*). Al, Saleh əmi, birini də.

Rəfiqə içəri girir.

R ə f i q ə (*Salehə*). Nə olub, rəngin ağarıb?

S a l e h. Bir az artıq-əskik danışıq oldu, özümü pis hiss elədim. Dərmanlarım yanındadır?

R ə f i q ə. Yenə dərman? İndi hansını istəyirsən?

S a l e h. Üstündə "M-D" yazmışam. Yəni, müdiriyyətlə dalaşanda.

R ə f i q ə. O dərmandan yoxdur, qurtarıb.

S a l e h. Bu qədər dava-dalaşa dərman davam gətirər?

R ə f i q ə. Dava nə üstündə idi?

S a l e h. Kişi kostyumları brak çıxıb. Onun üstündə.

R ə f i q ə. Bəs onları sərgidə tərifləmişdilər.

S a l e h. Sərgi üçün elə tikirik, min göz gərək tamaşa eləsin. Camaat üçün tikəndə isə gözlər görməsin.

Umud gəlir.

U m u d. Rəfiqə bacı, xoş gördük. Saleh kişi, sən bir plan şöbəsi müdiri kimi gərək baza ilə möhkəm əlaqə saxlayasan. Mal ki pis oldu, çalış mərkəzdən uzağa göndərsinlər, rayona, kəndə. Xumar! Yanıma heç kəsi buraxma. Məşğulam. (*Öz kabinetinə keçir, kağızlarla məşğul olmağa başlayır.*)

R ə f i q ə. Demək, rayondakıları, kənddəkiləri aldatmaq olar, hə?

S a l e h. Hər bir ticarətin içində müəyyən faiz yalan olmalıdır.

R ə f i q ə. Ondansa fabriki qaydasına salın, heç kəsi aldatmayaq. (*Gedir.*)

S a l e h. Salmaq olur ki? Min naçalnikimiz var, bilmirsən hansının sözünə qulaq asasan. (*Getməyə hazırlaşdıqda, Şəlalə içəri girir. Saleh təəccüblə bir tərəfə çəkilir.*)

Ş ə l a l ə (*Xumara*). Göyçək qız, yaxına gəl, səni öpüm.

X u m a r. Necəsiniz, Şəlalə xanım?

Ş ə l a l ə. Lap yaxşıyam. Sənin kimi gözəl qız ərimin qarovulunu çəkir, pis olaram? Umud kabinetindədirmi?

X u m a r. Bəli, amma deyib heç kəsi buraxma.

Ş ə l a l ə. Mən onun ruhuyam, ruhsuz bədən orda neyləyəcək?

Şəlalə kabinetə keçir, ayağının ucunda yaxınlaşıb
Umudun gözlərini tutur.

U m u d. Kimdir? (*Şəlalə cavab vermir.*)

S a l e h (*dili dolaşmış halda*). Bu... bu... kimdir?

X u m a r. Müdirin arvadı.

S a l e h. Konfet!

Xumar ona konfet verir, qolundan tutub səhnədən çıxardır.

U m u d. Kimdir idarədə mənimlə zarafat eləyən?

Ş ə l a l ə. Səni sevən bir qadın. (*Əlini onun gözündən götürür.*)

U m u d. Şəlalə! Sənsən?

Ş ə l a l ə. Mənəm, mənim pişiyim, mənim dovşanım!

U m u d. Yavaş danış, Şəlalə, bura idarədir.

Ş ə l a l ə. Sənin özünə də qurban olum, idarənə də... niyə dilxorsan?

U m u d. Bir az əsəbiləşdim, ona görə...

Ş ə l a l ə. Ay mənim yazıq ərim, burda səni dinc qoymurlar, hə? Çıx bu fabrikdən. Mən sənin bir santimetr əsəbini dünyanın bütün fabriklərinə dəyişmərəm... Kiminlə dalaşmısan?

U m u d. Heç...

Ş ə l a l ə. Şəlalədən söz gizlədirsən?

U m u d. Müavinim ilə sözümüz oldu.

Ş ə l a l ə. Ay onun boynu sınsın, ay onu dünya işığı görməsin. Mənim Umudumu incitmək olar? (*Qapını açır, Xumara.*) Xumar xanım, zəhmət olmasa, o başıbatmışı bura çağırın!

X u m a r. Hansı başıbatmışı deyirsiniz, Şəlalə xanım?

Ş ə l a l ə. Umudun müavinini.

X u m a r. Çağırım, Umud yoldaş?

U m u d. Çağır, çağır, qoy onun mübarək üzünü bizim arvad da görsün.

X u m a r. Baş üstə. (*Gedir.*)

Ş ə l a l ə. Sənin bu katibəndən gözüm su içmir, çox qaş-göz oynadır.

U m u d. Nə danışırsan, Şəlalə, sənə mən xəyanət eləyərəm?

Ş ə l a l ə. Dünyada ailə dağıdan arvadlar o qədərdir ki, bir budaqda oturub min budağı silkələyirlər...

U m u d. Bilirsən səni nə qədər istəyirəm...

Ş ə l a l ə. Məndə olan sevgi heç kəsdə ola bilməz. Mənim qədər heç bir qadın öz ərini istəməyib. Düzdür, səndən qabaq da ərim olub, ancaq toydan iki ay sonra rəhmətə gedib. Sevgi nədir, bilməmişəm. İndi isə bilirəm, sənin bir tükünün üstündə bütün qadınları məhv eləyərəm.

U m u d. Şəlalə, evində sənin kimi qızılı olan gedib kənarda dəmir-dümür axtararmı?

Ş ə l a l ə. Axtarar. Haram ləzzətli olur. Pişik qulağını gətirsin. Şəlaləsi onun qulağından çəkmək istəyir, gətir, gətir. (*Umudun qulağını tutur.*) Bu, gözəl katibə saxladığın üçün... Bu da katibə sənə göz süzdürdüyü üçün...

Şamil içəri girir. Onlar özlərini düzəldirlər.

U m u d. Şəlalə, məni dilxor eləyən budur. Bax, ləzzət çək!

Ş a m i l. Kim kimi dilxor eləyib, mən səni, sən məni?

Ş ə l a l ə. Nə kobud müavinin var, ay Umud? Qadına salam verməyi də bacarmır.

Ş a m i l. Şəlalə xanım, tanış deyilik, ona görə də cürət eləmədim.

U m u d. Tanış ol!

Ş a m i l (*Şəlalə ilə görüşür*). Bağışlayın... Kolxozçu adamıq da.

Şəlalə. Kolxozçunun şəhərdə nə ölümü var, zəhmət çəkib kəndə getsin, pambıq düzəltsin.

Ş a m i l. Pambığı düzəltməzlər, əkərlər.

Ş ə l a l ə. Ək, sözüm yoxdur, amma kolxozda, mənim ərimin başında yox...

U m u d. Nə dedin, Şəlalə, lap ürəyimdən tikan çıxartdın...

Ş ə l a l ə. Kolxozçu qardaş, zəhmət çək, onun əlini sıx, üzr istə.

Ş a m i l. Şəlalə xanım, axı mənim bir təqsirim olmayıb.

Ş ə l a l ə. Onun kimi təmiz, alicənab adamın qarşısında hamı səcdə eləməlidir. Üzr istə!

Ş a m i l (*Umudla görüşür*). Üzr istəyirəm.

U m u d. Qurban olasan, Şəlaləyə...

Ş a m i l. Bəs töhmət? Mən boyda kişiyə töhmət vermək yaxşı deyil.

U m u d. O barədə danışma. Dünya gəlsə, o töhməti dəyişən deyiləm.

Ş ə l a l ə. Töhmət yazmısan? Ver baxım. (*Stolun üstünü axtarır.*)

U m u d. Oraları qarışdırma, Şəlalə!

Ş ə l a l ə. Qorxdun? Bəlkə burda məktub gizlətmisən?

U m u d. Yox ey, məktub hardadır? Demək istəyirəm ki, əmr orada deyil. Katibədədir. Bu saat gətirdim. Xumar! Xumar! Yoxdur, gedim özüm gətirim. (*Çıxır.*)

Ş a m i l. İcazə verin, əlinizdən öpüm.

Ş ə l a l ə. Çəkil o yana... Mən olmasam, bir gün dünyada baş saxlaya bilməzsən.

Ş a m i l. Çox sağ olun. Zəng eləyən kimi özünüzü çatdırdınız.

Ş ə l a l ə. Mən elə qadınam. Bir adamı ki sevdim, özümü odaalova ataram. Amma sən... nəfəsini də yalandan alırsan.

Ş a m i l. Dünən gələ bilmədim. Bir tərəfdən idarə, bir tərəfdən də... Umudun qabağında vicdanım razı olmur...

Ş ə l a l ə. Cəhənnəm olsun Umud da, idarə də, sənin vicdanın da... Mən ki zəng eləyib çağırdım, gərək quş kimi uçub gələsən.

Ş a m i l. O cür səhv bir də təkrar olunmaz. Nə vaxt desəniz, qulluğunuzda hazıram.

Umud əlində kağız gəlir.

Ş ə l a l ə (*pıçıltı ilə*). Mənim zəngimi gözlə.

U m u d. Bir də oxudum, əmri yaxşı yazmışam. Bu cür töhməti o, ömründə görməyib.

Ş ə l a l ə. Əgər gizli deyilsə, ver baxım.

U m u d. Gizli niyə olur? Al, oxu! (*Şəlalə əmri alıb oxumadan cırır.*) Neylədin, niyə cırdın?

Ş ə l a l ə. Yazığım gəldi. Görmürsən, qorxudan nə günə düşüb? Yumaq kimi yumulub. (*Şamilə.*) Kolxozçu qardaş, bir də mənim ərimi əsəbiləşdirməyin. Gedə bilərsiniz.

Ş a m i l. Çox sağ olun. (*Çıxır.*)

U m u d. Əmri nahaq cırdın, Şəlalə, bilirsən o, dövlətə nə qədər ziyan vurub?

Ş ə l a l ə. Sən töhmət verməklə ziyan ödənəcək? Nahaqdan özünü işə salma, yuxarılarda adamı olmasaydı, aqronomu fabrikə işə göndərməzdilər. Sataşmağa adam tapmısan?

U m u d. O da düzdür. Sən lap qızıl kimi arvadsan, Şəlalə!

Ş ə l a l ə. Mən olmasam, bir gün bu dünyada baş saxlaya bilməzsən. Elə bilirsən bura təsadüfən gəlmişəm? Zəng eləmişdim, dedilər qanı qaradır. Taksiyə minib özümü çatdırdım. Mən elə qadınam. Bir adamı ki sevdim, özümü oda-alova ataram. Pişik yaxına gəlsin, Şəlaləsi onu sığallamaq istəyir. (*Umudu qucaqlayır.*)

Səhnə qaranlıqlaşır.

## DÖRDÜNCÜ ŞƏKİL

Kiçik bir otaq. Fərman səhnəyə çıxır, fit verir. Aslan gəlir.

A s l a n. Nə var?

F ə r m a n. İndicə gələcəkdir.

A s l a n. Nə yaxşı xəbər gətirmisən. Mən onun sağ tikəsini qulağı boyda eləyəcəyəm.

F ə r m a n. Onun bir damcı qanına mən ürəyimi verməyə hazıram.

A s l a n. Satdın məni, keçdin Salehin tərəfinə?

F ə r m a n. Mən Salehdən yox, Xumardan danışıram. İndicə çıxıb evə gedəcəkdir. Yolu burdandır.

A s l a n. Əşi, mən nə dərddəyəm, sən nə dərddə?

F ə r m a n. Dərdim böyükdür, şef, fikrim yaman qarışıqdır. Müştəri deyir Razinə sür, sürürəm Alatavaya. Xumardan başqa heç nə barəsində fikirləşə bilmirəm.

A s l a n. Axmaq, arvad adamı adamlıqdan çıxardır.

F ə r m a n. O cür arvad adamı adam eləyər.

A s l a n. Sevmir, ayrısını tap. Nə çoxdur saçı kəndçi papağına oxşayan qız.

F ə r m a n. Yox, lap mələk də olsa, istəmirəm. Mənim gözüm bircə ondadır.

A s l a n. Çox istəyirsən?

F ə r m a n. Allaha and içirəm.

A s l a n. Mən Allaha inanmıram.

F ə r m a n. Həzrət Abbas haqqı.

A s l a n. Onda inandım. De görüm, məndən nə istəyirsən, sənin bu məhəbbət oyununda mənim vəzifəm nədir?

F ə r m a n. Bir az hədə-qorxu gəl, görsün ki, mənim də dalımda duran var.

A s l a n. Yaxşı tapmısan. O cür qızların bir-iki sümüyünü sındıran kimi yumşalıb ipəyə dönürlər.

F ə r m a n. Qurban olum, dilinə nə qədər istəyirsən güc ver, amma əlini vurma. Sən bir tərəfdə dayan, əvvəlcə söz ilə onu başa salım. Gördüm yox, tərslik eləyir, fit verərəm, gələrsən.

A s l a n. Bildim. (*Gedir. Fərman gizlənir.*)

Xumarla Kəklik səhnəyə çıxırlar.

K ə k l i k. Məni bu yollarla hara aparırsan?

X u m a r. Burada səni bir oğlanla tanış eləyəcəyəm. Budur, özü də gəlir.

Zəki gəlir.

K ə k l i k. Zəki!.. Sən bu cür kələk gəlib mənimlə görüşmək istəyirsən? Həyatı səhnəyə çevirmisən, komediya oynayırsan?

Z ə k i. Diqqətlə qulaq as, gör nə deyirəm.

K ə k l i k. Nə deyəcəksən? Köhnə vallar təzədən çalınacaq. Tanış melodiyalar.

Z ə k i. Sən məni yaxşı-yaxşı dinlə!

K ə k l i k. Dinləməmişdən də cavabını verə bilərəm. Bura bax, siz oğlanlar elə güman eləyirsiniz ki, qız yaşa doldumu, gərək ərə gedə, hə? Mən həyatda məqsədimə çatmamış, istədiyimə nail olmamış ailə qurmaq haqqında düşünməyəcəyəm. Bildin?

Z ə k i. Məqsədin, istəyin nədir? Böyük rəssam olmaq?

K ə k l i k. Həm rəssam, həm də aktrisa.

Z ə k i. Lap ol dünyanın ən böyük rəssamı və ən məşhur aktrisası. Yenə də sənə bir ər lazım olacaq, ya yox? Konstantin Sergeyeviç deyib ki...

K ə k l i k. Konstantin Sergeyeviç deyib ki, aktrisa ərə getdi, deməli, onun sənəti öldü.

Z ə k i. Konstantin Sergeyeviç elə söz deməyib. O deyib ki, bir qızın ürəyi daş, hissləri məftil olsa, ondan sənətkar olmaz.

K ə k l i k. Demək, mən canlı insan deyiləm, daşam, məftiləm, hə? Çox sağ ol.

X u m a r. O cür demək istəmir ey...

Z ə k i. Ürəkdə gərək istək və arzudan başqa sevgi də olsun.

K ə k l i k. Zəki, mən səni də, sənin sevgini də rədd eləyirəm. (*Gedir.*)

X u m a r. Qızla danışmağı bacarmırsan. Qaş qayıran yerdə vurub göz çıxartdın.

Z ə k i. Başdan-ayağa həyəcandır, temperamentdir. Elə bununçun mən onu çox istəyirəm də.

X u m a r. Qaç dalınca, könlünü ələ al. Küt.

Z ə k i. Kəklik, bu dünya dağılıb parçalansa da, yenə sən mənim olacaqsan. (*Gedir.*)

Xumar gülərək yoluna davam etmək istədikdə
Fərman onun qabağına çıxır.

F ə r m a n. Salam, qonşu qızı. (*Xumar cavab verməyib getmək istədikdə qabağını saxlayır.*) Niyə həmişə məni görəndə üçüncü skorostla gedirsən?

X u m a r. A Fərman, nə qır-saqqız olub yapışmısan? Keçən səfər mən sənə sözümü dedim də...

F ə r m a n. O söz ki, keçən səfər sən mənə dedin, elə bil başımı kəsib atdın bir tərəfə.

X u m a r. Elə kəsilməli başın var.

F ə r m a n. Lap cəlladsan ki.

X u m a r. Daha mənimlə bu barədə danışma. Eşitdin? Qurtardı.

F ə r m a n. Qurtarmadı. Sabah-birigün professor olacağam. Amma elmi işimi işləyə bilmirəm. Gəlib dayanırsan gözümün qabağında.

X u m a r. Elmi işçiyə bax, professora bax!.. Elə bilirsən, xəbərim yoxdur ki, şofersən, özün də taksidə işləyirsən?

F ə r m a n. Nə olsun ki? Mən şoferliyin professoruyam: bütün şəhərdə birinciyəm. Şofer – ass.

X u m a r. Yaxşı, yaxşı, yoldaş ass! Yol ver, gedim.

F ə r m a n. İndi ki, şoferliyimi bilirsən, onda gəl açıq danışaq.

X u m a r. Heç cürə danışmaq istəmirəm. Yalançı adamın üzünə də baxmaram.

F ə r m a n. Bir də yalan danışsam, dilim lal olsun, müştəri ilə danışa bilməyim.

X u m a r. Bir de görüm, niyə məni biabır eləyirsən, şəklimi niyə böyüdüb portfelində gəzdirirsən, hə?

F ə r m a n. Nə? Şəkil? Ay aman... böhtandır, xəbərim yoxdur. Portfeldə niyə gəzdirirəm, sənin şəklin həmişə mənim ürəyimdədir...

X u m a r. Məni də, şəklimi də ürəyindən birdəfəlik çıxart. Çəkil bu yana, tələsirəm.

F ə r m a n. Sənin kimisini gərək məcbur eləyəsən. Bu saat şefimi çağırım, onda bülbül kimi ötərsən.

Fit çalır. Aslan səhnəyə çıxır.

A s l a n. Hə, bacıqızı, yaxşı düşmüsən tələyə.

X u m a r. Bu kimdir? Siz məndən nə istəyirsiniz?

F ə r m a n. Mən səndən məhəbbət istəyirəm.

X u m a r. Nə?

A s l a n. Məhəbbəti bu istəyir. Şəxsən mən nifrət tərəfdarıyam.

X u m a r. Çəkilin yolumdan.

F ə r m a n. Xumar, mən gözəl danışa bilmirəm, səni o qədər istəyirəm ki, yolunda iyirmi beş ilə uf demərəm. (*Aslana.*) Təsdiq eləsənə!

A s l a n. On iki imam haqqı.

F ə r m a n. Vurulmuşam ey, başa düşürsən, lap çoxdan, qonşu olduğumuz vaxtdan vurulmuşam. Təkəri boşalmış maşın kimi ora-bura valay vururam. Səni cavahirat içində saxlayaram. Özgəsinin bir ayda qazandığını bir gündə gətirərəm. (*Aslana.*) Təsdiq eləsənə!

A s l a n. On iki imam haqqı.

X u m a r. Mənə nə cavahirat lazımdır, nə də pul. Mən səninlə heç danışmaq da istəmirəm.

F ə r m a n. Xumar, yalvarıram.

A s l a n. Eh... Yenə hirsim başladı tvist oynamağa... Bu yana çəkil, ə! Qıznan o cür danışmazlar. (*Xumarın qolundan yapışır.*) Bura bax ey, qənfet qız, bu oğlanı sevirsən sev, sevmirsən, səni elə oğurlayıb apararam ki, özün də harda olduğunu bilməzsən.

X u m a r. Burax qolumu... burax...

F ə r m a n. Çox güc eləmə, xoşaxoşluqla, xoşaxoşluqla.

A s l a n. Xoşaxoşluqla marojna yeyərlər, qız qaçırtmazlar. Daldan yapış, at çiynimə, aradan çıxaq.

X u m a r (*çığırır*). Ay aman, köməyə gəlin.

Zəki dönüb baxanda Fərman qaçır.

Z ə k i. Burax, neyləyirsən, burax?!

A s l a n (*Xumarın əlini buraxır*). Bu kimdir, ə?

F ə r m a n. Qəmişdir.

Z ə k i. Bunlar kimdir, Xumar?

X u m a r. Xuliqan, qolumu sındırmaq istəyirdi.

F ə r m a n. Ağrıdı? Yaylıq verim bağla.

A s l a n. Əməzək arvad. (*Aradan çıxır.*)

X u m a r. Zəki, sən onu möhkəm tut, mən getdim milis çağırmağa. (*Gedir.*)

Z ə k i (*Fərmana*). Yoldaşın getdi, amma səni qaçmağa qoymayacağam.

F ə r m a n. Niyə qaçıram ki? Odur bax, milis gəlir, ay Xumar!..

Zəki dönüb baxanda Fərman qaçır.

Z ə k i. Qaçdı... qaçdı.

Xumar qayıdır.

X u m a r. Milis gəlmədi, dedi postdayam, tutun gətirin yanıma.

Z ə k i. Daha gecdir, getdilər.

X u m a r. Mən onun evini tanıyıram. Qabaqlar bizim qonşumuz olub. Taksi şoferidir, başına oyun açım, o da görsün...

Z ə k i. Sakit oldun?

X u m a r. Elə qorxmuşdum ki...

Z ə k i. Mən elə bilirdim, tanıdığım qızların içində bircə ədalətli, mərhəmətli sənsən. Demə, sən də bir yazığı yandırıb-yaxırsanmış.

X u m a r. Ona yazıq deyirsən? Xuliqanlarla dostluq eləyirsən.

Z ə k i. Sevgi adamı nəyə desən vadar eləyər. Görmürsən nə qədər sevir? Sən də bundan istifadə elə, onu öz hərarətinlə isit, öz səviyyənə çatdır. Sevgi insandakı bütün eyiblərin üstünü örtə bilər. (*Xumar birdən ağlamağa başlayır.*) Bu göz yaşları fərəhdən və sevincdəndir.

Səhnə qaranlıqlaşır.

## BEŞİNCİ ŞƏKİL

Bir küçənin tini. Aslan və Fərman qaçaraq səhnəyə gəlirlər.

A s l a n. Dayan, ada, dayan, daha... tormuzlarım tutmur.

F ə r m a n. Çoxdandır bu cür qaçmamışdım.

A s l a n. Az qala ilişəcəkdik. Mən bura, bu şəhərə təmiz bir məqsədlə gəlmişdim: intiqam. Sən bu intiqamın içinə həm yalan qarışdırdın, həm də eşq.

F ə r m a n. Eşqin belə tikanlı yolları var da...

A s l a n. O quyruq kim idi? Qız səsləyən kimi gəldi?

F ə r m a n. Mənim həmkarımdır.

A s l a n. Şoferdir?

F ə r m a n. Yox, demək istəyirəm ki, o da mənim kökümdədir. Xumarın rəfiqəsinə aşiqdir.

A s l a n. Düşmüşəm bu aşiqlərin içinə, ha çapalayıram, çıxa bilmirəm.

F ə r m a n. Zəmanənin qızları elə tərs olublar ki, oğlanlar bilmirlər başlarına haranın külünü töksünlər. Mənim işim bir az da xarablaşdı. Getmişdim saqqal dalınca, bığı da qoyub gəldim.

A s l a n. Ağlama, sevin.

F ə r m a n. Sevinim ki, işim düzəlmədi?

A s l a n. Sevin ki, istədiyin qız bu qədər möhkəmdir. Qız ki çətinliklə ələ gəldi, çətinliklə də əldən çıxar. Su kimi hər tərəfə axan qız boynuna ordan-burdan o qədər günah yığır ki, axırda şəlaləyə çevrilir. Şəlalə bilirsən nədir?

F ə r m a n. Bu pyesada var. Oxumuşam.

A s l a n. Pyesa... Mənim arvadımın da adı Şəlalə idi, özü də şəlalə kimi idi...

F ə r m a n. Şəlalə?

A s l a n. Yavaş, çığırma, gəlir, gizlənək.
F ə r m a n. Kim?
A s l a n. Mənim keçmiş arvadım Şəlalə. (*Gizlənirlər.*)

Şəlalə səhnəyə gəlir.

Ş ə l a l ə (*öz-özünə*). Kim isə məni çağırdı. (*Ətrafa baxır.*) Heç kəs yoxdur. Bəlkə qulağıma səs düşüb. Niyə bu qədər həyəcanlıyam? Şamil hələ gəlməyib. Onu çox istəyirəm. Umudun ulduzu artıq həm idarədə sönür, həm evdə. Bu isə gəncdir, qüvvətlidir, təzə-təzə parlamağa başlayıb. (*Şamil gəlir.*) Şamil!

Ş a m i l. Mən özümü çatdırdım.

Ş ə l a l ə. Adam da qadını küçədə saxlayar? Qorxudan tir-tir əsirəm. Birdən görən olar.

Ş a m i l. Görüşü burada siz özünüz təyin elədiniz.

Ş ə l a l ə. Mən yox, ürəyim... ürəyim əmr elədi. Təcrübəsizəm, harda görüşərlər, bilmirəm. Həyatımda birinci dəfədir Umuddan başqa bir kişi ilə görüşürəm. Dünən gecə səhərə kimi ağlamışam. Şəlalə – xəyanət?..

Ş a m i l. Şəlalə xanım, hələ ki, ortada bir xəyanət olmayıb. Siz ərinizin yanında ayna kimi təmizsiniz.

Ş ə l a l ə. Bəs bu görüş? Bu görüş mənəvi xəyanət deməkdir. Mənim kimi qadınları yoldan çıxardan yalnız sevgi ola bilər. Əlini ürəyimə qoy, gör necə döyünür.

Ş a m i l. Rənginiz də ağarıb, yəqin çox həyəcanlısınız.

Ş ə l a l ə. Rəngim ağarıb? (*Tez güzgüyə baxır.*) Onsuz da ağam da... (*Şamilin qoluna girir, qulağına nə isə pıçıldamağa başlayır.*)

A s l a n (*yavaşdan*). Onun hər sözü, hər kəlməsi yalandır.

F ə r m a n. Əntiqə arvaddır. Qoy gedim üzünə yaxından baxım.

A s l a n. Ehtiyatlı ol, ilişərsən.

F ə r m a n (*onlara yaxınlaşır*). Yoldaş, kibritin varmı? Papirosumu yandır.

Ş ə l a l ə. Oy, qorxdum... kimsən?

F ə r m a n. Tələbəyəm.

Ş ə l a l ə. Tələbə papiros çəkməz.

F ə r m a n. İki almışam, acığımdan çəkirəm. (*Papirosunu yandırır.*) Bağışla əmioğlu, səni mühüm işdən qoydum... (*Çəkilir.*)

Ş ə l a l ə. Burdan gedək. Nədənsə ürəyim narahatdır. (*Gedirlər.*)

A s l a n. Salehdən bir intiqamımı aldım. Şəlalə onun da başına qazan keçirdir.

F ə r m a n. Mən mat qalmışam, sənin bu cür gözəl arvadın olub, sükanı əlindən vermisən başqasına?

A s l a n. O ilandır, qəşəng, bəzəkli ilan. Zəhərinə də bal qarışıb.

F ə r m a n. Bu pyesada eyni ilə bu cür əhvalat yazılıb.

A s l a n. Heç bir əsərdə bu cür şey yazıla bilməz, ver baxım! Mən bu gün həm sevgi gördüm, həm də xəyanət. Öz həyatım – sevgi ilə başlayıb xəyanətlə qurtaran keçmiş həyatım gəldi dayandı gözümün qabağında.

ALTINCI ŞƏKİL

Səhnə dəyişir, tamaşaçıların gözləri qarşısında Aslanın keçmiş həyatı canlanır; kasıb bir otaq. Sadə geyinmiş Şəlalə köhnə divanın, stulların tozunu silir. Gənc Aslan yavaşdan içəri girir, arxadan Şəlaləyə yaxınlaşır, onu qucaqlayır. Şəlalə nazlanır, birdən onun əlindən qurtulub qaçır. Stolun ətrafında fırlanırlar. Nəhayət, Aslan onu tutur. İkisi də qəhqəhə ilə gülürlər. Bu zaman köhnə dəb ilə geyinmiş bərli-bəzəkli Tərlan xanım içəri girir.

T ə r l a n  x a n ı m. Sevişirsiniz?

Ş ə l a l ə. Xala, buyur, buyur, xoş gəlmisən.

A s l a n. Xoş gəlmisiniz, Tərlan xanım!

T ə r l a n  x a n ı m (*Aslanı diqqətlə süzür*). Hə, məndən razısan? Gör necə qızın pambıq kimi əllərini tapşırmışam sənə?! Bir öp, mənə min dua elə. Bu cür gözəl hər adama qismət olmur. Onu özüm tərbiyə eləyib böyütmüşəm. Bilirsən mən kiməm? Muxtar bəyin qızı Tərlan xanım. Vaxtilə bütün Bakı məni tanıyırdı. Milyoner qızları ilə bir yerdə gimnaziyada oxumuşam. Musa Nağıyevin oğlu məni alacaqdı, heyf ki, rəhmətə getdi. Bir dəfə Mantaşovun qonaqlığında general-qubernator məni valsa dəvət elədi. Bax, beləcə durub ayağa, bir reverans elədim...

Ş ə l a l ə (*Tərlan xanımın danışığından xəcalət çəkir*). Xala, indi yeri deyil.

T ə r l a n  x a n ı m. Qoy kiminlə qohum olduğunu yaxşı bilsin.

A s l a n. Şəlalə mənim urufumdur, ay xala, on iki imam haqqı, ona gözucu baxanın başını qoparıb verərəm qoltuğuna.

T ə r l a n   x a n ı m. Vay, vay, vay. Gəl suvajeri, no!

A s l a n. Nə deyir, az?

Ş ə l a l ə. Fransızca təmiz danışır...

T ə r l a n   x a n ı m (*Aslana tərs-tərs baxır*). Gözucu baxanın başını qopardaram nədir? Mənim bacım qızı sənin evində Nənəxanım xala olacaq? O bir güldür, gülə gərək hamı tamaşa eləsin. Elə ki, mən girirdim məclisə, kavalerlər başlayırdılar qoşun atı kimi ayaqlarını yerə döyməyə. İsrail bəy hamıdan diribaş idi, pələng kimi atılardı üstümə.

Ş ə l a l ə. Xala, dedim ki, yeri deyil...

T ə r l a n   x a n ı m. Qoy, indi də sənin cehizindən danışım.

A s l a n. Mənə cehiz-mehiz lazım deyil.

T ə r l a n   x a n ı m. Sənə lazım deyil, Şəlaləyə lazımdır. (*Əynindəki paltarı göstərir.*) Bax, bu paltarı görürsən? Nimdaş olmağına baxma, on üçüncü ildə dayım Parisdən gətirmişdi. Verəcəyəm Şəlaləyə. Bu da dəvəquşu lələyidir. Bakıda bir məndə var idi, bir də Nobelin arvadında. Bacım qızı üçün keçərəm, təzəgəlindir, taxsın, gəzsin. Bu başımdakı şlyapanı on altıncı ildə madam Lorje özü mənimçün düzəldib. Bir az köhnəlsin, verəcəyəm Şəlaləyə. Canımı da ondan əsirgəmərəm.

A s l a n. İltifatın artıq olsun.

Ş ə l a l ə. Xala, daha bəsdir, danışma.

A s l a n. Mənim Parisdə-marisdə işim yoxdur. Bir su budkam var, o da qurbandır Şəlaləyə...

T ə r l a n   x a n ı m (*Aslanın su köşkündə işlədiyini eşitdikdə diksinir*). Su budkası? Vay, vay, vay... Gəl Stupidite, no!

A s l a n. Nə dedi?

Ş ə l a l ə (*gülərək yalandan tərcümə eləyir*). Deyir, hər gün gəlib pulsuz su içəcəyəm.

A s l a n. Nə vaxt istəsəniz, buyura bilərsiniz. Şərbətli, şərbətsiz, qazlı, qazsız.

T ə r l a n   x a n ı m. Şəlalə, Allah sənə səbir versin, bala! Hələlik yapış bu qazlı su budkasından, görək axırı nə olur? Mən gedirəm, salamat qalın. Adyu! (*Çıxır.*)

Şəlalə onu yola salıb qayıdır. Aslan divanda oturub
Şəlaləni işarə ilə yanına çağırır. Şəlalə getmir.

A s l a n (*darıxmış halda*). Şəlalə!.. Bura gəl!

Ş ə l a l ə. Utandırma məni.

A s l a n. Az, gəl yanıma da... Səni o qədər istəyirəm ki, bu saat əmr eləsən, başımla divarı deşərəm.

Ş ə l a l ə. Çox matah evin var, hələ divarını da deş...

A s l a n. Deşəcəyəm, kirayə ev axtarıram.

Ş ə l a l ə. Elə ev tap ki, içində telefonu da olsun.

A s l a n (*şübhəylə*). Telefonu neyləyirsən?

Ş ə l a l ə. İşdən tez-tez zəng eləyərsən, darıxmaram. Yaxşımı, mənim qəşəng Aslanım!

A s l a n. O şirin dilinə qurban olum. Bilirsən məni nə deyib, çağır?

Ş ə l a l ə. Nə deyim? Adın Aslandır da...

A s l a n. Bu gün yanıma bir kişiylə bir arvad su içməyə gəlmişdi. Arvad kişiyə dedi: "Pişik, hansı sudan istəyirsən, şərbətli, ya qazlı?" Elə xoşuma gəldi ki. Sən də mənə pişik de!

Ş ə l a l ə. A... Arvad da kişiyə pişik deyər?

A s l a n. Öz aramızda nə desən olar. Gəl otur yanımda, ürəyindən nə keçir, de, səninçün alım.

Ş ə l a l ə. Ürəyimdən o qədər şey keçir. Hamısını ala bilməzsən axı.

A s l a n. Alaram. Sənin yolunda iki gözümdən də keçərəm.

Ş ə l a l ə. Allah eləməsin. Gözsüz nəyimə lazımsan? Deyim?

A s l a n. De!

Ş ə l a l ə. Neylon, arlon, didron.

A s l a n. Necə şeylərdir?

Ş ə l a l ə. Əntiqə. Qonşumuzun qızına əri üçündən də almışdı. Tikdirib geydi. Ürəyim getdi.

A s l a n. Ürəyin niyə gedir, az? Ərin ölməyib ki. Cibimdə invalid kitabçam, doqquz b – psixiçeski, hara getsəm, çörəyim var. Nə istəsəm verərlər. Sənin dediklərini dünyanın o başında da olsa, sabah taparam, tikdirib geyərsən, hərlənərsən qabağımda. Yaxşı, gedirəm, budkanı açmağın vaxtıdır.

Ş ə l a l ə (*gülə-gülə*). Pişik!

A s l a n. Can!

Ş ə l a l ə. Gələndə bazarlıq elə.

A s l a n. Baş üstə, gəl üzündən öpüm.

Ş ə l a l ə. Utandırma məni.

Aslan onun saçlarından öpdükdə səhnə qaranlıqlaşır.

## YEDDİNCİ ŞƏKİL

Aslanın xatirəsinin davamı. Yeni otaq, təzə mebel.
Aslan səliqə düzəldir, arabir nəşə ilə zümzümə eləyir.
Tərlan xanım içəri girir.

Aslan. Xoş gəlmisən, ay xala!..

Tərlan xanım. Bonjur!

Aslan. Barjom da, hələ üstəlik Narzan da.

Tərlan xanım. Şəlalə haradadır?

Aslan. Univermağa getdi. Deyirəm ağız, nə deyirsən alım gətirim, ayağına niyə zəhmət verirsən? Razı olmur. Dükanları gəzməyə həvəsi var.

Tərlan xanım. Bu otaq özünüzündür?

Aslan. Hələlik kirayədir. (*Yavaşdan.*) Sonra çırpışdıracağam. Kirayə ki verir, deməli, artıqdır. Artığı da saxlamağa ixtiyarı yoxdur.

Tərlan xanım. Kəs kitudi se ton vol.

Aslan. Nə dedin?

Tərlan xanım. Fransızcadır, sən başa düşməzsən.

Şəlalə gəlir. Əynində yeni paltar. Xarici görkəmi dəyişmişdir.

Şəlalə. Xala, ayağın var olsun. Yaxşı ki, gəlmisən. Görürsən nə mənzilimiz var?

Tərlan xanım. Zövqsüz bəzənib.

Şəlalə. Aslandır da. Dedim mənsiz əl vurma, qulaq asmadı.

Aslan. Nə cür istəyirsən, özün düzəlt. Sənin bir sözünü mən nə vaxt iki eləmişəm?

Şəlalə. Sonra düzəldərəm. Get çay qoy, xala tünd çayı çox sevir.

Aslan. Çayım hazırdır.

Şəlalə. Onda düş aşağı, mağazadan peçenye al. Xala çayı həmişə peçenye ilə içir.

Tərlan xanım. İnək peçenyesi.

Aslan. Gedirəm. (*Qapıdan çıxmaq istəyir.*)

Şəlalə. Pişik!

Aslan (*qayıdır*). Nə deyirsən?

Şəlalə. Pirojna da al.

A s l a n (*yavaşdan Şəlaləyə*). Bəlkə xalanın ürəyi ər istəyir, gələndə birini tapıb gətirim, yaxam onun əlindən qurtulsun.

Ş ə l a l ə. Aslan, mədəniyyətsiz olma. Eşidər, bilirsən neyləyər? Di tez get.

A s l a n. Bax, bu gözlərim üstə. (*Çıxır.*)

T ə r l a n  x a n ı m. Getdi?

Ş ə l a l ə. O saat. Ağzımdan söz çıxmamış yerinə yetirir. Su budkasında bir dəqiqə rahat otura bilmir. Dəqiqədə bir qaçır evə. Məni çox istəyir. Hayıf ki...

T ə r l a n  x a n ı m. Hayıf ki, nə?

Ş ə l a l ə. Hayıf ki, mən onu istəmirəm. Ha çalışıram ürəyimi bağlayım, olmur. Nə bir sözü-söhbəti var, nə bir dostu-aşnası var... Teatra getmir, kino başa düşmür, bircə qısqanmaq bilir, küçəyə niyə çıxdın, univermağa niyə getdin?

T ə r l a n  x a n ı m. Birinci gündən demişəm, o sənin tayın deyil.

Ş ə l a l ə. Özün tanış eləmisən ki.

T ə r l a n  x a n ı m. Nə bilim? Dedilər hökumət qulluğundadır, əli işdədir. Sən də qalmışdın ortada. Su satan olduğu heç ağlıma gəlməzdi.

Ş ə l a l ə. Qismət belə imiş.

T ə r l a n  x a n ı m. Mən qismətə inanmıram. Ömrün boyu bir axmağın qarovulunu çəkməyəcəksən ki? Ərin pisdir, rədd elə getsin! Gör gəlmir ki, xəlvət sözüm var.

Ş ə l a l ə. Yox ey... gələndə ayağının səsi küçədən eşidilir.

T ə r l a n  x a n ı m. Səni bir yaxşı yerdən istəyən var.

Ş ə l a l ə. Ərli arvadı istəyən?

T ə r l a n  x a n ı m. Ərin olduğunu deməmişəm. Buna sənin ərin deməyə düzü dilim gəlmir. Sən beləsinə yox, knyaza layiqsən.

Ş ə l a l ə. Neyləyim? İndi daha knyaz-mnyaz yoxdur.

T ə r l a n  x a n ı m. Bu zəmanənin də öz knyazları var. O vaxtın İsrail bəyi indi dönüb olub İsrail yoldaş. Səni istəyən adam nəçəlnikdir. Bir əli yuxarıdakıların əlindədir, bir əli də kassada...

Ş ə l a l ə. Aslan eşitsə, ikimizi də tikə-tikə doğrayar.

T ə r l a n  x a n ı m. Qələt eləyər, tikə-tikə doğrayar. Bu gözəllik ki səndə var, bir kişidə qalmayacaqsan ki? Saleh yoldaş səni uzaqdan bir dəfə görüb, ölür dərdindən. Deyir onu mənə bir də göstər, dünyanın cavahiratını töküm ayağının altına.

Ş ə l a l ə. Sən məni yoldan çıxardırsan, ay xala!

Tərlan xanım. Mən səni tozlu-palçıqlı yoldan çıxardıb, asfalt yola salmaq istəyirəm.

Şəlalə. Axı mən o İsrail bəyi heç görməmişəm.

Tərlan xanım. İsrail bəy yox ey... O çoxdan ölüb. Saleh yoldaş.

Şəlalə. Cavandır?

Tərlan xanım. Kişinin nə qocası, nə cavanı? Sevgi-mevgi havayı sözdür. Qadın gərək çiçək kimi əldən-ələ gəzsin. Saleh yoldaş ixtiyar sahibidir.

Şəlalə. Harada işləyir?

Tərlan xanım. Az, mənim nəçəlniyimdir də... Əlinin altında inpoşivlər, dərzi artelləri... Daha sənin bu yetimçən kimi qazlı su satan deyil.

Şəlalə. Dəlisovdur ey, qorxuram.

Tərlan xanım. Yalan danışma, qorxub-eləmirsən. At kimi minmisən, sürürsən. Aslanı döndərib pişik eləmisən, görmürəm? Amma bir az pal-paltarını dəyiş, üst-başına fikir ver.

Şəlalə. Yaxşı parça tapa bilmirəm.

Tərlan xanım (*özüylə gətirdiyi parçanı ona göstərir*). Gör nə parçadır?

Şəlalə. Xala, o nədir elə, par-par parıldayır.

Tərlan xanım. Hindistandan gəlib.

Şəlalə. Ver baxım. (*Üstünə ölçür.*) Xala, ürəyim gedəcək.

Tərlan xanım. Ürəyin niyə gedir? Sənə gətirmişəm.

Şəlalə. Hədiyyə?

Tərlan xanım. Keçmiş vaxt olsaydı, İsrail bəy...

Şəlalə (*onun sözünü kəsir*). Uzatma, neçəyədir?

Tərlan xanım. Dördə deyirlər. Mən səndən üç alıram.

Şəlalə. Bizdə o qədər pul haradandır?

Tərlan xanım. Kül onun kişi başına, evdə o qədər pulu da yoxdur?

Şəlalə. Gündəliyi gündə xərcləyirik.

Tərlan xanım. Çünki təcrübəsizsən. On manat xərcləmisənsə, denən iyirmi manat xərcləmişəm. On manatı qatla qoy bir tərəfə. Yığ, xəlvətdən yığ. Kişilərə etibar yoxdur. Evdə gümanın gələn bir şey tapa bilməzsən?

Şəlalə. Üçfaizli istiqraz var.

Tərlan xanım. Gətir bəri, üçfaizli istiqraz da puldur.

Şəlalə (*şkafı axtarır, istiqrazları çıxardır*). Budur, burdadır.

T ə r l a n  x a n ı m. Tez elə, gəlib həyasızlıq salar. (*Alıb gizlədir.*)

Ş ə l a l ə. Orada çoxdur axı.

T ə r l a n  x a n ı m. Artığına bir parça da gətirərəm.

Ş ə l a l ə. Bəs mən ona nə deyim?

T ə r l a n  x a n ı m. Hələlik üstünü vurma. Denən parçanı mənə xalam gətirib, peşkəş. Sonra başa düşəndə, "istiqraz hanı" deyib soruşanda, bax, çiyinlərini bu cür çək, de ki, "sanevu zeenterespa".

Ş ə l a l ə. O nə deyən sözdür?

T ə r l a n  x a n ı m. Yəni yaxşı eləyib xərcləmişəm, sənə nə?

Ş ə l a l ə. Gəlir. (*Tez otururlar.*)

Aslan qoltuğunda şeylər içəri girir.

A s l a n. İnək peçenyesi tapa bilmədim, selyotka aldım.

Ş ə l a l ə. Çay ilə selyotka?

T ə r l a n  x a n ı m. Qara adamdan hər nə desən gözləmək olar.

A s l a n. Araqla necəsən, xala?

T ə r l a n  x a n ı m. İsrail bəy mənə həmişə finşampan təklif eləyərdi.

A s l a n. Əlli il bundan qabaq olsaydı, mən də şimfanpan təklif eləyərdim. Amma indi daha sənin malın araqdır. (*O biri otağa gedir.*)

T ə r l a n  x a n ı m. Mən gedirəm, yoxsa başa düşüb cəncəl çıxardar. (*Gedir. Aslan qayıdır.*)

A s l a n. Bəs xalan nə oldu? (*Şəlalə küsmüş halda dayanır.*) Şəlalə! (*Şəlalə yenə dinmir.*) Xala incidi, getdi hə? Deyəsən məndən küsmüsən? Mən sənin pişiyinəm, adam öz pişiyindən inciməz ki?

Şəlalənin əlindən öpür. Səhnə qaranlıqlaşır.

## SƏKKİZİNCİ ŞƏKİL

Aslanın xatirəsinin davamı. Yenə həmin otaq. Bir az daha bəzəklidir.
Stolun üstündə telefon var. Aslan nə isə axtarır. Telefon zəng çalır.

A s l a n (*dəstəyi götürür*). Gəlirəm də... Denən pulları banka təhvil verməyib, evdə qoyub, bu saat gətirir. (*Dəstəyi yerinə qoyur, şkafları, bufeti axtarmağa başlayır. Saleh içəri girir. Aslan təəccüblə.*) Sənə kim lazımdır?

S a l e h. Şəlalə xanım evdədir?

A s l a n. Bu arvad alverçilərə pul səpməkdən yorulmadı da... Mal gətirmisənsə, lazım deyil.

S a l e h. Mənə Şəlalə xanımın özü lazımdır.

A s l a n. Nəyinə lazımdır?

S a l e h. Bu nədir? Sorğu-sual, filan-behman...

A s l a n. Bura bax, sənə bir kəllə gələrəm ki, pəncərədən düz mastavoya sıçrayarsan.

S a l e h. Sakit. Nəfəsini dərindən al, bir az saxla, sonra çölə çıxaranda başla saymağa: bir, iki, üç, dörd...

A s l a n. Bu nə deyir, ə?..

S a l e h. Şəlalə xanım gələndə deyərsən ki, Saleh gəlmişdi. Yadından çıxmaz ki? Saleh. Ayrı heç bir filan-behman lazım deyil. (*Çıxır.*)

A s l a n (*öz-özünə*). Deyəsən mən doğrudan dəli oluram. (*Telefon zəng çalır, dəstəyi götürür.*) Hə, ədə, a key, dedim onları başa sal, indicə gəlirəm də... Arvad evdə yoxdur. Bilmirəm istiqrazları hara qoyub. (*Dəstəyi asır.*)

Tərlan xanım içəri girir.

T ə r l a n x a n ı m. Bonjur!

A s l a n. Bu saat mənim borjumluq halım yoxdur. Bir bura gəl...

T ə r l a n x a n ı m. Mənimlə o tonda danışma ha. Bilirsən mən kiməm?

A s l a n. Bilirəm, bilirəm... İsrail bəyin aşnası olmusan. Bir gözümün içinə yaxşı bax, de görüm, Saleh kimdir? İndicə bura gəlmişdi, Şəlaləni soruşurdu.

T ə r l a n x a n ı m (*özünü itirir*). Saleh? Bilmirəm. Hə, Saleh... Şəlalənin əmisi oğludur da.

A s l a n. Təzə çıxdı? Bu vaxta kimi bəs hardaydı?

T ə r l a n x a n ı m. Göndərmişdilər... Yəqin təzəcə qayıdıb. Bəs, Şəlalə özü hardadır?

A s l a n. Cəhənnəmdə. On iki imam haqqı, bir gün çıxacağam özümdən.

T ə r l a n x a n ı m. Tu nə vu riyənfər, no!

A s l a n. No, no... sənin üzündən bütün Fransaya nifrət eləməyə başlamışam.

T ə r l a n x a n ı m. Heyf o boyda ölkədən... Bilsələr, özlərini həlak eləyərlər.

Şəlalə içəri girir.

T ə r l a n x a n ı m (*onun qulağına*). Ərin əlindən yığıb. Ehtiyatlı ol.

Ş ə l a l ə. Pişik, nə olub, hirslənmisən, fi-fi?!

A s l a n. Fi-fi nədir, az? Ərinlə danışanda adam kimi danış!

Ş ə l a l ə. Pişik! Tez ol gəl, ayaqqabılarımı çıxart!

A s l a n. Ayaqqabılarını yox, ciyərini çıxardacağam. Ancaq bir az sonra. İndi əlimdə ayrı işim var. De görüm, Saleh kimdir?

Ş ə l a l ə. A... bibim oğlu.

A s l a n. Əmioğlu dönüb oldu bibioğlu?

T ə r l a n x a n ı m. Həm əmisi oğludur, həm də bibisi oğlu. Qohum qohumu alıb da.

A s l a n. Ey, Fransa kralı, sən yum, mən arvadımla danışıram. (*Şəlaləyə.*) Sənin əmin oğlu ilə bibin oğlunu bir-birinə qatıb smes eləyəcəyəm... İstiqrazlar hardadır?

Ş ə l a l ə. Nə?

A s l a n. Üçfaizli istiqraz!

Ş ə l a l ə (*çiyinlərini çəkib deyir*). Sa-ne-vu zeentrespa!

A s l a n. Nə, nə? Sən də başladın firəngcə danışmağa?

Ş ə l a l ə. Yəni, yaxşı eləyib xərcləmişəm, sənə nə?

A s l a n. Xərcləmisən? Mənim maaşım bəs olmuyub? Su budkasının gündəlik gəlirini banka verməyib sənə gətirmişəm, bəs olmuyub? Özüm köhnə ayaqqabıda, yırtıq köynəkdə gəzib sənə gündə üç cürə paltar geyindirmişəm, bəs olmuyub? Təqsir səndə deyil, bax bu ilandadır. (*Tərlan xanımı göstərir.*) Bu ilan səni yoldan çıxartdı.

T ə r l a n . Ey, ey, qadınları təhqir eləmək olmaz.

A s l a n. Birinci gündən sənin, sən ilanın başını əzsəydim... İndi daha gecdir. İndi daha mənim öz başım ələ keçib. Çıx buradan bu saat, səni gözüm görməsin, çıx!

T ə r l a n x a n ı m (*Şəlaləyə*). Az, dur dəlixanaya zəng elə!

Ş ə l a l ə. Xala, get gör Saleh nə oldu? Bibioğlu məndən ötrü darıxıb.

T ə r l a n x a n ı m. Sənə yazığım gəlir, ay bala, bu cür vəhşi ilə yaşamaq olar?

Gedir. Aslan həyəcan içərisində gəzinir. Şəlalə Tərlan xanımı ötürüb qayıdır. Ayağını ayağının üstünə aşırıb divanın üstündə oturur.

A s l a n (*Şəlaləyə yaxınlaşır, pıçıltı ilə*). Budkanı yoxlayırlar, əskiyim var. Başa düşdün?

Ş ə l a l ə. Suyun çatmır, bir vedrə evdən apar...

A s l a n. Su yox, pul çatmır, bilirəm, varındır, ver!

Ş ə l a l ə. Məndə pul hardandır? Gətirdiyini özünə xərcləmişəm. Yediyin yadından çıxıb?

A s l a n. Şəlalə, ağız, səndə ürək yoxdur? Mənə yazığın gəlmir? Dur, dur yığışdır paltarlarını, ayaqqabılarını satmağa aparıram. (*Telefon zəng çalır.*) Telefona cavab vermə, paltarlarını hazırla, onları sakit eləyib, qayıdıram. (*Gedir.*)

Ş ə l a l ə (*dəstəyi götürür*). Allo! Kimdir? Aha, Saleh yoldaş, sizsiniz? Qonşumuzun oğlu gəldiyinizi mənə xəbər verdi... hə, hə... mən sizə demədim? Doqquz bedir də... Dəniz kənarında məni gözləyin, gəlirəm. (*Dəstəyi asır, tez paltarlarını şkafda gizlətməyə başlayır.*)

Tərlan xanım içəri girir.

T ə r l a n  x a n ı m. Neyləyirsən?

Ş ə l a l ə. Dedi ki, paltarlarını aparıb satacağam, gizlədirəm.

T ə r l a n  x a n ı m. Gizlətmə, apardılar.

Ş ə l a l ə. Hara apardılar?

T ə r l a n  x a n ı m. Gedər-gəlməzə. Pul yediyi üçün tutdular.

Ş ə l a l ə. Xala, səni görüm, xoşxəbər olasan.

Sevindiyindən oynamağa başlayanda pərdə düşür.

## İKİNCİ PƏRDƏ

### DOQQUZUNCU ŞƏKİL

Fabrikin qabağındakı bağça. Saleh səhnədən keçib fabrikə tərəf gedir. O gedən kimi Aslan ağacın dalından çıxır, fit çalır. O biri ağacın dalından Fərmanın başı görünür.

A s l a n. Gördün?

F ə r m a n. Gördüm. Fabrikə getdi.

A s l a n. Burada gözləyək, çıxan kimi işini bitirək. Mən onu bilirsən neyləyəcəyəm? Öldürəcəyəm, dirildəcəyəm. Sonra yenə öldürüb, yenə dirildəcəyəm.

F ə r m a n. Lap qurtarmaq istəyirsən?

A s l a n. Lap.

F ə r m a n. Sonra sənin özünü də "lap" eləyərlər, qorxmursan?

A s l a n. Fərqi yoxdur. Mən canımdan keçmişəm.

F ə r m a n. Şef, yazığın gəlsin.

A s l a n. Üz vurma, əl çəkən deyiləm. Ancaq qabaqcadan sənin işini bitirmək istəyirəm.

F ə r m a n. Mənimlə işin olmasın, hələ muradım ürəyimdədir.

A s l a n. Yenə hirsim başladı tvist oynamağa. Nə söz qanmayansan? Sənin məhəbbət məsələn qurtarsaydı, arxayın gedərdim.

F ə r m a n. Sağ ol, mənə ürəyi yanan bircə sənsən. (*Birdən səhnə arxasına baxıb çığırır.*) Gəlir.

A s l a n. Hansı, mənimki?

F ə r m a n. Yox, mənimki. Amma, hayıf tək deyil.

A s l a n. Bir yanda gözləyək, quyruğu qırılsın, sonra mən onunla hesabı çürüdərəm.

F ə r m a n. Şef, mən ölüm, onunla incə rəftar elə. Hirsinə de, bu dəfə tvist oynamasın.

A s l a n. Deyirəm, gəl!

Gizlənirlər. Xumarla Kəklik səhnədən keçib getmək istədikdə Zəki onların qarşısına çıxır.

Z ə k i. Xumar, sənə iki kəlmə sözüm var.

K ə k l i k. Zəki, sən yenə bir bəhanə tapıb gəldin?

Z ə k i. Xumar, mən səninlə tək danışmaq istəyirəm.

K ə k l i k (*küskün*). Çox lazımdır, gedərəm. (*Getmək istəyir.*)

X u m a r. Gizlin sözdür?

Z ə k i. Gizlindir. Təzə pyes tapmışam. Səninlə məsləhətləşmək istəyirəm.

K ə k l i k (*bu sözü eşidib geri qayıdır*). Təzə pyes? Bəs niyə mənimlə məsləhət eləmirsən?

Z ə k i. Xumar, ona de ki, bir adam ki mənim üzümə belə baxmaq istəməyə, mən onunla necə məsləhət eləyə bilərəm?

X u m a r. Özü eşitdi, cavabını versin.

K ə k l i k. Zəki, de görüm, necə pyesdir, mənə rol var?

Z ə k i. Mənim bütün tamaşalarımda baş rol həmişə sənin olacaq.

K ə k l i k. Sən nə yaxşı oğlansan! Gəl gedək! Gəl! Məni evə qədər ötür, danış. (*Gedir.*)

Z ə k i (*Kəkliyin arxasınca getdikdə Xumara*). Mizanı necə qurdum?

X u m a r. Böyük rejissorsan, Zəki Səməndəroviç!

Qəhqəhə ilə gülüb geri döndükdə pusqudan çıxmış Fərman və Aslanla toqquşur.

F ə r m a n. Qonşu qızı, bir dəqiqəliyə ayaq saxla!

A s l a n. Bacıqızı!

X u m a r. Fərman, utanmırsan, yenə buna qoşulub mənim yolumu kəsirsən?

F ə r m a n. Sənin yolunu kəsənin qolunu kəsərəm.

A s l a n. Bizdən qorxma, qənfet qız, biz bura müharibə üçün yox, sülh üçün gəlmişik. Bu yetim (*Fərmanı göstərir*) mənim yetirməmdir, xətrini çox istəyirəm. Bir-iki kəlmə mehriban danışmasan, cavan ömrü puç olub gedəcəkdir. (*Fərmana*) Ada, diz çöksənə.

F ə r m a n. Kişi ölsə də, diz çökməz.

X u m a r. Demək, məndən əl çəkməyəcəksən?

F ə r m a n. Səni bir dəqiqə, bir saniyə yadımdan çıxarda bilmirəm. (*Aslana.*) Təsdiq eləsənə.

A s l a n. On iki imam haqqı.

X u m a r. İndi ki əl çəkmirsən, onda şərtlərimə qulaq as!

A s l a n. Gün çıxdı, buz əriyir.

F ə r m a n. Hamısını qabaqcadan qəbul eləyirəm.

A s l a n (*Fərmana, yavaşdan*). Axmaq, kor-koranə alver eləməzlər ki?

X u m a r. Birinci şərtim: yalan danışma.

A s l a n. Mən də bu şərtin tərəfdarıyam.

F ə r m a n. Heç mən sənə yalan danışaram?

X u m a r. Nə mənə, nə də başqasına. Lap ölümlə üz-üzə də gəlsən, sözün düzünü de.

F ə r m a n. Dayan, bir qədəşlə məsləhətləşim. (*Aslana.*) Bacararam?

A s l a n. Əvvəl-əvvəl çətin olacaq, sonra öyrəşəcəksən. Papirosu tərgitmək kimi bir şeydir.

F ə r m a n. Məhəbbət gör adamı nəyə məcbur eləyir. (*Xumara.*) Razıyam.

X u m a r. İkinci şərtim: taksidən çıx, gəl bizim fabrikdə işə gir. Həmişə gözümün qabağında ol.

A s l a n (*öz-özünə*). İstəyir təkcə özü minsin.

X u m a r. Axşam məktəbinə gir, oxu, azsavadlı adamla mənimki tutmaz.

A s l a n (*öz-özünə*). Şərtlər get-gedə ağırlaşır.

F ə r m a n. Razıyam. Məktəbə yox, lap ölümə də gedərəm.

X u m a r. Geyimini dəyiş. Bu kostyumu at, təlxəklərə oxşayırsan.

A s l a n. Təzə alıb ey. On iki imam haqqı.

F ə r m a n. Sizin fabrikin məhsuludur.

X u m a r. Ömründə bizim fabrikin tikdiyi kostyumu alıb əyninə geymə.

A s l a n. Ağıllı şərtdir.

F ə r m a n. Sən nəyi məsləhət görsən, onu alaram.

Umud gəlir. Onlar tez özlərini düzəldib hörmətlə dayanırlar.

U m u d (*Aslanla Fərmanı diqqətlə süzdükdən sonra*). Xumar, bunlar kimdir?

X u m a r. Yoldaş müdir, bu oğlan bizim fabrikdə işə girmək istəyir. (*Fərmanı göstərir.*)

U m u d (*Fərmana*). Sirkdə işləyirsən?

F ə r m a n. Xeyr, yoldaş müdir.

U m u d. Bəs bu nə paltardır, geymisən?

X u m a r. Bizim məhsulumuzdur.

U m u d. Ola bilməz, dayan baxım. (*Fərmanın kostyumunu diqqətlə yoxlayır.*) Hə, doxsan beşinci artikul.

F ə r m a n. Sizin daimi müştərinizəm.

U m u d. Biz müştərilərimizi tanımırıq, onlardan çox uzağıq. Əgər uzaq olmasaydıq, bu cür zibilləri tikib satmazdıq. Bu kostyumu gətir təhvil ver bizim fabrikə, tapşıraram sənə təzəsini tikərlər. Xərci də yazılsın mənim ayağıma. Mənim kimi müdirə hələ o da azdır. Sənətin nədir?

A s l a n. Şoferdir.

F ə r m a n. Yox, mexanikəm, bütün motorlardan başım çıxır.

U m u d. Xumar, işə götürək, götürməyək?

X u m a r. Siz bilərsiniz, yoldaş Umud.

U m u d. Sən necə, məsləhət görürsən?

X u m a r. Neyləyək, yalvarır da.

U m u d. Bax pis işləsən, Xumara deyəcəyəm, səni işdən çıxartsın. (*Xumara.*) Göndər kadr şöbəsinə əmrini versinlər.

F ə r m a n. Çox sağ olun. (*Xumar onlara işarə edir ki, getsinlər.*)

A s l a n (*Fərmanın qulağına*). Uzağa getmək olmaz, burada olaq. (*Gedirlər, səhnədə Xumarla Umud qalır.*)

X u m a r. Bəs siz evə getmişdiniz, yoldaş Umud, bir də təzədən niyə qayıtdınız?

U m u d. Evə girə bilmədim. Şəlalə bağlayıb gedib.

X u m a r. Hara gedib?

U m u d. Bilmirəm, bu gün idarəyə zəng eləməmişdi?

X u m a r. İki dəfə.

U m u d. Bəs mənə niyə deməmisən?

X u m a r. Sizi yox, müavininizi soruşurdu.

U m u d. Onunla nə işi var?

X u m a r. Bilmirəm.

U m u d. Xumar, nə eləyirsən elə, məni arvadımla görüşdür.

X u m a r. Hansı ilə?

U m u d. Əsil arvadımla. Onun yanında üzüqarayam.

X u m a r. Görüşdürərəm, ancaq indi yox, xəstəxanadan çıxandan sonra.

U m u d. Xəstəxanadadır?

X u m a r. Bu gün səhər gedib.

U m u d. Hansındadır?

X u m a r. Doğum evində.

U m u d (*həyəcanla*). Ürəyimə dammışdı. Bu gün səhərdən narahat idim. Bəs mən neyləyim? Gedim ona gül göndərim? (*Tələsik çıxır.*)

X u m a r (*tək, öz-özünə*). Kişilər nə qədər yüngül olurlar, lap kəpənək kimi. (*Fırlanır, içəri girən Salehlə toqquşur.*)

S a l e h. Xumar, burada neyləyirsən, niyə evə getmirsən?

X u m a r. Gedirəm. Sağ olun, Saleh əmi.

S a l e h. Sağ ol, qızım. (*Hərəsi bir tərəfə gedir.*)

Saleh gedən kimi Aslan və Fərman tez səhnəyə çıxırlar.

A s l a n. Düşmənimi tapdım. Gəl gedək. İntiqam, intiqam...

Salehin arxasınca gedirlər. Səhnə qaranlıqlaşır.

## ONUNCU ŞƏKİL

Salehin evi. Təzə binaların birinci mərtəbəsində mənzil.
Pəncərədən böyük bir prospektin mənzərəsi görünür.
Saleh içəri girir.

S a l e h. Rəfiqə, huy!

Rəfiqə gəlir.

R ə f i q ə. Gəldin? Nə yaxşı plan şöbəsindən qopdun. Bu nədir? Yenə evə iş gətirmisən? (*Onu qucaqlayır, başını sığallayır.*)

S a l e h. Arvad, əvvəlcə çay, sonra sual.

Rəfiqə. Səni görüm çay ağacından yıxılasan. Bir yerin ağrımır ki?

S a l e h. Hələlik səs-səmir yoxdur. Qocalar hardadır?

R ə f i q ə. İndicə yeməklərini yedilər, gəzməyə getməyə hazırlaşırlar.

S a l e h. Stolun bir tərəfini yığışdır, kağız-kuğuza baxacağam. Mühasibatdan götürmüşəm, nəzərdən keçirmək istəyirəm. (*Yavaşdan.*) Məndə bilirsən nə əmələ gəlib? Şübhə, filan-behman...

R ə f i q ə. Nahaq şübhələnirsən. Umud düz adamdır.

S a l e h. O arvad ki, onda var, çətin düz iş apara bilər.

R ə f i q ə. Sən onun arvadını hardan tanıyırsan?

S a l e h. Mən tanımayım, bəs kim tanısın?

R ə f i q ə. Şəlalə?

S a l e h. Aha... Şəlalə olan yerdə mütləq yalan və xəyanət var. Bilirsən, Rəfiqə, bizim bu gözəl, doğruçu dünyamızın içərisində kiçik bir yalan dünyası da yaşayır. Bu yalan dünyasının adamları bizimlə bərabər işləyirlər, yeyirlər, içirlər, gülürlər... Amma hər addımda bizi aldadırlar, qazancı ziyana, yaxşını yamana çevirməyə çalışırlar. Onlar üçün həyat idealı da, sevgi də, sevinc də, şənlik də... hamısı puldur. Bu adamları tanımaq və məhv eləmək lazımdır, eşidirsənmi?

R ə f i q ə. Yaxşı, yaxşı, bir az sakit danışa bilmirsən?

S a l e h. O arvadı görəndən bəri bu fikirlər başımdan çıxmır.

R ə f i q ə. Deyirəm axı, müdirin kabinetinin ətrafında niyə fır-fır fırlanırsan?

S a l e h. Rəfiqə, xahiş eləyirəm, keçmişlə məşğul olmayaq.

R ə f i q ə. Qorxuram, keçmiş özü səninlə məşğul ola.

S a l e h. Geriyə yol yoxdur.

R ə f i q ə. O cür arvadların şirin dillərinin qabağında kişilər mum kimi əriyirlər.

S a l e h. Məni hirsləndirmə, Rəfiqə!

R ə f i q ə. Hirsləndin, hirslənmədin, düz deyirəm.

S a l e h. Vay, vay, yenə tutdu. Rəfiqə, oradan mənə bir dərman ver, üstündə "Q-T" yazmışam.

R ə f i q ə. "Q-T" nədir, yəni qıdığın tutanda?

S a l e h. Yox, quluncum tutanda.

R ə f i q ə. Bizdə elə dərman yoxdur.

S a l e h. Onda gəl ovuşdur.

R ə f i q ə. Mənim gücüm çatmaz. Qaç o arvadının üstünə...

S a l e h. Az, görmürsən tərpənə bilmirəm? Ütünü götür, ütülə.

R ə f i q ə. Uzan görək, uzan. Bu quluncu birdəfəlik müalicə elə.

S a l e h. Hirsləndirdin də. Hirslənən kimi tutur. Ütülə!

R ə f i q ə. Canlı insanı ütüləməyi birinci dəfədir görürəm.

Yaxşı təzə paltar geyinmiş Bilal kişi və Güllü xala içəri girirlər.

G ü l l ü. Neyləyirsən, ay gəlin, paltar ütüləyirsən?

R ə f i q ə. Oğlunuzu ütüləyirəm.

B i l a l. Bu altdakı Salehdir?

R ə f i q ə. Quluncu tutub.

G ü l l ü. Quluncun əlacı moruq mürəbbəsidir, çayla içib yatsın.

B i l a l. Cavanlıqda biz araq sürtərdik, həm çöldən, həm də içəridən.

S a l e h. Daha bəsdir, özü yavaş-yavaş keçər.

R ə f i q ə (*Bilal ilə Güllüyə*). Hə, gedək gəzməyə. Mən sizə bir az yemək götürüm. Hava dəyəndə adamın iştahı açılır. (*O biri otağa keçir.*)

B i l a l. Güllü, yaxşı gəlinimiz var.

G ü l l ü. Maşallah de, gözün dəyər. Saleh gərək bu cür arvadın qədrini bilsin.

B i l a l. Bilər, bilər, cəhənnəmi gözüylə görən adam cənnətin qədrini bilməz?

G ü l l ü. Niyə dinib-danışmırsan, ay bala? A kişi, gəl bunun mövzinə bax, bəlkə, körpəmizin qızdırması var.

S a l e h (*kağızlara baxa-baxa*). Heç nəyim yoxdur. Arxayın gedə bilərsiniz.

Rəfiqə qayıdır.

R ə f i q ə. Biz gedirik. Sən bu kağız-kuğazı qoy qırağa. (*Kağızları onun əlindən alıb şkafa qoyur.*) Bir azca uzan, istirahət elə, mən çörək alıb qayıdıram.

Onlar gedirlər. Saleh divanın üstündə uzanır.
Açıq pəncərədən Aslanın başı görünür, o, yavaşca
otağa düşür. Saleh səs eşidib dik atılır.

S a l e h. Kimdir? Kimdir burda?

A s l a n. Mənəm, tanımadın? Doqquz be, psixiçeski...

S a l e h. Dəli də olsan, gərək başa düşəsən ki, adam otağa pəncərədən yox, qapıdan girər, özü də girməmişdən qabaq icazə istəyər.

A s l a n. Sən də mənim həyatıma qapıdan yox, pəncərədən girdin. Arvadımı da aparanda icazə istəmədin. (*Yavaş-yavaş Salehə yaxınlaşır.*) Üç ildir bunu səninçün saxlamışam. (*Bıçaq çıxardır.*)

S a l e h (*qorxmadan, sakit*). Nəfəsini dərindən al, sonra çıxardanda say, bir-iki-üç-dörd...

A s l a n. Saymağa vaxtım yoxdur, tələsirəm. Bu bıçağın sənə iki kəlmə sözü var.

S a l e h. Buyursun.

A s l a n. Ürəyində nə arzuların var de, axır dəqiqələrindir.

S a l e h. Nə arzum olacaq? Dost-aşnaya məndən salam söyləyərsən. Hə, nə dayandın? Vur!

A s l a n (*öz-özünə*). Bu nə qəribə adamdır, ə?!

S a l e h. Bura bax, qoçaq, vurursan vur, vurmursan bük qoy cibinə, əlini kəsər. Bıçaqla zarafat olmaz.

A s l a n. Deməli, məndən qorxmursan?

S a l e h. Vicdanı təmiz olan adam heç kəsdən qorxmaz.

A s l a n. Sən də vicdandan danışırsan? Bəs özgəsinin arvadını qoltuğuna vurub aparanda vicdanın harada idi?

S a l e h. Arvadı möhkəm saxla, özgəsinə getməsin!..

A s l a n. İndi sən necə, saxlaya bilirsənmi?

S a l e h. Hünəri var, bir adam yaxın gəlsin. Arvad özü onu söz altında öldürər.

A s l a n (*gülür*). Söz altında, ya öpüş altında? Mən sənin arvadını bir kişi ilə qol-qola görmüşəm... xəlvət yerdə... kölgədə.

S a l e h. Öpüş, filan-behman...

A s l a n. Artıqlaması ilə. Hə, rəngin saraldı? Özgə atına minən tez düşər.

S a l e h. Yalan olsa, boğazını əlimdən qurtara bilməzsən. (*Yaxasından yapışır.*)

A s l a n. Hələlik sənin boğazın mənim əlimdədir. (*O da Salehin yaxasından yapışır. Bu zaman qapının zəngi çalınır. Saleh onu buraxıb qapıya tərəf gedir.*) Açma, açma deyirəm sənə. (*Pəncərəyə tərəf qaçır, ordan iki dəfə fit səsi eşidilir.*) Tələyə düşdüm ki.

Saleh qapını açır, Rəfiqə içəri girir.

R ə f i q ə. Qonağın var?

S a l e h. Qonaq deyəndə... Köhnə tanışdır. (*Aslana.*) Bu da mənim arvadım, sözünü üzünə de.

A s l a n (*təəccüblə*). Arvadındır? Arvadın budur? Nə sözüm olacaq, bacı bizə bir stəkan çay versin.

R ə f i q ə. Bu saat gətirim. (*Gedir.*)

S a l e h. Bəs niyə demədin? Qorxdun ki, yalanın çıxar?

A s l a n. Sənin arvadın Şəlalə deyil?

S a l e h. Yox, mən onu aldığım qiymətə də satdım. Sən qol-qola onu görmüsən?

A s l a n. Şəlaləni görmüşəm.

Rəfiqə çay gətirir, onlar susurlar.

R ə f i q ə. Siz məni bağışlayın, yenə getməliyəm. Ancaq tez qayıdacağam. (*Salehə.*) Yoldaşını qoyma getsin ha... Yaxşı naharımız var... (*Çıxır.*)

S a l e h. Hə, arvad getdi, indi vur.

A s l a n. Daha vurmalı olmadım.

S a l e h. Yarımçıq iş görən adamlarla yoxam. Tez ol, məəttəl eləmə, vur.

A s l a n. Vurmuram. İntiqam hədəfini dəyişdim. Biz ikimiz də bir ovçunun gülləsilə yaralanmışıq. Yaralı yaralıya əl qaldırmaz. Səni siyahıdan pozdum. Qaldı bircə Şəlalə xanım.

S a l e h. Bura bax, aşna, bıçaqla intiqam almaq dövrü çoxdan keçib.

A s l a n. Bəs indi nə ilə intiqam alırlar?

S a l e h. İfşa üsulu ilə.

A s l a n. Məsələni iclasa qoyaq?

S a l e h. Yox, iclas nəyə lazımdır? Onun iç üzünü açıb hamıya göstərək, cəmiyyətimizi o cür xəmiri yalanla yoğrulmuş tüfeyli insanlardan xilas eliyək.

A s l a n. Əcəb danışırsan, möhkəm çənən var. Orada da o sözlər yazılıb.

S a l e h. Harda, orda?

A s l a n. Müavinimdəki əsərdə.

S a l e h. Müavinin? Harda işləyirsən?

A s l a n. Heç yerdə işləmirəm.

S a l e h. İşləməyə-işləməyə müavin saxlayırsan? Artıq ştatdır.

A s l a n. Həyatda müavinimdir, maaşsız... Onda bir əsər var.

S a l e h. Müavinin yazıçıdır?

A s l a n. Yox, şoferdir. Ancaq əlinə qəribə bir əsər keçib. Onu oxuyandan sonra çox planım dəyişdi.

S a l e h. Danış görək, mən elə plan şöbəsiyəm.

A s l a n. Danışmaqdansa, əsəri verim, oxu. Bu saat müavinimi çağırım.

S a l e h. Tez qayıt, çaylar soyuyur.

A s l a n. Getmirəm. Elə buradan çağıracağam. (*Fit verir, küçədən cavab fiti eşidilir.*)

S a l e h. Əcəb üsuldur. Bütün idarələrdə tətbiq eləmək lazımdır. Yaxşı ki, səninlə tanış oldum, bu üsulu da öyrəndim.

A s l a n. Bağışla ha. Bir az artıq-əskik danışdım.

S a l e h. Xeyri oldu, kürəyimin ağrısı kəsildi. Həmişə quluncum tutanda səni çağıracağam. Bıçağı götür, gəl üstümə.

A s l a n. Budur, müavinim gəlir.

Fərman pəncərədən düşür.

S a l e h. Deyəsən sizin tərəflərdə qapıdan gedib-gəlmək qayda deyil.

F ə r m a n. Mən hazıram, şef!

A s l a n (*Fərmanı Salehə təqdim eləyir*). Tanış ol, səadət heykəli, ə, yaxın gəl, görüş də. Mədəni olsana...

F ə r m a n. Başa düşdüm. (*Aslana yavaşdan.*) Mən başını qarışdırım, sən daldan vur. (*Salehə.*) Yoldaş, icazə ver, papirosumu yandırım.

S a l e h. Maaş vermirsən-vermirsən, heç olmasa bir kibrit al, müavinin cibinə qoy. (*Kibrit dalınca gedir.*)

F ə r m a n (*Aslana*). Tez ol, gələn olar.
A s l a n. Öt.
F ə r m a n. Fikrin dəyişdi?

Saleh qayıdır.

A s l a n. O əsəri ver Saleh qardaşa, oxumaq istəyir.
F ə r m a n. Qardaşımızdır?
A s l a n. Həri.
F ə r m a n. Müharibələrin axırı həmişə qardaşlıqla qurtarır. (*Pyesi Salehə verir.*) Al, bu da pyes.
S a l e h (*alıb baxır*). “Yalan?” Sən bunu haradan tapmısan?
F ə r m a n. Trolleybusdan. Bu saat haranı axtarırsan, şeir, pyes tapırsan.
S a l e h. Göydə axtarırdım, yerdə tapmışam. Əsər əldən-ələ keçib, gör nə kökə düşüb.
A s l a n. Bütün yalanların axırını mən belə gördüm.

Rəfiqə gəlir.

R ə f i q ə. Bir qonağın da gəlib ki. Bu saat sizə yemək verim.
S a l e h. Rəfiqə, gəl bəri, “Yalan” tapıldı. Oturun, sizə oxuyum, görün, mənim müsibətim burada necə yazılıb.

Hamı oturur. Saleh pyesi oxumağa başladıqda
səhnə qaranlıqlaşır.

## ON BİRİNCİ ŞƏKİL

Səhnədə yenə keçmiş hadisələr təsvir olunur. İdarə.
Tərlan xanım makinada yazır. Nisbətən gənc Saleh
ayaq üstə gəzişərək diktə eləyir.

S a l e h. İndi, axırıncı cümləni yazın. Bütün bu rəqəmlər onu göstərir ki...
T ə r l a n x a n ı m (*yaza-yaza təkrar eləyir*). Onu göstərir ki...
S a l e h. Rəhbəri olduğum idarə yarımillik planı yerinə yetirə bilməmişdir.
T ə r l a n x a n ı m. Hamı yazır bilmişdir, amma siz yazırsınız bilməmişdir.

S a l e h. Mən düzünü yazıram.

T ə r l a n  x a n ı m. Düz söz çılpaq şəkildə çox çirkin olur. Ona gərək yalandan paltar geyindirəsən ki, bəzəkli görünsün.

S a l e h. Mən yuxarıdakıları aldadan, yalan məlumat verən müdirlərdən deyiləm.

T ə r l a n  x a n ı m. Aldatmasanız, o stolun dalında çox otura bilməzsiniz. "Bilmişdir" yazım, "bilməmişdir"?

S a l e h. Bilməmişdir. Qocalmısınız ha, Tərlan xanım, sözü bir dəfə deyəndə başa düşmürsünüz.

T ə r l a n  x a n ı m. Məni bu zəmanə qocaltdı.

S a l e h. Mənim təbabətdən başım çıxır. İstəyirsiniz, bir dərman verim, cavanlaşın.

T ə r l a n  x a n ı m. İstəmirəm.

S a l e h. Lap əlli il cavanlaşdırım, olun yeniyetmə, yumurta kimi bir qız.

T ə r l a n  x a n ı m. İstəmirəm. Tutaq ki, elə bir dərman var, mən də içdim, əlli yaş cavanlaşdım, nə olsun? Cavanlıq dövrümüzün zinəti olan o zəmanəni, o dövlətliləri, o milyonçuları, Mantaşovu, Nağıyevi, İsrail bəyi geri qaytara bilməyəcəksiniz ki? Eh, Saleh yoldaş, zalım həyat onları məhv elədi, mənim isə axırımı bağladı bu makinaya.

S a l e h. Aha, belə denən. Deməli, siz, Tərlan xanım, bizim çörəyimizi yeyib, o mənfur dövrü geri qaytarmaq xülyasilə yaşayırsınız?

T ə r l a n  x a n ı m (*qorxur*). Nə danışırsınız, Saleh yoldaş, mənim o dövrdən zəhləm gedir.

S a l e h. İnanmadım. Zəhləsi gedənə oxşamırsınız.

T ə r l a n  x a n ı m. Vicdanıma and içirəm. Nədir onun adı? O qabağıma çıxsa, bu əllərimlə boğaram.

S a l e h. Kim?

T ə r l a n  x a n ı m. Adı birtəhərdir ey... hə, hə, kapitalizm. Mən kapitalizmə nifrət eləyirəm.

S a l e h. Lap əcəb eləyirsiniz. Bu sözdən sonra sizə lap inandım.

T ə r l a n  x a n ı m. Quru inanmaqdan nə çıxar? Bu sözdən sonra gərək mənim maaşımı artırasınız.

S a l e h. Kapitalizmə pul ilə nifrət eləyən eşitməmişəm. Maaş barədə sonra danışarıq. Siz o təliqəni yaxşı-yaxşı yazın, bazaya baş çəkib beş dəqiqəyə qayıdıram.

T ə r l a n  x a n ı m. Ləngiməyin. Bacım qızı indicə bura gələcək.

S a l e h (*böyük həyəcanla*). Şəlalə xanım? Bura gələcək? Bəs niyə mənə demirdiniz? Bayaqdan başlamısınız İsrail bəy, filan-behman... (*Özünü səliqəyə salır.*) Kostyumum necədir?

T ə r l a n x a n ı m. Mənim bacım qızı kostyuma, bəzəyə-düzəyə fikir verən qızlardan deyil. Elə saje e entilijan.

S a l e h. Lap yəni, elə?

T ə r l a n x a n ı m. Bəs necə? İnsanın daxili aləmi yaxşı olsun.

S a l e h. Mənim daxili aləmimə söz ola bilməz.

T ə r l a n x a n ı m. Elə ona görə də qız məni bir dəqiqə dinc qoymur. Saleh yoldaş, Saleh yoldaş... Sizi bircə dəfə görüb, dəli kimi olub.

S a l e h. Yəni məhəbbət, filan-behman?..

T ə r l a n x a n ı m. Ağzımda söz deyirəm: Setre det alon, no!..

S a l e h. Mən ölüm hə, onda qoyma getsin, mən indicə qayıdıram. (*Gedir.*)

T ə r l a n x a n ı m (*pəncərədən baxır, Şəlaləni səsləyir*). Gəl yuxarı, gəl ey, heç kəs yoxdur, təkəm.

Şəlalə içəri girir.

Ş ə l a l ə. Nə yaxşı təksən? Böyüyün yoxdur?

T ə r l a n x a n ı m. Böyüyümün başına kül. Səni bir dəfə görüb, dəli-divanə olub, düşüb ortaya. Şəlalə, Şəlalə.

Ş ə l a l ə. Kim bilir, neçə arvad alıb, boşayıb.

T ə r l a n x a n ı m. Heç evlənməyib, subaydır. Əlinin altında cür-bəcür anbarlar, bazalar...

Ş ə l a l ə. Anbar, baza sonrakı işdir. Sən adamlığından danış.

T ə r l a n x a n ı m. Adamlıq axtarma, tapa bilməzsən. Kişilərin hamısı zibildir.

Ş ə l a l ə. Xala, elə sözlər danışırsan ki... Parça tapşırmışdım, nə oldu?

T ə r l a n x a n ı m. Hələ gətirməyiblər. (*Yavaşdan.*) Saleh indicə gələcək. Səni görmək istəyir.

Ş ə l a l ə (*həyəcanla*). Necə geyinmişəm?

T ə r l a n x a n ı m. O geyimə-zada fikir verən adamlardan deyil, yalnız daxili aləm ilə maraqlanır.

Ş ə l a l ə. Boy, nə biədəb kişidir.

T ə r l a n x a n ı m. Qadın kişiləri yalnız paltarlarla yox, dil ilə, hiylə ilə, fənd ilə özünə cəlb eləməlidir. Nə qədər qəşəng geyinirsən

geyin, kişilər səni görən kimi öz fikirlərində əynindən bütün paltarları çıxardırlar.

Ş ə l a l ə. Ay xala, ətimizi tökmə, sən allah!

T ə r l a n x a n ı m. Gəlir. (*Pıçıltı ilə.*) Ərin olduğunu gizlət. Aslanı soruşsa, deyərsən, qonşumuzdur, məni istəyir, əl çəkmir.

Saleh içəri girir.

S a l e h. Dünya yaranandan bu günə qədər bizim idarəyə bu qədər əziz qonaq gəlməyib. Salam!

Ş ə l a l ə. Salam, yoldaş rəis. Sizi işdən qoymuram ki?

S a l e h. Əksinə, kömək eləyirsiniz, ilham verirsiniz. Tərlan xanım, orda xəbər verin, bu gün daha heç kəsi qəbul eləməyəcəyəm. Soruşsalar ki, neyləyir? Deyin, əlinə gözəl kitab düşüb, onu mütaliə eləməklə məşğuldur.

T ə r l a n x a n ı m. Baş üstə. (*Şəlaləyə məhəbbət dolu gözlərlə baxır, yalandan ağlamsınıb çıxır.*)

Ş ə l a l ə. Siz tez-tez kabineti xəlvət eləyib kitab oxumaqla məşğul olursunuz?

S a l e h. Xeyr, həyatımda birinci dəfədir. Bu vaxta qədər əlimə bu qədər gözəl şeir kitabı düşməmişdi. Mən sizə baxanda əlimə saz alıb aşıqlıq eləmək istəyirəm.

Ş ə l a l ə. Niyə?

S a l e h. Çünki siz başdan-ayağa gözəlliksiniz.

Ş ə l a l ə. Siz qadınlara kompliment deməyi haradan öyrənmisiniz? Yəqin çoxları ilə gəzmisiniz, hə?

S a l e h. Qətiyyən yox. Çünki eşq olmayıb. Ancaq deyəsən, indi ürəyimin budağına nə isə qonub, yavaş-yavaş oxuyur.

Ş ə l a l ə. Nə tez? Bir dəfə görməklə?

S a l e h. Mən sizi bir dəfə həyatda görmüşəm, yüz dəfə yuxuda. Siz necə, heç məni yuxunuzda görmüsünüz?

Ş ə l a l ə. Yox, hələlik görməmişəm.

S a l e h. Görün, xahiş eləyirəm. Mən istəyirəm ki, bizim mühasib demişkən, bizim debetimizlə kreditimiz bir-birinə düz gəlsin. Kredit qudurub debeti yeməsin.

Ş ə l a l ə. Arxayın olun, yeməz. Ancaq hələlik üzr istəyirəm, getməliyəm. (*Getmək istəyir.*)

S a l e h (*onun qabağını kəsir, getməyə qoymur*). Dayanın, bir sualım var. Keçən səfər mən sizi görəndə yanınızda bir kişi vardı. O kimdir?

Ş ə l a l ə. Qonşumdur...

S a l e h. Məhəbbət, filan-behman?

Ş ə l a l ə. Onun tərəfindən bəli. Bizim tərəfdə sakitlikdir. Ancaq lap zara gətirib. Nə başınızı ağrıdım, doqquz b-dir.

S a l e h. Başa düşdüm, psixiçeski. O ki hirsləndi, gərək dərindən nəfəs alsın, sonra nəfəsini bayıra buraxanda başlasın saymağa: bir, iki, üç, dörd. Deyin mütləq belə eləsin.

Ş ə l a l ə. Dərdim qurtarıb.

S a l e h. O da düzdür. Qonşuları müalicə eləmək bizə qalmayıb ki? Çox gözəl, indi müzakirə olunan məsələlərin ikinci maddəsinə keçmək istəyirəm.

Ş ə l a l ə. Yox, iclası bağlayaq, mən evə tələsirəm. Sağ olun. (*Çıxır.*)

S a l e h (*Şəlalənin arxasınca həsrətlə baxdıqdan sonra birdən çağırır*). Tərlan xanım! (*Tərlan xanım içəri girir.*) Tez əmr yazın, sizə təşəkkür elan edirəm.

Səhnə qaranlıqlaşır.

## ON İKİNCİ ŞƏKİL

Səhnə yenə Salehin həyatını təsvir edir. Bəzəkli bir otaq. Xidmətçi kimi geyinmiş Güllü xala ilə Bilal kişi vedrədə su gətirirlər, səhnədən keçib o biri otağa gedirlər, sonra boş vedrə ilə qayıdırlar. Dekolte paltar geyinmiş Şəlalə səhnəyə çıxır.

G ü l l ü. A kişi, üzünü yana çevir, gəlin çılpaqdır.

Ş ə l a l ə. Vəhşi olmayın, dəb belədir. Yayda gərək qadınların bədəni nəfəs alsın.

B i l a l. Alsın da... Sözümüz yoxdur ki...

G ü l l ü. Su kifayət eləyər?

Ş ə l a l ə. Yox, yenə gətirin, çiməcəyəm. Cəld olun, gedəsi yerim var. (*O biri otağa keçir.*)

B i l a l. Üzümü çevirə bilərəm?

G ü l l ü. Çevir, çevir. Gərək yenə su dalınca gedək. (*Yorğun halda otururlar.*)

B i l a l. İndi ki, su verməyəcəklər, bu təzə evləri niyə tikirlər? Həyətdən beşinci mərtəbəyə su daşımaq, bu kənddə yaşayıb o biri kəndə su dalınca getmək kimi bir şeydir.

Güllü. Saleh bilsə ki, gəlin başımıza bu oyunu açır, dünyanı dağıdar.

Bilal. Heç nə eləməz. Bu arvad Salehin öz başında qoz sındırır. Haradan tapdı gətirdi bu bəlanı?

Güllü. Bu cür bəlalar özləri gəlib adamı tapırlar.

Bilal. Bilirsən nə var, Güllü? Oğula-zada etibar yoxdur, çıxaq gedək kəndə...

Güllü. Acıq eləyib getsək, uşaq dərdə düşər...

Bilal. Salehə deyərik, guya havamızı dəyişmək istəyirik, guya burada yeyib harınlamışıq, könlümüzə gəzmək düşüb.

Güllü. Pis gəlinin zülmünü düşmənim də görməsin.

Şəlalə içəri girir, ikisi də ayağa qalxıb hazır dayanırlar.

Şəlalə (*hirsli*). Bəs nə oldu, niyə getmədiniz? Marş buradan bu saat. Mən bir deyəndə, vedrələri götürün, iki deyəndə, qapıdan çıxın. Cəld tərpənin. Bir-iki. (*Bilal kişi ilə Güllü xala vedrələri götürüb çıxırlar.*) Belə ha... söz deyəndə o saat yerinə yetirmək lazımdır.

Tərlan xanım içəri girir.

Tərlan xanım. Şəlalə! Ərin bu gün yenə məni qapıdan qovdu. Neçə gündür əlləşirəm, bir şey çıxmır. Heç dəxli var, sən allah, arvadına acığı tutdu, məni işdən çıxartdı.

Şəlalə. Sən də qanımın qara vaxtında dəqiqədə bir "ər-ər" deyib məni dilxor eləmə. Sən onu caladın boğazıma...

Tərlan xanım. Səninçün yaxşı ərdir. Yedirdir, geyindirir, yaxşı maaşı...

Şəlalə. Quru maaş, vəssalam. Deyirdin, bazalar, anbarlar... hanı? Bir çöp də görmürəm. Ağzımı açan kimi külbaş namusdan, qeyrətdən, həqiqətdən danışır. Mən isə belə şeyləri sevmirəm. Başımı birtəhər dolandırıram.

Tərlan xanım. Birtəhər baş dolandırırsan, hə? De görüm, ərindən xəlvət əmanət kassasına nə qədər pul qoymusan?

Şəlalə. Bir qəpiyim də yoxdur.

Tərlan xanım. Ağız, çantandakı əmanət kitabçasını öz gözümlə görmüşəm. Hamıya yalan, mənə də yalan?

Şəlalə. Bura bax, Tərlan xanım, sənin vaxtın çoxdan keçib, indi mənim dövranımdır, əlimə-ayağıma dolaşma.

Tərlan xanım. Ey, ey, mənə deyirsən, əl-ayağıma dolaşma? Açaram sandığı, tökərəm pambığı.

Şəlalə. Nə, nə, neyləyərsən? Sandığı açarsan? Hansı sandığı? Yoxsa Mantaşovun evindən gətirdiyin sandığı?

Tərlan xanım. Kəs səsini, bihəya! Bilirsən mən kiməm?

Şəlalə. Bilirəm, niyə bilmirəm? Milyoner məclislərinin yaraşığı, İsrail bəyin sevgilisi...

Tərlan xanım. Ələ salırsan?

Şəlalə. Nə olar ələ salanda?.. Sən ki bütün dünyanı yalanla doldurmusan.

Tərlan xanım. Kimə, mənə yalançı deyirsən?

Şəlalə. Sənə deyirəm. De, de görüm, nə vaxt gimnaziyada oxumusan? Nə vaxt ballarda vals oynamısan? Atan bəy olub ki, "Muxtar bəy, Muxtar bəy" deyib, dad eləyirsən? İsrail bəy kimdir, özündən uydurmusan? Vur-tut ikicə il fransujenka dərzinin yanında qulluqçuluq eləmisən, oradan da səni oğurluq üstündə qovublar.

Tərlan xanım (*ağlayır*). Mənim elədiklərim sənin gözündən gəlsin, Şəlalə!

Şəlalə. Neyləmisən? De görüm, neyləmisən? Köhnə, çürük parçaları birə-beş qiymətə mənə satmısan, onu deyirsən? Aslanla məni kim tanış elədi, istəməyə-istəməyə məni ona kim verdi? Bəs Salehlə məni kim tanış elədi? Mən onu sevirdim? Niyə yalandan gedib kişiyə demişdin ki, "bacım qızı ölür dərdindən?" Yaxşı eləyib səni qovub.

Tərlan xanım. Şəlalə, səni görüm yanasan! (*Ağlayır.*)

Bilal kişi ilə Güllü xala su gətirirlər.

Bilal. Fransanın nümayəndəsi ağlayır.

Güllü. Gəl, qarışma. (*O biri otağa gedirlər.*)

Tərlan xanım. Mənim səndə nəyim varsa, yığışdır ver bura!

Şəlalə. Yeri, yeri!

Tərlan xanım. Pul borclusan, onu da qaytar.

Şəlalə. Yeri! Bir də ayağın mənim evimə dəyməsin.

Tərlan xanım. Mən bu evə bir də gələcəyəm, amma tək yox, milislə birlikdə. (*Gedir.*)

Şəlalə (*çağırır*). Bilal! Güllü!..

Bilal kişi ilə Güllü xala gəlirlər.

G ü l l ü. Bizi çağırırsınız?

Ş ə l a l ə. Bu evdə ayrı Bilal, ayrı Güllü var?

B i l a l. Allah heç bir Bilala, heç bir Güllüyə bu cür ev göstərməsin.

Ş ə l a l ə. Amin. Mən gedirəm, vannanı doldurun, xörəyi hazırlayın, sonra da ev-eşiyə əl gəzdirin, bu saat qayıdıram. (*Gedir.*)

B i l a l (*onun arxasınca baxır, kədərlə*). Görəcəkli günlərimiz varmış.

G ü l l ü. Vedrələri götür, gedək.

B i l a l. Heç yerə gedən deyiləm. Bəsdir. Telefon elə, Saleh bu saat bura gəlsin. Ona sözümü deyib, bu şəhərdən baş götürüb gedirəm. (*Oturur.*)

G ü l l ü. Körpənin ürəyini bir tərəfdən bu arvad üzür, bir tərəfdən də biz üzək? Bircə balanı öldürmək istəyirsən? Dur ayağa!

B i l a l. Durmuram. Belə ləyaqətsiz, həyasız arvada nökərçilik eləməyəcəyəm.

Saleh içəri girir.

S a l e h. Nə olub? Bu vedrələr nədir?

B i l a l. Bu vedrələr mənim atalıq haqqımdır, vermisən qoltuğuma!

G ü l l ü. A kişi, ağzını yum!

S a l e h. Mən heç nə başa düşmürəm. Siz niyə su daşıyırsınız?

G ü l l ü. Bu günlük. Gəlin xahiş elədi ki...

B i l a l (*onun sözünü kəsir*). Yalan danışma, Güllü! Bazara da biz gedirik, xörəyi də biz bişiririk, yuxarıya su gəlməyəndə suyu da biz daşıyırıq.

S a l e h. Bəs niyə mənə deməmisiniz?

G ü l l ü. Hamısı birdən olmayıb ki? Yavaş-yavaş artıb da...

B i l a l. Kənddə xam atları öyrədəndə görməmisən? Əvvəlcə belinə yəhər qoyurlar, sonra ağzına cilov keçirdirlər, axırda da minirlər.

S a l e h. Mən evdə olanda belə şey hiss eləmirəm. Həmişə anacan, atacan, buyur, filan-behman.

G ü l l ü. Onunçün biz həmişə sənə deyirik ki, evə tez gəl.

S a l e h. İclaslardan macal olub ki? Onsuz da onun əlindən zara gəlmişəm, indi daha lap xirtdəyə çatdı. Özü haradadır?

G ü l l ü. Çıl-çılpaq getdi.

B i l a l. Parçaya qənaət eləyir, nədir?

S a l e h. Bunun bir əlacı var. Əməliyyatı-cərrahiyyə.

B i l a l. Nə deyir?

G ü l l ü. Evimiz yıxıldı, altı-beş vurur.

S a l e h. Həkimlər deyir, insanın ki, bədənində yara əmələ gəldi, ən yaxşısı budur, kəs at.

G ü l l ü. Beləsini bıçaq kəsməz.

B i l a l. Bu yara deyil, zəlidir. Ondan yaxa qurtarmaq çətindir.

S a l e h. Qaçmaq, atam, qaçmaq, elə siyasətlə qaçmaq ki, dünyanı axtarıb tapa bilməsin. (*Yavaşdan.*) Mən bu gün işimi təhvil verdim, ayrı yerə təyin olundum.

B i l a l. Böyütdülər?

S a l e h. Yox, bir az balacalanmışam, öz xahişimlə...

B i l a l. Öz xahişi ilə böyük qulluqdan çıxıb balaca qulluğa gedən adam birinci dəfədir görürəm.

S a l e h. Ata, insanın böyük-kiçikliyi onun qulluğundan asılı deyil.

B i l a l. İşdən çıxarılan bütün məsul işçilər özlərinə bu cür təsəlli verirlər.

G ü l l ü. Körpəmə sataşma, ey, özü bilən yaxşıdır.

S a l e h. Birdən gələr, sözüm yarımçıq qalar. Mənim təzə iş yerimdən xanımın xəbəri yoxdur. İndi, əvvəlcə gərək sizi yola salam, dalınızca da özüm gəlim. Bura zəhmət çəkin! (*Onları səhnənin qabağına çağırır.*)

B i l a l. Vedrəni götürək?

S a l e h. Yox, sözüm var. O gələn kimi guya mən sizə hirslənəcəyəm, deyəcəyəm gözüm sizi görməsin, gedin kəndə, filan-behman... Siz də o biri otaqdan öz paltarlarınızı, mənim paltarlarımı yığışdırıb düşərsiniz aşağı, bir taksi tutub gedərsiniz İçərişəhərə. Həbibüllahın evini ki tanıyırsınız, onun birinci mərtəbəsində Rəfiqə adlı bir qadın var, ona qonaq olun, mən də gəlirəm.

B i l a l. Sonra yağışdan çıxıb yağmura düşərik ha...

G ü l l ü. Ay bala, təzəsi?

S a l e h. Təzəsi yox, köhnəsi, birincisi. Neyləyim, mələyi qoydum gözüyaşlı, şeytanı güldürdüm. (*Ayaq səsləri eşidilir.*) Yavaş, deyəsən gəlir, vedrələri götürün əlinizə...

B i l a l. Bir, vedrələri götürdük.

Şəlalə içəri girir.

S a l e h (*guya Şəlalənin gəldiyini bilmir*). Sizə Şəlalə xanım tapşırmayıb ki, su daşıyın? Bəs niyə sözə baxmırsınız? Vedrələr niyə boşdur?

Ş ə l a l ə. A, mən onlara nə vaxt su daşıyın demişəm?

S a l e h. Şəlalə, gəlmisən? Pəh, pəh, pəh... Bu paltar sənə necə də yaraşır? Niyə elə uzun tikdirmisən? Bir az da qısa eləyəydin də...

Ş ə l a l ə. İnpoşiv sözümə baxır ki.

S a l e h. İnpoşivin müdirini elə günü bu gün qovacağam.

Ş ə l a l ə. Bəs deyirdin səni dəyişmək istəyirlər, nə oldu, qaldın?

S a l e h. Əlbəttə, qaldım. Məni yerimdən tərpətmək olar? Bunları isə (*ata-anasını göstərir*) sənin sözünə baxmadıqlarına görə, işdən çıxardıram, kəndə yola salıram.

Ş ə l a l ə. Saleh, Allaha and olsun, onlara bu evdə güldən ağır söz deyən yoxdur. Özləri bekar dayana bilmirlər, məndən gizlin iş görürlər.

G ü l l ü. Gəlinimiz bizi ovcunun içində saxlayır.

B i l a l. Xəlvətə salıb ev süpürürük, xörək bişiririk, su daşıyırıq.

Ş ə l a l ə. Atacan, niyə yalan danışırsan?

S a l e h. Dayan, dayan, Şəlalə, əsəblərini korlama. Bura bax, Bilal kişi, Güllü arvad, mənim arvadıma yalan dediyiniz üçün bu dəqiqə bu evi tərk eləyin. Gedin kəndə, traktor, kətmən, filan-behman...

Ş ə l a l ə. Mənim ürəyim nazikdir, heç getmələrini istəmirəm.

S a l e h. Yox, yox, sən mənə bunlardan min qat əzizsən... Razı olmaram ki, yüksək qadınlıq ruhun inciyə, (*ata-anasına*) bu dəqiqə yola düşün.

G ü l l ü. Gəl, a kişi, oğulun da vəfası yox imiş! (*Pıçıltı ilə.*) Sən də danış, etiraz elə.

B i l a l. Birdən-birə ixtiyarın yoxdur. Gərək on beş günlük maaşımızı verəsən.

S a l e h. Bir qəpik də verən deyiləm. Kəndə ayağınızla gedin. Düz demirəm, Şəlalə, başdan eləyək getsinlər də!..

Ş ə l a l ə. Düz deyirsən. Bu saat qayınana, qayınata əsri deyil.

S a l e h. Bu qədər dözmüsən, bəsdir. Avropada gəlinlər toyun sabahı günü qayınana-qayınatalarını evdən qovurlar.

Ş ə l a l ə. Onlar həmişə mədəniyyətdə bizdən qabağa düşüblər.

S a l e h. Hə, tez olun. Axşama qalarsınız, xoş gəldiniz.

Bilal ilə Güllü gedirlər.

Şəlalə. Pişik, gündüzlər sən evdə olmayanda mən tək qalıb darıxacağam axı.

Saleh. O barədə arxayın ol. İdarədən üç adam göndərəcəyəm ixtiyarına. Yalnız sənə xidmət eləyəcəklər. Biri anbarın müdiridir. Ürəyin hansı parçanı istədi, buyur, getsin gətirsin.

Şəlalə. Nə danışırsan? Mənim elə şeydən xoşum gəlir.

Saleh. Xalanı da sabahdan özümə müavin təyin eləyirəm.

Şəlalə. Bacarar?

Saleh. Göydə. Kapitalizmə nifrət edir. Niyə bacarmır?

Şəlalə. Lazım deyil, mən onu bu gün evimizdən qovmuşam.

Saleh. Əcəb eləmisən. Elə isə, daha özümə müavin təyin eləmirəm.

Şəlalə. Amma yazıqdır, qaytar yenə köhnə işinə.

Saleh. İstəyirsən inpoşivə müdir göndərim. Paltarını yuxarıdan bir az aşağı, aşağıdan bir az da yuxarı tiksin.

Şəlalə. Dovşan! Məni sarımırsan ki?

Saleh. Səni sarıyanı fələk elə sarısın ki, qoskontrol da aça bilməsin.

Şəlalə. Gəl səni öpüm.

Saleh. Acqarına? Həkimlər icazə vermir. Sən uzan, istirahət elə, mən gedim çörək alım. Qayıdım gəlim evi yığışdırım, xörəyi bişirim, hazır olanda çağırım, ye! Yeyəndə sənə əziyyət olmur ki?

Şəlalə. Nə olar, yedirərsən.

Saleh. O da baş üstə. Özünü qoru, canına-başına bax, hələlik xudahafiz. Setre bet alon, no! (*Gedir.*)

Bu biri qapıdan Tərlan xanım içəri girir.

Şəlalə (*qorxmuş*). Kimdir? Boy, qorxdum a... (*Tərlan xanımı görüb təəccüblə.*) Bəs milis hanı?

Tərlan xanım. Kişi evdə yoxdur ki?

Şəlalə. Mən deməmişdim ayağın bir də bu evə dəyməsin?

Tərlan xanım. Bir söz soruşmağa gəlmişəm. Ərinin təzə qulluğu hardadır?

Şəlalə. Mənim ərimi heç kəs yerindən tərpədə bilməz. Yenə öz köhnə qulluğunda işləyir.

Tərlan xanım. Köhnə qulluğunda bu gündən ayrı adam işləyir.

Şəlalə. Bəs mənə dedi ki, öz yerimdə qalıram.

Tərlan xanım. Onda, deməli, burada bir kələk var. Ehtiyatlı ol!

Şəlalə. Məni aldadırmış, hə? Yalan? Şəlaləyə yalan?! Dayan, bu vaxta kimi ona əl qaldırmamışam. Amma bu gün ayrı cürə eləyəcəyəm. Sən o divanın üstündə otur, o gələn kimi bu stulları onun başında sındırım, tamaşa elə.

Tərlan xanım. Hələ yox, gözlə. Bəlkə təzə qulluğu əvvəlkindən də yaxşıdır.

Şəlalə. Eybi yoxdur, kişilər döyüldükcə yumşalırlar.

Qapının zəngi çalınır.

Tərlan xanım. Gəldi.

Şəlalə. Aç qapını, mən hazır dayanmışam.

Tərlan xanım qapıya gedir. Məktubla qayıdır.

Tərlan xanım. Məktub gətiriblər.

Şəlalə. Kimədir?

Tərlan xanım. Sənə.

Şəlalə. Ver görüm. (*Məktubu açıb oxuyur, həyəcanla çığırır.*) Tez bir stəkan su.

Tərlan xanım. Az, əsmə ey!.. Nə var ki?

Şəlalə. Saleh qaçıb.

Tərlan xanım. Hara qaçıb?

Şəlalə. Cəhənnəmə. Nə bilim hara? Qaldım yenə ərsiz, dayaqsız.

Tərlan xanım. Ər tapılar. Dünyada gözəlliyə, şirin dilə aldanan axmaqlar o qədərdir ki, kefini pozma. Küçədə düşüb sınmış yumurtanın üstündə matəm nitqi açmazlar.

Şəlalə. Xala, bağışla, bayaq dediyim sözləri geri götürürəm, gəl, səni öpüm.

Tərlan xanım. Ele saj e entilejan... (*Qucaqlaşırlar.*)

PƏRDƏ

## ÜÇÜNCÜ PƏRDƏ

### ON ÜÇÜNCÜ ŞƏKİL

Üçüncü şəklin dekorasiyası. Umud tək, həyəcanlı gəzinir, zəngi aramsız çalır. Xumar qaçaraq səhnəyə gəlir.

Umud. Haradasan, zəng çalmaqdan yoruldum, gəlib çıxmırsan?

Xumar. Məşğul idim, çay gətirim?

Umud. Çay boğazımdan keçmir. Dediklərimi almısan?

Xumar. Nigaran qalmayın, hamısı vaxtında hazır olacaq. (*Getmək istəyir.*)

Umud (*onu saxlayır*). Bura bax, at da al ha, balacalar atı çox sevirlər.

Xumar. Hələ onun at minməli vaxtı deyil, böyüyəndə alarsınız.

Umud. Böyüyəndə atı neyləyir, ona xüsusi maşın alacağam. (*Telefon zəng çalır. Umud dəstəyi götürür.*) Alo! Mənəm. Kefim? Göyün yeddinci qatında. Oğlum olub ey, oğlum. Axşam gəl, gözləyəcəyəm. (*Dəstəyi asır, Xumara.*) Dalıycan nə vaxt getmək lazımdır?

Xumar. Nahardan sonra.

Umud. Mənim sözlərimi ona dedin?

Xumar. Dedim, acığı tutdu, razı deyil. İnciklidir də.

Umud. Haqqı var, işləri yaman dolaşıq salmışam. Bir yandan o, bir yandan da Şəlalə. Şəlaləyə də yazığım gəlir. Toydan iki ay sonra əri ölüb. Görüb-görəcəyi mənəm, ayrılsam, dəli olacaq.

Xumar (*yavaşdan*). Güman eləmirəm.

Umud. Nə dedin?

Xumar. Heç. Gedə bilərəm?

Umud. Get, yox, dayan, nə deyəcəkdim, yadımdan çıxdı. Hə, belə eləyərik. Xəstəxanaya sizinlə bərabər mən də gedərəm. Camaatın içində rədd eləməz, barışar. (*Öz-özünə.*) Bəs Şəlalə nə olsun? Nahara qədər fikirləşim, görüm bu iki arvadın öhdəsindən necə gələcəyəm. (*Gedir.*)

Xumar öz otağına keçir. Aslan, Saleh, Fərman gəlirlər. Xumar onlara təəccüblə baxır.

Saleh. Umud yoldaşa de ki, Şəlalə xanımın ərləri gəlib, onunla görüşmək istəyirlər.

Xumar. A... hamınız onun əri olmusunuz?

F ə r m a n. Mən yox.

S a l e h. Biz ikimiz: bir nömrəli, iki nömrəli.

X u m a r. Ərlərin iclasını çağırmısınız?

A s l a n. Yox, ona öz təcrübəmizdən danışacağıq, qənfet qız!

X u m a r (*hirsli*). Bura bax, bu saat konfet qızlar, konfet oğlanlarla bir yerdə restoranlarda tvist oynayırlar, bildin?

A s l a n. Sən öl, mənim də hirsim başladı tvist oynamağa.

F ə r m a n. Şef, yeri deyil.

A s l a n. Get ada, mən haranın şefiyəm? İndi sən mənim şefimsən.

X u m a r. Yoldaş ərlər, Umud yoldaş indi sexdədir, gedin ora.

S a l e h. Gedək. (*Gedə-gedə Aslana.*) Xumar ciddi qızdır, ona sataşma.

Çıxırlar. Səhnədə Xumarla Fərman qalır.

X u m a r. Bilirsən bu nədir? (*Bir kağız göstərir.*)

F ə r m a n. Mənə yazmısan?

X u m a r. Sənin əmrindir, sabahdan işə başlayırsan.

F ə r m a n. Oxumaq olar?

X u m a r. Yox, divardan asılanda oxuyarsan.

F ə r m a n. Xumar! (*Kağızı onun əlindən almaq istəyir.*)

X u m a r. Fərman, bura idarədir.

Kəklik içəri girir, onlara diqqətlə baxır.

K ə k l i k. Xumar, bu oğlan kimdir?

X u m a r. Tanış ol, Fərman.

K ə k l i k. Portfelində sənin şəklini gəzdirən budur?

F ə r m a n (*Kəkliklə görüşür*). Sizin yanınızda günahkaram.

K ə k l i k. Niyə?

F ə r m a n. Sizin bu fabrikdən, bu şəhərdən tamam getməyinizi o qədər arzu edirdim ki...

X u m a r. Fərman, nə danışırsan? Kəklik mənim ən yaxın rəfiqəmdir.

F ə r m a n. Elə ona görə deyirəm də... (*Kəkliyə.*) Həmişə cüt gəzirdiniz, mənsə Xumarı tək görmək istəyirdim.

K ə k l i k. İndi də o cür arzunuz var? Gedə bilərəm?

F ə r m a n. İndi yox, indi mən Xumarın bütün rəfiqələrinin qulluğunda hazıram. Əmr eləsin, göyün hansı ulduzunu istəsəniz, ovcumda sizə gətirim.

X u m a r. Lap kosmonavtsan ki.

Zəki içəri girir. Fərmanı burada görüb çığırır.

Z ə k i. Xumar, sən onu saxla, mən milis çağırım.

X u m a r. Dayan, Zəki, lazım deyil. Mən özüm onun cəzasını vermişəm.

Z ə k i. Hə, belə de... (*Fərmana.*) Xoşbəxt oğlansan. (*Kəkliyə.*) Görəsən, mənim cəzamı nə vaxt verəcəklər?

K ə k l i k. Zəki, səninlə mənimki qəti qurtardı, bildin? (*Xumara.*) Az, mənə deyir, təzə pyes var, rol verəcəyəm, demə, yalan danışırmış.

F ə r m a n. Həmkar, yalan danışmamaq birinci şərtdir.

K ə k l i k. Hələ adını rejissor qoyub. (*Zəkiyə.*) Heç bilirsən rejissor nə deməkdir?

X u m a r. Rejissor tamaşanın yaradıcısıdır, kapitandır.

Z ə k i. Xeyr, rejissor müftə hambaldır. Əsər tapdın, rol verdin, adamsan, yoxsa heç üzünə də baxan olmur. (*Yavaşdan.*) Xumar, bir dil tərpətsənə.

X u m a r. Şikayət qutusunu açım?

Z ə k i. Aç! (*Xumar ona dilini göstərir.*) Səninlə də ciddi danışmaq olmur ki? (*Öz-özünə bərkdən.*) Neyləyim, bir pyes haradan tapım?

F ə r m a n. Pyes axtarırsan? Məndə.

X u m a r. Səndə pyes hardandır?

F ə r m a n. Trolleybusdan tapmışam. Budur bax! (*Cibindən əsəri çıxarıb Zəkiyə verir.*)

Z ə k i (*həyəcanla*). “Yalan” tapıldı. Kəklik, gəl yapış qolumdan, yıxılıram.

K ə k l i k. Sənin qolundan niyə yapışım ki? Bu saat sevincimdən öpəcəyəm.

Z ə k i (*yavaşdan*). Sonra, burda yox.

K ə k l i k. Səni yox ey, bu oğlanı.

Z ə k i. Olmaz, mən icazə vermirəm.

X u m a r. Kəklik, ağ eləmə.

F ə r m a n. Bacı, mənə çatası öpüşü Zəkiyə verin, sonra ondan alaram.

K ə k l i k. Əlacım qalmadı, di gəl səni öpüm. (*Zəkinin üzündən öpür.*)

Z ə k i. İnsan bir dəqiqənin içində nə qədər xoşbəxt olarmış.

Şamil içəri girir, onlara təəccüblə baxır.

Ş a m i l. Bu nədir? Yenə məşq eləyirsiniz?

X u m a r. Bəli, əsəri tapmışıq.

Ş a m i l. Əcəb kolxozdur. Sədr yox, üzvlər də qaçdı-tutdu oynayırlar. (*Umudun kabinetinə baxır, heç kəs olmadığını görüb gedir.*)

X u m a r. Uşaqlar, gedin, gedin. Məşqə sonra yığışarıq.

Gedirlər. Xumar səhnədə tək qalır. Şəlalə səhnəyə gəlir,
Umudun kabinetinə tərəf yollanır.

X u m a r (*Şəlalənin arxasınca*). Üç nömrə kabinetdə yoxdur.

Ş ə l a l ə (*cəld Xumara tərəf dönür*). Nə?

X u m a r (*kinayə ilə, qəsdən əzilə-əzilə danışır*). Deyirəm, Umud yoldaş yoxdur, gedib.

Ş ə l a l ə. Hara gedib?

X u m a r. Deyəsən sexdədir.

Ş ə l a l ə. Bu adamlar işləməkdən yorulmurlar?

X u m a r. Biz işləməyəndə yoruluruq.

Ş ə l a l ə. Nə naz-qəmzə ilə danışırsan, kişi deyiləm ki? Get sexə, Umudu çağır.

X u m a r. Baş üstə. (*Gedə-gedə, öz-özünə.*) Ay çağırdım ha...

Ş ə l a l ə (*ora-bura baxır, kimsə olmadığını görüb telefona yaxınlaşır, zəng eləyir*). Pişik, neyləyirsən?

Xumar qayıdır, Şəlalə onu görmür.

A, iş nədir? Mən olan yerdə işi neyləyirsən? Şamil, səni Qız qalasının yanında gözləyəcəyəm. Şamilçik, vaxtında gəl, ha? (*Dəstəyi asır. Xumarı görür, həyəcan və qorxu ilə.*) Çoxdan buradaydın?

X u m a r. Yox, indicə girdim.

Ş ə l a l ə. Umudu çağırdın?

X u m a r. Yoxdur, iclasa gedib.

Ş ə l a l ə (*Xumarı yamsılaya-yamsılaya*). Umud gələndə deyərsən ki, mən bu gün evdə nahar eləməyəcəyəm, rəfiqəmgildə olacağam. (*Birdən kəskin çığırır.*) Başa düşdün?

X u m a r (*eyni tonda*). Düşdüm. (*Hərəsi bir tərəfə gedir.*)

Umud və arxasınca Salehlə Aslan kabinetə girirlər.

U m u d. Gəlin, gəlin. Deməli, belə? (*Aslana.*) Sən bir nömrəli ər, (*Salehə*) sən iki nömrəli, demək, mən də oluram üç nömrəli, hə?

A s l a n. Sizin üç nömrəli olduğunuzu yəqin demək çətindir.

U m u d. O da düzdür, bəlkə beşinciyəm.

Xumar içəri girir.

X u m a r. Şəlalə xanım sizi soruşurdu. (*Çıxır.*)

U m u d. Gözüm aydın. Necə oldu ki, ağlımı itirdim, ona uydum, ailəmi dağıtdım?

S a l e h. Onu görəndən sonra siftə mənə də elə gəlmişdi ki, Rəfiqədə sevgi yoxdur.

A s l a n. Zalımın qızı başdan-ayağa gopdur.

S a l e h. Bilirsiniz bu nədəndir, Umud yoldaş? Çünki biz xəstəyik.

U m u d. Mən xəstə deyiləm, sağlam adamam.

S a l e h. Yox, elə demə, biz üçümüz də onun zəhərini şərbət kimi içmişik, çünki xəstəyik, yalan xəstəsi. Yalan da mikrob kimidir, sağlam bədən, yəni yalana meyli olmayan bədən onunla mübarizə aparır, amma xəstə bədəndə isə bu mikrob özünə isti yuva tapıb min cür fəsad törədir.

A s l a n. Qardaşımız çənədən möhkəmdir.

U m u d. Demək istəyirsən ki, biz özümüz o yalana tutuluruq və cəmiyyətə də yayırıq.

S a l e h. Bundan da birinci növbədə xalq ziyan çəkir. Mən neçə idarədə müdir olmuşam, təcrübədə görmüşəm. "Bəli" deməyəndə yuxarıdakının xoşuna gəlmir.

A s l a n. Bəli.

S a l e h. O "bəli" bilirsiniz nədir? Yalanın toxumu. Torpağa atırsan, əlverişli şərait tapıb cücərir, yarpaqlanır, çiçək açır və nəhayət, meyvə verir. Bu acı meyvəni isə xalq yeməyə məcbur olur.

U m u d. Məsələ aydındır. Ziyanın yarısından qayıtmaq da qazancdır. (*Birdən Aslana baxıb çığırır.*) Düz deyirəm, bir nömrəli?

A s l a n (*Salehə*). Bu özü doqquz b-dir ki...

S a l e h (*yavaşdan*). Gedək, eşidər, xətrinə dəyər. (*Çıxırlar.*)

Arxa pərdə enir. Umud düşüncə içərisində
pərdə qabağına gəlir.

U m u d (*öz-özünə*). Necə oldu ki, mən aldandım, necə?

Xumar gəlir.

Xumar! Al bu kağızı divardan as, Şamilin çıxmağı barədə nazirliyin əmridir. Axır ki, bu avaradan canım qurtardı.

Xumar sevincək gedir, bu biri tərəfdən Fərman gəlir.

Fərman. Salam, yoldaş müdir.

Umud (*öz-özünə*). Elə bil qırx dərəcə qızdırmada idim, Şəlalə də mənim xəstə xəyalım idi. Doğru deyiblər, hər parıldayan qızıl olmaz.

Fərman. Mənim necə qızıl olduğumu görəcəksiniz, yoldaş Umud!

Umud. Səni demirəm. Öz həyatımı düşünürdüm, bu el məsəli yadıma düşdü.

Fərman. O cür məsəllərdən mən çox bilirəm. Deyir: hər axan su şirin olmaz.

Umud. Ağıllı sözdür.

Fərman. Deyir: hər ağaran qar olmaz, hər ağacda bar olmaz.

Umud. Yaxşı, daha bəsdir.

Fərman. Hələ yenə var, deyir: hər çalğıya oynamazlar.

Umud. Kifayətdir, sağ ol. (*Gedir.*)

Fərman (*onun arxasınca*). Ürəyinizi sıxmayın, yoldaş müdir, hər enişin bir yoxuşu var.

Saleh gəlir.

Saleh. Hə, maaşsız müavin, dəli kimi öz-özünə niyə danışırsan?

Fərman. Müdirimizlə söhbət eləyirdim. Halı çox pərişan idi.

Saleh. Onu pərişanlıqdan qurtarmaq lazımdır. (*Pərdə arxasına müraciətlə.*) Uşaqlar, bura gəlin!

Zəki, Xumar, Kəklik və Aslan səhnəyə gəlirlər.

Zəki. İndi gedək Şəlalə xanımla söhbətə. Bu son səhnə, psixoloji səhnədir. Rolunuzu yaxşı oynamalısınız.

Fərman. Pyesdə təzə müdir müavininin familiyası nədir?

Zəki. Məndilov.

Fərman. Məndilov?.. Əntiqə familiyadır.

Xumar. Yaxşı oyna ha.

F ə r m a n. Arxayın ol.
Z ə k i. Heç artistlik eləmisən?
F ə r m a n. Şoferlərin hamısı artistdir də.
Z ə k i. Buyurun. Hadisə vaqe olur harada?
X u m a r. Qız qalasının yanında.

Səhnə qaranlıqlaşır.

## ON DÖRDÜNCÜ ŞƏKİL

Qız qalasının yanı. Şəlalə ətrafa diqqətlə baxaraq səhnədən keçib gedir. Saleh, Aslan və Fərman onun arxasınca səhnəyə çıxırlar.

F ə r m a n. Ovçu ova çıxıb.

A s l a n. Gərək əvvəlcə o gözlədiyi adamı ələ keçirdək, söhbət eləyək.

S a l e h. Deməz ki, sizə nə var?

A s l a n. Desin. Qoymaram Şəlalə bir ailəni də dağıtsın.

F ə r m a n. Bəlkə ailəsi yoxdur, subaydır?

A s l a n. Lap olsun subay, görmür ki, arvad özündən nə qədər böyükdür? Kordur?

S a l e h. Onu görmək çox çətindir. Bu cür arvadlar qocalmırlar. “Xına, basma əməliyyatı”... Cürbəcür maz, rəng, filan-behman...

F ə r m a n. Pasportuna baxaq.

S a l e h. Düz deyirsən. Odur, gəlir. Başlayın, mən gizlənirəm.

Gizlənir. Şamil gəlib səhnədən keçdikdə Aslan və Fərman onun qabağına çıxırlar.

A s l a n. Ey, farmazon, pasportunu bura ver.

Ş a m i l. Mənim adım farmazon deyil.

F ə r m a n. Bilməsə deməz. Sən pasportunu ver.

Ş a m i l. Siz kimsiniz, nə ixtiyarla məndən pasport istəyirsiniz?

A s l a n. İctimai kontroluq, insanların əxlaqını yoxlayırıq. Pasportda bir maddə var, ona baxacağıq.

Ş a m i l. Rədd olun! Mən hər adama pasport göstərmərəm.

A s l a n (*Fərmana*). Ə, get, kapitanı bura çağır...

F ə r m a n. Bu dəqiqə çağırım. (*Şamilə.*) Bu saat səni oğru kimi tutduracağıq.

Ş a m i l. Mən, oğru? Səhv salmısınız.

A s l a n. Heç səhv salmamışıq. Sən əsil oğrusan, namus oğrusu.

F ə r m a n. A dost, gəl bir də kapitana zəhmət verməyək. Pasportunu bəri ver, bircə səhifəsinə baxaq, bəlkə heç sözümüz olmadı, çıxıb getdin. Nə deyirsən, şef?

A s l a n. Yalvarma ona. Sən öl, yenə başladı hirsim tvist oynamağa. Bu saat sənin əlini-qolunu bağlayıb atacağam düz Qız qalasının başına.

Ş a m i l. Sizin zor eləməyə ixtiyarınız yoxdur. Mən çığıraram, bütün camaatı yığaram başıma.

Saleh gəlir.

S a l e h. Bu nə səs-küydür, nə olub?

Ş a m i l. Bax, bu kişi məni tanıyır, bizim kolxozda işləyir.

S a l e h. Nə əhvalatdır, yoldaş keçmiş müdir müavini?

Ş a m i l. Keçmiş niyə?

S a l e h. Bəs xəbərin yoxdur? Bu gün sizi işdən götürüblər. Deyirlər getsin kolxoza, aqronomluq, filan-behman... Ancaq məsələ onda deyil. Burada nə səs-küydür?

Ş a m i l. Əşi, bunlar məni kiminlə isə dolaşıq salıblar. Təcili işim var, getməliyəm, ləngidirlər.

S a l e h. Qələt eləyirlər, dünya özbaşınadır?

F ə r m a n (*Salehə*). Bağışlayın, yoldaş, hirslənməyin, icazə verin, papirosumu yandırım, gedim.

S a l e h. Məndə kibrit yoxdur.

Ş a m i l. Gətir bura, yandırım, başdan olun. (*Fərmanın papirosunu yandırır.*) Aha, yadıma düşdü. Sən məndən bir dəfə də papiros yandırmısan.

F ə r m a n. Gözəl hafizəniz var. (*Şamilin cibindən çıxardığı pasportu göstərir.*) Buyurun, pasport hazırdır.

Ş a m i l. Pasportumu mənə ver. Sən onu cibimdən necə çıxartdın ki, xəbərim olmadı?

S a l e h. Pasportu bura ver, həlləhuş! (*Pasportu alıb baxır.*) Bəh, bəh, kənddə arvadı, uşağı, filan-behman.

A s l a n. Hə. Onda o arvadın və uşağın adından sənə iki kəlmə sözümüz var.

F ə r m a n. Gələn var, ayıq olun.

Aslan və Fərman Şamili güclə səhnə arxasına çəkirlər.

S a l e h. Qorxma, yoldaş keçmiş müdir müavini, sənin başından bir tük də əskik olmayacaq. Çəkilək bir tərəfə, sözləri var, desinlər.

Gedirlər. Şəlalə gəlir.

Ş ə l a l ə (*öz-özünə*). Hələ gəlməyib. Yaşım ötdükcə daha çox zəng eləməli, daha çox gözləməli oluram. (*Aslan ağır addımlarla onun qabağından keçib gedir.*) Aslan? Bu keçən Aslan idi? Yox, yəqin o deyil, olsaydı, məni tanıyardı.

Fərman gəlir.

F ə r m a n. Xanım, yoldaş Məndilov burdan getdi?

Ş ə l a l ə. Sən o iki alan tələbə deyilsən? Yenə buralarda hərlənirsən?

F ə r m a n. İnstitutdan çıxartdılar. İndi yoldaş Məndilovu axtarıram. Buradan keçən o deyildi?

Ş ə l a l ə. Burdan bir adam keçdi, amma... siz deyən adamın adı nədir?

F ə r m a n. Məndil. Məndil Məndilov.

Ş ə l a l ə. Yox, elə adam görməmişəm.

F ə r m a n. Başağrısı verdim. Bağışlayın. (*Gedir.*)

Ş ə l a l ə (*öz-özünə*). Aslan... gözümə Aslan göründü. Əsəblərim nə qədər korlanıb. (*Saleh ağır addımlarla səhnədən keçib gedir.*) Saleh? İndi də gözümə Saleh görünür! Yəqin qızdırmam var. Uf, ürəyim tıppıldamağa başladı.

Fərman gəlir.

F ə r m a n. Xanım, indi bu biri tərəfə bir adam getdi, yoldaş Məndilov deyildi?

Ş ə l a l ə (*əsəbi*). Nə istəyirsən məndən? Məndilov, Zənbilov...

F ə r m a n. Susun... elə deməyin, eşidər. Bilirsiniz, yoldaş Məndilov kimdir? Tikiş fabrikinin müdir müavini.

Ş ə l a l ə. Hansı tikiş fabrikinin?

F ə r m a n. Burada bir tikiş fabriki var, müdiri də Umud yoldaşdır. Tanımırsınız?

Ş ə l a l ə (*özünü itirir*). Mən? Yox, yox, tanımıram.

F ə r m a n. Əlbəttə, haradan tanıyacaqsınız? Haman Umud yoldaşın bir müavini vardı, namussuzun, qeyrətsizin biri idi. Bu gün onun dalından dəydilər, yerinə Məndilovu təyin elədilər. Onu axtarıram, işə düzəlmək istəyirəm.

Aslan ilə Saleh gəlirlər.

A s l a n. Sətrə bət alon no!

S a l e h. Firəngcə yaxşı bilmirəm, keç öz dilimizə...

F ə r m a n. Mən sizi axtarıram, hansınız Məndilovsunuz?

A s l a n. İkimiz də.

F ə r m a n (*Şəlaləyə*). Yəqin qardaşdırlar. (*Onlara.*) İkinizdən bir təvəqqem var.

S a l e h. Üçüncü qardaşımız da var, onu da tapaq, sonra... Gəl dalımızca...

Şəlaləyə baxıb rəqs edə-edə gedirlər.

Ş ə l a l ə. Bəlkə mən yuxu görürəm, ikisi birdən?.. Cəhənnəm olsun Şamil də, hamısı da... Mən bu küçədən uzaq qaçım.

Getmək istədikdə Şamil qabağına çıxır.

Ş a m i l. Şəlalə xanım!

Ş ə l a l ə. Hardasan? Ərli qadını küçədə bu qədər gözlədərlər? Gözümüzün qabağına min cür qara-qura gəlir.

Ş a m i l. Ərli qadın buyursun.

Ş ə l a l ə. A, bu gün hamı birtəhərdir. "Buyursun-muyursun". Nə rəsmi danışırsan? Ə, deyirlər səni işdən götürüblər, Şəlalə ölməyib, qorxma.

Ş a m i l. Qorxmuram. Lap düz eləyiblər. Kolxoza, əsas işimlə məşğul olmağa gedirəm.

Ş ə l a l ə. Hara gedirsən? Bu saat əmrini dəyişdirərəm, əlimdə deyil? İndi hər şey vasitəylədir. Birini qaldırırlar vasitə ilə, yıxırlar vasitə ilə, söyürlər vasitə ilə, tərifləyirlər vasitə ilə. O qədər vasitəm var ki, istəsəm bir günün içində müdiri kuryer, kuryeri müdir elətdirərəm.

Ş a m i l. İstəmirəm. Elə bunu deməkçün məni bura çağırmışdınız?

Ş ə l a l ə. Yox... Sənin çıxmağından heç xəbərim yox idi.

Ş a m i l. Bəs nə üçün?

Ş ə l a l ə. Özün başa düşmürsən nə üçün? Sevməsəm, buralara gələrəm?

Ş a m i l. Yalandır.

Ş ə l a l ə. Nə yalandır?

Ş a m i l. Nə olacaq? Bütün sözləriniz. Məlum oldu ki, bu cür sözləri siz çox adama demisiniz, indi isə xam torpaq kimi məni şumlamaq istəyirsiniz.

Ş ə l a l ə. Nə sarsaq-sarsaq danışırsan, mən səndən başqa daha kimə söz demişəm?

Ş a m i l. Birinci növbədə ərlərinizə, Umuda, Salehə, Aslana.

Aslan, Saleh və Fərman gəlirlər.

A s l a n. Bizi kim isə çağırdı.

S a l e h. Çağıran olmadı, adımızı çəkdilər.

Ş ə l a l ə. Deməli, gözümə görünmürmüş, həqiqət imiş?

S a l e h. Bəli, biz həqiqətik, canlı insanlarıq. Ətimiz, qanımız, ürəyimiz... amma sən tamam insan deyilsən, yarımçıqsan. Xaricdən bir cürə, daxildən ayrı cürə. Sifətdən mələyə oxşayırsan, sinəndə döyünən isə yırtıcı canavar ürəyidir. Fikrin, hissin, gülüşün, danışığın – hamısı yalandır.

Ş ə l a l ə. Yalanı sən mənə danışdın. Sən məni qoyub qaçdın.

S a l e h. Mən oddan, alovdan, yanğından baş götürüb qaçdım.

A s l a n. Qoçaq çıxmısan. Mənim kimi kor olmamısan.

Ş a m i l. Yaxşı ki, məni də vaxtında ayıltdınız.

A s l a n. Hamını ayıltmaq lazımdır, xüsusilə cavanları.

F ə r m a n. Cavanlardan arxayın ol, şef!

Ş ə l a l ə. Bu nədir? Küçənin ortasında mənə məhkəmə qurmaq istəyirsiniz?

S a l e h. Səni həyat özü mühakimə edəcəkdir.

Umud, Xumar, Rəfiqə, Kəklik və Zəki əllərində
gül dəstələri içəri girirlər.

Ş ə l a l ə (*Umudun üstünə qaçır*). Umudcan! Bunlar mənə böhtan atırlar. Bu güllər nədir, hara gedirsiniz?

U m u d. Doğum evinə gedirik. Oğlum olub, onu bu dostlarımla tanış etmək istəyirəm. Daha məni gözləmə, Şəlalə, öz ailəmə qayıdıram.

Şəlalə. Öz ailən hansıdır?

Umud. Sevgi və qayğı ilə dolu olan ev mənim ailəmdir.

Şəlalə. O evin qiymətini uşaq olan kimi bildin?

Umud. Yox, hələ uşaq olmamışdan qabaq, səni yavaş-yavaş tanıyanda onun qiyməti qalxmağa başlamışdı. İndisə, bu uşaq məni ailəyə, həyata elə bağladı ki, min Şəlalə yığılsa, qopara bilməz.

Şəlalə. Qopma, çox lazımdır, onsuz da mənə layiq kişi deyildin.

Umud. Biz gedirik, Şəlalə, sən isə, işə gir, öz əlinin əməyilə yaşa.

Şəlalə. Gedin. O sizin borcunuz deyil, yaşamağın qaydasını mənə öyrətməyin. Mən özüm öz işimi çox yaxşı bilirəm.

Rəfiqə. Gözəlliyinə arxayın olma. Yalan get-gedə öləcək, sən də onunla bərabər.

Şəlalə. Ölməyəcəyəm. Mən ölümün özünü də aldadacağam.

Rəfiqə. Gedək, Umud qardaş, arvadınız gözləyir.

Xumar. Körpənin gözü yoldadır.

Kəklik. Körpənin də, anasının da... Zəki, qabağa düş, yol göstər!

Zəki. Yolumuz aydındır!

Çıxırlar. Şəlalə səhnədə tək qalır.

Şəlalə. Hamı getdi. Hərənin bir işi, bir ailəsi var. Mən isə burada, küçədə tək qaldım. Elə bil bütün dünyada təkəm.

Son dərəcə qocalmış, haldan düşmüş Tərlan xanım gəlir.

Tərlan xanım. Tək deyilsən. Mən də səninlə varam.

Şəlalə. Xala, nə yaxşı gəlib çıxdın. Məni niyə qoyub getmişdin?

Tərlan xanım. Heç yerə getməmişdim, həmişə səninlə idim. Həmişə sənin ürəyində, beynində dolaşırdım. Hərəkətlərinə rəhbərlik eləyirdim, sözlərinə istiqamət verirdim.

Şəlalə. Nə yaman qocalmısan, ayaq üstə dayana bilmirsən.

Tərlan xanım. Məni bu təzə dünya qocaltdı. Ayağımı hara atıramsa, başımdan vurub məhv eləməyə çalışırlar. Uzun zaman bir yerdə qərar tuta bilmirəm, tanıyıb qovurlar. Hayıf deyildi o vaxtlar, atam Muxtar bəyin dövləti...

Şəlalə. Sən yenə yalan danışmağa başladın?

T ə r l a n  x a n ı m. Bizim sənətimiz odur. Yalan dünyada ən güclü silahdır. Əlində bu cür silah olandan sonra niyə tək qalırsan? Həyat sənə zərbə vuranda daha güclü bir zərbə ilə ona cavab ver. Mənim bir ayağım keçmişdədir, bir ayağım qəbirdə. Sən ki bu zamanın övladısan, özünü niyə itirirsən?

Ş ə l a l ə. Düz deyirsən, xala, təslim olmaq yaramaz. Mən yenə vuruşacağam. İnsanlar havasız, susuz yaşaya bilmədikləri kimi yalansız da yaşaya bilmirlər.

T ə r l a n  x a n ı m. Əlini ver mənə. Heç qəm çəkmə. Arxayınam ki, ölsəm də, səni öz yerimdə qoyub gedəcəyəm. (*Şəlaləni qucaqlayır, sonra qolundan tutub qabağa çəkir. Səhnə fırlanır, tamaşaçıların gözləri qarşısında şəhərin müxtəlif mənzərələri canlanır. Qorxmuş, özünü itirmiş Şəlalə get-gedə canlanmağa, gülümsəməyə, nəhayət, gülməyə başlayır. Səhnə firlandıqca Şəlaləni, Tərlan xanımı da fırladır.*)

Saleh və Aslan hərəsi bir tərəfdən gəlib tamaşaçılara müraciət edirlər.

S a l e h. Bu cür kişilər də var, ayıq olun.

A s l a n. Ehtiyatlı olun! Yalan aramızda gəzir, yaxın qoymayın!

PƏRDƏ

# İLYAS ƏFƏNDİYEV

(1914-1996)

*İlyas Məhəmməd oğlu Əfəndiyev – nasir, dramaturq, XX əsr Azərbaycan ədəbiyyatı klassiki, Füzuli şəhərində, tacir ailəsində anadan olmuşdur. APİ-nin coğrafiya fakültəsini bitirmişdir (1938).*

*Ədəbi fəaliyyətə "Berlində bir gecə" (1939) hekayəsi ilə başlamış, həmin ildə "Kənddən məktublar" adlı ilk kitabı nəşr edilmişdir. Ədibin "Söyüdlü arx" (1958), "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost" (1963), "Sarıköynəklə Valehin nağılı" (1978), "Geriyə baxma qoca" (1980), "Üçatılan" (1981) kimi romanları, onlarla hekayə və povestləri XX əsr Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Onun "İntizar" (Mehdi Hüseynlə birlikdə, 1944), "Bahar suları" (1948), "Atayevlər ailəsi" (1954), "Sən həmişə mənimləsən" (1964), "Mənim günahım" (1967), "Unuda bilmirəm" (1968), "Məhv olmuş gündəliklər" (1969), "Mahnı dağlarda qaldı" (1971), "Qəribə oğlan" (1973), "Bağlardan gələn səs" (1975), "Xurşidbanu Natəvan" (1981), "Büllur sarayda" (1983), "Şeyx Məhəmməd Xiyabani" (1986), "Bizim qəribə taleyimiz" (1988), "Sevgililərin cəhənnəmdə vüsalı" (1989), "Tənha iydə ağacı" (1991), "Dəlilər və ağıllılar" (1992), "Hökmdar və qızı" (1996) kimi pyesləri Azərbaycan dramaturgiyasının inkişafında mərhələ təşkil etmiş, milli teatr tarixində "İlyas Əfəndiyev teatrı" estetik hadisəsini yaratmışdır. Əsərləri bir çox xarici dillərə tərcümə edilmiş, müxtəlif teatr səhnələrində tamaşaya qoyulmuşdur.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvü (1940), Xalq yazıçısı (1979), Əməkdar incəsənət xadimi (1960) fəxri adlarını almışdır. Dövlət mükafatı laureatıdır (1972). "Şərəf nişanı" (1949), "Qırmızı Əmək Bayrağı" (1971), "Oktyabr inqilabı" (1974), "Lenin" (1984) ordenləri ilə təltif edilmişdir. Müstəqil Azərbaycan Respublikasının "Şöhrət" ordenini almış (1994) ilk yazıçıdır.*

# HÖKMDAR VƏ QIZI

*1990-cı il yanvar ayının 20-də Bakıda qəfildən gülləbaran edilmiş Azərbaycan şəhidlərinin əbədi xatirəsinə ithaf edirəm.*

***İlyas Əfəndiyev***

*XVII əsrin xronikası*

İŞTİRAK EDƏNLƏR

İbrahim xan
Tubu xanım
Ağabəyim ağa
Saday bəy
Səltənət bəyim
Əbülfət xan
Mirmöhsün ağa
Cavad xan
Kəlbəli xan
Məhəmməd xan
Hüseynqulu xan
Haykanuş
Sisyanov
Lisaneviç
Vanya
Xidmətçilər
Rusəsgərləri
Yavərlər

BİRİNCİ ŞƏKİL

Şuşa qalası. İbrahim xanın iqamətgahı. Ağaməhəmməd şahın Şuşanı istilası zamanı Balakənə qaçmış İbrahim xanın Ağa Məhəmməd şah öldürüləndən sonra təkrar sağ-salamat Şuşaya qayıtması münasibətilə sarayda şadyanalıq. Musiqi. Cavanlar rəqs edirlər. Xanın qızları Ağabəyim ağa və Səltənət bəyim də, Cavad xanın oğlu Hüseynqulu xan da, Qaradağ atlılarının gənc sərkərdəsi Saday Şirxan oğlu da onların arasındadır. Axund Mirmöhsün ağa zərif parçadan tikilmiş ağ libasda, ağ əmmamədə səhnənin yuxarısında görünür.

Mirmöhsün ağa. Camaat! Əlahəzrət hökmdarımız İbrahim ağa Balakəndən bütün ailəsilə sağ-salamat qayıdıb təkrar öz taxt-səltənətinə sahib olması münasibətilə xalqa əfvi ümumi əta eləyib zindandakı məhbusların azadlığı barədə sərəncam verir.

Səslər. Allah xanın ömrünü uzun eləsin!

Səslər. Allah xanı həmişə öz taxt-səltənətində bərqərar eləsin!

Səslər. Adil hökmdarımız İbrahim xana eşq olsun!

İbrahim xan ağır addımlarla səhnənin hündürlüyündə görünərək camaata əl edir.

İbrahim xan. Camaat, mən sizin sədaqətinizə həmişə əmin olmuşam. Qəhrəman Qarabağ camaatı heç bir zaman satqın olmamışdır. Azərbaycan türkləri heç bir zaman namərd olmamışdır. Onu da sizin nəzərinizə çatdırmaq istəyirəm ki, mənim və ailəmin Balakəndən bura sağ-salamat gəlib çıxmağımız ancaq Qaradağ atlılarının və onun cavan sərkərdəsi Saday Şirxan oğlunun igidliyi sayəsində mümkün olmuşdur. Saday Şirxan oğlu üç dəfə şəxsən özü özünü ölüm təhlükəsinə məruz qoyaraq, bizi xilas etmişdir.

Səslər. Yaşasın Saday Şirxan oğlu!

Səslər. Sağ olsun Qaradağ igidləri!

İbrahim xan. Ona görə də mən, ədalət naminə, Saday Şirxan oğluna və onun bütün törəmələrinə bəylik rütbəsi verirəm.

Saday bəy. Sağ olsun adil hökmdarımız İbrahim xan.

İşıq sönür.

## İKİNCİ ŞƏKİL

Ağabəyim ağa və Saday bəy.

Ağabəyim ağa. Saday bəy, biz səni dübarə təbrik edirik. Çox şadam ki, sənə birinci dəfə mən Saday bəy deyirəm.

Saday bəy. Təşəkkür edirəm, Ağabəyim ağa. Ancaq mən əlahəzrət xanı və ailəsini düşməndən mühafizə edərkən, "bəylik" rütbəsi barədə düşünməmişəm.

Ağabəyim ağa. Saday bəy, mənim bacım da, hətta Hüseynqulu xan da bilirlər ki, mən səni öz atlılarınla Balakənə – bizim köməyimizə gəldiyin vaxtdan qabaq tanıyıram. Onda sən bəy deyildin.

Saday bəy. Rica edirəm, mənə bəy deməyin, sadəcə, adımı deyin.

Ağabəyim ağa. Yox, deyəcəyəm. Uca, sarp qayalar arasında düşmənlərlə vuruşa-vuruşa bu gözəl Şuşa qalasını tikdirən Xan babam Pənah xanın da əvvəli Qarabağın Sarıcallar obasından çıxmış adisadə igid bir oğlan idi. O da xanlıq rütbəsinə gedən çətin yolları öz qılıncı ilə açmışdır. Sən də o adı öz igidliyinlə almısan.

S a d a y  b ə y. Pənah xanın igidlikləri haqqında bizim Qaradağ mahalında da əfsanələr danışırlar.

A ğ a b ə y i m  a ğ a. Saday bəy, böyük bir dəstə Qaradağ atlısı Balakənə – bizim köməyimizə gələndə, mən eyvanda durub tamaşa edirdim. Qabaqda gələn ucaboylu boz atın üstündəki arıq oğlanın dəstənin sərkərdəsi olduğunu biləndə, əvvəl nə üçünsə təəccüb elədim... Sonra birdən-birə mənə elə gəldi ki, bu oğlanı harada isə görmüşəm... Və sevmişəm...

S a d a y  b ə y. Siz şahlara layiqsiniz, Ağabəyim ağa.

A ğ a b ə y i m  a ğ a. Saday bəy, sən mənim nişanlım olmaq istərdin?

S a d a y  b ə y. Ağabəyim ağa, siz dünyanın ən nəcib xanımısınız. Xan atanız, bizim hökmdarımız sizi adi bir tərəkəmə oğluna verməz. Bunu bildiyim üçün mənim böyük məhəbbətim qəlbimin dərinliklərində taleyinə tabe olub.

A ğ a b ə y i m  a ğ a. Danış, Saday bəy. Mənim səadətim olan bu hissin sənin qəlbinə haradan, necə daxil olduğunu danış.

S a d a y  b ə y. Keçən yay siz Topxana meşəsində dincəlirdiniz. Mən bir dəstə atlı ilə Qaradağ xanından hökmdarımız İbrahim xana hədiyyə gətirirdim. Siz də böyük ipək çadırın qapısında uca palıdın kölgəsində dayanıb fikirli-fikirli Kirs dağlarına baxırdınız. Siz o qədər gözəl görünürdünüz ki, mən Peyğəmbərimiz Rəsul Allahın "Əhsənülxaliqin" sözlərini bilaixtiyar təkrar etdim.

A ğ a b ə y i m  a ğ a. Peyğəmbər əleyhissalam sonra Ayişə ilə izdivac etdi. Demək...

S a d a y  b ə y. Dedim ki, siz şahlara layiqsiniz, Ağabəyim ağa.

A ğ a b ə y i m  a ğ a. Sən indi adi bir tərəkəmə oğlu deyilsən. Sən hökmdarın ailəsini və özünü üç dəfə ölümdən qurtarmış igidlər igidi Saday bəysən. Mən yolda sənin düşmən nəfərlərilə necə qılınclaşdığını gördüm. Mənə elə gəlirdi ki, sən bizi xilas etmək üçün Allah tərəfindən göndərilmiş fövqəlbəşər bir məxluqsan.

S a d a y  b ə y. Mən son nəfəsimə qədər sizin keşikçiniz olacam.

A ğ a b ə y i m  a ğ a. Yox. Sən mənim nişanlım olacaqsan. Xan atasının əziz xələfi olan Ağabəyim ağanın iradəsi belədir. (*Uzaqlara baxaraq.*) O nə karvandır? Bizim yerlilərə oxşamırlar.

S a d a y  b ə y (*diqqətlə baxaraq*). Tehran karvanına oxşayır.

İşıq sönür.

ÜÇÜNCÜ ŞƏKİL

Səltənət bəyim və Hüseynqulu xan gəlirlər.

Hüseynqulu xan. Səltənət bəyim, sənin nişanlın sağ-salamat gəlib çıxdığınız üçün öz gözəl sevgilisini təbrik etməyə əliboş gəlməyib... Yerişinə, duruşuna vurulduğun "qumral ürkə"sini sənə hədiyyə gətirib.

Səltənət bəyim (*heyranlıqla*). O... Hüseynqulu xan. Mən inanmaram ki, mənim cavan nişanlım dünyada bütün gözəllərin gözəli olan "qumral ürkə"dən ayrıla bilsin.

Hüseynqulu xan. Mən "qumral ürkə"dən ayrılmıram. Mən onu sənə, öz sevgilimə bağışlayıram.

Səltənət bəyim. Sağ ol, mənim igidim... Gedək. "Qumral ürkə"nin üstündə qızıl quş kimi uçacam. (*Səltənət bəyimlə Hüseynqulu xan getmək istəyirlər. Tubu xanım daxil olur.*)

Tubu xanım. Qızım, mən eşidirəm ki, sən Cavad xanın gənc oğlu Hüseynqulu xanı nişanlı adlandırırsan...

Səltənət bəyim. Bəli, ana, adlandırıram. Axı mən hiss edirəm ki, sənin də, Xan atamın da meyliniz belədir. Səndən nə gizlin, mən də... onu çox sevirəm.

Tubu xanım. Mən bunu bilirəm. Ancaq nəzərə al ki, biz sizi hələ rəsmi nişanlamamışıq. Qabaqda böyük bacın Ağabəyim ağa var... Dədə-baba adətimizə görə...

Səltənət bəyim. Başa düşürəm, ana, əvvəl böyük bacı, sonra kiçik bacı.

Tubu xanım. Hüseynqulu xan ləyaqətli övladdır, mənim də xoşuma gəlir.

Səltənət bəyim. Atası Cavad xan kimi igiddir, uzaq şimaldan bizim gözəl vətənimizə göz dikən düşmənlərin gözlərinə güllə sıxmağa hazırdır. O da mənim kimi vətənimizin gözəlliklərinə, igid atlarına heyrandır.

Tubu xanım. Əlbəttə, igid nəslinə çəkər... Cavad xanın qəhrəmanlığına nə söz ola bilər? Ancaq həddindən artıq inadkardır.

Səltənət bəyim. Bilirəm, nəyə işarə vurursan, ana. Cavad xan qoşun çəkib vətənimizi işğal etməyə gələn çar generalı Zubovu Xan atamın duz-çörəklə qarşılamasına dözə bilməzdi...

T u b u  x a n ı m (*əsəbi*). Xan atan nə etdiyini bilirdi... Cavad xan uzun illərdən bəri ölkəni ağılla idarə eləyən İbrahim xanla hesablaşmalı idi. Xan atanın siyasətini mühakimə etmək yaramaz. Sənin isə, belə düşünməyin heç yaramaz. Eşitdinmi, yaramaz! (*Tubu xanım əsəbi halda çıxır.*)

İşıq sönür.

DÖRDÜNCÜ ŞƏKİL

İbrahim xanın iqamətgahı. İbrahim xan və Mirmöhsün ağa səhnəyə daxil olurlar.

M i r m ö h s ü n  a ğ a. Əlahəzrət! Çapar İran şahənşahı Fətəli şahdan sizə namə gətirib.

İ b r a h i m  x a n. Maraqlıdır. Mirmöhsün ağa, oxu görək nə məsələdir?

M i r m ö h s ü n  a ğ a (*naməni açıb oxumağa başlayır*). Əzəmətli, şöhrətli Qarabağ hakimi İbrahim xan həzrətlərinə şahənşah İran – əzəmətli Fətəli şahdan salam. İbrahim xan, hökmdarımız Ağa Məhəmməd şah Qacarın cənazəsini hörmətlə Tehrana göndərməyinizdən xeyli məmnunam. Şöhrətli Qarabağ xanlığı ilə dostluq və himayədarlıq münasibətini daha da möhkəmləndirmək üçün İbrahim xanın gözəl qızı Ağabəyim ağa ilə izdivac arzusunda olduğumu bildirirəm. Ağabəyim ağanın ağlı, fərasəti mənə məlum olduğundan və o məhz sizin – İbrahim xanın qızı olduğundan, onu özümə baş hərəm etmək fikrindəyəm. Oğlunuz Əbülfət ağanı da öz sarayıma dəvət edirəm.

Qısa pauza.

İ b r a h i m  x a n. Mirmöhsün ağa necə fikirləşir?

M i r m ö h s ü n  a ğ a. Əlahəzrət! Sizin taxt səltənətinizin İran şahı ilə qohumluğu, əlbəttə ki, Azərbaycan xalqı üçün xeyli xeyirli olar. Bir halda ki, şah özü də Azərbaycan türküdür. Ancaq...

İ b r a h i m  x a n. Ancaq...

M i r m ö h s ü n  a ğ a. Ancaq, əlbəttə ki, əgər qızınız bu izdivaca razılıq verərsə... Ağabəyim ağa vəzir kimi ağıllı bir qızdır. Onun şah sarayında olması güman edirəm ki, sizin səltənətinizlə İran şahı arasındakı dostluğun daha da rövnəq tapmasına kömək edər.

İ b r a h i m  x a n. Mən istərdim bu dostluq gözəl Azərbaycan torpağını yüz yerə parçalamış, bir-birinə düşmən kəsilmiş bədbəxt

xanlarımızı birləşdirib vahid, müstəqil bir dövlət yaratmaqda mənə kömək eləsin. Lakin İran şahı özünə bitişik ikinci, qüvvətli bir müsəlman dövlətinin yaranmasına razı olarmı?

Mirmöhsün ağa. Əlahəzrət! Fətəli şah özü də türk olduğu üçün başqa millətin padşahı ilə qonşu olmaqdansa, özünə qohum olan, öz millətindən olan bir dövlətlə qonşu olmağı üstün tutar.

İbrahim xan (*əsəbi*). Mirmöhsün ağa, İran şahları – Nadir də, Ağa Məhəmməd də, Fətəli şahın özü də türk olduqlarını çoxdan unutmuşlar. Axı sən bunu bilirsən.

Mirmöhsün ağa. Bəli, əlahəzrət, unutmuşlar. Fəqət bunun təqsiri bizim bəzi məhdud düşüncəli ruhanilərimizdə olmuşdur. Onlar heç bir zaman ərəbin ərəb, farsın fars, türkün türk olduğunu dillərinə, fikirlərinə gətirməmişlər. Milli təfəkkürü, milli səciyyəni, milli ruhu unudaraq, hamını müsəlman adlandırmaqla kifayətlənmişlər. Axı böyük Allah havayı yerə bəşəriyyəti müxtəlif millətlər şəklində yaratmamışdır.

İbrahim xan. Allah rəhmət eləsin Şah İsmayıl Xətayiyə. İran şahlarından yalnız o, türk olduğunu unutmadı.

Mirmöhsün ağa. Əlahəzrət! Elə zənn edirəm ki, Ağabəyim ağanın ağılı, fərasəti Fətəli şaha türk olduğunu təlqin edər. Siz, Fətəli şah taxta çıxan kimi, Ağa Məhəmməd şahın cənazəsini hörmətlə Tehrana göndərməkdə çox ağıllı hərəkət elədiniz. Fətəli şah ağıllı adamdır. O bilir ki, yalnız Qarabağ deyil, Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Xoy, Qaradağ, Təbriz, Ərdəbil, Marağa əsasən sizə tabedir. Onu da bilməmiş deyil ki, Dağıstan və Avar hakimi Ümmə xanın bacısı ilə izdivacınız hakimiyyətinizi daha da qüvvətləndirmişdir. Əlahəzrət, güman edirəm ki, Fətəli şahla dostluq münasibəti bütün Azərbaycan xanlıqlarının sizin hakimiyyətinizdə qəti birləşməsinə kömək edər.

İbrahim xan. Mən buna şübhə edirəm, Mirmöhsün ağa. İran şahı Təbrizdən, Xoydan, Marağadan əl çəkməz. Ona görə də rus padşahı Yekaterinanın əmri ilə general Zubov gəlib Dərbəndi alanda mən oğlum Əbülfət ağanı böyük hədiyyələrlə onun yanına göndərib öz ixlasımı ona izhar etdim.

Mirmöhsün ağa. Əlahəzrət, Zubov Dərbənd qalasını bir dost kimi yox, bir istilaçı padşah generalı kimi silah gücünə almışdı.

İbrahim xan. Mən İran şahı ilə də, rus padşahı ilə də dostluq tərəfdarıyam.

İşıq sönür.

## BEŞİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. İbrahim xan və Ağabəyim ağa.

İbrahim xan. Mənim istəkli, ağıllı qızım, özün bilirsən ki, sənin hər bir arzun mənim üçün əziz olmuşdur. Budur, indi Allahın köməkliyi ilə böyüyüb boya-başa yetmisən. Allahın buyurub, Peyğəmbərin xəbər verdiyi kimi, daha ərə getmək yaşına çatmısan. Fətəli şah elçi göndərib səni özünə baş hərəm etmək istəyir. (*Pauza.*) Şah, qardaşın Əbülfət ağanı da öz sarayına dəvət edir.

Ağabəyim ağa. Xan atam! Sən lap körpəliyimdən məni o qədər nazlandırmısan ki, heç bir arzumu, heç bir istəyimi səndən gizlətməmişəm. İndi də gizlətmək istəmirəm.

İbrahim xan. Əlbəttə, gizlətməməlisən.

Ağabəyim ağa. Mən Fətəli şah həzrətlərinə zövcə olmaq istəmirəm.

İbrahim xan. Nə üçün? Gərək ki, şəklini görmüsən. Bir kişi kimi xoşuna gəlmir?

Ağabəyim ağa. Məsələ onda deyil, xan ata.

İbrahim xan. Bəs nədədir? Çəkinmə. Ürəyində hər nə varsa, de.

Ağabəyim ağa (*birdən xanın qarşısında diz çökərək*). Xan ata, sənin mənə olan məhəbbətindən qüvvət alıb deməyə cəsarət edirəm ki, mənim ürəyim başqa bir şəxsdədir.

İbrahim xan. Xub. Kimdir o xoşbəxt insan ki, mənim əziz qızımın ürəyi ona belə bənd olub.

Ağabəyim ağa. O, Qaradağ atlılarının sərkərdəsi Saday bəydir, xan ata...

Qısa pauza.

İbrahim xan. Saday bəy ləyaqətli oğlandır. Üç dəfə məni və mənim ailəmi ölümdən xilas etdiyi üçün ona çox borcluyam. Lakin, qızım, Şirxan oğlu Saday neçə min illik İran taxt-səltənətinin şahı deyil.

Ağabəyim ağa. Xan ata, sənin nə ləl-cavahiratın, nə səltənətinin əzəməti İran şahınınkından əskik deyil. Azərbaycan igidləri sənin başına and içirlər. Ona görə də, güman etmirəm ki, şöhrətli xan atam məni ancaq Fətəli şah olduğu üçün ona vermək istəyir.

İ b r a h i m  x a n. Mənim ağıllı qızım. Sənin fəxrlə yad elədiyin Azərbaycan igidləri bilirsən ki, həmişə mənim də iftixarım olublar. Mən də həmişə Qarabağ, Qaradağ igidlərilə, Təbriz, Naxçıvan, Şəki, Şirvan igidlərilə fəxr etmişəm. Lakin bizim faciəmiz ondadır ki, bu igidlər bütün bir xalq halında birləşməyiblər. Ayrı-ayrı xanlıqlara bölünüblər. Sən onu da bilirsən ki, mənim həmişə ən yüksək amalım bu xanlıqları birləşdirib Azərbaycan türklərinin yenilməz, qüdrətli dövlətini yaratmaq olmuşdur. Mən böyük Şah İsmayılın əkdiyi toxumları göyərtmək istəyirəm...

A ğ a b ə y i m  a ğ a. Ax, xan ata, sənin bu böyük amalın həmişə mənim də şirin xülyalarım olub.

İ b r a h i m  x a n. Nə eləyəsən ki, bizim xanları bir amal ətrafında birləşdirmək mümkün deyil, hərəsi bir tərəfə çəkir. Hərəsi bir hökmdar olmaq istəyir.

A ğ a b ə y i m  a ğ a. Onları birləşməyə məcbur etmək lazımdır.

İ b r a h i m  x a n. Doğrudur. Lakin mənə kömək lazımdır. Mən Fətəli şahla ona görə qohum olmaq istəyirəm ki, Azərbaycan xanlıqlarını birləşdirib, vahid bir dövlət yaratmaqda o mənə kömək eləsin. Əgər sən onun zövcəsi olarsansa, o bu köməyi mənə vəd edər.

A ğ a b ə y i m  a ğ a. Xan ata, o oğlan adi tərəkəmə içindən çıxmış bir igiddir. Sənin kimi qüdrətli hökmdarın istəkli qızı olan mənim onu istəməyim məni öz gözümdə göylərə qaldırmışdı. Mənə fövqəladə azad bir səadət kimi görünmüşdü. İndi onu atıb şaha ərə getmək...

İ b r a h i m  x a n. Vətən borcu, vətən şərəfi o qədər böyük, o qədər müqəddəs bir hissdir ki, ona əmr etmək olmaz. O gərək insanın öz qəlbindən gəlsin. Ona görə də, mən səni məcbur eləyə bilmərəm. Rus padşahının generalı Dərbənd qalasını alıb oturub orda. Bu, yəqin ki, onun Qafqaz yürüşünün sonu deyil, hər şey öz ixtiyarındadır, qızım. (*Çıxır.*)

A ğ a b ə y i m  a ğ a. Ey böyük Yaradan! Nə üçün sən məni bu qədər çətin imtahana çəkirsən? Əgər, belə olacaq idisə, nə üçün o igidin məhəbbətini mənim qəlbimə bu qədər hakim edirdin? Vətən məni köməyə çağırır. Mən onun övladıyam. Mən onun çağırışına əməl eləməsəm, cəhənnəmə layiq bədnam bir məxluq olaram. İlahi! Bu imtahandan mənim mərd çıxmağıma kömək elə. (*Göz yaşları içində taxta yıxılır.*)

İşıq sönür.

## ALTINCI ŞƏKİL

Eyni məkan. Ağabəyim ağa ilə Saday bəy.

Ağabəyim ağa. Saday bəy, bir Allah bilir ki, mən sənin məhəbbətinlə özümü nə qədər xoşbəxt sanırdım. Necə xoşbəxt xəyallara dalırdım. Sən igidsən, dözəcəksən. Ancaq o qürbətdə səndən, bu gözəl Qarabağdan həmişəlik ayrı düşmək mənim üçün çətin olacaq... Çox çətin olacaq, Saday bəy. Vətənin gələcəyi dardadır. Rus padşahı Yekaterina Qafqazı və eləcə də Azərbaycanı istila etmək, Osmanlı imperiyasının yolunu kəsmək cəhdini artıq gizlətmir. İbrahim xanın, atamın isə güclü bir arxası, köməyi yoxdur. Yəqin ki, sən mənim nə demək istədiyimi...

Saday bəy. Başa düşürəm. Siz başqa cür hərəkət eləyə bilməzdiniz.

Ağabəyim ağa. Qoy böyük Allah hər ikimizin qəlbinə qüvvət versin.

Saday bəy. Amin! Əgər, yeddi canım olsaydı, yeddisini də vətənimiz uğrunda qurban verərdim, məhəbbətimdən keçməzdim. Lakin böyük Yaradan bizə bir can verib. Siz düz buyurursunuz, vətənsiz o can bizi xoşbəxt eləyə bilməzdi. Əmin ola bilərsiz, Təbriz, Xoy, Qaradağ igidləri hər an sizin qulluğunuzdadır. Siz özünüzü Tehranda yalqız hiss eləməyin. Tərəkəmə oğlu Saday və onun dostları həmişə sizinlədir.

Ağabəyim ağa. Böyük Allah sizin qılınc çalan qolunuza qüvvət versin.

Saday bəy. Böyük Yaradan sizi vətənimizin azadlığı ilə xoşbəxt eləsin, Ağabəyim ağa.

İbrahim xanın iqamətgahı.
Böyük toy məclisi. Ağabəyim ağanı Fətəli şaha gəlin köçürürlər. Cavanlar rəqs edirlər. Səltənət bəyim də, Hüseynqulu xan da, başqa cavanlar da buradadırlar. Hamı böyük şənlik içindədir. Yalnız Qaradağ atlılarının sərkərdəsi Saday bəy xeyli aralıda təkcə dayanıb bu şənliyə tamaşa edir. İbrahim xanın arvadı Tubu xanım və gəlinlik paltarında olan gözəl Ağabəyim ağa saray xadimlərinin müşayiətilə saraydan çıxırlar. Əbülfət ağa İbrahim xana yaxınlaşır.

İbrahim xan. Oğlum Əbülfət, sən neçə minillik tarixi olan İran taxt-səltənətinə Azərbaycan xalqının bir nümayəndəsi kimi gedirsən. Sən atan İbrahim xanın adına layiq hərəkət etməlisən.

Əbülfət xan. Bilirəm, xan ata. Amma, xan ata, mən vaxtilə Altay dağlarından tutmuş Karpat dağlarına qədər uzanan ölkələrə hökm etmiş Çingiz xanın, Şərqdən Qərbə qədər bütün dünyanı titrədən Əmir Teymurun nəslindən olduğumu unutmamışam.

İbrahim xan. Əhsən! Əhsən, oğlum! Amma çalış ki, düşmənlər öz işləri üçün səndən istifadə etməsinlər.

Əbülfət xan. Baş üstə, xan ata. Mənimçün hər şey aydındır.

İbrahim xan. Yaxşı, bəs biz neyçün dayanmışıq? Axı sən yola hazırlaşmalısan.

İbrahim xan və Əbülfət ağa gedirlər. Tubu xanımla
Ağabəyim ağa səhnəyə daxil olurlar.

Tubu xanım. Qızım, indi səni Tehrana yola salarkən, yeganə təsəllim odur ki, o qərib şəhərdə ağlın, kamalın hər zaman sənə kömək olacaq. Nə etməli, qızım, biz xanzadə qadınların taleyi çox zaman belə olmuşdur. Bizə xoşbəxtlik, sevinc müjdəsi gətirən məhəbbət göyərçini taleyin hansı oxuna isə hədəf olmuşdur. O oğlanı unut. Mən də qadınam, bilirəm ki, bu asan deyil. Ancaq çalış unut. Qoy bu köməksiz vətənimizin səadəti uğrunda göstərdiyin fədakarlıq sənin təsəllin olsun. Səni xoşbəxt eləsin. Bilirsən ki, əgər, sən özün vətənimizin böyük taleyi üçün məhəbbətini fəda eləyib bu izdivaca razılıq verməsəydin, xan atan səni məcbur eləməyəcəkdi. Sənin sevdiyin oğlanın da xətri xan atanın yanında əzizdir... Ancaq nə etməli...

Ağabəyim ağa. O, mərd igiddir, ana. Bu nisgilli ayrılığa o da mənim kimi dözəcəkdir. O mənim xan atamdan da rəncidəxatir olmadı. Çünki bizim məhəbbətimizi Allah vətənimizə qurban elədi.

Tubu xanım. Qoy böyük Allah vətənimiz üçün hər cəfaya hazır olan igidlərimizin himayədarı olsun.

İbrahim xan, Mirmöhsün ağa və başqa saray əyanları saraydan çıxırlar. Ağabəyim ağa xan atasının qarşısında diz çöküb əlindən öpür. Xan onu qaldırıb alnından öpür. Sonra Əbülfət ağa yaxınlaşıb atasının qarşısında diz çökür. Xan onu da qaldırıb alnından öpür. Musiqi sədaları altında səhnə dəyişir. Şuşa qalasının Ağdama baxan tərəfində qala divarlarının üstündə tək-tənha dayanmış Saday bəyi görürük. O, arana gedən yola baxaraq, Ağabəyim ağanın çox uzaqdan eşidilən məşhur bayatısına qulaq asır:

Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran cənnət də olsa,
Yaddan çıxmaz Qarabağ.

İşıq sönür.

## YEDDİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. İbrahim xan taxtda əyləşib. Mirmöhsün ağa da buradadır. Xidmətçi daxil olur.

Xidmətçi. Əlahəzrət, Naxçıvan xanı Kəlbəli xan, İrəvan hakimi Məhəmməd xan hüzurunuza təşrif gətiriblər.

İbrahim xan. Buyursunlar.

Xidmətçi çıxır. Kəlbəli xanla Məhəmməd xan daxil olub, İbrahim xana xanlıq təmkini ilə təzim edirlər.

İbrahim xan. Qarabağa təşrif buyurduğunuzu eşidib, şad oldum, ağalar. Nə əcəb sizdən?

Kəlbəli xan. Biz səninlə məsləhətləşməyə gəlmişik, İbrahim xan. Rus padşahının böyük generalı Sisyanov gəlib Tiflisdə əyləşib.

Məhəmməd xan. O, Naxçıvan xanlığından da, bizim İrəvan xanlığından da tələb edir ki, padşahına tabe olaq.

Pauza.

İbrahim xan. Mən bunu iki gün bundan qabaq bilmişəm. Bəs, siz nə fikirdəsiniz?

Kəlbəli xan. Naxçıvan xanlığı heç bir padşaha tabe olmaq istəmir.

İbrahim xan. Siz necə düşünürsünüz, Məhəmməd xan?

Məhəmməd xan. İrəvan xanlığı da heç bir padşaha tabe olmaq istəmir, İbrahim xan. Bilirsiniz ki, nə siz, nə də biz heç vaxt xaçpərəst tayfasına düşmən münasibət göstərməmişik. Yekaterinanın vaxtında onun böyük generalı Qafqaza gələndə sən hörmətli elçilərlə generala hədiyyələr göndərdin. Öz ixlasını bildirdin. Mən də dünyanın müxtəlif yerlərindən İrəvana gələn, yer-yurd istəyən ermənilərin heç birini rədd etməmişəm. Lakin biz öz istiqlaliyyətimizi itirə bilmərik.

Kəlbəli xan. İbrahim xan, sən İran şahı Fətəli şahla qohum olmusan. Oğlun Əbülfət ağa da hal-hazırda onun sarayında xanlıq vəzifəsindədir. Deyirlər ki, şah qızınız Ağabəyim ağanın ağıl-fərasətinə valeh olub, onu baş hərəm təyin eləyib. Deyirlər, şah hər bir dövlət tədbirini də Ağabəyim ağa ilə məsləhətləşir. Əgər, Fətəli şah bizə kömək eyləyəcəyini vəd edərsə, biz də Sisyanovun təklifini rədd edərik.

M ə h ə m m ə d  x a n. Mən də Kəlbəli xanla həmfikirəm. Bizə özü də türk olan İran şahının köməyi lazımdır.

M i r m ö h s ü n  a ğ a. Xanlar, bağışlayın ki, mən sizin işlərinizə müdaxilə edirəm.

K ə l b ə l i  x a n. Buyurun, axund. Sizin sözləriniz bizim üçün qiymətlidir.

M i r m ö h s ü n  a ğ a. Mütəşəkkirəm, cənab Kəlbəli xan. Hörmətli ağalar, İbrahim xan dəfələrlə siz Azərbaycan xanlarına müraciət eləyib, təklif elədi ki, gəlin nə şərtlərlə istəyirsinizsə, bütün xanlıqları birləşdirib vahid Azərbaycan dövləti yaradaq, hətta İbrahim xan onu da buyurdu ki, istəyirsiniz biz də, Nadir şah Əfşarın vaxtilə Muğanda çağırdığı kimi, məclis çağırıb bu məsələni orada, bütün xalq nümayəndələrinin iştirakı ilə həll eləyək. Heç kəs əlahəzrət İbrahim xanın ağıl səlimilə elədiyi bu təklifə qol qoymadı. Əgər siz xanlıqlar birləşib vahid bir dövlət təşkil etsəydiniz, indi sizin güclü bir ordunuz olardı. Siz xanlar birləşmək istəmədiniz. Hörmətli ağalar, siz unutdunuz ki, Peyğəmbər əleyhissalam yüzlərcə yerə bölünmüş ərəb qəbilələrini birləşdirməsəydi, islam dünyası o qədər vüsətli qələbələrə nail ola bilməzdi.

M ə h ə m m ə d  x a n. Mirmöhsün ağa, sizin sözləriniz həqiqətdir. Ancaq indi bu barədə düşünmək daha gecdir. Rus generalı bizim rus padşahına tabe olmağımızı tələb edir. Biz isə bunu istəmirik.

K ə l b ə l i  x a n. Biz öz azadlığımızı itirmək istəmirik.

Cavad xan daxil olur.

C a v a d  x a n. Salam, ağalar.

İ b r a h i m  x a n. Əleykəssalam, Cavad xan. Bu gün mənə xəbər çatdı ki, general Sisyanov səndən Gəncə qalasının təslim olmasını tələb edir.

C a v a d  x a n (*acıqlı*). Bəli, tələb edir. Bu, rus padşahının istila siyasətinin davamıdır... Yekaterinanın əmri ilə general Zubov Qafqaza yeriyib, Dərbəndi mühasirə eləyəndə mən sizə dedim ki, təcili surətdə qoşunlarımızı birləşdirib Dərbəndin köməyinə getməliyik, heç kəsdən səs çıxmadı. Zubov Dərbəndi alandan sonra bizim ağsaqqalımız İbrahim xan ona hörmətli elçilərlə qiymətli hədiyyələr göndərib rus padşahına ixlasını bəyan etdi. Budur, indi də Sisyanov... Ağalar, böyük türk sərkərdəsi Ağa Məhəmməd şah da rus padşahının Azərbaycanı istila etmək siyasətinin qarşısını almaq üçün Qarabağa,

Tiflisə hücum etmişdi. İbrahim xanın çar generalı Zubovu o cür ixlası, hədiyyələrlə qarşılamağı, rus padşahına tabe olmağa hazır olduğunu bildirməsi Ağa Məhəmməd şahı əsəbiləşdirmişdi. Qarabağlıların onu öldürməyi böyük tarixi səhv idi. Ancaq, ağalar, biz öz səhvlərimiz barədə mübahisəyə başlasaq, uzun çəkər. Vaxt gözləmir. Mən yenə də sizə müraciət edirəm. Gəlin bir dəqiqə itirmədən, döyüş qüvvələrimizi birləşdirib Sisyanova cavab verək. Mən sizi inandırıram ki, çarın istilaçı qoşununun dalı gəlib çıxana qədər biz Sisyanovu qovub Azərbaycan sərhədlərindən xeyli uzaqlaşdıra bilərik.

Ağır sükut.

İbrahim xan. Cavad xan mənə ağır ittihamlar verir. Ancaq, ağalar, gəlin ədalətlə danışaq, hər cürə silahı, böyük qoşunu olan iki böyük dövlətin arasındayıq. Ona görə mən çalışırdım ki, biz bütün Azərbaycan xanlıqlarını birləşdirib, vahid, güclü bir dövlətə çevirək.

Mirmöhsün ağa. Əlahəzrət İbrahim xan düz buyurur, ağalar. Min dəfə təəssüf ki, heç bir xan dünya siyasətini nəzərə almadı. Öz məhdud hakimiyyətinə uyaraq, beş ildən, on ildən sonra onu nə gözləyə biləcəyi haqqında düşünmədi.

İbrahim xan. Ona görə də, indi biz bu iki dövlətdən birinə iltizam eləməliyik. Çox fikirləşəndən sonra mən bu qərara gəlmişəm ki, biz rus padşahıyla daha tez dil tapıb dost ola bilərik.

Cavad xan. Nəyə görə?

İbrahim xan. Ona görə ki, bütün Azərbaycan ölkəsinə sahib olmaq, onu İran dövləti ilə birləşdirmək İran şahlığının çoxdankı arzusudur. Bizim hər ikimiz müsəlman ölkəsiyik. Biz rus padşahından daha asan istiqlaliyyət ala bilərik.

Kəlbəli xan. İbrahim xan, İran şahının özü də türkdür. İran xalqının əksəriyyəti türkdür, türkcə danışır. Bizim adət-ənənələrimiz, dinimiz birdir. Elə güman edirəm ki, biz İranla, xüsusən Fətəli şahla daha tez dil taparıq.

Məhəmməd xan. Biz demək olar ki, bir torpaqda yaşayırıq. Rus padşahının paytaxtı ilə bizim aramızda üç min verstə qədər məsafə var. Dinimiz ayrı, dilimiz ayrı...

Cavad xan. Ağalar, əgər siz gələcək istiqlaliyyət haqqında düşünürsünüzsə, bu, xam xəyaldır. Gəlib torpağımızda kök salan, qalalarımızda hakim olan heç bir dövlət təzədən bizə istiqlaliyyət verməz. Ona görə də, nə rus padşahı, nə də İran şahı.

İbrahim xan (*ani dərin düşüncədən sonra*). Cənab xanlar, siz uzaq yoldan gəlib yorulmusunuz. Buyurun, bir az istirahət eləyin, sonra söhbətimizi davam etdirərik.

Kəlbəli xan, Məhəmməd xan, Cavad xan və
Mirmöhsün ağa gedirlər.

İbrahim xan (*tək*). Heç kəs məni başa düşmür. Xalqımızın həqiqi azadlığı çətin tilsimə düşmüşdür. Azərbaycan xalqı qəvidir, igiddir. Lakin onun qılıncı nə qədər iti olsa da, iki divin pusqusunda dayandığı bu tilsimi qan tökməklə sındıra bilməz. Mən igidlərin qılıncını sülh siyasəti ilə əvəz etmək istəyirəm. Bizim nicat yolumuz budur. Ona görə də, gözümün işığı olan ağıllı qızımı İran şahına ərə verdim. Ona görə də, rus generalı Zubova qiymətli hədiyyələr göndərib, rus padşahına öz ixlasımı bəyan etdim. İndi eyni siyasəti general Sisyanovla da aparmaq istəyirəm. Nə üçün məni başa düşmürlər? Nə üçün?.. Nə üçün?..

İşıq sönür.

## SƏKKİZİNCİ ŞƏKİL

İranda Fətəli şahın iqamətgahı. Ağabəyim ağanın otağı.
Ağabəyim ağa həyəcanla səhnəyə daxil olaraq, pəncərənin
pərdəsini qaldırıb bayıra baxır.

Yarın gecə vaxtında xoş əhvalını gördüm,
Vurmuşdu könül şişəsinə balını gördüm.
Naz eyləməyin hər cürə minvalını gördüm,
Açdım sinəsin, sinədəki xalını gördüm.
Yasər bu imiş, bəs niyə aləm Həccə getdi,
Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim ömrüm necə gəldi, necə getdi.

Ağabəyim ağa (*pıçıltı ilə*). Odur, Saday bəy... Bu nə deməkdir, ilahi, bu gecə mən o oğlanı yuxumda görmüşdüm... İndisə özünü barigahda görürəm... O nə üçün gəlmişdir? Ey böyük Allah, mənim onu yuxuda görməyimi ərimə xəyanət hesab etmə. Sənə əyandır ki, mən həmişə onun haqqında düşünməməyə çalışıram. Ərimlə aramızda heç bir gizli sirr qalmasın deyə, mən vaxtilə o oğlanı sevdiyimi şaha bəyan etdim. Şah alicənab insandır, gülümsəyib dedi ki, eybi yoxdur, qız vaxtı belə hallar olur... Ey böyük Allah, o oğlan

barədə heç bir fikrin, heç bir hissin mənim qəlbimə yol tapmamasına kömək elə.

Saday bəy daxil olur və Ağabəyim ağanın
qarşısında diz çökərək təzim edir.

Ağabəyim ağa. Qalx, Saday bəy. Mən bu gecə səni yuxumda görmüşdüm. İndi sarayda sağ-salamat gördüyümə çox şadam. Əyləş. Azərbaycandan, Qarabağdan həyəcanlı xəbərlər alırıq, Saday bəy... Deyir çar generalı Sisyanov gəlib Azərbaycan sərhədinə çatıb...

Saday bəy. Sisyanov sərhədimizi keçib Gəncə qalasının açarını və Cavad xanın rus çarına tabe olmasını tələb edir.

Ağabəyim ağa. Cavad xan nə cavab verir?

Saday bəy. Cavad xan Sisyanovun tələbini qəzəblə rədd edərək, onunla vuruşmaq üçün hökmdarımız İbrahim xandan kömək istədi...

Ağabəyim ağa (*səbirsiz halda*). Nə cavab verdi xan atam?

Saday bəy (*soyuq tərzdə*). İbrahim xan üstüörtülü bildirib ki, rus padşahına tabe olmaq lazımdır...

Ağabəyim ağa (*əsəbi halda*). Ola bilməz! Daima bütün xanlıqları birləşdirib müstəqil Azərbaycan dövləti yaratmaq və bu işdə İran şahlığına arxalanmaq fikrilə hərəkət edən xan atam necə oldu ki, birdən-birə rus çarına tabe olmaq qərarına gəldi? Ola bilməz! Ola bilməz!

Saday bəy. Təəssüf ki, həqiqətən belədir. Mənim bura gəlməkdə məqsədim sizin köməyinizlə Fətəli şah həzrətlərindən kömək istəməkdir. Biz Qaradağ atlıları da Cavad xanın köməyinə gedirik. Cavad xan nə qədər ağıllı, igid olsa da, ağır silahlı, top-tüfənglə silahlanmış, sayca çox olan çar qoşununun qabağını kəsə bilməz. Biz Cavad xanla birlikdə son nəfəsimizə qədər vuruşacağıq. Biz Şimaldan gəlib, vətənimizə, torpağımıza hakim olmaq istəyən rus çarına kölə ola bilmərik.

Ağabəyim ağa. Saday bəy, biz mənim xan atamın iradəsilə canımızdan əziz olan məhəbbətimizi vətənimizin azadlığına, onun arxasız, tək qalmamasına qurban vermişik. Fətəli şah həzrətləri bunu bilir. Mən hər şeyi ona danışmışam. Fətəli şah namərd hökmdar deyil. O, Azərbaycana kömək edəcəkdir. O bunu mənə vəd etmişdir.

Saday bəy. Bu kömək böyük İran dövlətinin özünə də çox vacibdir.

A ğ a b ə y i m  a ğ a. Fətəli şah bunu da bilir. Fətəli şah rus çarının şimaldan gəlib İranın qapıbir, dinbir qonşusu olan Azərbaycana hakim olmasına yol verməz.

Əbülfət xan həyəcanlı halda gəlir.

Ə b ü l f ə t x a n (*Saday bəyi görərək*). O... Saday bəy, səni gördüyümə çox şadam. (*Ağabəyim ağaya.*) Bu saat Azərbaycandan mənim yanıma təcili qasid gəlib xəbər verdi ki, çar generalı Sisyanov Gəncə qalasını mühasirəyə alıb, Cavad xandan açarı tələb edir.

A ğ a b ə y i m  a ğ a (*qızğın*). Və bizim hökmdar atamız İbrahim xan Cavad xana kömək etmək istəmir.

S a d a y  b ə y. Bəli, istəmir. O biri xanlar da, yəqin ki, əlahəzrət hökmdarımıza baxdılar... (*Ağabəyimə.*) Ağabəyim ağa, icazənizlə mən gedim. Atlılarım məni gözləyirlər. Gəldim hər şeyi olduğu kimi sizə çatdırım. Biz bilirik ki, sizin fikriniz şah həzrətləri üçün qiymətlidir. (*Təzim edərək çıxır.*)

A ğ a b ə y i m  a ğ a. Əbülfət xan, qardaşım, xan atamız çox böyük, tarixi səhv edir. Azərbaycanı rus çarının hakimiyyətinə vermək... bu dəhşətdir, qardaşım, gələcək nəsillər bizi lənətləyəcəklər.

Ə b ü l f ə t  x a n. Buna görə mən təcili sənin yanına gəlmişəm. Şah həzrətləri ilə tez danışmaq lazımdır. Bir dəqiqə gecikmədən şah Azərbaycana kömək üçün qoşun göndərməlidir.

A ğ a b ə y i m  a ğ a. Sən də mənimlə gedək şahın hüzuruna. (*Gedirlər.*)

İşıq sönür.

## DOQQUZUNCU ŞƏKİL

İbrahim xanın iqamətgahı. Vanya daxil olur.

İ b r a h i m  x a n. Nə xəbərlə gəlmisən, Vanya yüzbaşı?

V a n y a. Gecə-gündüz əlahəzrətin kölgəsində dolanıb, onun böyük səltənətinə xidmət eləmək səadətini Allah Vanya yüzbaşıya çox görməsin. Siz və sizin qəhrəman atanız Pənah xan, Qarabağın Dumu, Tuğ, Hadrut, Xankəndi, Daşaltı kimi səfalı yerlərində biz erməni gəlmələrinin yerləşib, ev-eşik tikib, kəndlər salmağımıza kömək eləmisiniz.

İ b r a h i m  x a n (*səbirsiz halda*). Yaxşı, Vanya yüzbaşı, sən bu sözləri mənə çox ərz eləmisən. Sonra?

V a n y a. Əlahəzrət! İnsan gərək yaxşılığı unutmasın. Əlahəzrətə məlumdur ki, mənim gətirdiyim xəbərlər Allahın köməkliyilə həmişə düz çıxıb.

İ b r a h i m  x a n. Hələ ki, düz çıxıb.

V a n y a. Mərhəmətli hökmdarımıza məlum olsun ki, Fətəli şahın xeyli böyük qoşun dəstəsi gecələrin bərk qaranlıq keçməsindən istifadə edərək, Naxçıvan və İrəvan xanlıqları sərhədlərinə tərəf hərəkət etməkdədir.

İ b r a h i m  x a n. Sonra?

V a n y a. Sonrasını deməyə cəsarət etmirəm, əlahəzrət...

İ b r a h i m  x a n (*qalxaraq, qəzəbli halda*). Qorxma, söylə.

V a n y a. Sizin oğlunuz Əbülfət xanın başçılığı ilə beş min nəfərlik şah qoşunu da Qarabağın Tuğ kəndinə tərəf yeriyir.

İ b r a h i m  x a n. Hardan bildin ki, o qoşunun başçısı mənim oğlum Əbülfət xandır?

V a n y a. Əlahəzrət, mənim xəbərçilərim çox bic dığalardır. Özləri də əlahəzrətin övladlarını yaxşı tanıyırlar... Onlar Tuğ, Kirs meşələrilə sürünə-sürünə, ağacdan-ağaca dırmaşa-dırmaşa qoşunun qərargahına xeyli yaxınlaşıb Əbülfət xanı aydın görüb tanıyıblar. Bizim Karapet keşişin oğlu...

İ b r a h i m  x a n (*əsəbi halda*). Nə deyir keşişin oğlu Ərtün?

V a n y a. Deyir, mənim ağlımca Əbülfət xanın qoşunu Qarabulağı keçib Şuşa və Gəncə qalalarına tərəf gedəcək.

İ b r a h i m  x a n. Səncə, İran qoşununun Quzey Azərbaycana bu cür yeridilməsindən Fətəli şahın məqsədi nə ola bilər?

V a n y a. Əlahəzrət, siz, biz erməni xalqına o qədər böyük iltifat göstərmisiniz ki, gərək sizin sadiq qulunuz Vanya yüzbaşı görüb hiss elədiklərini, ağlının dərk elədiyini olduğu kimi sizə ərz eləsin. Cənabınıza məlumdur ki, Fətəli şah əslən türk olsa da, Ağa Məhəmməd şah zamanında olduğu kimi, onun da bütün dövlət işləri farsca gedir. Özü farsca danışır. Demək, şah özü, bir növ, farslaşmışdır. O da əlahəzrətə məlumdur ki, farsların qədim dövrdən bəri türklərlə araları yoxdur. Onlar türkləri öz mədəniyyətlərindən xeyli aşağı hesab edirlər.

İ b r a h i m  x a n (*qəzəbli halda*). Onlar bunu açıq etiraf eləməyə cəsarət eləməzlər.

V a n y a. Əlbəttə ki, əlahəzrət, açıq etiraf eləməzlər. Ancaq əlaltından işlərini görürlər. Şah da tamamilə fars təsirində olduğu üçün, istəyir ki, həm Güney Azərbaycanı, həm də Quzey Azərbaycanı istila eləyib, tamam İran "şiri xurşidinə" tabe eləsin. Əlahəzrət, İranda farslar türklərdən az olsalar da, hökumətin siyasətinə təsirləri güclüdür. Ərz elədiyim kimi, dilləri İranda hakim dövlət dilidir. Bu isə çox mühüm məsələdir.

İ b r a h i m  x a n (*öz-özü ilə danışırmış kimi*). Bəs şahın bütün dövlət işlərində iştirak eləyən ağıllı qızım Ağabəyim, qəhrəman oğlum Əbülfət nə düşünür? Məgər onlar bilmirlərmi mənim yeganə arzum bütün xanlıqları birləşdirib müstəqil Azərbaycan dövləti yaratmaqdır? (*Qəzəblə.*) Necə olub ki, Fətəli şah məhz mənim oğlumun komandanlığı ilə Quzey Azərbaycana beş min qoşun göndərir? Doğrudanmı istila məqsədilə?

V a n y a. Yəqin, əlahəzrətə məlumdur ki, Fətəli şah da Nadir şah kimi, Ağa Məhəmməd şah kimi tamam fars təsirində olduqları üçün heç vaxt razı olmazlar ki, Azərbaycan İrandan tamam ayrılıb, müstəqil bir dövlət olsun... Əlahəzrət, qulluğunuza ərz edim ki, mən bu barədə düşünərkən, həm də bizim erməni xalqının taleyini nəzərdə tuturam. Yenə də təkrar edirəm ki, siz bizim yazıq ermənilərin İranda, Qarabağda yerləşib, özlərinə güzəran düzəldib yaşamalarına imkan yaratmısınız... Əgər, Allah eləməmiş, bütün Azərbaycan İran şahının əlinə keçsə, onlar buna razı olmazlar.

İ b r a h i m  x a n (*öz-özünə*). Bu xristian haqlıdır. Fətəli şah Quzey və Güney Azərbaycanın birləşib, onun qulağının dibində müstəqil bir dövlət olmasına dözməz. (*Pauza. Vanyaya.*) Sən bu gün təğyiri-libas olub, xəlvətcə Əbülfət xanın qərargahına gedib, ona deyərsən ki, mən təcili onu görmək istəyirəm.

V a n y a (*bərk qorxaraq*). Mənim çox zirək, yol-yolağı bilən xəbərçi dığalarım var. Əlahəzrətin icazəsilə onlardan lap bacarıqlısını bu saat göndərərəm.

İ b r a h i m  x a n. Bu görüşü heç kəs bilməməlidir. Özün getməlisən. Əbülfət xana deyərsən ki, mənimlə məxfi görüşməlidir. Tərpən.

V a n y a (*bərk qorxaraq*). Əlahəzrət, Əbülfət xanın qərargahına çatana qədər qoşun əhli məni tanıyıb tuta bilər.

İ b r a h i m  x a n. Elə et ki, tanıya bilməsinlər. Farsca da, azərbaycanca da təmiz danışırsan.

V a n y a (*bərk qorxaraq*). Əlahəzrət, ədəbsizlik eləyirəm, o qızılbaş hərbiyəlilər çox amansız olurlar. Məndən şübhələnib, soyundurub görsələr ki, müsəlman deyiləm...

İ b r a h i m  x a n. Elə et ki, şübhələnməsinlər.

V a n y a (*dili topuq vura-vura*). Əlahəzrət...

İ b r a h i m  x a n. Qurtardıq... Gedə bilərsən.

İşıq sönür.

## ONUNCU ŞƏKİL

İbrahim xanın iqamətgahı. Mirmöhsün ağa ilə Cavad xan səhnəyə daxil olurlar.

İ b r a h i m  x a n. Getdikcə çox mürəkkəb vəziyyət yaranır. Biz Ağa Məhəmməd şahın törətdiyi dəhşətlərdən sonra yenə fəlakətlərə düçar ola bilərik. Aldığım məlumata görə, Qızılbaş qoşunu Naxçıvan, İrəvan və Qarabağ sərhədlərinə doğru irəliləməkdədir. (*Gizli əsəbiliklə.*) Cavad xan, hal-hazırdakı vəziyyətdən çıxmaq üçün sən nə təklif edərdin?

C a v a d x a n. Əgər siz və eləcə də Şəki, Şirvan xanları – hər bir xanlıqdan mənə iki min nəfər atlı versəniz, ha eləyib Sisyanova əlavə kömək gəlib çatınca, mən onu ölkədən qovub çıxarardım.

İ b r a h i m  x a n. Sərhədimizə çatan Qızılbaş qoşunu ilə neylərsən?

C a v a d x a n. Bu sonrakı məsələdir. Mən elə zənn edirəm ki, sənin kürəkənin Fətəli şahla biz vətənimizin xeyrinə dil tapa bilərik. Mən qızınız əlahəzrət Ağabəyim ağanın ağlına inanıram. O bizə kömək edər.

M i r m ö h s ü n  a ğ a. Mən şimalda yaşayan rus milləti haqqında fəna bir söz deyə bilmərəm. Çünki bütün millətləri bir olan Allah yaradıb. Lakin rus padşahının Qafqaza və eləcə də Azərbaycana ağır toplarla, yeni əsləhə ilə silahlanmış qoşun yeritməsi ciddi şübhə doğurur. Mən əlahəzrət hökmdarımız İbrahim xanın icazəsi ilə bu şübhəmi bəyan etməyi özümə borc bilirəm. Əgər rus generallarının bu yürüşü sülh naminədirsə, nə üçün Zubov da, Sisyanov da, birinci növbədə, bizim ata-babalarımızın tikdirdikləri qalaların açarlarını tələb eləyib, orada öz qoşunlarını yerləşdirmək istəyirlər? Nə üçün

bütün xanların rus generallarına tabe olmağını istəyirlər? Ağır silahlarla, güclü qoşunla gəlib bizim qalalarımızda yerləşəndən sonra, çar generallarının hökmranlıq eləmələrinin bizi nə vəziyyətə salacağını təsəvvür eləyin. Allah-taala hər cürə köləliyin əleyhinədir, əlahəzrət İbrahim xan. Siz xalq qarşısında, gələcək nəsillər qarşısında məsulsunuz. Onu da bilin ki, bizim behişt kimi gözəl vətənimizə, onun məhsuldar torpağına, bitməz-tükənməz sərvətlərinə silahla sahib olan hər hansı hökmdar ondan daha əl çəkməz. Gələcək nəsillər bu ağaların zülmünü, sitəmini gördükcə, onları vətənə buraxan bizlərə lənətlər oxuyar...

İbrahim xan. Mən rus padşahlığının himayəsi haqqında danışarkən Azərbaycanın öz istiqlaliyyətindən əl çəkib, sözsüz, ona tabe olmaq fikrindən çox uzağam. Mən, birinci növbədə, rus çarına bildirməliyəm ki, biz onunla ancaq bərabər hüquqda səmimi dost ola bilərik.

Cavad xan (*əsəbi*). İbrahim xan, rus generalları Azərbaycanı işğal eləyəndən sonra rus padşahı səninlə dostluq mükaliməsinə girməz.

İbrahim xan. Mən günü sabahdan bu barədə təşəbbüsə başlayacağam. Mən o vaxt general Zubovla da bu dostluq barədə danışmışdım. O mənim fikrimi təkzib etmişdi...

Cavad xan. İbrahim xan, axırıncı dəfə təklif edirəm: təcili surətdə hazır atlılarımızı birləşdirib, Sisyanovu qovmaq üçün, lazım gəlsə, sərhədimizdə olan Fətəli şah qoşunları ilə də birləşmək lazımdır.

İbrahim xan. Mən general Sisyanovla görüşüb danışmamış heç bir qərara gələ bilmərəm.

Cavad xan (*əsəbi halda qalxaraq*). İbrahim xan, mən görürəm ki, məsələnin nə qədər ciddi olduğu nə sizi, nə də sizin nüfuzunuza hörmət eləyən möhtərəm xanları mənim qədər narahat eləmir. Ona görə də mən gedirəm və sizi xəbərdar edirəm ki, mən son nəfəsimə qədər rus padşahının qoşunu ilə vuruşacağam. Mən Mirmöhsün ağanın dediyi gələcək nəsillərin əbədi lənətinə məruz qalmaq istəmirəm. Mən türk namusunu, Azərbaycan torpağını axırıncı gülləmə qədər müdafiə edəcəyəm. (*Sürətlə çıxır.*)

İşıq sönür.

## ON BİRİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. XVIII əsrin hərbi paltarında olan gənc Hüseynqulu xan iti addımlarla daxil olur.

Hüseynqulu xan (*qonşu verandaya*). Səltənət bəyim.

Səltənət bəyim (*yüyürərək, sevincli halda gəlir*). Ah, ilahi! Kaş mənim bütün arzularım belə çin olaydı. Daşaltından qırxpilləkənlə Cıdır düzünə qalxırdıq. Mən kənizlərimə deyirdim: "Qızlar, nə olardı, gedib görəydik Hüseynqulu xan gəlib..." (*Hüseynqulu xanın geyiminə diqqət yetirərək.*) Bu nədir, məgər müharibəyə gedirsən?

Hüseynqulu xan (*ötkəm gənclik sevinc və qüruru ilə*). Gedəcəm. General Sisyanov atam Cavad xana ultimatum göndərib ki, qalanı ona təhvil verib, rus padşahına tabe olaq. Biz də müharibə eləyib, ona öz həddini bildirəcəyik.

Səltənət bəyim. Allah sizə kömək olsun, mənim cavan xanım. Yəqin ki, xan atam da, ona tabe olan xanlıqlar da sizə kömək eləyəcək?..

Hüseynqulu xan. Yox, kömək eləməyəcəklər. Atam onlara müraciət elədi, amma heç birindən səs çıxmadı. Biz tək vuruşacağıq. Sisyanovun qoşunu Gəncə qalasına gedən yolları tutub. Mən dağlarla, meşələrlə səninlə görüşməyə gəldim. Fikir elədim ki, müharibədir, birdən vurarlar, səni görmərəm.

Səltənət bəyim. Oy, Allah eləməsin. Sənə gələn qada mənə gəlsin, mənim nişanlım, mənim igid xanım! Mən sənin hicranına bir dəqiqə də dözmərəm. Bir ucu Təbriz, bir ucu Dərbənd, neçə xanlıq atamın bir sözü ilə nə qədər qoşun çıxara bilər... Doğrudanmı xan atam bu dar gündə Cavad xana kömək etmək istəmir?

Hüseynqulu xan. İbrahim xan rus padşahına tabe olmaq istəyir. Onun ürəyi rus padşahı ilədir.

Səltənət bəyim. Nə üçün? Axı rus padşahı neçə min verst bizdən uzaqda – buzlar ölkəsindədir. Biz heç rusu nə görmüşük, nə də tanıyırıq. Axı nə üçün onlar şimaldan gəlib bizə ağalıq eləməlidirlər?

Hüseynqulu xan. Biz heç kəsə qul olmayacağıq, Səltənət bəyim. Biz son nəfəsimizə qədər vuruşacağıq. Türk xalqı heç bir zaman heç bir yadelli padşaha qul olmayıb.

Səltənət bəyim. Bəs nə üçün mənim hökmdar atam bizim gözəl vətənimizin rus padşahına tabe olmağını istəyir? Yox, mən buna inanmaram. O, Ağa Məhəmməd şaha tabe olmaq istəmədiyi halda, indi rus padşahına tabe olmaq istəyir?! Ola bilməz!

Hüseynqulu xan. Artıq bu barədə düşünmək gecdir, Səltənət bəyim. Salamat qal. Mən düşmənlə vuruşduqca, sən daima gözümün qabağında olacaqsan.

Səltənət bəyim. Yox! Mən sənin yanında olmaq istəyirəm. Mən də səninlə birlikdə düşmənlə vuruşmaq istəyirəm. Sən məni də özünlə apar. Özün bilirsən ki, nişana atmaqda heç bir igiddən geri qalmıram. Mən də gedirəm.

Hüseynqulu xan (*gülümsəyir*). Bu mümkün deyil.

Səltənət bəyim. Sənin mənə bağışladığın "qumral ürkə"ni minib kənizlərimlə birbaşa Gəncə qalasına çapacam. Qarabağdan Gəncəyə gedən dağ yollarına mən də bələdəm. Xan atam o yerlərdə ov eləyəndə mən də onun izdihamında olardım. Mənim kənizlərim də çox igid bəy qızlarıdır. Mütləq gələcəyik.

Hüseynqulu xan (*gülümsəyir*). Sənin qəhrəman təbiətin məni düşmənlə vuruşa tələsdirir. Hələlik, mənim nişanlım. Xan atalarımız bizi, hələlik, rəsmi nişanlamasalar da...

Səltənət bəyim. Biz özümüzü nişanlamışıq. Qoy böyük Yaradan bu günahsız nişanı uğurlu eləsin.

Hüseynqulu xan. Mən bilirəm ki, sən bir sözü dedin, eləyəcəksən. Amma sənin davaya gəlmək istədiyini qoy zarafat hesab eləyək.

Səltənət bəyim. Yox... gələcəm.

Hüseynqulu xan. Sən mənim canım, heylə şey eləmə.

Səltənət bəyim. Oy, canına qurban kəsilim. Mənim igid nişanlım!

Hüseynqulu xan Səltənət bəyimə təzim edərək
iti addımlarla gedir.
İşıq sönür.

## ON İKİNCİ ŞƏKİL

İbrahim xan öz otağında təkdir. Hiss olunur ki, fikri uzaqlardadır.
Səltənət bəyim daxil olub, atasının qarşısında diz çökərək əlindən öpür.

Səltənət bəyim. Dedilər, məni soruşmusan. Biz Cıdır düzündə oğlanlarla qaçmaqda ötüşürdük.

İbrahim xan. Oğlanlarla?

Səltənət bəyim. Bəli. Oğlanlarla ötüşməyə özün icazə vermisən...

İbrahim xan. Elədir.

Səltənət bəyim. Sabahdan oğlanlarla nişana atmaq yarışı da keçirəcəyik.

İbrahim xan (*gülümsəyir*). Ohoo... Yoxsa, siz düşmənlə vuruşmağa hazırlaşırsınız...

Səltənət bəyim. Nə olsun ki, hazırlaşırıq... Deyirlər ki, sən zəhləm gedən çar qoşunlarının Azərbaycana, Qarabağa... hətta, basılmaz Şuşa qalasına daxil olmasına icazə vermisən?

İbrahim xan (*ciddi*). Bilirsən, qızım, sənin siyasətlə məşğul olmaq vaxtına hələ çox var. Səni dövlət sirlərini müzakirə üçün çağırmamışam. Deyirlər, sən Cavad xanın oğlu Hüseynqulu xana qədərindən artıq hüsnü təvəccöh göstərirsən, elədirmi?

Səltənət bəyim (*ötkəm*). Bəli... elədir.

İbrahim xan. Afərin. Sənin mərdanə cavabın həmişə mənə xoş gəlir. Bilirəm, sizin dostluğunuz o oğlanla dərs aldığınız zamandan başlayıb.

Səltənət bəyim. Elədir, bəli...

İbrahim xan. İndi istəyirəm biləsən ki, sizin münasibətiniz, sadəcə, bu dostluqdan o yana gedə bilməz.

Səltənət bəyim. Mən bunu necə başa düşüm, ata?

İbrahim xan. Yəni, biz Cavad xanla qohum ola bilmərik.

Səltənət bəyim. Nə üçün, ata?

İbrahim xan. İcazə ver, "nə üçünlüyünü" mən özüm bilim.

Səltənət bəyim (*həyəcanla*). Ata, Cavad xanın igidliyi, vətənpərvərliyi dillərdə deyilir. Onun general Sisyanova verdiyi cavab hamını, biz Qarabağ camaatını da heyran etmişdir.

İbrahim xan (*qəzəblə*). Bəsdir. Sən onun oğlu ilə izdivac etməyəcəksən! Qurtardıq! Gedə bilərsən!

Səltənət bəyim çıxır. İbrahim xan tək qalır.
İşıq sönür.

## ON ÜÇÜNCÜ ŞƏKİL

General Sisyanovun qərargahı. General böyük çadırda var-gəl edir.
Mayor Lisaneviç daxil olaraq hərbi təzim edir.

Lisaneviç. Bizim kəşfiyyatçılar bir nəfər erməni tutublar. Onun verdiyi məlumata görə, İbrahim xan Cavad xana kömək göstərməkdən imtina eləyib.

Sisyanov. Nə səbəbə?

Lisaneviç. Səbəbini bilmir.

S i s y a n o v. Belə çıxır ki, İbrahim xanın rus padşahına tabe olmaq arzusu həqiqətə uyğundur?

L i s a n e v i ç. Belə görünür. İbrahim xan bu arzusunu general Zubova da bəyan etmişdi.

S i s y a n o v. Çağır o ermənini bura.

Lisaneviç çıxır. General papiros yandırır. Lisaneviç iki əsgərlə Vanyanı gətirir.

S i s y a n o v (*Vanyaya*). Sən Qarabağdan niyə qaçmısan?

V a n y a. Mən əlahəzrət rus padşahına xidmət eləmək istəyirəm.

S i s y a n o v. Nə üçün?

V a n y a. Əlahəzrət, ona görə ki, rus padşahı ilə dinimiz, məzhəbimiz birdir. Türklər isə bizim düşmənimizdir.

S i s y a n o v. Nə üçün? Türklər sizin Qarabağda, İrəvanda yerləşib kəndlər, obalar salmağınıza imkan veriblər. Sizə toxunmurlar.

V a n y a. Əlahəzrət...

S i s y a n o v. De görüm, bizim qərargaha səni kim göndərib?

V a n y a (*qorxmuş halda*). Mənim bura gəlməkdə yeganə məqsədim əlahəzrət rus padşahına qulluq eləməkdir. Axı əlahəzrətin ordusunda erməni millətindən də vəzifəli şəxslər olub.

S i s y a n o v (*Lisaneviçə*). Qoy bu qoçağa həqiqəti dedirtsinlər.

V a n y a (*bərk qorxaraq dalbadal xaç çevirir*). Astvas du bahi, astvas du bahi. (*Əsgərlər onu döyürlər.*) Əlahəzrət, mən gəlmişəm sizin Gəncə qalasını almağınıza bələdçilik eləyəm. Mən Qalaya gedən bütün gizli yolları bilirəm.

S i s y a n o v (*gülümsəyir*). A... yoxsa, sən məlik olmaq istəyirsən?

V a n y a. Mən əlahəzrət generalın bu mərhəmətinə ona edəcəyim xidmətimlə nail olmaq istəyirəm. Qoy gələcək erməni məlikləri bilsinlər ki, bu şərəfli adı onların babasına mərhəmətli rus generalı verib.

S i s y a n o v. Oho... Sən tarixə düşmək istəyirsən...

V a n y a. Əlahəzrət, tarix barədə bizimki heç vaxt gətirməyib. Biz tarixə həmişə məyus halda düşmüşük.

S i s y a n o v. Təqsir özünüzdədir. Ayağınızı yorğanınıza görə uzatmırsınız. Siz Armeniya ideyası üçün ağlasığmaz dərəcədə böyük coğrafi sahə nəzərdə tutursunuz. Siz Böyük Don Kixotdan ağıl götürsəydiniz, yaxşı olardı. Bizdə məlumat var ki, sən İbrahim xana xidmət edirsən. Nə oldu ki, qaçdın?

V a n y a. Əlahəzrət, məlumatınız doğrudur. Ancaq mən ermənilərin bir lideri kimi çalışıram Fətəli şahla İbrahim xanın arası dəysin, yəni İbrahim xan Fətəli şaha inanmasın, düşmən olsun ona.

S i s y a n o v. Nə üçün? Bu ermənilərə nə xeyir verə bilər?

V a n y a. Əlahəzrət, ərz elədim ki, türklər bizim ənənəvi düşmənimizdir. Fətəli xan da türkdür. Əgər o, İbrahim xanın Xəzər dənizi sahilində, Təbrizdən tutmuş Gürcüstana qədər olan böyük bir ərazidə Azərbaycan dövləti yaratmasına kömək eləsə, Qafqaz erməniləri tamam məhv olarlar. Bir tərəfdən Osmanlı türklərinin, o biri tərəfdən də Qafqaz türklərinin hakimiyyəti... Biz istəyirik ki, rus padşahı Fətəli şahla İbrahim xanın arasındakı düşmənçilikdən istifadə eləyib, Qafqazı istila eləsin.

S i s y a n o v. Və siz ermənilərin İranda erməni dövləti yaratmağına kömək göstərsin. Eləmi?

V a n y a. Bəli... Bəli. Əlahəzrət, bəli.

S i s y a n o v (*əsgərlərə*). Aparın bu qonağı yedirdin, içirdin. (*Vanyaya.*) Əgər sənin bələdçiliyin dürüst olmazsa...

V a n y a. Astvas du bahi. O zaman boynum sizin şöhrətli qılıncınız altındadır, əlahəzrət. Ancaq sizə bir məsləhətim var.

S i s y a n o v. Nə məsləhətdir o?

V a n y a. Bu gün müsəlmanların orucluq bayramıdır. Axşam molla minarədən azan verən kimi, bütün müsəlmanlar süfrə başında əyləşib cürbəcür yeməklərlə oruclarını açacaqlar. Sizin üçün bu çox əlverişli hücum məqamı olar.

S i s y a n o v. Molla saat neçədə oxuyacaq?

V a n y a. Axşam saat yeddidə, əlahəzrət.

S i s y a n o v. Yaxşı. (*Əsgərlərlə Vanya çıxırlar. Mayor Lisaneviçə.*) Tapşır bu hərifin heç bir hərəkətini gözdən qoymasınlar. Demək, Qalaya qəti hücum üçün hər şey hazırdır?

M a y o r. Tamamilə, əlahəzrət.

S i s y a n o v. Cavad xan Azərbaycan xanlarının ən barışmazı, imperator hökumətinin ən amansız düşmənidir. Deyirlər, özü də çox igiddir, cəsarətli adamdır. Bu vuruşda biz onu məğlub etsək, başqa xanların gözünün odunu almış olarıq. Bütün yaxın-uzaq Şərqə yol açmaq üçün Dağıstanı, Azərbaycanı, Gürcüstanı bir dəqiqə də vaxt itirmədən istila eləyib, rus padşahına tabe etmək lazımdır. Cavad xandan sonra yolumuz birbaşa Bakıyadır. (*Saatına baxır.*) Müsəlmanların oruclarını açmalarına az qalır. Qoy döyüş şeypuru çalınsın.

Mayor Lisaneviç sürətlə çıxır. Döyüş şeypuru guruldayır.
Səhnə arxasından zabitlərin komanda səsləri eşidilir. İşıq sönür.

## ON DÖRDÜNCÜ ŞƏKİL

Səhnə od-alov saçan döyüş cəbhəsinə çevrilir. İşıq gah vuruş meydanında qəzəblə atışan cavan Hüseynqulu xanı, gah düşmən cəbhəsində topun arxasında dayanmış Sisyanovu, gah da gizli yolla rus əsgərlərinə bələdçilik eləyən Vanyanı işıqlandırır. Səltənət bəyim Hüseynqulu xanı axtarır.

Səltənət bəyim. Hüseynqulu xan... Hüseynqulu xan...

Hüseynqulu xan səhnə arxasından daxil olur.

Hüseynqulu xan. Səltənət bəyim. Axı mən səndən xahiş etmişdim ki, gəlməyəsən.

Səltənət bəyim. Mən gəlməyə bilməzdim. Biz bir bölük Qarabağ cavanları sizin köməyinizə gəlmişik. (*Səhnənin arxasına işarə ilə.*) Odur, yoldaşlarımız da qalaya doğru çapırlar. Ah, dəhşətdir. Hüseynqulu xan, fikirləşirəm ki, əgər Şimal generalları vətənimizi işğal eləsələr, biz buna necə dözəcəyik?

Hüseynqulu xan. Onu atan əlahəzrət İbrahim xandan soruşmaq lazımdır. Atam Cavad xan İbrahim xandan kəskin rədd cavabı alandan sonra özü xalqa müraciət etdi. Bütün gənclər atamın çağırışı ilə gəlib son damla qanlarına qədər düşmənlə vuruşacaqlarına and içdilər. Rus padşahının generalı arvad-uşaqlarımızı əsgərlərinə qırdırır. Minarədən azan çağıran mollamızı top atəşinə tutdurur. Qardaşlar, əgər qonşu xanlar bizə kömək üçün arxadan qoşun göndərsəydilər, biz bu cəlladların öhdəsindən gələ bilərdik. Sən burda qal. Qardaşlar, mən, Hüseynqulu xan atam Cavad xanla, sizinlə birlikdə son damla qanımıza qədər vuruşacağıq.

Səltənət bəyim. Hüseynqulu xan. Mənim cavan nişanlım. Mən də səninlə son nəfəsimə qədər vuruşacağam.

Atəş yenə dəhşətlə guruldayır. Hüseynqulu xana güllə dəyir. Səltənət bəyim ona tərəf atılır. Ona da güllə dəyir. Bir an başını qaldırıb nə isə demək istəyir və yenidən ona güllə dəyir. Tüstü içində hər şey görünməz olur.

İşıq sönür.

## ON BEŞİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. Hiss olunur ki, İbrahim xan həyəcan içindədir. Tubu xanım dərin kədər içində əllərilə üzünü qapamışdır.

İbrahim xan (*qəzəblə*). Təqsir Cavad xanın özündə oldu. Mən dəfələrlə ona dedim ki, rus padşahına tabe olmaq lazımdır. Biz onun top-tüfənglə mükəmməl silahlanmış böyük qoşununa cavab verə bilmərik. Mənim qızım Səltənət bəyim də onun səhvinin qurbanı oldu.

Tubu xanım (*əllərini üzündən götürərək qışqırır*). Yox, mənim qızım bütün o igidlərlə birlikdə sənin qurbanın oldu. Cavad xan əsil türk oğlu idi. O, min verstlərlə uzaqdan qoşun çəkib arvad-uşağınızı qırmağa, namusunuzu hərrac eləməyə, torpağınıza sahib olmağa gələn çar cəlladlarına təslim ola bilməzdi.

İbrahim xan. Xanlar mənim şah olacağımdan qorxurdular... Mən dəfələrlə onları inandırmağa çalışırdım ki, mən şah olmaq fikrindən uzağam. Mən Azərbaycanın müstəqil, azad dövlət olmasını istəyirəm.

Tubu xanım. Allah-təala haqqın tərəfdarı olduğu üçün, Quranişərif bizi haqqa, ədalətə çağırdığı üçün, mən də həqiqəti sənə deməyə borcluyam. Cavad xan da, bizim qızımız da, Gəncə qalasındakı şəhidlər də siz xanların arasındakı təfriqəçiliyin qurbanı oldular.

İbrahim xan. Mən Cavad xana dedim ki, səbir eləsin, mən əvvəlcə Sisyanovla görüşmək istəyirəm...

İşıq sönür.

## ON ALTINCI ŞƏKİL

Vanya yüzbaşının evinin yaşıl tənəklər arasında görünən eyvanı. Vanya libasını dəyişib, özünü azərbaycanlı kəndli şəklinə salıb. Güzgü qabağında dayanaraq, üzünə qoyduğu uzun saqqalı düzəldir. Arvadı Haykanuş daxil olur.

Vanya (*gözünü güzgüdən çəkməyərək*). Ətrafda bir səs-səmir eşidilmir ki?

Haykanuş. Gecənin yarısıdır, hamı yuxudadır...

Vanya. Adam qaraltısı-zadı görünmür ki?

Haykanuş. Elə qaranlıqdır ki, göz gözü görməz... Niyə demirsən ki, yenə hansı cəhənnəmə hazırlaşırsan?

V a n y a. Haykanuş, sənə demişəm ki, Vanya yüzbaşı neyləyirsə, erməni xalqının gələcəyi üçün eləyir.

H a y k a n u ş. Gah ruslara işləyirsən, gah türklərə, gah iranlılara. Bir gün də keçəcəksən türklərin çənginə, boğazını üzüb tullayacaqlar, kim bilir, hansı dərəyə. Axı türklər bizə neyləyir? Oturmuşuq arxayınca ev-eşiyimizdə... Heç kəs bizə gözün üstə qaşın var demir. İbrahim xan səni yüzbaşı elədi...

V a n y a. Haykanuş, bilirəm, xankəndli Hacı Mehdinin oğlu Xasaya aşiq olduğun üçün həmişə türklərin tərəfini saxlayırsan... Karapet keşiş olmasaydı, gedəcəydin ona ərə... Onlar da səni döndərib eləyəcəydi müsəlman...

H a y k a n u ş (*acıqla*). Lap yaxşı eləyərdim... Karapet keşişi Allah öldürsün.

V a n y a. Mayor Lisaneviçin səndən yaman xoşu gəlir. Deyir, Vanya tvaya jena oçen vkusnaya... Mən də dedim "peşkəşdir sizə".

H a y k a n u ş. Neynirəm onu, ağrım ürəyinə, donuza oxşayır.

V a n y a (*gülür*). Haykanuş, donuz ətinin kababını məndən çox yeyirsən, amma özünü pisləyirsən?

H a y k a n u ş (*nazlana-nazlana*). General olsaydı, başqa məsələ.

V a n y a. Haykanuş, pillə-pillə də... Əvvəl mayor, sonra general. (*Gülür.*)

H a y k a n u ş. Kül başına, yaman da kişisən...

V a n y a. Haykanuş, siyasət lazımdır, ruslar bizim dinbir köməyimizdir.

H a y k a n u ş. Kim olurlarsa olsunlar... Mənim o donuzsifət mayordan zəhləm gedir.

V a n y a. Görürəm... İndi də Xasayı görəndə özünü itirirsən. Heç vəchlə səni başa sala bilmirəm ki, türklər bizim dədə-baba düşmənimizdir. Onu bil ki, mənim – Banazurlu Vanyanın bu gün erməni xalqı barədə elədiyim işlər üçün iki yüz il bundan sonra gələn balalarımız dua eləyəcəklər. (*Saata baxır.*) Yaxşı, Haykanuş, vaxt keçir, mən gedirəm.

H a y k a n u ş (*acıqlı*). Hara?

V a n y a. Tuğa, Əbülfət xanın hüzuruna. Soruşan olsa, deyərsən, gedib Qəcər kəndinə... Di salamat qal. (*Gedir.*)

İşıq sönür.

## ON YEDDİNCİ ŞƏKİL

Əbülfət xanın qərargahı. Əbülfət xan çadırdadır.
Yavər daxil olur.

Y a v ə r. Bir kəndli gəlib, deyir xan üçün vacib xəbər gətirmişəm.

Ə b ü l f ə t x a n. Qoy gəlsin.

Yavər çıxır, Vanya daxil olur. Əbülfət xan ona diqqət yetirir.

Ə b ü l f ə t x a n. Vanya yüzbaşı, nəyə gəlmisən?

V a n y a. Böyük hökmdarımız əlahəzrət İbrahim xanın buyruğu ilə gəlmişəm. Xan həzrətləri sizi təcili görmək istəyir.

Ə b ü l f ə t x a n. Nəyə görə?

V a n y a. Xan həzrətləri, siz bir tikə vaxtınızdan mənim gözümün qabağında böyümüsünüz. Mənim böyük hökmdarımız İbrahim xana olan sədaqətim də cənabınıza məlumdur. Ona görə də, böyük atanızın taxt-tacı xeyrinə nə düşünürəmsə, onu deməliyəm.

Ə b ü l f ə t x a n. De, qulaq asıram.

V a n y a. Mən hiss elədim ki, əlahəzrət İbrahim xanın meyli ruslara sarıdır. Ona görə də Sisyanovu Azərbaycandan çıxarmağa kömək üçün Fətəli şahın sizin komandanlığınızla Azərbaycana beş min qoşun göndərməsinə əsəbiləşmişdir.

Ə b ü l f ə t x a n (*qızğın*). Yalan deyirsən. Xan atam rus padşahının tərəfdarı ola bilməz.

V a n y a. Xan həzrətləri, atanızın sadiq rəiyyəti olan Vanya yüzbaşı sizə yalan söz deyə bilməz. Rus generalı Zubov gəlib Dərbənd qalasını alanda, əlahəzrət İbrahim xan sizi gözəl hədiyyələrlə onun hüzuruna göndərib, rus padşahına tabe olmağa hazır olduğunu bildirməmişdi?

Ə b ü l f ə t x a n (*acıqlı*). Xan atam sonra öz fikrini dəyişib, Fətəli şahla dostluq istəyirdi. Əgər elə olmasaydı, bacım Ağabəyim ağanı ona ərə verməzdi. Məni şahın sarayına buraxmazdı.

V a n y a. Xan həzrətləri, mən necə yalan danışa bilərəm? Böyük hökmdarımız İbrahim xan biz ermənilərin həmişə himayədarı olmuşdur. Məni yüzbaşı etmişdir. Mən can-dildən xan həzrətlərinə ərz edirdim ki, Azərbaycanın səadəti İran şahı ilə dostluqdadır. Axı deyirdim Fətəli şah özü də, İran camaatının əksəriyyəti də türkdür.

Əbülfət xan. Yaxşı, çıx gözlə, mən fikirləşməliyəm.

Vanya. Əlbəttə. İndi elə mürəkkəb vaxtdır ki, fikirləşmək lazımdır.

Əbülfət xan (*səbirsiz halda*). Yaxşı, qurtardıq. (*Vanya çıxır.*) İlahi! Sən mənim xan atamın düzgün yol tutmağına kömək elə! Azərbaycan xalqı rus padşahına kölə ola bilməz!

İşıq sönür.

## ON SƏKKİZİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. Yavər daxil olur.

Yavər. Əlahəzrət, oğlunuz Əbülfət xan hüzurunuza müntəzirdir.

İbrahim xan (*sərt*). Qoy buyursun.

Yavər çıxır. Əbülfət xan hərbi geyimdə daxil olub,
diz çökərək təzim edir.

İbrahim xan. Nə cəsarətlə sən beş min Qızılbaş qoşunu ilə Qarabağ sərhədini keçib Tuğ kəndində dayanmısan? Nədir Fətəli şahın məqsədi?

Əbülfət xan. Fətəli şah general Sisyanovun Quzey Azərbaycanı istila etməsinə imkan verməmək üçün mənim komandam altında olan həmin qoşunu sizə kömək üçün göndərib. Naxçıvan, İrəvan sərhədinə gedən qoşuna özü komandanlıq edəcək.

İbrahim xan (*qəzəblə*). Sizi kim dəvət eləyib?

Əbülfət xan. Ərz elədim ki, biz köməyə gəlmişik. Təəssüf ki, gecikmişik. Biz vaxtında özümüzü yetirsəydik, yəqin ki, qəhrəman Cavad xanın, o igid şəhidlərin, yazıq cavan bacımın başına o faciə gəlməzdi. Biz general Sisyanovdan onların qanını alacağıq. Xan ata, sən məndən soruşursan ki, sizi kim dəvət eləyib? Bəs, iki-üç min verst bizdən uzaq, bizə tamam yad rus padşahını Azərbaycana kim dəvət eləyib?

İbrahim xan. Mən rus padşahına tabe olmağı İran şahənşahına tabe olmaqdan üstün tuturam. Mənim qəbul etdiyim son qərar bundan ibarətdir.

Əbülfət xan. Xan ata, soruşmağa cəsarət edirəm: sən nəyə görə bu qərara gəlmisən?

İ b r a h i m  x a n. Ona görə ki, rus padşahı Azərbaycan xanlıqlarını birləşdirib, vahid bir dövlət yaratmaqda mənə kömək edəcəyinə söz verib. Fars təsirində olan İran şahları isə, ona bitişik sahədə vahid, müstəqil türk dövlətinin yaranmasına razı olmazlar.

Ə b ü l f ə t  x a n. Xan ata, sən elə bilirsən rus generalları Azərbaycan xanlıqlarını birləşdirib vahid dövlət yaratmaqda sizə kömək eləyəndən sonra, onu sənə təhvil verib gedəcəklər? Yox, əziz xan ata. Getməyəcəklər. Onlar Azərbaycanı müstəmləkə eləyəcəklər. Necə ki, ingilislər böyük Hindistanı elədilər. Onlar Azərbaycanın sərvətlərini, varını daşıyıb aparacaqlar Şimala. Siz xanların da onlara bir söz deməyə ixtiyarınız olmayacaq.

İ b r a h i m  x a n. Yox, ruslar o dərəcədə namərdlik eləməzlər. Mən rus padşahının səmimiyyətinə inanıram.

Ə b ü l f ə t  x a n. Xan ata, neçə illik təcrübəyə malik hökmdarsınız. Bilirsiniz ki, siyasət yalnız səmimiyyətə, əhd-peymana, hətta müqavilələrə də arxayın ola bilməz.

İ b r a h i m  x a n. Biz vahid, müstəqil dövlət olandan sonra, əgər rus padşahı əhdinə vəfa eləməsə, namərdlik eləsə, biz onunla ölüm-dirim vuruşuna başlarıq. Və Allahın köməkliyi ilə qalib gələrik.

Ə b ü l f ə t  x a n. Ata, axı o vaxtacan onlar da bekar oturmayacaqlar. Bu gözəl ölkəmizin azadlığını, açar-kilidini yadelli qəsbkara tapşırmaq olmaz. Bu, Azərbaycan xalqına xəyanət olar.

İ b r a h i m  x a n (*birdən qəzəblənərək*). Mən sənə əmr edirəm: qoşunu Azərbaycan sərhədindən çək geri!

Ə b ü l f ə t  x a n. Mən bunu eləyə bilmərəm. Mən öz xalqıma köməyə gəlmişəm. Mən qəsbkar Sisyanovdan Cavad xanın, cavan Hüseynqulu xanın, bacım Səltənət bəyimin, Gəncə qalasında şəhid olan qəhrəmanların intiqamını alacam.

İ b r a h i m  x a n (*daha qəzəblə*). Əmr edirəm, qoşunu çək geri!

Ə b ü l f ə t  x a n. Sənin bu əmrin xalqa xəyanətdir, xan ata. Mən xain ola bilmərəm. Allah divanından qorx, xan ata. Bacım Səltənət bəyimin günahsız axıdılan qanı hələ qurumayıb.

İ b r a h i m  x a n (*Əbülfətə qışqırır*). Rədd ol! Rədd ol! Qoy mənim igid Qarabağ atlılarım sənin beş min Qızılbaş qoşununa divan tutsun! Qoy sənin boynunu onların qılıncı vursun! İtil gözümdən, rədd ol!..

İşıq sönür.

## ON DOQQUZUNCU ŞƏKİL

Kürəkçay sahilində general Sisyanovun qərargahı. Böyük çadır. General Sisyanov, mayor Lisaneviç və Vanya.

S i s y a n o v. Vanya Hamparsimoviç, Cavad xanla vuruşumuzda və onu məğlub etməyimizdə öz bələdçiliyinlə bizə çox kömək elədiyin üçün əlahəzrət rus padşahı adından səni və bütün nəslini "Məlik" titulu ilə təltif edirəm.

V a n y a. General həzrətlərinə ərz olsun ki, mən və mənim yeddi arxa dönənim həmişə böyük imperatorun sadiq nökərləri olacayıq.

S i s y a n o v. İbrahim xanla Fətəli şah arasındakı münasibət barədə verdiyin məlumatlar da dürüst olduğu üçün səni beş qızılla təltif edirəm.

Mayor qızılları verir.

V a n y a (*təzim edərək*). Əlahəzrət, sizin mərhəmətiniz o qədər böyükdür ki, sevincdən ağlamaq istəyirəm. (*Ağlayır.*)

S i s y a n o v. O... Məlik Vanya. Sən nə emosional adamsan...

Vanyaya araq töküb verir. Vanya içir.

S i s y a n o v. Necədir rus arağı?

V a n y a. Bizim tut arağından da tünddür.

S i s y a n o v. Onda birini də iç.

Vanya içir və hiss olunur ki, dəmlənir.

V a n y a (*sərxoş gülüşlə*). Hi-hi... Əlahəzrət, "Məlik Vanya" sözünü birinci sizin ağzınızdan eşitmək məni o qədər sevindirir ki, şadlığımdan oxumaq istəyirəm...

S i s y a n o v. Nə olar, oxu. Mən ermənilərin necə oxumaqlarını eşitmək istəyirəm.

Vanya Sayat Novanın azərbaycanca olan qoşmalarından birini oxuyur.

S i s y a n o v. Məlik Vanya, bu ki türk mahnısıdır?

V a n y a. Xeyr, əlahəzrət, Sayat Nova xalis ermənidir. Ancaq bu evi tikilmiş gözəl mahnılarının çoxunu türk dilində yazıb... (*Oxuyur.*) Eh, əlahəzrət, biz erməni xalqının dərdi böyükdür. Öz vətəni, öz əli, öz başı olan başqa millətlərə nəsib olan xoşbəxtlik bizə qismət olmayıb. Dünyanın hər yerinə səpələnmiş biz ermənilər yurdsuz-yuvasız olmuşuq. Heç özüm də bilmirəm niyə belə olmuşuq!

S i s y a n o v. Ona görə ki, siz axmaqlar həmişə boş xülyalarla yaşayırsınız. Bilmirsiniz ki, "Velikaya Armeniya" yaratmaq lazımdır!

V a n y a. Qoymurlar, əlahəzrət, türklər dənizlərdən dənizlərə hər yeri tutublar. Əlahəzrət, onlar bizə düşməndirlər.

S i s y a n o v. Məlik Vanya, sən Qafqazda yaşayan ermənilərin liderlərindənsən. Xalqını başa sal. Qoy onlar İrəvan xanlığında, Karsda, Ərzurumda birləşib Ermənistan dövləti yaratmağa təşəbbüs etsinlər. O zaman əlahəzrət rus imperatoru da sizə kömək edər. İndisə İbrahim xan mənimlə görüşmək üçün bura gələcək. O səni burda görməməlidir. Xanın bütün hərəkətlərini, İran hökumətinə və bizə münasibətini dürüst izləməyi sənin kəşfiyyatına tapşırıram. Diqqətli ol, Məlik Vanya. Unutma ki, bizə verdiyin məlumatlar düz olmasa...

V a n y a. Astvas du bahi... Astvas du bahi... Astvas du bahi.

S i s y a n o v. Sənin bütün əlaqən mayor Lisaneviç ilə olacaq. Yaxşı, qurtardıq. (*Vanya gedir. Lisaneviçə.*) İmperatorun çoxdankı fikridir ki, Türkiyə ilə Azərbaycan, ümumiyyətlə, bütün Qafqaz sərhədi ilə Türkiyə sərhədi arasında bir erməni dövləti yaratsın. Bu barədə təbliğatı gücləndirmək lazımdır.

L i s a n e v i ç. Əlahəzrət, bu, hər şeydən əvvəl, bizim bütün Qafqaza, o cümlədən gedib Farsistana bitişən Azərbaycana hakim olmağımızdan asılıdır.

Yavər daxil olur.

Y a v ə r. Əlahəzrət, İbrahim xanın karvanı artıq görünməkdədir.

S i s y a n o v (*Lisaneviçə*). Xanı çox hörmətlə qarşılamaq lazımdır. (*Yavərə.*) Deyin mənim rəsmi libasımı, qılıncımı gətirsinlər.

Yavər sürətlə çıxır.

İşıq sönür.

## İYİRMİNCİ ŞƏKİL

Sisyanovun qərargahı. General Sisyanov Şəki hakimi Səlimxan və üç nəfər əyanın müşayiətilə gələn İbrahim xanı təntənə və hörmətlə qarşılayır.

S i s y a n o v. Cənab İbrahim xan, sizin rus dövlətinə olan ixlasınız əlahəzrət imperatoru xeyli məmnun etmişdir. Sizin və Şəki xanının böyük rus padşahına müharibəsiz tabe olmağınızı biz həmişə yüksək qiymətləndirəcəyik.

İ b r a h i m  x a n. Əlahəzrət rus padşahı və onun böyük generalı bizim sədaqətimizə həmişə əmin ola bilərlər.

S i s y a n o v. Əlahəzrət rus padşahı və onun generalları sizin bu sədaqətinizi qoruyacaq və hökmdar İbrahim xanın bütün xanlıqları birləşdirərək, Azərbaycan dövləti yaratmağına kömək edib, həmişə onunla dost olacaq.

İ b r a h i m  x a n. Cənab general, siz də bizim vahid, müstəqil bir dövlət olandan sonra rus padşahının sədaqətli dostu olacağımıza arxayın ola bilərsiniz. Cənab general, Azərbaycan xalqı igiddir, mərddir. Azərbaycan xalqı heç bir zaman dosta xəyanət etməmişdir.

S i s y a n o v. Cənab xan, sizin qızınız Ağabəyim ağa Fətəli şahın baş hərəmidir. Özü də böyük ağıl-zəka sahibi olduğu üçün deyirlər hər işdə, hətta daxili-xarici siyasətdə də Fətəli şaha böyük təsiri var. Fətəli şah özü də sizin kimi türkdür. Deyirlər Ağabəyim ağa İngiltərə kraliçası ilə, hətta Napoleonun arvadı ilə də məktublaşır...

İ b r a h i m  x a n. Cənab general, nə demək istədiyinizi başa düşürəm. Lakin cənabınıza məlum olsun ki, hələ böyük imperatriça Yekaterina həzrətlərinin vaxtında mən gəlib Dərbənd qalasını alan general Zubova məktub yazaraq rus padşahına tabe olmağa hazır olduğumu bildirmişəm.

S i s y a n o v. Doğrudur, bu mənə məlumdur.

İ b r a h i m  x a n. Onda Ağabəyim ağa sarayda qız idi. Fətəli şahın hərəmi olacağı da heç kəsin ağlına gəlmirdi.

S i s y a n o v (*zarafatyana bir tonla*). Bu da mənə məlumdur. Lakin, cənab xan, deyirlər hər zamanın bir hökmü var... Naxçıvan hakimi Kəlbəli xanla İrəvan hakimi Məhəmməd xan rus imperatoruna tabe olmaq haqqında mənimlə bağladıqları əhdnaməni pozaraq, Babaxanoğlunun komandanlığı altında bizə hücum eləyən Fətəli şah qoşununa yardım elədilər.

İ b r a h i m  x a n. Yəqin cənabınıza məlumdur ki, şah onun sarayında xan vəzifəsində olan oğlum Əbülfət xanın komandası altında, sizə qarşı vuruşda mənə kömək üçün beş min qoşun göndərmişdir. Mən ona qoşunu geri çəkməyi əmr etdim. Əməl etmədikdə müharibə elədim. Mənim qəhrəman Qarabağ atlılarım Qızılbaş qoşununu məğlub eləyib pərən-pərən saldı. Əbülfət xan da qaçıb Arazın o tayına keçdi. Cənab general, mən sizin kəlamınızda bəzi şübhə kölgəsi hiss edirəm. Biz Azərbaycan türkləri namuslu adamlarıq. Mən sizdən gizlətmirəm. Əgər Şah İsmayıl Xətayi ikinci dəfə dünyaya

gəlib İranda şah olsaydı, mən başda olmaqla, biz Azərbaycan türkləri məmnuniyyətlə onun dövlətilə birləşməyə razı olardıq. Çünki Şah İsmayıl Xətayi öz xalqının oğlu idi. Öz dilinin, öz milli ənənələrinin sahibi idi. Hakimiyyətə keçən kimi Azərbaycan türklərinin dilini dövlət dili elan etdi. Dövlət müəssisələri xalqın öz dilində fəaliyyət göstərməyə başladı. Təəssüf ki, əslən türk olan o biri şahlarda biz bunu görmədik, onlar fars əfsunundan xilas ola bilmədilər, millətcə türk olan böyük sərkərdə Ağa Məhəmməd şah ölərkən son sözünü də farsca dedi. Əlahəzrət! Biz öz dilimizin, öz torpağımızın sahibi olmaq istəyirik. Təkrar edirəm ki, rus padşahı bu böyük amalımızda bizə kömək edərsə, biz də onun sadiq dostu olarıq.

Sisyanov. Cənab xan, mən də təkrar edirəm ki, siz bu barədə əlahəzrət rus imperatorunun hər cürə köməyinə arxayın ola bilərsiniz.

İbrahim xan. Cənab general, mən əminəm ki, sizin sözünüz alicənab zadəgan sözüdür.

Sisyanov. Əlahəzrət imperator sizə general-leytenant, oğlanlarınız Məhəmmədhəsən xana və Mehdiqulu xana general-mayor, kiçik oğlunuz Xanlar xana polkovnik rütbəsi əta etmişdir.

İbrahim xan susur. Hiss olunur ki, Sisyanovun bu iltifatı onun izzəti-nəfsinə toxunur.

Sisyanov. İcazənizlə sizi ilk dostluğumuzun şərəfinə düzəlmiş ziyafətə dəvət edirəm. Müsəlman adətlərini bildiyimdən, sizin üçün əlavə türk aşpazları gətirtmişəm. Buyurun.

İbrahim xan tutulur. Onlar ziyafətə gedirlər. Sisyanovun qərargahı. Lisaneviç, Sisyanov, Saday bəy, İbrahim xan.

Sisyanov. Cənab xan, gərəkdir ki, diplomatiyada hər şey aydın olsun... Ona görə də, icazə verin mayor Lisaneviç bizim, yəni rus padşahlığının şərtlərini sizə bəyan etsin.

Lisaneviç (*rus hökumətinin şərtlərini oxuyur*).

Bir, İbrahim xan bütün dövlətlərlə əlaqəsini qəti kəsib, tamam dünya miqyasında yalnız rus dövlətinə tabe olur.

İki, İbrahim xan qonşu hökumətlərlə ancaq rus sərdarının icazəsi ilə münasibət saxlaya bilər. Onların məktublarına ancaq rus sərdarının icazəsi ilə cavab verə bilər.

Üç, Qarabağda olan rus qoşunu üçün xan ucuz qiymətə buğda aldırmalı və qoşunu mənzil ilə təmin etdirməlidir.

Dörd, xan ildə rus xəzinəsinə 80.000 əşrəfi xərac verməlidir.

Beş, Rusiya Qarabağ camaatının və xanın mühafizəsini öz üzərinə götürür. Bu məqsədlə daimi olaraq, Qalada 500 nəfərdən ibarət rus qoşunu olacaqdır.

Saday bəy irəli yeriyərək İbrahim xana təzim edir.

S a d a y b ə y. Xan ağa, mayorun sizə təqdim etdiyi bu əhdnamədən belə çıxır ki, Qarabağ, bütün Azərbaycan rus padşahının müstəmləkəsi olmalıdır. Sizin qırx il hökmdarı olduğunuz müstəqil Azərbaycan xalqı bunu qəbul eləyə bilməz. Qoy rus padşahı bilsin ki, Azərbaycan xalqı heç bir zaman heç bir dövlətə qul olmamışdır, heç bir dövlətə müstəmləkə olmamışdır. Biz bura gələrkən, mən və mənim atlılarım elə güman edirdik ki, bu Sisyanov biz azərbaycanlılarla zəhmətkeş rus xalqı arasında dostluq, əməkdaşlıq əlaqəsi yaratmağa gəlib.

İ b r a h i m x a n (*qəzəblə*). Sus! Sənə kim icazə verib ki, öz hökmdarının hüzurunda belə qələtlər eləyəsən?

S a d a y b ə y. Xan ağa, əgər bu əhdnaməni qəbul eləsən, sən daha hökmdar deyilsən. Sən rus padşahının əmrinə tabe, onun gücsüz bir əyalət məmurusan.

İ b r a h i m x a n. Çıx bayırda mənim hökmümü gözlə.

S a d a y b ə y. Yox, xan ağa, mən daha sənin hökmünü gözləməyəcəm. (*İti addımlarla çıxır.*)

S i s y a n o v. Mayor Lisaneviç, çıx gör bu qoçaq üsyançı nə etmək fikrindədir? Cənab xan, qoy bu oğlanın bu cür ötkəm danışığı sizi çaşbaş salmasın. Rus çarı bütün Azərbaycan xanlıqlarını birləşdirib, sizin hökmranlığınız altında vahid bir dövlət yaranmasını istəyir. Əmin ola bilərsiniz ki, o zaman Rusiya sizin böyük dostunuz kimi daha qalalarınızda rus qoşun hissələri saxlamağa da lüzum görməyəcək. Siz buna inanın, cənab İbrahim xan.

İ b r a h i m x a n (*sarsılmış halda*). Mən rus padşahının alicənablığına inanıram.

İşıq sönür.

## İYİRMİ BİRİNCİ ŞƏKİL

Sisyanov böyük ipək çadırda tək var-gəl edir.
Mayor Lisaneviç daxil olur.

S i s y a n o v. Getdilər?

L i s a n e v i ç. Bəli. Cənab general, mən həmişə bu əqidədə olmuşam ki, bu türk xanlarına heç bir zaman etibar eləmək olmaz.

S i s y a n o v. Doğrudur. Çünki bizim işimiz ədalətin hökmüdür. Əgər biz bu türk xanlıqlarını öz himayəmizə almasaq, onlar daima bir-birlərini didib parçalamaqla böyük sivilizasiyanın inkişafına mane olacaqlar. Ona görə də tabe olmaq istəməyənə divan tutmaqla o birilərinə də dərs vermək lazımdır. Biz Cavad xana rəhm eləyə bilməzdik.

L i s a n e v i ç. General həzrətləri! Böyük dövlətlər üçün rəhm şərti bir şeydir. Böyük dövlətlər, birinci növbədə, öz qüdrətinin qayğısına qalmalıdır. Uşaqlıqda mən heyvanat parkında şirlərin nə qədər ət yediklərinə baxıb fikirləşirdim ki, burada bu qədər ətlə doymayan bu şirlər bəs meşədə marallar, ceyranlar olmasaydı, nə edərdilər? Demək, zəiflər güclülərə tabe olmalıdır.

S i s y a n o v. Yox, mayor. Biz zəifləri parçalayıb udmuruq... Məhz biz – böyük rus dövləti onları daha qəddar yırtıcılardan mühafizə edirik.

L i s a n e v i ç. Məlik Vanya deyir ki, İbrahim xanın Fətəli şahla gizli əlaqəsi var. Bir erməni arvadı gecə xan qərargahına yad bir adamın gizlincə daxil olduğunu görüb. Məlik Vanyaya əmr etdim ki, bu əlaqənin nədən ibarət olduğunu təcili surətdə dürüst öyrənib mənə xəbər versin.

S i s y a n o v. Məlik Vanyadan başqa siz özünüz də son dərəcə sərvaxt olun. Xan tərəfdən xəyanət gördükdə, ona dərhal amansız divan tutmaq lazımdır. Mən Bakının üstünə gedirəm. İmperator bizi tələsdirir. Qafqazın işğalını tezliklə başa çatdırmalıyıq. Böyük Yekaterinanın başladığı işi sürətləndirməliyik. Rusiya gözləyə bilməz. İmperator ordusu ikibaşlı qartalın hakim baxışları zillənən uzaqlara doğru ildırım sürətilə irəliləməlidir.

Gurultulu istila musiqisi.
İşıq sönür.

## İYİRMİ İKİNCİ ŞƏKİL

Böyük ipək çadır. İbrahim xan və Ağabəyim ağa.

İbrahim xan. Sən nə üçün gələcəyini qabaqcadan xəbər verməmisən, qızım. Biz səni Araz qırağında şahın baş hərəminə layiq təntənə ilə qarşılardıq.

Ağabəyim ağa. Mən Gəncə qalasında həlak olan şəhidlərin məzarını ziyarətə gəlmişəm, xan ata. Onların yası içində mənə təntənə lazım deyil.

Ağır pauza.

İbrahim xan. Cavad xan özü təqsirkar oldu, qızım, mənim məsləhətimə baxmadı.

Ağabəyim ağa. Cavad xan sizin məsləhətinizə baxıb, rus padşahına tabe ola bilməzdi.

İbrahim xan. Başqa yol yox idi.

Ağabəyim ağa. Yox, xan ata. Yol var idi. Əgər siz və sizin təsiriniz altında olan xanlar birləşsəydiniz...

İbrahim xan (*onun sözünü kəsir*). Birləşsəydiniz... (*Qışqırır.*) Birləşmək istəmirdilər! Başa düşürsənmi, istəmirdilər!

Ağabəyim ağa. Xan ata, siz məni öldürə də bilərsiniz. Amma mən həqiqəti deməyə bilmirəm. Əgər şəxsən siz birinci olaraq, əvvəl general Zubovu, sonra da cəllad Sisyanovu duz-çörəklə qarşılamağa, igidlərin mindiyi Azərbaycan atlarını onlara hədiyyə verməyə qədər tənəzzül etməsəydiniz, xanları birliyə, qəti mübarizəyə çağırsaydınız, onlar sizi eşidərdilər. Siz İrəvan hakimi Məhəmməd xana, Naxçıvan hakimi Kəlbəli xana məsləhət görmüşdünüz ki, onlar da çara tabe olsunlar. Onlar da Sisyanovla tabe olmaq barədə müqavilə bağladılar. Ancaq tezliklə səhvlərini başa düşüb bu əhdnaməni pozaraq, Sisyanovla vuruşub onu məğlub etdilər.

İbrahim xan. Mən bilirəm, hiss edirəm ki, sən Fətəli şahın siyasətilə danışırsan. (*Qəzəblə.*) Mən Fətəli şahın Azərbaycan türklərini adam hesab eləməyən, onlara yuxarıdan aşağı baxan siyasətini qəbul eləyə bilmərəm. Əgər Fətəli şah səni bunun üçün bura göndəribsə, nahaq zəhmət çəkmisən.

Ağabəyim ağa. Xan ata, ərz elədim ki, mən rus generalının topa tutduğu şəhidlərin məzarını ziyarətə gəlmişəm və bu gün Gən-

cəyə gedəcəyəm. Ancaq, xan ata, Fətəli şah da Nadir şah və Qacar kimi Azərbaycanı Şimal padşahının istilasından qorumaq istəyir. Onlar özləri də türkdürlər.

İbrahim xan. Fars təsiri onlarda türklükdən əsər qoymayıb.

Ağabəyim ağa. Düz deyil, ata. Şah İsmayıl Xətayini xatırlayın. Nə üçün unudursunuz ki, İran xalqının yarıdan çoxu türkdür. Xan ata, cəsarət edirəm soruşmağa, əgər cənabınız Fətəli şaha ürək qızdırmırdısa, nə üçün... nə üçün mənim məhəbbətimi onunla izdivacıma qurban verdiniz?

İbrahim xan. Zənn edirəm ki, izdivac sənin üçün uğursuz olmayıbdır. İran şahının hərəmini indi bütün dünya tanıyır. Onun siyasətə müdaxiləsilə böyük diplomatlar maraqlanır. Kraliçalar onunla dostluq yaratmağı arzu edirlər...

Ağabəyim ağa (*dərin kədərlə*). Xan ata, hüzurunuzda belə açıq danışmağımı əfv buyurun. Əgər vətənimizin taleyilə bağlı olduğuna inanmasaydım... Məhəbbətimizi yüz belə şahzadəliyə dəyişməzdim. Ancaq siz məni inandırmışdınız.

İbrahim xan (*mülayim*). Nə etməli qızım... siyasət gündə yüz dəfə istiqamətini dəyişən küləyə bənzəyir...

Ağabəyim ağa. Bəlkə də elədir... Ancaq mən Cavad xan kimi xalq qəhrəmanını, yenilməz azəri igidlərini, arvadları, körpə uşaqları top atəşinə tutub güllələbaran etdirən cəllad bir generalın görüşünə getməyi, onun şadlıq məclisində iştirak etməyi Azərbaycan xalqına qarşı dəhşətli bir xəyanət hesab edirəm. İlahi, vətənimiz bu həqarətə necə dözdü? Nə üçün ildırımlar çaxıb o şadyanalıq məclisini kül eləmədi? (*Qışqırır.*) Gələcək nəsillər siz xanlara lənətlər oxuyacaq! Sizin ruhlarınız ədalət məngənəsində daima əzab çəkəcək! Sizin nəslləriniz Azərbaycan analarının üzlərinə baxa bilməyəcəklər!

İbrahim xan (*qəzəblə*). Rədd ol! Rədd ol burdan!

Ağabəyim ağa. Vurdur mənim boynumu, xan ata! Hər halda, bu bütün bir xalqı yadelli bir qəsbkarın çəngəlinə keçirmək qədər ağır cinayət deyil!

İbrahim xan (*qəzəblə*). Sus!

Ağabəyim ağa. Yox, xan ata! Susmayacağam! Gələcək nəsillərin bizə lənətlərlə verəcəyi dəhşətli ittihamı eşidirəm. Onlar sizə deyirlər ki, siz, şəxsən siz, İbrahim xan, Azərbaycanda şahlıq səviyyəsində qüdrətli bir hökmdar idiniz. Qarabağ, Gəncə, Şəki, İrəvan, Lənkəran, Naxçıvan, Qaradağ, Təbriz, Xoy, Ərdəbil, Marağa sizin

hökmünüzə tabe olan varlı xanlıqlar idi. Siz qırxillik hakimiyyətiniz müddətində mükəmməl silahlanmış güclü bir ordu yarada bilərdiniz. Buna nümunə Osmanlı, İran kimi mükəmməl orduya malik dövlətlər var idi. Nəhayət, siz, heç olmazsa, rus padşahı Yekaterinanın Qafqazı istila üçün göndərdiyi ilk generalın Azərbaycana doğru hərəkət etdiyini eşidən kimi bütün Azərbaycan xalqını ayağa qaldıra bilərdiniz. O zaman qəhrəman ləzgi, çeçen, inquş xalqları da sizə qoşulacaq idi. Siz bunu etmədiniz. Siz Azərbaycanı, gözəl Qarabağı müstəmləkə etməyə gələn rus generallarını duz-çöræklə qarşıladınız. Siz dünyanın müxtəlif yerlərinə səpələnmiş paxıl, qorxaq bir tayfa olan erməniləri töhfə təbərciyi eləyib, Azərbaycanın mənzərəli torpaqlarını onlara bağışladınız. Ermənilər isə o yerlərdə kənd salıb ruslara casusluq etdilər. Ax, xan ata. Gələcək nəsillər Gəncəni, qəhrəman Cavad xanı top atəşinə tutan cəllad rus generalının sizə, oğlanlarınıza general rütbələri verməsini, sizin bunu minnətdarlıqla qəbul etmənizi həqarətlə xatırlayacaqlar.

İbrahim xan (*birdən ölgün səslə*). Yaxşı, kifayətdir. (*Ağabəyim ağa kəskin hərəkətlə çıxır. Ağır pauza.*) Doğrudanmı, mən Azərbaycana xəyanət edirəm? Mənim bu ağıllı qızım nə haqla mənə bu qədər ağır ittiham verir? (*Qışqırır.*) Nə haqla? Doğrudanmı, mən xalqıma xəyanət etmişəm?

Xan dəhşət içində qapıya tərəf addımlayır. Birdən gözünə ölmüş qızı Səltənət bəyim görünür.

Səltənət bəyimin xəyalı. Mən səndən incimişəm, ata. Axı mən sənin sevimli qızın idim. Sən həmişə mənə gözəl hədiyyələr bəxş edərdin... Nə üçün mənim cavan nişanlımın atası Cavad xana kömək eləmədin? Cavad xan igidlər içində bir igid idi. Əgər sən də ona kömək eləsəydin, namərd düşmən ona qalib gələ bilməzdi. Mən də səndən, gözəl Qarabağdan belə uzaq düşməzdim. Burada cavan nişanlım Hüseynqulu xanı hey axtarıram, tapa bilmirəm...

İbrahim xan (*qışqırır*). Mən aldanmışam, qızım! Yox, dayan! Getmə!

İşıq sönür.

## İYİRMİ ÜÇÜNCÜ ŞƏKİL

Vanyanın evi. Vanya güzgü qabağında özünü keşiş qiyafəsinə salır. Haykanuş gəlir.

H a y k a n u ş. Vartan, özünü indi də keşiş donuna salıb bu qaranlıqda hara cəhənnəm olursan?

V a n y a (*gülür*). Hi-hi... Qaranlıqda görənlər elə biləcək keşiş Karapetəm... Axı o dua oxumaq üçün tez-tez Lisaneviçin qarnizonuna gedir.

H a y k a n u ş. O donuza oxşayan mayor yenə nə isə bir qazan qaynadır...

V a n y a. Ağzını xeyirliyə aç, Haykanuş. Mən bizim yazıq erməni xalqımız üçün çox böyük işlər görürəm, başa düş. Erməni xalqı Vanya yüzbaşını unutmayacaq.

H a y k a n u ş. Bah... bah... gözlə, tarixə düşəcəksən...

V a n y a. Əlbəttə, düşəcəm.

H a y k a n u ş. Sənə məktub var. (*Yeşikdən məktub çıxarıb verir. Vanya açıb baxır.*)

V a n y a (*həyəcanla*). Bah. Katolikosdandır. Başa düşürsən, katolikosdan.

H a y k a n u ş. Nə yazır?

V a n y a (*məktubu oxuyur*). Böyük Allahımız İsus Xristosun sadiq bəndəsi, erməni xalqının namuslu oğlu Vartan Ambarsumoviç, sən xalqımız üçün fədakarlıqlar göstərirsən. Gələcək nəsillər bunu unutmayacaqlar.

Əziz oğlumuz Vartan. Bu saat tarixin elə anıdır ki, gərək sən və yoldaşların hər vasitədən istifadə edib çalışasınız ki, İbrahim xan hakimiyyəti ilə Fətəli şah hakimiyyəti dost olmasınlar. Həmçinin rusları da Qafqaz türklərinin əleyhinə təhrik etmək lazımdır. Bunun üçün sən təcili general Sisyanovla görüşməlisən. Qafqazdakı ermənilərin sayı hələlik heç otuz minə də çatmır. Biz bununla Qafqazda müftəçi erməni dövləti düzəldə bilmərik. Dünyanın hər tərəfindən erməniləri Qafqaza dəvət etmək lazımdır. (*Vanya məktubun ardını səssiz oxuyur.*)

H a y k a n u ş. Bərkdən oxu.

V a n y a. Gerisi sənə lazım deyil. (*Gedir.*)

İşıq sönür.

## İYİRMİ DÖRDÜNCÜ ŞƏKİL

Gecədir. Lisaneviç və Vanya gizli yerdə görüşürlər.

V a n y a (*hərarətlə*). Cənab mayor, mən dediklərimə başımla cavabdehəm. İbrahim xanın “Xan bağına” köçməsində məqsədi Arazın o tayına qaçaraq, Fətəli şahın qoşunu ilə birləşib, Azərbaycana daxil olmuş rus qoşun hissələrini qəfil hücumla qırmaqdır. Məndə dürüst məlumat var ki, Fətəli şahın oğlu Abbas Mirzənin başçılığı altında İran qoşunu Gəncəyə doğru hərəkət edir.

L i s a n e v i ç. Xan mənə dedi ki, özünü yaxşı hiss etmədiyi üçün Şuşadan bir az aşağı yenib, bir neçə gün açıq havada istirahət etmək istəyir.

V a n y a. O sizi aldadır. Əgər elə isə, nə üçün oğlanları Məhəmmədhəsən xanla Mehdiqulu xanı seçmə atlıları ilə qalada gözətçi qoyub, bütün ailəsini, hətta körpə uşaqlarını da özü ilə götürüb?

L i s a n e v i ç. Əgər xanın bizə qarşı bu cür cinayətkar niyyəti var idisə, oğlu Əbülfət xanın komandası ilə Fətəli şah ona beş min nəfərdən ibarət qoşun kömək göndərəndə niyə onlarla birləşib bizə hücum etmirdi?

V a n y a. Cənab mayor, İbrahim xan əvvəl rus padşahına tabe olmaq istəyirdi, bunun üçün siz buyuran kimi, şahın köməyə göndərdiyi qoşunu qəbul etməyib, hətta onunla vuruşdu. Amma Fətəli şah bic adamdır. İşi belə görəndə çox hiyləgər diplomat olan öz baş hərəmi Ağabəyim ağanı atasını yola gətirmək üçün dərhal Qarabağa göndərdi. O da iradəsi o qədər də güclü olmayan İbrahim xanı istədiyi kimi sizin əleyhinizə döndərdi. O hiyləgər gözəlin dərhal Qarabağa gəlməsini eşidəndə arvadım Haykanuşa dedim: “Astvas du bahi. O yəqin burada bir qazan qaynadacaq...” Cənab mayor, o biz ermənilərin də düşmənidir. Yekaterina həzrətləri bizim Eçmiadzində əyləşən ruhani atamıza söz vermişdi ki, İrəvanda erməni dövləti yaratmaqda bizə kömək edəcək. O böyük imperator vəfat eləyəndən sonra məhz Ağabəyim ağanın siyasəti ilə Fətəli şah İrəvan, Naxçıvan xanlıqlarını gücləndirməyə başladı.

L i s a n e v i ç. Mənə tarix açma, Məlik Vanya. Qısa de görüm, bu saat biz neyləməliyik? İndiki vəziyyətdə İbrahim xanın qaçıb Fətəli şahın qoşunu ilə birləşməsi bizə kömək gələnə qədər mənim buradakı qarnizonum üçün çox təhlükəli olar...

V a n y a. Bəli. Onlar sizi hər tərəfdən mühasirəyə alıb qırarlar. Ona görə də bir dəqiqə vaxt itirmədən İbrahim xanı ailəsi ilə birlikdə son nəfərinə qədər qırmaq lazımdır.

L i s a n e v i ç. Sənin sözündən belə çıxır ki, indi biz onları dərhal ortadan götürməsək, xan qaçıb Fətəli şahın qoşunu ilə birləşsə, onlar bizi qıracaqlar?

V a n y a. Son nəfərinizə qədər. Türklər çox amansız millətdir. Gecənin qaranlığında güllə səslərinin eşidilməməsi üçün onları doğramaq lazımdır.

İşıq sönür.

İYİRMİ BEŞİNCİ ŞƏKİL

Gecədir. İbrahim xanın iqamətgahı. İbrahim xan ibadət paltarındadır.
Bu zaman Tubu xanım daxil olur.

T u b u  x a n ı m. Niyə yatmırsan, İbrahim? Gecədən xeyli keçir.

İ b r a h i m  x a n. Bu gecənin dərdi çox böyükdür, Tubu. Elə bil ki, onun bizim çadırları bürüyən qaranlığı mənə dəxli olmayan tamam yad bir dünyadır. Bu mənim ürəyimi sıxır... sıxır.

T u b u  x a n ı m. Bu, o uğursuz Kürəkçay hadisəsinin sənin mərd qəlbinə çökən ağırlığıdır, İbrahim. O çar generalı o cür həyasızlıqla qüdrətli Azərbaycan hökmdarına müstəmləkə təkliflərini bəyan edəndə, ellər igidi Pənah xanın oğlu İbrahim xanın onun düz ağzının içinə bir güllə sıxmadığına mən təəccüb edirəm.

İ b r a h i m  x a n. Bir an mənim ağlıma gəldi. Ancaq onun top-tüfənglə mükəmməl silahlanmış ordusunun Qarabağ camaatını uşaqdan-böyüyə qılıncdan keçirəcəyini düşünüb susdum...

T u b u  x a n ı m. Kürəkçay hadisəsi bütün Qarabağı ayağa qaldırmışdır. Xalq həyəcan içindədir. Mən hiss edirəm ki, hətta arvadlar da bu saat düşmənlə vuruşa hazırdır. Mirmöhsün ağa mənə dedi ki, sən o həyasız generalla vuruşa hazırlaşırsan. Onu bil ki, Fətəli şah da sənə bu işdə kömək edər.

İ b r a h i m  x a n (*qızğın*). Mən heç bir hökumətin ikiüzlü köməyini istəmirəm. Mən sayca farslardan çox olan bütün Azərbaycan xalqını son ölüm-dirim vuruşuna çağıracağam. Azərbaycan xalqı Cavad xan hadisəsinin də, şimaldan gələn düşmənin də nə demək olduğunu gördü.

T u b u  x a n ı m. Mən bu son, qəti döyüşdə sənə xeyir-dua verirəm. Mən də sənin ordunun qabağına düşüb onları qəti intiqama çağıracağam. Adi bir düşmən generalı Azərbaycan xalqının böyük hökmdarı İbrahim xanı təhqir etmişdir. İndi isə xahiş edirəm, yat, dincəl.

İ b r a h i m  x a n. Sən get. Mən bir az tək qalmaq istəyirəm.

Tubu xanım gedir. İbrahim xan diz çöküb Allaha ibadət edir.

İ b r a h i m  x a n. Ah, mən aldanmışam. Mən xalqıma xəyanət etmişəm. Ar olsun sənə, İbrahim, 40 ildən çox Qarabağın – Azərbaycanın ən böyük bir hissəsinin hökmdarına rus generalı özündən də kiçik rütbə verəndə bildim ki, aldanmışam. Nə üçün mən Kürəkçayda qılıncımı çıxarıb onun boynunu vurmadım, nə üçün? Ah... Aman, Allahım... İndi mənim ruhum gələcək nəsillər qarşısında nə cavab verəcək? İlahi, sən böyük olduğun üçün böyük günahları da bağışlayansan. Mən elə edəcəyəm ki, sən məni bağışlayasan... Atam Pənah xan ölərkən məni yanına çağırıb dedi: “Oğul, vətən, torpaq darda olanda qılınc qında qalmaz...” Hələ mən sağam, hələ ölməmişəm, indi mən bütün Azərbaycan xalqını ayağa qaldıracağam, ölüm-dirim mübarizəsinə... Ey böyük Yaradan, intiqamımı qəbul et...

İşıq sönür.

## İYİRMİ ALTINCI ŞƏKİL

Gecə. İbrahim xan ailə üzvlərilə birlikdə böyük ipək çadırdadır.
Xidmətçi həyəcanla daxil olur.

X i d m ə t ç i. Xan həzrətləri, əsgərlər çadırı əhatə eləyirlər.

Çadırda həyəcan... Qarmaqarışıqlıq, İbrahim xan irəli yeriyir.
Lisaneviçin komandası eşidilir.

L i s a n e v i ç. Doğra!

Əsgərlər siyirməqılınc çadıra dolub birinci xanı vururlar, sonra
ailə üzvlərini doğrayırlar. İşıq Tubu xanımın üstünə düşür.

T u b u  x a n ı m (*Lisaneviçə*). İnsafın olsun, heç olmasa, bu uşağa rəhm elə.

L i s a n e v i ç (*qışqırır*). Doğra! İkisini də! (*Əsgərlər Tubu xanımı da, uşağı da vururlar.*)

İşıq İbrahim xanın üzərinə düşür.

İ b r a h i m x a n (*güclə dikəlib qışqırır*). Ey mənim qəhrəman millətim! Eşit! Mən yadelli düşmənə inanıb, sənə xəyanət etdiyim üçün...

L i s a n e v i ç (*qışqırıb onun sözünü kəsir*). Doğra!

Əsgər xanı qılıncla təkrar vurur. Bayırda at ayağının tappıltıları, güllə səsləri eşidilir. Səhnə tüstü içində görünməz olur və dəyişir.
İbrahim xanın çadırı. Ağabəyim ağa gözlərini yarı qapayaraq sükut içində dayanmışdır.

B a y ı r d a s ə s l ə r. Saday bəy, ortadan çıxmaq istəyən iki əsgəri də tutduq.

S ə s. Mayor Lisaneviç qaçıb özünü erməni kəndinə saldı. Kəndi nə qədər axtardıqsa, tapılmadı. Ağdam, Qarabulaq yollarına da atlılar çapdı.

İşıq sönür.

## İYİRMİ YEDDİNCİ ŞƏKİL

Ağabəyim ağa qara paltarda kənizləri ilə birgə səhnəyə daxil olur. Saday bəy ilə Əbülfət xan da oradadırlar.

A ğ a b ə y i m a ğ a. Bu nə dəhşətdir, ilahi! Azərbaycan torpağında axıdılan bu günahsız qanlar bəs deyilmi? Ey böyük Yaradan, sənin dərgahında mənim günahım necə böyükdür ki, mənə bu qədər əzab verirsən? Gör neçə ildir ki, mən bu qara libasdan çıxa bilmirəm? Əvvəl bu dünyadan nakam köçmüş bacım Səltənət bəyim... Sonra da... Yerlər, göylər bu dəhşətə necə dözdü, necə? Elə bil, məni dəmir məngənə arasına qoyub sıxırlar. Qoy böyük Yaradan sizin kimi Azərbaycan igidlərinin qılıncını əlindən salmasın. Bu yalnız bizim faciəmiz deyil. İbrahim xanın rus padşahının sözlərinə inanıb, ona tabe olması bizim gələcək nəsillərimizin də faciəsidir. İbrahim xanın bu səhvi onları da tarixin müşkül tilsiminə saldı. Mənim əziz həmvətənlərim, Azərbaycan türkləri heç bir zaman yadelli padşahın zülmünə tabe olmayacaq. Həmişə vətənin azadlığı uğrunda vuruşacaq.

Dalbadal atılan güllə səsləri altında səhnə qaranlıqlaşır.

PƏRDƏ

*1991*

# SEYFƏDDİN DAĞLI

(1921-1983)

*Abbasov Seyfəddin Əliağa oğlu – nasir, dramaturq, Xızı rayonunda anadan olmuşdur. Bakıda yeddiillik məktəbdə* (1927), *N.Nərimanov adına Sənaye Texnikumunun kimya fakültəsində təhsil almışdır.*

*S.Dağlı* "*Kommunist*" *qəzetində ədəbi işçi, şöbə müdiri, məsul katib vəzifələrində işləmişdir* (*1941-1956*). *Orduda xidmət edərkən ordu qəzetində ədəbi işçi, diviziya qəzetinin redaktoru, tərxis olunandan sonra Radio və Televiziya Verilişləri Komitəsində baş redaktor* (*1956-1959*), *Bakı telestudiyasının direktoru və sədr müavini,* "*Kirpi*" *satirik jurnalının baş redaktoru* (*1965-1973*) *olmuşdur. Azərbaycanfilm kinostudiyasının ssenari redaksiya heyətinin üzvü* (*1976*), "*Yazıçı*" *nəşriyyatında redaktor* (*1980*) *işləmişdir.*

*S.Dağlı* "*Dəniz kəşfiyyatçısı*" (*1948*) *kitabının,* "*Adı sənin, dadı mənim*" (*1963*), "*Aydınlığa doğru*" (*1965*), "*Mənziliniz mübarək*" (*1971*), "*Təzə gəlin*" (*1975*), "*Kölgələr pıçıldaşır*" (*1976*) *pyeslərinin müəllifidir. Onun əsərləri bir çox dillərdə çap olunmuş, pyesləri teatr səhnəsində tamaşaya qoyulmuşdur.*

## ADI SƏNİN, DADI MƏNİM

*Üç pərdəli, beş şəkilli komediya*

İŞTİRAK EDƏNLƏR

Qəlyanalı
Səbirə
Həmzə
Qəmzə
Quzubala
Totux
Yumşaqov
Xatun
Qənimətzadə
Nəzarətçi
Müştərilər, qonaqlar, qonşular, çalğıçılar

Əhvalat bizim günlərdə Azərbaycan şəhərlərindən birində cərəyan edir.

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Pərdə açılarkən kiçik qapı üzərində böyük lövhə görünür.
Lövhədə iri hərflərlə yazılıb:

77 №-li QƏLYANALTIXANA

"Qəlyanaltıxana" sözündə "T" hərfi üzərinə ləkə
düşdüyündən o, "Qəlyanalıxana" oxunur.

Nəzarətçi (*lövhə önündə durub yazını oxuyur*). Qəlyanalıxana... yoxsa qəlyanaltıxana?!

Nəzarətçi cibindən bir dəftərçə çıxarıb baxır. Sonra qapını açaraq içəri girir. Totux bufet arxasında müştərilərə yemək və içki satır. Nəzarətçi səssiz-səmirsiz keçib bufet önündə növbəyə durur. Köhnə qrammofon valı xırıltı ilə oxuyur:

Ortaq olaq, alaq yağlı bir cücə –
Qolu sənin, budu mənim,
Adı sənin, dadı mənim.
Şiş gətirək, ocaq quraq gizlicə –
Külü sənin, odu mənim,
Adı sənin, dadı mənim.
Məclisimiz davam etsin hər gecə –
Qəmi sənin, şadı mənim,
Adı sənin, dadı mənim.

Totux. Növbə kimindir?

Quzubala (*kombinezonda*). Əyə, Totux, yeməyə nəyin var?

Totux. Zəhrimar!

Quzubala. Bazadan almısan, yoxsa bazardan?

Totux. O sənə qalmayıb. Belə çoxbilmişsən, qız xeylağına "əyə" demə!

Quzubala. Deməli, indi sən də qız olubsan?

Totux. Totux indi yox, anadangəlmə qızdır!

Quzubala. Mən sənin keçmişini yox, indiki halını nəzərdə tuturam.

Totux. Mənim halım da yaxşıdır, istiqbalım da.

Q u z u b a l a. Halın bəlkə də yaxşıdır! Ancaq istiqbalın, Sabir demişkən, lağ-lağ görünür. Su təsərrüfatı texnikumunu bitiribsən, amma burda araq-çaxır satırsan.

T o t u x. Araq-çaxır da sudan qayrılır, dayna! Mən öz ixtisasıma görə işləyirəm. Əlimi saxlama, de görüm nə içəcəksən?

Q u z u b a l a. Soruşdum ki, yeməyə nəyin var?

T o t u x. Biz quru yemək satmırıq, içkiyə qəlyanaltı veririk. Tez denən, nə süzüm?

Q u z u b a l a. Onda iki dənə buterbrod ver, bir stəkan da çaxır. Ancaq, sən vicdanın, çaxırın susuzundan süz.

T o t u x. Əvvəla, nahaq yerə yüngül qəlyanaltıxanada vicdan kimi ağır yemək axtarırsan. İkincisi də, yekə oğlansan, bilmirsən ki, stəkanda satılan şey susuz olmaz? (*Ona yemək və içki gətirir.*) Buyur, iki manat ver, bufetin qabağından keç!

Q u z u b a l a. Nə qədər?! Sən lap ağ elədin, qıza! Müdirinizi bura çağır!

T o t u x. Nə çığır-bağır salıbsan, əyə? Müdirimiz yoxdur!

Q u z u b a l a. Onda "şikayət kitabını" ver!

T o t u x. Kitabı neylirsən, a yoldaş, bura sənin üçün qiraətxanadır, yoxsa qəlyanaltıxana? Adam xırdaçı olmaz. Ala pulunun artığını, get, iç çaxırını! Müştərilərin vaxtını alma! Növbə kimindir?

Q u z u b a l a. Əyə, Totux, gözlərini yaxşı aç, mənə bax! Bilirsən, kiminlə danışırsan?

T o t u x. Niyə bilmirəm, gözlərim yumulmayıb a! Quzubalasan dayna!

Q u z u b a l a. Adımı soruşmuram, vəzifəmi deyirəm.

T o t u x. Nə vəzifə, əyə, nazir-zad deyilsən a, malakeşsən də.

Q u z u b a l a. Malakeşlikdən əlavə həm də xalq drujinaçısıyam! Bilirsənmi, sənə neylərəm?

T o t u x. Xox, qorxdum səndən! Drujinniksən, get küçədə xuliqanları tut, ta ictimai yerdə özün asayişi pozma! Alverimizə mane olma!

Q u z u b a l a. Sən xuliqandan da betərsən. Hayıf işə tələsirəm. Səni ifşa eləmək – bu Quzubalaya borc olsun, Totux!

Qəlyanaltıya toxunmadan çıxır.

T o t u x (*arxasınca*). Get, a bala, Totux xanım çox sənin kimi quzu gedələri ac-susuz yola salıbdı! (*Növbəsi çatmış nəzarətçiyə.*) Sən nə istəyirsən?

N ə z a r ə t ç i. Mən... sizin müdirənizi!
T o t u x. Müdirimizi? Neylirsən onu?
N ə z a r ə t ç i. İşim var. (*Vəsiqəsini göstərir.*) Mən xalq nəzarətçisiyəm. Qəlyanaltıxana müdirəsi Səbirə xanım Qulamovanı görmək istəyirəm.
T o t u x. Hə?.. Bu saat, yoldaş, bu saat... (*İçəri otağa boylanır.*) Yoldaş müdir! Müfəttiş gəlib!

İçəri otaqdan sadə geyimli, yoğun, qara bığlı, qırmızı yanaqlı bir kişi çıxır.

Q ə l y a n a l ı. Salaməleyküm! Siz, bizim bu kasıbxanaya xoş gəlib, səfa gətiribsiniz, yoldaş təzə müfəttiş! Buyurun, əyləşin. Qulluğunuzda olaq, bütün iştatımızla!

Nəzarətçinin altına stul çəkir.

N ə z a r ə t ç i. Salam! Əvvəla, müfəttiş yox, nəzarətçi. İkincisi də, mənə bu qəlyanaltıxananın müdirəsi Səbirə Qulamova lazımdır.

Nəzarətçi sözünü eşidən Qəlyanalı həyəcan keçirir, özünü itirir, bəzən qeyri-iradi cavablar verir.

Q ə l y a n a l ı. O elə... biz özümüzük!
N ə z a r ə t ç i. Siz... Səbirə xanımsınız?
Q ə l y a n a l ı. Hə? Necə?.. Bəli, bəli. Buyurun, oturun, bu saat sizi başa salım, yoldaş nazir!
N ə z a r ə t ç i. Dedim, nazir yox, nəzarətçi.
Q ə l y a n a l ı. Nə təfavütü? Siz bizim üçün elə nazirsiniz. (*Müştərilərə.*) Əziz müştərilər! Yemək-içməklərinizi qurtarın, tənəffüs vaxtımızdır.
N ə z a r ə t ç i. Tənəffüsə hələ çox qalır. Onları narahat etməyin.
Q ə l y a n a l ı. Onlar da bizi narahat etməsələr yaxşıdır. Bu saat...
N ə z a r ə t ç i. Mən bu yaxınlarda bir dəfə də buraya gəlmişdim, dedilər ki, müdirə məzuniyyətdədir.
Q ə l y a n a l ı. Elədi, ağrın alım, dekretni otpuskaya çıxmışdıq.
N ə z a r ə t ç i. Si...iz?
Q ə l y a n a l ı. Bəli. Yox...
N ə z a r ə t ç i (*yarı zarafat, yarı kinayə ilə*). Nəyiniz oldu?

Q ə l y a n a l ı. Qızımız... Kasıbın bəxti nədə gətirib ki, uşaqda gətirə? Allah sizə oğul versin! Ay qız... Yoldaş Totux xanım! Zəhmət çək, dükanı boşalt, qapını bağla, tez bir stol düzəlt, yoldaş nəzarətçi üçün şərait təşkil elə ki, işləyə bilək!

T o t u x. Baş üstə! (*Müştərilərə.*) Tez olun, qurtarın, əziz müştərilər! Tikələrinizi udun, qurtumlarınızı için! Qəlyanaltıxana bağlanır.

M ü ş t ə r i. Sən öləsən, qoymazlar bu yarımçıq qəlyanaltımızı da axıradək yeyib-içək, ha!

T o t u x. Acgöz olma, əyə! (*Müştəriləri çölə çıxarıb qapını bağlayır. Stolu təmizləyib üstünə ağ salır. Bir şüşə konyak və qəlyanaltı qoyur.*) Buyurun!

Q ə l y a n a l ı (*nəzarətçiyə*). Buyuracaqsınız!

Totuxa işarə edir ki, mətbəxə keçsin.

N ə z a r ə t ç i (*istər-istəməz stol arxasında oturur*). Mən bayaqdan sizin bufetçi qızın müştərilərlə alverinə tamaşa edirdim.

Q ə l y a n a l ı. Bəli, bəli, düz buyurursunuz, nəzarət qağa! Bizim yoldaş Totux xanım müştərilərlə çox mədəniyyətnən rəftar eləyir. Adam tamaşasından doya bilmir. Neçə ildir bizimlə işləyir, hələ bu vaxtadək ondan bir şikayət olmayıb... Xahiş eləyirəm, bu badələri içək sizin sağlığınıza, hansı ki, təzə işinizdə sizə təzə müvəffəqiyyətlər arzu eləyirik.

N ə z a r ə t ç i. Axı siz işdəsiniz?

Q ə l y a n a l ı. Bu da elə işdir, dayna! Həm də nahar fasiləsi zamanı iş... Siz allah, çəkinməyin, qəlyanaltıxana özünüzündür. Elə sizdən qabaqkı müfəttiş də tez-tez bizə qonaq gələrdi. (*Badəsini qaldırıb onun badəsinə vurur.*) Sağ olun, yaşayın, var olun! (*İçirlər.*) İndi icazə ver, keçim "sənə".

N ə z a r ə t ç i. Nə dediniz?

Q ə l y a n a l ı. Yəni deyirəm ki, gəlin, innən belə bir-birinə "siz" deməkdən "sən" deməyə keçəyin.

N ə z a r ə t ç i. Hə?.. Nə olar ki, keçək də!

Q ə l y a n a l ı. Bunu da vuraq, təzə dostluğumuzun sağlığına!

N ə z a r ə t ç i. Tələsməsək yaxşıdır, yoldaş Səbirə xa... bağışlayın...

Q ə l y a n a l ı. Eybi yoxdur, canım, işini gör, sən elə məni Səbirə xanım kimi tanı!

N ə z a r ə t ç i. Onda gəlin, işimizə də elə bu məsələdən başlayaq. Lütfən mənə söyləyin görüm, bu qəlyanaltıxananın müdiri kimdir? Səbirə xanım kimdir və sən kimsən?

Q ə l y a n a l ı. Hə? Nə olar!.. Madam ki, keçdik “sənə”, onda yaxın gəl mənə. Bu saat səni başa salım, nəzarət qağa! Bax, bu qəlyanaltıxana – Səbirə Qulamovanın adınadı. O da ki, ayıb olmasın, bizim uşaqların anasıdı. Mən Qulamov da bizim uşaqların atasıyam. Burada qara fəhləyəm, əli qabarlı, beli bükük hambal. Ancaq necə ki arvad xəstədi, onun da işi tökülüb mənim üstümə, olmuşam müdir, yoldaşlıqdı dayna, qadınların zəhmətinə şərik olmaq biz kişilərin borcudu.

N ə z a r ə t ç i. Həm də deyildiyinə görə, uzun müddətdir ki, sən burada qadınını əvəz edirsən, eləmi?

Q ə l y a n a l ı. Elədi, qağa, elədi. Arvad çox ağır mərəzə mübtəla olub. Daha həkim, feldşir, baytar qalmayıb ki, üstünə gətirməyim. Heç kim dərdini tapıb əlacını eləyə bilmir. Yazıq yorğan-döşəkdən qalxmır. Evin də, çölün də yükü düşüb mən benəvanın boynuna. İnşallah, bu gün-sabah evimizə qonaq gələndə özün görərsən ki, mənim arvadım nə kökdədi və sənin bu qağan nə müsibətdədi...

Qəlyanaltıxanada işıq sönür və səhnənin bir küncü işıqlanır. Zəngin mebellə döşənmiş otaq guşəsi. Səbirə dəsmalla bufetin tozunu silir. Ara-sıra özləri görünməyən uşaq və heyvan səsləri eşidilir.

U ş a q s ə s i (*qonşu otaqdan*). Ana, ay ana! Qağam dədəmin şəklini divardan saldı yerə.

S ə b i r ə. Belə o şəkli görüm, dədənizdən yadigar qalsın! (*Bufetin gözündən diplomunu götürür, həsrətlə baxıb yanıqlı ah çəkir.*) Diplomum!.. Gör necə də tozlanıb. (*Diplomun tozunu silir.*) Belə də iş olarmı? Zəhmət çək, oxu, texnikum qurtar, sənət qazan, sonra da ev küncündə qal? Hökumət sənə iş versin, ərin tutub əlindən alsın?

İ n ə k s ə s i (*həyətdən*). Mö-ö-ö!..

S ə b i r ə. Dövlətə qulluq eləmək əvəzinə, inəyə yem, toyuğa dən ver! Bunun üçünmü oxuyub diplom aldın, Səbirə? (*Diplomu bufetin gözünə qoyur.*) Belə də oyun olarmı? Heç bilmirəm, adı batmış kişi bu qədər mal-dövləti, bu bağ-bostanı, bu heyvanları neyləyir? Özümüz də, çörəyimizi oğru təkin xalqdan gizlin yeyirik, paltarımızı qorxa-qorxa geyirik. Belə də dolanmaq olar?

İ n ə k s ə s i. Mö-ö-ö!..

S ə b i r ə. Gəlirəm, a çər dəymiş!

Səbirə ikinci qapıya yönəlib otaqdan çıxarkən orada işıq sönür, yenə qəlyanaltıxana işıqlanır.

Q ə l y a n a l ı. Vicdanım haqqı, nəzarət qağa, heç bilmirəm öz işimi görüm, arvada qulluq eləyim, onun uşaqlarına baxım, yoxsa onun bu dükanını dolandırım?

N ə z a r ə t ç i. Madam ki, qadınınız xəstədir və onun əvəzinə siz işləyirsiniz, bəs nə üçün özünüzü qəlyanaltıxanaya müdir təyin etmirlər?

Q ə l y a n a l ı. Nəyimə lazım? Bəyəm mən ticarət işçisiyəm, qəlyanaltı müdiri olum? Qaraca fəhləlik bəsimdi. Mən o lovğa kişilərdən deyiləm ki, arvada tabe olmağı özümə ar bilim. İndi başqa zamandı, qağa. Hər adama öz bacarığına görə qulluq verirlər. Hüququm ki, arvadımla bərabərdi – bu elə mənə kifayətdi.

N ə z a r ə t ç i. Hm... Bəs həyətinizdəki heyvanlara hansınız baxırsınız? Sizin gərək ki, bir inəyiniz və bir neçə baş qoyununuz var.

Q ə l y a n a l ı. Nə? Bizdə o bəxt hardaydı, ay nazir olmuş? İnək əmim kürəkəninindi. Kişi böyük vəzifə sahibidi, işi çoxdu deyən, heyvanını mənə tapşırıb. İstəyirsən get, özündən soruş. Məsul yoldaş, həm də qohum, gərək qulluq görsədək dayna. Tanımamış olmazsan, yoldaş Qənimətzadədi ey...

Qəlyanaltıxanada işıq sönür və səhnənin küncü işıqlanır.
Kabinetdə böyük yazı stolu arxasında oturmuş
Qənimətzadənin daz başı görünür.

Q ə n i m ə t z a d ə (*telefonla danışır*). Allo! Allo! Qənimətzadədi danışan. Sədriniz hardadı, əyə? Tez çağır onu telefona! Allo! Kəsmə bizi, ay qız! Özün də söhbətimizə qulaq asma, qadın xaylağısan, yaxşı döyül; bizim naməhrəm kişi həsb-halımız var, iş barədə... Allo! Əyə, Miriş, sənsən? Əleyküməssəlam! Bəri bax, gör nə deyirəm! Bu gün stansiyaya bir eşalon gübrə gələcək, bir vaqonunu xəlvət bir yerə boşaldıb gizlədərsən... Necə yəni, gübrə nəyimizə lazımdı? Hələ bu yaşında bilmirsən ki, dünyada lazım olmayan şey yoxdu? Şəxsən atalar özləri deyiblər ki, saxla samanı, gələr zamanı. Nə olsun, gələn saman döyül? Qoy lap peyin olsun. Yenə qənimətdi! Saxla deyirlər, saxla! Onun da kara gələn vaxtı olar! Başa düşdün? Di, sağ ol! (*Telefon dəstəyini qoyur.*) Pah atonnan, zalım uşağını qandırmaq olmur ki!.. Əh, bu qədər zehni əmək zehnimizi elədi ələk-vələk! Barı bir fiziki iş də görək! (*Stolun siyirtməsindən bir qazança, bir şüşə süd, çörək, göyərti çıxarır, səliqə ilə stol üstündə süfrə açıb yeməyə başlayır... Telefon zəng vurur.*) Sən öləsən, qoymazlar bir saat prizvodstvə gim-

nastikası eləyək, ha! (*Dəstəyi götürür.*) Allo! Hə, mənəm, Qənimətzadə! De görüm, nə deyirsən, ay arvad, ancaq müxtəsər elə, ağzımda vacib işim var! Nə olub, nə olub? Qəlyanalının inəyi piyan olub? Elə öküzün inəyindən bundan artıq nə gözləmək olardı? Axı necə olub ki, heyvan keflənib? Necə?.. Srağagün Qəlyanalının bağda çaxır qoyduğu boçkadan içib? Bəh-bəh-bəh! Bəs sonra? Çıxıb küçəyə, girib kolxoz bazarına, hücum çəkib göyərtiyə, bir göyərti satanı da buynuzlayıb. İndi də onun üçün bizə cərimə kağızı gəlib? Belə de!.. Göndər kağızı Qəlyanalıya, özü gedib heyvanının cərimısini versin!.. Sən nə danışırsan, ay arvad? Necə yəni (*arvadı yamsılayır*) "heç bilmirəm ki, özgə heyvanını öz ayağımıza niyə bağlamışıq?" Bəs hər gün onlardan müftə alıb-içdiyimiz iki litr süd nədi? Gündə iki litr. Ayda orta hesabla eylər altmış bir litr. İldə olar – yeddi yüz otuz iki, on ildə yeddi min beş yüz, yüz ildə yetmiş beş min litr. Yəni yeddi yüz əlli sentner havayı süd! Necə yəni (*yenə arvadı yamsılayır*) "yüz il yaşamayacağıq?" Gündə iki litr müftə süd yeyən adam lap iki yüz il də yaşayar. Bu dünyada bir gün havayı artıq ömür sürmək də qənimətdi. Necə ki, şəxsən atalar deyiblər: "Donuzdan bir tük – o da qənimətdi!". (*Telefon dəstəyini qulağından ayırmadan süd şüşəsini dodaqlarına yapışdırır.*)

Kabinetdə işıq sönür və qəlyanaltıxana işıqlanır.

Q ə l y a n a l ı. Canım üçün, nəzarət qağa, o özgə inəyi də əlavə çatı olub, keçib mənim xirtdəyimə. Sahibinə qaytarmağa da üzüm gəlmir. Uzaq da olsa, məsul qohumdu axı! Elə onun yemini daşımaq mənim üçün ağır yükdü.

N ə z a r ə t ç i. Kimin yemini, Qənimətzadənin?

Q ə l y a n a l ı. Yox, heyvanın!

N ə z a r ə t ç i. Sizin ki şəxsi avtomaşınınız var, yemi onunla daşıyın da...

Q ə l y a n a l ı. Mənim aftanabelim? Zarafatcıl adama oxşayırsan, nəzarət qağa! Hardaydı məndə o qədər pul ki, özümə maşın alaydım, ay nazir olmuş? Bu qapıda duran "Volqa" mənim döyül a, xalam oğlu Yumşaqovundu. Özünün gözləri yaxşı görmür deyən şoferliyini mən eləyirəm. Vallah, o maşın da bir yandan ağrı olub mənciyəzin başına. Gədə də elə simicdi ki, heç maşını yudurtmağa da bir qara qəpik verməz. Daş kimi bərkdi zalım oğlu...

Qəlyanaltıxanada işıq sönür və səhnənin küncü işıqlanır. Üzbəüz iki yazı stolu qoyulmuş kiçik bir otaq. Xatun stolların biri arxasında oturub işləyir. Yumşaqov daxil olur.

Y u m ş a q o v. Sabahınız xeyir, Xatun bacı!

X a t u n. Aqibətiniz xeyir! Nə var, nə yox?

Y u m ş a q o v. Daha soruşmayın, əntiqə oyuna düşmüşəm, nə gecikirəm, amma taksiyə minə bilmirəm.

X a t u n. Niyə?

Y u m ş a q o v. Siz ki niyəsini bilirsiniz. Bəs deməzlərmi: "Nə axmaq adamdır bu Yumşaqov, öz avtomaşını ola-ola taksiyə minir? Daha xəbərləri yoxdur ki, ad mənimdir, yar özgənin... Vallah, heç bilmirəm başıma nə çarə qılım?

X a t u n. Çıxarın özgə malını öz adınızdan, canınız rahat olsun!

Y u m ş a q o v. Necə çıxarım? Üzüm gəlmir axı.

X a t u n. Qəribə kişisiniz!

Q u z u b a l a (*təmiz kostyumda, qolunda qırmızı sarğı daxil olur*). Salam! Bağışlayın, vətəndaş Yumşaqov kimdir?

Y u m ş a q o v. Mən... Necə məgər, nə olub?

Q u z u b a l a. Guya bilmirsiniz? Sizdən cərimə almağa gəlmişəm.

Y u m ş a q o v. Məndən? Cərimə? Nəyə görə?

Q u z u b a l a. Özünüzü bilməməzliyə vurmayın, vətəndaş! Ona görə ki, bir saat bundan əvvəl şəhərdə siqnal verdiniz. Üstəlik, fitimizə qulaq asmayıb maşını qaçırdınız. Zəhmət çəkin, beş manat cərimə verin!

Y u m ş a q o v. Mən siqnal vermişəm? Harada? Kimə?

Q u z u b a l a. Bəli, bəli, siz, vətəndaş Yumşaqov, 57-95 nömrəli "Volqa"nın sahibi. Bu gün, cümə axşamı, ayın otuz birində, səhər saat səkkiz iyirmi doqquz dəqiqədə iki nömrəli bərbərxananın qabağında paravoz təkin uzun-uzadı siqnal verdiniz. Onu kimə verdiyinizi özünüz bilərsiniz. Cərimənisə bizə verməlisiniz. Buyurun, bu da qəbziniz!

Y u m ş a q o v. Mənim yanımda ancaq üç manat pul var.

Q u z u b a l a. Siqnalı isə otuz üç manatlıq verirdiniz.

X a t u n. Mən sizə iki manat borc verə bilərəm, Yumşaqov. Buyurun!

Y u m ş a q o v. Çox sağ olun! (*Pərt halda pulu Xatundan alıb Quzubalaya verir.*) Buyurun!

Q u z u b a l a. Unutmayın ki, bir də belə hərəkət etsəniz, pravanızı alacağıq, vətəndaş Yumşaqov!

Y u m ş a q o v. Nəyimi alacaqsınız?

Q u z u b a l a. Özünüz yaxşı bilirsiniz, salamat qalın! (*Təzim edib çıxır.*)

Y u m ş a q o v. Qəlyanalı o maşınla məni müflis eləyəcək. Həftədə bir yol qayda-qanunu pozub qaçır, cərimənsini gəlib məndən alırlar. İndi mən nə eləyim, ay Xatun bacı?

X a t u n. Götürün telefonun dəstəyini, zəng vurun xalanız oğluna. Çağırın gəlsin, gedin lazımi yerinə; maşını adınızdan çıxartdırıb saldırın onun öz adına! Vəssalam, şüttamam.

Y u m ş a q o v. Onda da elə biləcəklər ki, mən maşın alveri eləyirəm.

X a t u n. Elə isə komission mağazasında satdırın və ya biryolluq təhvil verin dövlətə. Xalqdan oğurlanmış maşındır, qoy xalqa da qismət olsun. Belə qalsa, bir gün xalaoğlunuz adam basıb qaçacaq, gəlib sizi tutacaqlar.

Y u m ş a q o v. Doğrudan?

X a t u n. Bəs necə? Bundan başqa, onu da düşünün ki, siz öz qohumunuzun fırıldaqlarını pərdələməklə, qeyri-şüuri ona şərik olursunuz. Niyə bunu başa düşmürsünüz, ay Yumşaqov?

Y u m ş a q o v. Bu heç mənin ağlıma gəlməyib, ha!.. Eh, ölmək-ölməkdir, xırıldamaq nə deməkdir! Bu saat zəng vurub deyəcəyəm ona ki, çıxarsın o zibil yeşiyini mənim ayağımdan. Heç ona qohum olmaq da istəmirəm. Cəhənnəmə incisin! (*Qəti hərəkətlə telefon dəstəyini götürür.*) Allo! Yetmiş yeddi nömrəli qəlyanaltıxananı verin! Kimdir? Müdiri çağırın! Xalaoğlu, sənsən? Salam! Sağlığın! Pis deyiləm, xalan da yaxşıdır. “Xeyir ola?” deyəndə ki... (*Birdən səsi yumşalır.*) A bala, o maşını sürəndə ehtiyatlı ol da, qayda-qanuna riayət elə də! Mən biabır oldum axı, ay Qəlyanalı! Sağ ol! (*Dəstəyi qoyur, dərindən ah çəkir.*) Yenə üzüm gəlmədi deyəm... Niyə məni belə üzüyumşaq doğmusan, ay ana?!

X a t u n (*heyrət içində acı-acı gülür*). Mərhəba bu cəsarətə!

Otaqda işıq sönür və qəlyanaltıxana işıqlanır.

Q ə l y a n a l ı (*bufet arxasında telefonla danışır*). Baş üstə, xalaoğlu! Arxayın ol, Yumşaqov! (*Telefon dəstəyini qoyur, gəlib nəzarətçinin yanında oturur.*) Aftanabelin sahibi Yumşaqov idi zəng vuran.

Özün eşitdin də, nəzarət qağa, xaloğlum deyir maşını hazırla, sabah məni kəndlərə apar. Mən də dedim baş üstə! Çarəm nədi? Ağa deyir sür dərəyə, gərək sürüm dərəyə! Qohum, özü də xəstə. Kömək eləmək borcumuzdu, dayna... Vallah, gecəm-gündüzüm ona-buna qulluq eləməkdə keçir, özüməsə bir gün ağlaya bilmirəm... Eh, nəzarət qağa, götür, bunu da vuraq sənin qohum-qardaşının sağlığına. Bu gündən məni də onlardan hesab elə. Hərçənd adama çox əziyyət verirlər, ancaq yenə də sağ olsunlar! Necə ki, siçan da yuvadan çıxanda yalqız olmasın, yoxsa pişik pəncəsinə tez keçər.

N ə z a r ə t ç i. Bəli... O gün olsun ki, həmin qohum-qardaşlarınız təzə evinizi mübarəkə gəlsinlər!

Q ə l y a n a l ı. Səninlə bir yerdə, qağa! (*Çay stəkanını ağzına aparır və birdən geri çəkir.*) Nə buyurdun? Təzə ev? Bütün bunları sizə kim yazıb, ay yoldaş? Mənim düşmənlərim dostlarımdan az döyülmüş. Gör, o adsız ananimşiklər məni necə qələmə veriblər, ha!.. Mən qayınatamdan miras qalan köhnə daxmanı güclə saxlayıram, təzə evim hansıdır?

N ə z a r ə t ç i. Şəhərin bağlar məhəlləsində tikdirdiyiniz ikimərtəbə daş imarət!

Q ə l y a n a l ı (*əlini dizinə vurur*). Hi-hi-hi... Bəyəm o mənimdi? O evi dayım nəvəsi pensioner Həmzə Mirzəyev tikir özü üçün. Xata olmayıb ki, mən də hərdənbir qoca kişiyə kömək eləməyə getmişəm ora. Bəs xəstə qohuma da əl tutmayım? İstəyirsən get, daqımentlərinə bax, nəzarət qağa. Qamınxoz da bilir ki, o ev dayım nəvəsinindi. Bənnalığını da Həmzə kişi özü eləyir.

N ə z a r ə t ç i. Onu bilirik.

Q ə l y a n a l ı. Sən öz əziz canın, nəzarət qağa, işə bax ki, mən qohum-qardaşa can yandırıram, amma gör, mənim üçün nələr deyirlər!

N ə z a r ə t ç i. Deyirlər ki, xüsusi mülkiyyətçisən.

Q ə l y a n a l ı. Mən, ha?! A nazir olmuş, mənim nə xüsusiyyətim var ki, mülkiyyətim də ola? Deyir, içim özümü yandırır, çölüm özgəni. Birinin hökumət işini gör, o birinin aftanabelini sür, üçüncüsünün inəyini saxla, dördüncüsünün evinə inşaat materialı daşı. Özünün bir ümumi milçəyin də olmasın, camaat sənin adına xüsusi mülkiyyətçi desin. Fəhlə hara, mülkiyyət hara!.. Belə də müsibət olarmı?

N ə z a r ə t ç i. Bəli, yaman dərddir!

Q ə l y a n a l ı. Eh, sənin kimi dərdbilən oğlanların canı sağ olsun. Götür, bunu da vuraq lişni sənin sağlığına!

N ə z a r ə t ç i. Yox, mənim sağlığıma hələ tezdir... Buyurun yeyib-içdimiyin haqqını. (*Cibindən bir kağız pul çıxarıb stol üstünə qoyur.*) Sağ olun!

Q ə l y a n a l ı. Bu nə söyüşdür, nəzarət qağa? Müştəri yox ey, heç qonaq da demirəm; özünü buranın yiyəsi hesab elə. Həmişə öz evin kimi gəl, ye, iç, kef elə. Bütün bu qəlyanaltıxana qurbandı sənə! Ancaq, hər dedi-qoduya fikir vermə! (*Pulu geri qaytarır.*)

N ə z a r ə t ç i. Xeyr, xahiş edirəm, haqq-hesab çəkin!

Q ə l y a n a l ı. Hə?! O da baş üstə! (*Bufet arxasına keçir.*) Yoldaş Totux bacı, zəhmət olmasa, bu yoldaşın pulunu xırdalayıb, artığını qaytar! (*Totuxla pıçıldaşır, bir dəstə pul gətirib nəzarətçiyə verir*). Buyur!

N ə z a r ə t ç i (*təəccüblə pullara baxır.*) Bu nədir?

Q ə l y a n a l ı. Pulunun izdaçidi, dayna!

N ə z a r ə t ç i. Necə olur ki, beş manata məni yedirib-içirdirsiniz, üstəlik, qırx doqquz manat da artıq qaytarırsınız?

Q ə l y a n a l ı. Sən bizə beşlik vermədin ki, qağa, əllilik verdin!

N ə z a r ə t ç i. Zarafatı boşlayın, canım! Mənim cibimdə ancaq bircə dənə beşliyim var idi.

Q ə l y a n a l ı. Doğrusu, mən pula baxmadım. Fəhlə adamam, elə şeylərdən başım çıxmaz. Yoldaş bufetçi özü bilər.

T o t u x. Bəli, bəli, sizin pulunuz əllilik idi, yoldaş.

N ə z a r ə t ç i. Qəribə möcüzədir?!

Q ə l y a n a l ı. Gözbağlıcadı, dayna. Heç sirkə getməyibsənmi? Köhnə müfəttiş Totux xanımın bu fokus-mokusuna yaxşı bələd idi. İnşallah, sən də öyrənərsən, həmişə qulluğunda hazırıq, bütün ştatımızla!..

N ə z a r ə t ç i (*pulları stol üstünə atır*). Bura sirk deyil və siz də bu fokus-mokuslarınızı tərgitsəniz yaxşıdır!.. Gələn görüşlərimizədək!

Q ə l y a n a l ı. Xoş gəldin! Sən allah, bizi yaddan çıxarma, tez-tez yanımıza gəl!

N ə z a r ə t ç i. Həmişə mən gələ bilmərəm ki. Əlbət, bir yol siz də mənim yanıma təşrif gətirərsiniz! (*Qapıya yönəlir.*)

Q ə l y a n a l ı. Niyə gətirmirik, hər nə istəsən – gətirərik. Sən adresini de, biz hazır! (*Nəzarətçini ötürür.*)

N ə z a r ə t ç i. Mənim ünvanım – Nəzarət Komitəsi... Hələlik... (*Çıxır.*)

Q ə l y a n a l ı. Yaxşı yol! Sağ ol, var ol, nəzarət qağa, həmişə fıştırığın gəlsin!.. Əyə, Totux, təftiş qurtardı; get qapını aç, asudə alverini elə!

T o t u x. Razı getdimi bizdən təzə müfəttiş? (*Stolu yığışdırır.*)

Q ə l y a n a l ı. Deyəsən, yox... Qəlyanalı çox müfəttişləri razı yola salıb, ancaq bu nəzarətçi heç əvvəlkilərə oxşamır. Görmədin, nəinki rüşvət almadı, hətta yeyib-içdiyinin də pulunu verdi. (*Şüşənin dibində qalmış konyakı başına çəkir.*) Eh, cəhənnəmə alsın! Özü-özünə ziyan vurur da. O yeməz, başqası yeyər. Deyir, dəvədən böyük fil var! (*Papiros yandırır, stolun üstündəki pulları götürüb cibinə qoyur.*) Ayın başıdı, əlli manat da ver, aparıb "üzvlük" haqqımızı ödəyim.

T o t u x (*bufet arxasından bir dəstə pul gətirib ona verir.*) Ala!

Q ə l y a n a l ı (*pulları alıb çinləyir. "Kazbek" qutusundan papirosları döş cibinə boşaldır, pulları qutuya qoyur.*) Hi... hi... hi... Mənim arxamda bu Kazbek təkin dağ durur, əyə! Hər belə nəzarət küləyi məni yerimdən dəbərdə bilərmi?! Mən getdim trestə, "seyidin" nəzirini verməyə. Sən də öz işində ol, Totux! (*Köhnə havada zümzümə edərək pillələri qalxır.*)

Uca dağlar başına qəlyan yol eylər,
qəlyan yol eylər.
Qəlyanın tüstüsünə duman nə eylər,
duman nə eylər?

T o t u x.

Yeri, yeri, mən də gəlim dalınca,
Ştat elə, apar məni yanınca...

## İKİNCİ PƏRDƏ

### İKİNCİ ŞƏKİL

Tikilməkdə olan ikimərtəbə evin divarı və həyəti görünür.
Üzü təmiz qırxılmış, eşmə çal bığlı, qabağı önlüklü Həmzə kişi
divar hörür: saya-saya qarşısındakı daşları götürüb divara qoyur,
palçıq çəkir və bənna çəkici ilə vurur.

H ə m z ə. Bir, iki, üç... Bir, iki, üç... Gərək mən o doxdurlara sübut eləyim ki, hələ canım suludur, hələ belimdə taqət, qolumda qüvvət var. Hələ pensiyalıq döyüləm, hələ işləyə bilərəm mən! Qoy bu evi tikib qurtarım, öz gözləri ilə görsünlər ki, onlar deyən qocalardan döyüləm mən. Gərək əyani surətdə o tibb komissiyasına isbat eləyim

ki, atom təkin nüvəmdə nə qədər açılmamış enerji var mənim. Sonra qoy görüm, necə işə buraxmırlar, necə bənnalıqdan ayırırlar məni!.. Hərçənd, o lotu-bambılı Qəlyanalı saqqızımı oğurlayıb evi adıma saldırdı, ancaq başqa əlacım yox idi. Elə ki, evi başa vurdum, işimi komissiyaya göstərib bənnalığımı əlimə aldım, onda bu evi də birouz çəkmə kimi çıxararam ayağımdan, keçirərəm öz sahibinin boynuna!.. Bir, iki, üç...

Q u z u b a l a (*daxil olur*). Salaməleyküm, usta! İşin irəli!

H ə m z ə. Ay əleyküməssalam! Ay çox sağ olasan! Ay həmişə sən gələsən! Bu təşrifindən xeyir ola, ay Quzubala?

Q u z u b a l a. Xeyirdir, Həmzə dayı! Sabah keçmiş şagirdlərindən Tofiqin toyudur. Səni dəvət eləməyə gəlmişəm! Elə öz uşaqlarımız olacaq.

H ə m z ə. Ay əcəb eləmisən! Ay mübarək olsun!.. Ancaq mənim kimi pensioner bir qoca heç bilirsən sizin aranızda necə görünər? Qızılgül bağçasında pambıq kolu kimi!

Q u z u b a l a. Əvvəla, bu saat pambıq qızılgüldən qiymətlidir, Həmzə dayı! İkincisi, sən də elə bizim kimi subay oğlansan! Qoca kişi belə ev tikə bilərmi? Maşallah, təkbaşına gör nə qədər iş görübsən!

H ə m z ə. Hm... Bunu get məni pensiyaya qovan həkimlərə denən, oğul!

Q u z u b a l a. Onlara çox deyirik, ancaq sənə də bir söz desəm, inciməzsən ki, usta?

H ə m z ə. O asılıdır sözün mənasından; bir də ki, yöndəmindən, yəni nə deyəcəksən və necə deyəcəksən.

Q u z u b a l a. Mənim sözüm mənalıdır, çalışıram ki, yöndəmi də yaxşı olsun.

H ə m z ə. Onda de gəlsin!

Q u z u b a l a. Rəhmətlik babam söylərdi ki, söz dilinin ucuna gəldi, ağzında saxlama.

H ə m z ə. Kişi düz ərz eləyib. Ürəkdə saxlanılan söz – qəfəsə salınan quş kimidir; hərçənd bəzən adam onu buraxdığına peşman olur, ancaq yenə də dustaqlığın isti otağından azadlığın soyuq çölü yaxşıdır.

Q u z u b a l a. Ay sağ ol!.. İncimə usta, indi mən də səndən soruşmaq istəyirəm ki, bu qədər yeri neylirsən, hökumətdən alıbsan? Axı bu yekəlikdə həyət, bu böyüklükdə imarət nəyinə lazımdır, hə? Düz deyirəm, ya yox?

H ə m z ə. Hm... Düz deməyinə düz deyirsən, amma bir məsələni bilmirsən ki, bu həyətdə və imarətdə mən qalmayacağam, dayım nəvəsi Qəlyanalının külfəti yaşayacaq burada.

Q u z u b a l a. Bıy, belə niyə, Həmzə dayı? Bəs biz elə bildik, sən bu təzə mülkü evlənmək üçün tikirsən?

H ə m z ə (*ah çəkir*). Yox, oğul, mən evlənməyəcəyəm!

Q u z u b a l a. Bağışla, a Həmzə dayı, soruşmaq ayıb olmasın, bəs elə niyə?

H ə m z ə. Çünki... mənim birinci məhəbbət peykim orbitə çıxmadı, qara buludların içində partladı.

Q u z u b a l a. Axı onu nə üçün elə hündürə buraxırdın ki, partlayaydı? Bu aşağılarda, torpaq üstündə dığırladaydın da!

H ə m z ə. Olmadı! Cavanlığımda elə bu torpaq üstündə bir qıza aşiq oldum. Ancaq zalım balası çəkdi məni ərş-əlayə. O, mal-dövlət istədi məndən, mən də üz döndərdim ondan.

Q u z u b a l a. Deməli ki, peykin süni oldu.

H ə m z ə. Bəli. Ondan sonra bütün arvad tayfasından sidqim sıyrıldı mənim.

Q u z u b a l a. Bəs sonra o süni peykin kimə ilişdi?

H ə m z ə. Heç kimə. O da qız qarıdı mənim təkin.

Q u z u b a l a. Yaxşı, madam ki, ikiniz də subay qalıbsız, indi evlənin özünüz üçün də.

H ə m z ə. Daha bizimki tutmaz, bala. Mən sadə, o ədabaz. Elə ədasından bu vaxta qədər heç kəsə getməyib.

Q u z u b a l a. Sən də elə ona görə heç kimi almayıbsan, hə?

H ə m z ə. Nə bilim. Eh!.. Əlimi işdən saxladın, dərd hücum çəkdi üstümə. (*Çəkici götürür.*) Bir, iki... (*Birdən ürəyini tutur.*) Vay, yenə ürəyim dayandı. (*Sol çiynini silkələməyə başlayır.*)

Q u z u b a l a (*təşviş içində*). Nə oldu sənə, usta?

H ə m z ə. Ürəyimin şıltağı tutub. Tez gəl, silkələ məni!

Q u z u b a l a (*onu tutub silkələyir*). Necə silkələyim, belə?

H ə m z ə. Hə, hə!.. (*Haçandan-haçana dərindən nəfəs alır.*) Bax belə, ha... Deyəsən keçdi... Çox sağ ol, oğul.

Q u z u b a l a. Nuş olsun!

H ə m z ə. Mənim bu müxənnət ürəyim dönüb bəzi axsaq saatlara: gedir, gedir, birdən dayanır... Onda məcbur oluram götürüb həmin saatlar təkin silkələyim onu ki, işə düşsün.

Q u z u b a l a. Axı onu niyə vaxtlı-vaxtında qurmursan ki, purjini boşalır?

H ə m z ə. Quranım yoxdur, Quzubala!

Q u z u b a l a. Evlən də, Həmzə dayı!

H ə m z ə. İstəmirəm, Quzubala. Qorxuram arvad elə qura ki, purjini birdibli qırıla. Sonra gərək tabutda silkələsinlər məni.

Q u z u b a l a. Məzəli kişisən, usta. Xudahafiz! (*Çıxır.*)

H ə m z ə. Elə ürəyim də məzəlidir, Quzubala! (*Nəbzini tutur.*) İşləyir... Amma təzədən dayanmasın deyə gərək həkimlərin dediyi kimi idman eləyim ki, ürəyimin damarları açılsın. (*Bədən tərbiyəsi etməyə başlayır.*) Bir, iki, üç! Bir, iki, üç!.. Gərək o həkimlərə isbat eləyim ki, mən də heç bir xəstəlik yoxdur; özüm də əsla qoca deyiləm; istirahət-zad da istəmirəm mən... Eh, müxənnət ürək! Axı sənin o şıltaqların olmasaydı, yaşım çatmamış pensiyaya çıxarardılarmı məni?

Avtomaşın siqnalı eşidilir. Qəlyanalı gəlir.

Q ə l y a n a l ı. Günortan xeyir, dayınəvəsi! Deyəsən bekarçılıqdan bədən tərbiyəsi eləyirsən. Bəxtəvər pensioner başına! Mən yazıq ona da vaxt tapmıram.

H ə m z ə. Sən vaxt tapsan, bədən tərbiyəsindən əvvəl beyin tərbiyəsi ilə məşğul ol, bibinəvəsi.

Q ə l y a n a l ı. Niyə? Bəyəm mənim beynimə nə olub, Həmzə kişi?

H ə m z ə. Sən soruş: nə qalıb ki, sənin beyninə olmasın, Qəlyan oğlan! Bir mənə de görüm, madam ki, bu təzə evə köçməyəcəkdin, nə üçün onu tikdirirdin? Və nə üçün mənim adıma saldırırdın bu evi?

Q ə l y a n a l ı. Qulaq as, deyim: bax mən, yəni sənin bibin nəvəsi, bu təzə evi öz dayısı nəvəsinin, yəni sənin adına ona görə saldırıb ki, bəzi gözüdar, ağzıgen adamların gözləri bərələndə ağızları yumulsun. Dedi-qodu olmasın ki, Qəlyanalı balaca bir məvaciblə bu yekəlikdə dəm-dəsgahı necə qurur. Amma, sənə nə deyəcəklər? Tək, subay kişisən. Ömrün boyu bənnalıq eləyibsən; əmanət kassasına pul yığıbsan, indi də pensiyaya çıxıbsan. Hökumətdən yer alıb öz əlinlə özünə ev tikibsən və köçüb içində oturubsan... O ki qaldı mənim buraya köçməyimə, o barədə də arxayın ol. Bu günlərdə təzə evə təzə köç gətirəcəyəm.

H ə m z ə. Təzə mebel alırsan?

Q ə l y a n a l ı. Yox, təzə arvad alıram. Təzə mebelimi də cehiz adı ilə o özü gətirəcək təzə evimə.

H ə m z ə. Necə, necə? Sənin başına at təpib-nədir, əyə? Gül kimi ailən var, təzə arvadı neylirsən?

Q ə l y a n a l ı. Köhnə arvad-uşağımı atmıram a! Onlar köhnə evdə qalacaq, təzəsi də təzə mülkdə olacaq.

H ə m z ə. Bir arvadın ola-ola, hansı ZAQS sənə ikinci arvada kəbin kəsər?

Q ə l y a n a l ı. İkinci arvadımı mənim adıma saldırmayacağam ki, dayınəvəsi.

H ə m z ə. Bəs kimin adına saldıracaqsan, bibinəvəsi?

Q ə l y a n a l ı. Sənin!

H ə m z ə. Nə dedin?! Mənə kəbin?! (*Onun üstünə atılıb yaxasından yapışır.*) Bəyəm mən kişi-zad döyüləm ki, arvad alasan, adı mənim olsun, dadı sənin?

Q ə l y a n a l ı. Yox... hə... Kişi olmasaydın, arvadın kəbinini adına kəsdirməzdim. Ancaq sinnilisən, dayna.

H ə m z ə. Kişilik yaşla ölçülməz, erkək! (*Onu altına yıxıb vurur.*) Benamus!

Q ə l y a n a l ı (*onun əlindən çıxıb ayağa durur*). Burax məni, a kişi! Nə olub ey! Bir söz idi dedim, qiyamət qopmadı ki! İstəmirsən, evlənmə, daha dava-dalaş niyə?

H ə m z ə. Mənə kəbin? Sən məni nə hesab eləyirsən, ay heyvan nəvəsi? (*Üst paltarlarını geyinir.*)

Q ə l y a n a l ı. Mən səni nə hesab eliyəcəyəm, əziz dayım nəvəsi; qohumcul, mərd bir şəxs; yaşı ötmüş subay bir kişi. Axı onsuz da daha sən evlənməyəcəksən. Nə olar ki, pasportunda sənə lazım olmayan bir qırtıq boş yeri doğma bibin nəvəsinə peşkəş eləyəsən? Bu yekəlikdə mülkü adına yazdırdım, sənə nə oldu ki, bir arvadı da ora saldırmaqdan nə olsun?

H ə m z ə. Mənim adım sənin üçün ehtiyat anbarıdır ki, artıq şey-şüyünü oraya doldurasan?

Q ə l y a n a l ı. Xeyr. Sənin adın mənim üçün əmanət kassası, yanmayan dəmir sandıq.

H ə m z ə. Ona görə mənə belə ling atırsan?

Q ə l y a n a l ı. Nə ling, a kişi? Axı sən bu alverdən nə zərər çəkəcəksən ey? Əksinə, yaxın bir qohumuna yaxşılıq eləyib savab qazanacaqsan... Bəs təəssübkeşlik necə olar?

H ə m z ə. Buna təəssübkeşlik yox, təsbehkeşlik deyərlər. Özgə üçün təsbeh suya çəkmək... Gedə, sən namus nə olduğunu bilirsən, ya yox?

Q ə l y a n a l ı. Bir yol tiyatrda görmüşəm. Axırda nə olur orda? Balaca xal üstündə yekə qanqaralıq... İndi sən də pasportuna vurulan xal boyda bir möhürə görə qırmızı qanımızı niyə qaraldırsan? Arvaddı – alıb gətirəcəyəm, qalacaq burda. O, bir otaqda, sən başqa otaqda. Ancaq adın üstündə olacaq. Daha səndən yemək istəməyəcək, geymək istəməyəcək. Hələ üstəlik, o bişirəcək, sən yeyəcəksən.

H ə m z ə. Düzü, heç bilmirəm, sənə nə ad verim mən? Deyim, insansan, insan bu qədər heysiyyətsiz olmaz; deyim, heyvansan, heyvan bu qədər hiyləgər olmaz.

Q ə l y a n a l ı. Niyə, öz qohumunu tanımırsan?

H ə m z ə. Kaş səni heç tanımayaydım mən. Sənin kimilərlə qohum olmaq da cinayətdir!.. (*Evə girir.*)

Q ə l y a n a l ı. Pah atonnan, adam yiyəsi! Kişi mən gözlədiyimdən də tündməcaz çıxdı. İndi mən bu qoca axmağı necə yola gətirim? Onu necə qandırım ki, təzə evim təzə arvadımla əlaqədardı və buna görə də hər ikisi sənin adına olmalıdı?

Həmzə əlində çamadan evdən çıxıb küçə qapısına gedir.
Qəlyanalı onun qabağını kəsir.

Q ə l y a n a l ı. Çamadanını hara aparırsan, a kişi?

H ə m z ə (*onu itələyir*). Öz xarabama. Səninlə bir ev dəftərinə ad yazdırmaq da nakişilikdir! (*Qapıda dayanır.*) Ancaq heyif ki, kəbinini birinin adına kəsdirib, başqası ilə yaşamağa razılıq verən o arvadın kim olduğunu bilmədim mən.

Q ə l y a n a l ı. O, arvad deyil, dayınəvəsi, qızdı; özünü də yalvar-yaxarla razı salmışam.

H ə m z ə. Hələ arvad da yox, qız? Barakallah elə qıza! (*Çıxmaq istəyir.*)

Q ə l y a n a l ı. Bəli, gözəl-göyçək, xalis qız, özü də sənin kimi yaşı ötmüş hallıca-canlıca bir quqla!

H ə m z ə (*astanada dayanır*). Yaşı ötmüş qız? Kimdir o?

Q ə l y a n a l ı. Əntiq bir bərbər.

H ə m z ə. Bərbərdir? Adı nədir?

Q ə l y a n a l ı. Qəmzə!

H ə m z ə. Kim? (*Çamadan əlindən astanaya düşür, özü də çamadanının üstündə oturur.*) Qəmzə?

Q ə l y a n a l ı. Bəli! Qəmzə xanım! Olmaya, tanıyırsan onu?

H ə m z ə. Xeyr, xeyr, onu tanımıram mən!.. Bəs səninlə necə, çoxdan tanışdır? Aranızda möhkəm bir şey varmı?

Q ə l y a n a l ı. Yox, təzə tanış olmuşuq. Yaman naz-qəmzəli şeydi zalım balası. Hələ ki, Leyli-Məcnun kimi uzaqdan-uzağa eşqbazlıq eləyirik özümüz üçün.

Həyətdə işıq sönür və səhnənin küncü işıqlanır. Bərbərxana.
Ağ xalatlı Qəmzə növbəti müştərini yola salıb dərindən ah çəkir.

Q ə m z ə. Oyy!.. Bir dənə də yad kişinin bığ-saqqalı əldən çıxdı. Bəs mənə bir doğma kişi kəkili yetirməyəcəksənmi, ay Allah?! (*Dəhlizə çığırır.*) Növbə kimindir, gəlsin!

Q ə l y a n a l ı (*təzə kostyumda, əlində kiçik bir bağlama daxil olur*). Axşamınız xeyir olsun, Qəmzə xanım! Növbəsiz icazə verin, bu qara saç-saqqalımı, hansı ki, bitir məhəbbət gücünə, təslim eləyim o ağ əllərinizin mərhəmət ülgücünə!

Q ə m z ə. Yenə siz? Saçınızı dünən axşam vurmadım, saqqalınızı bu gün səhər təraş eləmədim bəyəm?

Q ə l y a n a l ı (*onun qarşısında kürsüyə oturur, əlindəki hədiyyəni miz üstünə qoyur*). Bəs harda görüşək, əzizim? Mən bura sizinlə isvidaniyə gəlirəm, aynanızın qənşərində oturub özümə yox, sizə baxıram.

Q ə m z ə. Axı hansı münasibətlə bu kürsüdə oturacaqsınız? Nə ülgüclə qırxılası saqqalınız var, nə maşınla vurulası saçınız?!

Q ə l y a n a l ı. Onda saçımı ülgüclə dibdən qırxın!

Q ə m z ə. Bu vaxt? (*İstər-istəməz Qəlyanalının boynuna dəsmal salır.*)

Q ə l y a n a l ı. Mən hər vaxt nəinki saçımı, hətta bütün başımı sizin ülgücünüzə qurban eləməyə hazıram, Qəmzə xanım! Qırxın, ancaq “Məhəbbət” sabunu ilə qırxın! Bilin ki, daha məndə ürək-göbək qalmayıb. Bu dəfə də mənə “hə” deməsəniz, növbəti saç-saqqalım çal bitəcək.

Q ə m z ə (*onun başını sabunlayıb qırxmağa məşğul olur*). Mən sizə öz cavabımı vermişəm. Bir də deyirəm: mən o qızlardan deyiləm ki, günü üstünə gedəm.

Q ə l y a n a l ı. Axı elə niyə deyirsiniz? Günülük olar – iki arvad bir evdə yaşayanda, necə ki, dədə-nənələrimiz eləyiblər. Amma mən

sizi təzə evə aparıram. Köhnə arvadsa köhnə həyətdə qalacaq, uşaqlara, heyvanlara baxacaq. Siz xanım olacaqsınız, o kəniz. O ki etiraz eləmir, siz niyə razı olmursunuz, əzizim? Axı mən o təzə mülkü öz bağınızın yanında məxsusi sizin üçün tikdirirəm.

Q ə m z ə. Nə isə ağlıma sığışmır. Hələ kəbinimi də başqa kişinin adına kəsdirmək istəyirsiniz. Deməli, ərimin şərikli arvadı olmaqdan əlavə, özümün də şərikli ərim olacaq?

Q ə l y a n a l ı. Şərikli ər nədir, ey mənim cananım? Mən sizin bircə tükünüzü də başqası ilə bölə bilmərəm. Kəbininizi kəsdirdiyim adam kişi deyil, subay bir qocadı; özü də xəstə – bir ayağı burda, bir ayağı gorda. Bu gün-sabah pasportu arxivə təhvil veriləcək, evdən arvada qədər adına nə varsa, hamısı mənim ayağıma keçəcək. Natarusxanada dilindən vəsiyyətnamə yazdırıb qol çəkdirmişəm ona. Tək, vahid vərəsəsi özüməm.

Q ə m z ə. Yəni kişi lap o kökdədir?

Q ə l y a n a l ı. Kişi kökdən çoxdan düşüb. Ürəyinin bütün simləri qırılıb. Sınıq kaman təkin yanından yel ötəndə zarıldayır. Halvası qulağının dibində hazırdı, ey! O dünyada daimi istirahət evinə putyovkası yazılıb, verilib əlinə; ruhu təcili yardım təyyarəsi gözləyir ki, uçsun göyə.

Q ə m z ə. Bəs o diri meyidlə kəbin kəsdirəndə mənə camaat nə deyər?

Q ə l y a n a l ı. Axı kim biləcək? Bir sən, bir mən, bir qoca, bir də ki, ZAQS – vəssalam!.. Siz allah, razı olun, Qəmzə xanım! Məni hicran ədqalonu ilə yandırmayın!

Q ə m z ə. Başınıza vurduğum troynoy odekolondur. Buyurun qəbzinizi, veriniz haqqınızı, yaxşı yol! (*Dəsmalı onun boynundan açır.*)

Q ə l y a n a l ı (*qırxılmış başını onun qarşısına əyir*). Sizdən cavab qəbzi almayınca Qəlyanalı burdan tərpənən döyül. Ya o saçım kimi bu başımı da hicran ülgücü ilə kəsib ayaqlarınızın altına atın, ya da mənə “hə” deyib ürəyimə vüsal qanpresi qoyun!

Q ə m z ə. Oyy!.. Siz nə kəmhövsələsiniz, Qəlyanalı? Mənə bir az da möhlət verin. Yox, əgər səbriniz çatmırsa...

Q ə l y a n a l ı. Siz allah, elə deməyin, Qəmzə xanım! Mən səbir çəlləyimin borusunu uzadıb lap Xəzər dənizinə çatdıraram. Ürəyimi eşq manqalında bir qədər də lüləkabab elərəm. (*Kürsüdən qalxır.*)

Q ə m z ə (*kənara*). Kişi lap aşpazxana şairi kimi danışır. Başınıza papaq qoyun, təzə təraş olub, soyuq dəyər!..

Q ə l y a n a l ı. Qayğınız artıq olsun.

Q ə m z ə. Təşəkkür edirəm! İndisə gedin, müştərilərim gözləyir.

Q ə l y a n a l ı. Siz mənə təşəkkür edəndən sonra mən buradan gedə bilərəmmi? Əsil müştərin elə mən özüməm. İşinizi qurtaranadək gözləyəcəyəm. Aftanabelim qulluğunuzda hazırdı!

Bərbərxanada işıq sönür və yenə həyət işıqlanır.

Q ə l y a n a l ı. Bəli, adı Qəmzə xanımdı, özü də nazxanım, işvəxanımdı.

H ə m z ə. Deməli, hələ Leyli-Məcnun kimi uzaqdan eşqbazlıq eləyirsiniz?

Q ə l y a n a l ı. Lap onlar təkin. Ancaq az qalıb Aşiq Qəriblə Şahsənəm kimi bir-birimizə qovuşaq... Niyə belə fikrə getdin, Həmzə kişi?

H ə m z ə. Heç... Elə-belə... Deyirəm, yəni o da nikahını mənimlə yazdırmağa razılıq verib?

Q ə l y a n a l ı. Ona sənin adını eşitdirməmişəm. Ancaq demişəm ki, kəbinini subay bir qocanın adına kəsdirəcəyəm.

H ə m z ə. Razı olub, hə?

Q ə l y a n a l ı. Razı olmayıb nə deyəcək, a kişi? Zarafat deyil, canı bərbərxanadan qurtaracaq; səhərdən-axşamacan onun-bunun saç-saqqalını tumarlayan əlləri indi pul ilə oynayacaq; ixtiyarında təzə evi, altında öz "Volqa"sı olacaq. Daha bu yaşında mənə də getməyib, kimə gedəcək?

H ə m z ə. Bəs nə əcəb günü üstünə gəlir, demir ki, birinci arvadını boşa?

Q ə l y a n a l ı. Səfeh deyil a, siyasətçi qızdı! Bəyəm bilmir ki, bu mal-dövləti Səbirənin adı ilə qazanıram? Heç mənə söylərmi ki, onu boşa?

H ə m z ə. Bəs Səbirə bu işə necə baxır?

Q ə l y a n a l ı. Necə baxacaq – televiziya tamaşaçısı kimi: əvvəl zərrəbinlə baxırdı, indi durbinlə. Onun sözü yoxdu. Səbirə bilir ki, əsil arvadım yenə o olacaq, Qəmzəni isə elə-belə, məşuqə təkin saxlayacağam. Özü ilə razılaşmışam ey!

Həyətdə işıq sönür və səhnənin küncü işıqlanır. Kiçik otaq.
Səbirə lampa işığında beşik başında oturub kədərli səslə
laylay oxuyur.

Laylay deyim yatana,
Gül-çiçəyə batana.
Böyü, igid ol, oğul,
Ta oxşama atana!
Laylay, balam, a laylay!
Qadan alım, a laylay!

Göydə ay ucalıbdır,
Nurun yerə salıbdır.
Gecə ötdü yarıdan,
Dədən harda qalıbdır?
Laylay, balam, a laylay!
Qadan alım, a laylay!

Qəlyanalı (*sərxoş halda oxuya-oxuya daxil olur*).

Hərdən ki, naz edir mənə canan, xoşum gəlir,
Naz eylədikcə bağrım olur qan, xoşum gəlir.

Səbirə. Yavaş, a kişi, uşaqları oyadarsan!

Qəlyanalı. Qoy oyanıb qulaq assınlar dədələrinin oxumağına, dayna! Havayı tamaşa istəmirsiz? Hey deyirsən ki, səni gəzməyə, kino-tiyatıra aparmıram. İndi özüm sənin üçün qənsert çıxarıram. Daha bundan artıq nə istəyirsən, ay arvad? (*Yenə oxuyur.*)

Boş sözdü: Bircəsin sev, onun mübtəlası ol,
Yox... Gördün hər gözəl, de ki, bundan xoşum gəlir.

Səbirə. Kiri, əyə, qonşuları bizə güldürmə!

Qəlyanalı. Qonşunun mənin ailə işlərimə qarışmağa ixtiyarı yoxdu! Mən öz evimdə arvad-uşağıma mədəniyyət xidməti eləyirəm, xalxa nə var? Hələ onların acığına gedib bir dənə də arvad alacağam ki, sənə qulluq eləsin!

Səbirə. Nə dedin?

Qəlyanalı. Sən öl, hə, bax bu başım haqqı! (*Başını açıb şapalaqlayır.*)

Səbirə. Bu vədə o yazığı niyə elə ütübsən? Ala ey! Ömründə bir yol mənim qabağımda başına and içdin, o da qırxıq! Nə danışdığını fikirləşirsənmi?

Q ə l y a n a l ı. Bə nədi? Elə xeyli fikirləşəndən sonra bu qərara gəlmişəm ki, sənə bir bacılıq alam, evdə tək qalıb darıxmayasan!

S ə b i r ə. Mənim evdə “bacılıqlarıma” nə gəlib?

Q ə l y a n a l ı. Hansılardı, aaz?

S ə b i r ə. İnək, qoyun, toyuq, cücə... heç onlar qoyurlar mən darıxım?

Q ə l y a n a l ı. Mən heyvan bacılıq demirəm, adam bacılıq deyirəm, qadın!

S ə b i r ə. Onu get özünə al; həm də əvvəl məni boşa, sonra al! Bildinmi? Daha bəsdir mən səndən çəkdim. Onsuz da səbir kasam dolub-daşır. Bu dörd divar arasında sənə kənizlik elədiyim yetər... İşləməyə gedəcəyəm!

Q ə l y a n a l ı. Kiri, aaz! Mən səninlə hənək eləyirəm, ey!.. Hi... hi... hi...

S ə b i r ə. Amma mən sənə tamam gərçək deyirəm. İnnən belə otur evdə, həyət-bacana, bağ-bostanına, heyvanlarına, quşlarına bax! Mən də uşaqları yasliyə, bağçaya qoyub gedəcəyəm öz işimə! Diplomu sənin üçün almamışam, a!

Q ə l y a n a l ı. Ağlını başına yığ! Bəyəm mən ölmüşəm, sən işə gedəsən?

S ə b i r ə. Mən də özümü sənin üçün öldürə bilmərəm. Bax, bu başdan deyirəm, xəbərdar ol!

Q ə l y a n a l ı. Bu Səbirədirmi görən? Bu arvad nə danışır, əyə?

S ə b i r ə. Tezliklə bilərsən mən kiməm və nə danışıram! Havayı pul səni quduzdurubdur.

Q ə l y a n a l ı. Havayı pul hansıdı, aaz?!

S ə b i r ə. Qəlyanaltıxanada xalqdan oğurladığın pul. Özü də mənim adımla. Sən məni bütün şəhərdə biabır eləmisən. Daha bəsdir xalq önündə başıaşağı gəzdim! Alacağam qəlyanaltıxananı sənin murdar əllərindən!

Q ə l y a n a l ı. Sən atanın goru, boşla, Səbirə! Heç mən razı olarammı uşaqlarımın anasının adı qəlyanaltıxana menyusuna düşsün?

S ə b i r ə. Mən də razı ola bilmərəm ki, uşaqlarımın atasının adı həbsxana siyahısına düşsün!

Q ə l y a n a l ı. Nə həbsxana, aaz?! Yoxsa məni tutdurmaq istəyirsən? (*Ağlayır.*) Çox sağ ol, Səbirə, heç səndən gözləməzdim.

S ə b i r ə. Tutdurmaq yox, səni xilas etmək istəyirəm.

Q ə l y a n a l ı. Nədən?

S ə b i r ə. Əyri işlərdən, bəd əməllərdən. Uşaqlarımın təmiz adını ləkədən xilas etmək istəyirəm.

Q ə l y a n a l ı. Hansı ləkə? Mənim haram əyridi, ay uşaqlarımın anası?

S ə b i r ə. Sən soruş, haran düzdür, ay yazıq! Əlin də, dilin də, gözün də, qəlbin də, beynin də əyridir! Heyif ki, mən sənin batinini əvvəldən görə bilməmişəm. Ancaq yenə də gec deyil. Qəlyanaltıxananı mənə təhvil verərsən, özün də evdə oturub əl-ayağını düzəldərsən.

Q ə l y a n a l ı (*başına ikiəlli qapaz vurur*). Vay! Kül mənim əyri başıma!

S ə b i r ə. Buna baxın bir! Kişi də ağlayarmı?

Q ə l y a n a l ı. Sənin təkin zalım arvadın kişisi ağlamasın, bəs nə eləsin?

S ə b i r ə. Bəsdir!.. Keç öz otağına, yıxıl yat. Burada teatr çıxarıb uşaqları oyatma! (*Onu qonşu otağa salır.*)

Burada işıq sönür və yenə həyət işıqlanır.

H ə m z ə. Heç cür mənim ağlıma batmır ki, Səbirə bu işə razılıq verə.

Q ə l y a n a l ı. Axı niyə də razılıq verməyə? Evi, eşiyi, avadanlığı, heyvanları, uşaqları... hamısı qalır özünə. Mən sənə yalan deməyəcəyəm ki, dayınəvəsi? Məsləkim haqqı, düz sözümdü.

H ə m z ə. Yəni sənin məsləkin də var?

Q ə l y a n a l ı. Bu nə sözdü, Həmzə kişi?! Adamın gərək ya məzhəbi olsun, ya məsləki.

H ə m z ə. Mən ki səndə onların heç birini görmürəm.

Q ə l y a n a l ı. İnşallah, Qəmzəni alandan sonra görərsən.

H ə m z ə. Axı neylirsən bu ikinci arvadı sən?

Q ə l y a n a l ı. Varlığa nə darlıq? İkiarvadlılığın başqa ləzzəti var ey, dayınəvəsi!

H ə m z ə. Mən birarvadlılıqda ləzzət görmürəm, o ki ikiarvadlılıq ola!

Q ə l y a n a l ı. Evlənmisən bəyəm, ləzzətini biləsən, ay bədbəxt? Bir də mənim bu evlənməkdə başqa haqq-hesabım var.

H ə m z ə. Evlənməkdə də haqq-hesab olar?

Q ə l y a n a l ı. Eh, o qədər elə evlənənlər var ki, mən də biri.

H ə m z ə. Axı sənin bərbərlə nə haqq-hesabın ola bilər?!

Q ə l y a n a l ı. Gərək hər şeyi sənə deyim, Həmzə kişi?

H ə m z ə. Bəs mən bilməyim ki, nə üçün evlənirəm, Qəlyan gedə?

Q ə l y a n a l ı. Sən yox, mən evlənirəm.

H ə m z ə. Ad ki mənimdir.

Q ə l y a n a l ı. Yaxşı, qoy deyim. Ancaq səndən savay daha heç kəs bilməsin... Bax, bu təzə evimizin qonşuluğundakı o üzüm bağını görürsənmi? O – Qəmzənindi. Bol şərabı olur. Mən də oradan “levi tavar” alıb qəlyanaltıxanada xırıd eləyirəm. Nə qədər pul verirəm ona! Qəmzə ilə evlənəndən sonra isə bağın hasarını çəkəcəyəm bu evin arxasına – olacaq ev də mənim, bağ da mənim...

H ə m z ə. Biri Həmzənin adına, biri Qəmzənin adına.

Q ə l y a n a l ı. Ay sağ ol! Adı sənin, dadı mənim... İndi bildin niyə evləndirirəm səni?

H ə m z ə. Deməк, məsləkin budur?.. Sənin qəribə planların var imiş ki, bizim xəbərimiz yox.

Q ə l y a n a l ı. Bəs necə? Hər işin gərək əvvəldən planını çəkəsən. Mən də ki belə planların baş incinarı! Eh, dayınəvəsi, bir savab iş görmək istəyirəm, əbəs yerə razı olmursan. Axı o qız da yazıqdı, ömrünün axırına qədər subay qalmayacaq, a?! Allaha xoş getməz ey!

H ə m z ə. Deməli, o qızın subay qalmağına günahkar mən oluram?

Q ə l y a n a l ı. Səndən savay kimə ərkim çatar? Bir tərəfdən qohumum, canım-ciyərimsən, mənim ürəyim sakit olar. O biri yandan da subay, sinli kişisən, təzə ev də sənin adınadı, təzə arvad da – camaatın deməyə sözü olmaz. (*Birdən onun qarşısında sallağı oturub çiyinlərindən tutur.*) Səni and verirəm atamın dayısı ilə ananın bibisinin qoşa qəbirlərinə: mən ölüm, razı ol, Həmzəcan, vallah savabdı!

H ə m z ə. Hə? Mənim babamla sənin nənənin goruna and verirsən? (*Fikir içində yavaş-yavaş əlini qoltuq cibinə salıb, pasportu çıxarıb Qəlyanalıya verir.*) Yaxşı, qoy o savab işi ikilikdə görək! Ala pasportumu, sabah get, kəbinimizi kəsdir! Mənsiz olarmı?

Q ə l y a n a l ı (*tez pasportu onun əlindən qapıb cibinə qoyur*). Niyə olmur, əyə? Onu ZAQS-da özüm düzəldərəm. (*Həmzənin üzündən öpür.*) Sağ ol, dayınəvəsi, fıştırığın gəlsin!

H ə m z ə. Bəli, toyun mübarək olsun, Həmzə bəy!..

## ÜÇÜNCÜ ŞƏKİL

İkinci şəklin dekorasiyası. Yeni bina tikilib qurtarmışdır. Axşamçağıdır. Avtomaşın siqnalı eşidilir. Əlində çamadan olan Qəlyanalı Qəmzəni qabağına salıb həyətə daxil olur.

Q ə l y a n a l ı. Siz bu təzə evinizə xoş gəlmisiniz, Qəmzə xanım! Daha ev də bizim, bağ da bizim. Deyir ət ki qazana girdi, oldu yeməli. İndi icazə ver, keçim "sənə".

Q ə m z ə. Məncə biz çoxdan "sənə" keçmişik, Qəlyanalı. Ancaq məni saldığın bu qazan başqasının yox, öz adına olsaydı, mən sənin üçün daha yeməli olardım.

Q ə l y a n a l ı. Elə niyə deyirsən, əzizim! O kişi tərkidünya bir qocadı, dişi hardaydı səni yesin?

Q ə m z ə. Vay o qocadan ki, cavan qızla evlənməyə razılıq verir.

Q ə l y a n a l ı. Qohumum olmasaydı, heç razılıq verərdimi? Axı hansı kişi özgə arvadını öz adına saldırar? Bunu da yola gətirincə mənimki mənə gəldi. Yenə Allaha çox şükür ki, axır sən də evimə gəldin.

Q ə m z ə. Ev də onun adınadır da?

Q ə l y a n a l ı. Nə olsun, aaz? Ada baxan kimdi! Mən özüm on beş ildir ki, lağlağı bir ləqəblə dolanıram, çoxusu əsil adımı da bilmir. Ancaq nəyim adlı-sanlılardan əskikdir? Təki dadı mənim olsun, adı özgənin də olsa, eybi yoxdur. Gedək, imarətimi içəridən də görsədim sənə!

Onlar evə girmək istəkən Həmzə ikinci mərtəbədəki artırmada görünür.

H ə m z ə. Gəlinimi gətirdinmi mənim, bibinəvəsi?

Q ə l y a n a l ı. Bəli, gətirdim, dayınəvəsi!

H ə m z ə. Mübarəkdir!

Q ə l y a n a l ı. Çox sağ ol!

Həmzə ilə Qəmzə bir an yuxarıdan-aşağıdan bir-birinə baxıb şaşırırlar: Həmzə dərhal nəzərlərini yuxarı dikir. Qəmzə isə başını yerə dikir.

Q ə m z ə (*yavaşdan Qəlyanalıya*). Mənim nikahımı bu kişinin adına kəsdirmisən?

Q ə l y a n a l ı. Hə! Necədi sənin üçün?

Q ə m z ə. Mənim üçün fərqi yoxdur; ancaq qorxuram sənin üçün yaxşı olmaya.

Q ə l y a n a l ı. Niyə?

Q ə m z ə. Ona görə ki, bu kişi heç o dünyaya səfərə hazırlaşana oxşamır.

Q ə l y a n a l ı. Oxşamasa da, oxşadarıq. Hər şey pulun ucundadır, Qəmzə xanım! Beş-altı yüz manat maya qoyub qaldıraram ruhunu göyə, göndərərəm onu gedər-gəlməz ezamiyyətə.

H ə m z ə. Qəlyan oğlan! Gəlini qaldır öz otağına. Sən də min maşına, get bir dəstə zurnaçı gətir!

Q ə l y a n a l ı. Onu neylirsən?

H ə m z ə. Bəs zurnasız toy olar?

Q ə l y a n a l ı. Nə toy, a kişi? Balaca bir qəmpəniyə təşkil elərik özümüz üçün, qurtarıb gedər.

H ə m z ə. Ona da musiqi lazımdır. Dostlarım, qohumlarım eşidib təbrikə gələcəklər məni. Zurna-balabansız evlənməyimə inanmazlar.

Q ə l y a n a l ı. Deməli, toyu xalxın gözündən pərdə asmaq üçün təşkil eləyirsən?

H ə m z ə. Bəs necə? Pərdəsiz toy olmaz ki!

Q ə l y a n a l ı. Sən buna necə baxırsan, Qəmzə xanım?

Q ə m z ə. Məncə, kişi düz eləyir, Qəlyan oğlan! Mənim də ürəyimdə arzum var axı. Ömrümdə birinci dəfə ərə gedirəm, o da zurna-qavalsız olsun deyirsən?

Q ə l y a n a l ı (*tərəddüd içində*). Belə arzun var idi, mənə deyəydin, sənə əməlli-başlı toy təşkil eləyəydim də...

H ə m z ə. O sarıdan heç narahat olma. Həmzə kişi ölməyib, a! Zalda bir süfrə açdırmışam ki, yüz dənə qəlyanaltıxanana dəyər. Sən təkcə zurnaçı tap gətir. Cəld tərpən, mənim qoçum-qoçağım!

Q ə m z ə. Gələndə anamla yeznələrimi də mindir maşına, gəlsinlər. Bizim dükanın bərbərlərini də çağır. Di yubanma, mənim malım-dövlətim!

H ə m z ə (*kənara*). Mal-dövlət qızın dilindən düşmür a!

Q ə l y a n a l ı (*istər-istəməz*). Baş üstə, mənim canım-ciyərim!.. (*Özünə.*) Deməli, gedim zurnaçı gətirim? Gedim də! Bu elə bir tərəfdən pis olmaz; toydakılar əyani surətdə görərlər ki, Qəmzə ilə evlənən Həmzədi. Əşyayi-dəlil, özü də zurna-balabanla! (*Çıxır. Sükut.*)

Həmzə (*artırmadan həyətə enir*). İcazə verin, çamadanınızı qaldırım otağınıza, gəlin xanım!

Qəmzə. Gücünüz çatarmı?

Həmzə. Hər halda təzə aşiqinizdən gücsüz deyiləm! (*Çamadanı götürüb evə girir. Qəmzə də diqqətlə ona baxaraq ardınca gedir. Bir an sonra Həmzə yenə artırmaya çıxır, papiros yandırıb ah çəkir.*) Ah... Burada deyiblər ki:

Gülərəm xatirə gəldikcə o ağlaşdığımız,
Eşqidən xəstələnib, sonra da sağlaşdığımız!

Qəmzə (*artırmaya çıxır*). Ə... Bağışlayın, vətəndaş... Bu gecə toy məclisinin başında mən gəlin kimi sizin yanınızda oturacağam, yoxsa Qəlyanalının?

Həmzə (*kənara*). Təzəbəylə, təzəgəlinin bir-birinə "vətəndaş" deməyini də təzə eşitdik (*ona*). Bilmirəm, vətəndaşka... Nikahınız kimə kəsilib?

Qəmzə. Sizə!

Həmzə. Onda, demək, mənim yanımda oturmalısınız da!

Qəmzə. Elə isə... Məndən inciməyin, xahiş edirəm, əsil bəy paltarı geyinib yanımda əyləşəsiniz. Xasiyyətimə ki bələdsiniz.

Həmzə. Bələdəm, Qəmzə, bələdəm... Arxayın olun, palpaltarsız deyiləm. Hər halda təzə aşiqinizdən zövqsüz geyinmərəm.

Qəmzə (*onun qalstukunu dartır*). Bu qalstukunuz da çox köhnədir, heç xoşuma gəlmir. Dayanın, mən sizə təzəsini gətirim. Cehiz çamadanım hanı? Bu dəqiqə. (*Çıxır.*)

Həmzə. Deyəsən elə birinci gecədən noxtasını boynuma keçirmək istəyir.

Qəmzə (*əlvan bir qalstuk gətirir*). Bunu anam kürəkəni üçün bəylik xələti qoyub. İcazə verin, öz zövqümlə bağlayım boynunuza.

Həmzə. Bəs Qəlyanalı?

Qəmzə. Ona ölçüsüz qalstuk lazımdır, bezrazmerni... Boynunuzu əyin!

Həmzə. Elə birinci gecədən? Tez deyilmi?

Qəmzə (*saatına baxır*). Yox, yox, əksinə, gecikirik. Mən özüm hələ heç bəzənməmişəm. (*Həmzənin köhnə qalstukunu boynundan açıb atır, təzəsini bağlamaqla məşğul olur.*) Demək olar ki, dəyişilməmisiniz, Həmzə. Ancaq bir az üzünüzün dərisi sərtləşib.

H ə m z ə. Neyliyim, üzüm o qədər üzlər görüb ki!.. Sizə də demək olmaz ki, dəyişilmisiniz, Qəmzə. Ancaq bir az barmaqlarınızın ucu sürtülüb.

Q ə m z ə. Neyliyim, mənim də barmaqlarım az üzlərə dəyməyib.

H ə m z ə. Eybi yoxdur, bu gündən sonra barmaqlarınız da düzələr, ayaqlarınız da...

Q ə m z ə. Bəli, innən belə mən də bərbərxanaya müştəri kimi gedəcəyəm, həm də öz avtomobilimdə.

H ə m z ə. Allah qoysa!..

Avtomaşın siqnalı eşidilir. Qəlyanalı bir dəstə qonaq və düdükçülər üçlüyü ilə həyətə girir; artırmada Qəmzənin Həmzənin boynuna qalstuk bağladığını görcək yerində donub qalır.

Q ə l y a n a l ı. Bəh-bəh-bəh!.. Mən qıraqda boynumu ora-bura uzadıb zurnaçı axtarıram, gəlinimsə evimdə özgə boynundan zurna asır. Yox, deyəsən bunları bir evdə qoymaq olmayacaq. Arvadı bərbər olanın qonşusu kosa olsun gərək!

Həyəti zurna-qaval səsi basır.

Q ə m z ə. Vay, toy başlandı. Mənimsə tualetim hələ başlanmayıb! (*Tələsik çıxır.*)

Q u z u b a l a (*başındakı məcməyidə ev şəklində nəhəng bir tort və şampan şərabı*). Toyun mübarək olsun, Həmzə dayı!

H ə m z ə. Çox sağ ol, ay Quzubala! O gün olsun, sənin toyunu eləyək!

Q u z u b a l a. Atalar deyib: böyük duran yerdə kiçik evlənməz. İndi sənin ardınca gör bizim tikinti kontorundan nə qədər cavan toy eləyəcək!

H ə m z ə. Hə də! Daha yol açdım sizə mən! Çətini özül qoymaqdır, divarlar tez ucalar.

Q u z u b a l a. Yaşa, usta, sağ ol, var ol! (*Çalğıçılara.*) Bir yaxşı hava çalın mənim üçün!

Çalğıçılar çalır. Quzubala oxuya-oxuya oynayır.

Hər bir insan könlünün
Hər vaxt min-min eşqi var!
Tay tapmısan – toy eylə:
Gənc, qoca – nə fərqi var!

Gəlin təzə,
Bəy baməzə.
Mübarəkdir
Toyun, Qəmzə,
Toyun, Həmzə!

Qəlb odludur, qəm yemə
Ağarsa da saç başda,
Gəlin getmək, bəy durmaq
Gec deyil heç bir yaşda.

Gəlin təzə,
Bəy baməzə.
Mübarəkdir
Toyun, Qəmzə,
Toyun, Həmzə!

Bu gün bütün subaylar
Sizdən alsınlar ibrət,
Hər vaxt, hər vaxt var olsun
Məhəbbət və səadət!

Gəlin təzə,
Bəy baməzə.
Mübarəkdir
Toyun, Qəmzə,
Toyun, Həmzə!

Həmzə (*cibindən bir ovuc xırda pul çıxarıb Quzubalanın başına atır*). Ay şabaş! Toyunda oynayasan, oğul! Buyurun yuxarı, əziz qonaqlar! Xoş gəlmisiniz! Subaylarınızdan görəsiniz!

Qonaqlar. Mübarəkdir! Təbrik edirik!

Qəlyanalı (*qonaqlar arasında Səbirəni görür*). Bıy, Səbirə! Sən bura niyə gəlibsən, aaz?

Səbirə. Dayınəvəsinin toyuna.

Q ə l y a n a l ı. Axı sən... nə bildin? Kim çağırdı səni toya?

S ə b i r ə. Həmzə qardaş özü; dalımca adam göndərmişdi. Mən də evdən hədiyyə götürüb gəldim.

Q ə l y a n a l ı. Hə?.. Barakallah qoca!

S ə b i r ə. Həyətdə niyə durmusan, a kişi? Gedək evə də. (*Evə girir.*)

Q ə l y a n a l ı. Sən get, mən də qonaqları içəri ötürüb gəlirəm. (*Öz-özünə.*) Görəsən, bu kişi niyə belə eləyir? İndi mən Səbirənin gözü qabağında Qəmzəyə necə məhəbbət görsədim? Hələ arvadlar bir-biri ilə söhbət eləsələr, nə olar? Yox, yox! (*Tez evə qaçır.*)

H ə m z ə (*artırmadan.*) Buyurun içəri, möhtərəm dostlar!

Qonaqlar həyətdə açılmış masa kənarında yerbəyer olurlar.
Qəlyanalı badə qaldıraraq sağlıq deyir.

Q ə l y a n a l ı. Əziz qonaqlar! Necə ki, özünüz bilirsiz, hər yemək-içmək məclisinin bir təqsirkarı olur. Bu gün bizim bu qəmpaniyanın da bir təqsirkarı var...

Y e r d ə n s ə s. Bir yox, iki müqəssiri!

Q ə l y a n a l ı. Bəli, bəli, iki dənə müqəssirkarımız var. Biri mən... mənim dayımnəvəsi Həmzə; o biri də onun təzə gəlini Qəmzə. Hansılar ki, bu gün ZAQS-da kəbin kəsdirib evləniblər, yəni bir bədən ikibaşlı həyata qədəm qoyublar.

Y e r d ə n s ə s l ə r. Qədəmləri mübarək olsun!

Q ə l y a n a l ı. Bəli, yoldaş müştərilər! Mübarək olsun qədəmləri bu təzə yola addım atan novcavanlarımızın. Doğrudu, bizim bu təzəbəylə təzəgəlin o qədər də cavan döyüllər...

Q ə m z ə. Oy, reqlament!

H ə m z ə. Zalım oğlu, bir rumka araq içəcək, amma bir tuluq çərənləyəcək!

Q ə l y a n a l ı. Yəni dediyim odur ki, yoldaşlar, Qəmzə və Həmzə öz qiymətli ömürlərində çox şeylər görüb-götürüblər, ancaq hələ bu vaxta qədər ər-arvadlıq ailəsinin ləzzətini görüb-götürməyiblər. Bu da onu sübut eləyir ki, bu ölməz qəhrəmanlar həyata ahıl vaxtlarında gözüyumulu yox, açıq göz ilə daxil olurlar. Yəni ağıllı surətdə addımlayırlar, nəinki ağılsız surətdə iməkləmək. Məsələn, birinci isqorisdən birbaşa üçüncü isqorisə keçirlər... Buna görə də, yoldaşlar, mən

səmim-qəlbdən təklif eləyirəm ki, götürün birinci rumkalarınızı, vuraq həmin təzəbəy ilə təzəgəlinin sağlığına, hansı ki, Həmzə və Qəmzə, toyları mübarək olsun, özləri də xoşbəxt olsunlar, tezlikcən baba və nənə olsunlar, həmişə kefləri kök, damağları çağ olsun, qoşa fiştırıqları gəlsin! Vurrey! Tuş! (*Badəni başına çəkir. Çalğıçılar "tuş" çalır.*)

Yerdən səslər. Mübarək!

– Xoşbəxt olsunlar!

– Oğullu-uşaqlı olsunlar!

– Qoşa qarısınlar!

Həmzə ilə Qəmzə bir müddət hərəkətsiz durub bir-birinə baxırlar.
Qonaqlar əl çalır. Müğənni mahnı oxuyur. Cavanlar rəqs edirlər.
Nəhayət, Həmzə, Qəmzə və Qəlyanalı qonaqları yola salırlar.

Qonaqlar. Allah mübarək eləsin!

Həmzə. Çox sağ olun!

Qonaqlar. Oğullu-uşaqlı olasınız!

Qəmzə. Subaylarınızdan görəsiniz!

Qonaqlar. Qoşa qarıyasınız!

Qəlyanalı. Xoş getdiniz!..

Səbirə. Mübarək, mübarək! Bizim hamımızı lap ürəkdən sevindirdin, Həmzə qardaş. Sizi bir də təbrik eləyirəm, Qəmzə bacı! Xoşbəxt olun, qoşa cavanlaşın!..

Həmzə. Çox sağ ol, bibigəlini!

Qəmzə. Təşəkkür edirəm, Səbirə!

Səbirə. Gecəniz xeyrə qalısın! Gedək, Qəlyanalı!

Qəlyanalı. Hara, aaz?!

Səbirə. Evimizə!

Qəlyanalı. Axı mən... bu kişinin sağdışıyam. Bəyi tək qoyub necə gedim?

Həmzə. Narahat olma, bibinəvəsi. Mən o cavan bəylərdən deyiləm, sağdış-soldışsız da keçinərəm. Apar Səbirəni evə!

Qəlyanalı. Hə?!

Qəmzə. Oyy!..

Səbirə. Gedək, a kişi, gecdir.

Qəlyanalı. Necə gedim, ay arvad? Bəy bizə məzə verir. İndi onu tək qoyub getsəm, sabah xalx mənə nə deyər? Elin adəti var, axı!

Sən get, mən də bir azdan gəlirəm... Əyə, İbiş, əmoğlu, əmin gəlinini ötür evə! Di dəstədən qalma, Səbirə!

Səbirə. Yaxşı! Təki sən həmişə evə belə xeyir işlər üçün yubanasan! Salamat qalın! (*Gedir.*)

Qəmzə (*öz-özünə*). Deyəsən, Səbirə məsələni bilmir axı? O yazığın nə təqsiri var ki, mən onu bədbəxt eləyim?

Qonaqlar. Salamat qalın! Gecəniz uğurlu olsun!

Ev sahibləri. Yaxşı yol! Zəhmət çəkdiniz!

Qonaqlar gedirlər. Həmzə, Qəmzə və Qəlyanalı həyətdə qalırlar.

Qəlyanalı. Sənin də gecən xeyrə qalsın, dayınəvəsi! Zəhmət çəkib bizim üçün yaxşı toy məclisi düzəltdin. Çox sağ ol! Səhər xərcini verərəm. Qulluğunda hazıram, bütün iştatımla!

Həmzə. Dəyməz, bibinəvəsi. Gecən də xeyrə qalsın, pulun da cibində qalsın, saxla oğlunun toyunda xərclərsən!

Qəmzə. Oyy... Bu nə xəcalət?

Qəlyanalı. Yaxşı, zarafatı boşla, Həmzə! Biz də gedək öz otağımıza, Qəmzə. (*Qəmzənin qoluna girir.*)

Həmzə (*Qəlyanalının qolunu Qəmzənin qolundan çıxarır.*) Bağışla, Qəlyan bala. Gəlin öz otağına gedəcək, sən də öz otağına!

Qəlyanalı. Bıyy! Bəyəm onun otağı mənim otağımla bir döyül?

Həmzə. Əlbəttə, yox! Onun otağı ancaq mənim otağımla bir ola bilər, necə ki, təzəbəylə təzəgəlin. Səninsə yerin, bir sağdış kimi, qapı dalındadır!

Qəlyanalı. Hi-hi! Bu nə deyir, Qəmzəcik?

Qəmzə. Elə bayaq mən də sənə bundan qorxduğumu deyirdim, Qəlyançik!

Həmzə. Siz heç nədən qorxmayın, xanım! Gecənin xeyrindən səhərin şəri yaxşıdır deyiblər. İndi hər birimiz ayrı-ayrılıqda öz otaqlarımıza gedəcəyik. Sabahsa baxıb görərik gəlin kimə düşməlidir – kəbinli ərinə, yoxsa kəbinsiz lotunun birinə!

Qəmzə. Oyy... Ömrümdə bir yol ərə getdim, o da şərikli.

Qəlyanalı. Bəlkə keflisən, Həmzəcik?

Həmzə. Artıq-əskik danışma, gedə! Sərxoş sənsən ki, özgə gəlininə əl uzadırsan. Qızın qolunu burax deyirəm sənə, yoxsa qol-qabırğanı qıraram!

Q ə l y a n a l ı. Mən ölüm, inad olma, a kişi. Ayıbdır! Eşidən-bilən bizə nə deyər?

H ə m z ə. Sən ayıb qanırsan? Bu saat, indicə toyumuzda olan camaatı yığaram bura, qoy görək hansımızın üzünə tüpürərlər.

Q ə l y a n a l ı. Deməli, sən bu toyu əşyayi-dəlil kimi təşkil eləmişdin? Əhsən planına!

H ə m z ə. Bəs sən elə bilirdin ki, biz incinarlıq bacarmarıq? Elə planlar çəkərəm sənin üçün ki, gözlərin bərələr!

Q ə l y a n a l ı. Çox sağ ol, dayınəvəsi! Əmanətə – xəyanət?!

H ə m z ə. Əmanətə yox, cinayətə – xəyanət! Hələ o biri fırıldaqlarını da ifşa eləyəcəyəm, görək onda halın necə olacaq sənin! Bəyəm Qəmzə ilə də onun üzüm bağına görə evlənmirsənmi?

Q ə m z ə. Nə?

Q ə l y a n a l ı. Niyə çığırırsan, a kişi? Sakit söhbət eləsənə!

H ə m z ə. Belə söhbətləri sakit eləmək olmaz, saxtakar!

Q ə l y a n a l ı. Madam ki, bu saxta kəbini qəbul eləməyəcəkdin, əvvəldən niyə razılıq verirdin?

H ə m z ə. Ona görə ki, sənə tövbələtmə olsun. Görəsən ki, həmişə başqalarını oynada bilməzsən, axır bir gün sənin özünü də meymun kimi ələ salıb oynadarlar! Sonra da, bu xanımla köhnə haqq-hesabım var mənim.

Q ə m z ə. Oyy... Köhnə söhbətlərin yeri deyil, Həmzə!

Q ə l y a n a l ı. Sənin onunla nə haqq-hesabın ola bilər, a kişi? Bəlkə üzünü qırxanda sənə izdaçi verməyib? Nə qədər borcu var, denən verim, əl çək! (*Əlini cibinə salır.*)

H ə m z ə. Zəhmət çəkmə! O mənim üzümü yox, qəlbimi təraş eləyib. Biz öz haqq-hesabımızı özümüz çəkərik.

Q ə l y a n a l ı. İşə düşmədik! Sən bu söhbətlərə nə deyirsən, Qəmzə xanım?

Q ə m z ə. Mən nə deyə bilərəm, Qəlyan ağa? On beş il ər axtardım, tapandan sonra da əkiz oldu! İstəmirəm, heç birini istəmirəm! Pozun mənim nikahımı, qaytarın məni atam evinə!

H ə m z ə. Toy gecəsi gəlini ata evinə qaytarmaq yaxşı deyil.

Q ə m z ə. Bəs indi mən neyləyim?

H ə m z ə. Sakitcə qalx öz otağına, rahatca uzan öz yatağına, asudəcə get öz yuxuna! İçəridən qapını bağla, çöldən də mən keşiyini çəkərəm. Qorxma, heç kəs narahat eləməz səni.

Q ə l y a n a l ı. Ay sən öləsən, qoca tülkü! İndi ki belə oldu, səhərəcən Qəmzənin qapısından çəkilməyəcəyəm. Mən öz qoyunumu qurda tapşıra bilmərəm.

Q ə m z ə. Mənə qoyun deyirsən, ədəbsiz?

H ə m z ə. Təzəbəylə təzəgəlini təhqir eləmə! Özgə arvadına havayı keşik çəkmək istəyirsənsə, mənimlə bərabər dayana bilərsən. Bayaq sənə dedim ki, yerin – qapı dalıdır.

Q ə m z ə. Ay kişilər, məgər yengəm-zadımsınız ki, gəlinlik otağımın qapısında durasınız; özü də tək yox, cüt-cüt!!!

H ə m z ə. Ondan darılma, kişidən yengə olmaz. Get, arxayın yat gəlinlik otağında!

Q ə m z ə. Bu gecə o otaqda mənim gözümə yuxu gedərmi?

H ə m z ə. Onun da fikrini çəkmə, toy gecəsi bütün gəlinlər yuxusuz qalırlar.

Q ə m z ə. Ancaq mənim kimi belə yox! (*Ağlayır.*) Oyy!.. Bu nə kəbin idi mənə kəsdiniz, bu nə toy idi mənə elədiniz? Bütün şəhərdə rüsvay oldum!

H ə m z ə. Dərs olar sənə, bir də belə ərə getməzsən!..

Q ə m z ə. Bu həngamədən sonra daha nə ər! (*Hönkürür.*) Kaş heç sənə rast gəlməyəydim, Qəlyanalı! İndi mən başıma nə çarə qılım, Həmzə?

H ə m z ə. Dedim ki, get, yat! Səhər nə lazımsa, edərik! Lap arxayın ol!..

Q ə m z ə. Mənim başım işləmir, Həmzə, özün bil! (*Ağlaya-ağlaya evə girir.*)

Q ə l y a n a l ı. Gecən xeyrə qalsın, xanım!

Xoruz banı eşidilir.

H ə m z ə. Sabahın xeyir olsun, Qəmzə!

Q ə l y a n a l ı. Sən öləsən, öz əlimlə öz arvadıma ortaq çıxarmadım?

H ə m z ə. Özün öləsən! Bir azdan ayırd edərik ki, əsil ər kimdir, böyürdən çıxan şərik kimdir?

Q ə l y a n a l ı (*papiros yandırır*). Bu qocaya baxın bir ey! Canın bu qədər sulu ikən pensiyaya niyə çıxırdın, a kişi?

H ə m z ə. Bəs sən nə xəyal eləmişdin, a gedə? Elə bilirdin Həmzə kişi lap qocalıb, ağlını itirib, sənin arvadını da öz adına saldıracaq ki,

Səbirə təkin bunu da çölə atanda uşaqlarına alimenti mən verim, hə? (*Ona dirsək göstərir.*) Ala!

Q ə l y a n a l ı. Sən lap xuliqan imişsən ki, qoca!

H ə m z ə. Sənin kimilərlə gərək xuliqan dilində danışasan!

Q ə l y a n a l ı. Nə eybi, indi dilin uzanıb, danış. Ancaq yadından çıxarma ki, mənə də Qəlyanalı deyərlər!

H ə m z ə. İstəyir lap "Xorxoralı" desinlər. Yenə söndürəcəyəm közünü!

Q ə l y a n a l ı. Görərik, kim kimin ocağını söndürər. Əgər mən bu hayıfı səndə qoysam, anadan əmdiyim süd mənə haram olsun!

H ə m z ə. Saxta and içmə, qurumsaq! Sən ana südü əmməmisən, keçi südü ilə böyümüsən. Şükümün o qədər ağır idi ki, dayım gəlini səni doğanda döşü də qurudu.

Q ə l y a n a l ı. Əyə, kaftar, mənə keçi deyirsən? (*Onun üstünə atılır.*)

H ə m z ə. Keçi səndən min pay yaxşıdır, çaqqal! (*Tutuşurlar. Qonşu həyətlərdən yuxulu səslər eşidilir.*)

K i ş i s ə s i. Bu gecə vaxtı nə dava-dalaş salmısınız? Qoysanız yataq!

Q a d ı n s ə s i. İkiarvadlı kişi görmüşdük, ikiərli arvad eşitməmişdik!

İ k i n c i k i ş i s ə s i. Ayıbdır, kiriyin, a kişilər! Gedin, yatın, səhər şərik malınızı bölərsiniz!

H ə m z ə (*sağ əli Qəlyanalının yaxasında olduğu halda, sol əli ilə ürəyini tutur*). Ay müxənnət ürək, heç dayanmağın yeridir?

Q ə l y a n a l ı. Pristupun tutdu? Əcəb oldu! Heç silkələməyəcəyəm. (*Tez onu buraxır.*) Qoy ürəyin həmişəlik dayansın! Öl, qoca kaftar!

H ə m z ə (*ikiəlli sol çiynini tutub silkələyir*). Özüm silkələyərəm! Bir ürək ki, sənin köməyinlə xoda düşəcək, heç işləməsə yaxşıdır. (*Oturur.*)

Q u z u b a l a (*qəflətən hasar dalından çıxır*). Nə var, usta, olmaya yenə ürəyin tənəffüs eləyir?

H ə m z ə. Hə, tez ol, silkələ məni!

Q u z u b a l a (*Həmzəni silkələyir*). Baş üstə, usta! (*Qəlyanalıya*). Sən kənar ol burdan, Qəlyan!

Q ə l y a n a l ı. Silkələmə, silkələmə onu! Sən hardan çıxdın, gedə?

Q u z u b a l a. Xalq drujinasından! Gecə vaxtı xalqın rahatlığını pozma!

Q ə l y a n a l ı. Bu xalq nökərləri də başımıza təzə bəla olublar a! Xalq drujinası, xalq nəzarəti, xalq deputatı, nə bilim...

Q u z u b a l a. Xalq məhkəməsi...

H ə m z ə. Cəld ol, Quzubala, bayaq toyda oynadığın havada silkələ!

Q u z u b a l a. O da baş üstə, Həmzə dayı! (*Həmzəni tez-tez silkələyərək oxuyur.*)

Gəlin təzə,
Bəy baməzə.
Mübarəkdir
Toyun, Həmzə,
Toyun, Qəmzə!..

H ə m z ə. Hə, işə düşdü! (*Özünə gəlib Qəlyanalıya hücum edir.*)

Q ə l y a n a l ı (*qarşısından qaçır, Quzubalaya*). Dedim axı, silkələmə onu.

## DÖRDÜNCÜ ŞƏKİL

Birinci şəklin dekorasiyası. Totux bufet arxasında müştərilərə içki və qəlyanaltı satır. Köhnə val xırıltıyla oxuyur.

T o t u x. Uzun danışma, malını aldın, bufetin qabağından keç! Növbə kimindir? (*Müştəriyə.*) Sən de görək, nə süzüm?

M ü ş t ə r i. Bir stəkan şərab!

T o t u x. Buyur! Ancaq, biz qəlyanaltısız içki satmırıq. Yeməyə nə verim?

M ü ş t ə r i. Ay qız, bu zəhrimarı dolu tök dayna!

T o t u x. Ağzında “zəhrimar” deyirsən, nə qədər az olsa, yaxşıdır.

M ü ş t ə r i. Deməli, bizə can yandırırsan?

T o t u x. Bə nədi? Biz ictimai iaşə işçiləri gərək müştərilərimizin cansağlığını qoruyaq... De görüm, nə yeyəcəksən?

M ü ş t ə r i. Qidalı bir şeyin varmı? Səhərdən bir stəkan çayla iki yumurtanın üstündəyəm.

T o t u x. Balıq qarnından təzə çıxarılmış qara kürümüz var.

M ü ş t ə r i. Vətəgədən “levi tavar” eləmi?

T o t u x. O sənə qalmayıb. Çaxırın üstündən su da içəcəksənmi, töküm?

M ü ş t ə r i (*qədəhi içir*). Suyu elə çaxırın içinə tökmüsüz dayna!

T o t u x. İki manat ver, bufetin qabağından keç!.. Sən nə istəyirsən, a bala?

U ş a q. Bir paçkə siqaret.

T o t u x. Uşaqlara satmırıq.

U ş a q. Özümə almıram, dədəmə alıram... (*Pul verib siqaret alır.*) Bəs izdaç?

T o t u x. Get izdaçı da dədəndən al!

S ə b i r ə (*qəlyanaltıxanaya girib bufetə yanaşır*). O, Qəlyan gedə hanı, ay qız?

T o t u x. Bıyy, Səbirə bacı! Nə əcəb səndən bizi yada salmısan, xeyir ola?

S ə b i r ə. Sizdən adama xeyir gələr? Müdirini buraya çağır. Özün də satdığın malların pulunu götür, bufeti təhvil ver!

T o t u x. Niyə, Səbirə bacı, nə olub bəyəm?

S ə b i r ə. Bəsdir mənim adımla möhtəkirlik elədiniz. İnnən belə özüm işləyəcəyəm burda. (*Bufetin arxasına keçir.*)

T o t u x. Ay aman! (*İçəri otağa çığırır.*) Əyə, Qəlyan, tez çölə çıx, gör xanımın nə deyir!

Q ə l y a n a l ı (*gözlərini ovuşduraraq yarımsoyunmuş halda içəri otaqdan çıxır*). Nə olub, a Totux, nə çığır-bağır salıbsan? Qoymazsan bir saat gözümün odunu alım? Axı bu gecə səhərəcən yatmamışam.

S ə b i r ə. Niyə yatmamısan? Niyə toydan sonra öz xarabana gəlmirdin?

Q ə l y a n a l ı. Sən burda nə gəzirsən, ay arvad?

S ə b i r ə. Mən bura gəzməyə yox, işləməyə gəlmişəm.

Q ə l y a n a l ı. Burda nə işin olacaq, aaz? Evə get, sənin işin ordadır, heyvan bacılıqlarının yanında!

S ə b i r ə. Xeyr, bağışla. Özün də qəlyanaltıxananı təhvil ver, çıx get təzə evinə!

Q ə l y a n a l ı. Başına hava gəlibmi, Səbirə?

S ə b i r ə. Havalı adam sənin təkin olar. Yerimi özümə ver deyirəm sənə!

Q ə l y a n a l ı (*tələsik pencəyini çiyninə atır, papağını başına qoyur, kəmərini bağlaya-bağlaya Səbirənin qoluna girib mülayimcəsinə onu içəri çəkmək istəyir*). Axı bir de görüm, nə olub ey? Niyə camaatın

yanında hay-küy salırsan? Deyir: söz var el içində, söz də var ev içində. Gedək evimizə, danışaq da! Bəlkə xəstələnibsən, Səbirə? Gəl aparım səni həkimə.

Səbirə. Mən elə burda sözümü dedim, hamı da eşitdi. Qəlyanaltıxanadan çıx, evə də ayaq basma. Ta bizimki səninlə qurtardı, fırıldaqçı! Bir-iki günə həkim yanında yox, hakim yanında danışarıq. Son dəfə!

Qəlyanalı. Kəs səsini, həyasız! (*Onun ağzına bir sillə vurur.*) İçəri keç görüm, nə çərənləyirsən. (*Səbirəni içəri otağa salmaq istəyir.*)

Səbirə (*onu kənara itələyir*). Get, təzə arvadınla danış, ona əl qaldır, arsız! (*Tutuşurlar.*)

Müştəri (*yanındakı müştəriyə*). İş üstündə ər-arvad davası görmüşdünmü?

İkinci müştəri. Bu dava döyül a, tamaşadır!

Totux (*çağırır*). Ay haray, kömək eləyin! Şüşələrim sındı, buterbrodlarım xaşıla döndü, pullarım it-bat oldu!..

Müştərilər Qəlyanalı və Səbirəni aralayırlar.

Nəzarətçi (*daxil olur*). Salam! Xahiş edirəm, bir şüşə "Badamlı" verəsiniz! (*Totuxa pul verir.*)

Qəlyanalı. Bıyy, nəzarət qağa? Xoş gəlibsən! Buyur, otur, bir az qəlyanaltı eləyək. Qulluğunda hazırıq, bütün iştatımızla!

Nəzarətçi. Sağ olun! Bu səs-küy nədir, belə?

Qəlyanalı. Ticarətin şirinliyindəndi.

Totux. Dava-dalaş salan, bax, bu arvaddı. Müştərilərə mədəni xidmət elədiyimiz yerdə hücum çəkib üstümüzə, yapışıb bu yazıq kişinin yaxasından ki, çıx çölə, qəlyanaltıxana mənimdi. (*Nəzarətçiyə bir şüşə su verir.*)

Qəlyanalı. Azz, Totux, sən kiri!.. Yox, məsələ elə deyil, nəzarət qağa.

Nəzarətçi. Bəs necədir? Yaxşı-yaxşı deyin görək nə olub?

Səbirə. Yoldaş nəzarətçi! Mən bu qəlyanaltıxananın qanuni müdiriyəm. Buyurun, baxın, bu da mənim şəhadətnaməm. Boynuma alıram ki, bu vaxta qədər anlamamışam, öz işimi həyat yoldaşıma etibar eləmişəm. İndi səhvimi düzəltmək istəyirəm. Xahiş edirəm, bu kişiyə deyəsiniz ki, burdan çıxsın və yerimi özümə təhvil versin!

N ə z a r ə t ç i (*şəhadətnaməni alıb baxır*). Bəli... Bu sənəd rəsmən təsdiq eləyir ki, vətəndaş Səbirə Qulamova yetmiş yeddi nömrəli qəlyanaltıxanın qanuni müdiridir. Siz bu barədə nə deyə bilərsiniz, Qəlyanalı vətəndaş? Bəlkə sizin də əlinizdə başqa sənəd var?

Q ə l y a n a l ı (*ah çəkir*). Xeyr... Mənim əlimdə sənət yoxdu... Ancaq bir məsələ var.

N ə z a r ə t ç i. Nə məsələ?

Q ə l y a n a l ı. O məsələ ki... Bax, nəzarət qağa, bu qəlyanaltıxana kimin adınadı? O arvadın! Bəs o arvad kimin adınadı? (*Barmağını öz sinəsinə vurur.*) Bu kişinin! Deməli ki, bu qəlyanaltıxana da kimin olur? Bu arvadın sahibinin, yəni mənim. Belədi, ya yox?

N ə z a r ə t ç i. Yox!

Q ə l y a n a l ı. Niyə?

N ə z a r ə t ç i. Ona görə ki, hər kəs öz yerində işləməlidir... Qadınınızın xəstəlikdən sağalması münasibəti ilə sizi təbrik edirəm! Daha onun əvəzinə siz burada əziyyət çəkməyəcəksiniz, elə deyilmi?

Q ə l y a n a l ı. Hə?.. Bəs necə? Hansı kişi istər ki, arvadının işini görsün? Bu qədər yükünü çəkmişəm, bəsimdi.

N ə z a r ə t ç i. İndi gedin, dincəlin! Sizi isə biz çoxdan burada görmək istəyirdik, yoldaş Qulamova; gec də olsa, yaxşı ki, öz vəzifənizə gəldiniz. Buyurun, qəlyanaltıxananı təhvil alın və işə başlayın. Uğur olsun!

S ə b i r ə. Çox sağ olun!

N ə z a r ə t ç i. Dəyməz!.. Əgər mane olmaramsa, icazə verin, burada oturub "Badamlı" içim.

S ə b i r ə. Buyurun, yoldaş nəzarətçi! Əksinə, təhvil-təslim zamanı siz burda olsanız, yaxşıdır. (*Qəlyanalıya.*) Gəlin başlayaq, vətəndaş!

Q ə l y a n a l ı. Nəyi başlayaq?

S ə b i r ə. Təhvil-təslimi!

Q ə l y a n a l ı. Təslim-təhvili? Başlayaq da!.. Əyə Totux... xanım, müştəriləri çıxar, bufeti təhvil ver.

T o t u x (*yavaşdan*). Doğrudan? Bəs siz...

Q ə l y a n a l ı. Səs-küy salma! Yenə xoşluqla qəlyanaltıxananı özümüzə qaytara bilərik. Nə deyirəm, onu elə!

T o t u x. Baş üstə!.. Yoldaş müştərilər, tez qurtarın! Təftişdir.

Q ə l y a n a l ı. Təftiş yox, ay dili yanmış, təhvil-təslim.

T o t u x. Axır ki, qəlyanaltıxananı bağlayırıq. Tez olun, çıxın, yoldaşlar!

Q ə l y a n a l ı (*yavaşdan*). Belə niyə eləyirsən, Səbirə? Axı mən sənin uşaqlarının atasıyam!

S ə b i r ə. Uşaqlarını istəyən kişi onların anası üstünə arvad almazdı.

Q ə l y a n a l ı. Nə arvad, əzizim? Sən özün ki toydaydın, görmədinmi kim evlənirdi?

S ə b i r ə. Gördüm. Amma hayıf ki, o oyunu başa düşmədim.

Q ə l y a n a l ı. Hansı oyunu? Ayıb deyilmi? Bütün şəhər bilir ki, o, Həmzənin arvadıdır.

S ə b i r ə. O da qeyrətinin möhkəmliyindəndir! Bəli, bütün şəhər bilir ki, ad – Həmzənindir, yar – sənin. Bu qəlyanaltıxana kimi, avtomaşının kimi, inəyin kimi. Sənin adına bircə mən və uşaqlarındır. İmkanın olsa, bizi də başqa kişilərin adına saldırardın. Ancaq bu sarıdan da arxayın ol. Boşanmaq barədə ərizə vermişəm. Bir-iki günə məhkəmədə işimizə baxacaqlar.

Q ə l y a n a l ı. Bəs mənim uşaqlarım kimin famili altında qalacaq?

S ə b i r ə. Mənim! Bir namuslu qadın adı yüz namussuz kişi familindən şərəflidir.

Q ə l y a n a l ı. Eh, cəhənnəmə qalın adım altında! Guya mən çox istəyirəm ki, adıma əşyayi-dəlil olsun, o da canlı adamlardan. Bir gün də buna görə çəksinlər məni sorğu-suala ki, kiçik bir maaşla o qədər uşağı necə əkmisən?

S ə b i r ə (*bufet arxasına keçir*). Boş söhbətlərlə vaxt uzatma. Gəl, işimizi görək! (*Telefon zəng vurur. Səbirə dəstəyi götürür.*) Eşidirəm! Bəli, yetmiş yeddi nömrəli qəlyanaltıxanadır. Buradadır. Nə deyim ona? Necə? Yaxşı, lap elə bu gün təhvil verərik. Sağ olun!

Q ə l y a n a l ı. Kim idi zəng vuran?

S ə b i r ə. Məhkəmə icraçısı.

Q ə l y a n a l ı. Məhkəmə? Nə deyirdi?

S ə b i r ə. Deyirdi ki, əmin kürəkəni Qənimətzadəyə iş veriblər! Əmlakı müsadirə olunmaqla, o cümlədən inəyi də.

Q ə l y a n a l ı. İnəyi də müsadirə olunub? Hansı inək?

S ə b i r ə. Onun adına olan qaşqa inək!

Q ə l y a n a l ı. Bəs o əclaf kürəkən məhkəmədə deməyib ki, inək onun döyül, mənimdi? Gözündən gəlsin, Qənimətzadənin hər gün havayı içdiyi iki litir südüm!..

Qəlyanaltıxanada işıq sönür və səhnənin küncü işıqlanır.
Üzünü tük basmış Qənimətzadə məhəccər arxasından nitq edir.

Q ə n i m ə t z a d ə. Xeyr, xeyr, yoldaş... bağışlayın, vətəndaş hakimlər!.. Mən ilk sözümdə dediyim kimi, son sözümdə də deyəcəyəm. Necə ki şəxsən atalar özləri də deyiblər. Amma mənim ərzim odur ki, bu qədər şəxsi mülkiyyəti şəxsən mənim ayağıma yazmaq ədalətsizlikdir. Deyirsiniz ki, mənim şəxsi evim var; əslində isə o ev əmim oğlunundur, ancaq mənim adımadır. Deyirsiniz ki, mənim bağım var; əslində isə o bağ yeznəmindir, ancaq mənim adımadır. Deyirsiniz ki, mənim avtomaşınım var; əslində o avtomaşın bacanağımındır, ancaq mənim adımadır. Deyirsiniz ki, mənim inəyim var; əslində o inək qayınatamın qardaşı oğlunundur; ancaq mənim adımadır... Şəxsən atalar demişkən: yar özgənindir, adsa mənim. Soruşursunuz ki, nəyə görə mən özgə əmlakını öz adıma yazdırmışam, burada mənim nə mənafeyim var? Cavab verirəm: ancaq nəfsimə görə. Açığını deyim ki, mənafeyim – birinin evində yaşayıb kirayə verməmək, o birisinin maşınında havayı gəzmək, üçüncüsündən bir çuval müftə qoz, dördüncüsündən iki litr süd və ilaxır bu kimi bekarə ayın-oyun... İndi mən də sizdən sual edirəm, möhtərəm hakimlər: şəxsən öz cəzam azdır məyər, özgələrin də cəzasını mənim ayağıma yazırsınız? Qohum-qardaş malı da axırda adamın ayağına belə balta vurarmış?!

Burada işıq sönür və yenə qəlyanaltıxana işıqlanır.

Q ə l y a n a l ı. Bu da işdi? Qohum-qardaş ayağı da axırda adamın başına belə təpik olarmış?!

N ə z a r ə t ç i. Bir də təbrik edirəm, vətəndaş Qəlyanalı! Demək, özgə inəyinin çatısı da xirtdəyinizdən açıldı.

Q ə l y a n a l ı. Bəli... Amma xirtdəyimi də üzüb özü ilə apardı.

S ə b i r ə. Fakturaları gətirin!

Q ə l y a n a l ı. Əyə, Totux, mənim gözlərim qaralır, başım hərlənir; özün bufeti təhvil ver. Ancaq barı bu dar günümdə daxıla girmə!

T o t u x. Ağıllı danış, əyə! Daxılda bir şey qoyursan ki, girəm?

Q ə l y a n a l ı. Pah atonnan, yuxu eşidirəm-nədi?

T o t u x. Acgöz kişi, yuxuda da daxıl görür ha!

S ə b i r ə. Gəl təhvil-təslimi qurtaraq, qıza!

T o t u x. Nə yaxşı elədiniz buranı öz əlinizə aldınız, ay Səbirə xanım! Bu julik məni lap cana gətirmişdi. İndi özümüz işlərik özümüz üçün. Dükanımızın adını da qoyarıq: “Nümunəvi qadın qəlyanaltıxanası”.

S ə b i r ə. O xəyallara düşmə. Təhvil-təslimi qurtaran kimi əmrini verib, qəlyanaltıxananın o fırıldaqçı fəhləsi Qəlyanalı ilə bərabər səni də buradan qovacağam!

T o t u x. Niyə, Səbirə bacı? Bəs bu qəlyanaltıxananı kim dolandıracaq?

S ə b i r ə. Özüm. Həm də daha bura qəlyanaltıxana olmayacaq, qəhvəxana olacaq...

T o t u x. Araq-çaxır qəhvəxanası?..

S ə b i r ə. Yox, çay-süd qəhvəxanası.

T o t u x. Ay-hay!.. Elə qəhvəxanadan nə mənfəət götürəcəksən, ay arvad?

S ə b i r ə. Mənfəət yox, xidmət qəhvəxanası, zəhmətkeşlərə mədəni xidmət!

T o t u x. Onda əmrimi tez ver, gedim, özümə ayrı yer tapım.

Yumşaqov, Xatun və Quzubala pillələrdən aşağı enirlər.

Y u m ş a q o v. Salam! İcazə var?

T o t u x (*tez onların qarşısına yüyürür*). Yox, qəlyanaltıxana bağlıdı!

X a t u n. Biz yemək-içməyə gəlməmişik. Müdirlə balaca işimiz var. Beşcə dəqiqəliyə içəri girməyə icazə verin.

T o t u x. Dedim ki, bağlıyıq, heç bircə dəqiqə də girmək olmaz!

Q u z u b a l a. Yan dur, əyə. Qəlyanalıya xeyir xəbər gətirmişik.

Q ə l y a n a l ı. Burax, gəlsinlər, Totux! Buyur görək, sən nə deyirsən, xaloğlu?!

Y u m ş a q o v. Mən?.. Heç... Elə-belə gəldim, deyim ki... necəsən? Kefin-halın, işlərin necədir?

Q ə l y a n a l ı. Niyə, pis döyül!

Y u m ş a q o v (*Səbirəyə*). Salam, xalagəlini! Siz necəsiniz?

S ə b i r ə. Sağ olun, mən də yaxşıyam!

Q u z u b a l a. Salam, yoldaş nəzarətçi!

N ə z a r ə t ç i. Drujinaçı qardaşa eşq olsun! İşləriniz necədir?

Q u z u b a l a. Lap yaxşı. Həmişə sizə kömək eləməyə hazırıq.

N ə z a r ə t ç i. Çox sağ olun!

Y u m ş a q o v. Deyəsən, vacib işiniz var, eləmi?

S ə b i r ə. Elədir, qəlyanaltıxananı...

Q ə l y a n a l ı (*tez Səbirənin sözünü kəsir*). Səliqəyə salırıq.

Y u m ş a q o v. Bəlkə mən sonra gəlim?

Xatun. Sonra nə vaxt, a kişi? Dama basılandan sonra? Gəlmisən, elə indi sözünü de, məsələ bitsin!

Yumşaqov. Deyim də. Ancaq... Sən allah, incimə məndən, xaloğlu, üzüm ayağının altında... Bu gün yenə idarəyə bir cərimeçi gəlmişdi. Dedi ki, maşınım onu vurub.

Qəlyanalı. Nə olub, adam basmısan?

Yumşaqov. Mən yox ey, sən!

Qəlyanalı. Haçan, harda?

Yumşaqov. Deyəsən, dünən gecə gəlin gətirəndə olub... Kişi şax durdu üzümə ki, maşınla vurmuşam, ombası qırılıbdır.

Qəlyanalı. Hansı kişi, əyə? O dişsiz keçisaqqal piyaniskəmi?

Yumşaqov. Hə, bir elə tip idi.

Qəlyanalı. Onun ombası anadangəlmə şikəstdi. İş-peşəsi də özünü aftanabel altına atıb xam şoferlərdən pul almaqdı. İki dəfə də mənim qulağımı kəsibdi. Üçüncü kərə zalım oğlu ombasını maşına elə çırpdı ki, faram sındı. Özündən pul alacaqdım, cibindən bir qara qəpik tapmadım. Dünən axşam yenə kefli idi, ilişdi sağ qırıloma. Söyüb qovladım. İndi sənin üstünə niyə gəlir? Mən özüm onunla haqq-hesab çəkərəm.

Yumşaqov. Zəhmət çəkmə, haqq-hesabını çürütdü mənimlə. Dərman pulusunu alıb getdi.

Qəlyanalı. Dərman nədi, əyə, araq pulu alıb səndən, nahaq xam düşüb veribsən... Yaxşı, daha nə var ki, xaloğlu?

Quzubala. Uzatma, əyə, mətləbi müxtəsər elə!

Yumşaqov. Hə?.. Mətləbin müxtəsəri odur ki, ərizə verdim, avtomobilimi... avtomobilini bağışladım dövlətə! Xahiş edirəm, maşınımı... maşınını təhvil verəsən bu cavan oğlana!..

Xatun. Nəhayət!..

Qəlyanalı (*Yumşaqovun üstünə atılır*). Xeyir xəbərin bu idi?! Sən belə qələt eləmisən! Bu saat get, ərizəni geri götür. Mənim maşınımı bağışlayanın anasını ağladaram!

Yumşaqov. Öz xalanı deyirsən, xaloğlu?

Quzubala (*onları aralayır*). Sakit ol, vətəndaş! Açarı ver, maşını aparaq!

Qəlyanalı. Xeyr, onu eləyə bilməyəcəyəm! Mən sizi məhkəməyə verərəm!

Quzubala (*ona kağız göstərir*). Avtomaşının dövlətə təhvil verilməsi notarius kontorunda qayda-qanunla tərtib olunubdur. Maşını

vermәsәn, sәnin özünü mәhkәmәyә verәrik. Ancaq yenә dә xoşluqla tәhvil versәn, yaxşıdır... Tez elә, bizi yubatma!

Qәlyanalı. Axı sәndәn kim xahiş elәmişdi, ay Yumşaq bala?! Mәnә deyәydin, özüm öz malıma әncam çәkәrdim dә!

Yumşaqov. Adam adama nә qәdәr deyәr, ay Qәlyan bala?! Artıq dözә bilmәdim. Gәrәk bağışlayasan.

Qәlyanalı. Bir aftanabelim var idi, onu da hökumәtә dәsxoş elәdin. Daha mәn sәnә nә bağışlayım?

Yumşaqov. Heç nә! O maşını adımdan çıxarsalar, elә billәm dünyanı mәnә bağışladılar.

Xatun. Tәbrik edirәm, Yumşaq qardaş!

Nәzarәtçi. Mәn dә sizi tәbrik edirәm, vәtәndaş Yumşaqov! Demәk, özgә maşını da daha başınıza ağrı olmayacaq!

Qәlyanalı. Başım var ki, ağrısı da ola? Görmürsәn, bu Yumşaq gedә başıma nә oyun açdı?

Nәzarәtçi. Siz özünüz demirdinizmi maşın Yumşaqovundur?

Qәlyanalı. Onun idi, sonra bağışladı mәnә.

Yumşaqov. Vicdanın olsun, әyә. Mәn sadә bir qulluqçu babayam, avtomaşın bağışlaya bilәrәm?

Qәlyanalı. Axmaq adamdan hәr nә desәn çıxar!

Yumşaqov. Necә ki, sәnin varidatın bir-bir әlindәn çıxır!

Qәlyanalı. Bunu düz deyirsәn!

Nәzarәtçi. Avtomaşının açarını verin!

Quzubala (*açarı Qәlyanalıdan alır*). Gedәk, Yumşaqov, heç olmasa bir yol öz avtomobilinә min!.. Bıy, bu nә iydir gәlir? Baxın görün, nә yanır?!

Qәlyanalı. Heç nә... Yanıq iyi mәndәn gәlir!

Totux. Vay, qatletlәrim! (*Mәtbәxә atılır.*)

Qәlyanalı. Eh, gidi dünya! Mәn boyda cәmdәyin burda cızdağı çıxır, axmaq qız qatlet hayına qalıbdı. (*Stula oturur.*)

## BEŞİNCİ ŞӘKİL

Üçüncü şәklin dekorasiyası. Hәyәtә avadanlıq daşınır. Hәmzә ikinci mәrtәbәdә artırmada stol üstündә çamadana paltar yığır.

Hәmzә.

Qabla dәxi marfaşını, Hәmzә bәy,
Durma, götür qaç başını, Hәmzә bәy!

(*Alt və üst paltarlarını qaldırıb çırpır və saya-saya qatlayıb çamadana qoyur.*) Bir, iki, üç... Bir, iki, üç... Gərək o savadsız doxdurları məcbur eləyim, razı olsunlar ki, qoca döyüləm, xəstə döyüləm, pensiyalıq döyüləm mən! İndi qoy gəlib baxsınlar tikdiyim evə, sonra görüm necə qaytarmırlar məni öz işimə! Bir, iki, üç...

Q ə m z ə (*artırmaya çıxır*). Aaa, kişinin başına hava gəlib-nədir, mayka-trusiklə danışır?.. Nə olub, Həmzə qardaş?

H ə m z ə. Ər-arvadın bir-birinə "bacı-qardaş" deməyini də bu gün eşitdik... Bir elə şey olmayıb, Qəmzə bacı! Çamadanımı qablayıram. Sən də yığış, cehiz çamadanını aparım atan evinə. Sonra da gedək, qəzetə elan verək.

Q ə m z ə. Qəzetə elan? Nə barədə?

H ə m z ə. Boşanmaq barədə. Mən, necə deyərlər, öz borcumu yerinə yetirib qurtardım. İndi azadsan, kimə istəsən, gedə bilərsən.

Q ə m z ə. İki günün ər-arvadının nikahını pozarlarmı? Xalq qəzetdə bunu oxusa, mənim barəmdə nə fikirləşər? Bu biabırçılıqdan sonra məni hansı kişi alar?

H ə m z ə. Onda ərizəni sənin adından verərik, yazaraq ki, sən məni boşayırsan. Qoy mənə heç bir arvad gəlməsin. Onsuz da daha evlənməyəcəyəm mən.

Q ə m z ə. Elə mən də daha ərə getməyəcəyəm. Bir yol "ləzzətini" gördüm, bəsimdir. Bərbər dəsmalı deyiləm a, gündə bir kişinin boynundan asılam.

H ə m z ə. Bəs kəbinimiz necə olsun?

Q ə m z ə. Necə var, eləcə də qalsın!

H ə m z ə (*sevincini büruzə verməməyə çalışaraq, pünhani köks ötürür*). Hə?

Q ə m z ə. Hə də! Görünür bizim nikahımız kosmosda kəsilib. Qismətdən qaçmaq olmaz.

H ə m z ə. Bəs iyirmi il əvvəl niyə mənə qismət olmadın?

Q ə m z ə. Əlbət, onda qismətimiz kal imiş. Axı məhəbbət təkin qismətin də bir zamanı, məkanı olar, ya yox?

H ə m z ə. Nə isə, ağlıma batmır.

Q ə m z ə. Ağlın nə tez kütləşdi? Yoxsa indi mənə ər olmaq istəmirsən?

H ə m z ə. Açığını deyim ki, yox!

Q ə m z ə. Niyə? De görüm, mən karam, koram, şiləm, keçələm, ya nəyəm?

H ə m z ə. Xeyr, xeyr, Allah eləməsin. Sən zahirdən baxanda yaxşısan, yüz faiz normalni insan...

Q ə m z ə. Bəs daxildən baxanda haram xoşuna gəlməyib, nəyim ninarmalni görünüb sənə?

H ə m z ə. Təbiətin. Sənin xasiyyətin mənimkiylə tutmaz!

Q ə m z ə. Nə üçün?

H ə m z ə. Onun üçün ki, biz başqa-başqa adamlarıq. Cavanlığımızda məndən nələr tələb elədiyin yadından çıxıbmı sənin? Elə indi də Qəlyanalının mal-dövlətinə getmirdinmi sən?

Q ə m z ə. Cavanlıqdakı iştaham cavanlıqda qaldı. İndi Qəlyanalı ilə bu sevdamdan sonra mal-dövlətin də etibarını gördüm. İnnən belə sərvət-şöhrəti neylirəm, goruma aparmayacağam a! Nəyimiz var – bəsimizdir. Sən pensiyanı alarsan, mən də bərbərliyimi elərəm. Asudə yaşarıq özümüz üçün. Mənim əlim işə öyrəşib, bekar dura bilmərəm.

H ə m z ə. Deməli, sən çöldə işləyəcəksən, mən evdə oturub bozbaş bişirəcəyəm?

Q ə m z ə. Niyə? Xörəyi də özüm bişirməyə vaxt taparam. Sutkada yeddi saat iş, yeddi saat yuxu, qalan on saatda on cür xörək bişirərəm sənin üçün.

H ə m z ə. Bəs mən neylərəm sənin üçün?

Q ə m z ə. Sən də bir ucdan yeyərsən özün üçün. Sonra da uşaqlarla oynarsan.

H ə m z ə. Bu yaşımda?

Q ə m z ə. Uşaqlarla pensionerlər oynayır da.

H ə m z ə. Ancaq nəvələri ilə.

Q ə m z ə. O baxır pensionerin fərasətinə – eləsi var nəvəsi ilə oynar, eləsi də var oğlu ilə.

H ə m z ə. Vay o oğuldan ki, atası ilə qoz-qoz oynaya.

Q ə m z ə. Bircə o günü görəydim! Ölməyəydim, oğlumun üzünə birinci ülgücü özüm çəkəydim, ilk dəfə saqqalını öz əllərimlə daraş eləyəydim, bığlarını öz qayçımla düzəldəydim... (*Qəhərlənir.*)

H ə m z ə. Heç cür inanmağım gəlmir ki, bu sözləri sən deyirsən, Qəmzə.

Q ə m z ə. Daşı ətəyindən tök, bu vaxtında mənə naz eləmə, Həzmə!

H ə m z ə. Onu eləyə bilməyəcəyəm, Qəmzə xanım! Yaxşısı budur ki, isti-isti gedək nikahımızı pozduraq!

Q ə m z ə. Xeyr, onu görə bilməyəcəksən, Həmzə bəy! Kəbin kağızı əlimdə, ərim yanımda, ağlım başımda. Zorla məni boşamayacaqsan a. Məhkəmədə sənə deməzlərmi: əgər iki gündən sonra boşayacaqdınsa, bəs niyə evləndin, niyə otuz ilin qızını bədbəxt elədin?

H ə m z ə (*bığaltı gülür*). Hə, belə ha! İndi deyəsən, həyatla ayaqlaşmağa başlayırsan, arvad!

Q ə m z ə. Topal-zad deyiləm a?.. Səndən bircə addım da geri qalmaram. Əlimdən heç yana qaça bilməzsən. Kəbinli ərimsən, vəssalam! (*Birdən Həmzənin üstünə atılır, onu qucağına basıb öpməyə başlayır.*) Nəhayət, biz də ailə həyatının ləzzətini görməliyik, ya yox?!

H ə m z ə. Uxxay, indi oldu: adı da mənim, dadı da mənim... Evlənməyin ləzzəti qocalıqda imiş ki, cavanların xəbəri yox.

Yüz aşiqi məhv etməyə bir qəmzə gərəkdir,
Yüz Qəmzəni ram etməyə bir Həmzə gərəkdir.

Saçlarını düzəlt, gedək evə.

Q ə m z ə. Bu saat, mənim əzizim! (*Onu qucağından buraxır.*) Yenə qalstukun əyridir, Həmzə! (*Qalstukunu düzəldir.*)

H ə m z ə. Onu düzəltmək çətin məsələdir, Qəmzə. Qalstukum əyri deyil, hülqumum əyridir.

Q ə m z ə. Bəs bunu mənə qabaq niyə demirdin?

H ə m z ə. Çünki onda sevişirdik, eybimi deməyə utanırdım. İndi isə, ər-arvadlıqda daha nə utanmaq? Yoxsa peşman olmusan? Onu bil ki, heç o dünyada da boşayan deyiləm səni, arvad!

Q ə m z ə. Sən nə danışırsan, ay kişi? Nəinki hülqumun, lap boynun da əyri olsa, qəbulumdur. Təki ürəyin düz olsun.

H ə m z ə. Ondan arxayın ol! (*Əlini bərkdən sol döşünə vurur.*) Vay, tez silkələ məni, Qəmzəcan!

Q ə m z ə. Nə oldu sənə, Həmzəcan?

H ə m z ə. Heç... Ürəyim müvəqqəti dayanıb, yorğunluğunu alır. Qorxma, silkələ işə düşsün, arvad!

Q ə m z ə (*təlaş içində onu qucaqlayıb silkələyir*). Məni bədbəxt eləmə, ər evinə getməmiş məni dul qoyma, kişi! (*Onu bağrına basıb silkələyir.*)

Bu zaman Qəlyanalı – üzünü saqqal basmış, paltarları əzilmiş halda həyətə girir. Həmzə ilə Qəmzənin artırmada qucaqlaşdığını görərək gözlərini qapayır.

Q ə l y a n a l ı. Nənəm vay! Gözün ovulsun, Qəlyanalı! Axırıncı ümidim bu dəlləyə idi, o da bığımı belə qırxdı. Bu dəfə mənimki evlənmək olmadı, eşiklənmək oldu...

H ə m z ə. Hə, düşdü xoda ürəyim.

Q ə m z ə. Allah, sənə çox şükür. Dur, çıxıb gedək öz evimizə, Həmzə!

H ə m z ə. Gedək, Qəmzə, gedək!.. Bundan sonra gərək məni saat kimi vaxtlı-vaxtında qurasan ki, ürəyimin purjini boşalmaya.

Q ə m z ə. Ondan arxayın ol! Nə qədər ki mən sağam, qızıl saat təkin qoruyaram səni. Bircə dəqiqə də ürəyini dayanmağa qoymaram! (*Artırmadan çıxırlar.*)

Q ə l y a n a l ı. Necə? Yox! Mən hələ ölməmişəm! Nə qədər canımda can var, qoymaram cananım cansız canbazlara canlıq olsun. Bu saat alaram onların qoşa canlarını. (*Cib bıçağını çıxarıb evin qapısına atılır. Bu zaman həyətə uşaq bağçası inventarı daşındığını görüb donub qalır.*) Hələ bu nədi?

Həmzə ilə Qəmzə əllərində çamadanları, evdən çıxarkən Qəlyanalı ilə qarşılaşırlar.

H ə m z ə. Bıyy, Qəlyanalı? Xoş gördük! Bu vədə özgə həyətində nə gəzirsən?

Q ə l y a n a l ı. Özgə həyəti hansıdı, a kişi? Mən öz mülkümə gəlmişəm.

H ə m z ə. Gecikmisən, bibinəvəsi. Bura indi dövlət mülkiyyətidir. Mən onu uşaq bağçasına peşkəş eləmişəm. Xalqdan oğurlanmış pul ilə tikilən bina xalqa verilməlidir. Evin təzə sahiblərinin köçünü görmürsənmi?

Q ə l y a n a l ı. Necə, necə? Məndən xəbərsiz mənim mülkümü peşkəş eləmək? Bu saat mən sənin o invalid canını əzrayıla peşkəş elərəm, qoca sarsaq!

H ə m z ə. Kiri, əyə! Bura sənin üçün qəlyanaltıxana döyül, uşaq bağçasıdır.

Q ə l y a n a l ı. Hara olur olsun, ürəyini elə dayandırım ki, heç zəlzələ də silkələyib işə sala bilməsin!

Bıçağı qaldırıb Həmzənin üstünə atılır. Həmzə onun əlini havada tutur, qolunu qarıb bıçağı alır, Qəlyanalını itələyib yerə yıxır.

H ə m z ə. Boynunun yoğunluğuna güvənmə, gedə. Qalib gəlmək üçün təmiz ürək lazımdır!

Q ə m z ə (*Həmzənin sol çiynindən tutur*). Silkələyim, Həmzə?

H ə m z ə. Yox, Qəmzə, bayaq purjinimi möhkəm burmusan. Ömrümün axırınacan bəsimdir. Gedək!

Q ə m z ə. Tez gedək! Bunun sir-sifətinə baxanda adamın ürəyi bulanır.

Həmzə ilə Qəmzə çamadanlarını götürüb çıxırlar.
Yumşaqov daxil olur.

Y u m ş a q o v. Salam, Qəlyanalı! Bıy, yerdə niyə uzanmısan? İstirahət eləyirsən?

Q ə l y a n a l ı (*yerdən qalxmadan ona baxır*). Yox, istixara eləyirəm.

Y u m ş a q o v. Nə barədə?

Q ə l y a n a l ı. O barədə ki, görüm məndən daha nə istəyəcəksiz?

Y u m ş a q o v. Daha?.. Sən allah, incimə, xaloğlu! Özün bilirsən ki, adam bir şey bağışlayanda gərək səliqə ilə peşkəş eləsin. Avtomaşının domkratı qalıb səndə. Xahiş edirəm verəsən, çatdırım təzə sahiblərinə...

Q ə l y a n a l ı. Nə həyasız adam imişsən sən, ay Yumşaqov! Mən çox bərk üzlər görmüşəm, amma sənin kimi qənbərsifətə heç rast gəlməmişəm.

Y u m ş a q o v. Niyə, xaloğlu?

Q ə l y a n a l ı. Zəhrimar xaloğlu, çor xaloğlu! Əyə, ay allahsız, indi mənim özümə domkrat lazımdı, sən onu da məndən istəyirsən?

Y u m ş a q o v. Sənə domkrat kömək eləməz, Qəlyanalı. Sənə qaldırıcı kran lazımdır!

Q ə l y a n a l ı. Onda get birini al gətir, məni qaldırsın da.

Y u m ş a q o v. Demək, yenə adı mənim olsun, dadı sənin?

Q ə l y a n a l ı. Nə olar, xaloğlu deyilikmi?

Y u m ş a q o v. Yox... Özün qurduğun tələdir, özün də düşmüsən. İndi eşələn orda özün üçün. Adı da sənin, dadı da sənin.

PƏRDƏ

# ŞIXƏLİ QURBANOV

(1925-1967)

*Qurbanov Şıxəli Qurbanəli oğlu – ədəbiyyatşünas-alim, nasir, tərcüməçi, dramaturq, Bakıda qulluqçu ailəsində anadan olmuş, orta məktəbə getmiş* (*1931*), *oranı ekstern bitirmiş, könüllü cəbhəyə getmiş* (*1941*), *snayper* (*sərrast nişançı*) *məktəbinin bölmə komandiri* (*1942*), *Polşada, Peterburqda* (*1944*), *Berlində* (*1946*) *olmuş və Svineyunde şəhərində ordudan tərxis olunmuşdur. Müharibə dövründə orden və medallarla təltif edilmişdir.*

*APİ-nin filologiya fakültəsini bitirmiş* (*1950*), *Azərbaycan ədəbiyyatı kafedrasının aspirantı, eyni zamanda rus ədəbiyyatı müəllimi olmuş, "A.S.Puşkin və Azərbaycan poeziyası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş* (*1956*), *həmin institutda baş müəllim, dosent* (*1958*), *Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda ədəbi əlaqələr şöbəsinin müdiri* (*1962-1966*) *olmuşdur.*

*Ş.Qurbanov lirik şeir, poema hekayə və tənqidi məqalələrlə dövri mətbuatda çıxış etmiş, "Rəis məşğuldur"* (*1958*), *"Əcəb işə düşdük"* (*1962*), *"Özümüz bilərik"* (*1963*), *"Olmadı elə, oldu belə"* (*1964*), *"Milyonçunun dilənçi oğlu"* (*1966*), *"Sənsiz"* (*1967*) *pyeslərini, "Bahadır və Sona"* (*1961*) *librettosunu yazmışdır. Onun əsərləri keçmiş SSRİ-nin bir çox şəhərlərində, "Sənsiz" pyesi Bolqarıstanda tamaşaya qoyulmuşdur.*

*Azərbaycan KP Bakı Komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri* (*1954-1955*), *26 Bakı Komissarı* (*indiki Səbayel*) *rayon Partiya Komitəsinin birinci katibi* (*1955-1957*), *Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri* (*1957-1961*), *Azərbaycan KP MK katibi və büro üzvü* (*1966*) *olmuşdur. Azərbaycan SSR Ali Sovetinin* (*V və VII çağırış*) *deputatı olmuşdur. Lenin ordeni* (*ölümündən sonra, 1967*) *və medallarla təltif olunmuşdur.*

*Yazıçılar İttifaqının üzvü* (*1963*) *olmuş, filologiya elmləri doktoru* (*1964*), *Ü.Hacıbəyov adına Dövlət Mükafatı laureatı* (*1967*) *adını almışdır.*

# SƏNSİZ

*Üç pərdəli, beş şəkilli dram*

İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| S e v i n c | – müəllimə, 36 yaşında |
| T ə r l a n | – onun əri, geoloq, 45 yaşında |
| F ə r h a d | – geoloq, 36 yaşında |
| M a r a l | – geoloq, 25–26 yaşlarında. |

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Səliqə ilə yığışdırılmış bir otaq.
Sevinc əlində kitab taxtın üstündə oturmuşdur.

S e v i n c (*kitabı oxuyur*). Hansı kitabı açırsan, gözlərin önündə alovlu bir məhəbbət, əbədi bir sevgi! İşdə sevgi, həyatda sevgi! Görəsən sevgisiz, məhəbbətsiz həyat varmı? Yox... Sevgisiz yox... Məni sevgim yaşatmışdır. Mən sevirəm. (*Tərlanın divardan asılmış şəklinə baxır.*) Dəlicəsinə sevirəm. Yalnız onu! Həyatım boyu ondan başqa heç kimi sevmədim. Mənə çoxları qəlbini açdı. Belə hallarda mən qəribə hisslər də keçirmişəm. Yalnız bir anlığa. Onu necə unuda bilərəm? (*Şən musiqi səsi gəlir. Haradasa qonşuda gəlin gətirirlər. Sevinc başını qaldırıb qulaq asır.*) Gəlin gətirirlər. Xoşbəxt olasan. On səkkiz il əvvəl... (*İşıqlar çəkilir. Yenidən artırkən Tərlan sevincək gəlir.*) Tərlan!..

T ə r l a n. Ay şeytan, sən elə bildin ki, səni tapmayacağam. (*Onu qucaqlayır.*)

S e v i n c. Burax, qabırğalarımı sındırdın.

T ə r l a n. Bax, görürsən nə dəqiq oğlanam? Düz vaxtında gəlmişəm. Məndən bir dənədir...

S e v i n c. Əlbəttə, bir dənəsən... Əbəs yerə səni seçməmişəm ki?

T ə r l a n. Dayan görüm... Mən səni seçmişəm, ya sən məni?..

S e v i n c. Mən səni.

T ə r l a n. Yox, mən...

S e v i n c. Mən...

T ə r l a n. Budur ey... Ailə həyatı başlayır... Bilirsən nə var?.. Əslində elə ikimiz də bir-birimizi seçmişik...

S e v i n c. Dünən səndən ayrılandan sonra... o qədər fikir eləmişəm...

T ə r l a n. Nəyin fikrini?

S e v i n c. Dünən gözümə birtəhər dəydin... Tərlan, sən allah, düzünü de... İşdə bir hadisə üz verməyib ki?..

T ə r l a n. Yox... Nə hadisə üz verəcək... Hə, yadıma düşdü... Yolda bir qız gördüm, sənin paltarından geymişdi. Elə bildim sənsən. Yoldaşlarımı buraxıb ardınca qaçdım.

S e v i n c (*onun sözünü kəsir*). Deməli, sən məni başqalarıyla qarışıq da sala bilirsən?

T ə r l a n. Yox, heç bir vaxt. İstəsəm belə, bacarmaram. Eşidirsən, bacarmaram!

İşıq dəyişir.

S e v i n c. Eşidirsən? Bacarmaram! Sabah toyumuz olacaqdı... Onun gözləri gülür, üzündə sonsuz bir təbəssüm oynayırdı. Səhər-səhər qaçaraq yanıma gəldi.

Tərlan gəlir.

T ə r l a n. Sevinc xanım, şeytan xanım. Gəlnimiz toya hazırdır?

S e v i n c (*utancaq*). Eh, Tərlan, axı bu toy nəyə lazımdır? Mən elə utanıram ki...

T ə r l a n (*onun sözünü kəsir*). Nədən utanırsan, toydan? Ay dəli, gör axşam nə qiyamət olacaq. İki dəstə çalan, oxuyan çağırmışam.

S e v i n c. Axı biz orda nə eləyəcəyik?

T ə r l a n. Bəylə gəlin toyda nə eləyir? Sındıracağıq! (*Qollarını açır.*)

S e v i n c. Vay, biabır olduq...

T ə r l a n. Nə üçün?

S e v i n c. Axı mən oynamaq bilmirəm.

T ə r l a n. Eh, onda nə var ki, əllərini belə aç, süz getsin. Gəl elə burada sənə oynamaq öyrədim.

S e v i n c. Yaxşı görək... Sənə nə var ki, hələ min işim var.

T ə r l a n. Yaxşı, mən getdim.

S e v i n c. Sabaha qədər, təzə bəy!

T ə r l a n. Gəlin xanım, bəs sabaha qədər mən səni görməyəcəyəm?

S e v i n c. Yox!

T ə r l a n. Deməli, düz iyirmi dörd saat sənsiz?.. Yox, bacarmaram, ürəyim partlar. 24 saat...

İşıqlar dəyişir, Sevinc tək.

S e v i n c (*acı təbəssümlə*). 24 saat, 24 saat... 18 il?! Məni bu otağa gəlin gətirdilər...

İşıqlar dəyişir. Musiqi səsi gəlir. Get-gedə yaxınlaşır.
Xanəndənin mahnısı eşidilir.

Gəlin, qədəmlərin mübarək olsun,
xoş ildən xoş ilə aparsın səni.
Ömür yollarında öz sevgilinlə
görüm, gülə-gülə aparsın səni.

Demirəm evinin bəri-bəzəyi
büllurdan, qızıldan, gümüşdən olsun.
İstərəm hər ayın, ilin bəzəyi
ömrə rövnəq verən gülüşdən olsun.

Gəlin, arzuların görüm gül açsın,
çöllər bəzənəndə, bahar gələndə.
Sənin ilkin körpən, görüm dil açsın.
baxım, mahnı deyim, sevinim mən də!

Mahnı oxunan zaman duman kimi toy məclisi görünür.
Səslər – "Bəylə gəlin oynasın", "Tərlan, başla görək" və i.a.
Tərlan və Sevinc rəqs edirlər.

T ə r l a n (*pıçıltı ilə*). Hə, necə oldu, daha utanmırsan ki?

S e v i n c (*eyni tərzdə*). Yox, alışdım.

T ə r l a n. Bəs deyirdin ki, oynamaq bilmirsən...

S e v i n c (*gülə-gülə*). Öyrəndim.

İşıqlar dəyişir. Sevinc tək.

S e v i n c. Sonra... Birinci və axırıncı gecəmiz!

İşıqlar dəyişir.

T ə r l a n. Axır ki, tək qaldıq, bir sən, bir də mən.

S e v i n c. Sənsiz mən yaşaya bilmərəm. Eşidirsən, sənsiz mən yaşaya bilmərəm.

T ə r l a n. Sevinc, əgər məndən bu saat soruşsalar ki, dünyanın ən xoşbəxt adamı kimdir, fikirləşmədən deyərdim ki, mənəm, mən! Tərlan!

S e v i n c. Elə mən də elə deyərdim. O qədər xoşbəxtəm ki, Tərlan, hətta bir az qorxuram da. Eh, sən gülürsən.

T ə r l a n. Nədən qorxursan, ay dəli?

S e v i n c. Nə bilim. Mənə elə gəlir ki, bu xoşbəxtlik zərif büllurdan tökülmüş piyalədir. Bir balaca ehtiyatsız tərpənsəm, əlimdən düşüb parça-parça olar. Bu fikir heç başımdan çıxmır.

T ə r l a n. Sən o fikirləri qov getsin, lap uzaqlara! Özün də heç nədən qorxma. Biz həmişə bir yerdə olacağıq. Bizi bir-birimizdən heç bir qüvvə ayıra bilməyəcək. (*Onun boynunu qucaqlayır.*) Sevinc!

S e v i n c. Tərlan!

Bayırda qalxan külək pəncərənin pərdəsini qaldırır, göy gurlayır, şimşək çaxır. Tərlanın və Sevincin qəhqəhəsi şimşəyin dəhşətli səsi içərisində əriyir. Otaqdan işıqlar çəkilir. Həyəcan və kədər dolu musiqi səsi ətrafı bürüyür. Otaq yenidən işıqlanır. Sevinc yenə də taxtın üstündə oturmuşdur.

S e v i n c. Sonra getdi... Apardılar... Mən ondan başqa heç kimi qəlbimə yaxın qoymamışam. Yenə də qoymayacağam. Fərhad! Onu da sevgisi ilə birlikdə qovacağam. Elədir. Bu nə qədər tez olsa, o qədər yaxşıdır. Həm onun üçün, həm də mənim üçün. O çox mədəni, nəcib, həssas adamdır. O hər şeyi bilməlidir. Axı indiyə kimi qayıtmalıydı... Görəsən niyə gecikib? Bu nədir? Mən onu gözləyirəm? Yox, yox, mən nə danışıram? (*O, tələsik plaşını geyir.*) Mən heç kəsi gözləməməliyəm. Nəinki Fərhadı, heç kimi. (*Şəklə baxır.*) Heç kimi! (*Qapıya gedib dayanır. Səs gəlir, kimsə pillələri qalxır, səs kəsilir.*) Bu odur. (*Qapının zəngi çalınır.*) Yox, açmayacağam. Qoy getsin. (*Qapının zəngi bir də çalınır. Sevinc tərəddüd içərisindədir. O nə edəcəyini bilmir: qapını açsın, ya açmasın? Elə bu vaxt qapının zəngi bir də çalınır. Sevinc qeyri-ixtiyari qapıya doğru addımlayır. Sonra Fərhadla bir yerdə qayıdır.*)

S e v i n c (*fikirli*). Gözəldir. Belə rəngləri ancaq təbiət yarada bilər. Hər cür süni boyalardan azad təbiət! Bu gözəlliyin ömrü çox qısa olur. Dağ çiçəyi! (*Gülləri tumarlayır.*) Bunlar şəhərdə yaşamazlar, Fərhad!

F ə r h a d. Eybi yoxdur. İndi daha tez-tez dağlara gedəcəyəm. Yenə gətirərəm... Sevinc, bilsəydin bu saat oralarda təbiət necə gözəldir. Elə bil doğrudan da gəlin kimi bəzənib. Hər tərəf yam-yaşıl... Bu yaşıllıq içərisində əlvan rəngli çiçəklər elə bil mahir bir rəssam fırçasıyla vurulmuşdur... Havadan nə isə bir ətir qoxusu gəlir... Xüsusən səhərlər...

S e v i n c (*köksünü ötürür*). Bəli... İlin ən gözəl çağıdır.

F ə r h a d. Amma bir-iki aydan sonra gəl oralara bax, gör nə görərsən...

S e v i n c. Necə ki?

F ə r h a d. Qızmar günəş bu yerləri sapsarı edəcək... Çəhrayı, sürməyi, sarı, ağ güllərdən əsər belə qalmayacaq... Bilirsən, elə olurdu ki, mən uzun-uzadı ətrafa baxırdım... Ürəyimdə qaynayan hisslər tez-tez dəyişirdi. Bəzən bütün vücudumu fərəhli hisslər bürüyürdü. Bəzən də ürəyim sıxılırdı... Qəribədir bu insan təbiəti!.. Həmişə nədənsə nigaransan...

S e v i n c (*fikirli*). Bəli, insan təbiəti çox qəribədir.

F ə r h a d. Bilirsənmi, mən orada çox düşünürdüm... Təbiət nöqsansızdır. Təmizdir... Axı insan da təbiətin balasıdır, bəs nə üçün o bütün həyatı boyu buraxdığı səhvləri, çox vaxt təkrar edir? Xasiyyətində olan nöqsanları dəyişmək haqqında nəinki heç düşünmür, hətta onları doğruldur...

S e v i n c. Deyəsən budəfəki səfərin səni filosof etmişdir.

F ə r h a d. Gülmə, Sevinc... Tək qalanda beynində fikirlər qaynayır. Bəzən də adamın keçirdiyi həyatda olan elə anlar gəlib durur gözünün önündə ki, sonra təəccüb edirsən... Deyirsən axı, necə oldu ki, bu mənim yadıma düşdü?

S e v i n c. Hə, məndə də elə olur, amma mən təəccüb etmirəm...

F ə r h a d. Bir səhər bilirsən nə yadıma düşdü?.. Əgər unutmamışsansa, biz 9-cu sinifdə oxuyanda, 2 mayda bütün siniflə birlikdə dağlara getdik... Xatırlayırsan?

S e v i n c (*gülür*). Hə, yadıma düşdü, sən də böyük bir çanta götürmüşdün, içi yeməklə dolu.

F ə r h a d. Yadıma düşdü səninlə uzağa qaçmağımız. Qayıdanda gördük ki, Mahirə müəllimə bizdən nigaran qalıb.

S e v i n c. Yazıq o biri uşaqların da qanını qaraltmışdı.

F ə r h a d. Bu gün gözümə çox fikirli dəyirsən, Sevinc, bəlkə mənim gəlişim...

S e v i n c. Yox, yox, yorğunam, başım ağrıyır.

F ə r h a d. Çox işləməkdəndir, Sevinc. Hərdənbir dincəlmək də lazımdır. Axı sən özünü çox yorursan.

S e v i n c. Mən işdə dincəlirəm. Kəşfiyyatın nəticələri necədir?

F ə r h a d (*fikirli*). Heç özüm də bilmirəm.

S e v i n c. Bu dəfə səfərin deyəsən çox uzun çəkdi.

F ə r h a d. İyirmi günə qədər.

S e v i n c. Düz on doqquz gün... darıxmırdın ki?

F ə r h a d. Sevinc, məni qınama. Səni görmədiyim üçün bu on doqquz gün mənə on doqquz il qədər uzun göründü. Bütün bu günləri səni düşünürdüm. Mənə elə gəlirdi ki... (*Sevincin plaşda olduğunu görür.*) Sən harasa getmək istəyirdin?

S e v i n c. Yox, yox, Fərhad, fikrimi dəyişdim.

F ə r h a d. Mən səni ötürə bilərəm.

S e v i n c. Sağ ol, getməli olmadım. (*Plaşını soyunur.*)

F ə r h a d. Sevinc, görürəm, hiss edirəm ki, mənə nə isə demək istəyirsən... De, Sevinc.

S e v i n c (*onun sözünü kəsir*). Yox, yox... Bilirsən, Fərhad, sənə demək istəyirəm... Demək istəyirəm ki...

F ə r h a d (*onun sözünü kəsir*). Bilirəm, yenə deyəcəksən ki, öz hisslərini yoxla. Mən... Bunu ki, sən bilirsən... Hələ biz orta məktəbin son sinfində ikən... Yəqin qismət belə imiş... Ancaq səni heç vaxt unutmadım, heç vaxt!

S e v i n c. Lazım deyil, Fərhad!

F ə r h a d. Bağışla, Sevinc, başqa cür bacarmıram. Axı mən...

S e v i n c (*onun sözünü kəsir*). Yenə mən, mən... Görəsən nə üçün kişilər anadan eqoist doğulurlar, nə üçün? Mən, mən. Axı nə üçün sən ancaq özünü düşünürsən, nə üçün?

F ə r h a d. Sevinc, inan ki, mən...

S e v i n c. Bəli, sən. Sən məni də heç olmasa bircə anlığa düşünürsənmi?

F ə r h a d. Bir an nədir, səni mən düşünürəm, ancaq səni!..

S e v i n c. İndi deyəcəksən ki, hər şeyi də ölçüb-biçmisən, eləmi?

F ə r h a d. Mən çox fikirləşmişəm, Sevinc.

S e v i n c. Haqqında düşündüyün bu məsələ təkcə sənəmi aiddir, Fərhad?

F ə r h a d. Əlbəttə, yox. Bizim hər ikimizə.

S e v i n c. Elə isə bəs nə üçün sən hökm verməlisən, nə üçün, hə? Kişisən ona görə? Cavab ver!

F ə r h a d. Sevinc!

S e v i n c. Sözlərim sənə qəribə gəlməsin, Fərhad! Bu illər ərzində mən bilsən nə qədər yol keçmişəm. Həyatın enişli-yoxuşlu yollarını! Əvvəllər çətin idi. Çox çətin. Sonralar alışdım, bərkidim, başa düşdüm ki, insan öz yerini həyatda tapana qədər çətin olur. Sonrakı çətinliklər bir o qədər də qorxulu deyil.

F ə r h a d. Mənə elə gəlir ki, biz bütün bu illəri həmişə bir yerdə olmuşuq, bu yolları birgə keçmişik.

S e v i n c. Səhvin var. Ömrümün tam bir ilini mən başqa bir aləmdə olmuşam. Bax, onunla. (*Tərlanın divardakı şəklini göstərir.*) Sən bunu da bilirdin?

F ə r h a d. Bilirdim, Sevinc, bilirdim.

S e v i n c. Onu da bilirsən ki, biz həmişə üç nəfər olacağıq: sən, mən, o!

F ə r h a d. Sevinc!

S e v i n c (*acı bir təbəssümlə*). Bilirsən və razısan, eləmi? Get, dincəl, Fərhad, yoldan gəlmisən, yorğunsan, get, əzizim, üç qəlbin məhəbbətini bir ürəyə sığışdırmaq olmaz. Get, dincəl.

F ə r h a d. Mənim gözlərimə yuxu getməz. Mən sənsiz yaşaya bilmərəm, Sevinc!

S e v i n c (*öz-özünə*). Sənsiz mən yaşaya bilmərəm! Bu sözlər mənə çox tanış gəlir. Sənsiz mən yaşaya bilmərəm! Yadıma düşdü. Bu sözləri mən demişəm, mən. On səkkiz il əvvəl... (*İstehza ilə gülümsəyir.*) Amma yaşayıram. Desəm ki, ölmək istəyirəm, heç kim mənə inanmasın. Bütün canlılar kimi, mən də yaşamaq istəyirəm.

F ə r h a d. Sevinc, məni bağışla, bilsəydim ki...

S e v i n c (*onun sözünü kəsir*). Onun addım səsi hələ də qulağımdadır. Elə bil bizi bir-birindən dünən ayırdılar. Həmişə gözüm yolda olmuşdur. Elə bil bax indicə qapını açıb içəri girəcək. (*Qapının zəngi çalınır. Sevinc yönəlir. Əlində kiçik bir zərf qayıdır.*) Ordandır! (*O, bir anlığa nə edəcəyini bilmir.*) Ordandır! (*O, titrək əlləri ilə zərfi açır, özünü toplayaraq oxuyur.*) Sizin ərinizə... (*Öz-özünə oxuyur.*) Sizin ərinizə bəraət verilmişdir!!! Mənim ərim... Necə də qəribə səslənir,

mənim ərim! Qoy hamı eşitsin, qoy hamı bilsin ki, mənim Tərlanım günahsızdır. (*Onun qəhqəhələri get-gedə qüvvətlənərək hıçqırığa çevrilir.*) Ərimə bəraət verilmişdir!

F ə r h a d. Özünü ələ al, Sevinc.

S e v i n c. Məni tək burax. Mən onu mütləq tapmalıyam. Onun gözləri yoldadır. Axı bu xəbəri on səkkiz ildir ki, gözləyir. Mən onu torpaq altında yatan minlərlə günahsız müqəssirlərin içindən tapacağam, qulağına pıçıldayacağam: Qalx, mənəm, sənin Sevincin! Qalx, mənim nakam məhəbbətim! Qalx, mənim gələcəyim! Qalx, sənə bəraət vermişlər. Bəraət!!! (*Yıxılır.*)

PƏRDƏ

## İKİNCİ ŞƏKİL

Fərhadın otağı. Divarda kiçik geoloji xəritə asılmışdır.
Ortadakı stolun üstünə müxtəlif daşlar səpələnmişdir.
Fərhad daşlardan birini əlinə alır.

F ə r h a d. Belə... bu səfərlərdən bir şey çıxmadı. Havaya sovrulmuş günlər, saatlar, dəqiqələr! İndi hər dəqiqə bir ixtira olmalıdır. Mən isə günləri... Yaxşı, mən ki, yerin sirrini öyrənə bilmirəm, insan qəlbini necə öyrənə bilərəm? Biz həmişə üç nəfər olacağıq: mən, sən, o! Nə üçün üç nəfər, nə üçün? Sən haqlı deyilsən, Sevinc! Axı o, artıq yoxdur... Amma biz varıq, həyat var. Mənim ürəyim sənin ürəyinlə döyünür. Nə üçün mən bu qadını bir anlığa unuda bilmirəm? Bəli, ürəyə əmr edə bilməzsən. O mənim məhəbbətimi rədd etsə də... Dayan, rədd edirmi? Nə vaxt? Axı mən görürəm, hiss edirəm ki, mən ona lazımam. Bizim bir-birimizdən ayrı həyatımız yoxdur. Mən onunla görüşəndə dilim tutulur. Ürək sözlərimi axıra qədər deyə bilmirəm. (*Stolun üstündəki məktubu görür.*) Məktubu axıra çatdırmaq lazımdır. Qoy o bu məktubda hər ikimizin ürəyini görsün. Axıra qədər. (*Telefon zəng vurur.*) Allo, allo, bəli, mənəm. Fərhaddır. Evdəyəm. (*Dəstəyi bir müddət əlində saxlayıb, yerinə qoyur.*) Yenə o... Budur qadınla kişinin dostluğu. Nəticəsi məhəbbət. Bu qız məndən öz sevgisinə cavab istəyir... Yox, axı onu mən heç vaxt sevməmişəm. Onu başqa bir həyat gözləyir. Onun gözlərini açmaq mənim borcumdur. Nə üçün mən belə qətiyyətsiz, iradəsiz adamam? Beynimi dağıdan fikirləri aça bilmirəm... Bəlkə mən qorxağam... Yox, mən bu mehriban qızdan qorxmuram... Bəs nə üçün ona həqi-

qəti deyə bilmirəm? Gəlir, gedir, gündən-günə mənə alışır. Bəs o yazıq deyilmi? Axı mən onu heç vaxt sevməmişəm. Bu saat gəlir... Mən ona deyəcəyəm. Bəlkə Sevinc desin ona? Hə, belə yaxşıdır... Sevinc... O məni heç bir vaxt rədd etməyib. Axı mən ona lazımam. Qəribədir, nədənsə, mən onu görəndə dilim-ağzım bağlanır. Yox, mən ona deməliyəm. Ancaq necə? Deyə biləcəyəmmi? Ona Sevinc desin, onun qəlbinə yol tapa bilər. (*Məyus.*) Yox, deməz... (*Bu vaxt telefon zəng çalır.*) Bəli, Fərhaddır. Salam. Xeyr. Hələlik qəti bir söz demək çətindir. Mümkünsə, mənə iki gün də əlavə vaxt verin. Sağ olun, çalışaram. (*Dəstəyi yerinə qoyur.*) İki gün! Bəs sonra? Yəni bu iki gündə "Kiçiktəpə" öz sirrini açacaq? Bəlkə də onun heç bir sirri yoxdur? Boş yerə vaxt itirirəm?.. Bəlkə... (*O, telefon dəstəyini götürüb yenidən yerinə qoyur.*) Yox, ölmək var, dönmək yox... Mən ona deyil, o mənə təslim olacaq!

Maral (*gəlir*). Yaxşı dincələ bildinmi? Əgər bilsən sənə nə qədər təzə xəbər gətirmişəm. Əvvəl icazə ver plaşımı çıxarım. Hamısını bir-bir danışacağam.

Fərhad. Buyur.

Maral (*plaşını çıxarır*). Hə... Yox... Hə, heç bilirsən Aladağa gedən kəşfiyyat partiyasına kim başçılıq eləyir?

Fərhad. Bilmirəm.

Maral. Professor özü! İdarədə bir vurhavur var ki, gəl görəsən. İkinci partiyanın işləri bəyənilmədi, bu bir. Eşitdiyimə görə, rəhbərlikdə bir götür-qoy olacaq, bu iki. Camal sabah gedir müdafiəyə, bu da üç.

Fərhad. Çox gözəl.

Maral. Bu gün səhər Hüseyni gördüm. Sənə bir qucaq salam göndərdi. Dedi ki, "Kiçiktəpə" haqqında məlumat verəndə məni yaddan çıxarmasın. Deyəsən, gəlmək istəyir.

Fərhad (*köksünü ötürür*). O, çox gözləməli olacaq.

Maral. Elə demə, Fərhad. Mən bilirəm. Sən ki bir işdən yapışdın, mütləq başa çatdıracaqsan. Darıxma, birdən-birə heç nə olmur. Sən ilk dəfə material toplamağa başlayanda, mənim heç ağlıma gəlməzdi ki, bu sənin namizədlik dissertasiyan olacaq. Hər şey belədir.

Fərhad. Maral!

Maral. Heç nə demək lazım deyil. Bilirəm, sən danışmağı sevmirsən. Səni tanıdığım iki ildə bütün dediklərini yazmış olsaydım, şagird dəftərinin bircə vərəqinə ancaq sığardı. Bircə vərəqinə...

F ə r h a d. Maral...

M a r a l. Ürəyini qısma, nə olsun ki, mən artıq buna adət eləmişəm... Amma özünü çox yorma. İşləmək nə qədər olar? Səndən ötəri idarə ilə ev arasında heç bir fərq qalmayıb. Gecə-gündüz iş. Səni başqa heç nə maraqlandırmır. Mən başa düşürəm. Bu saat hamı, bütün idarədəkilər, sənin axtarışlarının nəticəsini gözləyir. Amma özünü də unutma! Bir pəncərədən bax, küçə adamla doludur. Elə bil bayramdır. Şəhərin al-əlvan geyinmiş qızlarına baxanda adamın ürəyi açılır.

F ə r h a d. Get, sən də qoşul onlara, gəz, dolan.

M a r a l. Bəs sən?

F ə r h a d. Mən işləməliyəm.

M a r a l. Fərhad, sən məndən nə isə gizlədirsən. Özün bir söz deməsən də, gözlərin mənə çox şey deyir.

F ə r h a d. Maral, xahiş edirəm, məni düzgün başa düş...

M a r a l. Danış, Fərhad, danış. Məndən heç nə gizlətmə. Sən danışanda da, susanda da mən səni dinləyirəm, ürəyinin döyüntüsünü də eşidirəm. (*Gülümsəyir.*) Mən uşaq olanda nənəm deyərdi ki, mənim sifətim gündə bir cür olur. Bəzi günlər mən çox gözəl oluram. Deyirlər bütün insanlar belədir. Amma sən, sən onların heç birinə oxşamırsan. Mən səni həmişə bir cür görürəm. Danışanda da, susanda da.

F ə r h a d. Maral.

M a r a l (*onun sözünü kəsir*). Bilirəm, səni belə söhbətlər maraqlandırmır. Yenə deyəcəksən ki, Maralın uşaqlığı yadına düşüb. Düz deyirəm?

F ə r h a d. Mən sənə başqa şey demək istəyirdim.

M a r a l. Maraqlıdır?

F ə r h a d. Yox! Mən çox fikirləşdim, götür-qoy elədim. Bilirsən, Maral, bizim bu vəziyyətimiz çox davam edə bilməz. Bütün varlığımla, bütün qəlbimlə...

M a r a l. Fərhad, əzizim, sənin indi gəldiyin bu nəticəyə mən iki il əvvəl gəlmişəm. Və mən yanılmamışam. Mən xoşbəxtəm, Fərhad!

F ə r h a d. Maral...

M a r a l (*onun sözünü kəsir*). Heç bir söz lazım deyil. Bir kəlmə də! Bilirəm, sən danışmağı sevmirsən. Mən səni sözsüz də anladım. Kənardan baxan sənə "çox soyuqdur" deyər, amma mən... Mən bu soyuqluğun özündə də bir hərarət duyuram. Nənəm inciməsəydi bu saat Xəzərin sahilinə gedərdik. Xəzər! Sən də Xəzər kimisən. Mən onun sakit vaxtını da, qasırğalı vaxtını da eyni məhəbbətlə sevirəm.

Bacarsaydım, onu bağrıma basardım, oxşardım. Hirslənməyə qoymazdım, könlünü alardım. Mənim şıltaq Xəzərimin! Fərhad, görəsən adam nə üçün şad xəbər eşidəndə bir yerdə qərar tutmur? Gəzmək, dolaşmaq istəyir. Öz sevincini rast gəldiyi hər kəslə bölüşmək istəyir?! Hə, yaxşı yadıma düşdü. Bayaq trolleybusdan düşəndə kimi görsəm yaxşıdır?

Fərhad. Kimi?

Maral. Sevinci. Doğrudan da nə qədər qəşəng qadındır. Amma nədənsə üzü bu gün mənə çox qəribə göründü. Üzündə kədərlə sevincqarışıq bir ifadə gördüm. Yanından keçdim, məni tanımadı... Görəsən...

Fərhad. Ərinə bəraət veriblər...

Maral. Nə danışırsan? (*Məyus.*) Nə olsun ki, kaş özü gələydi. (*Fikirli.*) Kim bilir, bəlkə də, o sağdır, gələcək?!

Fərhad (*diksinir*). Sağdır? Yox, sağ olsaydı, çoxdan gəlmişdi.

Maral. Heyf. Onu tanıyanlar hamısı heyfsilənirlər. Əhməd müəllim deyir ki...

Fərhad (*fikirli*). Kim?

Maral. Professor Ağazadəni deyirəm də... Deyir ki, Tərlan ağıllı geoloq idi. Özü də deyir, elə qəşəng, elə nəzakətli, elə nəcib adam idi ki...

Fərhad. Elə deyirlər.

Maral. Adam bir onun şəklini görəydi...

Fərhad. Şəkli həmişə Sevincin stolunun üstündədir.

Maral. Göyçək oğlandır?..

Fərhad. Desəm ki, hələ əməlli baxmamışam...

Maral. İnanıram.

Fərhad. O səni nə yaman maraqlandırır?

Maral. Məni Sevinc maraqlandırır, yazıq. İndi mən bilirəm ki, o nələr çəkir. Birlikdə teatra getdiyimiz yadımdadır. Onun üzü güləndə də gözləri kədərli idi. Mənə elə gəlir ki, Tərlandan başqa heç kimi sevə bilməz.

Fərhad (*özünü itirmiş*). Nə üçün, axı nə üçün sevə bilməz?! Axı nə üçün bütün həyatını sümükləri çoxdan çürümüş bir adama qurban verməlidir?

Maral. Elə demə, Fərhad! Onun üçün o adam həmişə yaşayır. Onu necə unutmaq olar? Axı...

Fərhad. Bəsdir, yalvarıram, bəsdir!

M a r a l. Sən bu gün yaman hirslisən. Bilirəm, səni kəşfiyyatın nəticələri darıxdırır, darıxma.

F ə r h a d. Darıxma demək asandır. İki gündən sonra mən hesabat verməliyəm.

M a r a l. Sənin hesabatını səbirsizliklə gözləyirlər. Amma onu da deyim ki, "Kiçiktəpə" haqqında bədgüman olan da var.

F ə r h a d. Kim bilir, bəlkə də onlar haqlıdır.

M a r a l (*onu dalğın vəziyyətdən çıxarmağa çalışır*). Fərhad, buralar yaman tör-töküntüdür. Sən beşcə dəqiqə təmiz havaya çıx, stolun üstünü səliqəyə salım.

F ə r h a d. Yaxşı, amma xeyri yoxdur, bir azdan yenə aləm qarışacaq bir-birinə. (*Çıxır.*)

Maral stolun üstünü səliqəyə salır.

M a r a l. "Kiçiktəpə" yazığı dəli eləyib. Mən arabir gəlməsəm, lap ağlını itirər. Təklik pis şeydir. Amma niyə o tək olsun? Mən ki onu bütün varlığımla sevirəm. Bizə nə mane olur? (*Yarımçıq qalmış məktubu götürür.*) Bu nədir? Dissertasiya? (*Oxuyur.*) Sevinc! Mənim həyatımın sevinci! Sənsiz mənim bir günüm belə... (*Öz-özünə.*) Sevinc... Ah, o qadın!

Otaqda işıq sönür. Küçə tərəf görünür. Fərhad papiros çəkir.

F ə r h a d. Mən onu ilk dəfə Sevinclə tanış edəndə Sevinc hər ikimizi mənalı-mənalı süzdü. Sonra Maral getdi. Harasa tələsirdi. Biz tək qaldıq.

İşıq dəyişir.

S e v i n c. Yenə nə oldu, qanın niyə qaradır?

F ə r h a d (*güclə gülümsəyir*).Yox, qəmgin deyiləm.

S e v i n c. Məni aldada bilməzsən. Görürəm çox narahatsan.

F ə r h a d. Yox, yox...

S e v i n c. Fərhad, səndən bir şey soruşmaq istəyirəm.

F ə r h a d (*gülümsəyir*). Soruş.

S e v i n c. O gün mənimlə teatrda tanış elədiyin o qız – Maral sənin xoşuna gəlir?

F ə r h a d. O çox yaxşı qızdır... Onun elə mehriban xasiyyəti var ki...

S e v i n c. Mən də onu görən kimi hiss etdim. Yaxşıdır. Sən onunla xoşbəxt ola bilərsən.

F ə r h a d. Sevinc... Maralı mən necə deyim... balam kimi, qızım kimi sevirəm.

S e v i n c. Yaxşı. Mən bunu da hiss etdim. Elə isə, o yazıq qızın təqsiri nədir? Mən onu da hiss etdim ki, o öz həyatını sənsiz təsəvvür edə bilmir.

İşıq dəyişir.

F ə r h a d. Həyatını sənsiz təsəvvür edə bilmir. Görəsən, insanlar bir-birlərinin sifətlərini gördüyü kimi, ürəklərini də görsəydi, nə olardı?

Fərhad otağa keçir. Maral tək oturub. O dalğındır.

F ə r h a d. Maral, nə olub?

M a r a l. Heç... Heç, bir balaca ürəyim qısıldı. Mən gedim. (*Qalxır.*)

F ə r h a d. Səni ötürüm?

M a r a l (*qəti*). Yox, yox, özüm gedərəm. (*Çıxır.*)

F ə r h a d. Getdi. Mən onu nahaq tək buraxdım... (*Maralı səsləyir.*) Maral! Getdi. Kiçiktəpə, sən də susursan, sən də öz qəlbindəkiləri məndən gizlədirsən. Eşitdinmi bayaq nə dedi? Mənim nəticəmi gözləyirlər.

Bu vaxt qapı döyülür. Otağa solğun bənizli
yorğun bir adam daxil olur.

T ə r l a n. Görürəm təksiniz. Təklik isə dəhşətdir. İcazə verin beş-on dəqiqə sizi məşğul edim ki, darıxmayasınız.

F ə r h a d. Siz kimsiniz? Buraya necə gəldiniz?

T ə r l a n. Siz məni tanımırsınız. Bura isə qapıdan gəlmişəm. Qapınızı açıq görüb, girdim içəri.

F ə r h a d. Sizə kim lazımdır?

T ə r l a n. Mənə “sən” deyin, sən. “Siz” kəlməsinə çoxdan yadırğamışam.

F ə r h a d. Sən kimsən, haradansan? Adın nədir?

T ə r l a n. Ad? Mənim adım yoxdur. Ad elə bir sərvətdir ki, onu hər kəs qazana bilmir.

Fərhad. Hə... Bu gün mənimki gətirir. İndi də gəl bu avara ilə çənə döy.

Tərlan. Deyəsən axı, məni yavaş-yavaş tanımağa başlayırsınız.

Fərhad. Açığını deyim, mən sənin kimiləri sevmirəm.

Tərlan. Mən bura sizin sevginizi qazanmaq üçün gəlməmişəm, Fərhad müəllim! İndi axı müəllim sözü moddadır. Elə deyilmi?

Fərhad. Sən mənim adımı haradan bilirsən?

Tərlan. Məşhur şəxslərin adı sadə camaatın dilinin əzbəri olur.

Fərhad. Aydındır. Məndən pul qoparmağa gəlmisən, al, üç manat, gedə bilərsən. Get!

Tərlan. Hm... pul... 3 manat... Mənim bura gəlişimin qiyməti çox bahadır, Fərhad müəllim. Yox, siz narahat olmayın, mənim sizdən heç bir təmənnam olmayacaq.

Fərhad. Yaxşı, uzatma, xoş gəldin!

Tərlan. O... Siz çox səbirsiz adamsız. Elə ona görə də "Kiçiktəpə" öz sirlərini sizə açmaq istəmir.

Fərhad. Necə?

Tərlan. Əzizim! Təbiət qadın ürəyi kimi yumşaq deyil. Onu aldatmaq olmaz. Təbiət saxtalığı sevmir.

Fərhad. Yaxşı, de görüm, nə istəyirsən?!

Tərlan. Deyirlər, siz çoxdan bəridir "Kiçiktəpə"də filiz axtarırsınız.

Fərhad. Hə, axtarıram, nə olsun?!

Tərlan. Camaat danışır ki, axtarışlarınız bir nəticə vermir.

Fərhad. O da düzdür, sonra?

Tərlan. Sizin axtardığınız budur! Odu söndürüb külü ilə oynamayın. Sizin axtardıqlarınız buralarda yox, aşağı laylardadır. Vaxtı hədər yerə itirməyin. Aşağı enin. Bu hissənin heç bir sənaye əhəmiyyəti yoxdur. Bir az da aşağı enin. Ruhdan düşməyin.

Fərhad. Bir az da aşağı... aşağı... Bir az da aşağı... Dayan, bəlkə... Deməli, siz güman edirsiniz ki, mən o materialları heç yerdə tapa bilmədim. Dayanın, bircə dəqiqə dayanın! Getdi... Yoxsa o heç gəlməmişdi? (*Ovcuna baxır.*) Bəs bunlar? Mən onu bu vaxta qədər heç yerdə görməmişəm. Amma o mənim adımı da bilir. O elə bil hər şeyi öz əli ilə qoyub. Aşağı enmək lazımdır. Aşağı. Əlbəttə, aşağı...

PƏRDƏ

## İKİNCİ PƏRDƏ

### ÜÇÜNCÜ ŞƏKİL

Sevincin otağı. Otaq alaqaranlıqdır. Bayırda bərk qasırğa var. Göy guruldayır. İldırımın kəskin işığı bütün səhnəni parladır.

S e v i n c (*çamadanını hazırlayır*). Belə... Bu da belə... Mən yola çıxmağa hazıram. Bəs onun üçün nə aparım? Onun üçün?.. Onu tapacağammı? O sağdır? Ah... Ürəyim... Elə bil gözlərim önündə canlanır. Mən onu taparam. O məni gözləyir. Bəs nə üçün o məni gözləsin? Məgər o hiss etmir, bilmir ki, mən onu gözləyirəm?.. Ah, bu bir parça kağız. Görəsən onu nə halda görəcəyəm? Onun alnına tökülən saçları... Ah, onu görsəm... Onu bir də görsəydim. Göy necə gurlayır!.. Elə bil bu saat bütün səma uçub dağılacaq. O sağ-salamat olsun, mənə heç bir xəbər verməsin? Yox, bu mümkün deyil. Baharın ildırımı da gözəldir. (*Pəncərəyə tərəf gəlir. Pəncərəni açır. Küçədə kiminsə durub düz onun pəncərəsinə tərəf baxdığını görür və tez pəncərəni bağlayır.*) Bu kimdir belə? Bayaq da orada idi. Ürəyim sıxılır. Hə, dəftərlərə baxmaq lazımdır. (*Bir-bir dəftərləri yoxlayır. Birini götürüb baxanda gülümsəyir.*) Qumralın dəftəridir. Şeytan! Nə qəşəng xətti var. (*Fikrə gedir.*) O deyərdi ki, qız istəyir. Deyərdi ki, qız qəşəng olur, şirin olur... (*Pəncərəyə yanaşır, açır və tez örtür.*) Yenə o... Artıq məni əsəbiləşdirir. Kimdir görəsən? Niyə bura belə baxır? (*Qapı zəngi. Sevinc gedib qapını açır. Maralla birlikdə qayıdır.*)

S e v i n c. Keçin içəri, buyurun.

M a r a l. Axşamınız xeyir...

S e v i n c. Nə yaxşı, nə əcəb sizdən?!

M a r a l. Mən... Elə belə... Sizin yanınıza gəlmişəm...

S e v i n c. Xoş gəlmisiniz, mən çox şadam. Plaşınızı soyunun.

M a r a l. Sağ olun, yaxşıdır.

S e v i n c (*zarafatla*). Böyüyün sözünə baxarlar. (*Onun plaşını çıxardır.*) Bax, belə... İndi gəl bax bura əyləş... (*Maralın əlindən tutub divana tərəf çəkir.*)

Maral Tərlanın şəklinin qarşısında dayanıb diqqətlə baxır.

M a r a l (*biixtiyar*). Tərlan!.. (*Pauza.*) Mən sizin əriniz haqqında bu iki ildə o qədər yaxşı söz eşidirəm ki...

S e v i n c (*fikirli*). O doğrudan da yaxşı adam idi...

M a r a l. Siz onu çox sevirdiniz?

S e v i n c. Mən həmişə onu sevmişəm, ancaq onu! (*Ona diqqətlə baxır.*) Sizə nə oldu?

M a r a l (*özünü itirmişdir*). Hə... Heç... Bir balaca.

S e v i n c (*onun əllərini ovucları içərisinə alır*). Əlləriniz necə də soyuqdur...

M a r a l. Eybi yoxdur, keçər...

S e v i n c. Gəlin qəhvə içək, onda tez isinərsiniz...

M a r a l. Yox, yox, zəhmət çəkməyin.

S e v i n c. Nə zəhmət, mən də qəhvə içməmişəm... Mən bu saat.

Sevinc o biri otağa keçir.
Maral yenə də Tərlanın portretinə yanaşır və diqqətlə baxır.

M a r a l. Tərlan... Mən onu elə belə də təsəvvür edirdim. Sevincin ilk məhəbbəti! Sevinc qəşəngdir... Gözəldir... Əlbəttə, Fərhad onu sevəcək. Ancaq Fərhad onunla xoşbəxt ola biləcəkmi? Yox... Bu mümkün deyil. Bəs mən? Bəs mən nə eləyim? İndi mən təkəm. Tamamilə tək.

S e v i n c (*gəlir. İki fincan qəhvə gətirir*). Hə, Maral xanım, oturun qəhvə içək... Gəlin, gəlin. (*Maral biixtiyar oturur.*) İşləriniz necə gedir? Fərhad deyir ki, Maral yaxşı geoloq olacaq.

M a r a l (*diqqətlə ona baxır*). Yəni Fərhad mənim haqqımda sizinlə söhbət də eləyir?

S e v i n c. O qədər... Fərhad deyir ki, Maral yaxşı qızdır.

M a r a l (*özünü saxlaya bilmir*). Yalan deyir... O düz danışmır, yalan deyir...

S e v i n c (*təəccüblə ona baxır*). Sizə nə oldu?

M a r a l. O məni qətiyyən...

S e v i n c (*təmkinlə*). Görürəm nə isə sizi əsəbiləşdirir. Ancaq deməliyəm ki, Fərhad yalan danışan adam deyil. Mən onu lap uşaqlıqdan tanıyıram.

M a r a l (*istehza ilə*). Bilirəm, hamısını bilirəm. Dünən hər şey mənə aydın oldu.

S e v i n c. Bağışlayın, mən sizin şəxsi işlərinizə qarışmaq istəmirəm. Amma xahiş edirəm mənim yanımda Fərhad haqqında hörmətlə danışasınız. Əgər bir incikliyiniz varsa, özünə deyin. Siz ki dost idiniz.

M a r a l. Bunu düz dediniz, biz bir vaxt dost idik, çox yaxın idik, çox...

S e v i n c. Siz mənimlə elə bir tərzdə danışırsınız ki, mən cəsarət eləmirəm Fərhadla aranızda olan ixtilafın səbəbini soruşum. Lap açığı, belə havada, bu vəziyyətdə bura gəlmənizin də səbəbi mənim üçün aydın deyil.

M a r a l. Bəsdir... Uşaq yerinə qoymayın, Sevinc xanım.

S e v i n c. Mən sizi heç də uşaq hesab eləmirəm.

M a r a l. O mənə hamısını dedi...

S e v i n c. Axı nəyi dedi?

M a r a l. Sevinc xanım, dedim ki, məni o qədər də sadəlövh hesab eləməyin.

S e v i n c (*qəti*). Mən də dedim ki, mənimlə bu tərzdə danışmayın.

M a r a l. Bilirsinizmi ki, saf məhəbbət dünyada hər şeydən əzizdir, qiymətlidir.

S e v i n c. Bunu mən hansı romandasa oxumuşam. Sonra?..

M a r a l. Onu da bilirsiniz ki, siz iki nəfərin səadətinə mane olursunuz?!

S e v i n c (*hiddətlə*). Maral! Mənim ərim var. Mənim Tərlanım var.

M a r a l. Boş sözdür. Siz onu çoxdan unutmuşsunuz. Bu neçə ili də siz Fərhadı ələ keçirmək üçün tor qurursunuz...

S e v i n c. Maral!

M a r a l. Budur, bu tora mən düşdüm. Sevinin, siz qalib gəldiniz... O... siz çox bacarıqlı qadınsınız...

S e v i n c. Maral, özünü unutma. Sən haqsızsan...

M a r a l. Nə üçün haqsız oluram?

S e v i n c. Qulaq as, gör nə deyirəm.

M a r a l. Heç bir şey eşitmək istəmirəm... Ancaq onu deyim ki, sizin onu sevməyə haqqınız yoxdur. Sizin əriniz var... Olub. Mən isə hələ azadam. Ancaq mən ona səadət verə bilərəm.

S e v i n c. Maral, mən Fərhada heç bir ümid verməmişəm...

M a r a l. Necə? O özü mənə hər şeyi deyib...

S e v i n c (*hiddətlə*). Sən yalan deyirsən, eşidirsən, yalan deyirsən!..

M a r a l (*tutulur*). Bəli... düzdür, bu belə olmayıb... Ancaq mən onun sizə yazdığı məktubu oxumuşam.

S e v i n c. Mən ondan heç bir məktub almamışam.

Bayırda qasırğa daha da şiddətlənir.

M a r a l. Hələ almamışsınız, alarsınız... Ancaq mən təsadüfən o məktubu oxudum... Onun stolunun üstünü qaydaya salanda gördüm.

S e v i n c (*onun sözünü kəsir*). Maral, qulaq as! Bilirəm, məhəbbət, qısqanclıq sənin gözlərini tutub. İndi məni haqsız yerə təhqir elədiyin üçün peşman olacaqsan. (*Hiddətlə*) Mən səni bağışlamayacağam, eşidirsənmi? Heç vaxt bağışlamayacağam. (*Pauza.*) Maral, əzizim, sən bir şeyi bil. Əgər Fərhadla mənim məhəbbətim qarşılıqlı olsaydı, nə üçün o mənə məktub yazsın? Yaxşı, Maral, sakit ol.

M a r a l (*hönkürtü ilə ağlayır, Sevincin, ayaqlarına yıxılır*). Mən axmaq, səfeh bir qızam... Sevinc xanım... Siz indi mənə nə desəniz... nə eləsəniz də haqqınız var... Mən bədbəxtəm, Sevinc bacı... Mən onu sevirəm, dəlicəsinə sevirəm...

S e v i n c (*mehriban bir tərzdə*). Mən səni başa düşürəm, yazıq qız.

M a r a l. Yox, mənə acımayın... Mən sizin kimi pak, yüksək bir insanın qəlbinə toxundum... Məni öldürsəniz də azdır... Mənə nifrət eləyin! Nifrət!

Eşiyə qaçır. Bayırda yağış və tufan şiddətlənir.

S e v i n c. Maral, dayan... Çılpaq hara gedirsən? (*Onun plaşını götürüb dalınca küçəyə çıxır.*) Maral! (*Bu vaxt naməlum adamla rastlaşır.*) Ah!!!

Səndələyə-səndələyə otağa keçir. Elə kandara çatanda müvazinətini itirib yıxılır. O bayılmışdır. Qasırğa davam edir. Bir müddətdən sonra Fərhad küçədə görünür. Artıq naməlum adam yoxdur. Fərhad otağa girir, Sevinci görür.

F ə r h a d. Sevinc! Sevinc, al iç! (*Su verir.*)

S e v i n c. Kimsən? Fərhad! Əzizim! Fərhad, sənsən?!

F ə r h a d. Sənə nə olub? Dur, otur. Mən bu saat həkim çağırım.

S e v i n c. Lazım deyil. Keçdi. Necə oldusa huşumu itirdim.

F ə r h a d. Yaxşı... Sakit ol! Deyəsən sən harasa getmək istəyirdin?

S e v i n c. Yox!

F ə r h a d. Bəs bu plaş?

S e v i n c. Maralındır.

F ə r h a d. Maralın? O bura nə üçün gəlmişdir?

S e v i n c. Elə belə.

F ə r h a d. Bəs plaşını niyə qoyub gedib?

S e v i n c. Heç... Yazıq qız...

F ə r h a d. Heç nə başa düşmürəm. Axı nə olub? (*Sevinc susur.*) Bağışla, Sevinc, səni bu vəziyyətdə sorğu-suala tutmaq yaxşı deyil. Ancaq çox qəribədir. Sən huşunu itirirsən. Maral plaşını qoyub gedir.

S e v i n c. Heç nə olmayıb. Sənin üstündə iki qadın az qala bir-birini parçalayacaqdı...

F ə r h a d. Ax belə... Mən bu saat... Mən axmaq elə bilirdim ki, Maral...

S e v i n c. Fərhad! Maralın heç bir günahı yoxdur. O səni sevir, çox sevir. Mən onu başa düşürəm.

F ə r h a d. Mən isə onu sevmirəm. Heç vaxt da sevə bilməyəcəyəm. Biz başqa-başqa adamlarıq.

S e v i n c. Bunu sən onun özünə demisən? Susursan?

F ə r h a d. Sevinc, inan ki, mən onu...

S e v i n c. İnanıram... Bilirəm... Səni mən çox gözəl tanıyıram. Bəs o? İş elə gətirib, siz tez-tez görüşürsünüz. Sənin hər təbəssümün, hər mehriban kəlmən onun ürəyində sənə qarşı olan sevgi hisslərini alovlandırıb. Axı o, gəncdir.

F ə r h a d. Haqlısan... Bütün günahlar məndədir. Axı mənə qarşı olan məhəbbət... Mən ona sənin haqqında heç nə deməmişəm.

S e v i n c. Deməmisən... Amma mənə böyük bir eşqnamə yazmısan.

F ə r h a d. Deməli o... Nə ixtiyarla? Mən onu heç bu qədər...

S e v i n c. Fərhad! Dayan, qayıt geri... Otur... Deyəsən, indi mən sənin üçün həkim çağırmalıyam... Yaxşı... Yaxşı, sakit ol.

F ə r h a d. Nə alçaq insanlar var! Axı bu oğurluqdur... Ondan da pisdir.

S e v i n c. Fərhad, qulaq as, gör nə deyirəm... Maral sənin məktubunu qəsdən axtarmayıb... Sənin stolunun üstünü yığışdıranda təsadüfən görüb.

F ə r h a d. O nə haqla başqasına yazılmış məktubu oxuyur? Yox, mən ona öz yerini göstərməliyəm.

S e v i n c. Fərhad, bu nədir? Mən səni tanıya bilmirəm. Elə götürək sən özün. Tutaq ki, bir başqası mənə o məzmunda məktub yazıb. Həmin məktub da təsadüfən düşüb sənin əlinə. Oxumazdın?

F ə r h a d (*zəif etirazla*). Mən... Mən...

S e v i n c. Fərhad, cəsarətli ol. Düzünü de...

F ə r h a d. Oxuyardım...

S e v i n c. Bax görürsən... Maralı günahlandırma... O bu saat çox pis vəziyyətdədir... Onun könlünü almağa çalış...

F ə r h a d. Sevinc, axı mən onu...

S e v i n c. Sevmirsən, bilirəm... Sən düz dedin: siz başqa-başqa adamlarsınız... Mən də bunu ona başa salmaq istədim... Ancaq iş elə gətirdi ki...

F ə r h a d. Gör o səni nə hala salıb ki, hətta ürəyin gedib.

S e v i n c. Yox, onun buna dəxli yox idi...

F ə r h a d. Bəs səni bu vəziyyətə kim salmışdı?

S e v i n c. Heç, axmaq qadın qorxaqlığı.

F ə r h a d. Sən axı, nədən qorxdun?

S e v i n c. İki gündür pəncərənin qarşısında bir adam durur... Düz bura baxır. Bayaq Maralın ardınca qaçanda da onunla rastlaşdım... Elə qorxdum ki...

F ə r h a d. Küçədən yüz adam keçə də bilər, dayana da bilər... Bunun üçün adam qorxar?

S e v i n c. Nə isə qorxdum... Fərhad, səndə Maralın telefon nömrəsi var?

F ə r h a d. O sənin nəyinə lazımdır?

S e v i n c (*qeyd dəftərçəsini ona verir*). Bura yaz. Mən sabah mütləq onunla görüşməliyəm. Fərhad, xahiş edirəm, onu tək buraxma. O indi təkdir.

F ə r h a d. Sənin qəribə ürəyin var.

S e v i n c. İnsanlara inamı itirməkdən böyük fəlakət ola bilməz. Biz çalışmalıyıq ki, o, insanlara inamını itirməsin. Fərhad, mən bir həftədən sonra yola düşürəm.

F ə r h a d (*təəccüblə*). Hara?

S e v i n c. Soruşma, uzaqlara...

F ə r h a d. Bildim. Onu axtarmağa, Sevinc, bəlkə...

S e v i n c. Bu, qətidir.

F ə r h a d. Mən səni bu uzaq səfərə tək buraxa bilmərəm. Axtarmaq lazımdırsa, birgə axtaraq.

S e v i n c. Çox sağ ol, Fərhad. Sən "Kiçiktəpə"ni buraxıb gedə bilməzsən.

F ə r h a d. Tək çətin olar.

S e v i n c. Tək niyə? Mən insanlar arasında olacağam.

Telefon zəng çalır. Onlar hər ikisi telefona yaxınlaşırlar. Sevinc dəstəyi götürür.

S e v i n c. Bəli, bəli, buradadır, buyurun. (*Dəstəyi Fərhada verir.*)

F ə r h a d. Laboratoriyadan analizlərin nəticəsini deməliydilər. Mən bu nömrəni verdim.

S e v i n c. Nə olar ki...

F ə r h a d (*dəstəyə*). Bəli, bəli. Necə?! Bəli... Çox sağ olun, təşəkkür edirəm. Əziyyət çəkdiniz. (*Dəstəyi yerinə qoyur.*) Analizin nəticələri müsbətdir. (*Fikirli.*) Deməli, o, "Kiçiktəpə"ni doğrudan da yaxşı tanıyırmış... (*Sevinc qalxıb otaqda gəzişir.*)

S e v i n c (*birdən pəncərədən baxıb həyəcanla geri dönür*). O yenə də buradadır.

F ə r h a d. Kim?

S e v i n c. Hər axşam pəncərənin qarşısında gördüyüm adam. Bir bax!..

F ə r h a d (*pəncərəyə yaxınlaşır*). Orada heç kəs yoxdur.

PƏRDƏ

## DÖRDÜNCÜ ŞƏKİL

Küçə. Maral tək var-gəl edir.

M a r a l (*saatına baxır*). Bu dəqiqə gələcək. Mən çox ağılsız iş gördüm. Gərək deyəydim ki, xəstəyəm, gələ bilmərəm. Harasa getməliyəm. Nə isə, bir söz tapıb deyəydim... Sanki məni ovsunladı. Gəl deyən kimi razı oldum. Qəribədir, elə bil onun zəngini gözləyirdim... (*Fikirli.*) Fərhadın ona yazdığı məktubu öz gözlərimlə oxumasaydım, bəlkə də inanardım. Fərhad onu sevir. Bəs Sevinc? O da Fərhadı... Yox! O, Tərlanı sevir. (*Fikirli.*) Tərlan ki, artıq yoxdur. Onu necə sevə bilər? Eh, başımı itirmişəm. (*Saatına baxır.*) Gəlmədi. Lap yaxşı oldu. Qoy gəlməsin. Onsuz da mən onun üzünə baxa bilməyəcəkdim. Gedim. (*Getmək istərkən Sevinc gəlir.*)

S e v i n c. Maral!

M a r a l (*özünü itirmiş halda*). Sevinc xanım, sizsiniz... Məni bağışlayın, mən tələsirəm. Məni gözləyəcəklər...

S e v i n c. Xoş gördük.

M a r a l. Çox sağ olun.

S e v i n c (*plaşını ona uzadır*). Hava bürosunun verdiyi məlumata görə, bu gün yenə yağış yağacaq.

M a r a l (*plaşını alır. Özünü itirmiş halda*). Çox sağ olun, əziyyət çəkdiniz.

S e v i n c. Nə əziyyəti, sənin kimi qəşəng qızın xatirinə mən dünyanın bu başından o biri başına piyada gedərəm. İndi isə qaç, gecikərsən. Axı səni gözləyəcəklər.

M a r a l (*sadəlövh*). Kim gözləyəcək?

S e v i n c. Bilmirəm. Sən özün dedin ki, səni gözləyəcəklər. Yəni kimsə gözləyəcək.

M a r a l. Bağışlayın, Sevinc xanım, mən... Məni... (*Tutulur.*) Məni artıq heç kim gözləmir. (*Birdən həyəcanla başını qaldırır.*) Olmaya siz məndən intiqam alırsız?

S e v i n c. İntiqamı düşməndən alarlar. Həyatda özünə dost axtarmayan öz-özünün düşmənidir. Sən məni özünə düşmən bilirsənsə, bu heç də mənim doğrudan da sənə düşmən olduğumu sübut etmir. Maral, əzizim, yaşamaq, yaşamaq lazımdır... Həyatın qabaqdadır... Gözəl, xoşbəxt günlər...

M a r a l. Belə yaşamaqdansa... (*Ağlayır.*)

S e v i n c. Özünü ələ al. Axı sən bir ağıllı qızsan.

M a r a l. Bacarmıram... Ayağımı yerə qoyanda elə bil ki, bu saat yer ayağımın altından qaçacaq. Küçədə gedəndə mənə elə gəlir ki, hamı mənə baxır, hamı məni barmaqla göstərib deyir ki, onu rədd ediblər.

S e v i n c. Sən çox qəribəsən... (*Onu qucaqlayır.*) Bəlkə də hamı sənə baxır. Niyə də baxmasın? Sən gözəl bir qızsan. Ürəyin, qəlbin təmiz, gözlərin dağ çeşmələrinin suyu kimi saf bir qız! Bir vaxt gələcək ki, sən özün indiki fikirlərinə güləcəksən. Kim bilir, bəlkə də elə, bax, bu küçə ilə öz körpənin əlindən tutub gedəndə bu anları xatırlayıb güləcəksən. Qarşına çıxanlar sənin gülər üzünü görəcək, onlar da sənə gülümsəyəcəklər. Sənin qəşəng körpələrin olacaq.

M a r a l. Heç vaxt, heç vaxt!

S e v i n c (*yumşaq*). Sən nə yaman qəddarsanmış! Bir mənə qulaq as. Fərhad rəhmə gəlib bir sədəqə kimi əlini sənə uzatsaydı, razı qalardınmı? O zaman özünü xoşbəxt hesab eləyərdinmi?

M a r a l. Axı mən onu sevirəm.

S e v i n c. O səni sevmir. O sənin xətrini dünyalar qədər istəyir. Amma o səni sevmir. O bunu böyük çətinliklə də olsa sənə anladıbsa,

sən onu qınama. Həqiqət nə qədər acı olsa da, min yalandan şirindir. Bax, biri kənardan üstünə bir gilə su sıçradan kimi elə bilirsən ürəyin ağzına gələcək, hə? Amma suya baş vurandan sonra, artıq heç nə səni qorxutmur, həyat da belədir, Maral.

M a r a l. Siz elə danışırsınız ki, adam bütün dərdlərini unudur. Kaş mən sizi çoxdan tanıyaydım. Bəzən elə çətinliklərə düşürdüm ki, dərdimi heç Fərhada da deyə bilmirdim. Amma sizə mən ürəyimi açıram.

S e v i n c. Bir bax, gör həyat necə gözəldir. Bu gözəllikdən necə qaçmaq olar? Yoxsa sən elə bilirsən, mən arsızam? Yox, bu belə deyil... Həyat çox mürəkkəb şeydir. Bəzən çətin olur, bəzən asan. Adamın gülən vaxtı da olur, ağlayan vaxtı da. Həyatda hər şeyi asanlıqla əldə etmək olsaydı, yaşamaq maraqsız olardı. Bir də ki, insan tək deyil. Bir dəfə özün üçün sevinəndə, on dəfə də başqaları üçün sevinirsən. Bir dəfə özün qəmgin olanda, on dəfə də başqaları ilə birlikdə qəmlənirsən. Axı biz insanıq. Başqa cür mümkün deyil.

M a r a l. Elədir. Bu gün idarədə hamı Fərhada yaxınlaşıb onu qucaqlayır, təbrik edirdi. "Kiçiktəpə"də zəngin filiz yataqları olduğu artıq heç kimdə şübhə doğurmur. İdarədə o qədər adam vardı ki, iynə salsaydın, yerə düşməzdi. Hər yerdən gəlmişdilər. Radiodan da.

S e v i n c. Deməli, bu gün Fərhadın bayramıdır. Sən də onu təbrik etdin?

M a r a l. Yox. Mən heç ona yaxınlaşmadım. Qaçıb otağımda gizləndim ki, görən olmasın. Axı idarəmizin qızları hələ heç nə bilmirlər. Bir də gördüm ki, göz yaşı məni boğur. Ürəyinizə başqa şey gəlməsin, mən sevindiyimdən ağlayıram...

S e v i n c. Bəs bu əziz gündə biz onu tək qoymalıyıq? Yox, bu, yarayan iş deyil. Biz bu saat onun yanına gedib, onu təbrik etməliyik. Fərhad bizim hər ikimizin dostudur. Dost dostu yaman gündə də, yaxşı gündə də tək buraxmaz. Gedək!

M a r a l. Bəlkə...

S e v i n c. Gedək. (*Gedirlər.*)

Fərhadın evinin yanı. Tərlan gəlir.

T ə r l a n.

Sular halqalandılar.
Halqalandılar sular.

Bu misralar mənə 18 ildə keçirtdiyim iki damla su kimi bir-birinə bənzəyən yeknəsəq günləri, saatları, dəqiqələri xatırladır. İndi ki, həyatın cilovu mənim öz əlimdədir. Bəs bu yeknəsəqlik nə üçün? Mən bu evə ikinci dəfə nə üçün gedirəm? Birinci dəfə getdim ki, illər boyu məni yaşadan arzumun həyata keçməsinə kömək edim. Bəs indi nə üçün gedirəm? Dayan, yoxsa sən xudpəsənd olmusan? Tutduğun işə peşmansan? Bəlkə ürəyindən keçir ki, hamı işini-gücünü buraxıb səni tərifləsin, atıb-tutsun? Yox, mən elə ürəyi öz əlimlə dayandıraram. Bəs onda nə istəyirsən? Bəlkə istəyirsən ki, səni, nəhayət, tanısınlar? Sevinc hər şeyi bilsin? Nə üçün də bilməsin?! Nə üçün? Axı o mənim sevgilimdir! Yox, danışma, heç özünlə də bu barədə danışma, Tərlan! Artıq gecdir. Bəs onda mən bura nə üçün gəlmişəm? Bəlkə Fərhadı təbrik etməyə gəlmişəm? Fərhadı təbrik etməyə? Ona bir daha xatırlatmağa ki, "Kiçiktəpə"ni sən yox, mən kəşf etmişəm?! Yox, bəs onun yuxusuz keçirdiyi gecələr, çəkdiyi əziyyət? (*Birdən dayanır.*) Bu nədir, bu nədir, mən kimi görürəm? Sevinc gəlir. O necə də xoşbəxtdir. Yəqin ki, o Fərhadı təbrik etməyə gəlir. Mən niyə dayanmışam, getmək, getmək lazımdır, onu bir kölgə kimi gecə-gündüz izlədiyin yetər! (*Gedir.*)

Fərhadın otağı. Sevinclə Maral otaqda süfrə bəzəməklə məşğuldurlar.
Fərhadın otağı işıqlanır. Sevinc və Maral içəridədirlər.
Onlar böyük bir şadlıqla bayram süfrəsi açırlar.

S e v i n c. Çiçəkləri vazaya qoydun?

M a r a l (*o biri otaqdan gəlir*). Bəli, hazırdır. (*Stolun üstünə qoyur.*) Belə yaxşıdır?

S e v i n c. Lap yaxşıdır. Zarafat-zarafat amma stolumuz pis deyil ha...

M a r a l. Əladır.

S e v i n c. Deyəsən gələn odur.

M a r a l. Hə, hə, odur.

S e v i n c. Hazır ol. Səsini bərk çıxardarsan ha!.. Bax orda dayan. (*Təntənəli tərzdə.*) Qəhrəmana alqış!

M a r a l (*eyni tərzdə*). Qabaqcıl geoloqa eşq olsun!

S e v i n c. Urra!!. (*Qapı zəngi.*)

M a r a l (*yavaşca*). O deyil... (*Maral gedir, əlində bir neçə teleqram qayıdır.*)

M a r a l. Təbrik teleqramlarıdır...

S e v i n c. Lap yaxşı oldu. Onları da gəl qoyaq stolun üstünə.

M a r a l. İndi harada olsa, özü də gəlib çıxar. (*Telefonla danışır.*) Bəli? Haradan? Xeyr, yoxdur. Yarım saata gələr. Redaksiyadandır?

S e v i n c. Yəqin ki, sabah bütün qəzetlər bu haqda yazacaq.

M a r a l. Sevinc xanım, gəlir! (*Fərhad daxil olur.*)

S e v i n c. Qəhrəmana alqış!

M a r a l. Qabaqcıl geoloqa eşq olsun!

F ə r h a d (*bütün bu mənzərədən özünü itirmişdir*). Bu nədir? Siz...

Sevinc və Maral onun yanına yüyürürlər.

S e v i n c. Fərhad, ayrı söz tapa bilmirəm... Təbrik... Təbrik...

M a r a l (*utana-utana ona yaxınlaşır*). Mən... Mən də...

F ə r h a d. Eh, Maral, səndən belə bir hərəkət...

S e v i n c. Yox, bu olmadı. Bu saat qızın əlini sıx... Bax, belə. Şampanı aç!

F ə r h a d (*özünü itirmişdir*). Nə üçün?

S e v i n c (*bərkdən gülür*). Necə, nə üçün? Biz sənin bu qələbəni qeyd etməliyik. Mənim vaxtım yoxdur, getməliyəm.

F ə r h a d. Hara belə?

S e v i n c. Sonra deyərəm.

F ə r h a d. Az qala dağıtmışdım.

S e v i n c. Eybi yoxdur. Qoy dağılsın. Qoy sənin qələbənin sədaları kimi hər yana yayılsın. Sən badələri doldur. Mən də almaları gətirim.

M a r a l. İndicə gətirdilər. (*Teleqramı verir.*)

F ə r h a d. Tamam başımı itirmişəm. Səhər radiodan gəldilər, axşam qəzetdən gələcəklər, mən onlara nə deyim? Axı "Kiçiktəpə"ni mən kəşf etməmişəm. Yox! Qoy hər kəs öz zəhmətilə ad qazansın! Mənə özgəsinin adı lazım deyil.

S e v i n c. Fərhad, mətbəxdə bu şamdanları gördüm, o saat ağlıma gəldi ki, qoy tostumu şam işığında deyim.

F ə r h a d. Sevinc... Neçə gündür səndən bir söz soruşmaq istəyirdim.

S e v i n c. Nə söz?

F ə r h a d (*çətinliklə*). Tərlan "Kiçiktəpə"də kəşfiyyat işlərini aparmışdır?

S e v i n c. Bilmirəm. “Kiçiktəpə” sözünü mən ilk dəfə səndən eşitmişəm. O vaxt o, tez-tez kəşfiyyata gedərdi. Ancaq onun qayıtmasını elə səbirsizliklə gözləyirdim ki, qayıdanda konkret haralarda olub məsələsindən söhbət açmazdıq. Biz onunla ancaq gələcəkdən danışardıq. O həmişə zarafat eləyərdi.

M a r a l (*gəlir*). Hər şey öz yerində, Sevinc xanım, başlamaq olar...

S e v i n c. Maral, işığı söndür... Xahiş edirəm, hərə öz şamını qarşısına qoysun. Gəlin üçümüz də oturaq... Belə... Mənim əziz dostlarım, biz üç nəfərik, biz üç dostuq. Üçümüzün də şəxsi həyatı keşməkeşli olub... Buna baxmayaraq, böyük və şərəfli yol keçmişik, ictimai həyat yolu. Bu bizi yaşadır, bu bizə qanad verir. Fərhadın qələbəsi – bizim hamımızın qələbəsidir, xalqımızın qələbəsidir. Vətənimizin hələ tapılmamış çox xəzinəsi var. Gəlin bu qədəhləri qaldıraq həyatda həmişə kəşfiyyat aparanların şərəfinə... Namuslu, təmiz, alicənab adamlarımızın şərəfinə!

M a r a l (*hərarətlə*). Sağ olun... Sevinc xanım... Namuslu, təmiz adam...

S e v i n c (*şən*). Hə... içdik... (*İçirlər.*) İndi mən getməliyəm.

F ə r h a d. Sevinc, çox xahiş edirəm, on dəqiqə də oturasan... Mən qəribə bir əhvalat danışmaq istəyirəm.

S e v i n c. Yaxşı... On dəqiqə də oturmaq olar.

M a r a l. Axı hara tələsirsiniz?

S e v i n c. Necə hara? Gedirəm biletimi götürüm, axı mən sabah yola düşürəm!

M a r a l. Sabah sizi təntənəli surətdə yola salarıq.

Bütün bu səhnə boyu Fərhad daxili tərəddüdlər keçirir.

S e v i n c. Hə, Fərhad, nə deyəcəkdin?

F ə r h a d. Hə, heç, bir elə şey deyil. Deyirəm ki... Dünən gecə köhnə jurnallardan birini vərəqləyirdim. Orada gözümə qəribə bir məqalə dəydi.

M a r a l. Nə haqda idi?

F ə r h a d. Əhvalat belə olub... Bir nəfər heç kəsə məlum olmayan şəxs... Çox yoxsul görkəmli, necə deyim, rəftarı yöndəmsiz, özü də şikəst bir adam gəlir bir tanınmış yazıçının yanına... Cibindən köhnə bir şagird dəftəri çıxarıb qoyur onun stolunun üstünə və gedir... O gedəndən sonra yazıçı dəftəri açır, orada yazılanları oxuyur və

görür ki, bu, məharətlə yazılmış bir novella deyəkmi, povest deyəkmi, nə isə gözəl bir sənət əsəridir...

S e v i n c (*maraqla*). Sonra?

F ə r h a d. Sonra... Yazıçı əsəri aparır bir nəşriyyata... Nə isə əsər həmin yazıçının adı ilə nəşr olunur...

S e v i n c. Sonra?

F ə r h a d. Əsər əldən-ələ keçir. Ədəbi tənqid bu əsəri böyük bir hadisə, sənət aləmində yeni bir söz kimi qeyd edir.

M a r a l. Maraqlıdır.

S e v i n c. Sonra?

F ə r h a d. Vəssalam.

S e v i n c. Bəs o tanınmış yazıçı sonra nə eləyir.

F ə r h a d. Nə? Hə... Sonrası yox idi...

S e v i n c. Necə yox idi?

F ə r h a d. Necə! Deyirəm vərəq cırılmışdı, gerisini oxuya bilmədim.

S e v i n c. Yəqin ki, məqalədə, onun haqqında vicdansız, başqasının əməyini, istedadının məhsulunu oğurlayan dələduz və sairə yazılıbmış?!

F ə r h a d. Bəli... bəli... Oğru... Dələduz. (*Çığırır.*) Şamları söndürün... İşığı yandırmaq lazımdır.

M a r a l. Fərhad, sənə nə oldu? (*Sevinc işığı yandırır.*)

S e v i n c. Fərhad, rəngin nə üçün qaçıb?

F ə r h a d. Başqasının istedadının məhsulu...

S e v i n c. Mən heç bir şey başa düşmürəm.

M a r a l. Fərhad, Fərhad. (*Telefon zəngi.*)

F ə r h a d. Bəli, mənəm! Mən heç bir suala cavab verə bilməyəcəyəm. Xeyr, canım, nə təvazökarlıq?! Məsələ burasındadır ki, "Kiçiktəpə"ni mən kəşf etməmişəm. Kim? Hələlik heç bir söz deyə bilmərəm. Hələlik naməlum bir adam. Çox çəkməz ki, siz onun adını eşidərsiniz.

M a r a l. Bu nə danışır?

S e v i n c. Naməlum şəxs, tanınmış yazıçı...

M a r a l. Fərhad...

F ə r h a d. Bir kəlmə də! Dedim ki, şamları söndürün. Bayram qurtardı. Nəhayət, mən onun hansı qapıya girdiyini gördüm. Mən onu mütləq tapacağam. Mənə heç kəsin şöhrəti lazım deyil.

S e v i n c. Fərhad, axı başa sal görək...

F ə r h a d. Soruşma, Sevinc, heç bir şey soruşma... Bir azdan hər şey... Yox, bunu sonra da etmək olar. Bu gün, elə bu saat hər şeyi aydınlaşdırmaq lazımdır. Mən getdim.

M a r a l. Başa düşə bilmirəm, ona nə oldu?

S e v i n c. Maral, mənim dizlərim əsir, tez onun dalınca qaç.

M a r a l. Bu saat!

PƏRDƏ

## ÜÇÜNCÜ PƏRDƏ

### BEŞİNCİ ŞƏKİL

Tərlan narahatdır. Otaqda var-gəl edir.

T ə r l a n. Sən artıq gedə bilərsən. Tərlan! (*Dayanır.*) Gedə bilərsən!.. Bəs heç bura gəlməsəydin, olmazdı? Yox! Bəs Sevinc?! Sevinc!.. Sevinc artıq səndən ötrü bir xəyaldır... Əlçatmaz, şirin bir xəyal! Sən onun üçün çoxdan ölmüsən. Bəs "Kiçiktəpə"? "Kiçiktəpə"!.. Sənsiz də onun sirrini öyrənmək olardı. Fərhad çox ağıllı geoloqdur. O, "Kiçiktəpə"dən əl çəkən deyildi. Gec-tez "Kiçiktəpə" öz sirrini açacaqdı. Bəs onda niyə gəldin? Niyə? Torpaq çəkib gətirdi... İlk dəfə ayaq tutub yeriyərkən sinəsinə qədəm qoyduğum ana torpaq!.. Bəs indi hara gedirsən? Torpaq həmən torpaqdır... Ayaqlarının altından qaçmır ki?! Bilmirəm... (*Oturub başını əlləri arasına alır.*) Bəs kim bilir? (*Qəti bir hərəkətlə ayağa qalxır.*) Yox, getməliyəm. Mütləq getməliyəm. Mən öz Sevincimi sevincdən məhrum edə bilmərəm. Əgər mənim sağ əlim onun səadətinə qəsd etməyə uzansa, sol əlimlə sağ əlimi kəsərəm. (*Saatına baxır.*) İki saatdan sonra qatar yola düşür. (*Çamadanını açıb fikrə gedir.*) Bir şey yaddan çıxmayıb ki? Deyəsən kitablar qalıb. (*O, kitabları çamadana qoyur, birini götürüb vərəqləyir.*)

Öz yurdumda bir qəribdən seçilməm,
          əsir kimi, bir dost, bir yaxın bilməm.
Cahan cənnət olsa, bir ləhzə gülməm,
          yar-yar deyib, gecə-gündüz ağlaram...

Hüseyn Cavid! Elə bil bu misraları mənim uğursuz taleyimi düşünüb yazıb... (*Qapı döyülür.*) Mənim də qapımı döyərlərmiş... Buyurun.

Fərhad daxil olur.

F ə r h a d. Salam!

T ə r l a n. Xoş gəlmisiniz. Buyurun, oturun, oturun.

F ə r h a d. Çox sağ olun. Vaxt gələr oturarıq da. Amma indi mənimlə getməlisiniz.

T ə r l a n. Bu əmrdir, yoxsa...

F ə r h a d. Mən xahiş edirəm.

T ə r l a n. Mən onsuz da gedirəm. Amma sizinlə yox.

F ə r h a d. Axı sizi gözləyirlər.

T ə r l a n. Kim?

F ə r h a d. Sizin zəhmətinizi alqışlayan geoloq yoldaşlarınız.

T ə r l a n (*gülür*). Geoloq? Yox, əzizim, səhv edirsiniz. Mən geoloq deyiləm.

F ə r h a d. Bəs "Kiçiktəpə" haqqında verdiyiniz məlumat?

T ə r l a n. A... a... "Kiçiktəpə"... O mənim yaxın bir dostumun arzusu idi. İndi o artıq yoxdur. Sizə verdiyim xəritəni onun xahişi ilə 18 il qoruyub saxlamışam. İndi o artıq yoxdur... Mən də getməliyəm. İkicə saatdan sonra qatarım yola düşür.

F ə r h a d. Hara?

T ə r l a n. Evimizə. Məni burda artıq heç bir şey saxlaya bilməz. Mən bütün işlərimi qurtarmışam.

F ə r h a d. Dostunuzun adını mənə deyə bilərsinizmi?

T ə r l a n. Mən sizə ilk görüşümüzdə dedim ki, ad nisbi bir şeydir.

F ə r h a d. Xahiş edirəm. Bu mənim üçün çox vacibdir.

T ə r l a n. Çox vacibdirsə, onda deyərəm... "Kiçiktəpə"!

Bu vaxt Maral küçədə görünür.

M a r a l. O çıxıb məni burda görsə, yenə hirslənəcək. Amma heç yerə gedən deyiləm.

F ə r h a d. Bəs sizin adınız?

T ə r l a n. Yenə ad! Həsən, Hüseyn, Camal!.. Məgər bu adlar sizə bir şey deyirmi?

F ə r h a d. Bəs mənim adım? Mənim adım kimə nə deyir? Nə üçün onu bu saat hər yerdə çəkirlər? İstəyirsiniz radionu açın. Bu

saat yenə məndən danışırlar. Başa düşün. Axı "Kiçiktəpə"ni mən kəşf etməmişəm! Nə üçün siz məni bu qədər əzab çəkməyə məcbur eləyirsiniz? Axı bu şöhrət mənimki deyil...

T ə r l a n. Yox, siz səhv edirsiniz. Siz bundan daha böyük şöhrətə layiqsiniz. Əzab çəkməyiniz tamam yersizdir. "Kiçiktəpə"dəki yataqları kimin tapdığının nə fərqi var? Sən də tapsan, mən də tapsam, başqa birisi də tapsa Vətən üçün, xalq üçün qalacaq. O ki qaldı mənim dostuma, söz verirəm ki, evə qayıdan kimi onun haqqında sizə ətraflı məktub yazaram. (*Saatına baxır.*) İndi isə mən getməliyəm. Bağışlayın, vaxtıma lap az qalır.

F ə r h a d. İcazə verin, mən sizi yola salım.

T ə r l a n. Yox, yox, mən belə şeyləri sevmirəm.

Küçə. Maral görünür.

M a r a l. Görəsən onun bura belə tələsik gəlməyinə səbəb nədir? Bu sirri mütləq öyrənməliyəm.

Yenə otaq.

F ə r h a d. Mən sizin məktubunuzu mütləq gözləyəcəyəm. Söz verin ki...

T ə r l a n. Söz! Sözü də mən verməliyəm, məktubu da mən yazmalıyam. Axı mən sözü verdiyim kimi, öz əhdimi poza da bilərəm.

F ə r h a d. Yox, inanmıram!

T ə r l a n. İnanmırsınız, nə üçün?

F ə r h a d. Sizə inandığım üçün!

T ə r l a n. Çox sağ olun! (*Əlini ona uzadır.*) Salamat qalın.

Fərhad çıxır.

T ə r l a n (*tək*). Sizə inandığım üçün! Deməli, insanlar biri-birinə inamını itirməyib. O mənim gözlərimi açdı. O məni oyatdı. (*Tərlan çamadanını götürüb küçəyə çıxır.*) Hava necə gözəldir! Kim nə deyir desin, insan həmişə yaşamaq istəyir. Mənasız keçən dəqiqələri üçün belə heyfsilənir. Mən isə ayları, illəri itirmişəm. Yenə də bahar gəlir. Ömrümün qırx beşinci baharı. Bahar! Mən sənin gəlişini gülər üzlə qarşılamalıyam. Həyatımın ən çətin çağlarında belə! Sən həmişə sədaqətli olmusan. Tale məni hara atıbsa, sən də arxamca gəlmisən. Sənin necə də yumşaq, ılıq nəfəsin var! Sevgilimin nəfəsi kimi! Mən

onun ətrini də həmişə səndən almışam. Ucsuz-bucaqsız çölləri, meşələri ağ qar örtüyü bürüyəndə, şaxta iliklərimə işləyəndə mən səni gözləmişəm, sənin gəlişinə inamımı itirməmişəm. Mən inanırdım ki, sən yenə gələcəksən, bu dəfə həmişəlik. Qızımın 19 yaşı var. 10 dəqiqənin içərisində nə qədər yalan danışdım! Bizim dildə buna müqəddəs yalan deyərlər. Bu olar... Sevinc öz səadətini tapıb. Xoşbəxt olsun... Qızımın 19 yaşı var.

Maral (*bütün səhnə boyu gözünü ondan çəkmir*). Mən bu adamı haradasa görmüşəm? Özü də lap bu yaxında görmüşəm... Ah...

Tərlan (*Maralı görür*). Olsaydı olardı, olmadı, olmayıb.

Maral onu diqqətlə nəzərdən keçirir.

Tərlan (*Marala yaxınlaşır*). Qızım, burdan vağzala neçə dəqiqəyə çatmaq olar?

Maral (*gözünü ondan çəkmir*). Taksi ilə 10 dəqiqəyə.

Tərlan (*saatına baxır*). Vaxta hələ xeyli var, hər halda gərək vağzalda vaxtından əvvəl olasan.

Maral (*özünü itirmiş halda*). Siz... Siz... Gedirsiniz?

Tərlan. Gedirəm qızım. Gedirəm. Necə bəyəm?

Maral. Heç... heç... (*Öz-özünə*) Odur. Tərlandır... Demək, Fərhad onun burada olduğunu bilirmiş və Sevincə demirmiş. Bəlkə qəsdən... Sizdə iki qəpiklik olarmı, zəng eləməliyəm.

Tərlan. Bəlkə də oldu. (*Cibini axtarır. Pulu ona verir.*) Al, qızım!

Maral (*ona əvəzində başqa pul vermək istəyir*). Çox sağ olun.

Tərlan. İstəməz, qızım.

Maral. Bəs...

Tərlan. Mənə də lazım olanda səndən istərəm.

Maral. Mən sizi harda görəcəyəm?

Tərlan. İnsanlar hər gün görüşürlər, qızım.

Maral. Çox sağ olun! (*Uzaqlaşa-uzaqlaşa, kənara.*) Yəqin Fərhad onu tanımayıb. Yox, onu saxlamaq lazımdır... Telefon! (*Qaçır.*)

Tərlan. Qızım olsaydı, bu boyda olardı...

Səhnə dəyişir. Fərhadın otağı. Fərhad yorğun daxil olur.

Fərhad (*narahat*). Dayan, bəlkə elə özüdür? Yox, ola bilməz. O olsaydı, evinə gedərdi. Sevinc neçə illərdir ki, onun yolunu gözləyir. Yazıq çox xəstə adama oxşayır. Xəstə? Bəlkə elə buna görə

də... Yenə bəlkə!.. Yoruldum bu bəlkələrə cavab axtarmaqdan. Tutaq ki, belədir. Kim bilir, bəlkə o evlənib, arvadı, uşağı var. Elə ona görə də Sevincin gözünə görünməyə utanır. Bəs onda niyə gəlmişdi?! Bəlkə... Yenə bu lənətə gəlmiş bəlkə!.. (*Telefon zəng çalır. O, dəstəyi götürür.*) Bəli, bəli, mənəm. Nə? Nə? Heç nə başa düşmürəm. Aramla danış. Necə? Necə, necə? Mən bu saat onun dalınca gedirəm. Sən Sevinci tap. Deyirəm, tez Sevinci tap! (*Dəstəyi asır.*) Ürəyimə dammışdı ki, bu o ola bilər. (*Tələsik pencəyini geyir.*) Onu saxlamaq lazımdır. (*Birdən duruxur.*) Biz həmişə üç nəfər olacağıq: sən, mən, o... Yox, onu mütləq saxlamaq lazımdır. Onu saxlamalısan, Fərhad... Saxlayacağam, qatarı tutub saxlayacağam.

Yolayrıcı. Tərlan gəlir.

T ə r l a n. Şəhər nəhəng bir çırağa bənzəyir. Mənim doğma şəhərim! Bir vaxt o işıqlardan birisi mənimki idi. Quşlar yuva qurur, insanlar bina tikir, ocaq salır. Doğma ocaq, sənin acı tüstün də adama şirin gəlir. Sənin nə olduğunu başa düşməyən, sənə əl qaldıran canidir. Ən böyük cani! Qəribədir, 18 il əvvəl düşünürdüm ki, hər şey məhv oldu. 18 il! Cansıxıcı, yeknəsəq, iki damla su kimi bir-birinə bənzəyən illər! Nədənsə bu illəri xatırlayanda həmişə Müşfiqin iki misrası yadıma düşür:

Sular halqalandılar,
Halqalandılar sular.

Bura qayıdarkən bütün yol uzunu elə düşünürdüm ki, doğma şəhərimi acınacaqlı vəziyyətdə görəcəyəm. Bu məni çox qorxudurdu. Lakin şəhəri tanıya bilmədim. On səkkiz ildə on səkkiz qərinə cavanlaşıb. O da dəyişib, mən də, Sevinc də! Bəs onda nə üçün Sevincin başqasını sevməsi məni ağrıdır? Biz evlənəndə o ki hələ çox gənc idi. Bəlkə də heç həyatın nə olduğunu bilmirdi. Həyatı dərk edərkən qarşısına məndən daha kamil, daha cavan başqa birisi çıxdı... Fərhad! Biri-birinə qovuşmağa can atan iki dağ çayının yolunda möhtəşəm bir bənd kimi dayandı. Fərhad! Görəsən Sevincin o pak, müqəddəs saydığım dodaqları bir vaxt mənə dediklərini onun da qulağına pıçıldayırmı?

İşıq azalır. Gənc Sevinc görünür.

S e v i n c. Tərlan, de görüm, sən məni nə qədər sevirsən?

T ə r l a n. Nə qədər? Çox sevirəm, lap çox!

S e v i n c (*şıltaq*). Axı nə qədər?

T ə r l a n. Bütün yer üzü qədər.

S e v i n c (*zarafatla*). Bu azdır, istəmirəm.

T ə r l a n. Ucsuz-bucaqsız göylər qədər, Günəş qədər, su qədər!

S e v i n c (*zarafatla*). Bu başqa məsələ. (*Ciddi görkəmlə.*) Tək məni, yoxsa bir başqasını da sevirsən?!

T ə r l a n. Təkcə səni.

S e v i n c. Bəs məndən əvvəl heç kimi, heç kimi sevməmisən? Amma düzünü de. Gözlərinin içinə baxacağam. Yalan desən, o saat biləcəyəm. (*Cəld onun əlini tutur.*) Sus... Bir kəlmə də qoymaram danışasan. İndi yox, sonra... 20 il, 30 il, 40 il sonra... Yox, heç onda da lazım deyil...

T ə r l a n (*gülür*). Sən deyən olsun.

S e v i n c (*fikirli*). Yaxşısı budur, de görüm, indi sən nə fikirləşirsən?

T ə r l a n. Sənin haqqında, bizim haqqımızda!

S e v i n c (*fikirli*). Bizim haqqımızda... Sən məni həmişə belə sevəcəksən?

T ə r l a n. Həmişə. Nə qədər ki, yaşayıram.

S e v i n c. Elə danışma, sən həmişə yaşayacaqsan. (*Onun boynuna sarılır.*) Mənim canım, ciyərim, gözlərimin işığı! Mənim ürəyim həmişə sənin üçün vuracaq.

İşıqlar dəyişir.

T ə r l a n. "Mənim ürəyim həmişə sənin üçün vuracaq!" Yox, mən onu nahaq yerə qınayıram. Elə bil ki, o məni gözləyib, mən də budur, gəlib çıxmışam. Yarımcanlı bir məxluq. Mən indi ona nə üçün yük olmalıyam? Ağır, yöndəmsiz bir yük! Hamı yaşamaq istəyir. Bu haqqı Sevincin əlindən kim ala bilər?! Heç kim! Həyat yaşamağa çağırır. Eh, Sevinc! Mən istəsəm də, səni heç bir vaxt unuda bilməyəcəyəm. (*Alnını ovxalayır.*) Yenə xəyallar, arzular... Toy axşamı o qədər gözəl idi. İndiki kimi xatirimdədir.

İşıqlar dəyişir. Musiqi səsi gəlir, get-gedə yaxınlaşır. Xanəndənin mahnısı eşidilir. Mahnı oxunarkən sanki duman içindən toy məclisi görünür... Səslər... Tərlan və Sevinc rəqs edirlər.

T ə r l a n (*pıçıltı ilə*). Hə, necə oldu, daha utanmırsan ki?
S e v i n c (*eyni tərzdə*). Yox, alışdım.
T ə r l a n. Bəs deyirdin, oynamaq bilmirsən?
S e v i n c. Öyrəndim.

İşıqlar dəyişir.

T ə r l a n. O gecə... Sevincdən və kədərdən yoğrulmuş gecə! Bizim ilk və son gecəmiz.

Yenə də işıqlar dəyişir. Xatirat canlanır.

T ə r l a n. Axır ki, tək qaldıq. Bir sən, bir də mən.

S e v i n c (*onun sinəsinə qısılır*). Tərlan, mən həyatı sənsiz təsəvvür edə bilmirəm. Sənsiz mən yaşaya bilmərəm...

T ə r l a n. Sevinc, əgər məndən bu saat soruşsalar ki, dünyada ən xoşbəxt adam kimdir, fikirləşmədən deyərdim ki, mənəm, mən! Tərlan!

S e v i n c. Mən də! Mən də elə deyərdim. Mən o qədər xoşbəxtəm ki, Tərlan, hətta bir az qorxuram da. Eh, sən gülürsən.

T ə r l a n. Nədən qorxursan, ay dəli? Mən ki səninləyəm.

S e v i n c. Bilmirəm. Mənə elə gəlir ki, bu xoşbəxtlik zərif büllurdan tökülmüş piyalədir. Bir balaca ehtiyatsız tərpənsəm, əlimdən düşüb parça-parça olar. Bu fikir heç başımdan çıxmır. (*Onun boynunu qucaqlayır.*) Tərlan!

T ə r l a n. Sevinc!

Bayırda maşın tormozlarının səsi eşidilir.
Sonra qapı bərk döyülür.

S e v i n c (*diksinir*). Bu gecə vaxtı kim ola?

T ə r l a n (*fikirli*). Yəqin... Yəqin... (*Qapı yenə döyülür.*) Yəqin qonaqlardan kimsə bir şey unudub. Mən bu saat! (*Çıxır.*)

S e v i n c. Guya ki, səhərə qədər gözləmək olmazdı. (*Ətrafına boylanır.*) Burada nə unuda bilərlər? Bəlkə... Bəs Tərlan harada qaldı? (*Çıxmaq istərkən Tərlanla rastlaşır.*) Sən gedirsən? Hara? Bu gecə vaxtı mən səni buraxmaram.

T ə r l a n (*həyəcanını boğmağa çalışır*). Sevinc...

S e v i n c. Kim idi, nə istəyir, nə üçün gəlib?

T ə r l a n. Mənim üçün gəliblər. Mən getməliyəm.

S e v i n c (*qorxu içərisində*). Hara?!

T ə r l a n. Ürəyini sıxma, Sevinc. Bu bir səhvdir.

S e v i n c (*onun boynunu qucaqlayır*). Yox, qoymaram.

T ə r l a n. Özünü ələ al, Sevinc, mən tezliklə qayıdaram. Bəlkə elə bu gecə, uzaqbaşı səhər tezdən. Özündən muğayat ol. İşığı yandır ki, qorxmayasan. (*Qapıya doğru yönəlir.*)

S e v i n c (*onun ardınca*). Tərlan!.. Tərlan!.. Hara gedirsən? Bəs mən?!

Xatirə yox olur. Tərlan yenə də təkdir.

T ə r l a n. Mən onun səsini bir daha eşitmədim. Sevin nahaq qorxmurmuş. Mən heç kimə heç bir şey sübut eləyə bilmədim. Eh, xəyallar, xəyallar... Mən həyatımın böyük bir qismini xəyallarla, bəzən şirin, bəzən də acı xəyallarla yaşamışam. Həyatın burulğanında vurnuxurkən, yenə əlimi dünyadan üzməmişəm. Həyatın dalğaları məni qayalı sahillərə çırpanda da ümidimi itirmədim. Xəyalla da olsa, yaşadım. Canlı ikən həyatdan necə ayrıla bilərsən? Həyatdan ayrılmamaq üçün həmişə xəyallarla yaşayırdım. İndi artıq həyatla üz-üzə dayanmışam. O məndən öz borcunu istəyir. Mən bu borcu vermək üçün yaşamalıyam. Bir ayağımı don vurmuşdur. Beynimi yox! Mən artıq getməliyəm. Getdiyim yerdə məni heç kim qarşılamayacaq. Mən özüm yeni həyatımı qarşılamağa gedirəm. Ey, taksi!

Bütün şəkil boyu küçədən keçən maşınların işığı Tərlanın üzünə düşür. Tərlanın son monoloqu boyu bir-birinə əks istiqamətdən qarşı-qarşıya keçən maşınların işıqları getdikcə güclənir. Nəhayət, maşınlar dayanır. Sağ tərəfdən Sevinc və Maral, sol tərəfdən Fərhad eyni vaxtda səhnəyə atılırlar. Sevinc maşının işığında Tərlanı görür və ona tərəf qaçır.

S e v i n c. Tərlan!.. Tərlan!..

Sevinc və Tərlan qucaqlaşırlar.

PƏRDƏ

SON

# NƏBİ XƏZRİ

(1925-2007)

*Babayev Nəbi Ələkbər oğlu – şair, nasir, dramaturq, publisist, tərcüməçi, – Bakının Xırdalan kəndində anadan olmuşdur. Orada 92 saylı orta məktəbi, ADU-nun filologiya fakültəsini bitirmişdir. Ordu sıralarında olmuş (1942-1943), "Kommunist" qəzetinin redaksiyasında ədəbi işçi (1945-1947) işləmişdir. Leninqrad Dövlət Universitetində (1947-1949), M.Qorki adına Ədəbiyyat İnstitutunda (1949-1952) oxumuşdur.*

*Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi (1952-1957), Azərbaycan Yazıçılar İttifaqının katibi (1958-1965), Azərbaycan Respublikası Nazirlər Soveti Radio və Televiziya Verilişləri Komitəsinin sədr müavini (1971-1974), Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin Rəyasət Heyətinin sədri (1974-1992), "Azərbaycan dünyası" Beynəlxalq Mərkəzinin prezidenti (1992-ci ildən), ASE Elm redaksiya şurasının (1976), SSRİ Yazıçılar Birliyi İdarə Heyətinin (1981), Xarici Ölkələrlə Mədəni Əlaqələr və Dostluq Cəmiyyətinin, Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvü olmuşdur (1991).*

*Yazıçılar Birliyinin üzvü (1947), Lenin komsomolu mükafatı (1968), SSRİ Dövlət mükafatı (1973), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1982) olmuş, Azərbaycan əməkdar incəsənət xadimi (1979) və Azərbaycan xalq şairi (1984) fəxri adlarına layiq görülmüşdür.*

*Əsərləri keçmiş SSRİ və xarici xalqların dillərinə tərcümə edilmiş, bir çox xarici ölkələrdə rəsmi səfərlərdə və yaradıcılıq ezamiyyətlərində olmuşdur (1957-1985). Qırmızı Əmək bayrağı ordeni və Bolqarıstanın Kiril Mefedi ordeni, Türkiyənin Dəyanət Vəqfi tərəfindən Özəl mükafatı və Elm, Ədəbiyyat, Sənət sahiblərinin Məslək Birliyinin "Türk dünyası ədəbiyyatına xidmət" mükafatı, anadan olmasının 70 illik yubileyinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir (1995).*

*"Sən yanmasan" (1976), "Mirzə Şəfi Vazeh" (1982), "Burla xatun", "Qütb ulduzu" (1982), "Əks-səda" (1973-1975) pyesləri Azərbaycan Dövlət Milli Dram Teatrının səhnəsində dəfələrlə oynanılmışdır.*

# BURLA XATUN

*İki hissəli mənzum dram*

İŞTİRAK EDƏNLƏR

İxtiyar
Burla xatun
Çiçək
Qısırca yengə
Səhəriyyə
Şiranə
Aynişan
Ulus
Şöklü Məlik
Birinci kafir
İkinci kafir
Üçüncü kafir
Gənc döyüşçü
Qazanın səsi

## BİRİNCİ HİSSƏ

Amansız döyüşün izləri hər yanda, hər şeydə özünü göstərir. Beli bükülmüş bir ixtiyar asta addımlarla irəlilədikcə viran olmuş yurdunun bu kədərli mənzərəsi onun qəddini sanki bir az da əyir. Başını qaldırıb hərdən şimşək çaxan göyə baxır, elə bil nə küləyi duyur, nə də qatılaşan qaranlığı hiss edir, özünü tamam unutmuş halda ətrafı dolaşır.

İxtiyar
(*fikirli*)

Hanı? Hanı?..
Əcəl aldı yer gizlədi,
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya.

Külək getdikcə şiddətlənir, göy guruldayır.

Dünyanın qoynunda at çapdıqca şər,
Buludlar toqquşar, od şırım düşər.
Göylərin şəninə göy gurultusu,
Yerlərin bəxtinə ildırım düşər.

Qəfildən çaxan şimşəyin işığında cavan bir döyüşçü görünür, görkəmindən xəyala bənzəyir, səsi uzaqlardan gəlir.

C a v a n  d ö y ü ş ç ü

Baba... salam... salam baba...

İ x t i y a r
(*diksinir*)

Salam, bala... Bala, salam...
Gör nə vaxtdır hey gəzirəm.
Bəlkə səndən xəbər biləm,
soraq alam.
Harda idin, oğul harda?

C a v a n  d ö y ü ş ç ü

Uzaqlarda... Uzaqlarda...

İ x t i y a r

Ordadamı payız gəlib,
Yağış yağır?
Yağmur tökür, şimşək çaxır?

C a v a n  d ö y ü ş ç ü

Yox, ay baba, burda nə yaz,
Nə qış olur, nə də payız.
Burda hər an damla-damla
Yer üzündən
Qandı sızan, hey aramla,
Qoymur yumaq gözümüzü

bircə hovur
qanlı yağmur.
Söylə, baba, bəs nə zaman
Qan kəsilər,
Yurd oyanar?

İxtiyar

O zaman ki qurd oyanar,
Qurd ulaya, haray çəkə,
Onda bəlkə
Bu haraydan oyana xan,
Qalxıb dura Salur Qazan.

Cavan döyüşçü

Ula, qurdum, ula, vaxtdır,
Bilirəm ki, bu haraydan
Salur Qazan qalxacaqdır.

İxtiyar

De, hardasan, harda Qazan?..
Yurdun batdı, sən hardasan?

Cavan döyüşçü

Haray Qazan!..

İxtiyar

Qara qəlbli qanlı kafir
Ürəklənib hücum çəkdi.
Elə bil ki, göy üzündən
Od ələndi, səmum keçdi...

Zülmət daha da qatılaşıb. Şimşək çaxdıqca qəribə kölgələr görünür gözlərinə.

İxtiyar

...Haray Qazan!..
Zirvələrə duman gəldi –
Yaman gəldi!..
Sal daşlara qan çiləndi,
Qan çiləndi!..
Arzulara, ümidlərə
Yaddaşlara qan çiləndi!
Yurdu yaxıb keçdi düşmən.
Qanımızı içdi düşmən.
De, hardasan, harda Qazan?..

Döyüşçü

Haray Qazan...

(*Bu qəribə kölgələr İxtiyarın səsinə səs verirlər.*)

Burla xatun

Tanrım, çapar gəldi, xəbər gətirdi
Bu xəbər necə də ağır xəbərdir!

Xor

Bu xəbər necə də ağır xəbərdir!

Burla xatun

Düşmən qasırğa tək yurdumu sarmış
Elimin nə acı taleyi varmış!

Xor

Elimin nə acı taleyi varmış!..

İxtiyar

Qəfildən ömrümə qar ələndi, qar
Elə bil yuxudan səksəndi, yurdum.

Sanırdım arxamız, dirəyimiz var,
Fəqət birdən-birə təkləndi yurdum.

Səhəriyyə

Tanrım, bu fəlakət, bu vəhşət nədir?
Niyə belə gəldi yurdun qisməti?!

Yengə

Qan tökmək, bəşərin faciəsidir,
Zalımlar gətirdi bu fəlakəti!..

Burla xatun

Matəmə bürünmüş doğma evim var
Kədərim sonsuzdur, səbrim möhtəşəm.
Mənim aşıb-daşan bir qəzəbim var.
Qəzəbdən yoğrulan daşa dönmüşəm.

Yengə

Neçə-neçə cavanların toy gecəsi
Dönüb oldu vay gecəsi...

Çiçək

Qara geymiş anaların
Yaş qurudu gözlərində.

Aynişan

Qızıl-qızıl kəcavələr
Üzdü oba üzərində...

İxtiyar

Allah!.. Elə bil ki, zaman dayandı
Görcək bu vəhşəti, ölümü, Allah!..
Al qandan torpaq da od tutub yandı,
Necə götürürsən bu zülmü, Allah!..

Ç i ç ə k

Bu torpaq uğrunda doğrandı canlar
Qızardı göy rəngi asimanın da.

A y n i ş a n

Əgər bir məcraya axsaydı qanlar,
Dərya yaranardı, dərya yanında.

B u r l a   x a t u n

Oğul, oğul, – deyə arayan ana
Gəzib el-obanı ağlar, dolanar.
Bu dərdin əlindən gəlib tüğyana.
Dünyanın başına dağlar dolanar.

S ə h ə r i y y ə

İnsan öz yurdunda sanki qəribdir,
Fəlakət ellərdən-ellərə çatır.

Y e n g ə

Kim ki ölümlərə fərman veribdir,
Görən gecələri o necə yatır?

İ x t i y a r

Oğul!.. Oğul!.. Ay oğul!..
Bu necə tufandı, bu necə səsdi:
Ölüm qapımıza niyə tələsdi?!

B u r l a   x a t u n

Oğul!.. Oğul!.. Canım oğul!..
İncə belli qızlar ilə
Öz yurdunda
İzi bağlı, yolu bağlı dustaq oldu.

X o r

İzi bağlı, yolu bağlı dustaq oldu.

B u r l a

Oğul!.. Oğul!..
Qırx igidlə
Başı açıq, yalın ayaq,
Əli bağlı, qolu bağlı oldu dustaq!..

X o r

Əli bağlı, qolu bağlı oldu dustaq!..

İ x t i y a r

Oğul!.. Oğul!..
Anaların ahı, millətin qanı
Yerdəmi qalacaq?..

B u r l a

Heç zaman, heç vaxt!
Hanı bu torpağın Qazanı, hanı?

İ x t i y a r

Hanı?.. Hanı?
Dediyin bəy ərənlər?
Dünya mənimdir deyənlər?..
Hanı oğulların, hanı, a torpaq?!
Qalxıb əsrlərin dərinliyindən,
Düşmən boğazından yapışmayacaq?!

C a v a n  d ö y ü ş ç ü

Ula, qurdum, ula, vaxtdır
Bilirəm ki, bu harayın
Qazan xana çatacaqdır.

İ x t i y a r

Ey qaranlıq düşən zaman yanar gözlüm.

B u r l a

Qurdum eşit, gəzmə belə gizlin-gizlin.

İ x t i y a r

Sən qaracıq şux atları kişnədənsən.

B u r l a   x a t u n

Qızıl-qızıl dəvələri döşlədənsən.

Y e n g ə

Ağca qoyun sürüsünə quyruğuyla qamçı çəkən.

S ə h ə r i y y ə

Sən ey bircə zərbəsiylə ağılları söküb-tökən.

A y n i ş a n

Burma-buynuz kök qoçları atıb-tutan,

Ç i ç ə k

Qanlı-qanlı quyruq üzüb şan-şan udan,

B u r l a   x a t u n

Qazandan bir xəbər bilsən gəl de mənə,
Dərdli başım qurban olsun qurdum sənə.

İ x t i y a r

Qazan xana belə söylə, Salur Qazan,
Yurdun batdı, sən hardasan?!

X o r

Salur Qazan!
Yurdun batdı, sən hardasan?!

Gülüş səsləri eşidilir. İşıq şüası səslərə doğru sürünür. Əllərində badə, qara örtüyə bürünmüş adamları işıqlandırır. Şən musiqi. Şiranə rəqs edə-edə oxuyur.

Ş i r a n ə

Təbiət qoynunda verib baş-başa
Gecə də uyuyur, səhər də, dünya!
Qızıl piyalədən, zər piyalədən
Şərbət də içilir, zəhər də, dünya.

İşığın bir parçası qopub kölgələrin üzərinə qayıdır. Onlar bu kədərli səsin təsirilə çırpınırlar.

İ x t i y a r

Qarlı, uca şiş dağların yıxılmasın.

K ö l g ə l ə r

Vətən!

B i r i n c i k ö l g ə

Abad-abad obaların dağılmasın!

K ö l g ə l ə r

Vətən!

İ x t i y a r

Kölgəli göy ağacların kəsilməsin.

K ö l g ə l ə r

Vətən!

İ k i n c i   k ö l g ə

Üstündən nur əskilməsin!

K ö l g ə l ə r

Vətən!

B i r i n c i   k ö l g ə

Düşmənləri sən kül eylə, ulu Tanrı!
Duamızı qəbul eylə, ulu Tanrı!

K ö l g ə l ə r

Amin! Amin!

Şiranə bu səsləri eşidirmiş kimi susur. Musiqi kəsilir.
Kafirlər onun susduğunu görüb ona baxırlar.
Onlardan biri – Şöklü Məlik qıza yanaşır.

Ş ö k l ü   M ə l i k

Nədir, niyə susdun?
Niyə gilələnir yenə göz yaşın?
Yoxsa yada düşüb qohum-qardaşın?
Oxu!

B i r i n c i   k a f i r

Oxusun, oxusun, biz də zövq alaq,
Dünya ləzzətindən feyziyab olaq.

Gülüşürlər. Şiranə susur.

Ş ö k l ü  M ə l i k

Qarşımda diz çökdü qədim bir ölkə!
Köhnə yaraların qövr edir, bəlkə?
Keçib o günlərdən nə qədər zaman,
Nəslini, kökünü unutmamısan?
Məni cin atına mindirmə yenə.
Oxu, oxu, deyirəm sənə!..

İ k i n c i  k a f i r

Oxu, naz eləmə, nənəm qurban səsinə...

Kafirlər qəhqəhə çəkib gülüşürlər. Məlik Şiranənin saçlarından tutub qaldırır. Qız onun əlindən çıxıb geri çəkilir. Musiqi eşidilir.

Ş i r a n ə
(*mahnı*)

Vətənin həsrəti çağlar sinəmdə,
Dərdimə dərd verər qəhər də, dünya.
Bu gün qövr etdikcə dağlar sinəmdə
Nifrətlə birgədir kədər də, dünya!

İ k i n c i  k a f i r

Bəh, bəh...
Özü də gözəldir, səsi də gözəl.

B i r i n c i  k a f i r

Sözü də gözəldir, rəqsi də gözəl.

Ü ç ü n c ü  k a f i r

Belə deyirlər ki, böyük hökmdar,
Burla Xatunun da gözəl səsi var.

Məlik fikrə gedir.

Şöklü Məlik

Eşit, Qazan!
Zəfər çalıb zər qotazlı
Evlərini gətirmişik,
bizimkidir.

Kafirlər

Bizimkidir.

Şöklü Məlik

Gətirmişik ala gözlü sevgilini,
bizimkidir.

Kafirlər

Sizinkidir.

Şöklü Məlik

Qucaqlarıq indi elin gözəlini,
bizimkidir.

Kafirlər

Sizinkidir.

Şöklü Məlik

Günlər keçər, Burla Xatun –
Mələk qadın.
Məlik üçün oğul doğar,
Ona yaxşı ad qoyarıq.
İllər ötər, görkəmindən hünər yağar.
Onun ürək əvəzinə
Sinəsinə od qoyarıq,
Sonra onu sənin ilə
Vuruşmağa yollayarıq! Ha... ha...

Birinci kafir

Bu gün şərab mənim, mahnı sənindi.

İkinci kafir

Məclis qızışacaq deyəsən indi.

Şöklü Məlik
(*ikinci kafirə*)

Get Burla xatunu gətir məclisə,
Qoy iki türk qızı versin səs-səsə.

Birinci kafir

Gəlsin, şərab süzsün o adı göyçək,

İkinci kafir

Kef çəkib Qazana belə dağ çəkək.

Gedir.
Şiranə çıxmaq istəyəndə Şöklü Məlik onu saxlayır.

Şöklü Məlik

Qazanın isməti – mənim qismətim,
Yəqin ilahidən mənə bəxşişdir.
Qartal caynağına qumru keçmişdir.

Şiranə

Eşit, ey hökmdar, bu işdən əl çək,
Düşmən düşmənlə də mərd olsun gərək!

Şöklü Məlik

Yalnız çalıb-çapdın, bunla iş aşmaz...

Şiranə

Namusa toxunmaq sənə yaraşmaz.
Qalibsən, qalib tək apar özünü...

Şöklü Məlik

Gizlətmə, sonadək söylə sözünü.
Yurdunu görmüsən, qurdun tərpənib?..

İxtiyar

Vaxtilə ismətdən bəxşiş alıbdır,
Onun üçün dişində şirə qalıbdır.
Xeyir tükəndikcə, şər çoxaldıqca
Niyə güc önündə alçalır, dünya?!
Ümidlər soluxub dərd çoxaldıqca,
Şeytan əməliylə qocalır dünya.

İşıq bütünlüklə sürüşüb kölgələrin üzərinə düşür.
İkinci kafir gəlir, heyranlıqla onları süzür.

İkinci kafir

Göydən enib gələn mələkdi bunlar?
Sanki möcüzədir bu boy-buxunlar.
Təbiət nə gündə yaradıb sizi,
Azca açın görək üzlərinizi.

Kölgələr susub tərpənmirlər.

Məlik, ulu göylər hifz etsin onu!..
Məclisə çağırır Burla xatunu.

Kölgələr titrəşir, ancaq susurlar.

Sizinlə deyiləm,
Kimdir Burla xatun?
Dillənin, dinin.
Sənsən? Sən?.. Yoxsa, sən?

(*Sükut.*)

Qamçını şaqqıldadaraq onların üstünə yeriyir.

S ə h ə r i y y ə
(*irəli çıxaraq*)

Tutaq, Burla mənəm, nəyinə gərək?

İ k i n c i  k a f i r

Gəl indi bunları başa sal görək...
Dedim ki... Niyəsin orda bilərsən,
İçib al şərabdan, deyib-gülərsən.
Nəşəli bir gecə gözləyir səni.

Q ı s ı r c a  y e n g ə

Bu torpaqdan doğulmuşdu Burla xatun.
Çinar kimi ucalmışdı Burla xatun.
Ağac sındı, budaq oldu.
Yarpaq düşdü, torpaq oldu.

İ k i n c i  k a f i r

Necə dedin? Nəyə döndü?..
Yerə döndü, göyə döndü?..

Ç i ç ə k

O çevrildi büllur-büllur bulağa
Bir bulağın nəğməsidir Burla xatun.
Selə döndü, axıb getdi uzağa
Ağ suların gur səsidir Burla xatun.
Onu sudan seçmək olmaz,
Suyu ondan seçmək olmaz.

A y n i ş a n

Bir ahıdı sinəmizdən qopdu o,
Haray kimi ömürlərə hopdu o.
Yerin, göyün nəfəsidir Burla xatun!

S ə h ə r i y y ə

Günəş kimi səhər-səhər oyandı,
Atəş olub səmalarda o yandı.
Parlaq odun şöləsidir Burla xatun!

İ k i n c i   k a f i r

Biri deyir suya döndü,
Biri deyir yandı, söndü
Nə mənası burda yerin,
burda göyün?..
Anlamıram, adam kimi bir
söz deyin.

Susurlar.

Gedim mən Məlikə nə cavab verim.
Deyən boğazımdan çıxacaq dərim.

Kafir geri-geri çəkilib qaranlıqda yox olur.

İ x t i y a r

Fəlakət önündə mən təkcə qaldım,
Bir günün içində, oğul, qocaldım.
Ələndi üstümə dünyanın qəmi,
Sındı qürurum da qanadım kimi.

Y e n g ə

Qudurub, sən bunun iştahına bax,
Köpək qaysavadan pay da umacaq.

B u r l a   x a t u n

Zəmanə əlimə bir xəlbir verib,
Deyib su daşıyıb, bağ əkməliyəm.
Xəlbirlə bərabər bir səbir verib,
Səbirlə, dözümlə dərd çəkməliyəm...

A y n i ş a n

Gəldi necə bağırdı,
Üzdən zəhər yağırdı.
Sözləri qan-qan dedi,
Cin idi, şeytan idi.

Yengə Aynişanı qucaqlayıb bağrına basır.

Y e n g ə

Tanrım, niyə mənə övlad qıymadın,
"Ana" çağrılmadı bircə yol adım.

İşıq azalır. Məclis işıqlanır.
İkinci kafir görünür. Məlik onun tək gəldiyini görüb daha da əsəbiləşir.

Ş ö k l ü  M ə l i k

Hanı Burla xatun?

İ k i n c i  k a f i r
(*dili dolaşır*)

Mən... getdim... soruşdum...
Dedim: Burla kimdir?
Böyük hökmdar,
Hərə bir söz dedi,
qalmışam naçar.

Şöklü Məlik qəzəblə var-gəl edir.

Ş ö k l ü  M ə l i k

Deməli, belə... deməli, gəlmədi...
Neynək... qoy belə olsun...

Ü ç ü n c ü  k a f i r

Sizə deyəndə ki, qoyun bunları
Tikə-tikə edim, şişə çəkim mən,
Razı olmadınız. İndi buyurun
Bu azğın millətin önündə durun.

İkinci kafir

Eşitdin cavabı? Ürəyə bax bir.

Birinci kafir

Hə... ağır cavabdır... eşitdim...
Heyif...

İkinci kafir

Nəyə hayıf?

Birinci kafir

Bu gecəyə, ay mayıf!..
Gözəllə səhəri açmaq savabdır.

İkinci kafir

Hə... doğrudan heyif... deyirəm bəlkə
Biz təşrif aparaq onun yanına,
Od salaq şərabla şirin canına!

Birinci kafir

Öpüşüm qonsaydı dodaqlarına
Bayılıb düşərdi ayaqlarıma.

Üçüncü kafir

Kəsin lağlağını!

Şöklü Məlik

Nə olar, biz gözəldən naz da çəkərik.
Gedib lap önündə diz də çökərik.
Eşit, Qazan!.. Dinlə, Qazan!..
Torpağını torba-torba daşıtdırmasam,
El-obanı viran qoyub boşaltdırmasam,

Mən nəslini, mən soyunu əgər qırmasam,
Namusunu, qürurunu mən sındırmasam,
Ürəyim soyumaz, soyumaz, Qazan!
Hardasan, üzə çıx, qulaq as, Qazan!

Gedərkən işıq sönür.

İxtiyar

Ulu Tanrım, söylə, bu əzab nədir?
Kimlərsə məclisdə saqi gəzdirir.
Kimlərsə öz zərif çiyinlərində
Əzabdan yoğrulmuş dağı gəzdirir...

Məlik yarıqaranlıqda dayanıb diqqətlə onları süzür.
Həzin, yanıqlı nəğmə eşidilir.

Birinci kafir

Bu qəmli, kədərli görkəmlərilə
Yoxsa canlı deyil? Bir xəyaldılar?..

İkinci kafir

Nazlı pərilərtək verib əl-ələ,
Bəlkə durnalar tək qanad çaldılar?..

Üçüncü kafir

Fəqət, nə bu hüzn, nə yanıqlı səs
İçimdə göynəyən kini ovutmaz.
Bu bayquş səsinə bənzəyən nəfəs
Hirsimin odunu əsla soyutmaz.

İşıq zolağını keçib qadınlara yaxınlaşır.

Şöklü Məlik

Şövkətli xanımlar əfv edin bizi,
Sizə yaraşmayır qaranlıq zindan!
Yanıqlı nəğməni dinləyib, düzü,
Kövrəldim yaman.

Sizi sarayımda gördüyüm üçün
Şükürlər edirəm tanrıya bu gün.
Buyurun...

Heç kim yerindən tərpənmir. Məlik səbirlə onları süzür.
Sükut.

Məqsədim sizləri incitmək deyil.
Belə bir görüşü gəzdim neçə il.
Qazanın xanımı – bizim bacımız,
Hörmət göstərməkdir ona borcumuz.

Sükut.

Sizi gözləyirəm, Burla xatun, mən!

Sükut.

Yaxşı belə olsun, onda gətirin.

İkinci kafir məcməyidə qaş-daşla bəzənmiş bir kəmər gətirir.
Məlik kəmərə işarə edir.

Budur Qazan xanın toy hədiyyəsi,
Onu çox sevərmiş öz sahibəsi.
Doğru deyirlər ki, ləl-covahirat
Sahibinə sadiq olmayır heç vaxt.
İndi gəlin yaxın,
Diqqətlə baxın!

İxtiyar

Xəyanət edəcək bu gün, bu səhər
Əziz sahibinə qaş-daşlı kəmər?!

Qadınlar təlaşla məcməyidəki kəmərə baxırlar.
Məlik onların hər bir hərəkətini diqqətlə izləyir.
Ağır bir səssizlik getdikcə uzanır. Nəhayət, qadınların
biri irəli çıxır.

Birinci kafir

Bəh, bəh, çox gözəldir dünyaya dəyər.

Şöklü Məlik

Bu ancaq yaraşar el gözəlinə.

Qısırca yengə

Elədir, fəqət...

Üçüncü kafir
(*istehza ilə*)

O bəlkə özünsən?

Qısırca yengə

Əlbət!
Mənəm Burla xatun.

Üçüncü kafir

Al, bağla belinə!..

Şöklü Məlik

Qaldırın niqabı,
Görək üzünü!

İkinci kafir yaxınlaşıb niqabı qaldırır. Qısırca yengə gözlərini çəpləşdirib ona baxır.

İkinci kafir

Paho... Bu nədir?
Xalis ifritədir,
Küpəgirəndir.

Q ı s ı r c a  y e n g ə

Burda deyiblər ey –
Adımı sənə qoyum,
Səni yana-yana qoyum.
Buna bax,
Ay axmaq.
Nəyimdir mənim ifritə?
O qədər gözəllər ərə vermişəm.
O qədər cavanlar evləndirmişəm.
İndi də öz vaxtım çatıb, yaxın gəl,
Hüsn-camalına sənin baxım, gəl.
Yanağım balaca solub, nə olar?
Dişlərim kəsərdən qalıb, nə olar?
Al məni, lap elə sən deyənəm mən.
Hə, sənə yaraşan elə mənəm, mən!
Sənə oğul doğum, qucsun səni o,
Kəssin nənəsinin əmcəyini o.
Yedirtsin sənə... ha... ha...
Gəl vaya çevirim sənin toyunu,
Gəl deşim gözünü cüt barmağımla.
Paçama keçirib yoğun boynunu
Boğaram beləcə tumanbağımla.

Cumur çəpgöz kafirin üstünə. Üçüncü kafir onu saxlayır.

Ü ç ü n c ü  k a f i r

Bəsdir çərənlədin, ləçərin biri,
Soyaram dərini mən diri-diri.

Ş ö k l ü  M ə l i k

Dayan!.. Səbrin olsun görmürsən məgər?
Nənəmiz qızıxıb, ər istəyir, ər?..
Tuman bağısıyla qorxudur bizi,
Çıxartmaq istəyir gözlərimizi.

Bizim toyumuzu vaya çevirən,
De, kimin toyunda qopub vay-şivən?
Hanı öyündüyün, şimşəktək çaxan,
Bəylərin, ərlərin, hanı Qazan xan?

İxtiyar

Mən də axtarıram, xeyli zamandır,
Hər qılınc çalana, demə Qazandır!

Üçüncü kafir

Əzəldən elə dil pəhləvanısız,
Halaldır sel kimi axsa qanınız!

Qısırca yengə

“Cücəni payızda sayın” – deyiblər.

Üçüncü kafir

Payızda cücəni kəsib yeyiblər.

Qısırca yengə

Ömürlük gülübdür axırda gülən.

Şöklü Məlik

Axırda gülərsən, indisə dillən!
Kimdir çinar boylu Burla xatun?
Göstər zərə tutum, zinətə tutum.

Qısırca yengə

Biz ki çox görmüşük zinəti, zəri
Apar ver zövcənə, doysun gözləri.

Ü ç ü n c ü  k a f i r

Dilini dibindən çıxardaram bil...

(*Qamçı ilə onu vurmaq istəyir.*)

Q ı s ı r c a  y e n g ə

Qadına güc gəlmək kişilik deyil!

(*Səhəriyyə irəli atılır.*)

S ə h ə r i y y ə

Əl saxlayın, dayanın,
Yatmısınız, oyanın.
Bu yurdun hər daşı, qayası, xatun
Bitən hər çiçəyin mayası, xatun
Əgər duya bilsən, anlaya bilsən,
Onun da hər sözü, qayəsi xatun!

A y n i ş a n

Durna idi üfüqlərdən endi xatun
Doğma ana torpağına döndü xatun
Hər çiçəyin üzərində şehdi xatun
Bu ellərdə səhər əsən mehdi xatun.

Ü ç ü n c ü  k a f i r

Bizi ələ salırsız
Siz... siz...

Ç i ç ə k

Bəli, biz!
Bizik Burla xatun,
Burla xatun biz!

Qısırca yengə

Nədir, kor olmusan?
Bir sil gözünü
Yaxşı bax, Burlayam,
yorma özünü.

Şöklü Məlik
(*əsəbi*)

Rədd edin, gözlərim görməsin bunu.

Birinci kafir
(*ikinci kafirə*)

Yaxşı olmayacaq bu işin sonu.

Şöklü Məlik

Bu qaş-daşlı kəmər Oğuz elində
Məşhur bir gözəlin gəzib belində.
Bu gün ilan kimi sarılsın yenə
Əziz sahibinin incə belinə.
Çəkin ortalığa bunları bir-bir
Diqqətlə yoxlayın, söz kəmərindir.

Birinci kafir kəməri götürüb qadınlara yaxınlaşır, bu vaxt ala-qaranlıqda dayanıb baş verənləri izləyən Şiranə irəli çıxır.

Şiranə

Ey böyük hökmdar,
Sizin dünya boyda ad-sanınız var,
Yaraşmaz qadınla sizə bu rəftar.

Şöklü Məlik
(*fikirli*)

Yaxşı, nə deyirəm, sən deyən olsun,
Qazanın qucduğu o incə belə
Gərəkməz bir başqa kişi toxunsun.

Şiranə kəməri alıb qadınlara sarı gedir. Onlar təşvişlə ona baxırlar.

Birinci kafir

Burda deyiblər ey,
Gəldik şişlik iyinə,
Gördük eşşək dağlayırlar.

İkinci kafir

Hə, işlər düşdü düyünə...
Bunlar necə məxluqdurlar?
Nə yalvarıb-yaxarırlar,
Nə susurlar.

Birinci kafir

Dinmə görək...
Məlik yaman qəzəblənib,
Xeyir olsun axırı...

İkinci kafir

Demə, demə... ə, adamın bəxti gərək,
Heyif oldu, dəmi getdi çaxırın...

Şiranə əlində kəmər Məlikə yaxınlaşır.

Şiranə

Sizə gərəkdir ki, düzünü deyim,
Burla burda yoxdur, mənim Məliyim!

Üçüncü kafir

Bu felə, inada dözülməz daha,
Bağlayın qolların, çəkin çarmıxa!

Kafirlər qızların əllərini bağlayıb ağacın budaqlarından asırlar.
Hərdən ipi dartır, ayaqları yerdən üzülür.

İkinci kafir

Bu da ağa olub bizə haçandır?
Qudurub özünü lap Məlik saydı...

Birinci kafir

Yavaş ol, eşidər, dinmə, amandır,
Qoy görək nə olur, di durma, haydı.

İxtiyar ala-qaranlıqda görünür.

Üçüncü kafir

Sizin tale məcrasını gərək geri döndərək biz,
Qazan xana kinimizi gərək sizlə söndürək biz.

Burla xatun

Qanlı Məlik, dinlə bizi.

İxtiyar

Bizi dinlə, qanlı Məlik.

Burla xatun

Bir gün gələr gumbur-gumbur nağaralar çalınar.
Burması qızıl, tunc borular çalınar.

Çiçək

O gün igid, bəy ərənlər comərdliklə savaşar,
Su yerinə çaylarından ölüm axar, qan daşar.

Aynişan

O gün bil ki, ovxarlanmış polad qılınclar çatılar.

Səhəriyyə

O gün yenə haça dilli, sivri oxlar atılar,
Uzaqvuran sür nizələr köksünüzə sancılar.

Qısırca yengə

O gün sizi, namərdləri, xəlvət-xəlvət yer gözlər.

İxtiyar

O gün sizi, qanlı Məlik, əcəl alar, yer gizlər...

Üçüncü kafir

O günün arzusu, həsrətilə siz
Hələ çox zarıyıb, inləyəcəksiz.
Qismət olmayacaq sizlərə o gün

Şöklü Məlik

Bu günün dərdini bu gün düşünün;
Yurdun viran olub, Ulusun əsir,
Xatun, bunlar sizə etməzmi təsir?

Aynişan

Gecələri pusqu qurdun,
Fürsət gəzdin oğru kimi.
Qazan xanım ova çıxcaq,
Viran qoydun sən elimi.

Səhəriyyə

Eşit, qandan, ölümdən də
Biz qorxmuruq, kafir Məlik.
Tanrı qoysa sağ qalarsaq,
Bizlər səni gəbərdərik.

Qısırca yengə

Çox öyünən kişilərdə
Bir kişilik görmədik.
Əlinə düşmüş ikən
Ey kafir, öldür bizi.
Çal qılıncı, kəs başımı,
Biz ki qorxan deyilik.
Əslimizə, kökümüzə
Xain çıxan deyilik.

Çiçək

Ey murdar qanlı, kafir
Onsuz da biz ölümdən,
Qandan qorxan deyilik.
Əslimizə, kökümüzə
Xain çıxan deyilik.

Burla xatun

Əcəl vaxtı çatmayınca kimsə ölməz,
Bərk yüyürək qazlıq ata namərd heç vaxt minə bilməz,
Darılmayın, qırılmayın dinsiz kafir, dinə gəlməz.
Xain çıxan deyilik.

Şöklü Məlik

Susun...
Kimdir Burla xatun?
Sən? Sən? Yoxsa, sən?

Aynişan

Mənəm.

Səhəriyyə

Mənəm.

Çiçək

Yox, mənəm, mən.

Şöklü Məlik

Yox, yox, sən deyiləsən, yox, o da deyil,
O da, o da deyil, sən də deyilsən...
Taleyin yeni bir hədiyyəsisən,
Açın qollarını... gətirin, bəri.

Qısırca yengə

Asta ye, boğularsan ha...

Üçüncü kafir

Kiri... Dilotu yemisən, ləçərin biri?!

Şiranə

Səbr elə, əl saxla bir az,
Qıza əl qaldırmaq ərə yaraşmaz.

Şöklü Məlik

Daşdı səbr kasam, itil o yana...
Gərək dillərindən asam bunları.
Elə dağ çəkəm ki, Oğuz yurduna,
Adım çəkiləndə dona qanları.

Çiçəyin saçlarından tutub sürüyür.

Burla xatun

Mən dözə bilmirəm, çatlayır bağrım,
Tanrı, gözlərimə ensin qara su.

Yengə

Mənim də ağrımdır, sənin bu ağrın
Unutma fəqət –
Vətən namusudur, ana namusu!

İxtiyar

Ensin gözlərinə, ensin qara su.

Çiçək

Ulus!.. Ulus!.. İgidim Ulus!..
Yetiş imdadıma, ümidim Ulus!

Yengə

Dayan, binamus!

Üçüncü kafir

Sus!

Burla xatun

Durun, əl saxlayın, o bir uşaqdır,
Burlanı aramaq, gəzmək nahaqdır.
Ölüb Burla xatun, torpağa dönüb!
Alışıb, odlanıb, odlanıb, sönüb!
Sizə qurban gərək, ya Burla xatun?!
Onun əvəzinə aparın məni
Doğrayın, yandırın, odlara atın!

Qızlar

QIZLAR: Haray Qazan, haray Qazan.

Şöklü Məlik

Qazanı səsləmək hədərdi, hədər,
Tutulubdur dili, qulağı kardır.
Elə bir haldadır ölümdən betər,
Haraya yetişməz, gözləri kordur.

Qısırca yengə

Belin qırılsın, belin.
Əlin qurusun, əlin.
Qazanı qarğıyanda
Dilin qurusun, dilin.

Aynişan

Ağam Qazan, Salur Qazan
Ölmüsənsə diril, Qazan.
Qılınc kimi sıyrıl, Qazan.

Şöklü Məlik
(*qəhqəhə çəkir*)

Qılınc idi sıyrılmışdı,
Gen dünyada azdı o.
Obasından ayrılmışdı,
Məzarını qazdı o.
Bu yollarda azan xan,
Şaqqalandı Qazan xan.

Səhəriyyə

Ölübsə, qan ağlaram,
Sel su kimi çağlaram.
Ulayaram qurd kimi,
Unudulmaz dərd kimi
Ürəyimdə saxlaram.

Çiçək

Yalan deyirsən, yalan,
Yalana qurban balan.
Donuz axı nə bilir,
Ölməz qurddan doğulan.

Üçüncü kafir

Qurd idiniz, qoyun olduz,
Qoyunluq çətin peşə.
Sizi bu halda görmək
Arzum olub həmişə.

Çiçək

A qatil, Qazançın öldü deyirsən,
Ölsə, qisasını özüm alaram.

Burla xatun

Özünə sadiqdim sağlığında mən,
Ölübsə, ruhuna sadiq qalaram.

Birinci kafir qaranlıqdan çıxıb Şöklü Məlikə yaxınlaşır.

Birinci kafir

Hökmdar, əfv edin...

Şöklü Məlik

Nə olub yenə?

Birinci kafir

İndicə bəd xəbər verdilər mənə

Şöklü Məlik

Nə bəd xəbər, nə olub, de, nə?

Birinci kafir

Çoban intiqama çağırıb eli
Səsinə səs verib Türküstan əhli.

Şöklü Məlik

Çoban? Hansı çoban?

Birinci kafir

Qaraca çoban.

Üçüncü kafiri yanına çağırır.

Şöklü Məlik

Qazanın qılıncı düşüb kəsərdən,
Çoban çomağına möhtacdır deyən.

Seçmə atlılardan götür bir dəstə,
Qarşıla onları Yanardağ üstdə
Keçirib qılıncdan hamını bir-bir,
Çəkib sürüsünü, tez bura gətir.

(*Birinci kafirə.*)

Bağlansın dərələr, qorunsun dağlar,
Düşmən sinəsinə çəkilsin dağlar!
Kimsə bu yerlərə yaxın gəlməsin,
Burdan bircə quş da uça bilməsin.

Birinci kafir

Baş üstə.

Burla xatun

Söyüdlər bağımda əyim-əyimdir,
Çünki tənhalığım sənsizliyimdir.

Xor

Söyüdlər bağımda əyim-əyimdir.

Burla xatun

Qazan... Qazan...

Çiçək

Ulus... Ulus...

Burla xatun

Yer üzü müqəddəs, göy üzü məhrəm,
Sənsiz də bil, Qazan, mən səninləyəm.

X o r

Yer üzü müqəddəs, göy üzü məhrəm.

Ş ö k l ü  M ə l i k

Yenə bayquş kimi nə ulayırsız?
Ulamaq biçilmiş şux boyunuza
Deyirlər qurd nəsli, qurd övladısız,
Ağı dedirdərəm, qurd soyunuza.

Şöklü Məlik qadınların yanına qayıdır.

Ş ö k l ü  M ə l i k

Eşit, Burla xatun, bu son amandır,
Mənim intiqamım, zülmüm yamandır.
Çıx önə, xilas et əzizlərini,
Oğlunu, elini, kənizlərini.
Burda and içirəm, nə qədər sağam,
Səni sinəm üstə saxlayacağam.
Gedək bu görüşü şərabla yuyaq,
Dünya ləzzətini birlikdə duyaq.

Y e n g ə

Dinlə bizi qanlı Məlik, ey qursağı dar.

X o r

Bizə qan udduran, özü qan qusar.

B u r l a  x a t u n

Ala dağın aslanında kökümüz var.

X o r

Ala qaztək otlamağa düzlərində bir ot qoymaz.

S ə h ə r i y y ə

Qorxu bilməz boz qurdumun erkəyində kökümüz var.

X o r

Qorxusundan çobanların qoyunları otarammaz.

B u r l a  x a t u n

Ulus adlı oğul verdik Qalın oğuz elinə

Ç i ç ə k

Qazan gələr, Qazan coşar, qalxar atın belinə
Qəzəbindən, nizəsindən, kimsə sizi qurtarammaz!

X o r

Qəzəbindən, nizəsindən, kimsə sizi qurtarammaz!

Şöklü Məlik bu çılğın qasırğanın xofundan bir neçə addım geri çəkilir. Sonra özünü ələ alır.

Ş ö k l ü  M ə l i k

Dayanın bir, durun bir.
Elə zülüm verəcəyəm, qanlı tufan əsəcəkdir.
Burla xatun özü gəlib ayağıma düşəcəkdir.

(*Üzünü kafirlərə tutub.*)

Durun, durun!..
Siz Ulusu.
Tez aparın, tez doğrayın.
Qara qovruma bişirin.
Sonra gətirib verin,
Qoy iştahla yesinlər,
Dəhşətdən titrəsinlər.
Qoy gurlasın ocaq odu.
Kim yeməsə, Burla odur!

Burla xatun

Ulu Tanrı! Dərd çəkməyə səbr, dözüm ver.

Yengə

Həyatın yolları qışdır, borandır.

İxtiyar

Dərdlilər dünyada yarımpeyğəmbər,
Dərdsizlər dünyada yarıminsandır.

Hamı bu qərardan dəhşətə gəlir, heç kim yerindən tərpənmir, sanki ildırım vurur onları. Musiqi vıyıldayan küləyə qarışıb şiddətlənir.

Burla xatun
(*inildəyir*)

Oğul... oğul...

Xor
(*eyni ahəng*)

Oğul... oğul...

Burla xatun

Ulu Tanrı, uçsun səma, qoy titrəsin yer.

Xor

Ulu Tanrı, sən qatilə layiq cəza ver.

(*Şiranə qaranlıqdan çıxıb Məlikə yaxınlaşır. Diz çökür.*)

Şiranə

Ey Məlik, bir düşün, saxla əmrini,
Göylər də qarğıyar, lənətlər səni!

Ş ö k l ü  M ə l i k

Burla xatun bu torpağın anasıdır.
Ana sındı, xalq özü də sınasıdır.

Ş i r a n ə

Anaya göz dağı vermə amandır,
Əmri dayandır...

Ş ö k l ü  M ə l i k

Mənim qüdrətimi qoy bilsin Qazan
Mənim qisasımı görsün gərək o.
Burla xəbərini eşidən zaman
Gəlib qılıncıma diz çökəcək o.

Ş i r a n ə

Saxla bu əmrini, saxla, hökmdar,
Yurdun dağı-daşı ot tutub yanar.
Saxla bu kinini, küdurətini,
Anaya yedirtmə oğul ətini!

Ş ö k l ü  M ə l i k

Bəsdir, rədd ol burdan,
Bil öz yerini
Məlik dəyişməmiş "Məlik"
Əmrini! – Tez olun!

Kafirlər çıxırlar.

Ş i r a n ə

Sərkərdə qızıydım, məni qul etdin.
Əfsus, bu taleyi mən qəbul etdim.
Dedim ki, torpağım tapdaq olmasın,

Yadlar vətənimə ortaq olmasın!
Axı öz elimin qızıydım mən də,
Bilmədim heç necə düşdüm kəməndə.

İxtiyar

Eşqə, sədaqətə açılan dünya,
Günəşli bahardır, şaxtalı qışdır.
Mərdlik üzərində ucalan dünya,
Namərdlər önündə alçalmamışdır.

Qaranlıqda əriyib yox olur. Qızlar onun səsinə səs verirlər.
İxtiyar dərdin əlindən qovrulur.

Burla xatun

Oğul... oğull... oğulll...

Xor

Ulus... Ulus... Ulus...

Burlanın fəryadına cavab olaraq güclü ildırım çaxır.
Bir anlıq çaxan şimşəyin işığında ağaca sarınmış
Ulus görünür.

Burla xatun

Oğul!.. Oğul!..
Ey doqquz ay qəlbim altda
Gəzdirdiyim oğul, oğul,
Döşlərimdən süd verdiyim oğul, oğul
Zər qotazlı beşiklərdə lay-lay deyib
Ad verdiyim oğul, oğul.

Ulus

Dur, ay ana,
Qalx, ay ana.
Sən ki mənə uca dağsan,
Diz çökərmi dağ, ay ana.

Burla xatun

Yox, ay bala, ana üçün,
Övlad özü uca dağdır.
Onunçün də övlad dağı
Dünyada ən böyük dağdır.
Düşmək oğul ayağına
Alçalmaq yox, ucalmaqdır.
Mən neyləyim indi, oğul,
O qatilə qədəh-qədəh
Gedib şərab verimmi mən?

Ulus

Sus, ay anam, kəs, ay anam!

Burla xatun

Səni xilas etmək üçün
Yoxsa onun... dilim gəlmir...
Yatağına girimmi mən?

Ulus

Nə deyirsən?
Bu sənmisən?
Sənin dilin necə qıydı,
Necə dedin bu sözləri?
Dilin, ağzın quruyaydı,
Necə dedin bu sözləri?

Burla xatun

Oğul... oğul... oğul...

Ulus

Dinlə, ana...
Qoy ətimi
Parça-parça doğrasınlar,

Gümüş bıçaq
Qızıl şırım aça-aça doğrasınlar,
Gurlayaraq yansın ocaq
Tüstü qalxsın qucaq-qucaq,
duman-duman.

Burla xatun

Yox... oğul yox!..

Xor

Yox!.. Yox!..

Ulus

Min-min qartal uçub qanad
çalan yerdə
Bircə tərlan az olanda
nolar ana?

Burla xatun

Günəş yallı qonur atlar olan yerdə

Ulus

Bircə qulan az olanda
nolar ana?

Xor

Ağ qoyunlar çəmənlikdə,
Erkək haray salan yerdə,

Ulus

Bircə quzu az olanda
nolar ana?

Burla xatun

Göy dərələr gur çayları,
Öz qoynuna alan yerdə,

Ulus

Bir bulaq su
    az olanda nolar, ana?
Təki səni sağ olasan,
        anam mənim,
Bir də atam Salur Qazan,
        anam mənim!

Şöklü Məlik qaranlıqdan çıxır.

İxtiyar

Anan bu gün sənə qənim,
Qazan oğlu igid Ulus.

Şöklü Məlik

Buyur, Burla,
Son söz sənin.

İxtiyar

Ya oğlun,

Şöklü Məlik

Ya da, namus...

Sükut.

Şöklü Məlik

Ocağı çatın!..

Ç i ç ə k

Əfv edin Ulusu,
Bizi atəşlərə, odlara atın.

Ş ö k l ü   M ə l i k

Aparın!..

Birinci və ikinci kafir qaranlıqdan çıxıb kafirə yanaşırlar.

Ç i ç ə k

Tanrı, uçsun səma, qoy titrəsin yer!

X o r

Tanrı, sən qatilə layiq cəza ver!

Ç i ç ə k

Ey ana... necə anasan?..
Niyə danışmırsan? Niyə dinmirsən?
Üzə çıx, xilas et öz oğlunu sən.

Ş ö k l ü   M ə l i k

Axır ki...
Deməli, Burla burdadır.
De görüm, bunların hansı Burladır?
İndidən azadlıq verərəm sənə!
Səni qovuşdurram öz sevgilinə.
Mən özüm quraram sənə toy-büsat,
Axışar toyuna bütün el-elat.
Göstər Burlanı.

Ağır sükut çökür. Çiçək başını qaldırıb qadınlara yaxınlaşır. Onların qarşısında dayanıb kədərlə süzür. Birdən sərt halda Məlikə tərəf dönür.

Ç i ç ə k

Mənəm Burla xatun.

Ş ö k l ü  M ə l i k
(*bağırır*)

Aparın...

Kafirlər Ulusa yaxınlaşırlar.

Ç i ç ə k

Bağışla, bir anlıq sarsıldım, ana!
Bağışla, düşürəm ayaqlarına.

U l u s

Var olun siz,
İstəyiniz,
Hələ azmı yer üzündə?
Mənim kimi oğul bir də
Tapılmazmı yer üzündə?

B u r l a  x a t u n

Oğul... Oğul... Oğul...

X o r

Oğul... Oğul... Oğul...

U l u s

Məğrur dayan, vüqarla din
Eşitsən də düşmənlərin
Ölüm saçan qərarını,
anam mənim,
Gəl sən övlad sevgisindən
uca saxla
Pak analıq vüqarını,
anam mənim.

Burla xatun öz ağzını qapayır ki, kim olduğu bəlli olmasın.
Xor onu əhatəyə alır ki, kimin fəryad çəkdiyi bilinməsin.

Burla xatun

Oğul...
Sağ ol, oğul...

Xor

Oğul... Oğul...

Burla xatun

Kökü üstə məğrur bitən
Çinarımsan, oğul, oğul.
Dağdan uca vüqarımsan
Oğul... Oğul...

Xor

Oğul... Oğul...

Burla xatun

Qolumdakı dəyanəti,
Qəlbimdəki sədaqəti
Tapşırıram, oğul, sənə!
Riqqət nədir bilməyəsən.

Xor

Riqqət nədir bilməyəsən.

İxtiyar

Əvəzinə
Mən sinənə
Soyuq-soyuq daş qoyuram.

U l u s

Riqqət nədir bilməyəsən.
Sən ey doğma anam.

B u r l a x a t u n
(*fəryad çəkərək*)

Ey oğul, əlvida.

X o r

Ey oğul, əlvida.

U l u s

Əlvida, anam.

İ x t i y a r

Ey oğul, salam.

X o r

Ey oğul, salam.

U l u s
(*səsi eşidilir*)

Sa...lam...

İ x t i y a r

Salam oğul... Salam bala...
Qalam bala... sənsiz necə.
Qalım bala.
Tanrım,
Belə bir oğula necə qıydılar.
Səni yox, kaş məni doğrayaydılar.

Ç i ç ə k

İndi gəl yuxusuz gecələrə döz,
Neçinmiş görəsən bu həyat, xatun!

Q ı s ı r c a  y e n g ə

Əzabla bal yığan arılar kimi
Yığdığın balında indi bat, xatun!

S ə h ə r i y y ə

Xəyalın gəzirdi bəyaz buludda,
Yatdı qara çuxan, sən də yat, xatun!

A y n i ş a n

Səninçün üfüqlər zülmətdir indi,
Ancaq yuxularda aç qanad, xatun!

İ x t i y a r

Sonsuz kainatın coşub dənizi
Dumanda görmürük sahilimizi
Nuhun gəmisini göndər, İlahi,
Əsrin tufanından qurtarsın bizi!..

Qaranlıqdan onların üstünə qanlı bir köynək atılır.
Qızlar dəhşət içində geri çəkilirlər.

A y n i ş a n

Ürəyimdə qanım dondu.

Çiçək köynəyi götürüb bağrına basır.

Ç i ç ə k

Qanlı köynək, bu onundur
Ulusundur, Ulusundur.

(*Ağı deyir.*)

Vay, göz açıb gördüyüm,
Sevib könül verdiyim.
Vay, ağ duvağımın
Sahibi Ulus!
Doğma torpağımın
Sahibi Ulus!

İxtiyar

“Qarşıdakı uca dağın yıxılıbdır,
Qazan, sənin xəbərin yox.
Gur kölgəli şax budağın yıxılıbdır,
Qazan, sənin xəbərin yox”.

Xor

De hardasan, harda Qazan!
Qoydun bizi darda, Qazan! Qazan!!!

Burla xatun

Yanar bağrım döndü qana,
Buna necə dözsün ana?!
Oğul!.. Oğul!..
El-obamın arxası oğul!..
Qarşı yatan qarlı dağın
ucası oğul!..
Qaralınca gözlərimin gur işığı,
Doğma vətən torpağının yaraşığı,
Qızıl ilan sancmamışdan ağ bədənim şişir mənim,
Oğul dərdi ürəyimi deşim-deşim deşir mənim.

Çiçək

Quru-quru çaylara sən su gətirdin.

Səhəriyyə

Yaxşılığı uca bildin, pislikləri sən unutdun.

Aynişan

Yan-yörənə, qonşulara özün kimi
doğma oldun, ümid verdin.

Ç i ç ə k

Əlsizlərə sən əl tutdun.

Y e n g ə

Üryan gördün, geyindirdin,
Oba-oba sən at çapdın
Dilək ilə bircə oğul güclə tapdın.

B u r l a  x a t u n

Ağ üzümə uzun-uzun dırnaqları çalımmı mən?
Yer üzünə dərdli haray salammı mən?
Üst-başıma, al qanımı axıdımmı?
"Oğul, oğul" söyləməkdən yeri-göyü ağladımmı?
Övladımı itirmişəm, quzu kimi mələyimmi?
Ulus deyə hıçqırımmı, inləyimmi?..

İ x t i y a r

Qara yallı Qazlıq ata yata-yata
Qalın Oğuz ellərində qanad çalım deyirdim mən.

Q ı s ı r c a  y e n g ə

Oğluma bir alagözlü gəlin alım deyirdin sən.

B u r l a  x a t u n

Gəlinimi ağ çadıra gətirməyi gözləyirdim.

İ x t i y a r

Mən oğlumu muradına, mətləbinə
yetirməyi gözləyirdim.

B u r l a  x a t u n

Arzularım niyə belə gözdə qaldı,
ulu Tanrım?

İxtiyar

Niyə belə tez bağlandı ümidlərin
yolu, Tanrım?

Birinci və ikinci kafir əllərində teşt gəlirlər.
Onlar teşti ortaya qoyub çəkilirlər.

Birinci kafir

Yeyin, yağlı qovurmadır.

İkinci kafir

Əti yeyilən oğlanın
Bığları burma-burmadır.

Birinci kafir

Ət deyil e... lap xurmadır.

Yengə

Ey Tanrım, harayım qoy çatsın sənə,
Dərdimlə dünyanı mən qoşa gəzdim.
Yaxşı ki, sən övlad vermədin mənə,
Mən bu müsibətə dözə bilməzdim.

Burla xatun və qızlar donmuş halda teştə baxırlar.
Kafirlər qızları bir-bir teştə tərəf itələyirlər.

Kafirlər

Yeyin... yeyin...

(*Çəkilib qaranlıqda yox olurlar.*)

Burla xatun

Hardasan, ey Dədəm.
Ey ulu Qorqud?
Səni səsləyirəm, bu anda, səni,
Arxa ol, kömək ol, gəl əlimdən tut,
Eşit öz qızının ah-naləsini.

Y e n g ə

Səbir elə, mərd dayan,
Biz yanındayıq.
Bu dəhşət hamının qəddini əyib.

İ x t i y a r

Deyirlər namusu itə atıblar,
İt də yeməyib.

X o r

Namusu it də yeməyib...

B u r l a   x a t u n

Səbir elə söyləmək asandır, Dədəm,
Söylə, necə yeyim oğul ətini?

S ə h ə r i y y ə

Uca tutmalıyıq biz qədəm-qədəm
Vətən namusunu, el qeyrətini.

İ x t i y a r

Tanrı, gözlərimə ensin qara su.

Ç i ç ə k

Vətən namusudur, ana namusu.

B u r l a   x a t u n

Ensin gözlərimə, ensin qara su.
Axı mən anayam,
Yesəm, boğazımdan aşmaz tikəsi.

İ x t i y a r

Ani ömürlərə səcdə edən kəs.
Əbədi həyata inana bilməz.

X o r

Ucalardan sən ucasan, ulu Tanrı,
Kimsə bilməz sən necəsən, ulu Tanrı,
Sən ki yoxdan var olansan,
Yerə, göyə car olansan!

İ x t i y a r

Sən Adəmə tac qoyaraq şad eylədin,
Şeytanısa lənətlədin.
Bir günahçün qovdun onu öz qapından
Söylə, necə bəs dözürsən,
İndi günah içindədir bütün cahan.

B u r l a  x a t u n

Ah, bu dəhşət, ah, bu vəhşət nədir, Tanrım?..
Qüdrətinə sığınmışıq, qadir Tanrı...

Burla diz çöküb əllərini göyə qaldırır. Qızlar da diz çökürlər.

X o r

Ömrə çökdü duman, hey?..
Qara geydi cahan, hey...

B u r l a  x a t u n

Doğma oğul ətindən
Necə yeyim aman, hey...

İ x t i y a r

Pamal oldu cənnət, hey...
Hanı canda qüvvət, hey...

Burla xatun

İsmət, mənə kömək ol.
Tut əlimdən qeyrət, hey...

İxtiyar

Yurda çatmır ünüm, hey...
Qoy şam kimi sönüm, hey...

Burla xatun

Torpağımın yolunda
Mən torpağa dönüm, hey...

Xor

Torpağımın yolunda
Mən torpağa dönüm, hey...

Burla xatun teştə doğru sürünür, qızlar dəhşət içində bir-birlərinə baxırlar. Çiçək də teştə sarı gəlir, qızlar da otururlar. Burla xatun əlini teştə tərəf uzadır, qızlar da əllərini teştə sarı aparırlar.

*Birinci hissənin sonu*

## İKİNCİ HİSSƏ

Gecədir, qəribə bir səssizlik çöküb hər yana, külək də daha əvvəlki kimi coşub daşmır. Ağaca sarınmış Ulusun başı sinəsinə düşüb. Həzin, kədərli musiqi səsi eşidilir. Ağappaq geyinmiş bir qız qaranlıqdan sıyrılıb çıxır. O yanıqlı bir səslə oxuyur...

Çiçək

Şəfəqlərdir qanadım,
Qəlbim işıq çilədi.
Yerlər məni qınadı,
Göylər müqəddəs dedi.
Belə qanad açaram,
Uçaram ha, uçaram.

Ulus ağır-ağır başını qaldırıb səsi axtarır.

Ulus

Göy üzündə zeh qalıbdır,
Ora yəqin sən baxmısan.
Çiçək üstə şeh qalıbdır,
Söylə, yoxsa, ağlamısan?
Şəhla gözlüm, ala gözlüm...

Çiçək sanki onu nə görür, nə eşidir.

Çiçək

Ürəyinlə məni dinlə
Sən bir səda, mən səs olum...
Parla, yanım atəşinlə
Yanıb, yanıb sönməz olum...

Ulus
(*onu səsləyir*)

Sevgim, canım mənim, ürəyim mənim
Məni tanımadın, Çiçəyim mənim?

Çiçək
(*öz aləmində*)

O kəs ki qəlbində yaşayır hər an
Olarmı sən onu tanımayasan?..

Ulus

Eşit, ey gül xatun, ey Çiçək xatun,
Məhəbbət nurudur zərif qanadın.
Çiçəksən, zülmətdə açılarmısan?
Ətirtək dünyaya saçılarmısan?
Yoluna şəfəq tək mən düşəcəyəm,
Səninlə toy günü görüşəcəyəm.

Birinci və ikinci kafirlər qaranlıqdan çıxıb Çiçəyə yaxınlaşırlar, Ulus onu xəbərdar etmək istəyir.

Şəhla gözlüm!.. Ala gözlüm!..

Ulus çırpınır. İkinci kafir Ulusa yaxınlaşır, əlindəki dəhrəni onun boğazına dirəyir. İxtiyar ağacın arxasından çıxır, xırıltılı bir səslə gülürmü, ağlayırmı, bəlli olmur. Onu nə Ulus, nə də ikinci kafir görmür. Kafir dəhrəni qaldırıb onun başına endirir, ancaq dəhrə hər dəfə ağaca dəyir. Kafir getdikcə coşur, lakin heç cürə dəhrəni ona yönəldə bilmir. Hardansa uzaqlardan getdikcə yaxınlaşan ağır addım səsləri eşidilir, qəribə bir kölgə onlara doğru sürünür və böyüyüb hər tərəfi bürüyür. İxtiyar kölgəyə üz tutaraq...

İxtiyar

Azmışdınmı, itmişdinmi?
Axirətə getmişdinmi,
A xan Qazan?
Harda idi, harda Qazan?!

Kölgənin səsi

Qohum-əqrəbalı obam-yurdum...
Dağıldımı yuvam-yurdum?..

İxtiyar

Yurd-yuvanı talayıblar,
Qazan, sənin xəbərin yox!
Yerində od qalayıblar,
Qazan, sənin xəbərin yox!

Kölgənin səsi

Səni düşmən tapdaladı, anam – yurdum!

İxtiyar

Hökm eləyir torpağında indi kafir,
Tövlə-tövlə atlarını mindi kafir.

Kölgənin səsi

Obam köçmüş – yurdu qalmış,
Qoca anam oturduğu yerdə qalmış.

İxtiyar

Ağbirçək qoca ananı
Aldılar, xan, apardılar.
Uca boylu xatununu
İncə belli qızlar ilə
Odasından qopardılar.

Kölgənin səsi

Nər Ulusun ox atdığı nişan qalmış,
Bəylərimin at çapdığı meydan qalmış...

İxtiyar

Oğlun Ulus qırx igidlə
Başı açıq, yalın ayaq,
Qolu bağlı olub dustaq.

Kölgənin səsi

Oğul!..

(*İnləyir.*)

Qaranlıq çökmüş, nuru sönmüş
Gözümün işığı oğul!..
Belimin qüvvəti,
Evimin yaraşığı oğul!..

İxtiyar

Qarşıdakı uca dağın yıxılıbdır,
Qazan, sənin xəbərin yox,
Kölgəli uca ağacın kəsilibdir, yox olubdur,
Qazan, sənin xəbərin yox.

Burla xatun ağ örpəyə bürünmüş halda qaranlıqdan süzülüb çıxır, özü-özü ilə danışırmı, oxuyurmu, anlaşılmır.

B u r l a   x a t u n

Yerimdən durum deyirdim,
Gəzim, arayım deyirdim.
Oğluma bir alagözlü
Gəlin alım deyirdim.
Muradıma, diləyimə
Yetirmədi Tanrı məni.
Harayıma yetişməsən,
Qarğıyaram, Qazan, səni!..

K ö l g ə n i n   s ə s i

Siz gedəli uca taxtım
Göydə ikən yerə dəydi.
Oğuz eli, oğuz yurdu
Ağ çıxarıb, qara geydi...

İ x t i y a r

Sən gəlincə ağam Qazan,
Yaman yazdı tale yazan,
Səksəkəli düşündülər,
Daşındılar
Qorxdular ki,
Qonur atlı Qazan gələr
Ulus deyib – oğul dilər.
Dedilər ki, tələ qurun,
Əl-qolunu çəkib burun,
Səs-səmirsiz başın kəsin,
Qoy al-qanı yer üzünə
Yağış kimi səpələnsin.
Sonra onu qıyma-qıyma
Doğrayaraq ocağına qan çiləyin.
Sönüb getsin Oğuz nəsli,
Torpağına kül ələyin...

Kölgənin səsi

Oğul!..
Qarşıdakı uca dağın
Zirvəsi oğul!..
Qalın Oğuz ellərimin
Nər səsi oğul!..

Ulus ağır-ağır səsə doğru dikəlir.

Ulus

Bu sənmisən, bəyim ata?
Gəlmə dərdə sən yeni dərd qata-qata
Qayıt, ata, sür atını
Uçuq tağlı evinə get,
Oğul dağlı evinə get.

Kölgənin səsi

Geri dönsəm,
Deyimmi ki, qıl örkən də
Ağ boynuna taxılıdır?
Məgər bu gün yer üzünün axırıdır?
Burdan birgə qayıdarıq,
Bu yerlərdə biz olmuşuq, biz də varıq.
Ağ əlləri arxasında,
Burul-burul bağlı oğul.
Özünü mərd saxla, oğul.
Eşit məni, ey Ulusum,
Çəkinmərəm gəlsin bəla.
Getsəm, mənim bəs namusum
Hara getsin, de, ay bala?

İxtiyar

Dön geri bax!
İllər, əsrlər boyu
Bu elin sərvəti namus olubdur.
Tarix yaddaşını xəncərlə oyum,
Gör nələr dağılıb, nələr qalıbdır?!

U l u s

Ağam Qazan, atam Qazan,
Bu kafir o kafir deyil,
Bu mənfurun öz adı var –
Əhrimәndir.
Oda, nura o, düşməndir.
Atdığı üç oxdan biri
boşa çıxmaz.
“Uf” demədən başlar kəsən
cəlladı var.
Tökdüyü qan yerə hopmaz... suda axmaz.

İ x t i y a r
(*istehza ilə*)

Doğru deyir, Əhrimәndir,
Beləsini görməmisən hələ sən də,
Adam kəsib, ətindən də
Yağlı qovurma bişirən
aşpazı var...
Qıyma-qıyma can doğrayar...

U l u s

Qayıt, ata, qayıt geri...

K ö l g ə n i n s ə s i

Gözünüzə qorxu çöküb,
Qəlbinizi qorxu söküb.
Kor bayquşlar niyə qonsun
Yurdumuzun çəpərinə?
Qorxu bilməz oğul gərək
Dönə vətən sipərinə.

U l u s

Qayıt, ata, qayıt geri...

Kölgənin səsi

Oğul, kiri!
Qorxu can üşüdəndir.
Nə namərdi, nə mərdi,
Düşmən elə düşməndir.

İxtiyar xırıltılı səslə gülür.

İxtiyar

Ömrə qorxaqlıqla təməl qoyulmaz,
Çıraq öz dibinə işıq da salmaz,
Qorxaqlar qayalar üstdə qum kimi
Yel vurar. Qumların izi də qalmaz.
Bu dünyanın yolu uzun.
Nə əvvəli, nə sonu var.
Qızıl dəvə karvanları.
İlxı-ilxı Qazlıq atlar
Gəldi-keçdi qatar-qatar.
Köşəkləri, qulunları,
Ayrı düşdü, mələr qaldı,
Qara yoldan keçənləri
Dünya özü yola saldı...
Keçər illər,
Bu nəsillər karvan çəkən nərə dönər,
Diz bükülməz, ərə dönər...

Üçüncü kafir bağıraraq bütün gücü ilə dəhrəni Ulusun başına çırpır.
Ulus, Kölgə, Burla xatun eyni anda fəryad çəkirlər.

Ulus

Ata!..

Kölgənin səsi

Oğul!..

Burla xatun diksinib yuxudan oyanır. Qızlar da səsə ayılıb ona baxırlar.

Q ı s ı r c a  y e n g ə

Ani bir sevinci varmı gündüzün
Ki, öz gəlişiylə yadımda qalsın?

B u r l a  x a t u n

Yuxumda bir qapı bağlandı bu gün.
Bununçün deyirlər: qapın çırpılsın.

Q ı s ı r c a  y e n g ə

Yaxşı ki, oyandın,
Axı sən həmişə bizə həyandın!

B u r l a  x a t u n

İllərmi yaşadım mən bir andaca?

Q ı s ı r c a  y e n g ə

Hanı bir qapı ki, Tanrımız onu,
Yuxuda bağlaya, həyatda aça.

B u r l a  x a t u n

Saçımda ölümün gəzir buz əli,
Uzanır gecədən gündüzə kimi.
Təsəlli istərəm, yalnız təsəlli –
Onu qəbul edim möcüzə kimi.

Ç i ç ə k

Tale, hara qaçaq sənin əlindən?

A y n i ş a n

Tale, hara köçək sənin əlindən?..

Səhəriyyə

Yağdı yolumuza möhnət yağışı.

Qısırca yengə

Dərdi, fəlakəti ovuda bilməz
Nə belə sızıltı, nə də göz yaşı.
Ümidlə səhəri gözləyək, gərək.

Burla xatun

Demirəm sərt sözü məndən gizləyin,
Ümid də göyərsin göy orman kimi.
Həqiqət yerinə bir yalan deyin,
Onu qəbul edim ərməğan kimi.

Qısırca yengə

Yalandan ərməğan olarmı, xanım.
Həqiqət nə qədər acı olsa da,
Cəfa da ondadır, səfa da onda.

Burla xatun

Dərdlər dəryasında dərdimlə üzdüm,
Mən bəxti seçmədim, bəxt məni seçdi.
Dünyadan küsmədim, taledən küsdüm,
Ağrılı, əzablı vaxt məni seçdi!..

O, qaranlığa doğru gedir, qızlar onun ardınca baxırlar.

Çiçək

Əzabdan çəkilib ərşə yuxusu

Səhəriyyə

Elin namusudur onun namusu.

Burla xatun qaranlıqda nə görürsə təlaşla geri çəkilir.
İxtiyar alatoranlıqdan dayanıb onlara baxır.

Burla xatun

Tale, hara qaçaq sənin əlindən?..

İxtiyar

Hey.... gidi dünya...
Kimləri yedi dünya,
Nə bircə aram oldu,
Nə doydum dedi dünya.
Vaxt vardı bu yerdə
Titrərdi düşmən
Qarabağ atının kişnərtisindən.

Qəfildən qaranlıqdan Şiranə görünür, az qala Burla xatunla toqquşsun. Burla diksinir.

Burla xatun

Sən kimsən?

Şiranə

Mən?.. Şiranə...

Burla xatun

Tanıdım... Ağanız göndərib yenə?

Şiranə

Yox... inanın. Özüm gəldim...
Bir xəbər var... lazım bildim
tez çatdıram, ona... sənə...

Burla xatun

Kimə, ona?

Ş i r a n ə

Ona da... Burla Xatuna.

A y n i ş a n

Sən?..
Çox nahaq gəlmisən.
Burla yoxdur burda.

Y e n g ə

Hiyləgər boğular,
Qurduğu torda.

Ç i ç ə k

Bizim hər birimiz
indi Burlayıq.

S ə h ə r i y y ə

Rədd ol gözümüzdən.
Bu da sənə cavab
Burlaya layiq.

Ş i r a n ə

Mənə inanmırsız?..
Haqlısız buna.
Alçalar sığınan alçaq qoynuna.
Mənim də sinəmdə ürək döyünür.
Hər günüm qaranlıq gecəyə dönür.
Çatdırım mən sizə gərək bir xəbər
Sonra "uf" demərəm, ölsəm də, əgər.

B u r l a x a t u n

Qızım, ölüm niyə?
Sözünü söylə,
Ölüm yaraşmayır sən tək gözələ.

Ş i r a n ə

Sağ olun! Yaraşdı, ya yaraşmadı,
Mənə haram oldu qadınlıq adı.
Burlaya söyləyin ölməyib Qazan
Deyirlər bu xəbər yalandır, yalan.

B u r l a   x a t u n

Şad xəbər olasan, ay əziz balam!

Onu qucaqlayıb öpür.

Ş i r a n ə

Burlaya deyin ki, oğlu da sağdır.
Hələlik! Sabahsa asılacaqdır!
Burlanı baş kəniz edəcək kafir
Ki, olsun Qazançün ən böyük təhqir.
Amma ki, başqadır sözümün canı,
Güdaza verməyin o cür cavanı.
Axı doğulmayıb o ölmək üçün,

(*Ağlayır.*)

O gəlib dünyaya sevilmək üçün.
Özümü yurduma qurban eylədim,
Ömrümü bir zülmət duman eylədim.
İndi işıq gördüm
Ulus adında
Parladı fələyin kainatında.

B u r l a   x a t u n

Sakit ol!

Ş i r a n ə

Siz düşün Burlanın ayaqlarına,
Söyləyin ona,
Qoy üzə çıxsın,

Oğlu da, yurdu da gündüzə çıxsın.
Burlanı oğluyla mən qaçırdaram
nə qədər varam,
Sizlərə kənizəm... candan keçmişəm.
Mən artıq hər şeyi ölçüb-biçmişəm...

Şöklü Məlik və üçüncü kafir gəlirlər. Üçüncü kafir xoruldayan kafirlərə yanaşır.

Şöklü Məlik

Bu qara bəxtini bil, özün seçdin,
Ölüm şərbətini çox erkən içdin.

Şiranə

Nədir mənim ömrüm?
Sonsuz zülümdür.
Alçaqla yaşamaq özü ölümdür.

Şöklü Məlik dəhrə ilə Şiranəni vurur, göy guruldayır, qızların fəryadı eşidilir.

Şöklü Məlik

Aparın, qoy qanı axmasın yerə,
Aparın, yem olsun qart köpəklərə!

Üçüncü kafir

Tez qalxın, sizə nə tapşırıb ağam?
Beləmi qorunar dərələr, dağlar?
Keşik çəkənlər də yatar, xoruldar?
Sizinlə mən sonra danışacağam!..

Ani olaraq hər tərəfə qaranlıq çökür. Musiqi Şiranənin nəğməsinə çevrilir.

İxtiyar

Təbiət qoynunda verib baş-başa
Gecə də uyuyur, səhər də dünya.

Qızıl piyalədən, zər piyalədən,
Şərbət də içilir, zəhər də, dünya!..
Çəmən soluxmayır solsa bir çiçək,
Şəhid olanlara öldü deməyək.
Oğul, yorulmuşam, əldən düşmüşəm...
Bilmirəm başıma nə çarə qılım.
Nə səndən soraq var, nə də anandan,
Ağrı da qoymur ki, qoymur bircə an,
Yatım, gözlərimin acısın alım.

İkinci kafir

Gördünmü sən, necə həngamə qurdu,
Özünü göstərib, gözə soxurdu.
Necə danışırdı o, düşük-düşük,
Sanki atasını biz öldürmüşük.

Birinci kafir

Öldürən öldürüb, dağ çəkib buna,
Hikkəsi az qalır ərşə dayana.

İkinci kafir

Bəli, yaman olur it quduranda,
Başa bəla açır bu kin-küdurət.

Birinci kafir

Atası bir türkə nökər olanda
Guya ki, çörəyə edib xəyanət.
Onunçün üzülüb başı bədəndən,
Belə qəzəblidir bu da o gündən.

İkinci kafir

Vay, yazıq! Bunları bilməmişəm mən...

Şiranəni səsi getdikcə əriyib itir. Hər tərəfə dərin bir səssizlik çökür.
Məlik yaxınlaşıb bir-bir onları süzür. Qızlardan birinin
qarşısında dayanır.

Ş ö k l ü  M ə l i k
(*istehza ilə*)

Vay... Vay...
Sizi insafsızlar necə sarıyıb?..
Ayıbdır, doğrudan ayıb...
Yəqin qolunuzu kəndir incidir?..

Q ı s ı r c a  y e n g ə

Can, can...
Ürəyiniz necə incədir?..

Məlik ağrıdan bir dizi üstə çökmüş Səhəriyyənin saçından tutub qaldırır.

Ş ö k l ü  M ə l i k

Əlbəttə, incədən incə.
Bax bunu məncə
İlk öncə
Ala gözlərindən
Öpüb, oxşayasan,
Sevəsən gərək.
Əvvəl yavaş-yavaş
Soyundurasan,
Al-qızıl şərabda
Yuyundurasan,
Sonra da başını
Kəsəsən gərək.

İ x t i y a r

Günahkar bu işdə yazı yazandır.
Döyüşdə uduzdun, çək, bu cəzandır.

Səhəriyyə canını dişinə tutub dözür və qəfildən çılğıncasına qəhqəhə çəkib gülür. Məlik bir anlığa özünü itirir.

S ə h ə r i y y ə

Burnundan uzağı görməyən Məlik,
Bilin ki, son sözü biz deyəcəyik!..

A y n i ş a n

Gələcək torpağın mütləq sahibi,
O zaman görərik əsil qalibi.

Məlik bir anlığa susur, sonra bərkdən gülür.

Ş ö k l ü  M ə l i k

Millət görməmişəm bu millət kimi,
Udur yalanı da həqiqət kimi.

Q ı s ı r c a  y e n g ə

Sən mənə qulaq as, bir azca dayan,
Milləti anlamaz millət olmayan.

Ş ö k l ü  M ə l i k

Qart toyuq tək qaqqıldama hində sən,
Millətsən?..
Bəs niyə belə gündəsən?..

B u r l a  x a t u n

Döyüşdə kim udar, kim də uduzar.
Fəqət udmağın da ləyaqəti var.

Ş ö k l ü  M ə l i k

Güc kimdə – şərəf də, şöhrət də onda.

Ç i ç ə k

Ədalət kimdədir, hörmət də onda.

Ş ö k l ü  M ə l i k

Cəfəngiyatdır!
Qazan ədalətlə de, nəyə çatdı?
Dünya gah həlimdir, gah da ki sərtdir,
Ədalət özü də bir siyasətdir.
Bəzən qüvvə lazım, bəzən də kələk
Qalxıb ucalmaqçün əyilmək gərək!..
Bunu yaxşı bilir, yəqin Qazan da!

Q ı s ı r c a  y e n g ə

Dinclik axtarırdı Qazan cahanda.

Ş ö k l ü  M ə l i k

Onda bəs yığdığı min-min qoşunlar?

S ə h ə r i y y ə

Düşmən çəpəridir həmin qoşunlar.

Ş ö k l ü  M ə l i k

Gördük... Ha... Ha...
Sizi çəpəriniz yaman qorudu.

İ x t i y a r

Xəyanət önündə gücsüzdür ordu.
Əsrlər keçsə də, illər ötsə də,
Dünyadan nəsillər gəlib getsə də,
Necə vardılarsa, elə qalıblar,
Dünyanı aldadıb qana salıblar.

Ş ö k l ü  M ə l i k

Qazanın belini qırandan bəri
Sizə ən qiymətli hədiyyələr var –
Sizindir bu elin nazlı, füsunkar
İncəbel, qamətli, şux gözəlləri.

Dəliqanlıların vəhşi bağırtısı yüksəlir. Qızlar qorxaraq bir-birinə sıxılırlar. Bir tərəfdən pələng nəriltisi eşidilir.

İki yolunuz var:
İntihab edin.
Ya sərxoş, dəlisov
əsgər ağuşu,
Ya da pələngimə
qurbanlıq əti.
Seçin: ya şərab, ya da göz yaşı.
Açın qapını.

Pələngin qorxunc bağırtısı qulaq batırır. Birinci, ikinci və üçüncü kafirlər qızlara yaxınlaşırlar, hardansa kafirlərin, "yox, bura, bura" deyə dəlisov qışqırıqları eşidilir, onlar gah yaxınlaşan, gah da pələngin səsi gələn tərəfə boylanırlar. Burla xatun göz yaşları içərisində tərpənməz dayanıb. Qaranlıqdan İxtiyar görünür, onun baxışları uzaq məchul bir nöqtəyə dikilib. Birinci kafir Səhəriyyənin qolundan tutub özünə doğru çəkir. Səhəriyyə çırpınır, kafirin iyrənc ehtiraslı mırıltısı onu daha da qorxudur.

Səhəriyyə

Ey dədəm Qorqud!
Qoyma ürəyimdə işıq, nur sönə,
Gəl ki, ölməyə də qüvvət ver mənə,
Ey dədəm Qorqud!

Qısırca yengə

Binamus, əl saxla!

Birinci kafir

Yox, gərək kef versin bu gözəl mənə,
İçərəm qanını şərbət yerinə.

Səhəriyyə onun əlindən qopub qaçır, o biri kafirlər də birlikdə onu qovurlar. İşıqlar azalır, yalnız nazik işıq şüası altında Səhəriyyə, Burla xatun və İxtiyar görünürlər. Pələngin nəriltisi daha da yaxınlaşır.

İxtiyar

Ürəkdə işıq, nur, göydə işıq, nur,
Bir budaq sınsa da, ağac qurumur,
Əyər işıq sönsə ürəyimizdə,
Quruyar ağac da, sönərik biz də...

Üçüncü kafir
(*gəlir*)

Hökmdar.

Şöklü Məlik
(*əsəbi*)

Nə var?!

Üçüncü kafir
(*gərgin*)

Çoban qan eylədi, tufan eylədi.
Doğma qardaşı da qurban eylədi.
Atdıqca sapandı dağın başından,
Bir iz də qalmadı bizim qoşundan.

Qızların üzündə sevinc gəzir.

Şöklü Məlik

Mənim nə qəhrəman qoşunum varmış,
Bir yoluq çoban da sizi qovarmış!

Burla xatun
(*həyəcanla*)

Göylərdə qartal tək çırpınan

Xor

Bizik!

Burla xatun

Tanrıya, taleyə tapınan

Xor

Bizik!

Burla xatun

Əzəldən düşmənik biz qaranlığa,
Əgər düşünsəniz bircə anlığa,
İnsan doğulmayır alçalmaq üçün,
Əyilmək nə lazım ucalmaq üçün?!
Ucalar yurdunu ucaltsa hər kəs...

Şöklü Məlik
(*hiddətlə*)

Kəs!..
Bəsdir! Daha bəs!..
Diliniz açılıb, indi dinərsiz,
Bu tərs inaddan da, yəqin dönərsiz.
Edam quracağam, bu anda edam!
Yetər!
Sizinçün ölüm var, ölümdən betər.
Sizə qan şərabı içirəcəyəm,
Hamını qılıncdan keçirəcəyəm!
Gətirin onu!

Halsız Ulusu gətirib yerə atırlar.

Çiçək

Sən sağsan, Ulus,
Ay igidim Ulus, aslanım Ulus!

Burla xatun

Qara qıyma gözlərini yuxu almışdır daha.
O uzanmış qol-qıçını, oğul, yığışdır daha.
Üz-gözündə can qalıbsa, oğul, xəbər ver mənə.
Qoy açılsın torpaq üstə dürlü-dürlü sirr mənə,
Qara başım qurban olsun, oğul, sənə!

Ulus tərpənir. Burla Xatun onun sağ olduğuna əmin olub, sevincini güclə gizlədərək kənara çəkilir. Çiçək halsız Ulusun başını ağuşuna alır.

Xor

Ulus... sağmış...

Burla xatun

Ulus... sağmış...

Qısırca yengə

Ulus sağdır, Burla Xatun.
Gözün aydın! Gözün aydın!
Gözün aydın,
Burla Xatun!

Ulus

Göy üzündə zeh qalıbdır,
Ora yəqin sən baxmısan.
Çiçək üstə şeh qalıbdır,
Söylə, yoxsa ağlamısan?
Şəhla gözlüm, ala gözlüm!

Çiçək

Ürəyinlə məni dinlə,
Sən bir səda – mən səs oldum...
Parla, yanım atəşinlə,
Yanıb, yanıb, sönməz olum...
Bu sənmisən?.. Bu sənsən?
Ulus sənmisən?

(*Üzündən qanı silir.*)

Ulus

Sevgim, canım mənim, ürəyim mənim,
Məni tanımadın, Çiçəyim mənim?

Ç i ç ə k

O kəs ki qəlbində yaşayır hər an,
Olarmı sən onu tanımayasan?

U l u s

Şəhla gözlüm, ala gözlüm.

Məlik gəlir. Ulusun saçından tutub başını qaldırır.

Ş ö k l ü  M ə l i k

Sən hələ çox gəncsən, mənə qulaq as!
Qadında sədaqət, dəyanət olmaz.

Ü ç ü n c ü  k a f i r

Bir tava qovurma verdim onlara
Dedim bişirilib sənin ətindən.

U l u s

Onlar da yedilər?

Ş ö k l ü  M ə l i k

Əvvəl anan yedi o qovurmadan,
Sonra da sevgilin...

U l u s
(*sevinclə qızlara baxır*)

Doğrudan?

Ü ç ü n c ü  k a f i r

İnanmayırsan?

Ulus

Anam yeməsəydi, anam deməzdim.
Yarım yeməsəydi, canım deməzdim.

Şöklü Məlik

Sən mənə qulaq as, ey cavan oğlan.
Çıxdın ləyaqətlə sınaqlarımdan.
Bildim ki, məğrursan, dəyanətlisən.
Sənə həqiqəti deməliyəm mən...
Bilirəm, ağırdır ata ölümü,
Neyləyək, belədir taleyin hökmü.

Ulus

Yalandır, yox, sənə inanmıram mən,
Ata... Ölümünə inanmıram mən.

Üçüncü kafir

Ağırdır ata ölümü...
Belədir taleyin hökmü...

Şöklü Məlik

Bəlkə bir sözün var ölümqabağı?

Ulus
(*qəzəblə*)

Hazıram edama, qaniçən yağı.

Üçüncü kafir
(*qəzəblə*)

Qalx!.. Qalx!.. Öz əlinlə göstər ananı.
Qurtar öz canını, onun canını.

U l u s

Satmısan ananı yəqin bir vaxt sən.

Ü ç ü n c ü   k a f i r

Sus!

U l u s

Onunçün mənə də təklif edirsən.

Ü ç ü n c ü   k a f i r

Sus!
Canın çıxacaqdır,
                    əlimdə sənin,
Lənət mənim olsun,
                    ölüm də sənin.

S ə h ə r i y y ə

Görən rəzalətin sərhədi varmı?

A y n i ş a n

İnsan da bu qədər rəzil olarmı?

Ü ç ü n c ü   k a f i r

Budur son sözünüz bu son nəfəsdə?

Ş ö k l ü   M ə l i k
(*qəzəblə*)

Nə qədər çinar var bu torpaq üstdə,
Mən dar ağacına çevirəcəyəm.

U l u s

Bizə biri bəsdir asmağa səni!

Ş ö k l ü  M ə l i k

Dara çəkəcəyəm bütün ölkəni.
Çalın, qoy gurlasın yenə qavaldaş,
Tarixdən bu millət silinsin gərək!
Hər vaxt toy-bayramda dinən qavaldaş
Ölüm təbilinə çevrilsin gərək!

Qavaldaş səslənir.

B u r l a  x a t u n
(*Dədə Qorqudu çağırır*)

Dədəm hey:
Ağac sındı, budaq oldu,
Budaq sındı, yarpaq oldu,
Yarpaq düşdü, torpaq oldu
Dədəm hey!
Sellər daşan çaya döndü,
Qəm susmayan haya döndü.
Dədəm hey!

(*Çinara üz tutur.*)

Kölgəsində göz açdığım,
A doğma çinar ağacı,
Kimlər etdi söylə səni
dar ağacı?

Ç i ç ə k

Sən ey ulu ömürlərin
mənası ağac,
Ağac, ağac, bu ellərin
anası ağac!

A y n i ş a n

Daşqın-daşqın ağ suların körpüsü ağac,
Belə ağac bitirməyib yer üzü, ağac?

Səhəriyyə

Büllur ağac, ağacların təmizi ağac,

Qısırca yengə

Qara-qara ümmanların gəmisi ağac.

Burla xatun

Kimlər etdi, söylə, səni dar ağacı?

Xor

A doğma çinar ağacı!

İxtiyar

Oğul, oğul...
Bu necə haraydı, bu necə səsdi?..
Gözlərim qaraldı, ürəyim əsdi...
Bir qulaq as... Elə bil ki, qurd ulayır...
Gör bir necə nalə çəkir,
Elə bil ki, göy çatlayır, aləm çökür.
De, haray çəkənə hay verən hanı?
Axı haray tutub düzü-dünyanı.
Bu necə obadı, necə mahaldı?
Hamısı kar olub, hamısı laldı?
Beləcə hayqırıb, göynər oğul, daş.
Ağrıdan qovrular, ağlar qavaldaş!..

Burla xatun

Parçalan ey ürək,
Dağıl ey aləm.
Mən daha, mən daha dözə
bilmirəm!

Qəfildən göy gurultusu eşidilir, çaxan şimşəyin şüası Burla xatunun başı üzərində donub qalır, getdikcə artır və onu gur işıq selinə bürüyür. Qazan xanın səsi bu işıq selindən qopub eşidilir.

Qazanın səsi

Niyə göynəyirsən, xan qızı, böylə?
Nədir qəlbindəki bu ağrı, nalə...

Burla xatun

Dərdimiz gör necə tüğyana gəlib.

Qazanın səsi

Yox,
Qorxu qəlbinizə hakim kəsilib.
Çıxarın bu xofu ürəyinizdən.

Burla xatun

Bunu demək asan, etmək çətindir.
Oğuldanmı keçim, qeyrətdənmi mən,
Oğul da, qeyrət də axı sənindir.

Qazanın səsi

Qisas qiyamətə bilin ki, qalmaz,
Susmaqla namusu qorumaq olmaz.
Bununçün ölüm də, qan da gərəkdir.

Burla xatun

Bu sınaq önündə sınan ürəkdir.
Axır nəfəsimdir, de, nə edim, nə?

Qazanın səsi

Qanlı bir intiqam görünür mənə.
Yoldayam, gəlirəm qisas naminə!

Burla xatun özünü tanıdır.

İ x t i y a r
(*çırpınır*)

Ulu göylər,
Ulu göylər,
Bu ola bilməz!
Elin namusunu unutsa
hər kəs,
Ona ləkə salsa hər kəs,
Ona kölgə salsa hər kəs
Ruhum yanar, odum sönər,
Külə dönər, külə dönər...

B u r l a  x a t u n

Oğul, bağışla ki, daha dözmürəm.
Oğul, ayağına səcdəyə vardım.
Dünyanı çulğayan bir ahu-zaram.

U l u s

Ətimi yesəydin bağışlayardım.
Özünü tanıtdın, bağışlamıram.

Ş ö k l ü  M ə l i k

Axır dilə gəldin, dilləndin, dindin.
İlk andan bilirdim, sən, elə səndin.
Gəlib ayağıma beləcə endin.
Bu idi istəyim, bu idi andım.
Bu qara gözləri, al dodaqları
Özümə ərməğan edirəm indi.
Bu elin qamətli, uca çinarı
Qurbanlıq deyirəm sənə Ulusu.

Məlik Burla xatuna yaxınlaşır, başından örpəyi çəkir.

İxtiyar

Ensin gözlərimə, ensin qara su.

Ulus

Ula, qurdum, ula, vaxtdır.
Bu xəyanət, bu rəzalət
Qazan xana çatacaqdır.
Yandı içim, ulu Tanrım,
Qəfil dərdə dözmək üçün
Mənə bu gün
Sən göylərin gücünü ver.
Dilim gəlmir ana deyəm,
Bu günahın, xəyanətin
Əcrini ver.

Şöklü Məlik
(*Burla xatunun hörüklərini oxşayıb aparırkən*)

Gedək səni öpüm, əzizləyim mən,
Sənə hərəmlərin tacı deyim mən.

Yengə

Yanıb külə döndüm, cızdağım çıxdı,
Niyə qara gəldi yurdumun baxtı?
Qazanın çörəyi haramın olsun,
Ay belin qırılsın, gözün oyulsun!..

Çiçək

Elin qeyrətini tapdadın, atdın
Binamus, biqeyrət ayaqlar altda,
İnsan öz evini belə yıxarmı?
Müqəddəs olan da dönük çıxarmı?!

A y n i ş a n

Alçalıb, ucaltsan qəvi düşməni,
Odum tutsun səni, yandırsın səni!..
Şərəf verməkdənsə şərəfsizlərə,
Pələngə yem olmaq xoşdur bizlərə!

Qızlar Burla xatundan üz döndərib pələng nəriltisi tərəfə gedirlər.

U l u s

Tanrım, tez ölüm ver.
Partlayır ürək.
Cəllad, yalvarıram
Kəndiri tez çək.

B u r l a x a t u n

Saxlayın onları.

Ş ö k l ü M ə l i k

Saxlayın.

Gözətçilər qızların qarşısını kəsməyə çalışırlar.

Ş ö k l ü M ə l i k

Gedək.

B u r l a x a t u n

Gedək...

(*Burla xatun qızları və oğlunu süzərək.*)

Dövlət istəyirdin, qoy sənin olsun,
Bu yerin qucağı məskənin olsun.
Torpaq istəyirdin, qoy bilsin aləm
Sənə özün boyda torpaq verirəm.

Ötsün qanlı aylar, əzablı illər.
Qoruyaq mərdliyi, dəyanəti biz,
Sizə miras qalır bu gün, ay ellər,
Vətənə torpağa sədaqətimiz

(*Qəfildən dəhrəni Şöklü Məliyin əlindən alır.*)

Ulu Tanrım!
Onu arzusuna yetirmək üçün
Göylərin gücünü mənə ver bu gün!
Oğul!

Burla xatun qeyri-insani səslə bağırır. Dəhrə göydə şimşək kimi parlayıb yox olur. Göy guruldayır, eyni anda İxtiyarın nərəsi ildırım kimi çaxır. Hər tərəf qaranlığa bürünür, yalnız zəif işıq şüası İxtiyarı bürüyür.

İxtiyar

Tanrım ulu, odum ulu.
Xalqım ulu, yurdum ulu.
Keşməkeşli ömür yolu,
Əzab dolu, hünər dolu.
O da haqdır, bu da haqdır.
Əzab bizə dözüm verdi
Övlad eşqi, torpaq dərdi
Tarix boyu var olmaqdır,
Yaşamaqdır...

O yerindən qalxır, dərinliyə doğru gedərkən uzaqlardan səslər ucalır və getdikcə guruldayaraq axan selə çevrilir.

Dədə Qorqud

Qarlı uca şiş dağların yıxılmasın

Xor

Ey Vətənim, Odlar yurdum!

Dədə Qorqud

Abad-abad obaların dağılmasın

X o r

Ey Vətənim, Odlar yurdum!

D ə d ə  Q o r q u d

Kölgəli göy ağacların kəsilməsin

X o r

Ey Vətənim, Odlar yurdum!

D ə d ə  Q o r q u d

Üstündən nur əskilməsin

X o r

Ey Vətənim, Odlar yurdum!

D ə d ə  Q o r q u d

Coşqun axan büllur suyun quruması

X o r

Ey Vətənim, Odlar yurdum!

D ə d ə  Q o r q u d

Kəs kökünü hər alçağın, yaramazın.

X o r

Ey Vətənim, Odlar yurdum!

D ə d ə  Q o r q u d

Çaparkən ağ, boz atların büdrəməsin.

Xor

Ey Vətənim, Odlar yurdum!

Dədə Qorqud

Vuruşanda zağlı polad qılıncların gödəlməsin.

Xor

Ey Vətənim, Odlar yurdum!

Dədə Qorqud

Anaların ayaqaltı cənnət olsun.

Xor

Ey Vətənim, Odlar yurdum!

Burla xatun

Ağsaqqallı atalara hörmət olsun.

Xor

Ey Vətənim, Odlar yurdum!

Burla xatun

Düşmənləri sən kül eylə, ulu Tanrı!
Duamızı qəbul eylə, ulu Tanrı!

Hamı

Amin! Amin!

**SON**

## MÜNDƏRİCAT

**Səməd Vurğun**

Vaqif . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .8

**Məcid Şamxalov**

Qayınana . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .132

**Mehdi Hüseyn**

Cavanşir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .175

**Sabit Rəhman**

Yalan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .226

**İlyas Əfəndiyev**

Hökmdar və qızı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .293

**Seyfəddin Dağlı**

Adı sənin, dadı mənim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .338

**Şıxəli Qurbanov**

Sənsiz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .389

**Nəbi Xəzri**

Burla xatun . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .425

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Ələkbər Kərimov* |
| Korrektorlar: | *Nadir Quliyev*<br>*Pərinaz Səmədova* |

Yığılmağa verilmişdir 10.05.2007. Çapa imzalanmışdır 05.07.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 32. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 61.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.